**Aqşin Əliyev**

# *BƏHRAMNAMƏ*

## *I Hissə*

# *(Babər qalası)*

***Bakı – 2021***

***Elmi redaktor:*** ***Leyla Qadir qızı Məcidova***
***Tarix üzrə Fəlsəfə doktoru***

***Məsləhətçilər:*** ***Həşim Adil oğıu Kəlbiyev***
***baş müəlim***

***Azad Zülaloğlu***
***“Qızıl qələm” mükafatı laureatı,***
***H.Zərdabi media mükafatı laureatı***

***Yalçın Heydərli***
***Filoloq***

***Elmi rəyçi:*** ***Arif Məmmədov***
***Tarix elmləri doktoru,professor***

***Aqşin Əliyev, Bəhramnamə - I Hissə(Babər qalası)***
***Bakı, 2019,164 səh.***

*Kitabda ərəblərin vəhşicəsinə İran,Əfqanıstan,Tacikistan, Azərbaycan və Taleşana yürüşü əks olunub.“Bəhramnamə” kitabında adından da göründüyü kimi o dövrdə Sasanilər imperiyasının ərazilərindən biri olan Taleşanın Babər qalasının hakimi Bəhram Fərruxzadın azadlıq mübarizəsi əks olunmuşdur.Kitabda tarixi faktlar öz əksini tapmışdır.*

# Ön söz

Bəhramnamə - adından da göründüyü kimi Bəhram adlı bir xalq qəhrəmanının şanlı bir döyüş yolunun mənbələrdən toplanmış namələr toplusudur. Onda sual olunur ki, kimdir bu Bəhram şah? kimlərə qarşı nə üçün vuruşmuş və niyə bu günə qədər onun haqqında Azərbaycan tarix kitablarında bircə kəlmə də olsun məlumat işıqlandırılmamışdır?

Məsələ burasındadır ki, Bəhram şah və onun azadlıq mübarizəsi haqqında orta əsr ərəb və fars müəllifləri olan Bəluzari, Təbəri və Balami özlərinin tanınmış “Kitab əl-fütuh”, “Tarix-e Təbəri” adlı dünya şöhrətli əsərlərində məlumat vermişlər. Bundan əlavə tarixçi Z.Bünyadov özünün Azərbaycan VII-IX əsrlər adlı kitabında ərəblərin Azərbaycana hücumu zamanı Bəhram şah və onun qardaşı İsfəndiyarın adını qısa da olsa çəkir. Bəhram şahın orta əsr ərəb mənbələrindən toplanmış hekayəsi belədir:

Bəhram şah Fərruxzad VII əsrdə İranda Sasani sülaləsinin hakimiyyətinin son dönəmlərində sarayda və ölkədə məşhur olan dahi “Fərruxzad “ nəslinin tanınmış nümayəndələrindən biridir. Belə ki Fərruxzad ailəsi İran sarayında özlərinə layiqli güc orqanlarında xüsusi vəzifələri ələ keçirmiş və zaman-zaman Sasani taxtına iddia belə etmişlər. Bəhram şah Fərruxzadın babası Fərruxzad Hörmüzd sasanilər dövründə Xorasanın salarpeti olmuş və Sasani şahı II Xosrov Pərvizin böyük qızı Azərdoxtla nigah qurmaq istəmiş,lakin II Xosrov tərəfindən edam etdirilmişdir. Fərruxzad Hörmüzdün üç oğlu olmuşdur ki, onlar - Rüstəm Fərruxzad, Şirzad(Hürzad) Fərruxzad və Bavəndi Fərruxzad.

Böyük oğul olan Rüstəm Fərruxzad atasının qisasını almaq üçün Ktesifonu ələ keçirmiş və uzun müddət İran paytaxtında mühüm bir hərbi gücə malik olmuşdur. O, Kadusiya

döyüşündə İran ordusunun ali baş komandanı olmuş və elə o döyüşdə də faciəvi şəkildə şəhid olmuşdur. Hörmüzdün digər oğlu Şirzad isə Rüsətəm şəhid olduqdan sonra Sasani ordusu Hüvlana çəkildikdə İran ordusuna komandanlıq etmiş və Nəhavənd döyüşündə o da şəhid olmuşdur. Hörmüzdün sonuncu oğlu olan Bavəndi Fərruxzad isə öz oğlanları ilə vətəni Təbəristana qayıtmış və orada öz dövlətinin əsasını qoymuşdur.Bavəndi Fərruxzad Bəhram Fərruxzadın atasıdır və Bəhram Fərruxzad Sasani imperiyasının Adərbayqan mərzbanlığına daxil olan Taleşan-Mukan kustunun hakimi olmuşdur. O, uzun müddət Taleşanın mərkəzi olan qala-şəhəri Babərdə iqam etmişdir.

VII əsrdə vəhşi ərəb qəbilələri Sasani imperiyasına hücum edib onu məğlub edirlər və bundan sonra onlar İranın vilayətlərini dağıtmağa başlayırlar. 639-642-ci illərdə ərəblər Adərpayeqana hücum edirlər və onlara Bəhramın böyük qardaşı və Adərbayqan hakimi İsfəndiyar Fərruxzad müqavimət göstərir. Lakin İsfəndiyar məğlub olaraq ərəblərin əlinə keçir. Bəhram isə Taleşan dağlarına çəkilib 4 il ərəblərə qarşı mübarizə aparır. Onun ərəblərə qarşı dirənişi Talış xalqının yadelli zülmünə qarşı bir azadlıq mübarizəsidir. 4 illik mübarizədən sonra o, Şirvana gedərkən pusquya düşürülüb qəhrəmancasına şəhid olur. Kitabın müəllifi Aqşin Əliyev Bəhram şahın bu azadlıq mübarizəsini orta əsr ərəb mənbələrindən toplayarq üzə çıxarmış və bir kitab halına salmışdır. Bu yolda ona uğurlar arzulayırıq.

***Leyla Qadir qızı Məcidova***
*Tarix üzrə fəlsəfə doktoru*

# Proloq

Müsəlmanların yüksəlişi İranda önəmli bir siyasi, sosial-iqtisadi və hərbi zəifliyi ilə müşahidə olunurdu. Minilliklər boyu böyük bir super hərbi güc olan İran dövləti onlarca il idi ki, Bizans imperiyasına qarşı müharibədən sonra maddi-insani qaynaqlarını və hərbi gücünü itirmişdi.

Eramızın 628-ci ilində II Xosrovun öldürülməsindən sonra daxili siyasi vəziyyət sürətlə pisə doğru getdi və sonrakı dörd il içində 10 nəfər İran taxtına iddia etməyə başladı.Ölkədə iki Ari sülaləsi olan Fars və Parfiya(Pəhləvi) partiyaları arasında çatışmalar baş verəndə,imperiya artıq bəzi bölgələrdə öz hakimiyyətini və nüfuzunu itirmişdi.

Ümumiyyətlə, müsəlman ərəblərin İran üzərinə basqını 632-ci ildən başlayır, lakin bütpərəst və xristian ərəblərin İran üzərinə basqınları isə 602-ci ilə təsadüf edir. Belə ki onlar İranın qərb əyalətləri olan İraqa, Babilə aramsız qarətçi basqınlar edirdilər və onların hücumlarının əsas məqsədləri islam pərdəsi altında qarətçilik,oğruluq, quldurluq və soyğunçuluq olmuşdur.

Sasanilərin 602-ci ildə Ləxmilər-ərəb padşahlığını ilhaq edib öz ərazisinə qatmasından sonra ləxmilər padşahlığının paytaxtı Hirə şəhərini Sasani imperiyasının adi bir əyalətinə çevirdi.Bu hadisədən sonra oradan qaçan və səhradakı digər bədəvi ərəblərlə birləşən digər ərəb qəbilələri 604-cü ildə "Rəbiyyə"(Bəkr ibn Vail) adlı tayfa ittifaqını yaratdılar. Belə ki onlar 605-ci ildə Zuqar döyüşündə onları geri püskürtmək üçün göndərilmiş şahənşah ordusunu məğlubiyyətə uğrada bildilər(1)

---

1.Bax: Döyüşün təfsilatı haqda Bax:A.İ.Kolesnikov.Zu-kar yaxınlığında döyüş. – "Fələstin yığması" ,Bur.1982,1969,c.76-86.

Sasanilərin eyni vaxtda Bizans imperiyası ilə apardığı müharibə nəinki ona ərəbləri məğlub etməyə,hətta onları qorxutmağa belə imkan vermədi. Belə ki İran imperiyasına qarşı birləşmiş “Rəbiyyə” tayfa ittifaqı Yəmamədən başlayaraq İran körfəzinə qədər olan bir əraziyə nəzarət edirdi.

Bakirilər tayfa ittifaqı öz arasında üç tayfaya bölünürdü: “Banu İcl,“Banu Sələbə”,”Banu Şeyban”. Şahzadə Borandoxtun(631-632-ci illər) İranda hakimiyyəti dövründə köçərilərin Musənna bin Həris və şeybanilərin başçısı Suvəyd ibn Qutəybənin başçılığı ilə iki dəstəsi Sasani imperiyasının içərilərinə soxularaq Hirə və Obolla məntəqələrinə qədər irəliləyə bildilər*(2) və* bu proses bütün 632-ci il boyu davam etdi. İslam peyğəmbərinin vəfatı ilə Əbu Bəkrin hakimiyyətə gəlməsindən sonra Musanna bin Həris islamı qəbul edən ilk Bakiri qəbiləsinin nümayəndəsi oldu və onun ardınca digər silahdaşları və tayfa üzvləri də islamı qəbul etməyə başladılar.Bakirilərin digər qrupu “riddə” zamanı isə Bəhreyndə Mədinədən narazı olan ərəb qəbilələrini birləşdirdi və onların başçısı Qeys ibn Sələbə tayfasına qohum olan Hutam ibn Dubay idi*(3)*

– “Xutam ibn Dubayi, Banu Qeys ibn Sələmənin qardaşı”.Bunun “qardaş” olması müəmmadır, çünki orada (“Kitab əl-Aqani” də olduğu kimi ) ərəbcə olan أخو sözünün yerinə فى olmalı idi. Üsyançılar sonuncu Hirə padşahının oğlu Munzir ibn Numan ibn Munziri başçı seçdilər, lakin müsəlmanlar onun ordusunu dağıdandan sonra Munzir islamı qəbul etdi. Beləliklə, bakirilər müsəlmanların İrana soxulmasına bir növ vasitə və bəhanə oldular və mənbələrin birində Musənna bin Həris xəlifə Əbu Bəkrə məktubların

2.Bax:Dinəvəri,c.116,stk.18-c.117,stk.44
Bəluzari,tekst,c.3404ingil.tərcüməsi,t.2,c.54)
3.Bax: Təbərinin mətnidndə (I,s.1961,stk.1) və İbn əl-Əsir (2,s.281

birində yazırdı:“farslar Bizansla müharibədə əldən düşüb yorulmuşlar və əgər siz mənə kömək göndərsəniz, mən onları məğlub edərəь(4)

Musənna hətta özü Mədinə şəhərinə xəlifənin qəbuluna gedir, onunla görüşərək kömək istəyir və bu hadisə Bəluzari,Təbəri və Bəəldə öz əksini tapmışdır.

Beləliklə Məhərrəm ayında(633-cü ilin Mart-Aprel) Yəmamədə olan Xalid ibn Valid xəlifədən İraq üzərinə yürüyüb orada Müsənnanın ordusu ilə birləşib İran qarnizonu ilə birgə müharibə əmrini aldı. Lakin müsəlman-ərəblərinin ordusuna onun yox, məhz Xalid ibn Validin komandan təyin olunması heç də Musənnanın ürəyincə olmadı və bununla bağlı söz-söhbətlər böyüməyə başladı(5)

Müsəlmanların İranın İraq vilayətinə hücumu onların Bizansın Suriya vilayətinə hücumu ilə eyni vaxta təsadüf etdi, lakin paytaxtda Qureyşi tayfasının İran müharibəsinə biganə qalması Xalid bin Validi müəyyən qərarlar verməyə məcbur etdi. Belə ki o, komandanlığı altındakı ordunun çox hissəsini öz evlərinə göndərdi, yalnız 500 nəfərdən ibarət könüllülərlə İran qarnizonu üzərinə yürüdü və yolda ona Təy-i Təmim tayfasının könüllüləri də qoşuldular.

Yəmamənin şimalında yerləşən Nibac məntəqəsində dayandı və daha sonra Bəsrəyə olan yolda o, bir dəfə də düşərgə qurduqdan sonra Musənnanın ordusu ilə birləşdi(6) Sonra isə Xalid üç kolondan ibarət olan 18 000 –lik ordu ilə mərzban Hörmüzdün nəzarətində olan Xəfir məntəqəsinə

4.Bax: A.Müller.Der İslam im Morgen-und Abendland.Bd 1,2.B.,1885,1887).

5.Bax: W.Muir. The Chaliphat ,its Rise, Decline and Fall. Ox.,1891, 1892,1899; Edinburg,1915,1924).

6.Bax: J.Wellhausen.Mohammed and the First Four Caliphs.-“The Ebcyclopaedia Britanica”IX ed.Vol.16.Edinburg,1883,c.545 – 606;J.Wellhausen.Skizzen und Vorarbeiten.H.6(Prolegomen zur altesten Geschichte des İslamic).B.,1899).

doğru hərəkət etməyə başladı. Bu zaman Hörmüzd Obollun mərzbanı idi və o, Xəfirdən Dəclə və Fərat çaylarına qədər olan əraziyə nəzarət edirdi. Tarixçi İbn əl-Əsir yazır ki, Hörmüzd quruda ərəblərlə, dənizdə isə hindlilərlə döyüşürdü(7). Lakin qurudan böyük bir təhlükənin yaxınlaşdığını eşidən Hörmüzd bu haqda paytaxta məruzə verdi və o, ilk öncə Xəfirə doğru hərəkət etdi. Lakin Xalid buradan əl-Kəvazim(indiki Kuveyt) ərazisinə çəkildi.

Beləliklə, iranlılar ərəbləri geri oturda bildilə və Hörmüzd öz avanqard dəstələrinə Gavad(Qubad) və Ərdəşir Babəkanın nəslindən olan Anuşacanı komandan təyin etmişdi. Mənbələrə görə İran ordusu(8) zəncirlərlə biri-birinə bağlanmışdüı. Hörmüzd Xalidlə təkbətək döyüşdə öldürüləndən sonra ərəblər hücuma keçib qələbə çaldılar. Gavad və Anuşacan isə qaçmaqla canlarını qurtara bildilər. Qalib gələn ərəblər həlak olmuş Hörmüzdün qızıl tacını və 100 000 dirhəm qızıl pul əldə etdilər və bu qədər qızılı ərəblər İbrahimdən bu gün qədər görməmişdilər.

Təbəri yazır ki, “Bu cür tac yalnız tanınmış adlı-sanlı fars əsilzadə ailələrinə məxsus olmuşdur(9). Döyüş zamanı ələ eçirilmiş qənimətin beşinci hissəsi Mədinəyə göndərildi, tacı isə Xəlifə Xalidə bağışladı. Qazimə ətrafında döyüş müsəlmanların İrana yolunu açdı və Mədaini hesab edirdi ki,

Xalid ilk öncə Kufə istiqamətində hərəkət edib, sonra isə Bəsrə istiqamətinə dönmüşdür. Lakin məlumdur ki, Bəsrə və Kufə şəhərləri bu hadisələrdən çox-çox sonralar bina

7.Bax: Th.Nöldeke.Zur tendenziösen Gestaltung der Urgeschichate des İslamic.- “Zeitschrift der Deutschen Morgenlandischen Gesallschaft”.Lpz., Wiesbaden(далее – ZDMG).Bd 52,1898,c.16-36..

8.Bax: L.Caetani.Annali dell`İslam.Vol.1-10.Milano,1905-1926.

9.Bax:Н.А.Медников.Палестина от завоевания ее арабами до крестовых походов по арабским источникам.СПБ.,II,1987;I,1902; A.Butler.The Arab Conquest of Egypt and the Last Thirty Years of the Roman Dominion.Ox.,1902).

olunubdur(10)

b)Hirədən Ktesifona qədər;

c)Ktesifondan sonra

Müsəlman-ərəblər ilk olaraq 633-cü ildə Xalid bin Validin komandanlığı altında sasanilər imperiyasının siyasi və iqtisadi mərkəzi olan Mesopatomiyanı işğal etdilər. Xalid bin Validin Levantdakı Bizans cəbhəsinə keçməsindən sonra müsəlmanlar sonunda sasanilərin onlara qarşı hücumlarını dəf edib geri püskürtdülər. Ərəblərin İran üzərinə hücum sxemi müasir ərəb tarixçisi Numan Abd əl-Mutəəl əl-Kadi görə üç formada təfsir edir:

a)Hirəyə qədər;

b)Hirədən Ktesifona qədər;

c)Ktesifondan sonra(11)

636-cı ildə Səəd bin Əbu Vəqqas tərəfindən ikinci bir istila başladı və Kadusiya döyüşündəki önəmli bir qələbə,İranın qərbindəki Sasani nəzarətinin sona çatmasına yol açdı. Bu döyüşlərin nəticəsi olaraq Zaqros dağları Rəşidi xəlifəliyi ilə Sasanilər imperiyası arasında təbii bir sərhədə çevrildi. Xəlifə Ömər farslar tərəfindən bölgədə fasiləsiz hücumlar edilməsi səbəbi ilə 642-ci ildə Sasani imperiyasının bütünlüklə istila edilməsini əmr etdi və 651-ci ildə sasanilər imperiyası tamamən fəth edildi. İranın döyüş meydanlarından bir neçə kilometr uzaqdakı Mə dinədən xəlifə Ömərin yaxşı planlaşdırılmş çoxyönlü hücum ları İranı tez bir şəkildə ələ keçirməsi. Böyük bir hərbi və siyasi-strateji olaraq nüfuzuna zədə vuran ən böyük qələbəsinə çevrildi. Sasanilərlə ərəblərin

10.Bax:J.P.Brown.El-Tabari`s Conquest of Persia by the Arabs,transl.from the Turkish,-“Journal of the American Oriental Society“.New–York. New Haven(дале–JAOS).1851,vol.1,c.435-505;vol.2,,c.207.

11.Bax: Б.Н.Заходер.История восточного средневековья(Халифата и Блиний Восток).М.,1944.

müharibəsinin səbəblərini mənbələr sasanilərin imperiyasının içinə düşdüyü böhrandan qurtaracağı ümidilə gənc III Yəzdigerdi taxta çıxardıqdan sonra ilkin olaraq müsəlmanların fəth etdiyi torpaqları geri qaytarmağı planlamalarını və müsəlmanların da Səvad ərazilərindəki yerli xalqın bağlanan sülh müqavilələrinə riayət etməməyə başlaması idi. Burada hətta ətta növbə ilə qəbilələrin üsyana qalxmasını əldə əsas tutaraq özlərinin İraqın daxilində rahat bir şəkildə irəliləyə bilmələrinə maneə törədən sasanilərin müqavimətini qırmağı hədəflədiklərini sübut edir.

İraqdakı Müsənna bin Haris kimi bəzi ordu başçılarının sasanilərin onlara qarşı hərəkətini xəbər verməsindən sonra Ömər əmisini sezdirmədən böyük bir ordu hazırlamaq üçün fəaliyyətə keçirmişdi. O ordunun orqanizasiyasına o günə qədər vermədiyi dərəcədə önəm vermişdir. Əsasən İslam orduları 634-cü ildə baş vermiş körpü döyüşündə Sasani qüvvələri qarşısında uğradıqları ağır məğlubiyyətdən bir il sonra Fərat hövzəsində ciddi üstünlük əldə etmişdilər.

Elə həmən ilin sonlarında Ömər İraq sərhədinə yaxın yerdəki qüvvələrin Müsənna bin Harisə, Mədinəyə yaxın yerdə yerləşən qüvvələrin buradakı qüvvələrə qatılmasını əmr verdi. Onun niyyəti ordunun komandanlığını öz üzərinə götürmək idi. Hətta bunun üçün Mədinə ətrafında Sirar mövqeyində yerləşən qüvvələrin ordugahına qədər getmişdi. Ancaq Osman, Əli ibn Əbutalıb(ə) Təlhə bin Übeydullah, Zübeyr bin Əvvam və Əbdürrəhman bin Əvf kimi irəli çıxan səhabələrlə görüşdükdən sonra Mədinədə qalmağın daha uyğun olacağı qərarına gəldi. Bundan sonra da müşavirələr nəticəsində ordu komandanlığına o vaxt Nəcd bölgəsindəki Həvazin qəbiləsinin zəkatlarını toplamaqla vəzifələndirilən Səəd bin Əbu Vəqqası gətirərək Mədinəyə çağırdı. Ona və

orduya bəzi tövsiyələri verib İraqa doğru yola düşmələrini əmr etdi.

Beləliklə, Səəd bin Əbu Vəqqas əmrindəki qüvvələrlə yola çıxdı və Zərrud və Şərəf adlı yerlərdə düşərgə salaraq xəlifə tərəfindən tapşırıq verilən müxtəlif qəbilələrə mənsub yeni birliklərin ona qatılmasının gözlədi.

Nəhayət, qışın hazırlıqlarının başa çatmasından sonra ordu yazda Küfə şəhərinin 30 km.cənubunda yerləşən sasanilərin ən önəmli sərhəd şəhəri olan Kadusiyaya çatdı. Bəzi tədqiqatçıların mülahizələrinə görə müsəlmanların əsgər sayısı təqribən 9-10 min nəfər, sasanilərin isə əsgər sayısı 70-80 min nəfər təşkil edirdi. Ayrıca olaraq aralarında müsəlmanlar üçün ciddi təhlükə yaradan 30 fil də var idi.

Səəd bin Əbu Vəqqas,Ömərin istəyi ilə cəbhədə baş verənləri davamlı şəkildə Mədinəyə bildirməkdə və xəlifədən gələn təlimatlara riayət etməkdə idi. O, Nüman bin Mükərrin,Xanzalə bin Rəbi, Muqirə bin Zürarə və Əmr bin Mədikəribin də aralarında olduğu bir heyəti III Yəzdigerdə göndərdi və onu islama və ya cizyə ödəməyə dəvət etdi.Ancaq Sasani şahı Kəsra elçilərə sərt və məsxərəedici bir formada cavab verdi.

Müharibə başlamadan əvvəl Səəd ilə Sasani ordusunun komandanı Rüstəm arasında elçilər vasitəsilə görüşlər təşkil edildi. Ribi bin Əmr,Hüzeyfə bin Mixsan və Muğirə bin Şübə kimi elçilərin ayrı-ayrı apardıqları görüşlər bir nəticə verməyincə ordular döyüş əmri aldı. İslam ordusu onlu qaydaya görə düzülmüşdü, on cüt adamdan mütəşəkkil manqalara bir cür arif rəhbərlik edirdi. Hər qəbiləyə və böyük qəbilələrin önəmli qollarına bir onur işarəti olaraq özünə xas bir bayraq verildi və ordu mərkəz, sağ qanad, sol qanad olmaqla üç ana bölmədən ibarət idi.

Sasani ordusunun da ana bölmələri mərkəz,sağ və sol qanadlardan ibarət idi və orduların düzülməsindən sonra mövqe təsbiti gündəlikdə durdu. Müsəlmanların təklifi sasanilərin Fəratın ayrılan atıq kanalına qərb istiqamətində aşaraq özlərinin yerləşdikləri tərəfə keçmələriydi. Belə ki Səəd bin Əbu Vəqqasın düşüncəsi bir geri çəkilmə durumunda kanal onlara əngəl vəzifəsi görəcəkdi. Lakin İran ordusu komandanı Rüstəm Səədin bu təklifini qəbul etdi və ordusuyla kanalı aşdı.

Beləliklə, həftələrlə sürən danışıqlardan sonra döyüş başladı və çox şiddətli bir şəkildə üç və ya dörd gün davam etdi. Bədənindəki çibanlardan əziyyət çəkən Səəd bin Vəqqas felən vuruşmalara qatılmadı və döyüşləri Səbat hakiminin daşlardan onun üçün tikdirdiyi qaladan idarə edirdi.Mənbələrdə döyüşün günlərinə “yevmü i-Kadisiyyə” və son günün axşamına “leletü i-Hərir” və axşam vaxtında olan hissəyə isə “leyletü i-Kadisiyyə” adı verirlir. Müsəlmanların ilk dəfə qarşılaşdıqları fillər məsələsindəki ərəblərin təcrübəsizlikləri birinci gün çətin anlar yaşamalarına səbəb oldu.

Ərəblər ikinci gün cəmləşdilər, ancaq çox şiddətli döyüşlərin cərəyan etdiyi üçüncü gün ağır itkilər verdilər. Nəhayət, döyüşün sonuna doğru Suriyadan gələn təqribən 6000 nəfərlik köməkci ordu qüvvəsinin dəstəyi və bəzi komandanların ağıllı manevrləri ilə üstünlüyü ələ aldılar. Belə ki 636-cı ildə İran ordusunun komandanı Rüstəmin Hilal bin Uləfə tərəfindən öldürülməsindən sonra Sasani ordusu dağıldı və böyük bir məğlubiyyətə uğradı. Bəzi mənbələr bu döyüşün 635-ci ildə baş verdiyini qeyd edirlər.

Beləliklə, Səəd bin Əbu Vəqqas iranlıların ağır məğlubiyyəti qarşısında qazandıqları böyük qələbəni dərhal hər gün Mədinə çölünə çıxaraq xəbərçilərin gətirəcəyi müjdəni

gözləyən Ömər bin Xəttaba bildirdi. Hər iki tərəfin də mövcudluğunun üçdə birini itirdikləri bir döyüşdə müsəlman ərəbləri çox miqdarda qənimət ələ keçirdilər; bunların ən qiymətlisi *"darafş-i-kayani"* adındakı müqəddəs İran bayrağı idi. Kadusiya döyüşü, islam tarixinin ən önəmli qələbələrindən biridir və müsəlmanlar böyük bir ruhiyyə və üstünlük hissi verən bu qələbə ilə İraqın qapıları açılmış, İranın süqutunun başlanğıcı hazırlanmış, sasanilərin paytaxtı Mədain fəth edilmişdi. Bu qələbə digər fəthlərə sürət qazandırmış və müsəlmanların ələ keçirdikləri bölgələrdə sosiopolitik təşkilatlanmasına zəmin yaranmışdır.

# I BÖLMƏ. İŞĞALDAN ÖNCƏ

## *1.II Xosrov Pərviz zamanı.*

***Mədain(Ktesifon).***630-cu ilin yayı - Beynəlnəhreyn. Budur dan yeri yavaşca sökülməyə başlayır,ardınca qızarmağa başlayan günəş böyük yumru bir top kimi səmanı da öz rənginə yavaş-yavaş boyayırdı.Getidkcə daha çox parlayan günəşin işıqları Dəclə və Fərat çayının sularını isitməyə başlamış və çay qızıl ilan kimi parıldayırdı.

Çayın sahilində, xurma bağlarının yanında yerləşən sasanilərin paytaxtı Mədain(Ktesifon) öz dəbdəbəli əzəmətilə şərqin bütün şəhərlərinə sanki meydan oxuyurdu. Şəhərin biri-birinin içində olan məhəllələri və orada biri-birinə qarışmış əcəm və ərəblər sanki bir ağacın budağı kimi qaynayıb-qarışmışdılar.

Şəhərin bazarlarında yun əyirən məhəlləsində və digər yerlərində də vəziyyət eyni idi. Şəhərin ən gözəl yeri yeni şəhər adlanan Novzəmin məhəlləsi idi ki, sasanilərin əzəmətli şah sarayı olan Sepidkah(ağ saray) məhz orada yerləşirdi.

Sarayın arxa hissəsində xüsusi fars memarlıq üslubunda tikilmiş biri-birindən gözəl ikimərtəbəli və küləngi olan evlər yerləşirdi. Bu evlərdə Ari əsilzadələri yaşayırdı,ərəblər isə bu əraziyə buraxılmırdılar. Ari fars əsilzadələri hökmdarı hər vəchlə dəstəkləyirdilər.

Şəhərin adı pəhləvi dilində Tispun, farslar onu Tisfun, ərəblər Ğətəsfun,yunanlar isə bu şəhəri Ktesifon adlandırırdılar. Şəhər əvvəllər Prafiya imperiyasının,indi isə sasanilərin paytaxtı olmuş və Ktesifonda yaşayan xristian ərəbləri bu şəhəri Səvad adlandırırdılar ki, bunun da mənası “qara” deməkdi.

Şəhərin ümumi sahəsi 30 kv km ərazini əhatə edirdi. Şəhərin əsası b.e.ə.120-ci ildə Parfiya hökmdarı Mitridat tərəfindən qoyulmuş və 58-ci ildən Parfiya imperiyasının paytaxtı olmuşdur.

Şəhərin şərq hissəsini ərəblər "qədim şəhər" adlandırırlar və sasanilərin sarayı məhz burada yerləşirdi. Cənub hissəsi isə "Ağ saray" ın yerləşdiyi "Aspanbar" adlanırdı,məhz burada basseynlər,at yerləri,cah-cəlal və dəb-dəbələr yerləşirdi.

Şəhərdə farslarla bərabər Assuriyalılar,yunanlar və xristian ərəbləri də yaşayırdılar.Assuriyalılar bu şəhəri "Kasr bint Al-Kadi" adlandırırlar. Mədain şəhəri bir neçə şəhərin birləşməsindən əmələ gəlmişdir. Beləki bu şəhərlər Aspanbar,Vex-Antiox-e Xosrov,Vex-Ərdəşir və Valaşabad kimi idi. Upi şəhəri Dəclə və Fərat çayları arasındakı Atik kanalı boyu uzanmışdır və bu şəhər hələ qədimdə XIV əsrdə Novoxodnosorun dövründə Babil çarlığının paytaxtı olmuşdur. Sonra isə 305-ci ildə Selevki çarı Selevk Nikatol b.e.ə.305-ci ildə Dəclə çayının əks tərəfində Selevkiya şəhərini bina etdi və onun adını Selevkiya Ktesifon qoydu.

B.e.ə.144-cü ildə Parfiya hökmdarı Mitridat Mesopatomiyanı tutaraq Parfiyanın paytaxtını Ekbatana şəhərinə köçürdü və bu dövrdə Opis şəhəri Arşakilərin qış iqamətgahı idi.

Belə ki b.e.ə.qədim Opis şəhəri sonralar Ktesofon adlandırılmağa başlandı və bu şəhər ikinci dərəcəli əhəmiyyət daşımağa başlamışdır.

B.e.ə.161-cı ildə Roma imperatoru Trayan Ktesifon şəhərini tutmuşdur,lakin 117-ci ildə Roma imperatoru Adrian bu şəhəri farslara verməyə məcbur qalmışdır.

164-cü ildə Roma sərkərdəsi Avidiy Kassi yenidən bu şəhəri ələ keçirir, lakin o da bu şəhəri danışıqlar nəticəsində buraxmışdır. Nəhayət, Roma imperatoru Septimi Sever 197-ci

ildə Ktesifonu ələ keçirib onun əhalisindən 100- min nəfərini qula çevirib satır.

III əsrdə isə Ktesifon Suriya-Fars dinlərinin mərkəzi olur, lakin çoxları bu şəhərə hücum edib onu almaq istəmiş, ancaq bəzilərinə bu nail olsa da, bəzilərinə nail olmamışdır.

295-ci ildə Sasani-Roma müharibəsi dövründə Roma imperatoru Qaleriy məhz Ktesifon şəhərinin divarları önündə məğlub edilmişdi. Lakin sonralar məğlubiyyətlə barışmayan Roma imperatoru Qaleriy 298-ci ildə yenidən Ktesifona hücum edib şəhəri ələ keçirmiş və qısa zamanda bu şəhəri Arminiyaya dəyişmişdir.

363-cü ildə Ktesifon divarları önündə Roma imperatoru Yulian həlak olmuşdur. 627-ci ildə Bizans imperatoru İrakli şəhəri mühasirəyə almış, lakin farslarla özünə uyğun şərtlərlə bağlanmış müqavilə əsasında mühasirədən əl çəkmişdir. VI əsrdə Ktesifon o qədər böyüdü ki, romalıların şəhəri olan Konstantinopolu və Çinlilərin şəhəri olan Çananı kölgədə qoydu.

Şahənşahın sarayı Dəclə çayının kənarı olan Aspanabar adlı yerdə yerləşir və farsca “Taki-Kisra” adlanır. Bu yerin əsl adı farsca iki sözdən ibarətdir ki, “Eyvan-e Xosrov” deməkdir.Bu yer şahənşah I Xosrovun əmri ilə 540-cı ildə tikilmişdir və divarları kərpicdən hörülmüşdür. Sarayın mərkəzində eyvan yerləşirdi ki onun hündürlüyü 27 metr,eni isə 23 metrdir. Burada 20 –yə yaxın atəşgah və kvadrat şəkilli otaqlar var.

Əvvəllər bu sarayın divarları rəsmlərlə dolu idi və Sasani şahı I Xosrov bu şəhəri Romalılardan alandan sonra bu şəhərdə böyük saray tikdirdi. Sarayın uzunluğu 37 metr, hündürlüyü isə 26 metr idi. Sarayın yuxarı hissəsində çox böyük arka var və bu arkonun divarı 1 metr, sarayın divarlarının qalınlığı isə 7 metdir.

628-ci il, sasanilərin paytaxtı Mədain şəhəri və şahənşah sarayı –“Taki-Xosrov” və İran şahı II Xosrov Pərviz öz sarayında hökmranlığını edir.O, 570-ci ildə elə Ktesifon şəhərində dünyaya gəlmişdi və bu taxt ona Sasani şahı və atası olan şahənşah IV Hörmüzddən miras qalmışdı. Onun anası İran ordu generalı Vistəhmin və Vinduyənin bacısı - Parfiya imperiyasının 78 əsas nəslindən olan İspahbudan sülaləsindən idi. O, könlünə uyğun olaraq xristian (bəzi mənbələrdə erməni qızı)Siranla evlənmiş və onu farscaya uyğunlaşdıraraq “şirin” adlandırmışdı. Dahi şair Nizami Gəncəvi özünün Xosrov və Şirin poemasında bu haqda geniş məlumat verir.

Şirinlə izdivacından Xosrovun 7 övladı var idi və bunlar – Mərdanşah, II Gavad(Qubad), Azərdoxt(qız), Borandoxt(qız), Cavanşir,V Xosrov Fərruxzad və Şəhriyar.II Xosrovun dayıları Vistəhm və Vinduyə saray çevrilişi nəticəsində onun atası IV Hörmüzdü kor etmiş və II Xosrov Pərvizi taxta gətirmişlər. Həmin dövrdə Mehrani sepəhbudu Bəhram Çubin də Ktesifonu ələ keçirmək istəyirdi, bu zaman onun qarşısını ala bilməyən II Xosrov qardaşı ilə bərabər şəhəri tərk etməli olmuşdu.

571-ci ildə başlanmış Bizansla olan müharibə davam edirdi və bu səbəblə də II Xosrov Pərviz ilk öncə Suriyaya qaçır, oradan da Konstantinopola gedərək Bizans imperatoru Mavrikinin qızı Mariya(Məryəm) ilə evləndi. Bundan sonra Bizans imperatoru Mavriki öz yeznəsinə kömək edərək İranın paytaxtı Mədaini tutdu və II Xosrov Pərvizi yenidən Sasani taxtına qaytardı. Bunun əvəzində isə II Xosrov Harran, Dara və Mayafargin ərazilərini, Arminiya və İberiyanı Bizansın nəzarətinə verdi. Xosrovun güclənməsindən sonra əsas Fars-Ari zadəganları, vilayət hakimləri,şəhər hakimləri, hərbi rəhbərlər və eləcə də Sasani hərbi zadəganlarının böyük hissəsi II Xosrov Pərvizi İranın şahənşahı kimi qəbul etdilər.

591-ci ildə Xosrov Bizans ordusu ilə Ktesifona tərəf gəlir, Bəhram Çubinlə II Xosrov arasında baş vermiş Balarton döyüşündə VI Bəhram məğlub olur və ölkənin şərq vilayətləri olan Bəlx və Fərqanəyə qaçdı. Lakin II Xosrov Bəhramın bu xəyanətini bağışlamayıb bir assasin göndərib onu qətl etdi.Bütün bunlara baxmayaraq II Xosrov yaxşı hökmdar idi və məhz onun dövründə İran musiqisinin qızıl dövrü başlamışdı. II Xosrov öz sarayında Barbəd, Bəmşəd, Sərkəş və Nakisa kimi məşhur musiqiçiləri və xanəndələri saxlayırdı,lakin bu çox uzun sürmədi. Çünki Ərəbistanda artıq İran üçün təhlükə yaranmağa başlamışdı. Bədəvilər birləşib İranın üzərinə yürümək istəyirdilər, lakin buna bəhanə yox idi.

Belə ki bəhanə olaraq ərəblər Sasanilərin qonşuluğunda yerləşən ləxmilər kralını II Xosrovun qızına elçi getməyə təşviq etdilər. Bu hadisə 600-cü ildə baş verdi və Hirədə hökmranlıq edən Ləhmilər sülaləsinin son kralı III Əl Numan bin əl-Mundir Sasani şahənşahı II Xosrov Pərvizin qızına elçi düşdü. Bunu fars qadınlarına təhqir sayan II Xosrov onu tutub edam etdirdi və ləhmilər krallığı işğal olunaraq sasanilər imperiyasına qatıldı.Bunu bəhanə edərək müsəlman ərəblər Aşağı-İraqda İranla müharibəyə hazırlaşmağa başladılar. Xosrov demək olar ki, hər gün bu təhlükəni gözləyirdi və bilirdi ki, bir gün ərəblər İran üzərinə yürüyəcəklər.

***II Xosrov Pərviz zamanı – Hekayət:*** Budur, ağ sarayın hər tərəfi hündür ağ divarlarla əhatələnmiş və divarın hər 50 metrliyində gözətçi bürcü yerləşirdi. Qaladan sonra sarayın həyəti gəlirdi ki,bu həyətdə elə də ağac yox idi. Sadəcə ortada böyük bir hovuz var idi və bu hovuzda şahənşah öz məmurları ilə birlikdə rəqqasələrlə əylənir, kef məclisi çəkirdilər. Lakin onlar dünyadan tamamilə bixəbər idilər və bilmirdilər ki,onların adam yerinə belə qoymadıqları Tazi(Ərəb)

qəbilələrinin birində bir uşaq dünyaya gəlib və sasanilər sülaləsinə son qoyacaq. Bundan əlavə üç min il boyunca yanan və heç zaman sönməyən sasanilərin müqəddəs atəşgahında yanan od əbədi sönəcək və sasanilər dövləti tarix səhnəsindən silinəcəkdir. Qalanın qarşı hissəsi isə çaya baxırdı,çayla qala arasında isə 500 metr məsafə var idi ki,bu ərazidə də xurma ağacları yerləşirdi.

Çayın o biri sahili isə ucsuz-bucaqsız səhra idi. Qalanın çaya tərəf olan hissəsində yerləşən,şəhərə gələn böyük karvan yolundan ayrılan və xüsusi daşlarla döşənmiş dar yol var idi. Bu yolun əksinə gedəndə dörd hissəyə ayrılıb böyük karvan yoluna birləşirdi. Bu yolların biri Yəmənə, ikincisi - Nəbatiyyəyə,üçüncüsü - Qəssaniyyə və Ləhmiyyə ərazilərinə və oradanda Misirə,dördünçü yol isə Yəsribə və oradan da Məkkəyə gedirdi.

Budur ön planda şahənşahın dəbdəbəli köşkü yerləşir. Köşkün ön tərəfində didəgah(balkon) var və hərdən hökmdar burada görünər və uzun-uzadı ətrafı müşahidə edərdi. Qala bürclərində duran iki keşikçi biri-biri ilə söhbət edir.

- Deyirlər ərəblərdə Məhəmməd adlı bir peyğəmbər zühur edib və bütün ərəb qəbilələrini birləşdirib! – deyə 1-ci keçikçi dilləndi.

- Hə, nə olsun ki? Bizə nə bundan? – deyə 2-ci keşikçi soruşdu.

- Necə yəni bizə nə bundan! Məgər başa düşmürsən,tezliklə o bütün ərəbistanı öz başına yığar və onları birləşdirər! – deyə 1-ci keşikçi cavab verdi.

- Vallah, heç nə başa düşmədim! Yığsın da,bizə nə zərəri dəyər ki? – deyə 2-c keşikçi soruşdu.

- Ay axmaq! Elə düz deyirlər! Bu pəncablılar gec başa düşürlər! Yəni deməyim odur ki, sonumuz çatıb. Dünən Yəsribdən gələnlər xəbər verdilər ki, bütün ərəb qəbilələrinin

ən güclü pəhləvanları və tanınmış qəbilə başçıları ona biət ediblər və onun tərəfinə keçiblər! – deyə 1-ci keşikçi cavab verdi.

- Yox əşi..,belə şey olmaz! – deyə 2 –ci keşikçi sakit tərzdə.
- Sən nədi,ümumiyyətlə, dediklərimdən bir şey anlamırsan? – deyə 1- ci keşikçi soruşdu.
- Anlamağına anlayıram,amma fikrim pəhləvanlara yayındı, de görüm,məsələn hansı pəhləvanlar? – deyə 2-ci keşikçi dilləndi.
- Xalid! – deyə 1-ci keşikçi cavab verdi.
- Nəə, Xalid? – deyə 2-ci keşikçi soruşdu.
- Həə, Xalid! – deyə 1-ci keşikçi cavab verdi.
- Hansı Xaaliid? – deyə 2-ci keşikçi soruşdu.
- Səndə lap məni tanımadın, Xalid də, Xalid ibni Valid! – deyə 1-ci keşikçi cavab verdi.
- Nə! Nə dedin! Xalid ibn Valid? – deyə 2-ci keşikçi soruşdu.
- Hə də, bəs bayaqdan nə deyirəm, odur ki,artıq hazırlaşmaq vaxtıdır1 – deyə 1-ci keşikçi cavab verdi.
- Nəyə hazırlaşmaq lazımdır? – deyə 2-ci keşikçi soruşdu.
- Ay kişi nəyə olar,cəhənnəmə, əlbəttə ki, müdafiəyə! – deyə 1 –ci keşikçi cavab verdi.

Bu zaman sarayın digər qala bürcündən keşikçiləri izləyən saray keşikçibaşısı bayaqdan söhbət edən bu iki keşikçinin nə dediklərini eşitdi və başını yellədərək saraya doğru hərəkət etməyə başladı. O, sarayaın qapısına yaxınlaşmışdı ki,onu qapıda şahın xüsusi mühafizə başçısı gördü və dedi:

- Nə olub, niyə belə fikirlisən?
- Heç nə, keşikçilərin yanından gəlirəm! – deyə keşikçibaşı cavab verdi.
- Hə anladım,yenə dünənki məsələ? – deyə muhafizəbaşı soruşdu.

- Elədir ki,var! – deyə keşikçibaşı cavab verdi.

- Həə..,bu heç də yaxşı olmadı, ərəblər tezliklə buraya da gələcəklər! – deyə muhafizəbaşı cavab verdi.

- Başa düşmürəm! Bura niyə gəlirlər ki? Yaşasınlar da orada özləri üçün,biz ki onlara toxunmuruq. Hələ bir tacirlərimiz onların şəhərlərinə gedir və onların tacirləri ilə dostcasına ticarət də edirlər, lakin başa düşə bilmirəm axı müharibə kimə lazımdır? - deyə keşikçibaşı təəccüblə soruşdu.

- Elə məsələ də bundadır da! Bizimkilər oraya yalnız ticarət üçün gedirlər,başqa orada ələ keçiriləsi nə var ki? Amma onlar bura gələndə ağızları açıq qalır, gözləri bərəlir. Onlar bizim mədəniyyətimizi,cah-calalımızı görüb hərisləşiblər və bu cah-calalı nəyin bahasına olursa-olsun ələ keçirməyə çalışacaqlar! – deyə muhafizəbaşı cavab verdi.

- Bunun üçün onlar gərək birləşsinlər! – deyə keşikçibaşı dilləndi.

- Birləşiblər də..,daha nə lazımdı ki, onlara? Bunu belə buraxmaq olmaz, tez şahın sağ qolu Mehrdada xəbər vermək lazımdır ki,o da şaha desin, tədbir görülməlidir! – deyə muhafizəbaşı soruşdu.(Beləcə onlar ayrılırlar).

Mühafizəbaşı tezliklə saraya gəlib bu xəbəri Mehrdada dedi və vəzir də bir qədər fikrə gedib ondan ayrılıb şahın yanına gəldi. Dəhlizlə addımlayan vəzir şahın otağına çatanda xüsusi qvardiya rəisi Kəyumərslə rastlaşdı və vəziri görəndə təzim edib soruşdu:

- Nə məsələdir?

- Şahı görməliyəm, vəziyyət ürəkaçan deyil,odur ki,sən də gəl! – Deyə Mehrdad cavab verdi.

- Nə olub axı? Məni qorxudursan? – deyə Kəyumərs soruşdu.

- Qorxma gəl! Özün hər şeyi eşidərsən,bir az da mənə dəstək verərsən! – deyə Mehrdad cavab verdi və ikisi bir yerdə şahın otağına girdilər.

Budur Sasani şahı II Xosrov Pərviz sarayın yuxarı başında azca hündürdə yerləşən dəbdəbəli taxtın üstündə əyləşib. Ondan aşağı isə şərqin gözəl qadınlarından xüsusi olaraq seçilmiş biri-birindən gözəl rəqqasələr Bərbad və Nakisənin ifasında rəqs edirlər. Şahənşaın sağ əlində şərabla dolu qədəh,sol əlini isə taxtının əl mütəkkəsinə dayaq edərək arada şərab içir və arabir öz sol əli ilə ağzına nəsə atıb çeynəyir.Vəzir içəri girən kimi şahın yanına gəldi və qulağına nə isə dedi.

Bayaqdan şərab içib eyş-işrət içində sərxoş olub əylənən şahın birdən-birə üz ifadələri ani olaraq dəyişdi. Bu sözdən sonra ir anlığa ətrafdakıları qəzəblə seyr edərək əlindəki badəni yerə çırpıb ayağa qalxdı və bağırdı:

- Bədəvilər! Nəhayət ki gözünüzü dikdiniz taxtıma! Sonra üzünü rəqqasələrə və otağında olan digər şəxslərə tutaraq qəzəblə qışqırdı:

- Hamınız çölə!

Hamı yerində donub qaldı,bunu görən şah bir az da hiddətlənərək var gücü ilə bağırdı:

- Dedim axı hamınız cəhənnəm olun çölə! Bunu eşidən kimi hamı tələsik çölə qaçdı, sonra şah ayağa qalxdı və qəzəbindən dodaqlarını gəmirirdi, vəzirə tutaraq dedi:

- Sən bunu nə vaxtdan bilirsən?

- Şah sağ olsun, bilirsiz, mən şey...! – deyə Kəyumərs başını aşağı salıb udqunmağa başladı.

- Sənə dedim ki, bundan nə zamandan bəridir ki, xəbərdarsan və niyə bu günə qədər hadisələrin gedişatı haqda məlumat verməmisən? – deyə şahənşah qəzəblə soruşdu.

Kəyumərs qorxusundan danışa bilmirdi və dili tutulmuşdu, amma yenə də öz cürətini yığıb diz üstə çökdü və dedi:

- Hökmüdarım! Mənim günahım yoxdur! Sadəcə sizi narahat etmək istəmədim, ulu Hörmüzdə and olsun ki,dəfələrlə çalışmışam sizi məsələdən agah edim, amma heç fürsət tapa bilmirdim. Bunu eşidən şah əlini qılınca atıb vəzirin üzərinə yürümək istərkən bayaqdan baş verənləri izləyən Mehrdad tez dillənərək şahı sakitləşdirməyə başladı və dedi:

- Şah sağ olsun! Rüsxət verin danışım!

- De görüm! – deyə şahənşah cavab verdi.

- Kəyumərsin bir günahı yoxdur və o, tamamilə doğru deyir.Onsuz da bu İsmail övladları gec-tez ölkəmizə basqın edəcəklərdi, o üzdən yeni dinləri bəhanədir ki,münbit torpaqlarımıza hücum etsinlər! – deyə Mehrdad cavab verdi.

- Təklifin nədir? – deyə şahənşah soruşdu.

- Təklifim budur ki,ilk növbədə sərhədləri gücləndirək,paytaxta gələn bütün yollara nəzarət edək! Deyə Mehrdad cavab verdi.

- Niyə durdun? – deyə şahənşah soruşdu.

- Bayaq Məkkədən gələn bir tacir deyirdi ki, sabah ərəblər dünyanın dörd bir yanına qasid yollayacaqlar, yüksək ehtimalla buraya da göndərəcəklər! – deyə Mehrdad cavab verdi.

- Dörd bir yana qasid? Nə qasid? – deyə şahənşah soruşdu.

- Rumu, Misiri və bizi özlərinin yeni dinlərinə dəvət etmək üçün! – deyə Mehrdad cqavab verdi.

- Nə deyirsən? Nə din? Hansı din? – deyə şahənşah soruşdu.

- Tək allaha iman gətirirlər və hamısı da ağa bürünürlər. Birdəki deyirlər ki,yerdə və göydə hər nə varsa, tək olan allah tərəfindən xəlq edilib və yerin-göyün və bütün aləmlərin rəbbi

odur.Onların dinləri İslam adlanır və bu dini qəbul edənlər özlərinə müsəlman deyirlər! – deyə Mehrdad cavab verdi.

- Hmm.. Çox maraqlıdır, ulu peyğəmbərimiz Zərdüşt də elə bunu deyib! – deyə şahənşah cavab verdi və elə bu zaman qapıçı içəri girərək dedi:

- Şah sağ olsun, böyük qızınız şahzadə Azərdoxt gəlib və hüzurunuza çıxmaq üçün rüsxət istəyir. Hökmdar söz deməyə macal tapmamış qapı zərblə açıldı və Azərdoxt içəri girərək dedi:

- Çəkil! Mənə rüsxət lazım deyil!

- Azərdoxt! Qızım! Neçə dəfə xəbərdarlıq etmişəm sənə ki hüzuruma rüsxətsiz girmə, amma sən minillər boyu mövcud olan Ari qayda-qanunlarımızı əzib-çeynəyirsən? – deyə şahənşah soruşdu.

- Hökmdarım! Məni bağışlayın! Olanları eşidən kimi bura gəldim! – deyə Azərdoxt cavab verdi.

- Şahzadəm! Hansı olanları? Heç bir hadisə baş verməyib, narahat olmağa dəyməz! – deyə Kəyumərs məsələnin üstünü örtməyə çalışdı.

- Kəyumərs! Onun bilməsi və ya bilməməsi heç nəyi dəyişdirməz,o üzdən bilməsinin də heç bir mənası yoxdur1 – deyə şahənşah cavab verdi.

- Nəyi bilməliyəm? Artıq deyin, səbrim qalmadı? – deyə Azərdoxt cavab verdi.

Bunu eşidən şah əli ilə hamıya işarə edərək sarayda olan sonuncu insanların çölə çıxmalarını istədi və hamı çölə çıxdı, sonra isə üzünü Azərdoxta tutub dedi:

- Azərdoxt, qızım!

Bəli hökmüdarım! – deyə Azərdoxt sakit tərzdə cavab verdi.

- Əsrlər boyu babalarımızın nökəri olan və adam yerinə qoymadıqları İsmail övladları birləşərək bütün Ərəbistanda hakimiyyəti ələ keçiriblər! – deyə şahənşah cavab verdi.

- Ələ keçiriblər? Axı bu necə ola bilər? Bəs başçıları kimdir və kim buna cürət edər? – deyə Azərdoxt təəccüblə.

- Artıq olmuşdur və başlarında da Məhəmməd adlı birisi durur və sabah elçisi qapımızda olacaq! – deyə şahənşah cavab verdi.

- Burda olacaq? Axı niyə? Bizdən nə istəyirlər? Ümumiyyətlə onlar nə cürətlə bizdən nəsə istəyə bilirlər? – deyə Azərdoxt soruşdu.

- Bilmirəm qızım, artıq gecdir get,sabah hər şey aydın olacaq! – deyə şahənşah cavab verdi.

- Hökmdarım! Bəs buna qarşı tədbir görməyəcəksiniz? – deyə Azərdoxt soruşdu.

- Qoy sabah elçiləri gəlsin görək nə deyirlər, ondan sonra qərar verəcəyəm nə etmək lazımdır. Sən isə daha durma get! – deyə şahənşah cavab verdi. ...Bu sözdən sonra Azərdoxt təzim edərək öz dairəsinə çəkildi.

***Növbəti gün*:**Budur,səhər açıldı,günəş Mədain şəhərinin üstünü yenə yavaş-yavaş işıqlandırmağa başladı. Qala bürclərində keşik çəkən gözətçilər gözlərini uzaqlara zilləmişdirlər. Sarayın içində isə axşamdan bəri narahat yatan II Xosrov Pərviz əllərini belinə qoyub narahat halda o tərəf-bu tərəfə gedir və arabir dayanıb dodaqlarını çeynəyirdi. Onun bu hərəkətindən də bilinirdi ki, axşam çətin yatıb, heç bəlkə də ümumiyyətlə yatmayıb.

Əlbəttə ki, bu asan deyildir və bu gün baş verəcək hadisələr nəinki Xosrov Pərvizin,ümumiyyətlə, bütün Kəyan övladlarının taleyini həll edəcəkdi. Bütün bunlara baxmayaraq, II Xosrov Pərviz digər İran şahlarından fərqli olaraq olduqca

uzaqgörən və mədəni insan idi. Onun asta yerişi və arabir dərin düşüncələrə dalması onun heç də laqeyd adam olmadığını göstərir və bu da onu bəzi sələflərindən fərqləndirirdi.Yaş öz işini görmüşdü, çiyinlərinə tökülmüş uzun saçları artıq ağarmağa başlamışdı.

II Xosrov Pərvizin hər hansı saray məmurlarıyla söhbət edən zaman arabir səmimi gülüşü zamanı o göy gözlərinin işıqlarını əks etdirirdi. O, çox düşüncəli, az danışan, yüz sözün birinə ancaq cavab verərdi və sanki ürəyində sağalmayan mənəvi bir yarası var idi. Demək olar ki,gününün çoxunu şərab içməklə keçirməsi onun hansısa bir böyük dərdin əndişəçisi olduğunu göstərir və sanki gələcəkdə sasanilərin başı üstünü alacaq bəlanı görürdü.

Elə bu üzdən II Xosrov Pərvizi hər zaman fikirli görmək mümkün idi və bütün bunları başından atmaq üçün şah sarayın külənginə çıxdı(balkon) və saray həyətini uzun-uzadı seyr etdi.

Budur artıq gün səmaya qalxmışdı və sarayın həyət xidmətçiləri öz işlərini görürdü və bu zaman artıq yeni gələn növbətçi dəstəsi axşamkı heyəti əvəz edirdi. Bu vaxt keşikçilərdən biri qışqırdı:

- “Üfüqdə bir atlı görünür” və bunu eşitcək digər keşikçilər də heyrətlə o tərəfə baxmağa başladılar.

Az keçmədi ki, keşikçibaşı da tez gəlib uzaqdan gələn atlıya baxmağa başladı. Atlı yaxşı seçilmirdi, lakin yaxınlaşdıqca əvvəlkindən daha yaxşı seçilməyə başlandı. Keşikçibaşı uzun-uzadı baxdıqdan sonra tez saray mühafizəbaşının yanına tələsdi ki,ona gələn atlı barədə xəbər versin. Məlumatı alan kimi saray mühafizəbaşçısı tələsik vəzirin yanına gəldi və məlumatı ona verdi və bunu eşidən vəzir tələsik hökmdarın yanına gəldi. Səhərdən bəri o tərəfə-bu tərəfə gedib-gəlməkdən yorulan 65 yaşlı II Xosrov Pərviz öz

taxtında iynə üstündə əyləşmiş kimi oturmuşdu və qapıçı içəri girib təzim etdi və dedi:

- Şah sağolsun! Vəzir hüzurunuza çıxmaq üçün rüsxət istəyir.

- Buyursun! – deyə şahənşah əli ilə işarə etdi və bu zaman vəzir içəri girərək təzim etdi və dedi:

- Şah sağolsun! Uzaqdan bir atlı gəlir,çox ehtimal ki, ismaililərin elçisidir və nə əmr edirsiniz?

- Qoy yaxınlaşsın, əmin olun həqiqətən də, Məhəmmədin elçisidirsə, hüzuruma gətirin! – deyə şahənşah cavab verdi.

- Baş üstə hökmdarım! – deyə vəzir təzim edərək edib çıxdı və çox keçmədi ki, qapıçı içəri girdi və diz üstə çökərək dedi:

- Şah sağ olsun! Məhəmmədin elçisi hüzurunuza çıxmaq üçün rüsxət istəyir.

- Buyursun gəlsin! – deyə şahənşah cavab verdi. Keşikçi təzim edib qapıları açdı və bu zaman ayaq səsləri eşidilməyə başladı. Saraydakıların hamısı maraqla gözlərini qapıya zilləmişdi və əyanların bəziləri öz aralarında nə isə pıçıldaşırdılar, amma nə dedikəri aydın seçilmirdi. Bu vaxt başında əmmamə,ağ libas geyinmiş və belində aypara qılınc olan orta yaşlı bir ərəb içəri girdi. O, gözləriylə ona baxan əyanları süzdü və sonra da saraya göz gəzdirdikdən sonra, yuxarı başda taxt üstündə orurmuş şahı görüncə ona tərəf yeriməyə başladı. Elçi şaha on addım yaxınlaşanda dayandı və əlini öz qurşağına salaraq oradan bir iplə sarılmış namə çıxardı. Bundan sonra o, əlini xəncərə atıb namədəki ipi kəsmək istədi, lakin yanındakılar bunu sui-qəsd kimi başa düşüb təlaşlandılar. Elə bu zaman ərəbin yaxınlığında duran Hörmüzan qılıncını sıyırıb gələn elçinin boğazına dayadı və bunu görən ərəb öz dilində nəsə deyərək əli ilə şaha işarə etdi. Bu vaxt şah yanındakı Mədainin xristian ərəblərdən seçdiyi tərcüməçidən soruşdu:

- Söylə! Nə deyir bu tazi..? Tərcüməçi elçi ilə danışdı və sonra üzünü şaha tutub dedi:

- Şah sağ olsun! O, xəncəri namənin üstündəki ipi kəsmək üçün çıxarıb ki, onu açıb sizin üçün oxusun.

- Buyursun oxusun! - deyə şahənşah əli ilə Mehrdada işarə etdi və tərcüməçi də elçiyə ərəbcə çatdırdı. Bu zaman elçi naməni açıb ərəbcə nə isə oxudu və sonra da üzünü tərcüməçiyə çevirdi, sonra isə tərcüməçi də üzünü şaha tutdu və dedi:

- Şah sağ olsun! Bu gələn islam peyğəmbəri Məhəmmədin(s) elçisi Abdullah bin Hüdafa əs -Səhmidir və o, islam peyğəmbərin buyuruğunu gətirmişdir.

- Buyursun oxusun! – deyə şahənşah əli ilə işarə etdi.

Elçi: *“Rəhman və Rəhim olnan Allahın adıyla.*

*Allahın elçisi Məhəmməddən İranın böyük Kəsrasına.*

*Salam olsun Allah və onun peyğəmbəri Məhəmmədə(s) inananlara,*

*Allahdan başqa tanrı yoxdur,Məhəmməd(s) onun qulu və peyğəmbəridir. Allahın əmri ilə,mən səni ona inanmağa dəvət edirəm. O məni göndərib ki,bütün insanları xəbərdar edim və inanmayanları inama dəvət edim.*

*İslamı qəbul elə ki,təhlükəsizlikdə olasan. Əgər islamı qəbul etməsən, o zaman maqların günahlarına görə cavab verməli olacaqsan.”*

Bunu eşitcək Xosrov Pərviz ayağa qalxıb dedi:

- Necə yəni yeri-göyü yaradan və aləmlərin rəbbi odur? ... Bəs ulu Zərdüşt, Hörmüzd, müqəddəs möbidlər.. bunlar harda qaldı?

Bunu görən vəzir şahın qulağına nəsə dedi və şah yenə əyləşdi, sonra isə əli ilə işarə edən kimi tərcüməçi yenə davam etdi:

*“O,nə doğmayıb,nə də doğulmayıb,nə isimdir,nə də cisim və bütün olanları bir kəlməsi ilə yoxdan var etmişdir. Allah birdir və Məhəmməd(s) onun elçisidir.Allahın peyğəmbəri Məhəmməd(s) dünyanın dörd tərəfinə elçi göndərərək hamını dinlərin ən mükəmməli olan islamiyyətə dəvət edir və hamınızı qardaş olmağa çağırır. Əgər dinimizi qəbul etsəz,baş kəsməyəcək,qan tökməyəcək, qadınlar və uşaqlara toxunmayacaq, ağacları kəsməyəcək və heç bir canlıya zərər verməyəcəyik. İslamı qəbul etsəniz müsəlman,islamı qəbul etsəniz və bizə qatılsanız Mövla olacaqsınız. Ayrıca olaraq islamiyyətdə məcburiyyət yoxdur,istəyənə aman,istəməyənə yol verəririk ki, çıxıb getsin ürəyi istədiyi yerə. Əssalamu əleykə və rəhmətullahi və bərəkətuh..”*

Bu vaxt şah əli ilə işarə etdi və naməni ona gətirmələrini işarə etdi və məktubu alıb ona verdilər.

II Xosrov Pərviz bir müddət namənin içində yazılanlara baxdı və sonra dedi:

- Bu məktuba dərhal cavab vermək qüdrətində deyiləm və düşünməyə ehtiyacım var.

- Şahim,bu adi bir bədəvinin sözüdür və əsla heç bir gücə dayanmır! – deyə vəzir cavab verdi.

- O zaman elçiyə de ki, mən onların Bizansı məğlub etdiklərində sevindim ki, bizə müttəfiq olarlar, amma görünən o ki, rəsmən taxtımı istəyirlər. Ona görə də get öz rəhbərinə de ki, bunu xalqımla məsləhət etməliyəm və bu iş göründüyü qədər də asan deyil! – deyə şahənşah dedi.

- Sən dünyanın dörd bir tərəfinin şahı olsan da, çıxış yolun yoxdur və nə cürətlə məktuba cavab verməkdən yayınırsan! – deyə elşi üzünü şahənşaha tutub dedi. Bunu eşidən şah məktubu cırıb elçinin üzünə çırpdı və dedi:

- Əminəm ki siz hələ peyğəmbəriniz Məhəmmədin(s) qiymətini anlamamışsınız, gərək Allah onu siz bədəvilərə yox, biz Ari – mədəni farslara peyğəmbər olaraq göndərəydi.

Bunu görən elçi dönüb onu qəzəblə süzən əyanlara baxdı və sonra əyilib pərt olmuş halda cırılmış namənin tikələrini yığdı. Ayağa qalxan elçi məktubun cırıq tikələri olan əllərini göyə açıb ərəbcə nəsə dedi və üzünə məsh çəkdi,sonra isə məktubu öpərək alnına sürtdü. Bundan sonra isə o heç nə demədən çıxıb getdi.

***Mədinə.*** Budur uzaq Ərəbistan səhrası,qızrmızı dənizin sahili və gözoxşayan ucsuz-bucaqsız çöllər və yanar qırmızı qumlar. Qırmızı dənizin yaxınlığında yerləşən yaşıl vadidə xurma ağacları var və burada ərəblərin qədim mərkəzlərindən biri olan Mədinə şəhəri yerləşir. Sasanilər sarayından ayrılan müsəlman elçi artıq Mədinəyə çatmışdı və şəhərə daxil olan kimi Mədinənin dar küçələri ilə Məhəmməd peyğəmbər(s)in evinə doğru çapmağa başladı.

O, tezliklə peyğəmbərin (s) evinə çatdı və enərək içəri girmək istəyəndə onu qapıda saxladılar. Bunu görən elçi uzaq yoldan gəldiyini və peyğəmbərə önəmli bir xəbər gətirdiyini bildirəndə ona peyğəmbərin(s) namaz qıldığını dedilər.

Bu zaman Ömər bin Xəttab,peyğəmbərin əmisi oğlu Əli ibn Əbutalıb(ə), Əbu Bəkr, Osman ibn Əffan və Xalid İbn Valid də peyğəmbərlə birgə namaz qılırdılar. Namaz bitən kimi qapıçı içəri daxil oldu və peyğəmbərə qasidin gəldiyi haqda məlumat verdilər.Bu vaxt Məhəmməd peyğəmbər(s) əli ilə işarə edərək qasidi yanına çağırdı və qasid içəri daxil olub naməni peyğəmbərə uzatdı.

Elçini görən peyğəmbər(s) soruşdu:

- Niyə orda dayanmısan! Yaxın gəl, çəkinmə və söylə görüm nə xəbər gətirmisən?

- Ey allahın rəsulu! sasanilərin paytaxtına çatdım və verdiyiniz naməni Sasani şahı II Xosrov Pərvizə çatdırdım! – deyə elçi cavab verdi.

- Səni necə qarşıladılar? – deyə peyqəmbər soruşdu.

- Ya peyğəmbər! Mən naməni oxudum və bunu eşidən kimi şah qəzəblənərək naməni əlimdən alıb cırdı! – deyə elçi pərt olmuş halda cavab verdi.

- Onda de görüm niyə bikefsən və niyə üzün gülmür? – deyə peyqəmbər soruşdu.

- Ya rəsuli əkrəm! II Xosrov məktubu cırmaqla yetinmədi və üzümə çırpıb məni hamının yanında təhqir və pərt etdi! – deyə elçi cavab verdi. Bunu eşidəndə peyğəmbər(s) gülümsədi və dedi:

- Onun cırdığı namə adi namə deyildi, o, Allahın istəyini cırıb sənin üzünə çırpıb və elə bu üzdən də onun sarayı da bu namə kimi tikələrə ayrılıb xar olacaq. Bundan sonra isə əli ilə qasidə işarə edərək dedi:

- İndi isə get bir az dincəl, yəqin çox yorulmusan!

Elçi gedəndən sonra o Ömər bin Xəttabı yanına çağırıb dedi:

- Ömər?

- Burdayam, ey Allahın rəsulu! – deyə Ömər bin Xəttab cavab verdi.

- Artıq nə edəcəyini bilirsən? – deyə peyqəmbər soruşdu.

- Elədir ki var, ey Allahın elçisi! – deyə Ömər bin Xəttab peyqəmbərin dediyini təsdiqlədi.

- Elə isə get və yerinə yetir! – deyə peyqəmbər sözünə davam etdi.

Ömər bin Xəttab da "Baş üstə ey allahın nəbisi"- deyib çıxıb getdi.

Peyğəmbər(s) evinin qarşısında olan xurma ağaclarının altında qurduğu sayəgahda bir gəbə sərmişdi və həmişə oraya

oturub dincələrdi. Hava çox isti olduğundan o yenə həmən sayəgahın altında oturdu, sonra isə əli ilə işarə edərək Əbu Bəkrə,Xalid bin Validə və Əli ibn Əbutalibə(ə) yaxın gəlmələrini və oturmalarını istədi. Onlar da peyğəmbərin(s) dəvətini qəbul edib yaxın gəlib yerə əyləşdilər, sonra isə Əbubəkr üzünü peyğəmbərə(s) tutub dedi:

- Ey allahın elçisi,farslar bizim elçimizi təhqir edib sənin naməni cırıq-cırıq etdilər və niyə də biz onların üzərinə hücuma keçmirik? Əbu Bəkrin sözlərinə dəstək verən Xalid bin Valid də dedi:

- Elə mən də onu demək istəyirəm ki,onların üzərinə ani olaraq hücuma keçək və zorla islama keçmələri üçün onları məcbur edək.

Bayaqdan olanları dinləyən Əli İbni Əbu Talıb(ə) Əbu Bəkrə və Xalid bin Validə dedi:

- İnsanları zorla istəmədikləri bir şeyə məcbur etmək olmaz və bu haqda Qurani Kərimdə “Ğul Ya Əyyuhəl kafirunə” surəsində açıq-aydın bildirilir. Əlinin sözlərinə dəstək verən peyğəmbər(s)sakit bir səslə dedi:

- Əli doğru deyir,islam məcburi qəbul ediləcək bir din deyil,əgər belə olsa, onda onun qüdrəti və təməli olmaz. O ki qaldı naməyə, o sadəcə namə yox, allahın buyuruğudur və Xosrov onu cırmaqla günaha düşdü, lakin gün gələcək onu misli ilə ödəyəcək. Farslara gəldikdə isə onlar da bizim qardaşlarımızdır. Onlar Allahın yolundan sapmışlar və bizim də vəzifəmiz onları doğru yola çəkməkdir. Ayrıca olaraq II Xosrov bütün İran demək deyil və o bütün İranın adından danışa bilməz,yalnız öz adından danışa bilər və beləcə onlar dağılışdılar.

***Vistəhmin üsyanı:*** Belə ki,ay dolandı, il dolandı islam peyğəmbərinin naləsi II Xosrov Pərvizi tutdu və o, böyük bir

bəlaya düçar olub taxtı başına yıxıldı. II Xosrov Pərviz atasını devirib onu taxta gətirən iki dayısı olan Vistəhm və Vinduyəni təltif edib onların ikisinə də vəzifə vermişdi.

Belə ki Vinduyə İspanbudan nəslinin vətəni olan Təbəristan və Xorasanı əhatə edən şərq kustakının Sebahpeti(mərzbanı) oldu. Lakin tezliklə II Xosrov öz fikrini dəyişərək atasının ölümü barədə düşünməyə başladı və o bu hadisədən özünü sığortalamaq üçün dayılarını edam etmək qərarına gəldi.

Ənənəvi olaraq Sasani monarxları hansısa zadəganların onlardan daha güclü olmasına imkan vermirdilər və II Xosrov Pərvizin belə bir qərara gəlməsində dayısı Vinduyənın həddən artıq güclənməsi də öz rolunu oynamışdı. Qardaşının yanına - şərq kustakına qaçmağa çalışan Vinduya tutularaq edam edildi. Bundan sonra II Xosrov Pərvizin digər dayısı Vistəhm açıq-aşkar üsyan etdi.

Dinəvərinin verdiyi məlumata görə, o Parfiya (Arşak) nəslindən olduğunu əsas gətirərək, Sasani taxtına iddia irəli sürüb dedi:” Sizin hakimiyyətə məndən daha çox haqqınız yoxdur, əksinə, İskəndərlə döyüşən II Daranın oğlu III Daradan gələn soyuma görə mən daha çox layiqəm o taxta. Siz sasanilər hiylə ilə bizim (Arşakilərin) üzərimizdə hakimiyyətə nail olmusunuz və üzürpasiya edərək bizim haqqımızı qəsb etmisiniz, sənin əcdadın Sasan isə çobandan başqa bir şey olmamışdır”.

Bəhram Çubun kimi Vistəhm də üsyanı tezliklə özünə çoxlu tərəfdar tapa bildi və geniş bir əraziyə yayıldı. Vistəhm Bəhram Çubinin bacısı Qordiya ilə evlənərək yerli zadəganları və Bəhramın ordusunun qalıqlarını özünə birləşdirdi. Tezliklə Vistəhm dasanilər imperiyasının Artavetiyə(Ərdəbilə) qədər olan şərq hissəsini ələ keçirdi və Vistəhm Transoksiana, Şauq və Parovik ərazilərinə hakim olan üç Eftalit şahzadəsini ələ keçirdi.

Vistəhm üsyanının tarixinin dəqiqliyi bilinmir, lakin o dövrə aid sikkələr onun üsyanının yeddi il davam etdiyini göstərir. Beləki, ümumi qəbul olunmuş versiyaya görə 590-596-cı illərdə bu üsyan baş vermişdi.Tezliklə Vistəhm Midiya ərazisini təhdid etməyə başladı və Vistəhmin rəhbərlik etdiyi üsyançılar Taleşan dağlarına sığındılar və oradan sasanilərə zərbə vurmağa başladılar. Bu zaman bir neçə Arminiya sərkədəsi də Vistəhmə qoşulur və II Xosrov Pərviz Arminiya hakimi Sumbat Baqratunini Vistəhmin üzərinə göndərdi. Tərəflər Gülüstan(Kumins) yaxınlığında üz-üzə gəldilər və mənbələrə görə Vistəhm II Xosrovun xahişi ilə,bəzi mənbələrə görə isə Qordiyanın xahişi ilə Pariovkdan olan Eftalit şahzadəsi tərəfindən öldürülür. Lakin buna baxmayaraq Vistəhmin tərəfdarları şah ordusunu məğlub edir və bu zaman II Xosrov yenə Baqratunini onların üzərinə göndərir.

***II Xosrovun devrilməsi və ölümü***: Dəstgerdin işğalından sonra aralarında İspahbudan nəslindən olan Fərruxzad Hörmüzd və onun oğlanları Rüstəm və Bavəndinin də olduğu sasanilər imperiyasının zadəgan ailəsindən olan şəxslər tərəfindən II Xosrov Pərvizin oğlu Qubadın önə çəkilməsinə başlanıldı. Mehrani sülaləsini Şəhrbaraz,Arminlər II Varaztriots Baqratuni,Kanarqları isə Kanadbak təmsil edirdi. 25 fevralda Aspad Guşnaspın müşayiət etdiyi Qubad Ktesifonu ələ keçirdi və II Xosrov Pərvizi taxtdan salaraq həbsə atdırdı. Özünü Sasanilər imperiyasının şahənşahı elan edən II Qubad, aralarında II Xosrov Pərvizin Şirindən olan sevimli oğlu Mərdanşahın da olduğu bütün qardaşlarını edam etdirir. Üç gün sonra isə II Qubad Mehr Hörmüzdə II Xosrovu öldürməyi tapşırır*(Bəzi mənbələr II Xosrovun oxla vurularaq yavaş-yavaş öldürüldüyünü qeyd edir)*.

Beləcə II Xosrov İslam peyğəmbərinin(s) naləsinə düçar oldu.*Şəkil.Xosrovun ölümü.*

***II Xosrov Pərvizin ailəsi:*** II Xosrov Sasani şahı IV Hörmüzün İspəhbudan sülaləsindən olan Vistəhm və Vinduyənin adı naməlum olan bacısından dünyaya gəlmiş oğlu idi. Xosrovun İspəhbudan sülaləsindən Mah-Adur(Azər) Güşnasp və Narrsi adlı iki əmiuşağı olmuşdur. II Xosrovun Hörmüzan adlı ögey qardaşı da olmuşdur ki, ərəblərin Sasani torpaqlarına yürüşü zamanı o,ərəblərə qarşı döyüşmüşdür. II Xosrov üç dəfə evlənmişdi; Birinci dəfə Qubad adlı oğlunun anası Bizans imperatoru Mavrikin qızı Məryəmlə, ikinci dəfə Cavanşir adlı oğlunun anası və Bəhram Çubinin bacısı Qordiya ilə, üçüncü dəfə Mərdənşahın anası Şirin ilə evləndi. Bunlardan başqa Xosrovun başqa qadınlardan Borandoxt, Azərdoxt, Şəhriyar və V Fərruxzad Xosrov adlı oğlanları da olmuşdur. Şəhriyar istisna olmaqla bütün bu övladlar 628-632-ci illər vətəndaş müharibəsi zamanı Sasani monarxları olmuşdular.

II Xosrovun Qubad adlı qardaşı, Mirhran adlı bacısı da olmuşdur. Mirhran Sasani sepahbedi Şəhrbarazla evlənmiş, daha sonra isə onların Şapur-i Şəhrvaraz adlı övladı dünyaya gəlmişdir. Qubad isə adı naməlum olan bir qızla evlənmiş və onun III Xosrov adlı övladı olmuşdur. Beləcə möhtəşəm II Xosrov Pərvizin sonu gəldi.

## *2.Ərəb basqınları*

***Taxt uğrunda mubarizə və III Yəzdigerdin hakimiyyətə gətirilməsi:*** İl keçdi,ay dolandı hər şey öz yerini tapdı. Belə ki İranda Dəstgerdin işğalından sonra aralarında İspəhbudan nəslindən olan Fərrux Hörmüzd və onun oğulları Rüstəm və

Fərruxzadın da olduğu sasanilər imperiyasının zadəgan ailəsindən olan şəxslər tərəfindən II Xosrovun oğlu II Gavad (Qubad)taxta çıxarıldı.

Mehrani sülaləsini Şəhribaraz, Kanarqları Kandbak təmsil edirdi. Belə ki Aspad Güşnaspın da komandanlıq etdiyi ordu ilə Qubad paytaxt Ktesifonu ələ keçirdi və II Xosrov Məhəmməd Peyğəmbərin(s) ön gördüyü kimi taxtdan salınaraq həbs edildi. Özünü Sasani imperiyasının şahı elan edən II Gavad(Qubad), aralarında II Xosrovun sevimli oğlu Mərdanşahın da olduğu bütün qardaşlarını edam etdirdi və üç gün sonra isə Qubad Mehr Hörmüzdə atası II Xosrov Pərvizi öldürməyi tapşırdı. Əyanların dəstəyi ilə II Qubad Bizans imperatoru I İrakli ilə sülh razılaşması əldə etdi və bu müqaviləyə görə bütün itirdiyi torpaqları geri qaytardı. Üstəlik 614-cü ildə Yerüsəlimdən götürülmüş əsl xaç və digər müqəddəs əşyalar da geri qaytarıldı. II Qubad 628-ci il fevralın 28-də xəstəlikdən vəfat etdi və yerinə III Ərdəşir gətirildi.

630-cu ildə Fərruxan Şəhrivaraz Ktesifonu ələ keçirib özünü şah elan etdi, lakin şahı özünə təhlükə görən Fərrux 40 gün sonra tacqoyma mərasimdə atdığı nizə ilə onu öldürdü. Şahın yerinə 630-cu ildə II Xosrov Pərvizin qızı Borandox(Purandoxt) gəldi.Borandoxt*(Yağışın qızı)* da 632-ci ildə bacısı Azərdoxtun adamı, Fəruxan Şəhrivarazın oğlu Vşapur tərəfindən taxtdan endirildi yerinə bacısı Azərdoxd 632-ci ildə gəldi.

Bu zamanlarda 630-cu ildən 632-ci ilə qədər rəsmən İran taxtında II Gavadın oğlu III Ərdəşir hökmdarlıq etdi. Buna baxmayaraq hakimiyyət Borandoxtun əlində idi və Fərrux Hörmüzd bundan sonra özü şahlıq iddiasına düşdü və özünü “İranın sütunu” elan etdi və V Hörmüzd adı ilə pul zərb etdirdi. Lakin bir il sonra Azərmedoxtun tapşırığı ilə Bəhram

Çubinin nəvəsi Siyavəhş Mehrani tərəfindən öldürüldü. Xosaranda onun yerinə oğlu Rüstəm Fərruxzad mərzbanlıq etməyə başladı. Nəhayət, 16 iyun 632-ci ildə hakimiyyətə sasanilərin 38-ci və ya sonuncu şahı olan III Yəzdigerd gətirilid və zərdüşt təqvimi onun hakimiyyətə gəldiyi ildən hesablanır. O,624-cü ildə Ktesifonda dünyaya gəlmişdir və atasının adı Şəhriyar idi. III Yezdəgerdin həyat yoldaşı Maynanh adlı qadın idi və onun Niket, Mardanavar, Cahanşah, Adrak adlı dörd qızı və Firuz və Bəhram adlı iki oğlu var idi. O, 651-ci ildə Mərv şəhərində qətl edilmişdir və onun hakimiyyətə gəlməsi belə baş vermişdir. Belə ki, qarışıqlıqdan istifadə edilərək 632-ci ildə gənc yaşlarında hakimiyyətə gətirildi və hakimiyyətinin ilk illərində dövlət işləri ilə məşğul ola bilmədi. Dövləti onun adından yüksək rütbəli əyanlar idarə edirdilər. Onun hakimiyyətə gəldiyi vaxtlarda daxili münaqişələr,saray çəkişmələri,əyanların özbaşınalığı artmışdı. Həmin dövrdən başlayaraq ərəb hücumları kəskinləşmişdi. O, sasanilərin əzəli düşməni olan Bizansla münasibətləri qaydaya salmaq üçün Bizans imperatoru Herakılın oğlu Konstantinin qızı Maynanh ilə evləndi. Bu evlilikdə III Yəzdigerdin məqsədi ölkənin vəziyyətini yaxşılaşdırmaq və Bizansdan kömək almaq idi,lakin bu tədbirlər imperiyanın süqutunun qarşısını ala bilmədi.

## *3.İraqın işğalı*



Ərəblərin İraqa basqını iki istiqamətdə baş verdi; birincisi Dəclə - Fərat çaylarının birləşdiyi yerdən Musənna və Xalidin orduları buradan hərəkət etməli, ikinci istiqamətdən isə İyadə ibn Qamənin komandanlığı ilə olan ordu Hirədə(11)digər ordularla birləşməli idilər. Birinci və ciddi yolla Xalidin ordusunun hərəkəti gəlib Havan Obololaya çatdı. Bu yerdən iranlılar Hindistanla canlı ticarət edir, həm də sasanilərin dəniz donanması burada yerləşirdi. Bəluzari xəbər verir ki, Obollanın civarında Xalid gələnə qədər bakirilərin partizan dəstəsi quldurluq edir və onların başçısı Süveyd ibn Kütbə idi. Qarnizon ətrafdakı bədəviləri məhv etməyə hazır idi . Lakin Xalidin dəstəsinin gəlməsi buna mane oldu və İran dəstələri geri çəkilərək şəhər divarları arxasında müdafyəyə keçdi və bu halda ərəb ordu komandiri hiyləyə əl atdı. Xalidin əmri ilə onun qoşun hissələri gündüz vaxtı öz döyüş mövqelərini tərk edərək Hirə istiqamətinə hərəkət etməyə başladılar. Lakin gecə vaxtı isə Suvaydın düşərgəsinə qayıdırdılar, səhər isə iranlılar hücuma keçdilər, ncaq onlar məğlub oldular (12).

11.Bax: Təbəri I,s.2020,stok.14-242;c.2022,stk.1-4;İbn əl-Əsir 2,s.294.

12.Bax: Bəluzari,mətn,s.241-242,fars.təcümə,s.36;ing.tərcümə,t.1,s.288)

Ərəblər bu dəfə də Obollu tuta bilmədilər, çünki orta əsr müəllifləri bu döyüşdə iranlıların hansısa bir şəhəri itirdikləri haqda bircə dənə də olsun məlumat vermirlər. Hətta Bəluzari də məlumat verir ki,iranlılar bu döyüşdə böyük itki verərək geri çəkildilər.

İbn əl-Əsir XII bölmədə Obollunun tutulması və itkilər haqda çox qısa məlumat verir. Lakin bu haqda geniş olaraq daha sonralar məlumat verməyə başlayır(13). Nəhayət ki, Bəluzarinin başqa versiyasına görə Aballonun tutulması Ütbə ibn Qəzvanın adı ilə bağlanılır və bu hadisənin Hirənin tutulmasından sonra baş verdiyi qeyd edilir(14). Sonuncu variant daha inandırıcıdır. Mənbələrə görə Obollu şəhəri Xalid ibn Validə xərac verməyi qəbul edir(15).

Ərəblər qısa bir zaman ərzində kiçik döyüşlərlə sürətlə irəliləməyə başlamışdılar və Səfər ayının 12-də(aprel-may 633) Xalid yeni İran ordusu ilə üz-üzə gəldi. Bu ordu Sasanilərin paytaxtından Hörmüzanın köməyinə göndərilmişdi və bu ordunun başında erməni əsilli Karen dururdu(16)

Abolludan şimal-qərbdə yerləşən Məzar məntəqəsi Qazim şəhərindən qaçıb canını qurtarmışdı. Lakin köçkünlərlə dolmuş və Məzar məntəqəsinin Sini adlı yerində Xalid yenə qələbə qazandı. Burada İranın tanınmış sərkərdələri olan Karen, Gavad, Fnuşəcan qəhrəmancasına həlak oldular.
İranlılar bu döyüşdə 30 min nəfərə yaxın əsgər itirdilər və buraya hələ çayda boğulanlar daxil deyildi. Sağ qalanlar isə qaçmağa başladılar, Xalid böyük qənimət ələ keçirdi və onun bir hissəsini Mədinəyə göndərdi. Ərəblər həlak olmuş İran sərkərdələrinin ailə üzüvlərini, qızlarını və arvadlarını əsir

---

13.Bax:İbn əl-Əsir 2,s.295.
14.Bax: Bəluzari,mətn,s.341
15.Bax: J.B.Glubb.The Great Arab Conquests,s.126.
16.Bax: Bax:Ərəb mənbələrində - Karen ibn Karyanus).

sərkərdələrinin ailə üzüvlərini, qızlarını və arvadlarını əsir götürdülər . Əsir düşənlərin arasında ərəb-xristian olan iki bütpərəst ərəb də var idi ki, sonunda onlar islamı qəbul etdilər. Xaild iki məsul sima seçdi və onlardan biri orduya müvəqqəti komandanlıq etməli, digəri isə vergiləri toplamalı və yeni hərbi əməliyyatlar hazırlamalı idi(17).

Orta əsr müsəlman müəllifləri olan Bəluzari, İstəhri və Təbəri kimi şəxsiyyətləri bu haqda məlumat verərkən hadisələrə öz bildikləri kimi müxtəlif səpkidə yanaşmalar edərək ayrı-ayrı nəticələrə gəlmişlər.

Bu da onu deməyə əsas verir ki, ərəblərin İraqı işğalı islamın təməl ideyalarından olduqca kənar olmuşdur. Bu basqınla islam dinini yaymaqdan çox işğalçılıq və soyğunçuluq xarakteri daşımışdır. Çünki islam peyğəmbəri özünün heç bir kəlməsində və ya hədislərində insanlara qarşı bu cür soyğunçu qaydaların olmasını dilə gətirməmiş və belə qərarlar verməmişdir. Bu səbəbdən də müəlliflərin hər biri özünün bildiyi formada məlumatları dəyərləndirmiş və bu məlumatlar biri-birindən yalnız kiçik ixtisarla biri-birinə oxşayır. Onlar hərbi əməliyyatları da müxtəlif formada qələmə almış və bizə ötürmüşlər. Əgər müəlliflərin fikirləri haradasa həqiqətə əsaslanırsa, onda bu xronoloji ardıcıllığa görə baş vermişdir. Müəlliflərin məlumatlarındakı çaşdırıcı məqam Təbəri, İbn Əl-Əsirin hadisələrinn Şiruyə və Ərdəşirin dövründə, Hörmüzdün Ərdəşirə və Şiruyəyə məktubudur. Bu məktubda Hörmüz onlardan kömək istəyir. Burada Ərdəşiin Hörmüzə fasiləsiz kömək etməsi bu məsələnin xronologiyasında çaşqınlıq yaradır. Bu da iraqın işğalını 4-5 il

17.Bax:Təbəri I,a.2026 - 1029; İbn əl-Əsir 2,s.295 - 296; Bəluzari, mətn, s.242;ingl.tərcümə ,t. 1,s. 389; fars.tərcümə, sas. 37; A. Caussin de Perceval. Essai...T. 3, s. 403 - 404; G. Weil.Geschichtr der Chaliofen...Bd 1,s.32.Qlabbda bu döyüş haqqında hekayə buraxılmışdır).

əvvələ, yəni 629-630-cu illərə aparırb çıxarır, ya da qəbul etməliyik ki, 633-cü ildə farslarda şahənşah Şiruyə olmuşdur. Lakin sübut olunmuşdur ki,sasanilər sülaləsinin sonuncu şahənşahı Şiruyə yox, III Yezdəgerd olmuşdur və onun dövründə İranın ərəblər tərəfindən işğalı başlamışdır. Təbəri özü İraqın işğalından danışarkən məlumat verir ki, Əbu Bəkirin xəlifəliyi dövründə farslar III Yezdəgerdi şahənşah etdilər(18). Lakin İbn əl-Əsir və Bəluzari xronoloji cəhətdən çox azadırırlar və ərəb qoşunlarının Məzar yaxınlığında qələbəsi Dəclə və Fərat çaylarının qərbindəki Kaşqar məntəqəsinin hakimiyyətini ona verdi. O, demək olar ki, müqavimətsiz olaraq Zəndavərd, Durna, Hörmüzkert(19) məntəqələrini idarə edirdi. Qızğın döyüşlər Valac yaxınlığında baş verdi və burada Xalidlə İran sərkərdəsi Andarzqar üz-üzə gəldilər(20): الأَنْدَرْزَغَرْ .Bu döyüşdə İran tərəfdə yerli dehqanlar və Kaşqarın və Hiranın yerli ərəb-xristianlar vuruşurdular. Andarzqar özü Baildən olan metis idi və döyüşün gedişini Xalidin əmri ilə qurulmuş tələ həll etdi. Andarzqarın komandanlığı altında olan şah ordusu böyük itki verərək qaçmağa başladılar.Müsəlmanlar şəhid olmuş İran döyüşçülərinin ailə üzvlərini, övladlarını əsir etdilər və kəndlilərdən isə xərac verməyi tələb etdilər. Bu hadisə də 633-cü ilin aprel-may aylarında baş verdi(21). Andarzqarın müsəl-

18. Bax: Təbəri I,s.1869,stk.19-24)25..

19. Bax:Bəluzari,mətn,s.242;ingl.tərcümə,t.1,389;fars.tərcümə,s.37.Təbəri və İbn əl-Əsir onlar haqda məlumat vermirlər və darhal Valac hadisələrinmə keçirlər.

20. Bax: Bu الأَنْدَرْزَغَرْ dəqiq forma ilə yanaşı digər siyahılarda müxtəlif formada rast gəlinir. Bu sözün muxtəlif izahı və adı haqda bax;Th.Nöldeke. Geschichte der Perser und Araber zur Zeit der Sasaniden.Leyden,1879,s.462.

21. Bax:Təbəri I,s.2029-2031;İbn əl-Əsir 2,s.296.28.

manlarla savaşan dəstələri 40 minlik süvarilərdən ibarət idi və bu dəstələrə Bəhmən Caduyə rəhbərlik edirdi.

Dəqiq məlum deyil ki,bu qədər orduları olan iki güclü sərkərdə niyə biri-biri ilə əlaqəyə girmədən təklikdə hər ikisi məğlub edilərək məhv oldular. Çünki tarixçi bunu izah etmir, sadəcə döyüşün baş verdiyi tarixi və yeri haqda məlumat verir. Məlumata görə Valac yaxınlığındakı döyüşdə, döyüş vaxtı Bəhmən Andarzqardan çox uzaqda olmuşdur. Lakin Təbəri qısa da olsa ipucu verir ki, Bəhmən bilmədən yolu çaşaraq Andarzqardan uzağa düşür(22). Ancaq digər mənbələr məlumat verir ki, Andarzqar özünə çox arxayın olduğundan ərəblərin yeni qüvvəsinin gələcəyini hesablamamış və bu üzdən də məğlub olmuşdur(23).

Valac yaxınlığındakı döyüşdən sağ çıxmış dəstələrinin və yerli ərəb-Bakiri –xristrian dəstələrinin qalıqları ilə İran ordusu Olleysə çəkild(24). Andarzqar geri çəkildikdən sonra şahənşahdan yenidən ordu istədi və Şahənşah da Bəhmən Caduyəyə əmr etdi ki, Xalidin ordusu gələnə qədər Andarzqarla birləşsin və Xalidi geri otuzdursun.Bu dəfə farsların müttəfiqləri bakirilərdən başqa Hirənin Taym-əllat, Dubay kimi yerli qəbilələri də var idi. İran qoşunlarının bu dəfəki sayı da ərəblərdən qat-qat üstün idi, lakin İran ordu komandanlığı yenə də döyüşü birinci başlamadı.

Bəhmən öz ordusunu Oleysin hakimi olan dehqan Cabanın rəhbərliyinə verdi, özü isə şahənşahla məsləhətləşmək üçün paytaxta şahənşahın yanına qayıtdı. Bəhmən Cabana paytaxtdan yeni qüvvə gələnə qədər ərəblərlə döyüşü bir qədər ləngitməyi əmr etmişdi. Lakin döyüş müsəlman ərəbləin

22. Bax:Təbəri I,s.2030,stk.4-5)29
23. Bax: H.Zotenberg.Chorinque...T.3,s.328).
24. Bax: Qlabbın fikrinə görə ,Olleys Dəclə çayının qərb sahilində,indiki Samava şəhərinin yaxınlığında yerləşirdi(J.B.Glubb.The Great Arab Conquests,s.128).

paytaxtdan yeni qüvvə gələnə qədər ərəblərlə döyüşü bir qədər ləngitməyi əmr etmişdi. Lakin döyüş müsəlman ərəbləin provakasiyası nəticəsində gözləmədən baş verdi. Xalid 12 minlik qoşunla iranlıların üzərinə yürüdü, bu zaman farslar günorta yeməyində idilər və baş vermiş qızğın döyüşdən sonra qələbə yenə müsəlmanların oldu.İranlıların bu yeni məğlubiyyətin səbəbi isə çox idi və əsas səbəb kimi köçəri və cəld bədəvilərin oturaq fars və xristian ərəblərdən daha cəld və çevik olması və daha yüngül zirehə malik olması idi(25). Bundan əlavə Xalid düşmənin hücum taktikasını daha yaxşı mənimsəmişdi.

Təbərinin məlumatına görə, şah ordusu tərəfində bir neçə ərəb qəbiləsi vuruşurdu. Lakin onlar ərəb dilində danışır, fars dilini bilmirdilər və elə bu səbəbdən də iran ordusunda vahid komandanlıq yox idi. Digər məlumatlara görə isə ərəb qəbilələri biləndə ki, iranlı komandan Bəhmən orduya rəhbərliyi yerli dehqana verib onda onlar vuruşmaqdan imtina etdilər(26). Bütün bunları nəzərə alsaq, deyə bilərik ki, burada əsas Xalidin rəhbərliyi yox, onun sərkərdəsi Müsənna ibn Haris idi, hansı ki “qan çayında” qələbə qazanmışdı(27). “Qan çayı”nda qələbə qazanandan sonra müsəlman orduları Olleys nahiyəsinin mərkəzi olan Amiqişə soxuldular. Əhalinin aman istəməsinə baxmayaraq ərəblər şəhər əhalisini xüsusi qəddarlıqla qılıncdan keçirib doğradılar və onlar evlərin içərisinə soxulur və qadın-uşaq demədən hamısını qılıncdan keçirib tikə-tikə doğrayırdılar(28). Amiqişiy şəhəri ərəblər

25. Bax: Təbəri I,s.2033,stk.9-10;”Eləki Xalid onlara çatdı, O,dayanmağı və yükləri boşaltmağı əmr etdi”; İbn əl-Əsir2,s.297
26.Bax:H.Zotenberg.Chronique...T.3,s.329.Yenə də hansısa ərəb qəbilələri farsların tərəfində vuruşurdular:Təbəri(I,s.2023,stk.1-45) və İbn əl-Əsir(2,s.297) Xalidin Malik ibn Qeyslə olan təkbətək döyüşü barədə xəbər verir.
27.Bax: Bəluzari,mətn,s.242;ingl.tərcümə,t.1.389-190;Təbəri I,s.2018-2019.
28.Bax: Təbəri I,s.2037,stk.1-9;İbn əl-Əsir 2,s.298.

tərəfindən tutulandan sonra növbə Hiraya gəldi və bu məntəqənin işğalı Təbərinin, Balamiİbn əl-Əsir, və Bəluzarinin yazılarında öz əksini kifayət qədər tapıb(29). Belə ki Hirə sasanilərin Fərat çayının qərbində yerləşən əsas istehkamı idi, çünki Hirədə mərzbanın iqamətgahı yerləşirdi. Hirənın mərzbanı Azərbeh idi və o tanınmış Ari əsilzadə soyundan gəlirdi. O,Amqişiy şəhərinin ərəblər tərəfindən tutulmasını və Xalidin Hiraya doğru gəlməsini öyrənən kimi ona qarşı hərbi təlimlər etdi. O qoşunla öndə öz oğlunu göndərdi və özü isə şəhərin qapılarında öz ordusu ilə gözləmədə durdu. Bu zaman Xalidin zərbəçi dəstələrinin bir hissəsi sərkərdəsi ilə Fəratın Hirədən başlayan qolu olan Furat-Badakla yuxarı hərəkət edirdi və buraya suvari dəstələr daxil idi.Müsəlmanların Amqişiydə ələ keçirdikləri qənimətlər gəmilərə yüklənmiş vəziyyətdə idi və Fəratın qolu olan Furat-Badaklı ilə Hiraya doğru hərəkət etməyə hazırlaşırdı. Lakin farslar Fəratın bu qolunun qarşısını elə onun başlanğıcında kəsib suyun axarını ayrı səmtə yönəltdilər. Bunu nəticəsində Xalidin bütün donanması dağıldı, amma gəmilərin batırılması ərəblərin qarşısını ala bilmədi. Belə ki ərəblər mərzbanın oğlunun komandanlıq etdiyi öndə gedən ordunu məğlub etdilər və farslar tərəfindən çayın tutulmuş bəndi dağıdıb yenidən öz gəmiləri üçün hərəkətə gətirdilər. Azadbeh oğlunun məğlubiyyət xəbərini eşidən kimi Hiranı döyüşsüz təslim edib Mədainə çəkildi.Vəhşi və qəddar ərəblərin əlinə qalan yerli xalq öz gücü sayəsində müqavimət göstərdi və burada Hirə qalasının divarları da mühüm rol oynayırdı. Hirənın qoruyucu-

29. Bax: Təbəri I,s.2019,2037-2047; [H.Zotenberg].Chronique...T.3,c.321-322,330-335; İbn əl-Əsir 2,s.294,298-300; Bəluzari, mətn,c.242-244; ingl. tərcümə,t.1,s.390-392. Digər tədqiqat ədəbiyyatında buna uyğun olaraq yazılmışdır A.P.Caussin de Perceval. Essai...T.3,c.405-409; An-Numan Abdal-Mutaal al-Kada. Şir al-Fütuh...,s.55-56).

ları Qəsr əl-Übeyd,Qəsr əl-Qərəyin,Qəsr əl-Banu Mazin və Qəsr əl-Bukəylə qəsrlərinə çəkildilər(30).
Xalid dərhal hücuma keçdi, çünki Hirə xalqı Xalidin qalaya göndərdiyi üç tələb olan 1.İslamı qəbul etmək. 2.Xərac vermək. 3.Döyüşmək kimi tələblərindən yalnız 3-cüsünü qəbul etdilər. Müsəlmanların yüngül silahları qarşısında Hirə divarları keçilməz idi, lakin azacıq qan tökülməsindən sonra şəhərin təmiz qanlı xristian ərəbləri müsəlman ərəblərdən sülh istədilər və illik xərac verməyə razı oldular(31)

Bu müqavilənin bağlanmasında Hiranın əsasən müsəlman ərəblərdən zərər görmüş kilsə və ibadətgahların monarxlarının təşəbbüsü olmuşdur. Balami yazır ki, Hirənın işğalından sonra yerli dehqanlar da müqavməti dayandırdılar və müqavilə əsasında öz qalalarını,mallarını və canlarını satın aldılar(32). Şəhərlərin ardı-ardınca ərəblərin əlinə keçdiyi bir dönəmdə sasanilər sarayında da vəziyyət ürəkaçan deyildi. Beləki qızğın döyüşlərin getməsinə baxmayaraq paytaxt Mədaində bitmək bilməyən saray intiriqaları, korrupsiya, məmur özbaşınalığı gedirdi. Qısa bir zamanda bir neçə dəfə hakimiyyətin dəyişməsinə gətirib çıxarmışdı ki, bu da ərəblərin iran ordularını məğlub etməsini asanlaşdırmışdır. Bir il ərzində, III

30.Bax:Təbəri I,c.2039,stk.2-7;İbn əl-Əsir 2,s.298.Dinəvəri(s.117) xəbər verir ki,Hirəinin sakinləri üç məntəqədə gizləndilər,lakin onların adlarını vermir.Bəluzaridə(mətn,s.244;ingl.tərcümə,t.1,s.391) adı çəkilmiş Qəsr əl-Ubeyd,Qəsr İbn Bukəylə və Qəsr əl-Ədəsiyin).

31.Bax:Təbəri I,s.2041,stk.6;”təmizqanlı ərblər və digər ərəbləşənlər

32.Bax:H.Zotenberg.Chronique...T.3,c.333)39.).Belə ki,Hiranın 1-ci işğalı rabi ayının 1-12-də baş verdi.(633-cü lin may-iyun).(Bax:Təbəri I,s.2045,stk.4-5;İbn əl-Əsir 2,s.300;A.P.Causin de Perceval.Essai...T.3,s.409)

33.Bax:Bu hökmdarların kiçik xüsusiyyətlərlə olan dəqiq siyahısı müsəlman xronikasının Sasanilərin hakimiyyətinin sonu və islama keçidin başlanması hissəsində mövcuddur.İranın Ərəblər tərəfindən işğalına həsr olunmuş əsas hissədə III Yezdegerdə qədər(Təbəri və İbn əl-Əsirdə) Fərruxzadın yerinə Şiruyə və Ərdəşirin hakimiyyətdə olduğu qeyd edilir).

Yezdəgerdin hakimiyyətə gəlməsinə qədər olan bir il ərzində İran taxtına ardı-ardınca bir neçə şah taxta çıxdı və bunların son nümunəsinə Fərruxzad daxil idi. (33). Şiruyənin zamanında o uşaq idi və İran taxtına ardı-ardınca bir neçə şah taxta çıxdı. Bunların souncusu uşaq idi və bu səbədən də edamdan qaça bilmişdi, lakin sonralar o taxta öz iradəsi olmadan əyləşdirilmişdi. Çünki o dövlət işlərindən əsla baş çıxarmırdı və ağıldankəm sayılırdı. Bu vəziyyətdən də onu hakimiyyətə gətirənlər ən çox xeyir görür və qazanc əldə edirdilər(34) və bu sadəcə 6 ay davam edə bildi və bu səbəbdən də vahid dövlət və ya komandanlıqdan söz belə gedə bilməzdi. Nəhayət, 632-ci ilin sonu, 633-cü ilin əvvəllərində hakimiyyətə Fars əyalətinin əmiri olan Şəhriyarın oğlu III Yezdəgerd gətirildi və o, sonradan Mədainə doğru hərəkət etməyə başladı(35). Sasanilərdən alınan Hirə Fəratın şərqində bir müddət müsəlman ordularının hərbi bazası rolunu oynadı.O öz iqamətgahından sərhədboyu məntəqələrdə vergi yığımlarını belə idarə edirdi.Ərəblərlə Farsları ayıran yeganə maneə Fərartın qollarından biri olan Sib çayı idi. Sərhəd məntəqələrin hakimlərinin qarnizonları vaxtaşrı bu çayı keçib Dəclənin sağsahili münbit ərazilərini qarət edib soyurdular(36). Tezliklə Xalidin iqamətgahı əl-Fəlləcdən Obollaya köçürüldü və Xalid Hiraya gəldiyi. Belə ki o, iki ay ərzisində xəlifənin tapşırığı ilə vergiləri toplayıb tezliklə İyadın köməyinə getdi və onun yerinə isə canişin olaraq Qaqa bin Əmr təyin olundu. Təmim qəbiləsinin başçısı olan Müsənna bin Həris isə Hirədəki müsəlman ordularına komandan olaraq təyin olundu və burada Müsənna paytaxt Ktesifonun cənubunda farslara qarşı dayanmışdı(37).

---

34.Bax: Farsnamə,s.111,stk.3-4

35.Bax yenə orda,stk.5-11)43

36. Bax:Təbəri I,c.2052,stk,8-13;,İbn əl-Əsir 2,s.300.

Xalidin ordusu Fəratın qərb sahillərinin içərilərinə doğru hərəkət edərək Kərbəlada qısa müddətli olaraq düşərgə saldı və Kərbəladan hərəkət edən Xalid sonra çayı keçib Anbar qalasının əsasını qoydu(Peroz Şapur). Anbar yuxarı cəzirə ilə Mesopatomiyanın ucunda yerləşirdi və burada Babilin münbit torpaqları yerləşirdi. Anbar ən şimal nöqtə idi və öz strateji əhəmiyyətini qoruyub saxlayırdı və şəhər öz möhkəm qala divarları ilə qorunurdu. Lakin Hirənin ətrafında arxeoloqlar heç bir divar qalıqları aşkar etməyiblər. Belə ki Anbarda Sasanilər Bizansa səfər zamanı öz ordularını cəmləşdirirdilər(38). Əvvəllər bu ərazidə ləhmilər padşahlığının əzəməti mövcud olmuşdur və ləhmilərin paytaxtı olan Hirədə padşah sasanilərin vassalı olan Numanın sarayı da var idi(39). Anbar da Hirə kimi ərəb şəhəri idi və müsəlman ərəblərə qarşı duran Anbar qarnizonunun tərkibi xristian ərəblərdən və farslardan ibarət idi. İran ordusunun başında Səbatın hakimi əfsanəvi Şirzad dururdu: Belə ki o, farslar arasında ən alicənab və təcrübəli sərkərdələrdən biri hesab olunurdu(40). Döyüşün ümumi şəkli belədir

Başlanğıcda müsəlmanlar iranlıların ox atəşi ilə geri çəkildilər(41) *və* ərəblər nə qədər ki, ox atışı məsafəsində idilər şəhərin qala divarlarına yaxın düşə bilmirdilər. Lakin müsəlmanlar öldürülmüş dəvələrin və müsəlmanların meyitləri ilə dar bir yol düzəldən kimi qla divarlarına yaxınlaşdılar.

---

38.Bax:J.B.Glubb.The Great Arab Conquests,c.130;R.N.Frye.The sasanian System of Walls for Defense.-Studies in memory of Gaston Wiet.Jerusalem,1977,s.10-11)47

39.Bax: Bəluzari, mətn,c.246;ingl.tərcümə,t.1,c.394-395.Şəhərin adının mənası İbn əl-Əsirdə var(2,c.301

40.Bax: Təbəri I,s.2059, stk.13. A.P.Kossen de Perseval (Essai...T.3,c.412) onun mərzbanı adlandırırlar, lakin bu haqda mənbələrdə heç bir məlumat verilmir

41. Bax: Deyilənlərə görə onlara qismət oldu Anbarın 1000(bəzi mənbələrə görə 2000) müdafiəçisini kor etmək nəsib olduqədər güclü idi ki, Şirzad başa düşdü ki, şəhər çox tab

Önlar öz müttəfiqləri ilə birgə hücuma keçdilər. Hücum o gətirməyəcək və bundan sonra təcrübəli Şirzad öz ordusuna paytaxta doğru geri çəkilmə əmrini verdi. Şirzad geri çəkilərkən Hirədən paytaxta olan 2 fərsəxlik məsafədə Bəhmən Caduyənin komandanlığı altında olan İran ordusunun əsas hissələri dururdu.Belə ki mənbələrə görə ərəblər Anbar məntəqəsini 633-cü ilin sentyabrında tutdular(42). Şəhəri tutan müsəlmanlar əhali ilə sülh müqaviləsi bağladılar, sonra isə bütün Anbar nahiyəsi tabe edildi. Anbar şəhərindən sonra növbə Ayn ət-Təmr məntəqəsinin idi və bu şəhər Anbardan cənub-qərbdə Suriya səhrası ilə sərhəddə yerləşirdi. Bu ərazi indiki Şitat məntəqəsi yaxınlığındadır, lakin başqa mənbələrə görə isə qədim Ayn ət-Təmr Kərbəladan təqribən 120 km aralıda yerləşmişdir və indi bu ərazidə eyni adda məntəqə var(43). Bəluzarinin yazılarının yarısı almancadır və XX əsrdə meydana çıxan nəşrlər ərəb tarixçisi Səlahəddin Münəcidin yazılarını(1956) nəzərə almasaq, ümumilikdə De Quyenin yazılarını təkrar etmişlər).Ayn ət-Təmr qarnizonunun tərkibi Bəhram Çubinin oğlu Mehranın komandanlığı altında olan seçmə şah dəstələrindən ibarət idi. Bundan əlavə bu ordunun tərkibində Akka ibn Əbu Əkkənin başçılığı ilə yerli xristian ərəblərdən ibarət döyüşçülər də var idi. Nabrikanı Anbara canişin təyin edən Xalid Ayn ət-təmrə doğru hərəkət etdi. Lakin elə ilk başdan farslarla onların müttəfiqi olan xristian ərəbləri arasında müsəlmanları kimin ilk qarşılayacağı mövzusunda söz ayrılığı yarandı. Belə ki Akka Mehranı

---

42. Bax:J.B.Glabb.The Great Conquests,127.Map XII.Mənbələrdə hicri tarixi göstərilməyib.Hadisənin tarixi əsaslandırılmışdır.Qeyd edilmişdir ki, Xalid Hirədə 2 ay qalıb və vergiləri toplayıb.Bu şəhərin işğal tarixi isə tədqiqatçılara məlumdur
43.Bax: Yenə orda,s.130; El.New Edition. Vol. 1, Leiden-London,1960, s.788.F.P.Kossen de Prsval(Essai...T,s.413) səhv olaraq Ayn ət-Təmri Anbar məntəqəsindən üç günlük məsafədə və onun şimal-qərbində yerləşdirmişdir. O.Q.Bolşakov hesab edir ki,həqiqətən, indiki də Ayn ət-Təmrmövcud deyil.

inandırdı ki,ərəblərə qarşı yalnız ərəblər vuruşa bilər və sonra isə müsəlmanlara qarşı farslarsız ilk döyüş üçün icazə aldı(44). Mehran öz atlı dəstələri ilə qalada qaldı, yolda xristian ərəbləri müsəlmanlar qarşılayaraq Akka əsir götürüldü və onun dəstəsi müqavimət göstərmədən qaçdı. Xristian ərəblərin məğlubiyyət xəbərini eşidən Mehran qalanı tərk etdi və Akkanın qoşunlarının qalıqları hansı ki, tərkibində xristian ərəblərdən başqa qeyri-ərəblər də var idi. Onlar qalaya daxil olub bir neçə gün orada müdafiə olundular. Qaladakılar bir neçə gündən sonra Xaliddən sülh istədilər, lakin Xalid onların bu istəyini geri çevirib dərhal sözsüz-şərtsiz təslim olmalarını tələb etdir( və onlar da təslim oldular(45)

Xalidin əmri ilə ilk öncə Akka,sonra isə xristian ərəblərin digər komandanı Əmr ibn əs-Saik edam edildi və aman istəmələrinə baxmayaraq təslim olan bütün qala müdafiəçiləri də bir nəfər kimi edam edildilər(46). Xalid qaladakı xristian kilsəsindəki 40 nəfər şagirdi bağışladı və onları öz sərkərdələri arasında böldü. Bundan sonra vəhşi ərəbblər şəhəri qarət etdilər və bu islamın təməl ideyalarına və peyğəmbərin(s) buyuruğuna zidd idi və bu hərbi cinayət idi.

Xalid öz İraqdakı hərbi misiyasını islamın təməl ideyalarına və peyğəmbərin(s) buyuruqlarına zidd olaraq çox böyük qəddarlıqla son qoydu.Xalid bin Valid əvvəllər bütpərəst idi və o, islam peyğəmbərinə(s) və müsəlmanlara nifrət hissi ilə yaşayırdı və buna görə də çoxlu müsəlman qırmışdı. Bu üzdən də onun qılıncı islam qarşısında ən kəskin qılınc sayılırdı, lakin sonralar məcbur qalıb islamı qəbul

---

44.Bax: Təbəri I,s.2062, stk.12-14; İbn əl-Əsir 2,s.302; [H.Zotenberq] .Chronique...T.3,s.338; G.Weil.Geschichateder Chalifen...Bd1,c.36;A.P.Caussinder Perceval.Essai...T.3,s.413.

45.Bax: Bəluzari(s.246-247) heç yerdə iranlıların qaladan çəkilmələri barədə qeyd etmir.

46. Bax: Təbəri I,s.2063,stk.15-16;[H.Zotenberg] Chronique...T.3,s.338

edən Xalid bin Valid müsəlman ordularına komandanlıq edərək fəthlərdə iştirak etmiş və təslim olanlara aman vermək əvəzinə onlara xüsusi qəddarlıq göstərərək əzabla öldürmüşdür. O özünün bu hərəkətləri ilə və müsəlmanları hər vəchlə gözdən salmağa çalışırdı və İraqın istilası buna əsl sübutdur.

Canişinini Ayn ət-Təmrdə qoyan Xalid qoşunu qərbə tərəf apardı. Qərbdə Dumat Əl-Candal vadisində digər müsəlman komandanı olan İyad bütpərəst ərəblərə qanlı divan tutmuşdu. Belə ki sözdə islamın yayılması adi işğala və günahsız insanların qətliamına çevrilmişdi, lakin o bütpərəst ərəblərin köməyinə səhradan onların köçəri qohum qəbiləsi gəldi. İlk döyüşdə İyad özü üzük qaşı kimi mühasirəyə alındı və müsəlmanlar məğlub oldular,amma təslim olmadılar,belə ki onlar müqaviməti Xalid gələnə qədər davam etdirdilər.

Nəhayət, Xalid gəlib çatdı və ilk döyüşdə bütpərəst ərəblər məğlub oldular və onların bütün baş bilənləri edam edildi. Beləliklə, Xalidin tarixinə yeni bir qəddarlıq yazıldı. Xalidin getməyindən istifadə edən və əvvəllər Ayn at-Təmrdə məğlub olan cəzirə ərəbləri Zərmehr və Ruzbehin komandanlığı altında olan iki seçmə şah qoşunlarının dəstəyi ilə indiki Bağdad məntəqəsindən hərəkətə keçərək Anbara doğru hücum etdilər. Onlar sonralar Hüseyd və Hənəfis məntəqələrini təhdid etməyə başladılar. Anbarın canişini Zabrikanın xahişi ilə Hirədə olan canişin Qəqə bin Əmr müdafiə üçün iki dəstə göndərdi və farslar burada dayandırıldılar. Müsəlmanlar Hirədən yeni kömək qüvvələr aldılar və birləşmiş şah dəstələri ağır məğlubiyyətə uğradı. Lakin burada nəticə etibarı ilə hərbi komandanlar olan Rüzbeh və Zərmehr şəhid oldular. Bu zaman Hənəfisdə Mahbudanın komandanlığı altında yeni şah qoşunlıarı dayanmışdı. O, İran ordusunun məğlubiyyətini və Ruzbehlə Zərmehrin ölüm xəbərrini eşidən kimi şəhəri

döyüşsüz təslim edib Muzayaxa tərəf çəkildi. O orada özünün xristian ərəb müttəfiqləri ilə birləşdi və bu xristian ərəblərin başında Xuzəyl ibn İmran dururdu. Belə ki müsəlmanlar cəld tərpənərək üç tərəfdən iranlılara və onların müttəfiqlərinə hücuma keçib onları yenə məğlub etdilər və Hüzəyl öz bir neçə qəbilə adamları ilə qaçdı. Ümumiyyətlə, Xalid ibn Validin Dumat əl-Cəncala getməsindən sonra yerlərdə vuruşan ərəb ordularına iki sərkərdə başçılıq edirdi və bunlardan biri Qəqə bin Əmr və Əbu Leyla idi. Bu sərkərdlərə qarşı əməliyyatlarda farslar çox da böyük olmayan qüvvələrlə dayanmışdılar. Belə ki şahənşah III Yezdəgerdin əsas qüvvələri Ktesifon şəhərinin Vex-Ərdəşir adlı stendində cəmləşmişdi və cənubi Mesopotomiyanı nəzarətdə saxlamışdılar. Bu ərazilərdə farslara qarşı Musənnanın hərbi qüvvələri dayanmışdı və məlum olduğu kimi o, Xalid tərəfindən xilafətin şərqdə yerləşən İraq sərhədlərini qorumaq üçün təyin edilmişdi. Məlum olduğu üzrə Müsənna Cəzirəyə olan müvəffəqiyyətsiz ərəb basqınlarından sonra onların zəifliyindən istifadə edərək on minlkik ordu yığa bildi və bu ordunu Hirəyə tərəf göndərməyi planlaşdırırdılar(47). Bununla onlar Hirədəki müsəlmanları tərkisilah edərək paytaxtı təhdiddən qurtarmaq istəyirdilər.Xəbər verildiyi kimi Fəratın yuxarı axarlarında Rüzbeh, Zərmehr və Maxbudanın komandanlığı altında ordu hissələri göndərildi və bu dəfə İran ordusuna Hörmüzd Caduyə başçılıq edirdi və o Bəhmən Caduyənin qardaşı idi. Bədəviləri qorxutmaq üçün iranlılar orduya bir neçə fil də daxil etmişdilər və bunu eşidən Musənna Hirədən çıxaraq Fəratı keçdi. Beləliklə, farslarla ərəblərin ordusu dağıdılmış Babilin divarları qarşısında üz-üzə gəldilər. Döyüşün təfsilatı haqda məlumat olmasa da, bəzi mənbələrə

47.Bax: Təbəri I,s.2115-2116)71

görə Musənna bir neçə nəfərlə bir fili kor edib öldürə bilir ki, bu da bədəvilərin döyüş ruhunu artırır və onlar əks-hücuma keçərək farsların düşərgələrini tuturlar. Hörmüzd Caduyənin ordusunda vuruşan İran sərkərdələrinin adları qeyd olunmasa da, onların titulları qeyd olunmuşdur. Belə ki,onlardan biri Xuqbad (48)digəri isə Kaukbad(49)idi. Xuqbad sözünün mənası – "Donuzların başçısı",Kaukbad titulunun mənası isə "sənətkarların başçısı" deməkdir. Bunun da mənası o idi ki, şahənşah demək istəyirdi ki,ərəblərə,mən sizə qarşı donuz kimi vəhşi farsları və sənətkarları göndərmişəm(50). Bu döyüş 634-cü ilin yazında baş verdi və İran ordusu məğlub oldu. Bu döyüşün nəticəsi olaraq Musənnanın başçılığı altında olan ərəb ordusu bütün Babil torpaqlarına,qərbdə Dəclə çayına, cənubda isə fars körfəzinə qədər olan ərazilərə nəzarət etməyə başladılar. Müsənna köməyə əlavə qüvvənin gələcəyini gözləməyib öz əlindəki ordusu ilə Hirəni ələ keçirmək istədi və bütün İran ordusunun komandanı Xorasanın hakimi olan Hörmüzd Fərruxzadın oğlu Rüstəm Fərruxzad idi. Rüstəm öz igidliyi və şücaətləri ilə nəinki İranda, hətta Bizansda da tanınırdı. O İranda taxt-tac uğrunda gedən mübarizələrdən şahənşah taxtına namizəd olan əsas 4 şəxsdən biri idi(51). Yeni vəzifəyə o, Babildə anti-ərəb üsyanı ilə başladı (52).

---

48.Yenə orda,s.2117,stk.2 - الخو كبذ, variant - الخر كيبد.

49.Yenə orda - الكوكبد, variant - الكر كنند və الكر كيبل.

50.Yenə orda,s.2117,stk.2-4; İbn əl-Əsir 2,s.318

51.Bax: Öz atasının qisasını almaq üçün Rüstəm (başqa versiyalara görə kor etdi) şahzadə Azərdoxtu həbs etdi və onun yerinə taxta onun kiçik bacıs-III Yezdəgerdin kiçik bibisi olan Boranı gətirdi)(Təbəri I,s.2163;İbn əl-Əsir 2,s.334;Baləmi: əlyazma Lo İvan D 182,l.333b və B-4485,l.482.

52. Bax: Təbəri I,s.2165;İbn əl-Əsir 2,s.334: " hər rustaka" ; Balami:əlyazma.D-182,l.333b:"hər kəndə və hər şəhərə adam göndərdi";əlyazma.-B-4485,l.482a:"hər qalaya və hər şəhərə adam göndərdi")

Dəclənin aşağı axarlarında yerləşən cənubi Vex-Qubad ostanında(53). Caban üsyan etdi və Caban İran imperiyasının). İraqdakı tanınmış dehqanlarından biri idi və Xalidin yürüşünə qədər Olleysin canişini idi. O, yerli sakinlərdən tezliklə dəstək aldı və tezliklə Dəclənin bütün kustakları üsyana qalxdılar(54). Şəhərlərdəki dalğalar od-alovla müşayət edilirdi və Müsənnanın canişinləri qarnizonla birlikdə Dəclənin o biri sahilinə, Hirəyə(55) getməyə məcbur oldular. Lakin xəlifə Əbu Bəkr bərk xəstə olduğundan o 23 avqust 634-cü ildə vəfat etdi və onun yerinə isə Ömər xəlifə oldu. Ömər İraqdakı müsəlman ordusuna Əbu Übeydi komandan təyin etdi və bu zaman Musənna öz dəstəsi ilə Haffana gəldi və orda bütün qüvvələri birləşdirərək Namrik qalasına tərəf hərəkət etdi(56). Orada Cabanın başçılığı ilə İran ordusu yerləşirdi və İran ordusunun birinci flanqına Quşnaspmah, tərəfdəki flanqa isə Mardanşah başçılıq edirdi. Bu döyüşdədə farslar yenə məğlub oldular və hər iki fars sərkərdələri məğlub oldub əsir düşdülər. Cabanın məğlubiyyəti günü Kaşqarda Xosrov Pərvizin bibisi oğlu Narse üsyan qaldırdı. Zandavarddan başqa onu üç bölgənin əhalisi dəstəkləyirdi və bu bölgələr – Barsuma, Nahr Cuybar və Zavabi idi(57). Narse müsəlmanlarla açıq döyüşə girə bilmədiyindən o Saqatiya qalasında gizlənərək Cabanın ərəblərlə olan döyüşünün nəticəsini gözləyirid. Lakin Namrik

53. Bax: El.New Edition.Vol.1,s.1210-1211.İbn əl-Əsir(2,s.334) Aşağı-Bex Gavad ostanının hakimlərindən birini Furat Badaq adlandırırlar.

54.Bax: Təbəri ,s.2166,stk.2-3:”Fəratın aşağı axarlarından yuxarıl axarlarına qədər olan rustakların əhalisi üsyan etdi”..

55.Bax: Balami: əlyazma D - 182, l.333b; B-4485, l.482; [H.Zotenberg]. Chronique... T.3, 369

56. Bax:Balami Namriki böyük şəhər hesab edir,çətin ki,doğru olsun,ya dakı hər bir böyük şəhərin izləri tarixi-coğrafiyada qalır.Namrik bu hadisədən başqa heç yerdə qeyd olunmur.

57. Bax: Təbəri I,s.2166.2169)89

qalasındakı məğlubiyyətdən sonra o da ərəb zülmündən başını götürüb qaçmış qaçqın dəstələri Pars əyalətinə, digərləri də Rüstəmin düşərgəsinə gəldilər(58). Bundan əlavə onların ardınca müsəlman ordularının da gəlib şəhərin divarlarına dayanmaları gözlənilirdi. Lakin səhradakı növbəti döyüşdə yeni İran qüvvələri də məğlubiyyətə uğradıldı və ərəblər böyük qənimət ələ keçirdilər.

Əbu Übeyd ərəblərə qarşı üsyana dəstək verən və adı çəkilən Nahr Cuybar, Parsuma, Zavabi və Zandavard bölgələrinə doğru hərəkət etdi. Ərəblər sonuncu məntəqəni dağıtdılar və sonra qonşu əyalətlər qorxaraq müqavilə bağladılar. Calinusun başçılığı ilə Narseyə köməyə göndərilən qoşun hissələri(59). Saqatiyadan bir fərsəng aralıda yerləşən Barsumanın bir kəndi yaxınlığında dayanıb düşərgə qurdu(60). Əbu Übeydin dəstələri Farsların hazırlanmasından əvvəl onlara hücum edib onları geri oturtdular və Calinus Rüstəmin yanına qayıtdı. Bundan sonra da Əbu Übeyd Savadı ələ keçirib rahat şəkildə Hirəyə qayıtdı.

İran ordularının ardı-ardınca məğlub edilməsi şahənşah III Yezdəgerdi məcbur etdi ki, ərəblərə qarşı tərkibində fillərin də olduğu çoxsayılı güclü bir ordu qurub göndərsin və o bu orduya Bəhmən Caduyanı təyin etdi.(ərəbdilli mənbələr onu Bəhmən zu-l-Həcib adlandırıdılar)(61). Onu bü yürüşdə Calinus da müşayət ediridi və mənbələrə görə Rüstəm onu

---

58.Bax: Balaminin əlyazmaları: D-182,l.334a: D-223,l.269; B-4485,l.482b; [H.Zotenberq].Chronique...T.3,s.372

59.Bax: Bu ad ərəb mənbələrində səslənir.Onun İran forması məlum deyil(ola bilər,Halen? Onda qəbul etməliyik ki,şahənşah ordusuna qeyri-iranlı başçılıq edib

58.Bax:Təbəri I,s.2033,stk.9-10;”Elə ki Xalid onlara çatdı.O dayanmağı və yükləri boşaltmağı əmr etdi”; İbn əl-Əsir2,s.297.

59.Bax: Bu ad ərəb mənbələrində səslənir.Onun İran forması məlum deyil(ola bilər,Halen? Onda qəbul etməliyik ki,şahənşah ordusuna qeyri-iranlı başçılıq edib.

60.Bax: Məntəqənin adını biz ötürürük, Belə ki,onun əsl yerləşdiyi yer məlum deyil

61.Bax: А.Я.Борисов.В.Г.Луконин.Сасанидские геммы,с.12-22.

Orta Asiyadan zorla gətirərək ərəblərə qarşı göndərmişdi ki, onların qarşısını alsın. Beləliklə, İran ordusu Fərat çayının sahilində dayandı. Farslar Kuss ən-Hətifdə, müsəlmanlar və onların müttəfiqləri isə çayın sağ sahilndə yerləşən Mərvəhə adlı yerdə dayanıb düşərgə qurmuşdular.

***Kuss-ən Nətif döyüşü****(634-cü il oktyabr- noyabr. Şaban 13).*Budur geniş Fərat çayı və çayın o biri sahilində Mərvəhə adlı yerdə ərəb ordusu dayanmış və bu sahilində də - Kus ən-Nətif adlı məntəqədə sağ qalmış sərkədələr öz ordu birlikləri ilə gözləyirlər. Ərəblərin düşərgəsi Hirənin bir neçə km.də qurulmuşdu,lakin İran düşərgəsi isə onunla üz-üzə dayanmışdı. İranlılar ərəblərə iki seçim verdilər ki, Fəratı keçəcək və ərəb ordusunun komandanı Əbu Übeyd öz silahdaşlarının etirazına baxmayaraq körpüyə tərəf hərəkət etrməyi qəbul etdi.

Sazişə görə İran ordusu körpüdən bir neçə yüz metr geri çəkildilər ki, ərəblər çay üzərindəki körpünü keçsinlər. Ərəblər körpünü keçib dar yerdə seyrək düzüldülər və bu da taktika cəhətdən çox təhlükəli idi. Çünki irəlidə İran ordusu,arxada isə Fərat çayı idi. İranlılar filləri avanqard şəklində düzmüşdülər və tarixçi Baalın verdiyi məlumata görə onların üstünü də dəmir brom parçaları ilə qorumuşdular. Bu vəhşi heyvanların ümumi görünüşü müsəlmanlarda vahimə yaratmışdı və döyüş başlayanda ərəblər fillərin zərbələri altında əzilməyə başladılar. Əbu Übeyd özü fil tərəfindən əzilib xəşil edildi və onun ölümündən sonra ərəb ordusuna komandanlığı onun qardaşı Hakim və onun bir neçə qohumu götürdü.

Belə ki burada Səqəfi tayfası xüsusi rol oynayırdı,çünki öldürülən hər Səqəfi döyüşçüsünün yerini digəri alırdı. Döyüşün qızğın çağında səqəfilərdən biri körpünü dağıtdı və bu da müsəlman döyüşçüləri içərisində xaos yaratdı.İran

ordusu ərəbləri qırıb çaya tökməyə başladı və onları bu bəladan Musənna ibn Haris xilas etdi və ərəb ordusunun qalıqları geri- əks sahilə çıxa bildi.

Kuss ən-Nətif yaxınlığındakı döyüş 634-cü ilin oktyabr – noyabr ayında baş vermişdir və bu ərəblərin ağır məğlubiyyəti ilə bitdi(62). İranlılardan 6 min itki,ərəblərdən isə dörd min nəfər itki olmuşdur.Bəhmən Caduyə Fərat çayını keçib düşməni təqib etmək istəyirdi, lakin arxa cəbhədə Rüstəm və Firuzana qarşı qiyam xəbərini alan kimi geriyə-paytaxta qayıtdı(63).

Müsəlmanların məğlubiyyətindən ən çox Caban istifadə etdi və o, Müsənnanın qaçan üçminlik ərəb ordusunun ardınca gedərək onları təqib edib Olleys məntəqəsində yaxaladı. Lakin elə ilk döyüşdə İran ordusu məğlub oldu və Caban ikinci dəfə əsir düşdü. Bu döyüşdə müsəlmanları Olleys məntəqəsi xalqı müdafiə etdi və nəticə etibarı ilə ərəblər Caban və digər İran ordu komandirlərinin başlarını kəsərərək edam etdilər(64).
Cabanın başçılığı altında olan İran ordusunu məğlub etməsinə baxmayaraq Müsənna məğlub olduğu Kuss ən Nətifə qayıtmağa cürət etmədi. O heç Hirəyə də qayıda bilmədi,yalnız Fəratın qərbinə doğru hərəkət etdərək oradakı ərəb qəbilələrini ayağa qaldırdı. Onun düşərgəsi qədim Babil divarları yaxınlığındakı səhrada yerləşirdi və bu yer Mərc əs-əs-Sibah adlaırdı(65). Xəlifənin ordusunun dəhşətli məğlubiy-

62.Bax: Təbəri I,s.2176;İbn əl-Əsir 2,s.338; Dinəvəri, s.119,stk.11-12; Bəluzari, mətns.252;ingl. tərcümət. 1, s. 404: J. B. Glubb. The Great Arab Conquests,s.162,164.

63.Bax: Təbəri I,s.2176;İbn əl-Əsir 2,s.338.Yəqubi(2,s.162) üsyanın tarixini hicri 14-cü ilə aid edir.

64.Bax: Təbəri I,s.2182;İbn əl-Əsir 2,s.339.Hər iki müəllif burada Mardanşahı Cabanın silahdaşı hesab edir.Lakin Mardanşah elə həmən mənbələrin məlumatına göprə Namrik uğrunda gedən döyüşlərdə əsir düşərək öldürülür və Caban isə sağ qalır

yət xəbəri tezliklə Mədinədə eşidildi və xəbəri Xəlifəyə Əbu Übeydin ordu qalıqlarının əsgərləri qaçaraq xəbər gətirmişdilər. Bunu eşidən xəlifə Ömər İraqa göndərmək üçün güclü ordu yığmaq qərarına gəldi.

***Ərəblərin müharibəyə hazırlığı – Səfərbərlik.Hekayət:*** Mədinənin dar küçələrinin birində bir dəvə üstündə Xalid bin Valid qışqıraraq müsəlmanları çağırır:

- Ey müsəlmanlar! Eşidin! Hamı bir nəfər kimi məscidə yığışın! Tez olun, gəlin ki,əmirəlmömünin Ömər bin Xəttabın gözəlləməsini dinləyəsiz! - deyə bu sözləri dəfələrlə təkrar edə-edə məscidə tərəf gedirdi. Bunu eşitcək müsəlmanlar da evlərdən çıxıb onun ardınca məscidə gedirdilər.

Xalid məscidə çatan kimi dəvədən düşdü və məscidin həyətində üstü xurma ağacları ilə qurulmuş külənginin altındakı gölgəli yerdə olan hündür bir yerə çıxıb dayandı. O onun ardınca gələn müsəlmanların bir nəfər kimi həyətə yığışmasını gözləyirdi və hamı yığışan kimi Xalid üzünü möminlərə tutub uca səslə dedi:

- Ey müsəlmanlar! Peyğəmbərimizin(s) xələfi əmirəl-mömünin Ömər bin Xəttab sizləri düşmənlərin təxribatına uymamağa və yalan şayiələrə inanmamağa çağırır, çünki bu şayiələri sizin düşmənlər yayır ki, canınıza vahimə salıb sizləri zəiflətsin. O həm də qeyd edir ki,əsl müsəlman yalnız allahın yolunda vuruşa və ya qan tökə bilər”. Sonra Xalid sözünə davam edərək dedi:

- Ömər bin Xəttab deyir: Əgər siz hansısa döyüşdə məğlub da

65.Bax: Təbəri onu Kadusiya və Haffan arasında lokalizə edir:Təbəri I,s.2184,stk.7-8.Dinəvəri(s.119.stk.9) bununla bağlı Sələbiyyəni adlandırır.Lakin onun İraqdakı mövqeyi haqda dəqiq məlumat vermək hələlik mümkün deyil.

olsanız, bu heç nəyi dəyişmir, çünki siz yenə də müsəlman olaraq qalırsınız”. Bu zaman camaatın arasında bir uşaq öz yanındakı babasından soruşdu:

- Babacan! O nə deməк istəyir?

- O, demək istəyir ki,əmirəlmöminin Ömər bin Xəttab bütün müsəlmanların önündə qılınc çala biləcək gücdədir! – deyə baba cavab verdi.

*Yenə o şəxs uca səslə:* “Əmirəlmömünin yığdığı öz qoşunu ilə farsları öz yerində oturda biləcək gücə malikdir və onları Cisr(körpü) döyüşündə bizi məğlub etdiklərinə görə cavab verməyə məcbur edə bilər.Bu əzəmətli ordunun başına isə sizin hamınızın yaxşı tanıdığı pəhləvan olan Səəd bin Vəqqası təyin edib”.Bu zaman yerdə əyləşən müsəlmanların arasında biri o birinə dedi:

- Bu hansı Səəd bin Vəqqasdır?

*Digər şəxs:* Sən lap yaddan çıxarmısan,bu həmən Səəddir ki, ilk müsəlman oxçusudur və ox atmaqda çox məşhurdur. Bu vaxt yenə o minbərdəki şəxs uca səslə:

- Ey müsəlmanlar! Eşidin və agah olun! Səəd bin Vəqqasın oxu heç vaxt hədəfdən yayınmamışdır və bundan sonra da Allahın hökmü ilə yayınmayacaqdır. Elə bu üzdən də bütün müsəlmanların xəlifəsi olan Ömər bin Xəttab farslara qarşı Səəd bin Vəqqası qoyur ki,qoy onun oxu farsların ürəyinə hədəf olsun. Bir də ki,əmirəlmömünin Ömər bin Xəttab xahiş edir ki, əli silah tutuan hər bir müsəlman qoy Səəd bin Vəqqasın ardınca getsin və qoy allah sizə yar olsun sizə haqqın savaşında”.

Bu zaman yerdə əyləşənlərin hamısı ərəbcə bir ağızdan:

- “Allahu əkbər!(Allah böyükdür) Allahu əkbər!Allahu əkbər! - deyə səslənirdilər.Sonra isə hər yerdən və bütün ərəb qəbilələrindən əli silah tutan hər bir şəxs Məkkəyə doğru hərəkət etməyə başladı.

## *4.İran üzərinə yürüş*

Budur - hər yerdən dəstə-dəstə axışıb gələn ərəblər axşama qədər toplu halında birləşərək sasanilər dövlətinə daxil olan İraqa doğru hərəkət etməyə başladılar. Sasanilərə tabe olan İraq ərazisi boyu sərhəd məntəqələrdə müxtəlif bədəvi xristian ərəb qəbilələri də yaşayırdılar ki,onların başçısı Müsənna idi. Lakin o, İranlılarla olan döyüşlərin birində ağır yaralandığından öz xeyməsində xəstə yatırdı. Xeymənin çölündə isə bir neçə yüz nəfər əli silahlı dayanmışdı, bu vaxt bir çapar ərəb çaparaq xeyməyə yaxınlaşdı və atdan düşərək Müsənnanın xeyməsinə girib dedi:

- Ey Müsənna! Müsəlmanların ordusu İraq ərazisinə artıq daxil olmaq üzrədir!

Müsənna başını yatadqdan azca qaldıraraq üç dəfə “Təvəkkül allaha! Təvəkkül allaha! Təvəkkül allaha! deyərək yenidən uzandı. Onun yanında iki qadın və bir kişi var idi. Sonra o atlı sözünə davam edərək dedi:

- Öz gəlişindən dərhal sonra Səəd bin Vəqqas sənin yanına gəlib səhhətinlə maraqlanmaq və halını sormaq istəyir.Lakin bu vaxt Müsənnanın sol tərəfində,başı üstə dayanan qadın narazı halda dedi:

- Müsənna ondan qabaq farslarla müharibəyə girmişdir.
- Heç olmasa ordusu çoxdur? – deyə Müsənna soruşdu.
- Onlar Mədinədən çıxanda sayları dörd min nəfər idi,lakin indi isə on iki minə çatıb! Deyə çapar cavab verdi. Bu zaman Müsənnanın sağında oturan Müənna dedi:
- Özünü yorma, Müsənna!
- Məni rahat burax! Müənna və mənim üçün bundan yaxşı xəbər ola bilməz! – deyə Müsənna cavab verdi.

- Bundan əlavə ordu gündən-günə çoxalmağa başlayır və orduya hər gün çoxlu müsəlman,ərəb,həm də yerli sakinlər qoşulur! – deyə çapar dilləndi.

- Allaha təvəkkül!.. – deyə Müsənna da yataqdan dedi. Bu zaman Müsənnanın yanında, sağ tərəfdə duran qadın yenə narazı halda dedi:

- Bəs niyə ordunun başına Səəd bin Vəqqası təyin ediblər? Allaha and olsun ki, Müsənna daha çox layiqdir bu vəzifəyə və bu orduya rəhbərlik etməyə, deyərək hirslə ayağa qalxdı. Qadının belə dediyini görən Müsənna əli ilə onun əlini tutaraq dedi:

- Səlma! Səlma!! Lakin yenə o qadın narazı halda dedi:

- Məgər sən farslarla müharibədən pis baş çıxarırsan?

Müənna vəziyyəti sakitləşdirmək üçün dedi:

- Ömər bin Xəttab Müsənnanın təcrübəsini yüksək qiymətləndirir.

Lakin yenə Səlma dedi:

- Elə o üzdən də komandanlığa Müsənnanı yox, gah Əbu Übeydəni,gah da Səəd bin Vəqqası təyin edir.Bu zaman Müsənnanın sağ tərəfində əyləşən digər qadın isə üzünü Müənnaya tutub dedi:

- Farslar mənim həmvətənlərimdir və o üzdən də onları hamıdan yaxşı tanıyıram və onlar ərəblərdən Müsənna bin Həris və Xalid bin Validə görə qorxurlar.

- Amma yenə də onlar ərəblərdən qorxmalıdırlar, çünki Müsənna hələ də onların arasındadır. Tezliklə Müsənna Allahın köməyi ilə ayağa qalxacaq və bizə qoşulacaq və Allaha and olsun ki, o zaman bütün müsəlmanların xəlifəsi öz qərarını dəyişəcək! – deyə Vəqqasın elçisi dilləndi. Bu zaman Müsənna əllərini ürəyinin başına qoyub ah çəkdi və asta səslə dedi:

- Allaha and olsun ki,biz heç zaman hakimiyyət sevdasında olmamışıq və heç ona tərəf də getməmişik. Biz heç bir zaman var- dövlətin bizi əzməsinə imkan verməmişik,əksinə biz onu əzmişik. Əgər Allah istərsə, bizi vəzifəyə və ya yüksək məqama verəcək. Bir vaxt gələcək ki, Allah iranlıları və bizanslıları ərəb torpaqlarından qovacaqdır. Beləliklə, bu hadisədən sonra yeni ordu yığmağa başladı və bədəvilər iraqdan çox suriyadakı qələbələrdən fərəhlənərək oraya əsgər verirdilər. Bunun səbəbi də o idi ki, bədəvi ərəblərə daxil olan Cili, Kənani və Əzdi tayfalarının vətəni Suriya idi və tarixçi Təbəri bu haqda məlumat vermişdir(66). Elə bu səbəbdən də Ömər bin Xəttabın Müsənnaya kömək üçün ordu göndərməsi elə də asan olmadı. Lakin Əbu Übeydin məğlubiyyəti ilə İraqa göndərilən yeni ekspedisiya arasında Bəluzarinin yazdığına görə 1 il vaxt keçmişdir(67).

Bədəviləri İraq səfərinə inandırmaq mümkün oldu,buna isə xəlifənin onlara əldə edilən qənimətin faizi səbəb oldu. Döyüşlərdə yığılmış bədəvi dəstələrinə Cərir ibn Abdullah başçılıq etməyə başladı. Belə ki 635-ci ilin payız aylarında şimal ərəb qəbilələrinin birləşmiş dəstələri İraq sərhəddinə yaxınlaşdı. Bu qüvvələr Akol(Kufə) məntəqəsinin Buvəylə rayonunda cəmləşdilər və elə orada Musənnanın ordusu ilə birləşdilər. Buraya ətraf məntəqələrdən xristian-ərəb könüllüləri də axışmağa başlamışdı və bir neçə gün ərzində Fəratın qərbində müsəlman ordularının sayı 30 min nəfər çatdı(68). O, bu o vaxta qədər İraq göndərilən ən çoxsylı ərəb ordusu idi.

---

66.Bax: Təbəri I,s.2186,stk.3-4:” Sizə hansı tərəf daha çox xoşunuza gəlir? ”Dedilər:”Suriya.Axı bizim babalarımız oradadır”;bax yenə orda s.2187,stk.15-17
67.Bax: Bəluzari,mətn,s.253;ingl.tərcümə,t.1,c.405.
68.Bax: Balaminin əlyazmaları: D - 182,l.335b: D - 223,l.270a; B - 4485,l.485a; [H.Zotenberq].Chronique...T.3,c.382.

***Buvəylə döyüşü****(635-ci il.noyabr.(hicri 15-ci il,ramazan)*Çoxsaylı İran ordusu Mehranın başçılığı ilə Həmədandan hərəkət edərək Fərat çayının şərq sahilnə gəlib çatdı(69) və orada Bəsuysə adlı yerdə düşərgə saldı.İran ordusu öz hərbi komandanlığının əmri ilə Şümiyə *(Dar ər – Rizk - ərzaq anbarı))* adlı yerdə möhkəmləndilər(70). Beləliklə, döyüş başlandı və İran ordusu ilk həmləsini etdi. Ordunun ilk üç kolonası irəliyə atıldı və hər kolonanın önündə fillər var idi. İlk döyüşdə iranlılar üstünlüyü ələ aldılar və xilafət ordusunun sıraları pozuldu, lakin özünü itirməyən Müsənna döyüşə öz müttəfiqi olan xristian ərəblərdən ibarət iki minlik əlavə qüvvə yolladı. Elə ilk həmlədə xristian ərəblər İran ordusunun əsas hissəsini yarıb sərkərdə Mehranı öldürdülər və Mehranın ölümündən sonra başsız qalan İran ordusu qaçmağa başladı. Ərəblərdən biri körpünü dağıtdı və iran ordu qalıqlarının qaçmasına mane olmaq istədi, lakin digər İran ordu komandanı Peroz ərəblərə ciddi zərbə vurub çayın keçidini təmin etdi. Ərəblər qalib gəlsələr də, bu onlara çox baha başa gəldi(71). Müsənna tərəfindən iranlıların məğlubiyyəti xəlifənin çoxsaylı ordusunun sel kimi İran torpaqlarına axışmasına gətirib çıxardı. Bu qələbə müsəlmanları faktiki olaraq aşağı-Mesopotomiyanın sahibi etdi və şimalda onların hökmdarlı Ayn ət-Təmərə qədər uzanırdı. Ərəblərin qarşısında duran növbəti maneə dehqanlardan ibarət olan Səbat qalası idi(72).

---

69.Bax: Məsələn gah onu Mehrbundad Həmədaninin oğlu Bəluzari olan Mehranın oğlu,bəzən də Məhruyə Həmədaninin (Dinəvəri) oğlu olan Mehranın oğlu hesab edirlər.Təbəri isə onu Bazanın oğlu Mehranın oğlu hesab edir.Təbəri I,s.2201,stk.12).

70.Bax: Təbəri I,s.2201,stk

71.Bax: Balaminin əlyazmaları d-182,l.335b.

72.Bax: Təbəri I,s.2199; İbn əl-Əsir 2,s.342; Bəluzari, mətn, s. 254 ;ingl. tərcümə,t.1,s.407-408; Dinəvəri,s.121.

İraqın cənubunda müsəlmanların hökmranlığı Obollaya qədər uzanırdı. Tarixçi qeyd edir ki ərəb ordu komandanı öz ordusunu Babilin cənub ətəkləri olan Meşan və Dəşt-e Meşana qədər apardı(73). Bu qələbə Müsənnaya əvvəllər itirilmiş torpaqları geri almaq həvəsi verdi və elə bu səbəbdən də o, Hirədə öz canişinini qoyub özü isə Anbar məntəqəsinə doğru hərəkət etməyə başladı. Anbar İran qarnizonu tərəfindən yaxşı müdafiə olunurdu, lakin kiçik bir müdafiədən sonra qala təslim oldu. Dinəvərinin məlumatına görə Anbarın mərzbanı Pusfarrux şəhəri təslim etdi,əvəzində isə ondan öz malını və xalqın canını satın aldı.Sonra isə o, Müsənnaya söz verdi ki, Fərat çayı üzərindəki dağıdılmış körpünü bərpa edəcək(74). Ərəblər bunu Anbarın iki fəthi adlandırırlar(75). Anbar uzun müddət Müsənnanın hərbi qərargahı oldu və ərəblər buradan İranın Hənəfis və Bağdad şəhərlərinə dağıdıcı yürüşlər edirdilər. Hənəfisdə müsəlmanlar yerli ərəblərdən ibarət keçikçiləri əsir aldılar və bu keçikçilər Bağdad bazarındakı ərzaq anbarlarını qoruyurdular. Haram yeməyən müsəlmanlar nədənsə icazəsiz olaraq xaqın bu anbarlarda yerləşən ərzağını həmən keçikçilər vasitəsi ilə oğurlayıb apardılar və tarixçi Baala bu haqda geniş məlumat verir(76). Beləliklə, müsəlmanlar qısa müddət ərzində Bağdaddan 100 dəvə oğurlayıb apardılar və bu qənimətlə Anbara qayıtdılar. Ərəblər Obollu tutandan sonra müsəlman sərkərdəsi Ütbə ibn Həzva sonrakı Bəsrə yaxınlığında olan Porat(Forat – Bahman Ərdəşir) məntəqəsinə hücum etdi(77) və bu məntəqəni

73.Bax: I, c.2202;İbn əl-Əsir Bax:Təbəri 2,s.342.
74.Bax: Dinəvəri,s.122..
75.Bax: Təbəri I,s.2202,stk.15.
76.Bax: Tarix-e Təbəri.Litoqr.nəşr.Kappur,1896,s.[H.Zotenberg].Chronique.. .T.3,384
77.Bax: Sybnodicon orientale ou recuril de synodes nestoriens puble,traduit et annote par J.B.Chabot.P.,1902,s.679,684.

silah gücünə tabe etdi. Sonra isə ərəblər Məzar məntəqəsinə hücum edərək İran ordusunu məğlub etdilər və İran əsgərlərinin çoxu çaya düşərək boğuldular. Ərəblər mərzbanı əsir götürüb başını kəsməklə edam etdilər və Sasani dəstələri çayın sol sahilində də, Dəşt-e Maşanda da ağır məğlubiyyətə düçar oldu. Dinəvəri yazır ki, məğlub olmuş İran ordusu mərzbanın ölüm xəbərini eşidən kimi qaçmağa üz qoydular, buna səbəb isə ərəblərin İran ordusunu hazırlıqsız yaxlamamaları idi və bundan sonra ərəblərə Abar - Kavad məntəqəsində də qələbə qazanmağa kömək etdi(78). Dəclənin qarşı sahilindəki qazanılmış qələbələrə baxmayaraq Ütbə Bəsrəyə qayıtdı, lakin tezliklə müsəlmanalara qarşı Səvad əhalisinin üsyanı başladı və bu üsyanı İran ordu hissələri dəstəkləyirdi. Müsənnanın hərbi birləşmələrinin əks-hücumu nəticəsində üsyançılar Anbar və Hirəni tərk edib səhrada gizləndilər(79). İraqda anti-ərəb hərəkatının baş vermə səbəblərini orta əsr müəllifləri III Yezdəgerdlə bağlayırlar və onlar qeyd edirlər ki, xaosa bürünmüş İranı III Yezdəgerd hakimiyyətə gələn kimi yenidən vahid hakimiyyət altında birləşdirdi(80). Lakin bəzi orta əsr müəllifləri İranda mərkəzi hakimiyyətin birləşdirilməsini Buvəybə döyüşündən sonra baş verdiyini qeyd edirlər. Məhz III Yezdəgerd ölkədə xaosa son qoyaraq mərkəzi hakimiyyəti gücləndirmiş və vilayət hakimlərini ümumi düşmən olan ərəblərə qarşı birləşdirməyə nail olmuşdur. O ,hakimiyyətə on altı yaşda gətirilmiş və onun(81). mənbəyə istinad etmədən Səəd bin Əbu taxta gətirilmə tarixi 632-ci ilin sonlarına təsadüf edir. Vəqqasın İraqa yaxın olan Sələbidəki vəziyyətinə işarə edir.

78.Bax:Bəluzari,mətn,s.341-342; Dinəvəri,s.123-124.
79.Bax: Bəluzari, mətn,s.346; ingl.T.rcümə,t.2,c.60.
80.Bax: Təbəri I,s.2210,stk.11-12;or.İbn əl-Əsir(2,s.345) və Yaqubi(2,s.162)81.
81.Bax: Təbəri I,s.2210;İbn əl-Əsir 2,s.344-345;Dinəvəri,s.125.

İraqın işğalı üçün xəlifə Ömər yeni ordu yaratdı və oraya Səəd ibn Əbu Vəqqası komandan təyin etdi(82).



***Cəllad quldurbaşı Səəd ibn Əbu Vəqqas.*** Xəlifə Ömər İraqı tam işğal etmək üçün yeni ordu yaratdı və o ordu ilə özü gəlmək istəyirdi, lakin uzun sürən müzakirədən sonra orduya Səəd ibn Əbu Vəqqası komandan təyin etdi. Səəd ibn Əbu Vəqqas islam peyğəmbəri Məhəmməd(s)in ilk silahdaşlarından və islamı ilk qəbul edənlərdən idi. Beləliklə, Səəd ordu komandanlığını qəbul edib 4 minlik ordu ilə İraqa dorğu hərəkət etdi. Ordunun üç min nəfəri Yəməndən və Sartdan olan könüllülər təşkil edirdi, min nəfərdən ibarət atlını isə Səəd Mədinəyə gələndə özü ilə gətirmişdi(83). Səəd Mədinədən 600 km uzaqda yerləşən Zarud məntəqəsinə gəlib çatanda onun ordusunun sayı səkkiz min nəfərə çatdı(84) Səəd bin Əbu Vəqqas Zarid məntəqəsinə gəlib çatanda 636-cı ilin yanvar ayı və qış fəsli idi(85). Bu zaman Musənna ibn Hərisin ixtiyarında böyük ordu var idi və bu ordu birləşmələri İranın sərhəd məntəqələrinin içərilərinə doğru soxulub qarətçi

82.Bax: Bu fakta birbaşa işarəyə biz Bəluzaridə rast gəlirik(mətn, s.253; ingl .tərcümə, t.1,s.406), hansı ki qeyd edirki III Yezdegerdin yerinə onun bibisi Buran dövləti idarə etmişdir.
83.Bax: Təbəri I,s.2216,stk.10;s.2217-2218,2219,stk.7-8.
84.Bax: Təbəri I ,s.2221, stk.5-7;İbn əl-Əsir 2, s.348 .Bəluzari (mətn,s.255;ingl. tərcümə, t.1,s.409) mənbəyə istinad etmədən Səəd bin Əbu Vəqqasın İraqa yaxın olan Sələbidəki vəziyyətinə işarə edir.
85.Bax: S. M. Yusif. The Battle of al-Qadisiyya ,s. 8.Qlabb (The Great Arab Conquests,c.190) Zəruddəki dayanacğın tarixini 636\637-ci ilin qışına aid edir.Bu, çətin ki, doğru olsun,belə ki bu hicri 15-ci ildə baş verib.(Bəluzari,mətn,s.255.

basqınlar edib əhalisini soyub-talayırdılar. Səəd bin Əbu Vəqqas Zarud məntəqəsində üç ay qaldı və bu müddət ərzində onun ordusuna ətraf məntəqələrdən Təmim qəbiləsindən yeddi min nəfər qoşuldu. Digər qəbilə olan Əsəd və Rəbiyyə qəbiləsindən də könüllülər qoşulmağa başladı. Əsəd qəbiləsinin könüllülərinə tapşırıldı ki, onlar Səəd bin Vəqqasın düşərgəsi ilə Müsənna bin Harisin düşərgələri arasındakı ərazidə qalıb oranı qorusunlar(86). Müsənnanın ordusu səkkiz min Rəbbiyyə qəbiləsi könüllülərindən və dörd min nəfər yəmənli könüllülərdən ibarət idi(87). Müsənna iranlılarla döyüşdə ağır yaralanmışdı və yatağa düşmüşdü. O, Səəd bin Əbu Vəqqasın gəlişindən xəbərdar idi və çadırında onu gözləyirdi. Səəd bin Əbu Vəqqas Müsənna bin Hərisin çadırına gəlib onu ziyarət etdi və Müsənna öz atını ona bağışladı və bir də döyüşə bilməyəcəyini bildirdi. Bir müddət sonra Müsənna İran ordusu ilə açıq döyüşlərin birində aldığı yaralardan öldü və komandanlıq ondan sonra onun xələfi olan Bəşir əl-Xəsəsiyyəyə keçdi.

Həmən ilin yazında Səəd öz ordusu ilə Şərəf məntəqəsində Müsənnanın xələfi olan Bəşirin ordusu ilə birləşdi və artıq İran ordusuna qarşı otuz minlik ərəb ordusu gedirdi.Şərəf məntəqəsində Səəd öz ordusunu 3 yerə böldü və hər dəstə on min nəfərdən ibarət idi və Səəd bu dəstələrin hər birinə sərkərdə təyin edərək onlara xüsusi tapşırıqlar verdi(88). Səəd bin Əbu Vəqqasın ordu birləşmələrin tərkibi belə idi:
əl-muqəddimə (avanqard);əl-meymənə (sağ qanad);əl-məysərə (sol qand);əl-kəlb (mərkəz);
əs-səəqəf (arerqrad);ət-təlai (kəşfiyyat üçün istifadə olunan çox da böyük olmayan atlı dəstələri)

86..Bax: Təbəri I,s.2221.stk,.9-12.
87.Yenə orda,stk.12-18.
88. Yenə orda,s.2223-2225;İbn əl-Əsir 2,s.348)140.

ər-rəcl (piyada); ər-rukban (yükləri daşımaq üçün dəvə karvanı); əl-mücərrəd (xüsusi tapşırıqları yerinə yetirmək üçün nizələrlə silahlanmış xüsusi atlı dəstələri); əl-mürəmmiyə (oxçular dəstəsi); Ərəblər bu cür ordu düzümü və hərbi taktika ilə əvvəllər tanış deyildilər. Onlar bunu İran və Bizansdan əxz etmişdilər.

***Qırğınlar.*** Ərəblər III Yəzdigerdin səriştəsizliyini və imperiyanın rüşvətxorluq nəticəsində dağılmağa sürükləndiyini görüncə fürsəti əldən vermədilər və ərəblər 633-cü ildən başlayaraq sasanilər ərazisinə hücumlar etməyə başladılar. Tərəflər arasında ilk döyüşlər Mesopatomiya ərazisində baş vermiş Zincir döyüşü olmuşdur.Sasanilər ilə ərəblər arasında 633-634-cü illərdə baş verən 9 döyüşdə ərəb sərkərdəsi Xalid bin Valid qələbə qazanmışdır. Budur növbəti hücum təhlükəsi yaranmışdır və III Yəzdigerd bunun qarşısını almaq əvəzinə kef məclisi qurur və eyş-işrətlə əylənirdi. Ərəblər müəyyən zaman içində III Yəzdigerdə bir neçə elçi göndərdi ki islamı qəbul etsin, lakin şah əksinə elçiləri məsxərəyə qoyurdu. Budur növəti elçi də gəldi və xəlifə Ömərin məktubunu III Yəzdigerdə verdi, məktubda deyilirdi:

***Müsəlmanların xəlifəsi Ömərdən Ari imperiyasının şahənşahına:***

*Yezdəgerd! Sən mənim təklifimi qəbul edib biət edənə qədər (islamı qəbul edib xilafətlə birləşənə qədər)mən nə sənin üçün,nə də sənin xalqın üçün yaxşı bir gələcək görmürəm. Nə vaxtsa sənin torpağın bizə məlum olan dünyanın çox hissəsini idarə edib, lakin bu gün hansı səviyyəyə qədər alçalıb? Sənin orduların bütün cəbhə boyu darmadağın edilib, sənin xalqın isə məhvə məhkum olub. Mən sənə xilas yolu təklif edirəm. Tək*

*olan Allaha dua etməyə başla, o Allaha ki,bütün kainatı yaradıb. Biz sənə və bütün dünyaya onun mesajlarını gətirərik, o Allahın ki,həqiqətən də, Allahdır. Öz oda sitayişini tərgit və öz xalqına atəşpərəstlikdən imtina etməyi əmr et və de ki,bu doğru deyil. Bizimlə birləş,bir ol,həqiqətlə bir olunca,böyük Allaha sitayiş et,yeganə tək Allaha, bütün kainatı yaradan Allaha. Öz xilasın üçün Allaha sitayiş et və islamı qəbul eylə. Öz dinsizliyini və atəşpərəstliyini tərgit və elə indi islamı qəbul et. Bu cür etməklə sən öz xilasının və Arilərin xilasının yeganə yolunu tapacaqsan. Əgər sən bilsən ki, bu yol Arilər üçün yaxşı yoldur və sən onu götürərsən. Biət – yeganə yoldur.*

*Allahu əkbər..*

*İmza: Müsəlmanların xəlifəsi Ömər bin Xəttab.*

***İran şahənşahı III Yezdəgerdin cavabı:***

*Tazilərin(Farslar ərəbləri “Tazi” adlandırırdılar və mənası “səhra köpəyi” deməkdir.) xəlifəsi Ömər bin Xəttaba:*

*Həyatın və zehnin yaradıcısı Ahura Mazdanın adı ilə.*

*Sən öz məktubunda yazmısan ki,bizi öz Allahına,bizim haqqımızda və nəyə inandığımız haqda həqiqəti bilmədiyin halda Allahu əkbərə, itaətə döndərmək istəyirsən!*

*Maraqlıdır ki,sən ərəblərin xəlifəsi taxtında əyləşmisən,lakin sənin düşüncən Ərəbistanın çölündə köçəri həyat tərzi sürən adi səhra bədəvisinin düşüncəsi kimidir!*

*“Balaca adam”,sən mənə tək olan Allaha sitayiş etməyi təklif edirsən,lakin sən bilmirsən ki, arilər minilliklər boyu tək olan Allaha sitayiş edirlər və onlar sizin kimi gündə beş dəfəmi ibadət edirlər!*

*Bu yer üzündə mədəniyyət və incəsənət uzun illərdir ki, yeganə həyat tərzidir. Biz o vaxt ki,yer üzündə qonaqpərvərliyi, yaxşı əməllərin əsasını qoymuşuq,o vaxt ki,*

*biz öz əlimizə "xoş fikirlərin,xoş sözlərin və xoş işlərin" bayrağını aldıq siz və sizin əcdadlarınız səhrada kərtənkələ əti yeyib dəvə südü içib veyillənirdilər. Sizin heç nəyiniz yox idi ki,özünüzü yedirdəsiz və siz öz qızlarınızı diri-diri yerin altına dəfn edirdiniz. Tazilər əslində Allahın yaradılışını qiymətləndirmirlər!*

*Siz Allahın uşaqlarının başlarını kəsirsiniz,hətta hərbi əsirləri zorlayırsınız, qadınları belə zorlayırsınız, öz qızlarınızı diri-diri gömürsünüz,karvanlara hücum edirsiniz, kütləvi qətliamlar törədirsiniz, özgə qadınları oğurlayırsınız və özgə malı qarət edirsiniz!*

*Sizin qəlbləriniz daşdan düzəldilib. Biz bunu pislik və qəddarlıq kimi qiymətləndiririk və belə olan halda siz bizi necə haqqa-ədalətə dəvət etməyə cəsarət edə bilirsiniz?*

*Sən mənə atəşpərəstliyi tərgitməyi təklif edirsən! Biz,Arilər,yaradanın sevgisini və onun qüdrətini möcüzələrində və günəşin şüalarının hərarətində və odun istisində hiss edirik. İşıq və günəşin istiliyi bizə həqiqətin işığını görməkdə kömək edir, bizim qəlblərimizi yaradana və biri-birimizə isidir. Onlar bizə biri-birimizlə xeyirxah olmaqda kömək edir və bizi işıqlandırıb müdafiə edir.*

*Bizim Allah – Ahura Mazdadır və çox maraqlıdır ki,siz özünüz də o Allahı yenicə tanıyıb onun haqqında cüzi biliyə sahib olmusunuz. Lakin biz sizin kimi deyilik və sizin səviyyənizdə də deyilik. Biz başqa insanlara kömək edirik,biz insanlar arasında məhəbbəti yayırıq,biz yer üzündə xeyirxahlığı paylaşırıq! Biz öz mədəniyyətimizi yaymışıq, lakin onu yayarkən başqa xalqların mədəniyyətlərinə də sayqı duyub ehtiram göstərmişik. Lakin siz isə həmişə başqasının torpaqlarına soxulmusunuz və qarət etmisiniz!*

*Siz soyuqqanlıqla insanları öldürürsünüz,aclığı yaradırsınız.,başqalarına qorxu və təhlükə törədirsiniz,siz*

*Allahın adıyla pisliyi yaradırsınız. Bəs bütün bu bədbəxtliklərə görə kim cavab verəcək?*

*Məgər Allah sizə öldürməyi,qarət etməyi və dağıtmağı əmr edir?*

*Allahın ardıcılları sizsiniz və siz də bütün bu pis işləri Allahın adı ilə edir və onun adı ilə bağlayırsınız!*

*Bəlkə başqaları edir?*

*Siz səhranın qəlbindən çıxıbsınız, siz heç bir təbii resursu olmayan və yaşamaq üçün əsla əlverişli olmayan ucsuz-bucaqsız çöllərdən gəlmisiniz. Bunula bərabər siz öz hərbi yürüşləriniz və qılınclarınızın gücü hesabına insanlara haqqı-ədaləti öyrətmək istəyirsiniz!*

*Siz – səhra vəhşiləri və oğrularısınız və bununla bərabər sivil – minilliklər boyu şəhərlərdə yaşayan bizi Allaha məhəbbətə öyrədirsiniz!*

*Biz minilliklərdən gələn mədəniyyətə sahibik! De bizə ,sən müsəlman ordusunu öz səfərlərinlə nəyə inandırmısan,Allahu-əkbər adıyla oğurluğa,öldürməyə və qarət etməyə?*

*Hansı elmə bağlı etmisən sən müsəlmanları,sən müsəlmanların beynini nə ilə zəhərliyirsən?*

*Hansı mədəniyyəti sən öz Allahından öyrənmisən ki,indi də gəlib zorla başqasının mədəniyyətini dağıdırsan?*

*Təəsüf,çox təəsüf olsun ki,bu gün bizim Ari ordumuz Allahın adı ilə sənin orduların tərəfindən məğlub edilib.İndi xalq məcburdur ki,gündə beş dəfə zor gücü ilə sənin Allahına ərəbcə ibadət etsin,məgər sənin Allahın yalnız ərəbcə başa düşür?*

*Mən sənə və sənin quldur dəstələrinə təklif edirəm ki,yığışıb yenidən öz səhranıza qayıdasınız,haradakı onlar yaşamağa öyrəşiblər. Onları əvvəllər də günəşin şüaları altında mələdikləri və susuzluqdan dəvə südü içib kərtənkələ əti yedikləri səhra və qəbilə həyatına qaytar.*

*Mən sənə öz oğru və quldur dəstələrini bizim münbit torpaqlara soxmağı qadağan edirəm. Bu daşürəkli vəhşiləri zəncirdən buraxma ki, onlar qoy bizim xalqı kəsib doğramasınlar,qoy bizim qadınlarımızı və uşaqlarımızı oğurlamasınlar, qoy bizim qadınlarımızı və qızlarımızı zorlamasınlar,qoy onları qul edib Məkkəyə yollamasınlıar. Sən Allahu əkbər naminə onlara bu vəhşilikləri törətməyi qoyma,öz quldur əməllərindən əl çək!*

*Arilər – genişqəlbli, qonqapərvər,ismətli xalqdır, onlar dünyanın harasına getsələr də dostluq toxumlarını,məhəbbəti, haqq-ədaləti əkirlər.*

*Sənə yalvarıram öz Allahu əkbərinlə səhrada qal və bizim sivilizasiyalı mədəni şəhərlərimizə yaxınlaşma,ya da sizin inamınız “ən çirkin və qəddar” və sizin əqidəniz də “ən oğru əqidə”dir.*

*İmza:Yezdəgerd III Sasani.*

***Hekayət:*** Elçi gedəndən sonra şah ayağa qalxdı və üzünü saraydakı əyanlara tutub dedi:

- Bu gündən gec olmayaraq bütün mərzbanlara xəbər göndərin, qoy hazırlaşsınlar.

- Şah sağolsun nəyə hazırlaşsınlar? – deyə vəzir soruşdu.

- Nəyə olar, əlbəttə ki müharibəyə! – deyə şahənşah cavab verdi.

- Şah sağ olsun, məgər müharibə olacaq? – deyə əyanlar dilləndilər.

- Sizcə, bugünkü hadisədən sonra onlar sakit əyləşəcəklərmi? – deyə şahənşah soruşdu. Əlbəttə ki, yox, gec-tez gəlib ölkəmizin başının üstünü çəkəcəklər və odur ki, onlardan tez davranmaq daha məntiqli olar. O üzdən mirzə yaz - fərmanımdır:

- Öncə Rüstəm Fərruxzada sonra Adərpeyqan hakimi İsfəndiyar Fərruxzada, Girdimanın hakimi Cavanşirə, Taleşan və Muğanın hakimi Bəhrama, Şirvan hakimi Şəhriyara, Baxtər və Xorəzm mərzbanlarına, sizə əmr edirəm,ordularınızla birlikdə tez bir zamanda paytaxtda olasınız. Bu namədən hər bir mərzbana bir nüsxə göndərin, gecikməsinlər. Bir də ki, vəzir! – deyə şahənşah soruşdu.

- Bəli, hökmüdarım! – deyə vəzir dilləndi.

- Qasidləri çağır yanıma! – deyə şahənşah dedi .

- Baş üstə hökmüdarım! - deyə əli ilə keşikçiyə işarə etdi və keşikçi çölə çıxdı və az sonra isə qasidlər gəldi və içəri girib təzim etdilər.

- Şah sağolsun, deyirəm ki qasidləri kustaklar üzrə mərzbanlara göndərək! – deyə vəzir dedi.

- Necə? – deyə şahənşah soruşdu.

- Bildiyiniz kimi ölkəmiz ulu atanız Ərdəşir tərəfindən dörd canişinliyə bölünmüşdür və bunlar aşağıdakılardır1 – deyə vəzir cavab verdi və sonra bir-bir sadalamağa başladı.

2.Şərq canişinliyi – Xorasan, Sistan və Girmanşah,

3.Şimal canişinliyi- İsfahan, Qum, Cibəl, Azərpeyqan və Ərmən,

3.Cənub canişinliyi – Fars,Əl-Əhvaz və Əl-Bəhreyn,

4.Qərb canişinliyi olan İraqdan tutmuş Rum ölkəsinə qədər olan ölkələr daxildir. Belə ki biz hər bir canişinliyə bir qasid göndərək və qoy o mərzbanlara çatdırsın,sonra onlar özləri öz aralarında öz təbəələrinə çaparlar göndərərlər.

- Hə, çox gözəl və necə deyirsən belə də, et, amma Rüstəm,Cavanşir və İsfəndiyar hamıdan tez hüzurumda olsunlar! - deyə şahənşah cavab verdi.

- Oldu əlahəzrət! Dediyiniz kimi də edərəm! – deyə vəzir təzim edib saraydan çəkilidi.

## *5.Adərbayqan*

***1.Adərbayqan.*** Paytaxtdan çox uzaqda,şimal ərazilərdə Adarbayqan ölkəsi yerləşirdi və onun mərkəzi Firuzabad şəhri idi. Firuzabad şəhərini Sasani şahlarından olan Firuz şah tikdirdiyindən bu şəhəri Firuzabad adlandırmışdılar. Lakin artıq uzun zamandır ki, bu şəhərdə Zərdüşti dinində müqəddəs ilahə sayılan Artanın məbədi yerləşirdi və ətraf əyalətlərdən buraya ziyarətə gəlirdilər.

Bu sıxlıq əsasən Novruz bayramında,yeni il daxil olanda müşahidə olunurdu. Belə ki şəhərin mərkəzində ilahə Artanın məbədi yerləşir və bu məbəddə o müqəddəs od yanırdı. Ziyarətə gələn ziyarətçilər burada qurbanlar kəsir və öz ziyarətlərini edir, kəsilən qurbanların qanlarını biri-birinin alınlarına sürtürdülər. Elə bu üzdən də bu şəhəri bəzən Arta Veta – Ardanın məskəni adlandırırdılar.

Zaman-zaman bu ad Firuzabad adı ilə bərabər işlənməyə başlanmışdı və şəhərin ətrafında möhkəm qala divarları var idi ki, bu da şimaldan tez-tez hücum edən vəhşi xəzərlərin hücumuna qarşı səd kimi istifadə olunurdu. Bu şəhər xüsusi olaraq qorunurdu,çünki Sasani şahları tez-tez buraya gəlir və ilahə Artanın məbədini ziyarət edirdilər və məbəddən aralı Adarpayqeanın mərzbanlıq sarayı yerləşirdi.

***İsfəndiyar Fərruxzad***. Budur sarayda,istirahət otağında geniş mərmər küləngnin üstündə yanı üstə uzanıb və bir əli ilə təkyə edən İsfəndiyar və qarşıda da biri-birindən gözəl rəqqasələr rəqs edir. Arabir rəqs edə-edə ona yaxınlaşan rəqqasələrə əl atıb tutmaq istəyir və bəzən də boşa çıxıb sərxoşluqdan üzü üstə çevrilirdi, lakin özünə gələndə də əli ilə saqiyə işarə edib şərab tökmələrini işarə edirdi. Bu zaman şəhər qala divarlarının cənub bürcündə duran keşikçilər şeypur

çalmağa başladılar. Sonra isə atlı qala qapılarına gəlib çatdı və yuxarıdakı keşikçilərdən biri uca səslə soruşdu:

- Eyyy, kimsən?

- Qasidəm! – deyə atlı cavab verdi.

- Hardan gəlirsən? – deyə keşikçi soruşdu.

- Paytaxtdan gəlirəm və şahın məktubunu gətirmişəm İsfəndiyara, təcilidir! Açın qapıları! – deyə atlı cavab verdi. Bunu eşitcək keşikçilər qapıları açdılar və qasid şəhərə daxil oldu və mərzbanlıq sarayına doğru hərəkət etməyə başladı.

Saray qapısında qasidi mərzbanın sağ əli və xidmətçi qarşıladı. Bu vaxt İsfəndiyar artıq həddən artıq içdiyindən sərxoş olub xoruldayırdı və elə buna görə də mərzbanın köməkçisi qasidə dedi:

- Çox təəsüf ki, mərzban yatıb və səninlə görüşə bilməyəcək,o üzdən gözlə sabah hüzuruna çıxarsan. Qasid uzun yol gəldiyindən mərzban köməkçisinin bu sözləri onun işinə gəldi və elə oradaca başını razılıq əlaməti olaraq silkələdi. Bundan sonra saray xidmətçiləri qasidi onun üçün ayrılmış otağa apardılar. İçəri girən kimi qasid otağı gəzməyə başladı və gözü pəncərədən uzaqda olan və başı qarlı olan dağlara sataşdı və xidmətçidən soruşdu:

- Bir söz soruşum!

- Buyurun ağa! – deyə xidmətçi dilləndi.

- O nə dağlardır belə? – deyə qasid ssoruşdu.

- Bu, Həştadsər dağlarıdır və uzaqdakı başı qarlı və ortası dəlik isə Savalandır! – deyə xidmətçi cavab verdi.

- Bu necə addır? – deyə qasid soruşdu.

- Bilirsiz ağam! Bu Ərdəbilin yerli dilindədir və bu adı bu dağlara qədimdə babalarımız kadusilər verib. Onun başı həmişə qarlı olduğundan, həm də dağın düz təpəsində eniş olduğundan bu Ərdəbil dilində Səvəlon deyilir! – deyə xidmətçi cavab verdi.

- Hə, anladım! Yəni bizim Mədain farscasında Sərbəlan! – deyə qasid cavab verdi.

- Elə də demək olar! – deyə xidmətçi də dodaqaltı mızıldandı.

Qasid yenə soruşdu: Bəs o uzaqdan görünən hansı silsilədir?

- Ora Kadusi taleşilərin ölkəsi olan Taleşandır və o dağlar da ki, Peştəsər dağlarıdır! - deyə xidmətçi cavab verdi. Sonra isə qasid daha sual vermədi və çox yorğun olduğundan elə çəkmələri ilə uzanıb yatdı.

Budur,artıq səhər açılıb,qasid hələ də yatır,birdən qapı döyüldü və qasid səsə oyandı və yorğun səslə: kimdir?

*Çöldən:* Dur artıq, mərzban səni hüzürunda gözləyir və bunu eşidən kimi bayaqdan ağır danışan qasid tez ayağa qalxdı və üst-başını düzəldərək qapını açıb çölə çıxdı. Burada qapı ağzında onu saray xidmətçisi gözləyirdi. Onu görən saray xidmətçisi üzünü qasidə tuitub sakit bir səslə "arxamca gəl" deyərək yeriməyə başladı. Onlar gəlib mərzbanın otağına çatanda xidmətçi qasidə əli ilə işarə edib durmasını istədi və özü içəri girdi, bir azdan çıxıb qasiddən onun da içəri girməsini istədi.

Qasid içəri girən kimi ətrafa baxdı və qarşısında-otağın o başında hündür bir taxtın üstündə ucaboylu bir şəxs əyləşmişdi. Qasid dönüb arxaya baxdı və xidmətçi ona başı ilə irəli getməsini işarə etdi və o da irəli gəlib təzim edib dedi:

- Mərzbanım! Sizə şahənşahdan məktub var!

Bunu görən İsfəndiyar əli ilə işarə etdi və xidmətçilər naməni qasiddən alıb İsfəndiyara verdilər. İsfəndiyar naməni açdı və birdən üzünün rəngi qaçdı və naməni bağlayaraq əlini alnına qoyaraq ağır-ağır düşünməyə başladı. Bayaqdan İsfəndiyarı süzən qasid onun əzəmətinə sanki heyran olmuşdu. Çünki uzun zaman haqqında hər yerdə eşitdiyi və xalqın

dilində dastan olan əzəmətli İsfəndiyar Fərruxzad indi onun qarşısında idi. Uzun boy-buxunu olan İsfəndiyarın boynu yoğun,qollarındakı şişləri qısa qollu köynəyindən görününrdü. Bundan əlavə uzun qəhvəyi saçları və qalın bığ və saqqalı ona xüsusi yaraşıq verirdi. Elə bil sasanilərin şahı Yəzdigerd yox, İsfəndiyar idi. Bayaqdan ağır-ağır düşünən İsfəndiyar birdən ayağa qalxdı və üzünü köməkçisinə tutub dedi:

- Qasidə bir-iki əsgər qoşun və bir də bələdçi, bir iki-də boş at.

- Mərzbanım, bütün bunlar nə üçün lazımdır? – deyə Xuddad soruşdu.

- Müharibə olacaq,o üzdən də şah bizdən və digər mərzbanlardan qoşun istəyir! – deyə İsfəndiyar cavab verdi.

-: Müharibə? Nə müharibə? Həzarilər gəlib, yoxsa Rumlular? – deyə Xuddad sorşdu.

- Nə Həzarilər, nə də Rumlular..! – deyə İsfəndiyar cavab verdi.

- Bəs onda gələnlər kimdir? – deyə Xuddad soruşdu.

Bunu eşidən İsfəndiyar qəh-qəhə ilə gülərək, İsmail övladları...- deyə cavab verdi.

- Nəə? O dəvə südü içən bədbəxt tazilərmi? – deyə Xuddad soruşdu.

- Bədbəxt bizik ki, onları lazımincə qiymətləndirməmişik və odur ki, tez Babər qalasına,Taleşan hakimi Bəhramın yanına adam göndərin, Şəhriyara və Cavanşirə isə onlar özləri ayrıca qasid göndəriblər! - deyib otağı tərk etdi və beləcə axşam oldu! deyə İsfəndiyar cavab veri.

Budur, Adərbayqan sarayı, mərzban İsfəndiyar Fərruxzad küləngidə əyləşib bir əlində şərabla dolu badə,digər əli ilə isə səslənən musiqinin tempini tutur. Ortada rəqqasələr musiqi altında rəqs edirlər və mərzbanla bərabər onun əyanları və kustak hakimləri də burada idilər. Hamı şərab içir və

əylənirdilər və birdən bayaqdan bir əli ilə mahnının avazını tutan İsfəndiyar əlini önündəki siniyə zərblə çıpıb bağırdı:

- Xamuş! Hamı heyrətlə donub qaldı və hamı öz gözlərini İsfəndiyara zillədi. Bayaqdan vəhşi kimi eyş-işrətə dalıb hər şeyi vəhşi kimi eşirsiniz,lakin bilmirsiniz bir gün bütün bunların sonu gələcək. Bunu eşidən kimi kustak hakimləri öz aralarında biri-biri ilə nə isə deyişirdilər. Bütün bunlardan qəzəblənən İsfəndiyar birdən ayağa qalxıb bağırdı:

- Eheeyy! Sizinləyəm! Məni eşitmədinizmi? Deyirəm ki, hər şeyin sonu gəlmək üzrədir”.İsfəndiyarın yaxın köməkçisi olan Behnam asta səslə:

- Mərzbanım! Niyə əsəbləşirsiniz! Bütün bunları demək üçün əbəs yerə özünüzü çətinliyə salırsınız! Nə olduğunu açıqca və astaca söyləyin! . Bunu görən İsfəndiyar sağ əlini Behnamın boynuna sarıdı və başını onun başına dayayarq astaca dedi:

- Behnam! Bilirsən ki, səni qardaşım Bəhram kimi sevərəm və elə bu üzdən də sözümə söz qatmaq səlahiyyətinə sahibsən.

- Mərzbanım! Olmaya, bilmədən bir qüsurmu işlədim? - deyə Behnam soruşdu.

- Yox! – deyə İsfəndiyar cavab verdi və səli ilə kustak hakimlərini göstərərk dedi:

- Kaş bu gün burda əyləşən hakimlərin hamısı sənin kimi söz deməyə və vuruşmağa cəzarəti olaydı, orda bu cəsarəti döyüş meydanında da göstərəydilər. Tək bildikləri səhərin korundan axşama qədər yeyib içib qadınlarla kef eləməkdi. Sonra isə üzünü kustak hakimlərinə tutub dedi:

- Həzarat! Bu gün Mədaindən buraya, Adərbayqana, Artaveti şəhərinə, mənim sarayıma bir qasid gəldi və bir məktub gətirdi. Sonra isə əlindəki şahın məktubunu göstərib dedi:

- Bilirsiniz o məktubda nə yazılıb?”

Hamı heyrətlə soruşdu: Nə yazılıb? Şahımız bizə nə əmr edir?

- Şahımız bizdən müharibəyə hazırlaşmağa və öz qoşunumuzla tez bir zamanda paytaxtda olmağı əmr edir1 – deyə İsfəndiyar cavab verdi. Bunu eşidən kimi hamı:

- Necə? Müharibə? Kiminlə?...

Bəziləri asta səslə “yəqin Rumladır”,amma bəziləri isə deyirdi “Ola bilməz,çünki onlarla Navarasakda sülh bağlamışıq .

Elə bu zaman İsfəndiyar uca səslə:

- Bu səfər nə rumlular, nə də həzarilər, bu dəfə gələn İsmail övladlarıdır...Bunu eşidən kimi məclisdəkilər nə deyəcəklərini bilmirdilər və birdən onların içindən Şiz kustakının hakimi Məniçihar ayağa durub dedi:

- Mərzbanım! Anlamaqda zorluq çəkirəm! Axı səhrada dəvə südü içən bu tazilər nə zaman ordu toplamağa vaxt tapdılar ki,bizə də hücum etməyə cürət ediblər. İsfəndiyar gülümsəyərək istehza ilə dedi:

- Nə vaxt! Qoy mən deyim nə vaxt! Bax elə biz səhərdən axşama qədər burada yeyib-içib eyş-işrətlə kef çəkən vaxt. Odur ki,mənimlə bərabər bütün mərzbanlara paytaxtdan qasidlər gedib, Taleşan hakimi qardaşım Bəhrama isə sabah özüm qasidə bələdçi qoşub göndərərəm. Ayrıca Arran sepahpeti Cavanşirə də bir namə göndərib vəziyyəti öyrənərəm, görüm o nə zaman Mədainə yola düşəcək. Bu zaman kusatk hakimlərindən biri:

- Cavanşir niyə? Bəs Varaz getməz məgər?

- Varaz niyə ki! O qocanın əli artıq qılınc tutmaz və çox ehtimal ki, Cavanşir gedəcək! – deyə İsfgəndiyar cavab verdi. Sonra da məclis dağılıdı və hamı öz dairəsinə məyus halda çəkildi.

Beləcə səhər oldu və sasanilərin Adarpayeqan mərzbanlıq sarayından da iki əsgər və bir bələdçi qoşuldu qasidə və onlar bərabər Taleşanın Babər qalasına tərəf yola rəvan oldular və onlar Ərdəbildən Arana olan yolla gedirdilər.

Belə ki Ərdəbildən Arana kimi – Rabat Ərşağa kimi 8 fərsəng(1-fr 6 km),sonra Verəng kəndinə kimi 8 fərsəxdir. Bütünlüklə 158 edirdi. Bundan əlavə olaraq isə Ərdəbildən Bəcərvana 20 fərsəx, Sultaniyyədən isə uzanan digər yol 37 fərsəx idi. Lakin Qasidin daha təhlükəsiz olan gedə biləcəyi digər yol isə Bəcərvandan Mahmudabad Qavbariya kimi yol idi ki,onun da tərifi belədir: Bəcərvəndan Biləsuvara 8 fərsəx sonra ―Yeni Arxa‖ (―Cuy-i-nov‖) 6 fərsəx və oradan da Mahmudabada 6 fərsəxdir.Bütünlüklə Bəcərvandan Mahmudabada kimi 20 fərsəx,Ərdəbildən 4 fərsəx və Sultaniyyədən 77 fərsəx yoldur. Bütün bunlara baxmayaraq Mədaindən gələn qasid və digər Adarpeyqanlı bələdçi və əsgərlər Ərdəbildən Aran olan yolla gedirdilər. Bu yol Təyləsan ölkəsinə daxil olan Həştadsər və Peştəsər dağlarının cənub ətəkləri ilə,Adarpayeqan sərhədləri arasındakı dağətəyi yolla gedirdilər. Sərhəd demişkən, bu yerlərin əhalisi demək olar ki,bir dildə danışırdılar, lakin aralarında ləhcə fərqi var idi. Buna baxmayaraq Taleşan-Mukan bir vilayət kimi sasanilər imperiyasının Qafqaz(şimal) kustakına daxil idi. Çünki I Xosrova qədər Sepəhbud adlanan baş hərbi rəis vəzifəsini bir nəfər daşıyırdı. I Xosrov bu vəzifəni dörd nəfər arasında böldü:"Şərq, yəni Xorasan və qonşu torpaqlar Sepəhbudu, Qərb (Məğrib)Sepəhbudu, Cənub (Nimruz), yəni Yəmən Sepəhbudu, Adərbayqan və qonşu torpaqlar, yəni Xəzərlər Sepəhbudu". Kustaklar daha xırda vahidlərə bölünürdü və bu vahidlərdən hər biri tarixən əmələ gəlmiş ərazi və etnik şəraitə uyğun olaraq azçox müstəqil vilayətdən (şəhərdən) ibarət idi. Şimal kustakına 13 belə vilayət (şəhər), o

cümlədən Adərbayqan (Atrpatakan), Ərmən, İberiya (Varçan), Arran (Ran), Balasakan, Sisakan və digər vilayətlər (Mukan, Deyləm, Dəmavənd, Ruyan,Amul və s.) daxil idi. İbn Xordadbeh təsdiq edir ki, Qərbi və ya Şimal vilayətləri sasanilər imperiyasının dörddə bir hissəsini təşkil edirdi və Adərbazqan sepəhbud adlanan ölkə Şimal Sepəhbudunun hakimiyyəti altında idi; bu hissəyə Adarpayeqan, Arminia, Rey, Arran və başqaları daxil idi. Padşahlara verilən adlardan danışan ibn Xordadbeh bildirir ki, hələ I Ərdəşir (224-241) Azərbaycan,Arminia və digər ölkə padşahlarına şah adı vermişdi, məsələn, Adərbayqan şah, Şiryan şah, Baraşkan şah, Amukan şah(Mukan), Armanian Şah, Filan şah və i.a.

## *Taleşan – Mukan.*



***1.Taleşana doğru.*** Budur artıq neçə saatdır ki,onlar dağətəyi yolla gedirlər, səhərdən yol boyu hər tərəfi seyr edən mədainli qasidin ətrafdakı gözoxşayan mənzərələrə ağzı açıq qalmışdı. Bunu görən adərbayqanlı bələdçi mədainli qasidə əli ilə işarə edərək soruşdu:

- Nə məsələdir?

Mədainli qasid ona baxıb yenə boynunu burub ətrafdakı mənzərələrə zillədi, sanki heç onları eşitmirdi. Bu zaman Adarbayqanlı əsgərlər bələdçiyə dedilər:

- Bəlkə, o bizi heç anlamır?
- Yox anlamamış olmaz! – deyə bələdçi cavab verdi.

-: Necə bəyəm? – deyə əsgərlər soruşdular.

- Onlarla bizim danışığımız eynidir,sadəcə ləhcə fərqi var! – deyə bələdçi cavab verdi və əsgərlər üzünü qasidə tutub dedilər:

- “Ey zörə, bemand! Lakin Mədainli qasid azca onlara tərəf boylandı və sonra yenə üzünü mənzərələrə tərəf tutudu. Əsgərlər biri-birinə baxıb dedilər:

- “Gördünüz! Demədim ki bizi başa düşmürlər və onlar da xorasanlılar kimi danışırlar və ləhcə fərqimiz çox böyükdür”.

Bayaqdan onları arabir izləyən mədainli qasid dedi:

- Dediklərinizi anlıyıram, lakin “zörə” yox “pesər” deməniz lazım idi. Bir də ki,”beman ” yox,bayesti gərək deyəydiz, çünki bizim Mədain danışığında sizin mənə dediyiniz söz gərək belə olaydı –“Pesər bayesti”. Amma yenə anladım, çünki mədaində dağlardan gəlmiş kurtilər çoxdur onlar da “pesər”ə sizin kimi “zörə”deyirlər və ehtimal ki,sizə yaxındırlar.

Onlar beləcə yollarına davam etdilər və çox keçmədi ki, gəlib bir kəndə çatdılar və qasid soruşdu: - bura haradır?

- Bura Anbarqah kəndidir və Taleşan ölkəsinin Vilqaç mahalı ilə sərhəd məntəqəsidir. Sola tərəf gedən yol Arşaq kəndinə gedir və ordan da Xer kəndinə, oradan da gedə bilərik, amma Anbargahdan getsək daha yaxşı olar! – deyə bələdçi cavab verdi.

- Niyə ki? – deyə Qasid soruşdu.

- Anbarqahdan peştəsər silsiləsi arasındakı vadidə bir yol var və biz o yolla Taleşanın ən yaxın məntəqəsi olan Mistana çatarıq və orada dəmirçiliklə məşğul olan yaxşı ustaları var! – deyə bələdçi cavab verdi.

-: Orada maraqlı nə var ki? – deyə mədainli təəccqüblə soruşdu.

- Deyirlər ki, bu ərazidə ən yaxşı qılınc və silahlar məhz bu obadanın ustaları tərəfindən

düzəldilir, hətta mərzban Rüstəm də bu ustaların düzəltdikləri qılıncı gəzdirir! – deyə bələçi cavab verdi. Digər iki əsgər də sözə qoşularaq dedilər:

- Elə fürsət düşmüşkən biz də oradan bir yaxşı silah alarıq! - deyə kəndə girdilər. Kəndin girişində dərə yamacında öz qoyunlarını otaran bir çobanla rastlaşdılar və bələdçi çobana səsləndi:

- “Ruz be xeyr çupan”(sabahın xeyir çoban)

- Ruj ba xeyr! – deyə çoban soruşdu.

- Bizə bir az ayrandan- zaddan və bir az da varsa çörək ver! - deyə atdan düşdülər. Çoban da əli ilə onlara işarə edərək düşmələrini istədi. Bələdçi və əsgərlər atdan düşdülər və atlarının yəhərlərini çobanın alaçığının yerə bərkidilmiş dirəyinə bağladılar bu vaxt çoban bələdçidən soruşdu: Hardan gəlirsiniz? – deyə bələdçi soruşdu.

- Adərbayqandan gəlirik Taleşana – Babər qalasına gedirik! – bələçi cavab verdi. Sonra çoban əli ilə bayaqdan atdan düşməyən mədainli qasidi göstərərk soruşdu: Bəs bu kimdir və niyə atdan düşmür?

*Bələdçi atlıya baxaraq dedi:*

- Lap yadımızdan çıxıb! Bu bizim Mədaindən gələn qasidimizdir və bizim ləhcəni çox da anlamır və ona görə sənin sözlərini anlamır! - deyə əsgərlərlə gülüşməyə başladılar. Bu zaman çoban atlıya: - “Rüj ba xeyr Asbpo” (sabahın xeyir atlı),atlı da cavabında “roz be xeyr pir-e mart” deyib atdan düşdü və onların yanına gəlib əyləşdi. Çoban bir az aralıda baxan Pilarud çayına tərəf getdi və oradan suyun kənarında suya qoyduğu ayranla dolu səhəngi gətirdi. Bələdçi və əsgərlər də çaya tərəf gedib əl-üzünü sərin suda yudular və gəlib süfrəyə əyləşdilər. Hərə çörəkdən bir az kəsib yeməyə

başladı və çoban da çay suyunda yuduğu bir dənə kasasını gətirdi və növbə ilə onlara ayran süzməyə başladı. Bələdçi üzünü çobana tutub soruşdu:

- Ay çoban, sən niyə səhəngi suda qoyursan və niyə bir dənə kasan var?

*Çoban cavab verdi:*

- Səhərlər hava sərin olur,lakin günortaya havalar istiləşir və o üzdən mən ayranla dolu küzəni çayın qırağında qoyuram ki, həm ayran xarab olmasın,həm də sərin qalsın.O ki qaldı kasənin bir dənə olmasına,özüm bir nəfərəm,həm də qonağım olmur və o üzdən də bir kasam var özümə bəs edir.Bu vaxt ağzı çörəklə dolu olan bələdçi dəbilqəsini başından çıxarıb yerə qoydu və dedi:

- Narahat olma ay çoban! Bu yaxınlarda çoxlu qonağın olacaq özün də bezərsən.

- Hər kim gəlir-gəlsin! Qonağım olar və azca durub sonra da gəldiyi yerə gedər! – deyə çoban cavabında dedi,lakin əsgərlərdən biri:

- Bu gələn qonaqlar çox həyasız qonaqlardır və özü də getməklə heç araları yoxdur! - deyə biri-birinə baxıb qəh-qəh çəkib ucadan gülməyə başladılar. Bu vaxt heyrətindən donub qalan çoban təəcüblə soruşdu:

- Bıy o necə qonaqdır ki,gəlib getməz? Ulu Zərdüştə and olsun ki, heç nə başa düşmədim.

Bu zaman ağzı dolu olan bələdçi dedi:

- Ay çoban qardaş! Bir imkan ver çörəyimzi yeyək də! Gələn İsmail övladlarıdır və onlar deyəsən bizim axırımıza çıxarlar. Yerində qorxudan donub qalan çoban asta bir səslə:

- Bəs biz hara gedərik? Bəs bu qoyunlarım nə olacaq?

- Ay çoban! Camaat nə haydadır, sən nə hayda? - deyə bələdçi əlini yellədi, sonra isə onlar dərənin içi ilə yuxarı tərəf-dağlara doğru hərəkət etməyə başladılar.

Yay olmasına baxmayaraq Taleşan ölkəsinin ən hündür dağlarının başı qarla örtülü idi və get-gedə hava soyuqlaşmağa başlayırdı. Atlılar dar keçidlə Taleşana daxil oldular və bir gün yol getdikdən sonra gəlib bir təpəyə çatdılar və o təpədən də azca uzaqda, dərənin içində tüstülər görünürdü. Sonra isə təpədən yavaş-yavaş dərəyə doğru hərəkət edən atlılar yolda bir uşağa rast gəldilər və bu uşaq atını otarırdı. Bələdçi atını uşağa tərəf sürərək soruşdu:

- Ay uşaq adın nədir?
- Adım Sabarzdır! – deyə uşaq cavab verdi.
- De görüm, bu hansı kənddir? – deyə bələdçi soruşdu.
- Bu bizim kənddir! – deyə uşaq cavab verdi.
- Sizin kənd olduğun bildim, bəs adı yoxdur? – deyə bələdçi soruşdu.
- Mistan kəndidir! Bu yerlərin ən məşhur silah istehsal olunan kəndidir! – deyə uşaq cavab verdi.
- Burada ən yaxşı dəmirçixana haradadır və ən yaxşı ustası kimdir? – deyə əsgərlər soruşdu.
- Gəlin ardımca, mən sizi aparararam! - deyə atına minib yavaş-yavaş kəndə tərəf hərəkət etməyə başladı və atlılar da onun ardınca hərəkət etdilər. Beləcə onlar gəlib Mistan kəndinə çatdılar və o kənd o ərazidə mövcud olan yeganə kəndlərdən biri idi ki,küçələri günün hər vaxtında adamlarla qaynayıb-qarışırdı. Kəndin dar küçələri xüsusi diqqət cəlb ediridi və mərkəz küçələrdə palçığa batmamaq üçün yerə xüsusi daşlar döşənmişdi. Kəndin mərkəz küçəsi ilə hərəkət etdikcə sağ və sol tərəfdə biri-birindən fəraqli dəmirçixanalar fəaliyyət göstərirdi. Bu dəmirçixanaların qapıları taybatay açıq olduğundan içəridə misdən xüsusi ustalıqla hazırlanmış əşyalar var idi. Orada qab-qacaqlar,bəzək əşyaları,xənəcərlər və dəmirdən hazırlanmış oraq, çin, dəryəz, dagez, balta, döyüş silahları olan – qılınc, qalxan, əhmud, şeşpər, nizə və sairə

alıcıların diqqətini xüsusi olaraq cəlb edirdi. Bundan əlavə Mistan kənd olsa da o, kiçik şəhərciyə bənzəyirdi, çünki Mistanın küçələri gecələr xüsusi fənərlərlə işıqlandırılırdı və bu fənərlər küçə boyu biri-birinin ardınca yerləşən dəmirçixanaların qapılarında asılmışdı. Gecə vaxtı gələn alıcılar da aldıqları əşyanı görə bilirdilər. Beləcə, atlılar uşağın ardınca kəndə girdilər və onun küçələri ilə içəriyə doğru hərəkət etdilər. Qabaqda gedən uşaq arada geriyə baxıb əli ilə Ərdəbilli bələdçiyə işarə edərək yerli dildə “bırom” deyirdi. Bu zaman arxadakı əsgərlər biri-birinə baxıb bu bizim “berom” sözüdür, bunlarda belə işlənir. Sonra əsgərlər üzünü mədainli qasidə tutub dedilər:

- Bəradər! Tərcüməyə ehtiyac var,yoxsa başa düşürsən?

- Hə! Təqribi anlayıram! Bu bizim Mədain ləhcəsində “beran”(sürmək) sözüdür.”! – deyə qasid cavab verdi. Bu zaman uşaq gəlib dəmirçixanaların birinin qarşısında durdu və atdan enərək əli ilə arxadakılara da atdan düşmələrinə işarə etdi. Beləcə hamı atdan düşdülər və bu zaman içəridən enlikürək, uzun saçlı, qolları şişmiş, iri gövdəli və Rüstəmi-i Zalı xatırladan və başını qırmızı sarqı ilə bağlamış orta yaşlı bir şəxs çıxdı və uşağa baxıb soruşdu:

- Bunlar kimdir?

- Bunlar qonaqdırlar və uzaqdan gəlirlər! – deyə uşaq cavab verdi və sonra isə əlində külüng olan dəmirçi,külüngü çiyninə qoyaraq ərdəbilli bələdçiyə tərəf gəlib soruşdu:

- Kimsiniz və hardan gəlirsiniz?

Bunu eşitcək ərdəbilli bələdçi əlində külüng olan bu igidə baxıb dedi:

- Adım Huşəngdir! ərdəbildən gəlirik və Babər qalasına gedirik. Əli küləngli igid əlindəki küləngi yerə qoyub əli sinədə təzim edərək dedi:

- Mən də Perozam və sonra əli ilə işarə edərək “buyurun keçin! - deyə qonaqlara yol göstərdi. Lakin bayaqdan olanları sakit halda süzən mədainli qasid sakit tərzlə dedi:

- Mənim də adım Behnamdir və paytaxt Mədaindən gəlirəm.

- Çox gözəl,amma ləhcən bir az fərqlidir! – deyə Peroz cavab verdi.

- Peroz qardaş! Tələsməsəydik oturub bir çörəyini yeyərdik,vaxt azlığımız var, yolumuzu buradan salmağımızın məqsədi sizin aləmə məşhur kəskin qılınclarınızdır! – deyə Behnam dilləndi.

- Necə, məgər bizim silahlarımız Mədaində də məşhurdur yəni? – deyə Peroz soruşdu.

- Nəinki Mədaində, sasanilər məmləkətinin hər yerində, bundan əlavə Rumda, Yəməndə və Misirdə də məşhurdur! – deyə Behnam cavab verdi və bunu eşidən Peroz əli ilə işarə edərək dedi:

- “Onda gözləyin” və sonra arxaya keçdi və əlində altı qılıncla qayıtdı. Dəmirçinin əlindəki qılınclar çox yaxşı qılınclar idi,o üzdən də qılıncları göprən kimi Hüşəng qılıncların ikisini aldı və birini mədainli qasid olan Bəhmənə verdi və hər ikisi əllərindəki qılıncları təlim edərək səmimi səslə:

- Həə,buna deyərəm silah, bununla nə qədər istəsən İsmail övladı qırmaq olar! - deyə Huşəng dedi və bunu eşitcək dəmirçi Peroz narahat bir səslə:



- Necə? İsmail övladları?

- Həə! Onları deyirəm də! – deyə Hüşəng cavab verdi.

- Necə məgər, onlar buralaramı gələcəklər? - deyə Peroz hər iksinə baxdı. Bunu görən Mədainli qasid Bəhmən əlini Perozun çiyninə qoyaraq sakit tərzdə dedi:

- Əgər biz ora vaxtında gedib onların qarşısını almasaq, onda onlar mütləq bura gələcəklər və inan ki,bu heç də yaxşı olmayacaq. Sonra isə Ərdəbilli bələdçi və mədainli qasid dəmirçi Perozdan soruşdular:

- Bunların qiyməti nə qədərdir?

Bayaqdan məyus halda durub düşüncələrə qərq olmuş dəmirçi əli ilə onların əllərini aşağı salıb dedi: - Götürün? Əgər doğurdan da bu qılıncla murdar İsmail övladlarını qanlarına qəltan edəcəksinizsə,qoy onda bu qılınclar məndən sizə hədiyyə olsun! - deyə sol əlini mədainli qasidin çiyninə qoydu. Bunu görən Mədainli qasid dəmirçiyə uzun-uzadı baxıb dedi:

- Qardaş! Bu heç də asan olmayacaq!

- Niyə ki? – deyə Peroz soruşdu.

- Çünki uzun illərdir ki, rüşvətə bürünmüş saray məmurları və dövlət apparatının bugünkü acınacaqlı vəziyyəti imkan verəcək ki, İsmail övladları asanlıqla bizim dövlətimizin axırlarına çıxsınlar. Odur ki, bizə sənin kimi şirürəkli və qolu qüvvətli vətən oğulları lazımdır! - deyə mədainli qasid cavab verdi.

Mədainli qasidin dediklərindən sanki həvəslənən dəmirçi Peroz üzünü ona tutub dedi:

- Durun! Məni də gözləyin! Mən də gəlirəm sizinlə! - deyə önlüyünü açıdı və evə girdi və çox keçmədən belində Misli(Mistan qılıncı) və qollarında da dəmir biləklik çölə çıxdı. Bu zaman Mədainli qasid üzünü ərdəbilli bələdçiyə tutub əli ilə ağzına işarə etdi. Bunu görən ərdəbilli bələdçi dəmirçiyə dedi:

- Bəlkə, ayranınız olar?

- Həə! Niyə yoxdur ki! Var! – deyə Peroz cavab verdi və sonra isə evə tərəf səsləndi:

- Bacı! Bir içim sərin ayran gətir?

Bu vaxt evdən üzü bağlı bir qız çıxdı və əlində küzə ilə qonaqlara yaxınlaşdı. Qız çox gözəl idi və qonaqlara yaxınlaşan kimi digər əlindəki kasaya küzədən ayran süzüb növbə ilə onlara payladı və sonra isə getdi. Ayranı içən kimi ərdəbilli bələdçi üzünü dəmirçiyə tutub soruşdu:

- Dedin bacındı?

- Həə! Bacımdır! Özü də qılınc qurşamaqda, at çapmaqda üstünə yoxdur! - deyə dəmirçi Peroz öyünməyə başladı. Qonaqlar maraqla biri-birinə bir müddət baxdılar və sonra isə dəmirçiyə dedilər:

- Biz gedirik! Gəlirsənsə gəl! - dəllə işarə etdilər. Bu vaxt dəmirçi də atını gətirib tərkinə mindi və qonaqlarla bərabər dağların arasındakı Lak çayının kənarındakı dağdibi yolla Babərə doğru hərəkət etməyə başladılar. Yol boyu mədainli bir

müddət başı qarlı və çılpaq dağlara,sonra isə getdikcə yam-yaşıl meşəli dağlara rast gəlir və bu təbiət mənzərəsinə heyran qalırdı.

***Asnaqaran***. Beləliklə, onlar axşama Asnaqarana gəlib çatdılar və bu zaman ərdəbilli bələdçi mədainliyə üzünü tutaraq dedi:

- Atdan düşə bilərsən? Azca nəfəsimizi alaq,sonra da atəşgahı ziyarət edib yolumuza davam edərik. Mədainli isə öz cavabında təəccüblə:

- Nə atəşgah? - deyə soruşdu?

- Asnaqaran atəşgahdır! – deyə ərdəbili bələdçi cavab verdi. Bu vaxt hamı bir nəfər kimi atdan düşdü və çox da böyük olmayan kiçik bir evə yaxınlaşdılar onda ərdəbilli bələdçi:

- Kimsə varmı? - deyə çağırmağa başladıvə bu zaman daxmanın qapısı açıldı və orta yaşlı bir kişi çıxıb soruşdu:

- Kimsiniz?

- Bizik! Qonağıq! Yol gedirik! - ərdəbilli bələdçi çavab verdi.

- Xoş gəlmisiniz bizim kimsəsiz kəndə, qonağım olarsınız! – deyə qoca cavab verdi. Bunu görən ərdəbilli təəccüblə:

- Kimsəsiz niyə, ay ağsaqqal? Məgər kənddə kimsə yoxdur səndən başqa?

- Var! Amma yarısı ziyarətgahda, yarısı da çöldə-meşədə qoyun-quzunun və örüşün ardınca gedib və kənddə sadəcə mənim kimi qocalar qalıb! – deyə qoca cavab verdi.

- Bəs onlar nə zaman qayıdacaqlar kəndə? - ərdəbilli bələdçi soruşdu.

- Həmişə yayın əvvəlində gedirlər, bir də qaldı yayın sonlarında qayıdılar! - deyə qoca cavab verdi.

- Onda bizə ziyarətgahın yolunu göstər! - deyə ərdəbilli bələdçi soruşdu.

- Bax,çayın o tayındadır! Düz gedərsiz, çayın dayaz yerindən tərəcələrin üsü ilə keçərsiniz o taya. Sonra da təpəyə qalxarsınız və meşənin içində bir qəbiristanlıq görərsiniz, elə ziyarətgah da oradadır! - deyə qoca əli ilə çayın o sahilindəki dağın yamacına işarə elədi.

Beləcə qonaqlar çaya tərəf getdilər və onun dayaz yerini tapıb çayı keçməyə başladılar. Çayı keçərkən atlar da bolluca su içdilər və sonra da onlar təpəyə qalxıb ziyarətgah daxil oldular. Burada bişmiş kərpiclərdən tikilmiş çox da hündür olmayan bir atəşgah var idi. Qonaqlar atəşgahın həyətinin giriş hissəsində bir nəfərlə rastlaşdılar və ondan soruşdular:

- Ey, sən kimsən?

*Naməlum şəxs:* Mən bu atəşgahın həm gözətçisiyəm həm də qoruyucusu və əgər qurban gətirmisinizsə, buyurub kəsə bilərsiniz. Bunu görən ərdəbilli gülümsəyərək dedi :

- Biz özümüz artıq hamımız qurbanıq! - deyə cavab verdi. Sonra isə onlar atdan düşüb atəşgaha tərəf getdilər və qapısını açıb əyilərək içəri girdilər. İçəridə ortada atəş yanırdı və hamı bir nəfər kimi ibadətlərini etdilər və sonra isə ata minib yola rəvan oldular.



***Babər qalası.*** Belə ki,axşama gəlib Babər qala şəhərinə çatdılar. Budur möhtəşəm Babər qalası, Taleşanın və Mukanın baş şəhər qalası və bu qala şəhəri Taleşan dağlarının hündür təpəsində öz əzəməti ilə yerləşirdi.

Qala şəhərinə yalnız

bir tərəfdən yol var idi və bu yol dağlardan gələn arxa yol idi. Qalanın sol tərəfi meşəlik və dərələr, sağ tərəfi isə Vazarud çayı axırdı. Babər qalasının qala divarlarına olan giriş hissədə böyük bir qapı yerləşirdi. Qala divarlarının hündürlüyü isə 5 metrə, eni isə 2 metr idi ki, bu da qalanın möhkəmliyinə işarət edirdi. Uzqdan qala bürcləri üzərində sasanilərin ağ qırmızı bayrağı öz əzəməti ilə dalğalanırdı. Beləliklə, elçilər qala qapılarına yaxınlaşdılar və bu zaman yuxarıda duran qala keşikçilərindən biri uca səslə:

- Kimsiz? - deyə soruşdu?

Bu zaman ərdəbilli bələdçi də uca səslə:

- Bizik! Mərzban İsfəndiyarın elçiləri! Yanımızda Mədaindən gələn qasid də var, mühüm məlumat var,qapıları açın! - deyə cavab verdi. Bu vaxt qapı açıldı və elçilər içəri daxil oldular. Qalanın əsas küçəsi ilə irəliləyən atlılar qala şəhərinin düzəninə maraqla baxırdılar. Belə ki qala şəhərində kvadrat formalı kərpicdən tikilmiş qaladakı yaşayış evləri biri-birinin içərisində yerləşirdi. Həmən evlərinə çəkilən, gildən düzəldilmiş su boruları hər məhəllədə var idi.

Qala divarları qırmızı bişmiş kərpiclərdən və çay daşlarından xüsusi ustalıqla hörülmüşdü, elə qala şəhərindəki evlərin çoxunun divarı bişmiş kvadrat kərpiclərdən idi. Qala şəhərinin rəhbəri olan Bəhramın sarayı şəhərin yuxarı başında yerləşiridi. Oraya gedə-gedə yol yuxarıya doğru qalxırdı. Qalanın ən yüksək hissəsində üç dairəli qüllə var idi və bu qüllələrin üzü dənizə tərəf idi.

Qala şəhərinin ən hündür hissəsindən aşağıda keçilməz bataqlıqlı meşələr və uzaqdan da dəniz görünürdü. Belə ki buradan demək olar ki,320 fərsəxlik məsafə ovuc içi kimi görünür və üç dairəli qüllələlərin içərisində isə otaqlar yerləşirdi. Birinci dairənin divarında ağ daşdan yonulmuş qoç fiquru var idi. İkinci dairənin divarına Babildə olduğu kimi

relyef formasında kaman, ox, siyirmə qılınc,xəncər şəkilləri var idi. Beləcə elçilər gəlib lap yuxarı başda yerləşən Bəhramın sarayına çatdılar və saray qapıları açıldı və onlar içəri girdilər. İçəriyə bir dəhliz gedirdi ki onun da sağ və sol tərəflərində otaqlar yerləşirdi. Qapıda iki keşikçi dururdu və onların da yanında əllərini belinə qoymuş orta yaşlı bir gənc dururdu və geyimindən onun məsul bir adam olduğu seçilirdi.

Elçilər keşikçilərə çatanda onlar əllərindəki nizələri kəsmə formaya salaraq onların yolunu kəsib dedilər:

- Durun! Sonra isə onların yayında duran cavan bir az irəli gələrək dedi:

- Mədaindən gələn qasid kimdir? O gəlsin və qalanları gözləsin burada və bunu görən ədəbilli bələdçi irəli keçərək dedi:

- Mən mərzban İsfəndiyarın elçisiyəm və Bəhrama qardaşından xüsusi məlumatlarla gəlmişəm və onu şəxsən görməliyəm. Bu vaxt o cavan əli ilə ərdəbilli bələdçiyə baxıb əli ilə işarə edib onun da gəlməsini istədi və Ərdəbilli bələdçi ilə mədanli qasid o adamın ardınca içəriyə girdilər. Onlar dəhlizlə o adamın ardınca irəliləməyə başladılar və dəhlizin axırında yuxarı dairə yerləşirdi ki, orada da məhz Bəhram özü qərar tuturdu.

Onlar gəlib sondakı otağa çatdılar və sonra da içəri girdilər. İçəri girən kimi qonaqların diqqətini otağın divarlarındakı mənzərə cəlb etdi. Belə ki Bəhramın otağındakı divarlarda gipsdən düzəldilmiş quş və gül-çiçək fiqurları diqqəti cəlb edirdi. Otağın divarları açıq-qırmızı və qırmızı rəngli yerli bişmiş kərpiclərdən tikilmişdi. Otağın digər divarlarında isə günəş, ulduz və od təsvirləri var idi ki,bu təsvirlərə qala divarlarında da rast gəlmək olurdu. Otağın baş tərəfində orta yaşlı bir şəxs əyləşmişdi və o, qonaqları görən

kimi əli ilə keşikçilərə çölə çıxmalarını işarə etdi və sonra isə ayağa qalxıb elçilərə tərəf gəldi və soruşdu:

- Kimsiniz?

- Biz Adərbyqan mərzbanı İsfəndiyarın elçiləriyik və sizə qardaşınızdan mühüm məlumatlar gətirmişik! – deyə ərdəbilli astaca cavab verdi. Bunu eşidən kimi Bəhram elçiləri salmladı və əli ilə oturmalarını işarə etdi və dedi:

- Əvvala, xoş gəlib səfa gətirmisiniz! Qardaşımın qonaqlarına hər daim yerim və məkanım vardır və özünüzü rahat hiss edin, sonra isə üzünü ərdəbilli bələdçiyə tutub dedi:

- Vəziyyət nədir, mərzban nə istiyir?

Ərdəbilli qasid İsfəndiyarın naməsini qurşağından çıxarıb Bəhrama verdi və Bəhram naməni alan kimi açıb oxumağa başladı. Hamı səssiz dayanmışdı, lakin bu səssizliyi məktubu oxuyub qurtaran Bəhram ani olaraq kəsdi və bağırdı:

- “Lənətə gəlmiş tazilər! Murdar İsmail övladları! Əxlaqsız bədəvilər! ... Nə cürətlə belə işlərə qalxışırlar? Məgər bilmirlər ki,İranın qüdrətinə və əzəmətinə nə qüvvələri yetər, nə də gücləri”, sonra isə hirsindən uca səslə...”xidmətçi!., Xidmətçi? - deyə çağırdı.

- Bəli, əlahəzrət! – deyə xidmətçi cavab verdi.

- Get mənə şərab gətir və qonaqlar da yoldan gəlib, yəqin acdılar süfrə sərin.. bol-bolləvəngi də olsun.. tez olun! – deyə Bəhram şah dedi.

- Baş üstə əlahəzrət! - deyib xidmətçi çölə çıxdı, sonra isə ərdəbilli bələdçi üzünü Bəhrama tutub dedi:

- “Əlahəzrət! Bilmənizi istərəm ki,yanımdakı bu igid paytaxt Mədaindən gəlir və şahənşahın qasididir! Sonra isə sözünə davam edərək dedi:

- Vəziyyyət o qədər pisdir ki, şahənşah özü şəxsən narahatlıq keçirir və bu üzdən də bütün mərzbanlara namə yazıb. Şəhriyar, İsfəndiyar və Cavanşir öz orduları ilə

yubanmadan Mədainə getməlidirlər. Cavanşir də gələcək? - deyə Bəhram soruşdu.

- Bəli əlahəzrət! Bəraz artıq qocalmışdır və yüksək ehtimalla oğlu Cavanşir gələcək! – deyə ərdəbilli bələdçi cavab verdi.

Bəs mən? - deyə Bəhram soruşdu?

- Siz də gələcəksiniz! – deyə ərdəbilli bələdçi cavab verdi.

- Xidmətçi? – deyə Bəhram yenə uca səslə:

- Bəli, əlahəzrət! – deyə xidmətçi cavab verdi.

- Tez Rudəsər qalasına xəbər yollayın ətraf məntəqələrə carçıları yollasınlar və əsgər yığımı barədə təpələrdə odlar qalansın! - Bəhram cavab verdi.

- Baş üstə əlahəzrət! - deyib təzim edib çölə çıxdı və sonra isə üzünü mədainli qasidə tutub dedi: Adın nədir igid? – deyə xidmətçi cavab verdi.

- Behnam! Əlahəzrət! – deyə mədainli cavab verdi.

- Hə! Sən danış görüm paytaxtda vəziyyət necədir? – deyə Bəhram soruşdu.

- Belə də, səs-küydür,həm də çox istidir və bu zaman xidmətçilər artıq sürfəni sərib yeməkləri düzürdülər! – deyə Behnam cavab verdi. Bəhram əlinə bir üzüm salxımı alaraq ondan bir gilə ayırıb ağzına atdı və ərdəbilli bələdçiyə baxıb dedi:

- Əşşi onun demirəm! Gözəl xanımları deyirəm! Mədain qızlarını deyirəm! Bunu eşitcək mədainli qasid gülümsəyərək dedi: Gözəl xanımlara qalsa, elə buralar da pis deyil!

-: Nəyi nəzərdə tutursan? – deyə Bəhram soruşdu.

- Gələrkən şəhər küçələrində bizi öz baxışları ilə süsüb gülüşən Taleşanlı qızları deyirəm1 – deyə

Mədainli cavab verdi.

-: Gəl səni buralarda evləndirək! - deyə Bəhram qəh-qəh çəkməyə başladı. Bunu görən ərdəbilli də gülməyə başladı.

Bayaqdan yanındakıların qəh-qəhəsindən təəccüblənən mədainli Behnam təəccübündən donub qalmışdı, sonra isə üzünü ərdəbilliyə tutub dedi:

- Bəs siz nəyi nəzərdə tutursunuz?

- Ona bizim adətləri məgər yolda danışmamısan...! – deyə Bəhram üzünü ərdəbilli bələdçiyə tutub dedi*:*

- Yox əlahəzrət, buna vaxtımız yox idi! - deyə ərdəbilli bələdçi gülməyə davam etdi. Beləcə onlar yeyib-içdilər və hamı xoşhal oldu və bu zaman Bəhram uca səslə səsləndi:

- Musiqi və rəqqasələr gəlsin! Sonra isə məclisə rəqqasələr gəlib rəqs etməyə başladılar. Nəhayət, sonda hamı yatmaq üçün dairələrinə yerləşdirildi və hamı yatdı.

***Qalada 2-ci gün.*** Budur səhər yavaş-yavaş açılmağa başladı və gecə səs-küylü kef məclisindən yerinə sürüdülərək aparılan mədainli qasid anicə quşların səsinə oyandı.Tez durub küləngiyə çıxdı və gözlərinə inanmadı və öz-özünə:

- İlahi bu nə mənzərədir belə? - deyə dedi.

Qala dağın zirvəsində yerləşdiyindən uzaqdan əsl cənnət mənzərəsi mövcud idi və dünən qalaya arxa tərəfdən girdikləri üçün bu gözəlliyi görməmişdi. Qaladan aşağıda bazar görünürdü, solda isə uzaqda yamyaşıl sıx keçilməz meşələr yerləşirdi və heç bir məntəqə görünmürdü. Qalanın sağ tərəfində şırıltı ilə axan çay günəşin yenicə saçan şəfəqləri altında parıldamağa başlamışdı. Ağaclardan azca uzaqda yekə daşlar görünürdü və bu ehtimal ki,qəbiristanlıq idi, bir qədər uzaqda isə yenə kiçik bir qala görünürdü. Çayın o tərəfində isə bir neçə yaşayış məntəqəsi və o taya keçmək üçün kəndirli sal görünürdü, amma daha gözəli isə parıldayan masmavi dəniz idi. Bunları həvəslə izləyən mədainıli qasid əllərini külənginin daş dəstəyinə dayayıb öz-özünə “ilahi bu nə gözəllikdir belə. Etimal ki,ulu Zərdüştün bizə vəd etdiyi cənnətdir yəqi! - deyə

söylənirdi. Bütün bunlara uzun-uzadı tamaşa etdikdən sonra içəri girdi və bu zaman qapıda ayaq səsləri eşidildi və qapı döyüldü.

- Kimdir? – deyə mədainli qasid soruşdu.

- Mənəm! Xidmətçi! Əlahəzrət Bəhram şah sizi nahara gözləyir! - deyə qapının o tayından uca səslə dilləndi.

- Hə! İndi gəlirəm! - deyə mədainli qasid cavab verdi və bu zaman qapıdakı xidmətçi getdi. Sonra isə mədainli qasid ərdəbilli bələdçini və dəmirçi Perozu oyatmağa başladı:

- Bərxastin! Bərxastin! Bedor şin! .Bu zaman axşamkı ağır kef məclisindən yorğun düşən hər ikisi oyandılar və ərdəbilli bələdçi mədainli qasidə:

- Hə! Nə olub! Qaça-qaçdı, yoxsa İsmail övladları gəlir..?

- Yox! Əlahəzrət Bəhram bizi nahara gözləyir, tez olun durun görüm! – deyə mədainli qasid cavab verdi və sonra birdən nə isə yadına düşən ərdəbilli bələdçi üzünü mədainli qasidə tutub dedi:

- De görüm sən niyə “bidar şavid” əvəzinə,”bedor şin” deyirsən?

- Necə məgər? – deyə mədainli qasid soruşdu.

- Axı Mədain ləhcəsi belə deyil, sən lap Usruşuna ləhcəsində danışdın ki,məgər oralısan? – deyə ərdəbilli bələdçi soruşdu.

- Həə! Onu deyirsən! Haqlısan! Atam oradan gəlib paytaxta, yurd-yuva tutub,işi ilə əlaqədar.

- Deyirəm axı,ara-sıra belə sözlər işlətdiyindən diqqətimi cəlb etdi! - deyib ərdəbilli bələdçi ayağa durdu və hamı nahara tələsdi.



***Qalada 3-cü gün.*** Budur, Bəhram yerdə oturub və qarşısında uzun bir süfrə və süfrədə nahar yeməyi oturub qonaqlqrı gözləyir.Bir neçə xidmətçi də kənarda durub əmr gözləyirlər, bu zaman qapıçı içəri girərək təzim edib dedi:

- Əlahəzrət! Qonaqlar qapıda!

-Həə! nəyi gözləyirsiniz? Alın içəri onları! – deyə Bəhram şah ayağa durdu, elə bu vaxt qapıçı qapını açaraq çöldəkilərə əli ilə işarə edərək gəlmələrini söylədi və onlar da içəri girdilər. Qonaqlar içəri girən kimi Bəhran onları görüncə gülümsəyərək dedi:

- Deyəsən, axşam çox yorulubsunuz?

- Yox əlahəzrət! Sadəcə buranın o qədər gözəl havasatı var imiş ki, adam lap valeh olur! – deyə ərdəbvilli cavab verdi və sonra Bəhram əli ilə qonaqlara işarə edərək dedi :

- Buyurun əyləşin və qonaqalar da keçib hərə bir nimdar üstündə əyləşib nahara başladılar və bu zaman Bəhram çörək yeyə-yeyə əlini dəmirçi Peroza işarə edərək soruşdu:

- "Bu igid kimdir"?

-: Əlahəzrət! Bu igid qolu qüvvətli bir dəmirçidir və məmləkətdə məşhur olan "misli" adlı qılıncların ustasıdır! – deyə ərdəbilli dedi və bu sözləri eşidən Bəhram təəcüblə soruşdu:

- Mənim məmləkətimdə yaşayırsan, amma mən səni tanımıram?

- Əlahəzrət! Ata-babalarım ərdəbilin Ceyd məntəqəsindəndirlər və sonradan Mistana köçüb yaşamışlar, anam isə Nəhavəndəndir - Ceydə İsə Ərdəbilin Amburan (Dəmir) kəndindən gəlmişlər və indi də ora gediş-gəlişimiz var,yəni qohumlarımız var! – deyə dəmirçi Peroz cavab verdi. Bu sözdsən sonra isə onlar beləcə nahar etdilər və bu zaman həyətdə qılınc səsləri gəldi və mədainli qasid ərdəbilli bələdçinin qulağına nə isə pıçıldadı. Bunu görən Bəhram Ərdəbilli bələdçidən soruşdu:

- Qonaq nə istəyir,onu narahat edən nədir?

- Əlahəzrət! Soruşur ki, həyətdə nə səsidir belə, yəni qılınc səsləridir? - deyə ərdəbilli bələdçi soruşdu. Bu vaxt Bəhram heç nə olmamış kimi yeməyinə davam etdi və sonra əlindəkini yerə qoydu, ağzını silib dedi:

- Siz yeməyinizi yeyin və bir azdan olanları yaxından izləyərsiniz. Ərdəbilli bələdçi mədainli qasidə baxaraq çiyinlərini yuxarı tərpədərək nəyə isə işarə etdi və onlar da yeməyə davam etdilər. Yemək bitən kimi Bəhram üzünü qonaqlara tutub dedi:

- İndi isə gəlin yuxarıdan izləyək deyib ayağa qalxdı və əli ilə küləngiyə tərəf işarə edərək özü də oraya tərəf addımladı. Bunu eşidən kimi qonaqlar da Bəhramın ardınca küləngiyə doğru addımladılar və onlar ora çatan kimi həyətdə iki nəfər döyüşdüyünə şahid oldular. Aşağıda qılınc məşqi geirdi və orada bir neçə döyüşçü və əsgərlər dayanmışdılar. Döyüşçülərdən birinin üzü açıq, digərinin isə üzü bağlı idi və üzü də aydın seçilmirdi və ayrıca kənarda da bir neçə əsgər dayanmışdı. Çox maraqlı idi üzübağlı olan şəxs zərbələri çox dəqiq və sürətlə endirirdi və qarşısındakı isə onun zərbələrindən geri çəkilirdi və bu zaman Bəhram şah üzünü qonaqlara tutub dedi:

- Hə! Nə deyirsiniz? Xoşunuza gəldimi?

- Burada xüsusi heç nə görmürəm! – deyə dəmirçi Peroz cavab verdi və ərdəbilli bələdçi ilə gələn iki saray mühafizi də onun sözünü təsdiqləyərək dedilər:

- Hə! Bizcə də,maraqlı və ya yeni bir şey görmürük və sonra isə Bəhram üzünün Ərdəbilli qasidə tutub dedi:

- Bəs sən nə deyirsən?

- Əlahəzrət! Mən həmişəki kimi susmağı tərcih edirəm.! – deyə ərdəbilli bələdçi cavab verdi.

Bəs mədainli qonağımız nə düşünür? - deyə Bəhram şah mədainli qasidə tərəf döndü.

- Əlahəzrət! Məni bağışlayın! Amma mən də xüsusi olaraq yeni bir şey görmədim! – deyə mədainli qasid cavab verdi. Bəhram onun biləyini sol əli ilə tutub saxladı və sağ əli ilə aşağı işarə etdi və döyüş durdu. Sonra isə əli ilə kənarda duran digər əsgərlərə göstəriş verdi və bu zaman iki döyüşçü o üzü bağlı şəxslə döyüşməyə başladı. İlk həmlədə iki əsgər arxa və qabaq tərəfdən üzübağlı döyüşçünü mühasirəyə aldı və qılınclar yenə havada parıldamağa başladı. Döyüşün elə ilk anında birinci əsgər qılıncı iki əllə tutaraq nərə çəkərək üzübağlı döyüşçüyə hücum etdi. O, zərbə vurmaq istəyirdi ki, üzübağlı döyüşçü ani olaraq əyildi və dirsəyi ilə ona hücum edən döyüşçünün sağ ayağına zərbə endirdi. Bu vaxt o döyüşçü büdrəyib yerə yıxıldı və ikinci döyüşçü fürsətdən istifadə edib qılıncı ilə əyilən yerdə onun qılıncına zərbə endirmək istədi. Əyilən vəziyyətdə olan üzübağlı əsgər onun biləklərindən tutub yerə sərdi və döyüş bitdi.



Üzübağlı əsgər yuxarıdan onu izləyənlərə baxdı və Bəhram şah da əli ilə ona dayan işarəsini verdi, sonra üznü qonaqlara çevirib dedi:

- Hə! İndi nə deyirsiniz?

Amma qonaqlar yenə susmağa davam edirdilər ki,bu da onların təəccüblənmədiklərini göstərirdi. Bunu görən Bəhram əli ilə yenidən aşağı işarə etdi və bu zaman on döyüşçü birdən o üzübağlı döyüşçüyə tərəf yürüdülər və onu dövrəyə aldılar. Budur, yenə döyüş başladı,çətin olsa da, o üzübağlı döyüşçü bütün bu on döyüşçünü məğlub etdi. Baş verənlərdən savayı qonaqlar yerlərində donub qaldılar və bu zaman mədainli həyəcanlı bir səslə dedi:

- Məni ora aparın və mən yaxından izləmək istəyirəm!.

Mədainlinin sözünə şərik olan mistanlı dəmirçi və digər Ərdəbildən gələn iki mühafiz də onunla sölərinə şərik oldular. Bunu görən Bəhram onlara gülümsəyərək baxıb əli ilə işarə etdi və dedi:

- “Gəlin ardımca”, sonra qonaqlar da onun ardınca həyətdəki meydana getdilər və ora çatanda artıq üzü bağlı

döyüşçü yerə yıxılmış döyüşçüləri əli ilə qaldırmaqla məşğul idi.

Qonaqlar onu yaxından izləmək üçün bir az irəli gəlməyə başladılar və bu zaman üzübağlı döyüşçü onları görən kimi qılıncını qınına qoydu, sonra isə o, arxasını çevirib getmək istəyəndə mədainli qasid uca səslə:

- Ey igid! Ayaq saxla! Bir üzünü göstər görək kimsən!? Lakin üzübağlı döyüşçü bir an tərs-tərs mədainli qasidə baxıb onu gözəfəri süzdü və yenə arxasını çevirib yoluna davam etməyə başladı. Bu vaxt Bəhram şah arxadan dilləndi:

- Bizim buralarda bir üzübağlı igidin üzünü görmək üçün onu məğlub etmək lazımdır. Bu sözə gülümsəyən mədainli qasid üzünü Bəharm şaha tutaraq dedi:

- Bizim oralarda da çağırana səs verir və cavab verməyənə də həddini bildirirlər əlahəzrət, bir də ki, icazə versəz bir tanış olardıq igidinizlə.

- Buyurun! Nə demək! İcazələr sizindir! - deyə Bəhram şah Bəhram şah razılıq verdi. Sonra isə mədainli üzünü gedən üzübağlı döyüşçüyə tutub səsləndi:

- Hey! İgid! Ayaq saxla görüm! Lakin üzübağlı döyüşçü cavab vermədi.

- Yəqin öyrəşmisən zəif döyüşçülərə, hamını belə zənn edirsən, bir mənimlə də gücünü yoxla bəlkə bəxtin gətirər! - deyib mədainli qasid qılıncını qınından çıxardı. Bu vaxt üzübağlı döyüşçü bunu eşidən kimi ayaq saxladı və dönüb Bəhrama baxdı. Bəhram da öz əli ilə razılıq işarəsi verən kimi o üzübağlı döyüşçü mədainli qasidə tərəf döndü və qılıncını qınından çıxarıb mədainliyə tərəf qaçmağa başladı. Mədainliyə yaxınlaşan kimi ani olaraq havaya tullandı və var gücü ilə mədainli qasidə zərbə endirdi. Bunu gözləməyən mədainli qasid onun saldırısından büdrəyib yerə yıxıldı və buna cavab olaraq o öz qılıncı ilə sipər etdi və tez də durub döyüşə davam

etdi. İlk olaraq əvəzini almaq üçün hücuma keçdi və ağır zərbələrlə üzübağlı döyüşçünün üzərinə getdi. Bir neçə ağır qılınc zərbəsi endirdi,lakin sonra isə əks tərəf də hücuma keçdi və o da bir neçə zərbə endirməyə başladı.

Üzübağlı döyüşçünün endirdiyi zərbələrin təsirindən mədainli boşluqlar hiss etməyə başladı. Qıraqda duranlar bu mənzərəni seyr edirdilər və bu zaman ərdəbilli Bəhruz kinayə ilə dedi:

- Bu döyüş çox çəkdi! Bunu eşidən Bəhram üzübağlı döyüşçüyə əli ilə işarə edən kimi o da var gücü ilə mədainli qasidin üzərinə hücuma keçdi və ardı-ardınca saysız zərbələr endirməyə başladı.

Bu zərbələri müdafiə taktikası ilə dəf edən mədainli qasid geri-geri gedirdi və birdən ayağı boşluğa düşdü və dəmirağacı köklərinə ilişdi. Bu vaxt özünü saxlaya bilməyən mədainli qasid yerə yıxıldı. Bu zaman üzübağlı döyüşçü mədainli qasidə zərbə endirmək istəyəndə dəmirçi Peroz özünü saxlaya bilməyib bağırdı:

- Ehey! Yetər artıq! Bu oyuna son verin! - deyə qılıncını siyirib üzübağlı döyüşçünün zərbəsini dəf etdi və onu kənara itələdi. Dəmirçi Perozun ağır zərbəsindən kənara çəkilən üzübağlı döyüşçü qəzəblə onu süzməyə başladı və bir anlığa Bəhram şaha baxdı, Bəhram şah isə dəmirçi Peroza işarə edib dedi:

- Bəlkə, sən özünü yoxlayasan? Onda dəmirçi Peroz əli ilə üzübağlı döyüşçünü göstərərək dedi:

- Bununlamı? Yox-yox! Siz nə danışırsınız! Özümü rüsvay edə bilmərəm.Kənarda duran ərdəbilli bələdçi təəccüblə soruşdu: Qardaş! Nə rüsvayçılığı?



- Yəni sonra deyərlər ki,dəmirçi gedib bir uşağı məğlub edib! – deyə dəmirçi Peroz cavab verdi və sonra o geri dönmək istədi, amma bu zaman üzübağlı döyüşçü hücum edərək qılıncının arxası ilə dəmirçinin kürəyindən ağır zərbə endirib onu yerə yıxdı. Ağır zərbədən yerə yıxılan dəmirçi Peroz başını silkələyərək ayağa qalxdı və üzünü ona istehza ilə gülənlərə tutub dedi:

- Hə! Baxın görün dəmirçioğlu nə edir! Məni heç kim tutmasın! - deyib belindəki baltasını çıxarıb üzübağlı döyüşçüyə tərəf yeridi və ani olaraq qəzəblə ardı-ardınca zərbələr endirməyə başladı. Dəmirçi Perozun zərbələri qarşısında geri çəkilən üzübağlı döyüşçü qalanın uc tərəfinə gəlib çatdı və əyilib siyirmək istərkən büdrəyib sürüşdü. Bu vaxt da bunu görən Bəhram şah  dəmirçi Peroza baxıb əli ilə üzübağlı döyüşçünü göstərərək uca səslə bağırdı: Tut onu! Tez ol! .

Bu səsdən özünü itirən dəmirçi Peroz qaladan düşmək üzərə olan üzübağlı döyüşçünü əl atıb tutdu və özünə tərəf çəkib çıxardı, sonra isə dönüb Bəhrama tərəf gəldi və dedi :

- Əlahəzrət! Nə oldu? Niyə belə bağırdınız? Mən onsuz da onu tutacaqdım.

Bu vaxt üzübağlı döyüşçü kənarda özünü ağaca dayayıb nəfəs alırdı, sonra da mədainli dəmirçi Perozun sözünə dəstək verərək dedi:

- Həqiqətən də çox güclü döyüşçüdür,amma bu döyüşçünün sizin üçün dəyəri nə qədərdir ki,ona görə bu qədər narahat oldunuz,səbəbi nədir?

Həyəcandan rəngi ağaran Bəhram dərindən nəfəs alıb həyəcanlı vəziyyətdə üzünü üzübağlı döyüşçüyə tutub əli ilə işarə edərək dedi:

- Yaxın gəl ey gözümün nuru! Əziz bacım! Bunu eşidən kimi hamı o üzübağlı döyüşçüyə tərəf boylandı,amma o tərəfdə kişi –falan yox idi. Çünki üzü bağlı olan döyüşçü üzünü çoxdan açmış və başındakı dəbilqəsini götürmüşdü.Onun yerində isə üzü gün kimi parlaq nazənin bir gözəl var idi. Hamı yerində donub qalmışdı və heç kim gözlərinə inana bilmirdi ki,səhərdən neçə-neçə qolu zorlu igidi məğlub edib kürəyini yerə vuran o cəngaəvər kişi yox,əslində günəş kimi nur saçan nazənin bir gözəl qız idi.Amma məsələnin digər maraqlı tərəfi isə Bəhramın o qıza “bacı” deyə xitab etməsi idi.

- Bacımı? – deyə dəmirçi Peroz təəccüblə soruşdu və o, Bəhram şahın sözlərindən heyrətə gəlmişdir. Baş verənləri anlamayan tək adam Mədainli qasid idi və o, üzünü ərdəbilli bələdçiyə tutub dedi:

- Bəhramın o qıza dediyi “hova” sözünü anlamadım,yəni o nə deməkdir?

- "Hova" sözü yerli Taleşan və Mukan əhalisinin dilində "bacı" deməkdir və bu mədainlilərin "xahər" sözüdür! – deyə ərdəbilli bələdçi cavab verdi.

- Anladım! – deyə mədainli qasid cavab verdi.

Amma digərlərindən fərqli olaraq hadisədən tək xəbərdar olan ərdəbilli bələdçi idi ki,üzünün heyrətdən donmuşlara tutub dedi:

- Bilin və agah olun! Qarşınızdakı xanım Adərbayqanın mərzbanı olan İsfəndiyar Fərruxzadın və Taleşanın hakimi Bəhramın yeganə bacısı Şəbnəm Fərruxzaddır. Bu yerlərdə onun kürəyini yerə vurmaq heç bir igidə nəsib olmamışdır və bugünkü baş verənlər buna kiçik bir sübutdur.

Şəbnəm yaxın gəlib təzim etdi və Bəhramın yanında durdu.Sonra isə Bəhram üzünü bacısına tutub dedi:

- Ərdəbilli bələdçini tanıyırsan,amma bu iki igid uzaqdan təşrif buyurmuşlar və şahənşah III Yezdigerdin şəxsi elçisi mədainli Behnamdır. O, uzun yol qət edərək şahənşahın məktubunu qardaşın İsfəndiyara gətirmişdir.O biri igid isə dağlar oğludur və Mistan kəndindən olan bir dəmrçidir və adı da Perozdur. Şəbnəm üzünü bir-bir qonaqlara tutub "məmnun oldum! deyə cavab verdi, amma dəmirçi Peroz Şəbnəmi altan tək gözlə süzürdü. Qız, həqiqətən, gözəl idi, belə ki onun uzun qara hörükləri,süzmə ala gözləri, nazik qaşları, büzmə dodaqları adamı ilk baxışdan heyran edir və ağlını başından alırdı. Bu vəziyyətə mədainli də düçar olmuşdu və o öz gözlərini Şəbnəmdən ala bilmirdi, lakin belə bir incəbelli gözəlin bu cür ağır dəmirlərlə nə işi ola bilərdi. Bayaqdan qonaqlarla tanışma sürəcində olan Şəbnəm onu süzən şəxslərə həzin bir təbəssümlü gülüşlə təzim edirdi. Onun tək bircə bu gülüşü qonaqların ağlını başından almağa yetirdi. Bunları hiss edirmiş kimi Şəbnəm öz atına tərəf getdi və onun yəhərindən

tutub onu tumarlayır və arada da əlində ağ qızıl gülü iyləyir və onu süzənləri o da süzürdü.

Bu vaxt dəmirçi Peroz fürsətdən istifadə edib üzünü Şəbnəmə tutub dedi:

- Xanım! Çox hyrətlənmişəm! Məharətiniz məni heyran etdi! Artıq düşünürəm ki,sayənizdə Babər qalasından aşağıda, çayın o tayındakı Kusər obasında məskən salım. Dəmirçinin sözlərini təbəssümlə qarşılayan Şəbnəm elə öz xoş gülüşü ilə astaca pıçıldadı: Niyə ki igid?

- Sayənizdə, sizə yenildiyimə görə artıq Mistan kəndinə qayıtmaq mənə başucalığı gətirməz, əksinə rusvayçılıq gətirər1 – deyə dəmirçi Peroz cavab verdi. Dəmirçinin sözlərini gülüşlə qarşılayan Şəbnəm üzünü ona tutub dedi:

- Siz mənə baxmayın! Zira mərhum atam Bavəndi həmişə mənə deyərdi : Qızım! Sən qız yox,gərək oğlan doğulaydın! Odur ki,burada yeni bir şey yoxdur və narahatlığınız bihudədir.

- Deyəsən məharətiniz sadəcə qılınc qurşanmaq və cəng etməklə çərçivəlidir xanım? – deyə dəmirçi Peroz soruşdu.

Qıraqdan onları izləyən Bəhram yaxın gəlib dedi:

- Yox! bacımın məharətləri saymaqla bitməz!

- Necə məgər? – deyə dəmirçi Peroz soruşdu.

- Çünki, kəndir saplamaq, dağa-daşa kəndirlə dırmanmaq,gözəl ox atmağa görə üstünə yoxdur. Ayrıca olaraq Taleşanın milli xalq oynu olan “hil-hilanə” oynunun da məhraətlə oyunçusudur və uşaqlıqdan isə “ turna (tırne-qaşıma) döydü” oynunu bilir! – deyə Bəhram şah cavab verdi.

- O nə oyundur belə? - deyə mədainli qasid soruşdu.

- Hil-hilanə oynu ! Yəni oyunçuların sayı məhdud deyil və artıq da deyil, sadəcə on nəfər ola bilər və oyunçuların sayına uyğun olaraq kiçik çalalar qazılır. Amma çalaların sayı oyunçulara nisbətən bir dənə əksik olur və bu çalalar müxtəlif

məsafələrdə pərakəndə formada qazılır. Sonra ortada böyük və əsas çala qazılır. Beləliklə, əsas çalanın ucunda bir şam qozası qoyulur və oyunçular növbə ilə öz çubuqlarını o qozaya doğru atırlar. Qozanı çalaya düşürən hər bir oyunçu istədiyi xananı öz çubuğu ilə zəbt edir və sona bir nəfər qalır. O şəxs gedib qozanı götürür və oyunçulara doğru atır, oyunçular eyni vaxtda irəli gəlib havadakı qozanı vurmaqla məşğul olarkən bu zaman qozanı atan şəxs cəld hərəkət edib oyunçulardan birinin çalasını tutur. Beləcə bu təkrar olur.

"Turna döydü" oyununa gəldikdə isə bu oyun Taleşanda geniş yayışlmış oyunlardan biridir və onun da quruluşu belədir: Oyunda şah, vəzir, fərraş bir də müqəssir olur və oyunda iştirak edənlər aşıq atır. Əgər aşıq alçı dursa, onu atan adam şah olur, yox əgər toxan dursa, onu atan şəxs vəzir olur. Aşıq bik durduqda onu atan adam fərraş,cik durduqda isə günahkar hesab edilir. Şahın əmri,vəzirin göstərişi ilə fərraş günahkarın əlinə müəyyən miqdarda turna vurur. Turna kətan parçadan eşilmiş dəyənəkdir! – deyə Bəhram şah dedi.

- Hə! Deyəsən ikinci oyun mənə tanışdır! Çünki biz tərəfdə ən geniş yayılmış xalq oyunlarından biridir və həm də bizim üçün ən müqəddəs sayılan bir oyundur! – deyə mədainli qasid cavab verdi.

- Müqəddəs niyə?- deyə bayaqdan olanları izləyən Şəbnəm təəccüblə soruşdu.

- Çünki bu oyunu ilk olaraq əcdadımız,ulu babamız və Fars dövlətçiliyinin əsasını qoyan Kuruş oynamışdır. Belə ki o, babası Midiya hökmdarı olan Astiaqın sarayının həyətinə getmiş və oradakı saray rəsmilərinin uşaqları ilə oynamışdır. Püşk atmışlar və Kuruş şah seçilmişdir. O, vəzirin oğluna ona itaət etmədiyinə görə cəza vermişdir! – deyə mədainli qasid cavab verdi.

- Çox maraqlı əfsanədir! - deyə Şəbnəm cavab verdi.

- Maraqlı əfsanə yox,bu, bir tarixi həqiqətdir! – deyə mədainli qqasid cavab verdi. Söhbətin daha da irəli getdiyini görən Bəhram Fərruxzad dərhal müdaxilə edərək söhbətin axarını dəyişərək dedi:

- Artıq gedək! Günorta yeməyi vaxtıdır və sarayda bu şərəfə ziyafət tərtib etmişəm və söhbəti də elə orada davam etdirərik. Qonaqlar da onun sözünü başları ilə təsdiqləyərək saraya döğru hərəkət etdilər və pilləkənlərlə yuxarı qalxanda mədainli üzünü Bəhrama tutub dedi:

- Əlahəzrət! Bizi üzürlü sayasız! Biz səhər şəfəqlərində sizi tərk etməli olacağıq,tələsməliyik.

- Narahatlığa əsas yoxdur, mərzbanın istədiyi atlı əsgərləri hazlamağı göstəriş vermişəm və onlar da bir gün sonra şəfəqdə sizinlə Ərdəbilə yola düşəcəklər! – deyə Bəhram şah cavab verdi.

Beləcə onlar ziyafət otağına daxil oldular və gec saatlara qədər ziyafət davam etdi və sonra hamı öz dairəsinə çəkildi.



***Qalada 4-cü gün***. Səhər şəfəqləri sökülməmişdi ki, mədainli tez durub axura getmişdi ki,atını yoxlasın. O, içəri daxil olub atına tərəf getdi və onun ayağını qaldırıb nalına baxdı və sonra onu tumarlamağa başladı. Bu zaman bir səsə eşitdi və çönüb baxanda Şəbnəmi gördü və o özünü divara dayayıb beləcə tamaşa edirdi.

- Niyə tez durubsuz xanım? - deyə mədainli qasid soruşdu.

- Adət etmişəm! – deyə başında gül-çiçək olan daş sütuna özünü söykəyən Şəbnəm cavab verdi.

- Gedirsiniz? –deyə Şəbnəm soruşdu.

- Xeyir xanım, biz sabah şəfəqdə yola düşərik! – deyə mədainli qasid cavab verdi.

- Amma niyə belə tələsik? Nə baş verir? – deyə Şəbnəm soruşdu

- Başımızda böyük bir bəla var! – deyə mədainliqasid cavab verdi.

- Bəlamı? Nə bəlası? – deyə Şəbnəm təəccüblə soruşsu.

- Tazi bəlası! İsmail övladları sel kimi üzərimizə gəlirlər, bizi tarix səhnəsindən silmək niyyətindədirlər! – deyə mədainli qasid cvab verdi.

- Hə! Soruşmayacam! Çünki cavabını da özüm bilirəm və bu onlar üçün elə də çətin olmayacaqdır. Çünki rüşvətxorluq, mərzbanların özbaşınalığı, məmur zülmü tazilərə xilaskar obrazı bağışlayacaq və onlar az biz ordu ilə də gəlsələr də, bizi asanlıqla yenəcəklər! – deyə Şəbnəm cavab verdi.

- Bəli xanım! Təəssüf ki,bu belədir və siz göyə qədər haqlısınız və bəlkə də məmurlarımızın içərisindən ərəblərlə artıq gizli sazişə girənlər də var! – deyə mədainli qasid cavab verdi.

- Siz yenə buralara gələcəksinizmi? – deyə Şəbnəm soruşdu.

- Bilmirəm xanım! Hər şey qismətdən asılıdır və əminəm ki, biz yenə qarşılaşacağıq! - deyə mədainli qasid cavab verdi və beləcə onlar ayrıldılar.

Artıq gün ortaya doğru gedirdi və hamı öz işini bitirmək üzərə idi və qaladan aşağıda yerləşən obalarda əhalinin necə qarışqa kimi işlədiyi açıq-aşkar sezilirdi. Yola düşməyə hələ çox var idi və Peroz özünü nə iləsə məşğul etmək istəyirdi, o heç bu qədər uzun müddət dəmirçixanasız qalmamışdı. Elə buna görə də təmiz hava almaq üçün qaladan çıxmaq qərarına gəldi və istədi ki, bir az gəzsin və həm də hava alsın. Bu minvalı ilə o, qalanın Asnaqarana tərəf olan aşağı qapısı ilə çıxıb azca getdi və sola dönərək atı ilə yavaş-yavaş Vazarud çayına doğru hərəkət etdi. Bir neçə dəqiqəyə Peroz gəlib Vazarud çayının sahilinə çatdı və atdan düşüb çayın kənarına gəldi. O , əlini uzadıb bir ovuc su götürərək əl-üzünü sərin su ilə yuyub sərinləşmək istəyirdi ki,birdən suda gözünə bir nazənin sataşdı.



Peroz ilk öncə onun su pərisi olduğunu düşündü, lakin sonra başını qaldırdıqda çayın kənarında saray qadınları üçün daşla tikilmiş avlunun yanında Şəbnəmi gördü. Şəbnəm dünyadan xəbərsiz avlunun yanında əyləşmişdi. Onun başında qızılı rəngdə tac,boynunda qızıl simmurq,əynində ağ rəngli zərif parçadan kumaş geyinmiş və sanki su pərisidir oturub çayın qırağında. Belə ki, Şəbnəm çayın qırağında birtərəfli əyləşib bir əli ilə yerə söykənmiş və çayın qırağındakı zanbağa baxırdı.Ayrıca olaraq ətəyinin üzərindəki mavi rəngdə əbası ona xüsusi gözəllik verirdi. (*Şəkil.Şəbnəm çay qırğında.Rəssam.Fərrux Kavabi)* .Uzaqdan oğrun-oğrun Şəbnəmi izləyən Peroz bir qədər onu izləyəndən sonra sakit bir səslə: Xanım! - deyə çağırdı. Bayaqdan gözünü zanbaq gülünə zilləmiş Şəbnəm kişi səsindən ani olaraq ayıldı və o tərəf-bu tərəfə boylandı. Perozu görən kimi əli əli ilə işarə etdi və ayağa durdu.

- Xanım! Siz də burada idiniz? – deyə dəmirçi Peroz soruşdu.

- Həə! Buradayam! – deyə Şəbnəm cavab verdi.

- Bağışlayın ki, görmədim və sizin burada ola biləcəyinizi əsla bilmirdim! Əfv edin məni! - deyə dəmirçi Peroz dilləndi və Perozun sözlərindən gülümsəyən Şəbnəm həzin bir səslə dedi:

- Eybi yox! Bura mənim külligahımdır və sakit vaxtlarda qala qızları ilə buraya gəlib suyun şırıltısını

dinləyir,kəpənəklərin uçuşunu seyr edir və zanbaq güllərinə baxıram.

- Bağışlayın xanım! Əfv edin məni! İstərsiz dərhal geri dönərəm və bunu da unudaram! – deyə dəmirçi Peroz məzəmmət etməyə başladı.

- Buna gərək yoxdur, elə mən də qalaya dönməyə hazırlaşırdım sanıram ki, mənə rəfaqət edərsiz! – deyə Şəbnəm dedi.

- Bu nə sözdür xanım, əlbəttə, qulluğunuzda hazıram, buyurun gedək! - dəmirçi Peroz cavab verdi və sonra isə Şəbnəm uzun ətəyini azca dartıb ayağa qalxdı və Perozla bərabər qalaya doğru yeriməyə başladılar. Yürüşün ilk dəqiqələrində hər ikisi susur və ilk addımın qarşı tərəfin etməsini gözləyirdi ki,susqunluğu ani olaraq Şəbnəm pozdu və dedi:

- Çox maraqlı və faciəvidir.

- Maraqlı olan nədir ki, xanım? – deyə dəmirçi peroztəəccüblə soruşdu.



- Maraqlı odur ki,kimsənin torpağına göz dikməmişik,amma torpağımıza göz dikiblər! – deyə Şəbnəm cavab verdi.

- Bəs faciəvisi nədir? – deyə dəmirçi Peroz soruşdu.

- İstəmədiyimiz halda əsarəti və ya ölümü seçməliyik və bu da əsl faciədir! – deyə Şəbnəm cavab verdi. Şəbnəmin cavabını susqunluqla qəbul edən Peroz daha heç bir sual vermədi və beləcə onlar qalaya gəlib çatdılar.Onların gəldiyini görən keşikçilər qala qapılarını açdılar və hər ikisi qalaya daxil oldular.

Qala keçələri ilə Şəbnəm saraya tərəf yeriyirdi və Peroz isə onun və öz atının yəhərlərini tutmuş halda özü də Şəbnəmlə bərabər saraya doğru irəliləyirdi. Onlar beləcə yürüdülər və saraya çatanda saray kənizbaşısı Aspad dərhal pilləkənlərlə aşağı düşüb təzim etdi və dedi:

- Xanım! Siz yenə də xəbərsiz halda qaladan çıxıb gedibsiz?

- Külligahda idim və azca nəfəs aldım! – deyə Şəbnəm cavab verdi və bu sözdən sonra kənizbaşı öz gözlərini Peroza tərəf zilləyib dedi: Kaş ki yanınıza qoruma alardız,belə pis

zamanədə,oğrusu var,quldurı var. Lakin bayaqdan gözlərini dəmirçi Peroza zilləyən Şəbnəm dedi:

-Narahatçılığa əsas yoxdur, çünki yanımda dəmirçi Peroz kimi ər igid var.

- Siz bilirsiniz xanım! Amma yenə də məndən deməsidir! – deyə Aspad cavab verdi və bu sözü eşidən dəmirçi Peroz gülümsəyərək dedi:

- Mənə əsla ehtiyac belə yoxdur,xanımımız külli-mahalda qılınc qurşanmaqda və ox atmaqda mahirdir və mən belə ona qalib gələ bilmədim.

Şəbnəmlə Perozun biri-birilərini süzdüyünü görən Aspad tez müdaxilə edərək dedi:

- Xanım! Artıq gedək! Yemək vaxtıdır!

Şəbnəm üzünü Peroza tutub dedi: Mənə qalaya qədər rəfaqət etdiyinizə görə çox sağ olun.

- Dəyməz xanım! – deyə dəmirçi Peroz cavab verdi.

- Salamat qalın! – deyə Şəbnəm sağollaşdı.

- Siz də, xanım! - deyib onlar ayrıldılar və Peroz da öz atının yəhərini xidmətçilərə verib onlar üçün ayrılmış həyətdəki yemək masasına getdi. Bu arada Şəbnəmlə Aspad sarayın pilləkənləri ilə yuxarı qalxırdı və qalxdıqca Şəbnəmin gözləri hələ də həyətə baxırdı.

Bunu hiss edən Aspad dedi: Xanım! İstərsəniz dairənizə gedək,bir şey də yeyərsiz və bu arada çox zəifləmisiniz. Beləcə onlar Şəbnəmin dairəsinə gəldilər və içəri girən kimi Aspad kənizlərə göstəriş verdi və onlar da yemək yeməyə başladılar və yemək əsnasında Aspad Şəbnəmdən soruşdu:

- Xanım soruşmaq həddim deyil, amma bu igiddə sizi maraqlandıran nə var?

- Aspad! Sən nəinki kənizbaşı, həm də mənim rəfiqəmsən və sadəcə səninlə bölüşürəm! – deyə Şəbnəm əlavə etdi.

- Buyurun xanım! Sirriniz ölənə qədər qəlbimdə qalacaq! – deyə Aspad cavab verdivə sonra isə Şəbnəm ayağa durub Aspadın əlindən yapışıb dedi:

- Gəl ardımca! - Deyib onlar pilləkənlərə doğru çıxdılar. Şəbnəm eyvan bağçadan üç ədəd ağ gül dərdi və bir əli ilə də boynundakı mavi ətəyi tutub susqun yeriyirdi. Aspad isə sol əlində xəncər Şəbnəmin yenə də ağ gülləri götürdüyünü görüb təəccüblə soruşdu:

- Xanım, yenə də ağ gülləri götürdüz və bunun anlamı nədir,bu günə qədər anlaya bilmirəm.



- Ağ gül bizim Taleşan sülaləmizin və nəslimizin rəmzidir! – deyə Şəbnəm cavab verdi.

- Xanım! Mən Arxoziyalıyam və bunu biməməyim təəccüblü deyil, lütfən izah edin! – deyə Aspad təəccüblə.

- Qızıl gül qan tökən insanların rəmzidir, lakin mənim soyum qan tökən yox,qan bağlayandır və buna görə də bizim rəmzimiz qızıl gül yox, ağ güldür.

Qızılgül sevgiyə, məhəbbətə, sülhə, ədalətə razılığın əlamətidir1 – deyə Şəbnəm cavab verdi.

- Xanım! Mən ağ gülün bu mahalda bu qədər sevildiyini və hörmət edildiyini bilmirdim, çünki adətən insanların çoxu qızıl gülə meyl edər və onu sevər. Lakin Taleşan yeganə yerlərdən biridir ki, ağ gülə bu qədər ehtiram edirlər! – deyə Aspad soruşdu. Beləcə onlar gəlib həyətə çıxdılar və həyətdə Bəhram şah və saray ərkanı yemək yeyirdilər. Bu zaman ayaq saxlayıb üzünü Aspada tutub dedi:

- Bax görürsən, necə ər igiddir, qollarında qüvvət və ürəyində cəsarət var.

- Xanım! Deyəsən, könlünüzü qapdırmısınız? – deyə Aspad soruşdu.

- Yox,! Qapdırmamışam! Qapdıra da bilmərəm! – deyə Şəbnəm cavab verdi.

- Niyə ki,xanım? – deyə Aspad soruşdu.

- Biz ayrı-ayrı dünyaların adamlarıyıq və ayrı-ayrı təbəqələrdənik və bir də ki, onunla az söhbət etdik,hələ ona yaxşı bələd deyiləm! – deyə Şəbnəm cavab verdi.

- Xanım! Mən məsələnin həllini bilirəm! – deyə Aspad dilləndi.

- Bilirsən, necə? – deyə Şəbnəm soruşdu.

- Deyilənlərə görə, Peroz dəmirçi olmaqla bərabər həm də çox gözəl rəssam və heykəltəraşdır1 – deyə Aspad cavab evrdi.

- Eləmi? – deyə Şəbnəm soruşdu.

- Bəli, xanım və ona xəbər yollaram ki, qoy sizin rəsminizi çəksin! – deyə Aspad cavab verdi.

- Di onda tez ol, xəbər yolla,mən də gedib üst-başımı qaydaya salım! – deyə şahzadə Şəbnəm dedi.

- Baş üstə xanım! - deyə Aspad cavab verdi və çıxıb getdi, sonra isə Şəbnəm tez öz dairəsinə çəkildi. O, başına üzərində

qızılı rəngdə toxuması olan mavi araqçınını qoydu,böyrünə mavi belliyini bağladı,sonra isə aşağı düşdü. Bu arada kənizbaşı Aspad kənizlərdən birinə namə yazıb Peroza göndərdi və o da məktubu alan kimi saarayın içinə gəldi. İçəri görən kimi Aspadı gördü və təzim edib dedi:

- Xanım! Mənə yazdığınız doğrumu?

- Elədir ki,var! – deyə Aspad cavab verdi.

- Bəs Şəbnəm xanım haradadır? – deyə dəmirçi Peroz soruşdu.

- Gəlin ardımca! – deyə Aspad saraydakı dəhlizlə yürüməyə başladı və Peroz da onun ardınca yeriyib gəlib bir otağa girdilər. Şəbnəm burada idi və üzünü Peroza tutub dedi:

- Niyə mənə məşhur bir rəssam olduğunuzu demədiniz?

- Xanım! Siz soruşmadınız ki? – detyə dəmirçi Peroz cavab verdi.

- Onda məharətini göstər! - deyə Şəbnəm əlavə etdi.

- Baş üstə! - deyə dəmirçi Peroz boya istədi və saray boyaçısı öz boyasını gətirib Peroza verdi.



Şəbnəm isə otaqdakı Sasani şahı II Xosrov Pərvizin divarda at üstündə və sağ əlində məşəl əks olunmuş surətinin qarşısında qaldı və sağ əlində ağ çiçəklər və sol əlində isə qalxan tutdu.

Bunu görən Peroz təəccüblə soruşdu:

- Xanım, qalxanla çiçək biri-birinə zidd olan şeylərdir və ikisi bir araya sığmaz və bunun mənası nədir?

- Hə, elə məsələ də budur ki, biri-birinə sığmayan iki zidd şeyi bir arada tutan xalqıq və divarda gördüyün əcdadımız da qaranlıqda at üstündə əlində atəşlə yeriyir. Yəni at - murad, məşəl isə zülməti qovandır! – deyə Şəbnəm dedi.

-: Bunu bilmirdim,çox maraqlıdır! – deyə dəmirçi Peroz cavab verdi və sonra isə o, rəsmi çəkməyə başladı və bir müddət sonra onu bitirdi. Şəkil olduğu kimi çəkilmişdi və Şəbnəm ona baxan kimi heyrətindən donub qaldı və sonra üzünü ona tutub dedi: - Hələ kimsə məni bu qədər dəqiq təsvir etməmişdi və sizə təşəkkür etmək istəyirəm.Sonra isə o, əli ilə Aspada işarə etdi və Aspadda ona hədiyyə vermək istəyəndə Peroz dedi:

- Xanımım, bu məndən sizə hədiyyə olsun və bir zaman siz olmayanda mən, mən olmayanda da siz xatırlarsınız.Sonra isə Peroz otaqdan çıxıb getdi və Şəbnəm o şəkili uzun-uzadı süzməyə başladı və sanki doymurdu.Bunu görən Aspad dedi:

-Xanım,gedib istirahət edin,axşama ziyafət var...

- Hə bilirəm! – deyib Şəbnəm öz dairəsinə çəkildi və azca istirahət etməyə başladı. Beləcə, gün batmağa doğru gedirdi və artıq Şəbnəm də uzun yuxudan durmuşdu. Sonra isə o, ayağa durub ani olaraq fikrə getdi və nə isə düşünüb çölə çıxdı və sarayın arxa bağçasındakı çarhovuzun yanına gəldi.



Sarayda xanımların əylənməsi və istirahəti üçün yeni bağça tikilsə də, ora həmişə səs-küylü olduğundan Şəbnəm də sarayın arxasındakı köhnə hovuzun yanına gedirdi. Çünki köhnə hovuz yararsız halda və sökülmüş divarlardan ibarət olsa da ora kimsə gəlmədiyindən çox sakit yer idi və Şəbnəm darıxanda buraya gəlirdi. Hovuz dağlmış olsa da, yağış suları nəticəsində içində su var idi.Şəbnəm gəlib hovuzun yanındakı daş üzərində əyləşdi və özü ilə gətirdiyi qızılı rəngli küzəni daş üstə qoydu və hovuzun kənarındakı ağ güllərdən yığıb onun içinə qoymağa başladı.Sonra isə qəlbində həzin səslə dedi:

- “Ey ulu Hörmüzd,sən bizi hifz et,sən məmləkətimizi vəhşi tazilərdən qoru”. Sonra isə həzin-həzin nəğmə oxumağa bşladı. Ətraf o qədər səssiz idi ki, sanki fələyin təkəri dayanmış və bu səssizlik hansısa bir fəlakətin gəlməsindən



xəbər verirdi. Şəbnəm həzin oxusa da, onun səsi aydın eşidilirdi və bu zaman sarayın küləfirəngisindən onu görən Aspad yüyürüb onun yanına gəldi və astaca yaxınlaşıb yanına əyləşdi. Şəbnəm isə nəğməsini bitirəndən sonra suda Aspadın surətini gördü və boylanıb dedi:

-Niyə xəbər etmirsən?

- Xanım! Əfv edin! Sadəcə sizə müdaxil etmək istəmirdim! – deyə Aspad dedi.

- Nə üçün gəlmisən? – deyə Şəbnəm soruşdu.

- Xanım sarayda ziyafət var və əlahəzrət Bəhram şah sizin də gəlib iştirak etmənizi və yanınızda da Nakisə alətinizi gətirmənizi istəyir! – deyə Aspad cavab verdi.

- Yaxşı, gəl birlikdə gedək – Şəbnəm cavab verdi və onlar sarayın qarşı həyətinə keçdilər, sonra isə Şəbnəm üzünü Aspada tutub dedi:

- Mən dairəmə gedib libasımı dəyişəcəm və nakisə musiqi alətimi də götürüb gəlirəm.

Aspaddan ayrılandan sonra Şəbnəm öz dairəsinə girdi və əyninə mavi libasını geyib öz Nakisə musiqi alətini götürüb

aşağı qonaqların yanına düşdü. Bəhram şah Şəbnəmi görən kimi ayağa qalxdı və dedi:

- Gəl ey gözümün nuru.

Şəbnəm içəri girdi, Bəhrama tərəf getdi və Bəhramın ona göstərdiyi yerdə əyləşdi, sonra isə Bəhram üzünü məclis iştirakçılarına tutub dedi:

- Bacım qılınc qurşatmaq və ox atmaqla bərabər həm də gözəl səsi olan xanəndədir və indi siz onun gözəl səsini eşidəcəksiniz və əli ilə Şəbnəmə işarə etdi. Şəbnəm işarədən sonra durub irəli keçdi və təzim edəndən sonra özünün qəhvəyi rəngli Nakisəsini sinəsinə basıb ifa etməyə başladı. Şəbnəm öz gözəl səsi ilə hamını heyran etdi və Peroz, mədainli qasid və digər saray ərkanı hamı ona heyrətlə qulaq asırdı. Şəbnəm musiqini bitirən kimi hamı əl çaldı və onu alqışladı. Onun səsi həm mədainli qasidi, həm də Perozu valeh etmişdi və bu iki nəfər həm Şəbnəmi süzür, həm biri-birinə baxırdılar və bu da onların rəqib olduqlarına işarə edirdi. Şəbnəm oxuyub qurtardıqdan sonra yerinə keçib əyləşdi və məclis axşama qədər davam etdi, sonra isə Bəhram əlində badə ayağa durub dedi:

- İgidlərim,yağı düşmən öz murdar əllərini bizim müqəddəs torpaqlarımıza dikib. Onlar bizim onlara uzatdığımız bərəkətli və sülhsevər əlimizi rəd edirlər ki,bu da onların qəlblərinin təmiz olmamasına və əsl məqsədlərinin qarətçilik olmasını işarədir. Minilliklərdir ki, atalarımızın bizə qoruyub ötürdükləri bu torpaqları biz də göz-bəbəyimiz kimi qoruyub öz övladlarımıza ötürməliyik, qarşıda bizi çox çətin bir iş gözləyir və ulu Hörmüzdün köməyi ilə bu bəladan da sovuşarıq. Yox,əgər məğlub olsaq, onda bütün məmləkətimiz onların tapdağına düşər,mal-mülkümüz talanar,şəhər və kəndlərimiz dağıdılar, qız-gəlinlərimiz qula çevirilər və uşaqlarımız isə satılacaq. Odur ki, hamımız bu yolda öz

əlimizdən gələni əsirgəməməliyik və bu badələri öz dünənimizə,bu günümüzə və sabahımıza içək, deyib qədəhi başınba çəkdi. Onunla bərabər hamı qədəhləri öz başına çəkdi, sonra isə məclis sona çatdı və hamı öz dairəsinə çəkildi.(*Şəkil.Şəbnəm Şadoxt Fərruxzad.634-cü il.)*

Beləcə səhər oldu və Şəbnəm hamıdan tez durub öz dairəsində ayna qarşısında durub öz uzun saçlarını darayırdı. Çöldə və hər tərəfdə sakitlik idi və bu da Şəbnəmi uzun-uzadı düşüncələrə qərq olmağa imkan yaradırdı. Elə hey düşünürdü ki, birdən yadına nəsə düşdü və tez durub kələğayısını başına atdı və çölə- dəhlizə çıxdı. Ordan isə o, Bəhramın yanına tələsdi və içəri girmək üçün qapıçıdan icazə istədi, lakin ona dedilər ki, Bəhram şah hələ oyanmayıb. Bunu eşidən Şəbnəm qapıçıya dedi:

- Şahımız duran kimi deyərsən ki, mən Sımakana(Sım)gedirəm, II Xosrovun çarhovuzuna və bunu deyib sarayın pilləkənləri ilə aşağı endi və qalanın bağına keçdi. Ora çatan kimi dönüb yenə küləfirəngiyə baxanda pəncərədən Perozun ona baxdığını gördü və əli ilə aşağı gəlməsini işarə etdi. Şəbnəmin sözünə Peroz da tələsik aşağı düşdü və Şəbnəmin yanına gəlib soruşdu:

- “ Xanım, anlamadım, diləyiniz nədir məndən?

- Mən Simakana gedirəm, dedim, bəlkə məni müşayiət edəsiz! – deyə Şəbnəm cavab verdi.

- Bu nə sözdür, xanım, başım üstünə, siz sadəcə əmr edin, sizin üçün ölümə də gedərəm! – deyə dəmirçi Peroz dilləndi.

Perozun sözlərindən gülümsəyən Şəbnəm ona “gəlməyinə dəyər, çünki səni cənnətə aparıram, gəlsən peşiman olmazsan.

- Xanım, onda yola düşək, nə gözləyirik! – deyə dəmirçi Peroz soruşdu və onlar atlarına minib Simakana doğru hərəkət etməyə başladılar. Bir müddət səssiz gedən Peroz özünü tuta bilməyib dilləndi:

- Xanım, bir söz soruşum?
- Buyur soruş! – deyə Şəbnəm cavab verdi.
- Xanım, dediyiniz bu Simakan haradadır və hansı tərəfdədir! – deyə dəmirçi Peroz sözünə davam etdi.

Şəbnəm üzünü ona tutub dedi: - “Bu Simakan nadir Taleşan meşələrinin içərisində, dağlara yaxın bir yerdə Sasani şahı II Xosrov Pərvizin yay istirahət yeridir və deyilənlərə görə, II Xosrov bu iqamətgahı öz sevdiyi xatunu olan bizanslı Siran üçün tikdirib və hər yay onunla buraya gələrmiş.

- Bəs bunu bu qədər məşhur edən nədir? – deyə dəmirçi Peroz soruşdu.
- Deyilənlərə görə, məşhur rəssam Şapur məhz Simakanda II Xosrovun rəsmini çəkib Sirana göstərmiş və o da Xosrova aşiq olmuşdur! – deyə Şəbnəm cavab verdi.
- Yəni böyük sevgi hekayəsi məhz buradan başlamışdır? – deyə dəmirçi Peroz soruşdu.
- Bəli, elədir,ondan əlavə orada ər igidlər və mazanların yaşadığı yer Ariçavana qalası yerləşir! – deyə Şəbnəm cavab verdi.
- Ariçevan igidləri haqda mən də eşitmişəm, çox məşhurdular cahanda, deyilənlərə görə, ulu Kuruş onlara qarşı 200 minlik ordu ilə yürüş etmiş, lakin məğlub olmuşdur? – deyə dəmirçi Peroz soruşdu.
- Doğrudur! – deyə Şəbnəm cavab verdi və onlar beləcə yollarına davam etdilər və günortaya gəlib Simakana çatdılar və Perozun ağzı açıq qaldı, çünki o sanki bir behiştə gəlmişdir. Onların qarşısında Sasani şahlarının 12 iqamətgahından biri durudu, çünki II Xosrovun ölkənin hər satraplığında bir iqamətgahı var idi və Sımakan iqamətgahı onların içərisində ən gözəli və möhtəşəmi idi. Belə ki, II Xosrov imperiyanın hər tərəfindən ən gözəl ustaları gətirib burada öz sevgilisi Siranın(Şirin) şərəfinə gözəl bir yay iqamətgahı tikdirmişdir.

Deyilənlərə görə, II Xosrov hər il yayda buraya istirahətə gəlirmiş. Sımakan yay iqamətgahının sxemi belə idi – girişdə sasani-memarlıq üslubunda tikilmiş iki böyük dirək və onların üzərindəki arko var idi və arkonun üzərində də simurq quşu təsviri. Sonra isə torpaq xüsusi mərmər daşları ilə döşənmiş, sonra isə 4 pilllə ilə aşağıya geniş yol düzəldilmişdi. Pilləkənlərlə düşdükdən sonra ortada geniş bir hovuz var idi ki, onun da ortasında fəvvarə var idi. Bundan əlavə bu dirəklər iqamətgahın dörd bir tərəfində var idi və onun baş tərəfində isə II Xosrovun dincəlməyi üçün üstüörtülü ləmi (istirahət yeri)var idi.

Beləcə onlar Sımakan yaxınlığında bir çaya yaxınlaşdılar və onun üzərində möhtəşəm bir körpü var idi və Şəbnəm gəlib körpüyə çatanda atının yüyənini birdən çəkib durdu. Bunu görən Peroz da ani olaraq atının başını çəkib durdu və soruşdu: Niyə durduq?

- Bax bu gördüyün körpüdə bir tarix yatır! – deyə Şəbnəm cavab verdi.

- Nə tarix? – deyə dəmirçi Peroz soruşdu.

Şəbnəm üzünü ona tutub dedi: “Bu körpünün adı Vılo parddır və rəvayətə görə, “Sasani şahı Xosrov Ənuşirəvan bir gün şikara çıxır. Şikara getdiyi zaman Sım çayının üzərində körpü olmur. Bir müddət keçdikdən sonra qayıdan baş çayın üzərində körpü tikildiyini görür və o da qoşunun buradan keçməsini əmr edir. Nuşirəvan şah yerli əhalidən körpünün kim tərəfindən tikildiyini soruşur:

- Mən gedəndə bu körpünü görmədim, bunu kim tikib?

Yerli əhali belə cavab verir ki,burada Vılі adlı bir qadın yaşayır və o, yumurta sataraq pul yığıb və o pulla da bu körpünün tikilməsini vəsiyyət edib. Onun iki oğlu sizin orduda xidmət edib və döyüşlərdə həlak olub. Qarı da öləndən sonra camaat onun vəsiyyətinə əməl edərək yumurta ağı və

kərpicdən bu körpünü tikmişdir”. Körpünün bünövrəsinə 9-qızıl axça qoyulur ki, gələcəkdə təmirə ehtiyac olanda bu axçalarla onu təmir etsinlər. Bunu eşidən Ənuşirəvan bərk qəzəblənir və deyir ki, qoca qarı öz üstünlüyünü mənə bildirmək istəyib. Mən sağ ikən bütün ləşkərimə və vələd-övladlarıma əmr edirəm ki, həmən körpüdən keçməsinlər. İndiyə qədər Nuşirəvanın nəslindən heç kim qarının tikdirdiyi körpüdən keçmir. Şah Vıli körpü ilə bərabər cənub hissədə Sepidpardı(Ağ körpünü) saldırır və lazım olanda o körpüdən keçərmiş. Bunu eşidən Peroz əli ilə boynunun ardını qaşıyıb dedi: Nə çox rəvaytlər var yurdumuzda.

- Doğrudur! – deyə Şəbnəm cavavb verdi.

Sonra isə onlar çayı keçib Simakana daxil oldular və iqamətgaha çatdılar. İqamətgahı əsgərlər və keşikçilər qoruyurdu və ayrıca olaraq yaxınlıqda öz ailəsi ilə yaşayan bir qoca bu yay iqamətgahının bağbanlığını edirdi və iqamətgahın həyətini silib-süpürürdü. Onlar iqamətgaha daxil olanda keşikçilər onları qarşıladı və onlar atlarından enib iqamətgahlardakı baxçada istirahət etməyə başladılar. Peroz isə ətrafı və dağları süzürdü və birdən onun gözünə uzaqdan bir qala sataşdı və soruşdu:

- Xanım, o nə qaladır belə”?
- O, Şindan qalasıdır və ondan aralıda isə Arşa qalasıdır1 – deyə Şəbnəm cavab verdi.

Peroz bir müddət Şəbnəmlə söhbət edəndən sonra onlar çeyran ovlayıb kabab vurdular və yorulunca da axşama doğru Babərə qayıtdılar. Beləliklə, səhər açıldı. Taleşan hakimi Bəhram özünün 2000 atlı əsgərini qonaqlara qoşub Ərdəbilə, qardaşı İsfəndiyar Fərruxzadın sarayına göndərdi.

***Ərdəbil sarayı 1-ci gün.*** Ordu axşama Ərdəbilə gəlib çatdı və orada onları mərzban İsfəndiyar Fərruxzad özü şəxsən qarşıladı və saraya apardı.

Sarayda onları şəxsən qarşılayan İsfəndiyar Fərruxzad üzünü saraydakılara tutub dedi: Həzarat,bu gün Talesanın hakimi və qardaşım Bəhramın göndərdiyi 2000 atlı gəlib Ərdəbilə çatmışdır, lakin Mədainə isə sabah yola düşəcəklər.

-Sabahmı? - deyə əyanlar təəccüblə biri-birindən soruşdular.

-*:* Həə, sabah, çünki bu gün axşama Girdiman hökmdarı Cavanşir Mehrani hökmdarının 3000 nəfərlik ordusu da burada olacaq! – deyə İsfəndiyar Fərruxzad cavab verdi.

"Bəraz xəstə deyilmi,həm də artıq çox qocalmışdır,bəs görəsən komandan kim olacaq?"- deyə əyanlardan biri soruşdu.

- Hə, elədir,dediyiniz kimidir, Aran hökmdarı Bəraz Qriqor xəstədir və həddən artıq qocalmışdır. Bu da o deməkdir ki,artıq o qılınc qurşana bilməz,elə bu səbəbdən də buraya göndərdiyi 3000 nəfərlik orduya onun gənc oğlu Cavanşir başçılıq edir.İndi isə yola çıxmazadan qabaq əsgərlərə yemək və azuqə tədarük edin və siz isə mənimlə gəlin - deyə İsfəndiyar Fərruxzad üzünü mədainli qasidə və Mistanlı dəmirçiyə tutub dedi.

Bu sözdən sonra qonaqlar Bəhram Fərruxzadla birgə ziyafət otağına getdilər və yeyib-içib əylənməyə başladılar. Artıq axşam olmaq üzrə idi, hamı kef məclisindən süst olmuşdu və İsfəndiyar isə əlində qızıl qədəh dərin fikrə getmişdi və bəlkə də, düşünürdü ki, bu onların son rahatlığıdır. Elə bu zaman qala bürclərindən gözətçilər qışqırmağa başladılar:

- Gəlirlər! Gəlirlər! Tez onlardan biri mühafizəçilərə xəbər verdi və onlar da qapıçıya, qapıçı isə içəri girib təzim etdi və dedi:

- Əlahəzrət, uzaqdan atlılar görününr, deyəsən gələn var.

- Kimdir gələn və hansı istiqamətdən gəlirlər? – deyə İsfəndiyar Fərruxzad soruşdu.

- Dağların ətəyindəki yolla, yəni Ceyd kəndi istiqaməti ilə gəlirlər! – deyə qapıçı cavab verdi.

- Ceyd yolu ilə gəlirlərsə, şübhəsiz ki, Girdiman ordusudur, tez olun qalxın, əmim oğlu gəlir, “ali Mehran”ın nəslindən olan bir sərkərdə gəlir,durun qarşılıyın onları – deyə İsfəndiyar Fərruxzad tez ayağa durdu. Bu zaman şeypurlar çalınmağa başladı və qala içərisində, qapı ağzında sağ və sol tərəfdə iki sıra əsgərlər düzülməyə başladılar. Belə ki,6 atlı onu qarşılamağa getdilər və az keçmədi ki, əsgərlərin müşaiəti ilə Girdimandan gələn qoşun saray qapılarına yaxınlaşdı və bu zaman məmurlar onu qarşılamağa çıxdılar.

İsfəndiyar Fərruxzad isə sarayda öz taxtında əyləşib onu gözləyirdi və nəhayət, ordu qapıya çatdı. Belə ki öndə üç nəfər atlı, digərləri isə onun ardınca gəlirdi və qabaqdakı üç nəfər atlının içərisində ortadakı atlı xüsusi olaraq seçilirdi. Tipik Ari əsgərini xatırladan bu atlı ucaboylu, narın saqqallı, əynində zirehli paltar, qollarında dəmir biləkliklər və başında dəmir dəbilqə var idi. O, atlının uzun qıvrım saçları dəbilqəsinin qulaqlıqları altından da bilinirdi və o qədər uzun idi ki, çiyinlərinə qədər dağılmışdı. Ayrıca olaraq onun belində qırmızı rəngdə arxalığı var idi ki, külək onu hərdən yellədirdi. Elə qapıdan da ilk girən o cavan sərkərdə oldu və o içəri daxil olub qapı ağzında iki sıra düzülmüş əsgərlərə gəlib çatanda mehtər əli ilə işarə edib onun atdan düşməsini söylədi və o cavan da atdan düşdü. Atı mehtər alıb apardı, o cavan sərkərdəni isə həyətdə ilk olaraq qarşılayan mərzbanlıq xüsusi

qaravulun rəhbəri Muqabir oldu və o qılıncını qınından çıxarıb əsgər salamı verdi və eyni zamanda əsgərlərdə bir yerdə o gənc sərkərdəni salamladılar. Sonra isə mərzbanlıq qaravulbaşısı üzünü o cavan sərkərdəyə tutub uca səslə dedi:

- Xoş gəlib səfa gətirmisiniz, mərzban İsfəndiyar Fərruxzad sizi sarayında hüzurunda gözləyir və xahiş edirəm məni təqib edəsiz! - deyib dönərək saraya doğru getdi və əsgərlər də onu təqib etdilər.

Budur İsfəndiyarın sarayı, İsfəndiyar əllərini ovuşdura-ovuşdura o tərəfə-bu tərəfə gedir və bu zaman qapıçı içəri girib təzim etdi və dedi:

- Əlahəzrət! Girdiman hakimi Cavanşir və Şirvan hakimi Şəhriyar qapıda hüzurunuza çıxmaq üçün rüsxət istəyirlər.

- Nə durmusan! tez sal onları içəri - deyə İsfəndiyar Fərruxzad həyəcanla bağırmağa başladı. Bu zaman qıraqda sakitcə durub bu mənzərəni izləyən mədainli qasid üzünü dəmirçi Peroza tutub dedi: Başa düşmədiyim bir şey var, mərzbanı bu qədər həyəcana salan kimlərdir ki, onların gəlməyini səbirsizliklə gözləyir?

- Gələnlərin hər ikisi İsfəndiyar Fərruxzadın atadan əmisi oğlanlarıdır və mərzban çoxdandır ki,onların üzünün görmür, yəqin1 – deyə dəmirçi Peroz cavab verdi.

- Hə, deyəsən, anlamağa başlayıram! – deyə mədainli qasid də dilləndi və sonra qapı açıldı və içəri iki cəngavər daxil oldu. Onları görən kimi İsfəndiyar iri addımlarla irəli gedərək iki əlini gələn iki şəxsə uzadıb dedi:

- Xoş gördük sizləri,ey mənim əmim oğlanlarım,ey mənim kürəklərim,arxamdakı alınmaz qalalarım və qar yağmaz dağlarım. Sonra o xoş gəlmisiniz! - deyib ilk öncə yaşlı olanı qucaqladı və uca səslə dedi:

Xoş gördük sən ey əmim oğlu və cümlə Şirvan məmləktinin hakimi Şəhriyar.

- Çox sağol əmi oğlu, səni də xoş gördük1 – deyə Şəhriyar cavab verdi.

- De görüm, Şirvanda vəziyyət necədir,uşaqların necədir,qohum-əqrabalarımız necədirlər? – deyə Bəhram şah soruşdu.

- Hər şey yaxşıdır,oğlum yaxşıdır,artıq böyüyüb və qılınc qurşanırlar, qızım Mənijə isə dinimizə talibdir və yasna dualarını yaxşı avazla oxuyur! – deyə Şəhriyar cavab verdi.

- Çox sevindim,arada gətir onları bir bağrıma basım o igidlərimi1 – deyə İsfəndiyar Fərruxzad dedi və sonra isə üzünü ikinci şəxsə tutub dedi:

- Xoş gördük, ey əmim oğlu! Ey ali Mehranın soyundan gələn Cavanşir Mehran, xoş gördük!

- Xoş gördük, əlahəzrət,sizi görməyimə çox şadam və sizin adınızı çox duymuşdum atamdan,şəxsən görmək istərdim,amma qismət bu günə imiş! – deyə Cavanşir cavab verdi.

Bu zaman İsfəndiyar Cavanşiri qucaqlayaraq bağrına basdı və sonra isə əli ilə işarə edərək dedi:

- Buyurun əyləşin, yəqin yorulmusunuz, bir azdan yemək yeyəcəyik və beləcə qonaqlar süfrə başına keçdilər və məclis davam etdi. Sonda isə İsfəndiyar Fərruxzad ayağa qalxıb üzünü məclisdə oturanlara tutub uca səslə dedi:

- Həzarat! Bu günlərdə başımızın üstünü qara buludlar almaqdadır. Belə ki, adam yerinə qoymadığımız və daima köləmiz olan İsmail övladları birləşərək sel kimi üstümüzə gəlməkdədirlər. Onlar paytaxt Mədainə məktub göndərərək şahənşah Kisra Yəzdigerdi belə təhdid etməkdən çəkinməmişlər, uzun- uzadı danışıqlar bir nəticə verməmişdir, o üzdən müharibə qaçılmazdır. Bu səbəblə də şahənşah səltənətimizə daxil olan əyalətlərin mərzbanlarına qasid göndərərək ümumi düşmənə qarşı birgə vuruşmaq üçün əsgər

göndərməyimizi istəmişdir, sonra isə əli ilə mədainli qasidi göstərərək sözünə davam etdi. Sonra yenə sözünə davam edən İsfəndiyar dedi:

- Budur, pytaxtdan gələn qasid mənim sarayımdadır və təfsilatı haqda özü məlumat versin və bu zaman mədainli qasid rəli çıxdı və üzünü məclisdəkilərə tutub dedi:

- Onlara qarşı birləşməmiz şərtdir,yoxsa bizi məhv edərlər, lakin yaddan çıxarmayın ki,vaxtı ilə dünyanın dörd tərəfini qorxu içində saxlayan Sasani imperiyası artıq əvvəlki əzəmətini itirmək üzrədir, məmur özbaşınalığı və rüşvətxorluq düşmənin işini asanlaşdıracaqdır.

Lakin mən burda da sizə müraciət edirəm,gəlin birləşək və vətənimizi bu işğalçılardan qoruyaq. Mən əslən Usurşunalıyam və pəhləvicə danışsam da, burada şahid oldum ki, istər Adarpeyqanın,istər Taleşanın, Usurşunanın, Şirvanın,Girdimanın və Suziananın əhalisi eyni kökdən gəlirlər və eyni ata-ananın övladlarıdırlar, ramızda sadəcə ləhcə fərqi var. Bu üzdən də düşünün və görün bizi nə gözləyir. Mədainli qasidin sözlərindən hamı təsirlənmişdi və hamı uzun-uzadı düşünürdü. Beləcə məclis davam etdi və axşam oldu, sonra isə səhərə yaxın Adərbayqandan olan 6 min ordu Fərhadın komandanlığı ilə, Girdimandan olan 3 min ordu Cavanşir Mehranın komandanlığı ilə, Şirvandan olan 2 min ordu Şəhriyar Behzadın komandanlığı ilə paytaxt Mədainə yola düşdülər.

# II BÖLMƏ. AĞ SARAY

## *1. Rüstəm və Boran*

***Mədain - Ağ saray.*** Budur - uzaq Dəclə və Fərat çayı sahilləri,qüdrətli sasanilər dövlətinin paytaxtı Mədain. Hökmdar sarayı olan Sepidkah(ağ saray).Şahənşah Yəzdigerd öz taxtında əyləşib və yanında - aşağıda isə cadugər əyləşib fal açır və bu hadisələrin nə ilə bitəcəyini qabaqcadan hökmdara bildirir. Şahənşahın sağında və solunda xidmətçilər ona yelpikləyir, onlardan azca aralıda isə əli silahlı mühafizəçilər durmuşdu. Şahənşahın taxtı isə sarayın günbatan tətəfində altı pilləkənin üstündə qurulmuş foye üzərində yerləşir və pilləkənlərin hər iki tərəfində sasanilərin simvolu olan “Şir-e Xorşid” heykəli var idi.Şahdan aşağıda əyanlar və sərkərdə Hörmüzan dayanmışdı.

- Heç kim sasaniləri Mesopotomiyadan qovma qüdrətinə malik deyil! - deyə cadugər əli ilə af..kaf..uş, kuş deyə-deyə əllərini havada yellədirdi. Sonra o yenə əlindəki rəngli daşları çalxalayıb yerə atdı və uca səslə dedi:

- Müharibə başlayacaq və bu müharibədə qalib gələcək tərəf”... deyə sözü ağzında qaldı. Sasani şahənşahı III Yəzdigerd tez müdaxilə edib dedi:

- Mən! Mən!! Mən hər müharibədə qalib gəlirəm və bu müharibədə də qalib gələcəyəm!

Bu zaman sözünə davam edən cadugər daşlarıdan birini əlinə alıb qaldırdı. O diqqətlə baxıb qalib gələn tərəfin kim olduğunu demək istətyirdi ki, bu zaman qapıçı içəri girib təzim etdi və uca səslə dedi:

- Şahim! Bibiniz şahzadə Boran hüzurunuza çıxmaq üçün rüsxət istəyir!

- Buyursun, gəlsin! – deyə II Yəzdigerd cabav verdi. Elə bu zaman şeypurlar çalındı və şahənşah III Yəzdigerdin kiçik bibisi Boran içəri daxil oldu və narın addımlarla sarayın o başında əyləşən qardaşı oğlu III Yəzdigerdin yanına yeriməyə başladı. Şahənşahın yanına çatan kimi taxtın qarşısında olan altı pilləli pilləkənlərlə yuxarı qalxd. Bu zaman o, şahənşaha təzim etdi və şahənşaın sağ tərəfindəki kürsüyə əyləşdi və bu vaxt qapıçı yenə içəri girib təzim etdi və uca səslə dedi:

- Şahım! İran ordusunun komandanı Rüstəm hüzurunuza çıxmaq üçün rüsxət istəyir!

- Buyursun, gəlsin! - deyə III Yəzdigerd əli ilə işarə etdi və bu zaman qapı açıldı və Rüstəm içəri daxil oldu. O, şaha tərəf iri addımları ilə addımlayaraq gəlib taxta çatıb təzim etdi və kənara çəkilib durdu və şahənşah III Yəzdigerdin bibisi hamıdan tez dillənərək dedi:

- Hökmdarım! Kəşfiyyatçılarımız xəbər verirlər ki, müsəlmanların orduları bizim sərhədlərə artıq yaxınlaşmaq üzrədirlər.

- Bu soysuz ərəblər bizim və bizanslıların sərhədlərinə yaxınlaşmağa necə cürət ediblər1 – deyə III Yəzdigerd qəzəblə bağırdı.

- Təklif edirəm ki,kiçik bir dəstənin kiçik həmləsi ilə onları Məkkəyə qədər olan əraziyə qədər geri püskürdək1 deyə Hörmüzan cavab verdi.

- Hə! Hə! Dediklərinlə tam razıyam! ,Onlara qarşı yalnız kiçik bir dəstə yollayaq, qoy onları Məkkəyə qədər qovalasınlar.Çünki onların qarşımıza çıxacaq elə güclü əsgərləri yoxdur və əksəriyyəti sadə kəndlilərdir! – deyə III Yəzdigerd onun sözünə qüvvət verdi.

- Əlahəzrət! Qulaq asaq görək bu haqda Rüstəm nə deyir? – deyə şahzadə Boran dilləndi.

Bayaqdan dayanıb sakitcə duran Rüstəm üzünü şaha tutub dedi:

- Şahım! Vaxt hələlik bizim lehimizə işləyir,o üzdən bir az gözləməyi təklif edirəm. Ola bilər, onlar bezib getsinlər və ola bilər ki, öz tələblərini bizə göndərsinllər və o vaxt da biz bunu fürsətə çevirib həmişəlik bu məsələyə son qoyarıq.

- Sənin sözlərini yaxşı dəyərləndirmək olar,çox müdrik sözlərdir1 – deyə Hörmüzan cavab verdi və bu vaxt şahzadə Boran yenə söhbətə müdaxilə edib dedi:

- Bəs bu haqda dahi Hörmüzanın fikri nədir?

- Mənim fikrimcə, bu məsələni kökündən həll etmək üçün bir şəxsə güman var! – deyə Hörmüzan cavab verdi.

- Hörmüzan! Bunu necə başa düşək? – deyə III Yəzdigerd soruşdu.

- Onların peyğəmbəri vəfat edəndən sonra hakimiyyət uğrunda mübarizədə bir neçə partiya yarandı. O peyğəmbərin ölümündən üç gün sonra 25 yalançı peyğəmbər meydana gəldi ki,onlardan ən güclüsü Müseyləmə idi. O zaman o bizə kömək üçün müraciət edəndə biz ona hərbi dəstək verdik və az qaldı ki o qalib gəlib müsəlmanlaırn kökünü kəssin. Deməyim odur ki,elə indi də biz Mədinəyə bir cəsus göndərib onların başçısı olan Ömər bin Xəttabı sui-qəsd edib öldürsək, onda yenə həmənki vəziyyət yaranar və üsyanlar qalxar. O zaman da olduğu kimi biz yenə də üsyançılara kömək edərik. Onlar da müsəlmanlara qalib gəlib hakimiyyəti ələ alarlar və onların kökünü kəsərlər1 – deyə Hörmüzan cavab verdi.

Elə bu zaman qapıçı yenə içəri daxil olub təzim edib uca səslə dedi:

- Hökmdarım! Bibiniz Azərdoxd hüzürunuza çıxmaq üçün rüsxət istəyir!

- Buyursun, gəlsin! – deyə III Yəzdigerd cavab verdi.

Bu vaxt qapı açıldı və şahənşahın böyük bibisi Azərdoxd əlində əsa yerə və diivarlara vura-vura içəri daxil oldu. O, gözlərindən kor idi, ama buna baxmayaraq sanki görürmüş kimi sürətlə içəri daxil olaraq şaha tərəf gedə-gedə deyirdi:

- Ərəblər sərhədlərimizə yaxınlaşmağa davam edirlər, amma siz isə burada heç nə baş verməmiş kimi rahat əyləşmisiniz. Bunu görən şahənşah Yəzdigerd üzünü bibisinə tutub dedi:

- Biz Rüstəm və Hörmüzanla ərəblərin hücumunun qarşısını hazılamaq üçün müharibə planı hazırlayırıq.

- Əgər qalib gəlmək istəyirsənsə ilk öncə ətrafına yığışmış bu ilanlardan qutar. Sən Borandan, Rüstəmdən, Firuzandan və Hörmüzandan yaxanı yez qurtar,yoxsa qalib gələ bizlməzsən. Bunula da sən öz sarayında rüşfətxorluq və xainliyə son qoyarsan1 – deyə şahzadə şahzadə Azərdoxt cavab verdi və sonra isə o, üzünü qapıya tərəf çevirib deyirdi:

- Müsəlmanlar gəlirlər! Müsəlmanlar gəlirlər!! Müsəlmanlar gəlirlər!!! Vay halımza! Vay halımıza!! – deyə deyinə-deyinə qapıya tərəf gedərək çölə çıxdı.

Şahənşah Yəzdigedrin böyük bibisi Azərdoxdun bu sözlərini eşidən sərkərdə Rüstəm üzünü şaha tutub dedi:

- Əlahəzrət! Ərəblər bizim üstümüzə az bir qüvvə ilə öz inancları uğruna gəlirlər.

- Deməli, onlar döyüşə öz inancları uğrunda gedir,necə ki mənim əsgərlərim mənim uğrumda1 – deyə III Yəzdigerd sözünə davam etdi.

- Elədir ki,var əlahəzrət, lakin qısa bir zaman içində ərəblər içərisində müxtəlif dəyişikliklər baş vermişdir. Bu dəyiklik onları güclü edir və gündən-günə saylarını artırır və bu səbəbdən də biz bunu öz diqqətimizə almalıyıq.

- Birincisi, bizdən fərqli olaraq müsəlmanlar öz aralarında öz dinlərinə görə hamı bərabər və qardaş sayılırlar! – deyə Rüstəm Fərruxzad cavab verdi.

Hörmüzan Rüstəmin sözünü kəsərək məsxərə ilə dedi:

- Sən demək istəyirsən ki, onların peyğəmbəri və hökmdarları adi adamla eyni tutulur?

- İkincisi - ərəblərlərin itirəcəyi heç bir şey yoxdur, ərəblər sərbəst və arxayın vuruşurlar, çünki onların arasında boş səhradır. Lakin bizim isə itirəcəyimiz çox şey var,çünki bizim arxamızda qohum-əqrabalarımız,ana-bacılarımız, qız-gəlinlərimiz, şəhərlərimiz,minilliklər boyu tikib yaratdığımız böyük mədəniyyət durur. Əgər onlar qalib gəlsələr, bütün bunları ələ keçirib bu böyük mədəniyyətə son qoyarlar! – deyə Rüstəm Fərruxzad cavab verdi.

- Elə bu da bizi daha da, qəhramanlıqla vuruşmağa vadar edəcək! – deyə Hörmüzan əlavə etdi və sonra yenə Rüstəm sözünə davam edərək dedi:

- Bir də ki,bizim ərazimizdə yaşayan sadə xalq bizə hücum edən o müsəlman ərəblərin qardaşlarıdır və əgər müharibə başlasa, onlar istənlən vaxt silaha sarılıb müsəlmanların tərəfinə keçə bilərlər.

- Sadə xalqı mənə buraxın və mən onları nə ilə ələ alıb zəhərləməyi hamıdan yaxşı bilirəm və inanın ki,tezliklə onları müsəlmanlara qarşı qaldıraram! – deyə Hörmüzan cavab verdi.

***Təbliğat***: Budur, axşam vaxtıdır, sasanilərin paytaxtı Mədainin dar küçələrindən birində bir neçə atlı bir neçə piyada şəxslə üz-üzə durub söhbət edirlər. Atlılardan biri Hörmüzandır və o piyadalar isə İraqın xristian ərəb qəbilələrinin başçılarıdır və Hörmüzan onlara deyir:

- Siz tarix boyu farsların tərfində vuruşmusunuz və ona görə də siz bu dəfə də Öməri yox, bizi dəstəkləyin və hər

qəbilə 100 əsgər versin bizə! - deyə əlindəki qızılla dolu bir neçə kisəni onların üzərinə atdı və sonra isə sözünə davam edərək dedi:

- And olsun müqəddəs oda ki, əgər sizin içinizdən kimsə gizlicə müsəlmanlarla ittifaq bağlayıb bizə xəyanət edərsə, onda mən onu öz əllərimlə öldürəcəyəm! - deyib atının başını çəkib getdi. Hörmüzan gedəndən sonra o ərəb qəbilə başçılarından biri dedi:

- Hə! Nə deyirsdiniz?

*II qəbilə başçısı:* O,bizi pulla satın almaq istəyir!

*III ərəb qəbilə başçısı:* Yox! Biz müsəlmanlara qarşı vuruşmarıq!

*I ərəb qəbilə başçısı:* Axı onlar ərəb olsalar da, müsəlmandırlar, biz isə xristian.

*II ərəb qəbilə başçısı:* Hə! Nə olsun ki, əsas odur ki,onlar da bizim kimi ərəbdirlər. Biz xristian ərəblər və bürtpərəst ərəblər hamılıqla Səəd bin Vəqqasın orsusunu dəstəkləyərik.Bunu görən I qəbilə başçısı üzünü onlara tutub dedi:

- Əgər siz hamınız farsların deyil,ərəblərin tərəfini tutursunuzsa, onda mən də sizinləyəm və bunu deyib sonra onlar hərə öz qəbiləsinə getdi.

***Rüstəm və Boran-“Eşqin bağçası”.*** Budur, Sasanilərin “”ağ saray”ı və onun həyəti, sarayın həyətində şahənşah III Yəzdigerdin kiçik bibisi şahzadə Boran xurma ağacının kölgəsində əyləşib tovuz quşunu sığallayır. Elə bu dəmdə Rüstəm daxil olur və yaxınlaşan kimi sol əlini sarayın həyətindəki ağ dirəklərdən birinə dayayıb söykəndi və oradan şahzadəni izləməyə başladı.

Rüstəm uzun müddət idi ki, şahzadə Borana könlü düşmüşdü və ona açılmaq üçün fürsət axtarırdı. Lakin

şahənşahdan və onun böyük bibisindən ehtiyat edir və sevgisini öz qəlbində saxlayırdı. Ancaq indi vəziyyət başqa idi və hər şey dəyişmişdi. Sasanilərin qapısına qədər gəlib dayanmış ərəblərin sabah nə edəcəkləri bəlli deyildi və o üzdən də qarmaşa düşəcəyi şübhəsiz idi. Buna görə də əlində kifayət qədər gücü birləşdirən Rüstəm Fərruxzad bu məsələni fürsətə çevirmək istəyirdi. O, tez öz seyrini dayandırıb şahzadə Borana daha da yaxınlaşdı.

Bayaqdan Rüstəmi görməyən şahzadə onun ayaq səslərini eşidən kimi arxaya baxdı və Rüstəm olduğunu görən kim ayağa qalxdı və dedi:

- Xoş gördük, Rüstəm!

- Şahzadəm! Mən gəlmişəm sizinlə vidalaşmağa! – deyə Rüstəm Fərruxzad dedi.

- Sənə yaxşı yol, mən sənin qələbə ilə dönüşünü gözləyəcəyəm! – deyə şahzadə Boran cavab verdi.

- Doğrudanmı? – deyə Rüstəm Fərruxzad soruşdu.

- Sən mənim dediklərimə şübhə edirsənmi! – deyə şahzadə Boran soruşdu.

- Şahzadəm! Niyə də biz sizinlə sizli-bizli danışığını bir kənara qoyub sənli-mənliyə keçmirik? Axı mən sizi sevirəm və siz də məni sevirsiniz, elə ona görə də izn verin sizi hökmdarımızdan istəyim! – deyə Rüstəm Fərruxzad soruşdu.

- Yox, Rüstəm! Bu mümkün deyil! – deyə şahzadə Boran cavab verdi.

- Axı nəyə görə, şahzadəm? – deyə Rüstəm Fərruxzad soruşdu.

- Çünki sən ali Sasani nəslindən deyilsən! – deyə şahzadə Boran cavab verdi.

-: Bu o deməkdir ki, siz mənə heç bir zaman ərə gəlməyəcəksiniz, lakin bilin ki, başqasına da ərə gedə bilməyəcəksiniz? – deyə Rüstəm Fərruxzad əlavə etdi..

-: Nəyə görə belə deyirsən Rüstəm? – deyə şahzadə Boran soruşdu.

-: Çünki, ali Sasan kişiləri içərisində sizə talib ola biləcək qüdrətdə heç kim yoxdur. Bir də ki, şahzadəm, sasanilərin dövrü çoxdan gəlib keçmişdir və o üzdən də mənə ərə gəl və biz yeni sülalənin əsasını qoyarıq! – deyə Rüstəm Fərruxzad cavab verdi.

Bunu eşidən şahzadə Boran gülümsəyərək Rüstəmə baxıb dedi:

- Sən ali Sasani taxtına iddia edirsən?

- Siz düşünürsünüz ki,mənim kimi komandan buna layiq deyil! – deyə Rüstəm Fərruxzad cavab verdi.

- Unutmamalısan ki, sənin mərhum atan Fərrux Hörmüzd də sənin kimi bu arzuda idi və elə bu arzusuna görə edam olunub! – deyə şahzadə Boran dedi.

- Yox,! Düz deyil! O sənin bacın Azərdoxtu sevirdi və elə onu sevdiyinə görə öldürüldü! – deyə Rüstəm Fərruxzad cavab verdi.

- Azərdoxd hələ də sağdır və onun kor olmasına baxmayaraq o hər zaman sasaniləri bizim əleyhimizə qaldıra bilər. Bundan əlavə Ali Sasan nəslinin qüdrətli sərkərdələri olan Hörmüzan və Firuzan da sənə qarşı intriqa aparırlar! – deyə şahzadə Boran sözünə əlavə etdi.

- Sən sadəcə de ki, məni sevmirsən! – deyə Rüstəm Fərruxzad dedi və bu sözü eşidən kimi şahzadə Boran başını aşağı əyərək susdu, sonra yenə Rüstəm sözünə davam edib dedi:

- Əgər məni sevirsənsə, de!

- Bəs sənin ürəyin sənə nə deyir? – deyə şazadə Boran soruşdu.

- Son günlərdə məni hamı ələ verir, hətta öz qəlbim belə və bu sözdən sonra onlar bir an beləcə susub qaldılar! – deyə

Rüstəm Fərruxzad cavab verdi . Bu zaman tovuz quşunun səsi gəldi və onlar arxaya çönüb baxanda Azərdoxdu gördülər və o ,əlində əsası daşa-divara çırpa-çırpa onlara tərəf gəlirdi və o, yeriyə-yeriyə deyinirdi və deyirdi:

- "Ərəblər gəlirlər! Ərəblər gəlirlər!! Sasanilərin sonu yaxınlaşır! Sasanilərin sonu yaxınlaşır!!" və o bu sözləri təkrar edə-edə sarayın içinə tərəf getdi. Sonra Rüstəm də təzim edib getdi.

***İnzibati bölgü və səfərbərlik:*** Axşam saatlarıdır, imperiyanın paytaxtı Mədain şəhərinə ölkənin hər yerindən ordu birləşmələri gəlir. Belə ki, bu ordu birləşmələri Sasani şahı III Yezdigerdin çağırışına əsasən inmperiyaya daxil olan mərzbanların şahın əmirinə ərəblərə qarşı vuruşmaq üçün göndərilmişdi və onların çoxu artıq gəlib çatmışdır.

Sasanilərin bölündüyü dörd əsas canişinlikdən biri olan ki, Qafqaz kustakı idi. Bu şimal canişinliyinə daxil olan İsfahan, Qum, Cibəl, Adərpayeqan və Ərməniyyədən olan ordu birləşmələri isə hələ gəlib çıxmamışdılar və buraya Girdiman, Şirvan və Taleşan da daxil idi. Digər ikinci canişinliyə daxil olan Xorasan, Sicistan və Kirmandan ordu birləşmələri bir gün qabaq gəlmişdilər.

Üçüncü canişinliyə daxil olan Fars,əl-Əhvaz və əl-Bəhreyndən olan ordu birləşmələri isə hələ on gün bundan əvvəl İraqla sərhədə toplanmışdı.Ölkənin dördüncü canişinliyinə daxil olan İraqdan tutmuş Ruma qədər olan ölkələrin hərbi birləşmələri sözləşmədən iki gün sonra hazırlanmışdı. Lakin Pəhləvi mənbələrindən istifadə etmiş Təbərinin (ət-Təbərinin) qədim ərəb müəlliflərindən verdiyi məlumatda deyili:

- İmperiyanın dörd əyalətə (kustaka) bölünməsi hələ I Xosrovdan əvvəl mövcud idi.I Xosrov taxta çıxandan sonra

"İranın dörd ölkəsini idarə edən dörd Sepəhbudə məktub göndərdi". Məktublardan biri"Adərpayeqan, Ərməniyyə və qonşu ölkələrin sepəhbudu Zədüyyə ibnən-Nahiracana göndərilmişdi"

**1**. I Xosrova qədər Sepəhbud adlanan baş hərbi rəis vəzifəsini bir nəfər daşıyırdı və o bu vəzifəni dörd nəfər arasında böldü. Şərq, yəni Xorasan və qonşu torpaqlar Sepəhbudu, Qərb (Məğrib)Sepəhbudu, Cənub (Nimruz), yəni Yəmən Sepəhbudu, Adərbayqan və qonşu torpaqlar, yəni xəzərlər Sepəhbudu"

**2**. Kustaklar daha xırda vahidlərə bölünürdü və bu vahidlərdən hər biri tarixən əmələ gəlmiş ərazi və etnik şəraitə uyğun olaraq az-çox müstəqil vilayətdən (şəhərdən) ibarət idi. Şimal kustakına 13 belə vilayət (şəhər), o cümlədən, Adərbayqan (Atrpatakan),Armən (Ərmən),İberiya (Varçan), Arran (Ran), Balasakan, Sisakan və digər vilayətlər (Mukan, Deyləm, Dəmavənd, Ruyan, Amul və s.) daxil idi.

**3.** İbn Xordadbeh təsdiq edir ki, Qərbi və ya Şimal vilayətləri Sasanilər imperiyasının dörddə bir hissəsini təşkil edirdi. Adərpayeqan sepəhbud adlanan ölkə Şimal sepəhbudunun hakimiyyəti altında idi; bu hissəyə Adərpayeqan,Armən, Rey, Arran və başqaları daxil idi.

**4.** Padşahlara verilən adlardan danışan ibn Xordadbeh bildirir ki, hələ I Ərdəşir (224-241) Adərpayeqan, Armən və digər ölkə padşahlarına şah adı vermişdi, məsələn,Azərbazqan şah, Şiryan şah, Baraşkan şah (Azərbaycanda), Allan şah(Mukan), Ərmənian Şah, Filan şah və i.a

**5.** Mitilenli Zaxarinin Suriya xronikasında Zaqafqaziyada yerli hakimlərin olduğu haqqında məlumat vardır. Bu şimal tərəfdə (Zaqafqaziyada - Z.B.) beş dindar xalq və onların 24 yepiskopu vardır. Onların katolikosu İran Ermənistanının böyük şəhəri olan Dvindədir. Qurzan da Ermənistan

torpağındadır, onların dili yunan dilinə oxşayır, onların İran şahına tabe olan xristian padşahı vardır. Arranın da öz torpağı, öz daxili, dindar və xaçpərəst xalqı vardır, onların da İran şahına tabe olan padşahı vardır".

***Təlatüm.*** Budur artıq şimal kustakına daxil olan ölkələrin ordu birləşmələri gəlib çatdılar. Qarşıda çapıb gələn qasid saraya daxil oldu və onu şahənşah Yəzdigerdin yanına apardılar və o,içəri girən kimi təzim etdi və Qafqaz kustakının ordu birləşmələrinin gəldiyini xəbər verdi. Elə bu zaman şeypurlar çalınmağa başladı və saray əhli təntənəli surətdə gələnləri qarşılamağa çıxdı.

Belə ki, Arrana daxil olan Şirvan ölkəsinin ordu birləşmələrinin başında hakim Şəhriyar Behzad,Girdiman ölkəsinin başında Cavanşir Mehran,Adərpayeqanadan olan ordu birləşmələrinə İsfəndiyar Fərruxzad, Talesan və Mukan ölkəsindən olan ordu birləşmələrinə isə Bəhram Fərruxzad, Arminiya hərbi birləşmələrinə Mşuşeq Mamikonyan, Sünik ölkəsinin ordu birləşmələrinə knyaz Qriqori və İberiya qoşunlarına Sebos başçılıq edirdi.

Beləliklə, şəhərin darvazaları açıldı və ordu birşləşələri şəhərə daxil oldular və birləşmə başçıları atlardan düşdülər. Onlar saray mühafizəçilərinin müşayiəti ilə ağ saraydakı şahənşah III Yəzdigerdin hüzuruna getdilər. Sasani şahı III Yəzdigerd öz dəbdəbəli taxtında əyləşib və qonqaları gözləyirdi. Şahzadə Boran şahın sağ tərəfindəki kürsüdə əyləşib və İran ordu komandanı Rüstəm, dahi Hörmüzan və Firuzan da şahın yanında durub qonaqları gözləyirdilər. Burada saray əyanlarının tamı və imperiyaya daxil olan digər ölkələrin başçıları da iştirak edirdilər və bu zaman qapı açıldı və saray mühafizə başısı içəri daxil olub təzim edib dedi:

- Əlahəzrət! Əmriniz üzərə bölgələrdən çağırılan ölkə başçıları təşrif buyurublar və hüzurunuza çıxmaq üçün rüsxət istəyirlər.

- Hə! Buyurub gəlsinlər! – deyə II Yəzdigerd əli ilə işarə etdi və beləcə qapı açıldı və onlar içəri daxil oldular. Bu zaman saray mühafizə başçısı içəri girən ölkə başçılarını bir-bir yüksək səslə təqdim etməyə başladı.

*Saray mühafizə başısı:*

- Adərbayeqandan İsfəndiyar Fərruxzad, Taleşan və Mukandan Bəhram Fərruxzad, Arrana daxil olan Şirvandan Şəhriyar Behzad və Girdimandan Cavanşir Mehran, Armandan knyaz Muşeq Mamikonyan, Sünikdən knyaz Qriqori və İberiyadan knyaz Sebos hüzürunuzda.

Beləliklə, saray əyanları hamılıqla bu sərkərdələri alqışladı və şahənşah III Yəzdigerd ayağa durub sərkərdələri salamladı və dedi:

- “İgidlərim! Sparapetlər! Mərzbanlar və sebəhbudlar! Ölkəmizin üstünü qara buludlar almaqdadır. Belə ki heç bir zaman insan yerinə belə qoymadığımız murdar Hacər oğulları sel kimi üzərimizə gəlməkdədirlər. Biz onların ilk həmləsini Cisr(körpü) döyüşündə körpü savaşında dəf edib püskürtmüşük,lakin onlar əl çəkmək istəmirlər. Hacər oğullarının başına Ömər bin Xəttab adlı bir tazi durur. O, İrana xüsusi nifrət hissi bəsləyən bu şəxs nəyin bahasına olursa-olsun bu gözəl məmləkətimizi dağıtmaq və din pərdəsi altında xoş güzəranımızı qara günə çevirmək və mədəniyyətimizi yox etmək istəyir. Onlarla çox bir neçə dəfə danışıq aparmışıq, amma hələlik bir nəticə verməmişdir.Lakin son bir dəfə də danışıq aparacağıq və əgər müharibə qaçılmaz olarsa, buna hazır olmalıyıq. Odur ki,sizə güvənim sonsuzdur və əminəm ki,bu murdarların başını tezliklə əzəcəksiniz. İndi qoy təfsilatı

haqda Rüstəm sizə məlumat versin" və sonra əli ilə Rüstəmə işarə etdi.

III Yezdəgerddən sonra beləliklə çıxışı Rüstəm davam edib dedi:

- Həzarat! Xırdalıqlara girmək istəmirəm, çünki buna ehtiyac duymuram,amma əminəm ki,biz o sarsaq bədəvilərin başını əzəciyik. Onların başçısı olan Ömər adlanan qaniçən itin də tezliklə başını kəsib Mədinənin divarlarından asacayıq.

Bu vaxt saraydakılar uca səslə: Affrəin! Affrəin! Affərin!!! - deyə alqışladılar və sonra yenə şahənşah ayağa qalxıb sözünə davam edib dedi:

- Rüstəm bütün İran ordusunun komandanıdır, Hörmüzan və Firuzan isə ikinci orduya rəhbərlik edəcəklər. Siz hamınız bir nəfər kimi sərkərdə Rüstəmin ixtiyarındasınız və onun sözü, zira mənim sözümdür. Bu gecə ərəblərin elçiləri gələcək və ondan sonra hər şey bəlli olacaq və indi isə sizin üçün hazır olan ziyafət zalına buyurun! - deyə əli ilə işarə etdi. Beləliklə, hamı ziyafət otağına getdi.

***Ərəblər qapıda, elçilər İran sarayında***. Ərəb ordu komadanı Səəd bin Vəqqas özü də bu qalaya gəldi və o, Muənnanın başçılığı ilə bir heyəti iranlıların çadırına göndərdi. Müsəlman heyəti ağ saraya təşrif buyurdu və bu haqda III Yəzdigerdə məlumat verdilər.

Məlumat III Yəzdigerdə çatdırılan zaman o, ağ sarayın arxa bağçasında içi südlə doldurulmuş geniş hovuzda saray hərəmində olan qadınlarla əylənirdi və bu xəbər ona veriləndə o, acıqla cavab verdi:

- O ərəblər, mənim səviyyəmdə deyillər və bu mənim hərbi rəislərimin və ya birbaşa Rütəmin işidir, qoy onları Rüstəm qəbul etsin!

Bu vaxt gözətçilərdən biri üzünü hökmdara tutub dedi:

- Əlahəzrət! Arzu edirsiniz onları qovaq.

*III Yəzdigerd:* Hə! Hə!,Hə!Qovun onları getsinlər, lakin sonra isə fikrini dəyişib dedi:

- Yox! Yox!! Mənim məsləhətçilərimə xəbər verin, qoy saraya gəlsinlər. Sonra isə hovuzdan çıxıb qurundu və dairəsinə çəkilib libasını geyməyə başladı, daha sonra isə öz sarayına gedib taxtına əyləşdi. Onun sağ tərəfindəki kürsüdə şahənşahın kiçik bibisi olan şahzadə Boran əyləşmişdi, solda Hörmüzan, Firuzan, Cavanşir, Şəhriyar, İsfəndiyar, Bəhram, Qriqori, Sebos və digər əyanlar durmuşdu və onların arasında təıkcə Rüstəm yox idi. Bu zaman qapıçı içəri girib təzim etdi və dedi:

- Əlahəzrət! Bədəvilərin elçiləri qapıdadırlar və hüzurunuza çıxmaq üçün rüsxət istəyirlər.

- Neçə nəfərdirlər? – deyə III Yəzdigerd soruşdu.

- Doqquz nəfərdən ibarətdirlər, əlahəzrət1 – deyə qapıçı cavab verdi.

- Hə! Buyursunlar gəlsinlər! – deyə III Yəzdigerd əli ilə işarə etdi və bu sözdən sonra qapı açıldı və içəri səhra geyimində çox cahilcə olan doqquz nəfər daxil oldu. Onlar içəri girib şahənşahın taxtının önünə gəlib dayandılar və onlardan biri irəli çıxıb dedi:

- Adım Müənnadır və mən ərəb ordularının komandanı Səəd bin Vəqqasın elçisiyəm. Bunlar da mənim heyətim olan Numan bin Mükərrim, Hənzələ bin Rəbi, Əşas bin Qeys, Müğirə bin Şübə, Müğirə bin Zürarə və Əmr bin Mədkəribdir.

Şahənşah III Yəzdigerd onları bir müddət süzəndən sonra dedi:

- Dediyiniz şəxslərdən kimsəni tanımıram və sizə baxıb sadəcə bunu demək istəyirəm ki,sizi qudurdub üstümüzə salıb və üzərimizə hücum edəcək qədər cəsarətləndirən nədir? Sizin əcdadlarınız minillər boyu bizim nökərlərimiz və mənim

atalarımın təəbələri olublar. Bütün bu qərinələr boyu heç bir İsmail övladı burax üstümüzə qoşunla gəlməyi, başını qaldırıb üzümüzə baxmağa belə cəsarət etməmişlər. Amma indi nə dəyişib ki, həmən səhra,həmən dəvə və həmən bədəvilərsiniz.İndi siz üstümüzə qoşun yığıb gəlmisiniz,məgər bu gülməli deyil?

- Ola bilər! Əgər bizdə çoxlu dəyişikliklər olmasaydı, bunların heç biri baş verməzdi. Buna səbə isə bilmirəm xəbəriniz var, ya yox bizim aramızda yeni bir peyğəmbər zühur edib. O, bizi haqq yoluna dəvət edib bütün ərəb qəbilələrini bir bayraq altında birləşdirdi. Amma ona qədər biz parakəndə halda müxtəlif qəbilələrə bölünüb susuz çöllərdə bədəvi həyat tərzi keçirirdik, indi isə ayılmışıq! – deyə Müənna cavab verdi.

- Mən sizin hamınızı bağışlayıram və hamınız heç nə olmamış kimi evinizə qayıdın. Belə ki söz verirəm ki, bu hərəkətlərinizə görə sizi öldürməyəcək və cəzalandırmayacağıq! – deyə III Yəzdigerd sözünə davam etdi.

- Orda durun əlahəzrət! Bizim öhdəmizdən belə asanlıqla gələ bilməzsiniz, çünki indi biz sizə tələblərimizi diqtə etməyə gəlmişik,siz yox və bizim sizə üç şərtimiz var! – deyə Müənna cavab verdi.

- Bu nə şərtlərdir belə? - deyə şahənşah III Yəzdigerd sanki güzəştə getmiş formada soruşdu. Bu zaman şahənşahın ərəb elçiləri qaşısında tez bir zaman içərisində güzəştə getməsini görən şahzadə Boran üzünü şahənşaha tutub dedi:

- Əlahəzrət! Deyirəm bəlkə Rüstəmi gözləyək və biz artıq onun ardınca adam göndərmişik.

- Onları mənim yanıma elə Rüstəm göndərib və bundan əlavə mən onların şərtləri ilə tanış olmaq istəyirəm! III

Yəzdigerd cavab verdi və sonra isə üzünü ərəb elçilərinə tutub dedi:

- Buyurun, şərtlərinizi deyin! Ərəb elçilərinin başçısı Müənna sözünüə davam edib dedi:

- Əlahəzrət! Şərtlərimiz bunlardır:

1. İlk şərtimiz İslamı qəbul etməkdir. 2. Atəşpərəstlikdən imtina etmək. 3. Xərac vermək

*III Yəzdgerd:* Necə? Atəşpərəstlikdən imtina etmək?

- İslam, sizi tək olan bir Allaha inanmağa dəvət edir və əgər siz islamı qəbul etmək istəmirsinizsə, onda xərac verməli olacaqsınız! Deyə Müənna cavab verdi. Bunu eşidən kimi şahənşah III Yəzdigerd tacını başından çıxarıb yanındakı kürsünün üzərinə qoydu və sonra isə ayağa durub elçilərə doğru gəldi və təəccüblə üzünü ərəb elçilərinə tutub dedi:

- Lənətə gəlmiş murdar bədəvilər! Siz İran hökmdarını ələ salırsınız? Əgər mən sizin düşündüyünz kimi mədəniyyətsiz və ya qəddar olsaydım, onda bir göz qırpımında hamınızı elə buradaca edam etdirərdim. Amma söz verirəm ki,bunu burada yox,döyüş meydanında edəcəyəm. Bir də ki,bizdən müharibədən başqa cavab ala bilməyəcəksiniz.

Elə bu zaman Müənna dillənib şahənşaha dedi:

- Bu elə bizim üçüncü şərtimizdir ki, var mənim əziz kralım.Bunu eşidən kimi şahənşah III Yəzdigerd bir an fikrə getdi və üzünü elçilərə tutub dedi:

-Siz istəyirsiniz ki, mən sizə xərac ödəyim,? Onda mən sizə istədiyiniz qədər xərac verərəm. Sonra isə mühafizəçinin qulağına nə isə pıçıldadı və mühafizəçi də dərhal çölə çıxdı və şahənşah da öz taxtına gedib əyləşdi. Sonra isə elçilərdən biri üzünü şahənşaha tutub dedi:

- Biz öz əmirəlmöminimizə nə deyək?

Bunu eşidən III Yəzdigerd elçilərdən soruşdu:

- Aranızda ən hörmətli şəxs kimdir?

Elçilər biri-birinə baxdılar və bunu görən şah yenə bu sözü təkrar etdi və bu zaman elçilərin arasından biri irəli çıxdı.

- Elçilərin içərisində ən hörmətli adam sənsən? – deyə III Yəzdigerd soruşdu.

- Bəli! - deyə ərəb elçisi cavab verdi.

III Yəzdigerd üzünü əyanlara və sərkərdələr tutub dedi:

- O bununla fəxr edir,amma başına gələcəklərdən əsla xəbəri yoxdur! - deyib qəh-qəhlə güldü. Bu vaxt sonra bayaq hökmdarın qulağına pıçıldadığı mühafizəçi əlində bir çən içəri daxil oldu və bu çənin içi torpaqla dolu idi.

III Yəzdigerd üzünü o mühafizəçiyə tutub dedi:

- Bu torpaqla dolu çəni bu elçinin çiyinlərinə yüklə və möhkəmcə bağla ki, yolda düşməsin və sonra yenə sözünə davam edib dedi:

- Gedib öz xəlifənizə deyin ki, bu mənim cavabımdır.

Bu vaxt elçilər təhqir olunmuş halda saraydan çıxıb getdilər və az sonra şeypurlar çalınmağa başladı və sərkərdə Rüstəm daxil oldu saraya. O girərkən çiynində torpaqla dolu olan ərəb elçilərinə rastladı və təəccüblü halda hökmdarın yanına tələsdi. O, tez bir zamanda içəri daxil oldu və onu görən Yəzdigerd üzünü ona tutub dedi:

- Gəl görüm Rüstəm! Sən çiynində torpaqla dolu olan ərəb elçilərini gördünmü nə halda idi? Bayaqdan hökmdarı narazı halda süzən Rüstəm dedi:

- Necə! Siz onlara müqəddəs İran torpağının mayasını verdiniz?

- Necə bəyəm? Bu nə deməkdir ki? – deyə III Yəzdigerd soruşdu.

- Bu da o deməkdir ki,siz bununla bütün İran torpaqlarını o İsmayıl övladlarına peşkəş etdiniz! – deyə Rüstəm Fərruxzad cavab verdi. .Bunu eşidən kimi III Yəzdigerdin rəngi dəyişdi və tez üzünü keşikçilər tutub qışqırdı:

- Tez olun! Nə durmusunuz! Təqib edin onları və torpağı geri alın.Atlılar onları təqib etsələr də, çata bilmədilər. Ərəb elçiləri torpaqla dolu çənlə ərəblərin düşərgə qurduqları qalaya gəlib çatdılar. Elçi Müənna qalaya girib Səəd bin Vəqasın yanına gəldi və dedi:

- Fars hökmdarı sizin tələbinizə cavab olaraq bu torpaqla dolu çəni göndərdi.

Bunu görən Səəd bin Vəqqas üzünü camaata tutub dedi:

- Əziz müsəlman qardaşlarım! Bu çox yaxşı və xeyirli bir yozumdur. Bu o deməkdir ki, Allahınköməkliyi ilə biz tezliklə o farsları Mesopatomiyadan qovub çıxararıq və onların bizdən vaxtı ilə işğal etdikləri ərəb torpaqlarını ərəblərə qaytararıq.

***Basqınların mahiyyəti***. Mənbələr *(əsasən Təbəri)* müharibənin qaçılmaz olmasının əsas səbəblərindən biri kimi İran tərəfinin islamı qəbul etməkdən imtina etməsini göstərirlər. Lakin mənbələrin bir qismi isə verilmiş məlumatlardan da ərəblərin əsl məramının işğalçılıq və soyğunçuluq olduğu açıq-aşkar görünür. Belə ki İran şairi Firdovsi özünün "Şahnamə" əsərinin sonunda sasanilərin sonuncu hökmdarlarına,əsasən də III Yüzdəgerdə həsr etdiyi bölmədə bu məsələni açıq-aşkar göstərir və bu daha realdır. Çünki burada İran tərəfinin müharibədən qaçmaq üçün 3 ay ərzində dəfələrlə danışığa girməsi onların əsla müharibə tərəfdarı olmadıqlarını göstərməkdədir. Bu sənədlər içərisində ən əsas sübut İran ordu komandanı Rüstəm Fərruxzadın öz qardaşına yazdığı məktubdur və məktubda deyilir:

- "Ərəblər Kadisiyadan Fərata qədər olan əraziləri şahənşahla bölməyə hazırdırlar və şahdan onlar üçün Mesopatomiyanın münbit torpaqlarının birindən o birinə getmək və azad ticarət etmək üçün dəhliz tələb edirlər. Sonra isə şahənşah onlara xərac verdiyi müddətcə onlar İrana hücum

etməyəcək və Sasani taxtına iddia irəli sürməyəcəklər. Bütün bunlar o deməkdir ki,onlar yaxşı bilirlər ki,şahənşah bu tələblərin heç birini qəbul etməyəcəkdir. Ərəblərin əsl məramı müharibədir və onlar sülhün yox, soyğunun, qarətin və qətliamın tərəfdarlarıdır(89). Elə vəziyyət ərəblərin istədiyi kimi də oldu və şahənşah III Yezdəgerd ərəblərin irəli sürdükləri tələblərin heç birini qəbul etməyib müharibəni seçdi.Bu hadisədən sonra vəhşi və mədəniyyət görməmiş bədəvi-ərəb ordusu mədəniyyətlə zəngin olan İran torpaqlarına soxuldular. Onlar Babilin münbit tirpaqlarını soyub talamağa başladılar və kənd təsərrüfatına böyük ziyan vurdular.Hirənin mərzbanının çox da böyük olmayan dəstələri ərəblərlə olan sərhəd məntəqələrini qorumaqla məşğul idi. Bu səbəbdən də onlar şahənşaha təcili qərar qəbul etməyi və ərəblərə həlledici zərbə endirməyi xahiş etdilər.

İran ordusuna sərkərdə Rüstəm Fərruxzad başçılıq edirdi və onun sərkərdəsi Calinus Hirə tərəfə hərəkət edərək Nəcəf yaxınlığında düşərgə saldı

Digər hərbi birləşmələr isə - mərkəz,sağ və sol qanada ayrıldı, Rüstəm isə avanqardın arxasında idi.

İran ordusunun sayı haqda mənbələrdə müxtəlif məlumatlar var. Belə ki Kufinin verdiyi məlumata görə İran ordusunun sayı və Həmədan, İsfahan və Reydən şahənşah III Yezdəgerdin əmri ilə paytaxta axışıb gələn və oradan da Kadusiyaya hərəkət edən digər ordu birləşmələrinin ümumi sayı 100 min nəfər idi.

Təbəri məlumat verir ki, Kadisiyaya gələn İran ordusunun ümumi sayı 120 min nəfərə çatırdı, lakin Ayişənin verdiyi məlumatlara görə isə İran ordusunun sayı 60 000 nəfər idi. İbn İshaqın verdiyi məlumata görə isə Kadisiyaya hərəkət edən

89. Bax: Firdovsi.Şahnamə.T.9,s.315,bb.48-51)153.

İran ordu birləşmələrinin ümumi sayı əsasən 60 000 nəfərdən ibarət idi və onların tərkibi "Divanə ordu" və qullardan ibarət idi(90). Yürüşə başlamazdan əvvəl Rüstəm bütün tanınmış İran əsilzadələrinə və mərzbanlarına müraciət etdi. O bu müraciətlərin birində qardaşı Bavəndi Fərruxzada tapşırırdı ki,arxa cəbhədə və digər şəhərlərə nəzarət etsinlər və silahlandırıb vəhşi bədəvilərə qarşı qaldırsın(91). Beləliklə, Rüstəmin komandanlığı altında başlıca İran ordusu Kus, Burs, Dayr əl-Avar məntəqələri ilə hərəkət edərək Fəratın sol sahili ilə Havarnaka gəlib çatdı(92). Sonra isə Rüstəm avanqardla Nəcəflə Səylahan arası ilə hərəkət edərək Nəcəfə gəldi(93). Rüstəmin Mədaindən çıxıb Kadisiyəyə gəlməsi üç ay çəkdi(94). Rüstəmin marşurutu bizə məlumdur; O,cənuba hərəkət edərək iki çay arasına gəlib çatmışdı, şərqdən – Fəratın axını,qərbdən və cənubdan isə - Dəclə ilə Cauf çaylarını birləşdirən Atik kanalına gəlib çıxdı. Calinusun dəstələri Tayzanabada qədər hərəkət etmişdi, ordan isə Atik kanalına doğru yaxınlaşmağa başlamışd. Burada o, Zöhrə ibn əl-Həvəyin başçılığı ilə müsəlmanların ilk dəstələrinə yaxınlaşmışdı. İran avanqardının izi ilə digər iran ordu birləşmələri Kadisiyaya hərəkət edirdi(95). Rüstəm ordu sərkərdələri içərisində bir neçə yerdəyişmə etdi: Zul Həcib Kinarda yerləşən atlı rezerv dəstələrinin komandiri təyin edilid. Firuzan isə xüsusi kəşfiyyat dəstələrinə komandir təyin edildi,əvvəllər o, arerqard dəstələrinə başçılıq etmişdi. Sonra isə Rüstəm İran ordusuna hərbi baxış keçirdi

---

90.Bax: Kufi 1 (Heydərəbad nəşriyyatı), s.201; Təbəri I,s. 2250, stk.12-16;s. 2251,stk. 1-3;s .2351,stk.8-9 )155.
91.Yenə orda,s.2256,stk.17-19;s.2258,stk.2-3)158.
92.Bax: Bəluzari,mətn,s.269; ingil.tərcümə,t,1,s.427.
93.Bax: Təbəri I,s.2645,stk.13-15;Bəluzari mətn.
94.Yenə orda ,s.2256-2257.
95.Yenə orda,s.2264,stk.11-13;s.2265-2266.

və çayın o biri sahilindəki müsəlman birləşmələri ilə müqayisə edirdi. İran ordu birləşmələri biri-birindən bir mil aralıda yerləşirdi və Rüstəm hər vəchlə sülh axtarırdı və ərəblərlə müharibəni başlamadan qurtarmaq istəyirdi. Bu səbəbdən də Səəd bin Vəqqasla danışıqlara girdi. Danışıqların müddətini müəlliflər müxtəlif formada yazırlar və bu müddət üç gündən qırx günə qədər davam etmişdir. Bu mənasız danışıqlar zamanı Rüstəm Zöhrə ilə və Səədin daha altı elçisi ilə görüşdü. Bu elçilərdən üçü birinci dəfə gəldi, qalan üç nəfəri isə ayrı-ayrılıqda gəldilər. Görüşün belə baş verdi:



***Qəhrəman Rüstəm Fərruxzd***. Budur... İran ordu düşərgəsi, gecə vaxtı. Hər yerdə odlar qalanıb, əsgərlər yeyib-içib kef məclisi qurublar və ortada isə rəqqasələr rəqs edib onları əyləndirirlər. Orta hissədə isə Rüstəmin düşərgəsi yerləşir və xeymənin içində hamıdan fərqli olaraq Rüstəm şərab içmir və əylənmirdi. O, dərin fikrə dalmışdı sonra isə birdən ayıldı və üzünü mühafizəçiyə tutub dedi:

- Şəhriyar!

-Eşidirəm, əlahəzrət! – deyə Şəhriyar cavab verdi.

- De görüm biz ulduzlarla doğru fal açırıq, yoxsa onlardan özümüzə xeyirli mənalar yozuruq! – deyə Rüstəm Fərruxzad soruşdu.

- Bilmirəm əlahəzrət! Siz ki, bütün fars imperiyasında ən yaxşı və güclü ulduz falçısısınız! - deyə Şəhriyar cavb verdi.

- Doğrusunu desəm, mən özüm də nə baş verdiyini anlaya bilmirəm. Biz güclüyük, bizim ordularımız onlarınkından çoxdur, buna baxmayaraq mənim şübhələrim var. Mən bilmək istəyirəm ki, bu bədəviləri nə belə güclü edib və deyirlər ki, bütün bunlar onların yeni dinləri ilə bağlıdır! – deyə Rüstəm Fərruxzad ayağa qaldı və çadırın qapısına gəlib uzaqdakı aya baxaraq dedi:

- Bunu öyrənmək üçün mən onlardan biri ilə mütləq görüşməliyəm. Sonra isə o, atına minib müsəlmanların yanına getdi və ay işığında çöldə onunla söhbət etməyə başladı və dedi:

- De görüm sizin din nə dindir belə?

- Bu, islam dinidir! Biz bütlərə və oda inanmırıq və inandığımız tək şey bütün kainatı, yeri və göyü yaradan tək Allahdır. Bizim din insanları bütlərə deyil, tək olan Allaha ibadət etməyə çağırır! – deyə ərəb cavab verdi.

- Uzun zaman öncə də sizin peyğəmbərinizin elçisi bizim hökmdarımızn yanına gəlmiş və ona peyğəmbərin(s) naməsini gətirmişdi, lakin şahımız o məktubu qəzəblə cırıb o elçinin üzünə çırpmışdı? – deyə Rüstəm Fərruxzad soruşdu.

- Bəli! Bu, doğrudur! – deyə ərəb cavab verdi.

- Deyilənlərə görə, sizin elçi o zaman da hökmdarımızı İslama dəvət edibmiş? – deyə Rüstəm Fərruxzad soruşdu.

- Bəli! Bu da tamamilə doğrudur! – deyə ərəbg cavab verdi.

- Əgər onda bizim şahənşah sizin peyğəmbərin(s) təklifini qəbul etsə idi, onda nə baş verəcəkdi? – deyə Rüstəm Fərruxzad soruşdu.

- Əgər onda sizin şahənşah bizim peyğəmbərin(s) təklifini qəbul etsə idi,biz müsəlmanlar çəkilib gedərdik və siz özününz

bizi köməyə çağırana qədər gəlməzdik! – deyə ərəb cavab verdi.

- Elə məni də düşündürən budur və mən çox zaman müharibələrdən qaçıram və imkan olanda düşmən kim olursa olsun, onunla sazişə girməyə çalışıram! – deyə rüstəm Fərruxzad sözünə davam etdi.

- Elə bizim də məqsədimiz müharibə yox, tək olan Allahın etiqadını yaymaqdır və dinimizə görə yer üzündə bütün insanlar qardaşdırlar! – deyə ərəb cavab verdi.

- Çox təəssüf ki, bu cür gözəl sözləri mən boyunardı edə bilmirəm və niyə də biz səninlə bu haqda daha sakit bir yerdə görüşüb ətraflı söhbət etməyək? – deyə Rüstəm Fərruxzad soruşdu.

- Mən öz komandanımdan rica edərəm,əgər o razılaşsa, onda heç bir maneə yoxdur, sonra isə Rüstəm düşərgəsinə qayıtdı! – deyə ərəb cavab verdi.

Beləliklə, səhər oldu, Rüstəm öz adamlarından birini ərəblərə göndərdi və onlardan yeni bir heyət istədi və ərəblər də razılaşdılar, sonra üzünü sərkərdələrinə tutub dedi:

- Bu gün bizim ərəblərdən tələb etdiyimiz heyət gələcək və biz onları öz üstünlüyümüzlə heyran etməliyik. Rüstəmin xeyməsindən 20 metr uzunluqda yerə sasanilərin ən gözəl və bahalı xalçalarından döşədilər və xalçanın ətrafında keşikçilər durmuşdu. Bu vaxt çağırılan ərəb elçisi öz atı ilə bu xalçanın üstü ilə irəliləyib Rüstəmin çadırına yaxınlaşdı və bu hörmətsizliyi görən mühafizəçi üzunü o müsəlman elçiyə tutub dedi:

- Bu nə hörmətsizlikdir! Düş atdan görüm! Lakin o müsəlman elçi heç nə olmamış kimi atdan düşmədi və düz çadırın ağzına gəlib çatdı. Elçi bir az da irəli gedərək atı ilə bərabər Rüstəmin çadırına girdi, əlindəki nizəni bir yerə sancdı və atdan düşərək atını həmən nizəyə bağladı. Atından düşən

müsəlman elçi azca Rüstəmin çadırını öz gözü ilə süzməyə başladı və bu zaman Rüstəmin mühafizəçisi ona dedi:

- Qılıncınızı zəhmət olmasa?

- Mən buraya öz istəyimlə gəlməmişəm ki,öz silahımı sizə təhvil verim.Əksinə,siz məni buraya dəvət etmisiniz və əgər mənim özümü belə aparmağım sizin xoşunuza gəlmirsə, onda mən geri dönə bilərəm1 – deyə ərəb elçi cavab verdi.

Bunu görən Rüstəm əli ilə işarə edərək dedi:

- Onu rahat buraxın! Qoy nə istəyirsə etsin və o təkdir,sonra isə o bərgahını göstərib dedi:

- Buyur əyləş! Lakin müsəlman elçi cavabında dedi:

- Biz sizin bəzəklər üstündə əyləşməyi arzu etmirik! - deyə yerdə bardaş qurub əyləşdi və bunu görən Sasani əsgərləri biri-birinə baxıb qəh-qəhə ilə gülməyə başladılar. Sonra isə Rüstəm üzünü o müsəlman elçiyə tutub soruşdu:

- De görüm kimsən? Sizi bizim ərazimizə gətirən nədir?

-Adım Zöhrə bin Əşasdır və bu sizin ərazi deyil! – deyə ərəb elçisi cavab verdi.

- O hələ ki, bizim nəzarətimizdədir! – deyə Rüstəm Fərruxzad söhbətə müdaxilə etdi.

- Sizə xatırlatmaq istəyirəm ki,üstündə oturduğunuz bu torpaq bizim doğma ərəb torpağıdır. Bizim din bizim olan torpaqları işğalçılardan azad etməyi buyurur! – deyə Zöhrə bin Əşas cavab verdi.

Bu vaxt kənarda duran Hörmüzan söhbətə müdaxilə edərək dedi:

- O nə dindir belə?

-: Bizim din tək olan Allaha ibadət etməyə çağırır və onun heç bir şəriki yoxdur! – deyə Zöhrə bin Əşas cavab verdi.

- Əgər etiraz etmirsinizsə, biz də bu haqda öz fikrimizi söyləmək istəyirik və bu da uzun zaman alacaq! – deyə Rüstəm Fərruxzad əlavə etdi.

- Sizə nə qədər vaxt lazımdır? bir gün bəs edərmi? – deyə Zöhrə bin Əşas soruşdu.

Bunu eşidən Rüstəm qəh-qəhə ilə gülüb dedi:

- Üç minillik tarixi olan bir imperiyaya sadəcə bir gün verirsiniz,bu ədalətsizcəsinə deyilmi?

- Bəlkə iki, ya da üç gün,daha artıq gün verməyə ixtyarım yoxdur! – deyə Zöhrə bin Əşas cavab verdi.

- Sən bu müharibəni üç günlüyə saxlaya bilərsənmi? – deyə Rüstəm Fərruxzad soruşdu.

- Bəli! Saxlaya bilərəm və bu müddət başa çatandan sonra biz qərar qəbul edəciyik! – deyə Zöhrə bin Əşas cavab verdi.

-: Məgər sən onların seyyidisən? – deyə Rüstəm Fərruxzad soruşdu.

- Yox! Sadəcə müsəlmanların hamısı bərabərdirlər və bu da o deməkdir ki, əgər bir müsəlman söz verirsə,onda hamı bir nəfər kimi buna hörmətlə yanaşır. Bu səbəbdən də mən müsəlman ordusunu yalnız və yalnız üç gün durdura bilərəm! – deyə Zöhrə bin Əşas cavab verdi. Sonra isə o, çadırdan çıxıb gedəndə keşikçilərədn biri gizlicə o elçinin qarşısına çıxıb dedi:

- De görüm, mən necə müsəlman ola bilərəm?

- Sadəcə bu sözləri mənimlə təkrar et! – deyə ərəb elçisi cavab verdi.

- Hansı sözlər? – deyə keşkçi soruşdu.

- “La ilahə illəllah, Muhəmmədən rəsulullah “ ! - deyə ərəb elçisi cavab verdi və keşikçi də ərəbin ardınca bu sözləri təkrar etdi və soruşdu:

- Bu sözlərin tərcüməsi nədir qardaş?

- Yəni “Allah birdir və Məhəmməd onun rəsuludur”! – deyə ərəb elçisi cavab verdi və sonra onlar qucaqlaşdılar və ərəb elçi öz düşərgəsinə tərəf getdi.

Sonrası gün Rüstəm günorta vaxtı müsəlmanların düşərgəsnə tərəf getdi və o ərəb düşərgəsinə yaxınlaşanda qəribə bir mənzərə ilə qarşılaşdı. Belə ki müsəlmanlar hamılıqla silahlarını və atlarını bir kənara qoyub əyilib dururdular və bu bu zaman Rüstəm yaxınlığındakı ərəb keşikçisindən soruşdu:

- Bu müsəlmanlar nə edirlər belə?
- Namaz qılırlar! – deyə əsgər cavab verdi.
- Namaz qılırlar? O namaz nə olan şeydir belə? – deyə Rüstəm Fərruxzad təəccüblə soruşdu.
- İslamda vacib olan əsas şərtlərdən biridir! – deyə keşikçi cavab verdi.

-: Bəs o öndə duran kimdir? – deyə Rüstəm Fərruxzad soruşdu.

- Bizim komandanımız Səəd bin Vəqqas! – deyə əsgər cavab verdi. .
- Maraqlıdır! O sizinlə eyni səfdəmi durur? – deyə Rüstəm Fərruxzad soruşdu.
- Bəli! Bizdə kimsə kimsədən üstün deyildir və hamı bərabər və qardaşdır! – deyə əsgər cavab verdi. Sonra isə Rüstəmin diqqətini qıraqda durub namaz qılmayan digər bir qrup ərəb cəlb etdi ki, onlar namaz qılmırdılar.
- Bəs o qıraqda namaz qılmayıb kənarda duranlar kimdirlər? – deyə Rüstəm Fərruxzad soruşdu.
- Onlar xristian ərəblərdir! - deyə əsgər cavb verdi.
- Xristianlar da müsəlmanlarla eyni sırada vuruşurlar? Axı bu necə mümkün ola bilər? – deyə Rüstəm Fərruxzad soruşdu.

Sonra əlini alnına qoyub dedi:

- Bu ərəbləri anlaya bilmirəm,odur ki,yenə də onlardan kiminləsə görüşmək istəyirəm! - deyib düşərgəsinə qayıtdı. Buna görə yeni bir müsəlman elçisi Rüstəmin düşərgəsinə çağırıldı və elçi də Rüstəmin düşərgəsinə gəldi və içəri

girdi.Bu zaman Rüstəm, Hörmüzan, Cavanşir, Şəhriyar və İsfəndiyar çadırda idilər. Bu vaxt Hörmüzana tərəf azca gəldi,sonra da dayanıb barmağını ona tuşlayıb dedi:

- Rüstəm sənmisən?

Hörmüzan başı ilə yox cavabını verib əli ilə Rüstəmi işarə edib göstərdi, onda o şəxs də Rüstəmə tərəf gəldi və sonra isə onun yanında əyləşib dedi:

- Məni niyə çağırmısan? Nə istəyirsən?
- De görüm kimsən? – deyə Rüstəm Fərruxzad soruşdu.
- Adım Ribbi bin Karimdir! – deyə ərəb elçisi cavab verdi.
- Mesopotomiyanı aramızda bölüşdürməyi təklif edirəm və aramızda dəqiq sərhədd xəttini təyin edək.,Mən bir də ki,düşünməyin ki,bu təklifi zəiflikdən irəli sürürük,çünki biz sizdən qat-qat güclüyük və həm sayca, həm də hərbi hazırıq cəhətcə! – deyə rüstəm sözünə əlavə etdi.
- Allah bizə Məhəmməd adlı peyğəmbəri(s) ona görə göndərməyib ki,ona yalnız biz inanıb islamı qəbul edək və qalanları atəşpərəstliyə sitayiş etsin! – deyə Ribbi bin Kərim cavab verdi.
- Sən mənim bu təklifimi öz əmirinə aparıb çatdırmayacaqsanmı? – deyə rüstəm Fərruxzad soruşdu.
- Mən elə öz əmirimin adından buraya sizinlə danışıq aparmağa gəlmişəm. Mən onun demək istədiklərini sizə çatdırıram və sizə vəd etdiyimiz üç günlük möhlət öz qüvvəsində qalmaqdadır! – deyə Ribbi bin Kərim cavab verdi.
- Əgər şərtinizi qəbul etməsək, əks halda nə baş verər? – deyə Rüstəm Fərruxzad soruşdu.
- Əks halda siz sizə qarşı irəli sürdüyümüz üç şərtdən birini qəbul etməli olacaqsınız.Yəni ya islamı qəbul edəcəksiniz,ya vergi verəcəksiniz, ya da müharibə! – deyə Ribbi bin Kərim cavab verdi.

Müsəlmanların elçisinin bu sözlərindən qəzəblənən Rüstəm yerindən qalxıb dedi:

- Siz müharibə istəyirsiniz? Buyurun? Çayı bizim tərəf keçə bilərsiniz.

- Yox! Siz bizim tərəfə keçin! – deyə Ribbi bin Kərim cavab verdi.

- Yox! Biz elə öz tərəfimizdə,öz mövqelərimizdə duracağıq və siz bizim tərəfə üzüb keçənə qədər eyni yerdə durub gözləyəcəyik1 – deyə Rüstəm Fərruxzad söhbətinə əlavə etdi.

-: Yox! Siz bizim sahilə üzüb keçəcəksiniz və buna məcbursunuz, çünki sizin şah müharibə etmək istəyir. Amma gördüyüm kimi sən müharibə tərəfdarı deyilsən,çünki onun sizin əleyhinizə olacağını bilirsən. Lakin sən yenə də çayı keçməyə məcbur olacaqsan və öz hökmdarından dəhşətli dərəcədə qorxursan! – deyə Ribbi bin Kərim cavab verdi.

Elçinin bu sözlərindən qəzəblənən Rüstəm ona acıqla bağırdı:

- Sən öz həddini aşırsan.! Qıraqdan bu mənzərəni izləyən Girdiman sərkərdəsi Cavanşir sağ əli ilə müsəlman elçinin yaxasını tutub özünə tərəf dartdı və qılıncını çəkib onun başını üzmək istəyəndə İsfəndiyar tez onun biləyini tutub dedi:

- Dayan! Əl saxla əmioğlu! O, elçidir və buna dəyməz! İsfəndiyarın sözünə Bəhram da dəstək verib dedi:

- Hə! Qardaşım doğru deyir! onsuz da biz hər bir halda onların başını əzməyə qadirik və bu səbəbdən də bu alçaq ərəblərin qarşısında əsəbləşməyə dəyməz.

Bu vaxt Şirvan hakimi Şəhriyar da yerindən qalxıb sakitcə o müsəlman elçiyə tərəf gəldi və onu başdan ayağa süzüb dedi:

- Ey tazi! Üst-başına baxıram mənim qolumdakı bilərziyin qiyməti sənin şəxsiyyətinin qiymətindən qat-qat dəyərlidir. Bir də ki, bu qarşında gördüyün altı sərkərdə Bizans kimi bir imperiyanı dəfələrlə məğlubiyyətə uğradıb. Sizə qarşı qoşun

çıxarmaq gülüncdür, çünki biz elə altı sərkərdə sizin o çulsuz əsgərlərinizin öhdəsindən gəlməyə qadirik. Sən öz həddini aşma.Sonra isə Rüstəm əli ilə işarə edib dedi:

- Buraxın getsin! Bunu görən müsəlman elçi bu altı sərkərdəni süzüb dedi:

- Tarix boyu məğlub və aciz tərəf təhqirə keçmişdir və sizin bu hərəkətləriniz bizi sevindirir.

- Sabah biz ulduzların bizə söylədikləri kimi hərəkət edərik1 – deyə Rüstəm Fərruxzad əlavə təlimat verdi.

- Bununla sən bizi gözəl xəbərlərlə sevindirəcəksən! – deyə ərəb elçisi çıxıb getdi. Elçinin bu sözlərindən daha da qəzəblənən Rüstəm üzünü çadırındakı sərkərdələrinə tutub dedi:

- Sabah biz çayı üzüb onların sahilinə keçəcəyik! - deyib yerində əyləşdi. Çıxarkən Ribbi bin Kərim Rüstəmi və digər iranlıları islama dəvət etdi.

Ertəsi gün Hüzeyfə bin Miksan,sonrakı gün isə Müğirə bin Şübə elçi kimi Rüstəmin yanına gəldilər və onu İslama dəvət etdilər.Lakin Rüstəm əvvəlki kimi öz sözlərində dirənirdi və beləcə müharibə qaçılmaz oldu.

Bütün bu danışıqlardan sonra tərəflər heç bir sülhə gələ bilmədilər və İranın əsilzadə təbəqəsi islamı qəbul etməkdən imtina etdi. Öz növbəsində də bu günə qədər sasanilər üzərində ancaq saysız qələbələr qazanan bədəvilər də Sasani monarxiyasına güzəştə getmək istəmirdi. Lakin əsas məsələ o idi ki, kim Atik kanalını keçəcək.

Nəhayət ki, ərəblərin təkidi ilə Rüstəm Səədin xahişini qəbul edib Atik kanalını keçdi. O, müsəlmanların nəzarətində olan və ona keçmək üçün müsəlmanların icazə verdiyi körpüdən o taya keçmədi və ayrı yerdə tikilən körpü vasitəsi ilə o taya keçməyi seçdi.

Kudəyslə üz-üzə, müsəlman ordusunuin mərkəzi ilə üzbəüz farslar gecə ilə Atik üzərindən yeni körpü tikdilər və ordunu o tərəfə keçirdilər(96)

Rüstəmin hərbi düzülüş vəziyyəti Atik kanalının içinə tərəf idi və mərkəzdə isə Rüstəm özü dayanmışdı. Mərkəzlə sağ flanq arasında Hörmüzanın komandanlığı altında olan hərbi birləşmələrin tərkibində Calinusun rəhbərlilik etdiyi xüsusi avanqard da yer almışdı. Sol flanq isə mərkəzlə Perozanın başçılığı altında olan hərbi hssə ilə ayrılırdı. Farsların ordusu fillərlə təmin edilmişdi: Mərkəzdə 18 fil var idi,qalan on beş(8-7) fil isə hər iki flanqı qoruyurdu(97).

Atlı süvarilərdən və piyadalardan ibarət İran ordusunun sayı 60 000 nəfərlik muzdludan ibarət idi. Onlardan çoxu biri-birinə zəncirlə bağlanmışdı, lakin İran ordusunun sayı haqda Təbəridə rast gəlirik və o İran ordusunun sayını 30 000 nəfər göstərir(98). Bundan əlavə Rüstəm Kadusiyadan paytaxt Mədainə, şahənşaha xəbərləri çatdırmaq üçün eyni məsafədə əsgər düzmüşdü(99). Müsəlman ordusu ərəbləri səhradan ayıran qədim Kudays qalası yanında yerləşmişdi və Kudays ilə Atik arasında 1,5 km məsafə var idi(100). Ərəb ordusunun hərbi düzülüşü İran ordusunun hərbi düzülüşünə bənzəyirdi. Səəd Ərəb ordusunun hərbi komandanı idi və ayağındakı olan ağrıdan rəhbərliyi öz canişini olan Xalid ibn Urfutəyə vermişdi. Səədin bu hərəkəti onun sərkərdələrini hiddətləndirmişdi və Səəd bin Əbu Vəqqas onları güclə sakitləşdirdi.

---

96. Bax:Təbəri I,s.2285-2286.

97.Yenə orda,s.2287,stk.1-5;ort.s.2266,stk.18-19;s.2267,stk.2-3.Burada 30 filin olduğu qeyd edilir.

98. Bax:Təbəri I,s.2258,stk.6-8;s.2294,stk.13.

99.Yenə orda,c.2287,stk.6-13;ort.İbn əl-Əsir 2,s.363.

100.Bax: S.M.Yusif.The Battle of al-Qadisiyya,s.28.

# III BÖLMƏ. İŞĞAL

## *1.KADUSİYA FACİƏSİ*





*Şəkil. Kadusiya qətliamı. 636-cı il,2 dekabr.*

***Kadusiya faciəsi (636.2 dekabr).*** 636-cı il- 2 dekabr,müsəlman tarixi ilə 15-ci il-27 Şəvval,İran imperiyası ilə ərəb xilafəti arasındakı həlledici döyüş baş verdi.

Budur, səhər saatlarıdır,amma hava yenə də çox istidir və bu istiyə baxmayaraq ərəb ordusu öz quruluşunda düzülüb. Əsgərlərin arasında xüsusi atlı müsəlmanlar əllərində qılınc onların döyüş əhval-ruhiyyəsini qaldırmaq üçün təbliğat aparırlar və onlardan biri uca səslə deyirdi:

-Ey müsəlmanlar! Ey Allahın sevdiyi bəndələr! Bir azdan kafirlərlə döyüşə girəciyik və ola bilsin ki, sizlərdən çoxları bu müqəddəs döyüşdə həlak olsun.Amma buna görə heç də narahat olmaq və ya qorxmaq lazım deyil, çünki bu günki döyüş müsəlmanlar üçün müqəddəs sayılan kafirlərə qarşı cihad savaşıdır. Bu döyüşdə şəhid olanlar Allah yolunda, islam uğrunda şəhid olacaqlar. Bu döyüşdə şəhid olanlar cənnətə gedəcəklər və buna görə də onların günahları bağışlanacaqdır. Biz şübhəsiz ki, qalib gələcəyik, çünki, Allah bizimlədir, çünki savaşımız haqq savaşıdır və Allah istəyir ki, biz qalib gələk.

Qalib gələcəyimiz təqdirdə kafirlərin malı və qanı da sizlərə halaldır. Allahu əkbər-Allahu əkbər-Allahu əkbər! - deyə üç dəfə uca səslə qışqırdı və onun ardınca əsgərlər də qılınclarını çıxarıb onun sözünü təkrar etdilər(101).

Bu vaxt ərəb ordu komandanı Səəd bin Vəqqas üç namə yazıb qasidlərə verib dedi:

- Bu namələrdən birini tez gedib Mədinədə əmirəlmöminin Ömər bin Xəttaba çadırın,o birini Əsr bin Əmrə çatdırın və sonuncusunu isə Xalid bin Ərəfə çatdırın. Elçilər məktubları alan kimi tez yola düşdülər.

III Yəzdigerd ərəblərə qarşı Calinusun komandanlığı ilə 40 000 nəfərlik ön qüvvədə, Rüstəmin komandanlığı ilə isə 60 000 nəfərlik bir ordu göndərdi. Ayrıca 20 000 əlavə qüvvəni də də hazırlayıb arxa cəbhədə qoymuşdu və beləliklə, 100 000-lik İran ordusu Kadusiya çölünə gəldi. İran ordusunun ali baş komandanı Rüstəm idi və o öz ordusunun sağ qanadına sərkərdə Hörmüzanı,sol qanadına isə sərkərdə Mehranı təyin etdi. Bundan əlavə ordu qaçmasın deyə Rüstəm 30 000 nəfərdən ibarət əsgəri biri-birinə zəncirlə bağladı. İran tərəfdən ən tanınmış sərkərdələr olan Rüstəm Fərruxzad, onun qardaşı - Atropatena və sonradan Xorasan sipahbədi olan Bavəndi Fərruxzad və oğlanları olan Şahrəm Fərruxzad, Təbəristan hakimi Söhrab Fərruxzad, Adərpayeqan mərzbanı İsfəndiyar Fərruxzad, Taleşan və Mukan hakimi Bəhram Fərruxzad, Cilan və Deyləm hakimi Fərruxan Fərruxzad, digər sərkərdələrdən Hürzad Fərruxzad, Hörmüzan, Firuzan, Calinus, Bəhmən Caduyə, Berezan, Mehran, Girdiman sərkədəsi Cavanşir Mehran,Şirvan hakimi Şəhriyar Behzad, Arminiya sərkərdəsi Muşeq Mamikonyan Sünik knyazı, Qriqori, İberiya sərkədəsi Sebos və Bənduvan Sirud iştirak

101.Bax: Təbəri I,s.2291-2294;İbn əl-Əsir 2,s.364.S.M.Yusif.The Battle of al-Qadisiyya,s.18.

edirdilər. Rüstəm döyüş meydanından Mədain şəhərinə qədər xüsusi əsgərlər qoydu ki, onlar döyüş meydanında baş verən hadisələri birbaşa saraya çatdırsınlar.

Orduda bundan əlavə 33 döyüş fili var idi və belə ki,sasanilərlə ərəblər arasında bu, sayca ikinci döyüş idi və birinci döyüş 634-cü ildə baş vermişdi. Tarixdə "körpü savaşı" kimi adlanan bu döyüşdə İran ordusu qalib gəlmişdi, lakin bu dəfəki döyüşün baş verməsi nə az,nə də çox,düz üç ay çəkdi. Beləcə həm İran ordusu,həm də müsəlman ordusu üç ay Kadusiyyə düzündə döyüşü başlamadılar. Daha doğrusu, onlardan heç biri döyüşü birinci başlamaq istəmirdi, çünki Rüstəm ərəbləri satın almaq və ya casuslar vasitəsi ilə bəzi ərəb qəbilələrini öz tərəfinə çəkmək istəyirdi. Lakin buna nail olmayandan sonra müharibə qaçılmaz oldu və döyüş Kadusiya adlanan çöldə baş verdi və dörd gün çəkdi.

***Birinci gün***-*"Youm Armas*" Döyüşün birinci günü İran ordusu Atik kanalını keçib onun qərb sahilində hərbi nizamla düzüldülər. Mərkəzdə isə Rüstəm onun üçün qurulmuş dəbdəbəli çadırda olan taxt üstündə əyləşib döyüşü izləyirdi. Birinci flanqa möhtəşəm Hörmüzan komandanlıq edirdi və onların arasında, mərkəzdə Calinosun komandanlığı altında xüsusi təlim keçmiş birliklər dururdu. Sol flanq arasında Bəhmənin Cəduyənin komandanlığı ilə olan birliklər,sol flanqla mərkəz arasında isə Firuzanın komandanlığı ilə ordu birlikləri durudu. Bundan əlavə iranlıların muzdlu qoşunları da var idi və onların sayı 30 000 nəfərə çatırdı. Onların arxası zəncirlənmişdi ki,geri çəkilməsinlər və fillərin yarısı bir flanqda, qalanları isə ayrı flanqda idi. Sonra sağ flanqın arxasında Rüstəm Fərruxzadın qardaşı olan Xorasan sipəhbudu Bavəndi Fərruxzad və oğlanları Şahrəm Fərruxzad, Söhrab Fərruxzad, Adərpayeqan mərzbanı İsfəndiyar

Fərruxzad, Taleşan və Mukan hakimi Bəhram Fərruxzad, Cilan və Deyləm hakimi Fərruxan Fərruxzadın Xorasan, Adərbayqan, Cilan, Taleşan və Mukan hərbi dəstələri dayanmışdı. Onların hamısı Bavəndi Fərruxzadın komandanlığı altında idilər. Mərkəzdə duran Rüsəmin arxasında Cavanşirin komandanlığı altındakı 3 minlik Girdimandan olan ordu birlikləri və onun arxasında isə Şəhriyarın komandanlığı altındakı Şirvan ordu birlikləri düzülmüşdü.Bəhmənin arxasında Muşeq Mamikonyanın komandanlığı altında Arminiya ordu birlikləri, onun yanında Qriqorinin komandanlığı altında Sünik ordu birləşmələri və digər tərəfdə isə Cəduyənin yanında Sebosun komandanlığı altında İberiya ordu birlikləri düzülmüşdü.

Qarşı tərəfdəki müsəlman ordu birləşmələri də İran ordusunun quruluşuna bənzəyirdi. Müsəlmanlar tərəfdən baş komandan Səəd bin Vəqqas, Qaqa bin Əmr, Asim bin Əmr, Abdullah bin Əl-Multim, Şuruhabel ibn As, Zühra ibn Əl-Haşiyyə adlı sərkərdələr iştirak edirdilər. Belə ki müsəlman ordusu sol qanad, mərəkəz qanad və sağ qanada ayrılmışdı.

Müsəlman ordusunun ali baş komandanı Səəd bin Vəqqas idi və o, xəstəlik ucbatından bütün komandanlığı digər sərkərdələrinin narazılığına baxmayaraq, Xalid bin Urfutə tapşırmışdı. Amma şübhəsiz ki,ordunu yenə də Səəd özü adyütantlar vasitəsi ilə idarə edirdi. Səəd bin Əbu Vəqqasın ayağı revmatizm olduğundan güclü surətdə duzlaşma gedirdi və o, əsa ilə gəzirdi. Döyüş başlayan zaman isə o olub-bitənləri qaladan izləyirdi və Davudi səsli hafizlərə “Ənfal” surəsini oxumalarını əmr edirdi.

Beləliklə,”Sureyi-Şərifi” dinləyən ərəb əsgərləri farsların üzərinə atılmağa başlamışdılar. Müsəlman ordusunun sağ qanadındakı hərbi birliklərə Cərir ibn Abdullah Bəcəli başçılıq

edir, sol qanaddakı ordu birliklərinə isə Qeys ibn Məqşuq komandanlıq edirdi.

Rüstəm,yüksək bir yerə öz qərargahını qurdu və Səəd bin Vəqqasdan görüşmək üçün bir elçi istədi. Günortadan sonra müsəlmanlar üç dəfə təkfir(Allahu əkbər) gətirib irəli hərəkət etməyə başladılar və döyüş başladı. Döyüşün ilkin mərhələsi təkbətək döyüş xarakteri daşıdı.

Belə ki ərəblərdən Qalib bin Abdullah ilk olaraq meydana çıxdı və İran ordusundan özünə tay pəhlivan istədi. Bu zaman İran ordusundan başında tac olan dahi Hörmüzd çıxdı və elə ki ilk təkbətək döyüşə girən sasanilərin tanınmış nəslindən olan Hörmüzd məğlub oldu və əsir düşdü(102). Bu vaxt İran əsgərləri ərəblərin Bacilə qəbiləsi üzərinə üzərində oxçular olan hərbi filləri yeritdilər. Bacilə qəbiləsini bu vəziyyətdən Əsəd qəbiləsi qurtardı, lakin bu dəfə də fillər Əsəd qəbilsəinə hücum etdi və bu dəfə İran ordusuna Calinus və Zül Həcib başçılıq edirdi.Sonra döyüşə üzərində oxçu qülləsi olan döyüş fillərini saldılar və onların ardınca isə atlı suvarilər girdi. Döyüş fillərinin üzərində yerləşən oxçu qüllələrindən atılan oxlar o qədər dəqiq hədəfə dəyirdilər ki ,müsəlmanların Bəcəl tayfasından olan döyüşçülər məğlubiyyətə uğradılar. Lakin sonda ərəblərin Əsəd qəbiləsindən olan döyüşçülərin köməyə gəlməsi ilə vəziyyət ərəblərin xeyrinə dəyişdi.

Belə ki, Səəd ibn Əbu Vəqqas dördüncü təkbiri gətirdi ki,bu da döyüş meydanına yeni fazanın başlanmasına işarə idi(103). Fillərin ardınca İran suvariləri gedirdi və onlara Bəhmən Caduyyə və Calinus başçılıq edirdilər. Bu zaman köməyə gələn Əsəd tayfası da pis vəziyyətə düşdü və onların

102.Bax: Təbəri I,s.2296,stk.6-7.

103.Bax: Burada Təmim tayfasından başqa ayrı bir tayfanın adı çəkilmir.Çünki Səyf ibn Ömər mənşəcə Təmim tayfasından idi və indi növbə Təmim tayfasına gəlmişdi.

da kömyə ehtiyacı oldu. İran ordusunun döyüş fillərindən panikaya düşən ərəb süvariləri geri çəkilməyə başladılar və döyüş fillərinin üzərində olan oxçu qüllələrindən atılan oxlar onların məğlubiyyətini daha da sürətləndirdi(104). Lakin ərəb suvariləri hələ də dayanmaqda idilər və məhz onların çiynlərində məğlubiyyət qorxusu asılmışdı. Ərəb ordu komandanı Səəd bin Vəqqas döyüşə əlavə qüvvə yeritdi, o cümlədən Təmim tayfasından olan ordu birliyin(105) iranlıların döyüş filləri üzərinə yolladı. Onlar o qədər irəli getdilər ki,ərəb əsgərlərinin mühasirəsinə düşdülər.

Təmim ərəbləri qəhrəmanlıqla vuruşur və öz ox və nizələri ilə filləri gözlərindən vururdular.Bundan sonra ağrıdan nərildəyən döyüş filləri ağrıdan biri-birinə ilişib yıxılmağa başladılar. Bundan istifadə edən ərəblər bir-bir fillərin üzərində olan oxçu qüllələrini zərərsizləşdirdilər. Sonra isə döyüş ərəblərin xeyrinə dəyişməyə başladı və İran ordusunun əsas hissəsi geri çəkilməyə başladı. Lakin İran əsgərləri qəhramanlıqla vuruşurdular.

Bavəndi, Şahram, Söhrab, İsfəndiyar, Bəhram, Fərruxan, Cavanşir, Şəhriyar və digərləri öz birləşmələri ilə axşama qədər döyüşdülər və sonra isə hər iki tərəf öz mövqelərinə çəkildi. Beləliklə, hər iki ordu öz qalıqları ilə öz düşərgələrinə tərəf çəkildilər.

Səhərdən gedən döyüşü izləyən Rüstəm bərk qəzəblənmiş və öz çadırı önündə əllərini belinə qoyub o tərəf-bu tərəfə gedir və sərkərdələrin dönməsini gözləyirdi. Rüstəmin əsas diqqəti qardaşı Bavəndi Fərruxzadın və onun oğlanları İsfəndiyar, Bəhram, Şahram, Söhrab və Fərruxan üzərində idi,çünki Bavəndi Sasani sarayında xüsusi nüfuza malik olan

104.Bax: Mənbələr məlumat verir ki.hər filin üstündə 2-0-dən çox döyüşçü var idi.

105.Bax: Təbəri I,s.2304,stk.10-14;İbn əl-Əsir 2,s.367.

sərkərdələrdən idi və eyni zamanda da Xorasanın sebəhbudu idi. Budur, ilk öncə İsfəndiyar öz ordu birliklərinin qalıqları ilə döndü və atdan düşüb yüyəni çadırın yanındakı axura bağladı və Rüstəmin yanına gəlib təzim etdi.Rüstəm onu görən kimi tez soruşdu:

- İsfəndiyar! Tez ol məruzə et! Vəziyyət nə yerdədir?

İsfəndiyar özünün yorulmuş əsgərlərinə baxıb bir anlığa susdu və sonra üzünü Rüstəmə tutub dedi:

- Əlahəzrət! Döyüşün əvvəlində vəziyyət bizim xeyrimizə gedirdi, lakin fillərimizin müsəlmanlar tərəfindən yaralanıb hürkməsi ordu içərisində çaxnaşma saldı. Bu zaman kor fillər geri-geri qaçaraq əsgərlərimizi əzməyə başladı.

- Bəs əsgərlərin vəziyyəti nə yerdədir,itkimiz nə qədərdir? – deyə Rüstəm Fərruxzad soruşdu.

- Gördüyünüz kimi əmrimdə olan altı minlik ordudan 1200 nəfər itki vermişəm və qalanları da buradadırlar,amma inanın ki,çox mərdliklə vuruşurdular1 – deyə İsfəndiyar Fərruxzad cavab verdi.

Bu zaman Bəhram, Calinos, Cavanşir, Bəhmən, Qriqori, Sebos da özlərinin ordu birliklərinin qalıqları ilə gəlib çıxdılar. Onlar da Rüstəmin çadırına çatan kimi atlarından düşdülər və gəlib Rüstəmə təzim etdilər və Rüstəm onlara üzünü tutub soruşdu:

- İndi siz deyin görüm, sizdə vəziyyət necədi və nə qədər itkimiz var?

Bəhram ilk olaraq dillənib dedi:

- Əlahəzrət! Komandanlığım altında olan 2000 ordu birliyində itkim yalnızca iki yüz nəfərdir.Əsgərlərim çox rəşadətlə vuruşurdular və inanın ki,əlindən gələni edirlər.
Sonra Cavanşir də irəli çıxıb dedi:

- Əlahəzrət! Məlumunuz olsun ki,komandanlığım altında olan üç minlik əsgəri birlikdən 800 nəfər şəhid olmuşdur və

qalanları da çox igidliklə vuruşurlar. Ondan sonra Bəhmən, Calinos da məruzə edib vəziyyəti anlatdılar. Bu vaxt Rüstəm Muşeqi görməyib üzünü Sünik hakimi Qriqoriyə tutub soruşdu:

- Bəs sənin qonşun Muşeqə nə oldu və o niyə hələ də gəlib məruzə etməyib?

- Əlahəzrət! O elə ilk döyüşdə ərəblər tərəfindən öldürüldü1 – deyə Qriqori cavab verdi, sonra isə Şirvan hakimi Şəhriyar da irəli çıxıb və dedi:

- Əlahəzrət! Mənim də ixtiyarımda olan 3000 minlik əsgəri birlikdən 1200 nəfəri şəhid olmuşdur və fəxrlə deyə bilərəm ki, Şirvan bahadırları ölənə qədər vuruşur və İran dövlətinə öz sədaqətini bildirirlər.

- Hanı sənin xristian ərəblərin? axı söz vermişdin ki,onları mən yola gətirərəm, bəs nə oldu? bu gün onların hamısı bizə qarşı vuruşurdular.

- Elə mən də artıq belə düşünməyə başlamışam və indi isə gedin çadırlarınıza istirahət edin və sabah da ağır gün olacaq! – deyə Rüstəm Fərruxzad soruşdu.

Sonda isə daha bir dəstə gəldi və o, Rüstəmin qardaşı Bavəndi Fərruxzad idi və o öz oğlanları olan Şahram, Söhrab və Fərruxanla və bir neçə əsgərlə gəlirdi. Bavəndi yaxınlaşan kimi atdan düşüb Rüstəmin çadırına daxil oldu və təzim edib dedi:

- Əlahəzrət! Təəsüf edirəm! Əfv edi!

Rüstəm nə qədər qəzəbli olsa da, qardaşı ilə əsla acıqla danışmadı və ona əksinə təsəlli verib dedi:

- Bav! Qardaşım! Qalx ayağa! Sən ali Fərruxzad nəslindənsən və sənə diz çökmək yaraşmaz! Ayrıca Mənim sözlərim sənə və oğlanlarına aid deyil ,ona görə ki,sən və oğlanların öz əlinizdən gələnləri etmisiniz və buna görə sizə minnətdaram, lakin yenə də ehtiyatı əldən vermək lazım deyil.

- Əlahəzrət! Ulu Hörmüzdə and olsun ki, mən və oğlanlarım mərdliklə vuruşur və xüsusi qəhrəmanlıqlar göstəririk, lakin ordumuz onlarınkından çox olduğundan idarə etmək əsla mümkün deyil! – deyə Bavəndi Fərruxzad cavab verdi.

- Səbəb təkcə bu deyil! – Rüstəm Fərruxzad əlavə etdi.

- Doğru deyirsiniz əlahəzrət, səbəblər təkcə bunlar deyil və qeyd etməliyəm ki, mən oğlanlarımı əmrinizə əsasən xüsusi tapşırıqla yerləşdirmişəm və onlar öz əllərindən gələni edirlər. Qoy özləri bu haqda sizə məlumat versinlər! – deyə Bavəndi Fərruxzad təzim edib geri çəkildi və Bavəndinin oğlanları Şahram, Söhrab və Fərruxan irəli gəldilər.

İlk öncə Şahram təzim edib dedi:

- Əmican! Məlumunuz olsun ki, mən rəhbərim olduğum dəstə ilə düşmənə aman vermirik, lakin onlar da geri çəkilmirlər.

- Təklifin nədir? – deyə Rüstəm Fərruxzad soruşdu.

- Təklifim budur ki, onları münbit torpaqlara tərəf çəkək! - deyə Şahram Fərruxzad cavab verdi.

- Maraqlıdır! Qoy onda Söhrab da öz fikrini desin! – deyə Rüstəm Fərruxzad Söhraba işarə etdi.

Söhrab da irəli gəlib təzim etdi və dedi:

- Əmican! Şahram qardaşım düz deyir və onun sözlərində həqiqət var.

- Məsələn nə kimi həqiqətlər? – deyə Rüstəm Fərruxzad soruşdu.

- Məlumunuz olsun ki, bu bədəvilərin gücü qumlu səhrada və toz-dumandadır və onlar bu üzdən qumlu səhrada çox gözəl vuruşurlar. Əgər biz onları səhradan çıxara bilsək, onda qalib gələ bilərik! –deyə Şahram Fərruxzad cavab verdi.

Sonra isə Rüstəm üzünü Bavın kiçik oğlu Fərruxana tutub dedi:

- Ey Fərruxan! Ey atamın surəti! Yaxın gəl sən də öz fikrini de:

- Bunu eşitcək Fərruxan Fərruxzad irəli gəlib təzim edib dedi:

- Əlahəzrət! Məlumunuz olsun ki, biz arilər dağlarda və münbit torpaqlarda vuruşa bilirk, lakin bizim əksimizə isə bu tazilər səhrada güclüdürlər və elə bu səbəbdən də qaraşlarım haqlıdırlar. Son sözüm budur ki,bu döyüş yeri bizim üçün əlverişsizdir və qalib gəlməyimiz mümkün deyil...

- Yəni? – deyə Rüstəm Fərruxzad soruşdu.

- Yəni ki,məğlubiyyət qaçılmazdır! – deyə Fərruxan Fərrux cavab verdi və bunu eşidən kimi Rüstəmin gözləri yaşardı və dedi:

- Elə ilk öncədən də mən bunu şahənşaha söylədim, lakin məni dinləmədi, qoy nə olursa, olsun. Sonra əli ilə işarə edib dedi, gedin və sonrakı döyüşlərə hazırlaşın.

***İkinci gün "Yaum əl Aqvas"****(kömək günü).* Beləliklə, səhər açıldı və ikinci gün hər iki tərəf döyüş meydanından öz yaralılarını və ölülərini çıxarıb Üzəyblə Əyn əş-Şəms arasındakı Muşarrik adlı çöldə dəfn etdilər(106)

Ərəblər Kadisiyyəyə gəlməzdən əvvəl Suriya cəbhəsinə Bizansla döyüşə göndərdikləri altı min(bəzi mənbələrdə on min) nəfərlik ordu birliyi Bizans ordusunu məğlub etdi. Onlar Dəməşq şəhərini ələ keçirdikdən sonra Qadisiyyəyə tərəf hərəkət etməyə başlamışdı(107). Bu orduda Təmimi Gəgə bin Əmrin başçılıq etdiyi min nəfərlik atlı suvari və qalanları isə piyadalar idi. Ordunun komandanı təcrübəli sərkərdə Qaqa bin Əmr idi və o öz sərkərdəlik məharəti ilə ad qazanmışdı.

106. Bax:Təbəri I,s.2304,stk.10-14;İbn əl-Əsir 2,s.367.
107. Bax:Təbəri I,s.2305,stk.5-6;Yaqubi 2,s.164;S.M.Yusif.The Battle al-Qadisiyya,s.19-20.

Döyüş səhər saatlarında başladı və ilk öncə döyüşə İran tərəfdən xüsusi ordu birlikləri göndərildi və onlara Rüstəmin kiçik qardaşı Bavəndi və digər tanınmış sərkərdə Bəhmən Caduyə başçılıq edirdilər. İstər Bəhmən Cəduyə və istərsə də, Bavəndi çox məharətli döyüşçü və təcrübəli sərkədələr idilər. Belə ki,Hindistanın qərbinin işğal olunması məhz onların adı ilə bağlıdır.

Döyüşün əvvəlində Bavəndinin rəhbərlik etdikləri ordu birlikləri ərəblərə ağır zərbə vurdu. Sol tərəfdən isə Cəduyənin komandanlığı altındakı İran ordusu ərəbləri sıxışdırmağa başladı və bu gönortaya qədər davam etdi. Bavəndi və Bəhmən sağa-sola o qədər ərəb əsgəri qırmışdılar ki,artıq ərəblər qaçmaq üzrə idilər. Günortaya yaxın Suriyadan gəlmiş və Qaqa bin Əmrin komandanlığı altındakı min nəfərlik müsəlman ordusu döyüşə girdi və iranlıları sıxışdırmağa başladı. Bu zaman Rüstəmin əmri ilə iranlılara kömək gəldi və burada məqsəd ərəbləri geri püskürtməli və həm də Rüstəmin qardaşı Bavəndini (Bax-Bəhramın atası) mühasirədən çıxarmaq idi. Lakin Ərəblərin qüruru sayılan Qaqa bin Əmr onların hamısını mühasirəyə aldı və ağır döyüşdə sərkərdə Bəhmən Caduyə qəhrəmancasına həlak oldular. Bavəndi Fərruxzad və oğlanları mühasirədən çıxa bldilər.

Bugünkü döyüşdə fillər iştirak etmədiyindən iranlılar ərəb ordusuna ağır zərbə vura bilmədilər(109), çünki döyüş fillərinin çoxu dünənki döyüşdə artıq yararsız hala salınmışdı. Bundan istifadə edən Qaqa bin Əmr və qardaşı Asim bin Əmr və bir neçə ərəb əsgəri fillərin arxasından adlanaraq üzərindəki mahfilləri(oturma yerləri) filin gövdəsinə bağlayan ipləri kəsdilər və bunun nətyicəsində əsgərləri düşürüb öldürdülər. İran döyüş fillərinin üzərindən düşmüş və dağılmış bron dəmir

109.Bax: Təbəri I,s.2306,2309,2311.

metal parçalarını öz dəvələrinin üzərinə qoyub ox atma qülləsi düzəltdilər. Onlar indi İran ordusu əsgərlərinə sel kimi ox yağdırmağa başladılar. Bunu görən İran suvari birlikləri dəhşətə gəlməyə başladılar.

Belə ki,müsəlmanlar İran ordusunun mərkəz hissəsini çox dəqiqlikə atəşə tutmuşdular.Bütün bunlara baxmayaraq İran ordusunun nizami piyadaları ərəblərə qələbəni əldə etməyə imkan vermirdilər, lakin İran ordusu çox böyük itki verdi.

Günün sonunda hər iki tərəfin razılığı ilə döyüş müvəqqəti dayandırıldı və İran tarixçi Təbərinin məlumatına görə həmən gün İran ordusundan 10 000, müsəlmanlardan isə 2500 nəfər itki oldu. Tərəflər öz çadırlarına qayıtdılar. Sərkərdələr adəti üzrə bir-bir Rüstəmin çadırına yaxınlaşıb atdan düşür və Rüstəmin çadırına tərəf gəldilər və onları görən kimi Rüstəm tez ayağa qalxıb bağırdı:

- Axı niyə biz məğlub oluruq?

Sərkərdələrin susması Rüstəmi özündən çıxardı və daha uca səslə bağırdı:

- Eşitmirsiniz məni! Deyirəm ki,niyə siz yenə də məğlub oldunuz?

Onların cavab vermədiyini görən Rüstəm keşikçini çağırıb dedi:

- Get Bəhməni çağır yanıma! Bu zaman üst-başı qan içində olan Bəhram irəli çıxıb dedi:

- Əlahəzrət! Sizə bu xəbəri vermək istəməzdim, sərkərdə Bəhmən gözlərimizin önündə döyüş meydanında həlak oldu.Bunu eşidən kimi elə bil Rüstəmin başına qaynar su tökdülər və tez Bəhramdan yapışıb bağırıb dedi:

- Tez ol! Dediklərini təkrar et! Lakin Bəhramdan səs çıxmadı və onda Rüstəm yenə bağırdı:

- Eşitmirsən! Sənə dedim ki,dediklərini təkrar et?

Rüstəmin bərk qəzəbləndiyini görən İsfəndiyar onun biləyini tutub titrəyişli bir səslə dedilər:

- Rüstəm! Artıq yetər! Zira onlar vətən yolunda şəhid oldular.İsfəndiyarın sözlərindən sonra elə bil ki,ayılan Rüstəmin əlləri Bəhramın yaxasından yavaş-yavaş boşalmağa başladı və bir müddət quruyub qaldı.

Rüstəmin bu hala düşdüyünü görən Cavanşir və digər sərkərdələr də onu qucaqlayıb göz yaşı tökdülər və dedilər:

- Onlar hər zaman bizim qəlbimizdə qalacaqlar və biz hamımız onların qisasını alıb qanını yerdə qoymayacağıq, sonra isə Rüstəm üzünü Bəhram Fərruxzada tutub dedi:

- Tez get o kafirlərin əmirinin yanına və mənim sözlərimi şəxsən ona çatdır və de ki, sərkərdə Rüstəm bu gün döyüş meydanında qəhrəmancasına şəhid olmuş adlı-sanlı sərkərdələrin ölülərini götürmək istəyir, buna mane olmasınlar.

- Baş üstə əlahəzrət! – deyə Bəhram Fərruxzad təzim etdi və tez ata mindi və sonra isə o, Şəhrama Söhraba işarə edib dedi:

- Siz də mənimlə gəlirsiniz və Söhrab və Bəhram da atlarına minib atalarının ardınca getdilər.

Bəhram və qardaşları ərəblərin düşərgəsinə tərəf çapmağa başladılar. Onlar düşərgəyə çatan kimi ərəb gözətçilərindən biri atlını görüb uca səslə dedi:

- Dayan, kimsən?

- Mən Bəhram Fərruxzad – İran ordu komandanı Rüstəmin xüsusi elçisi! – deyə Bəhram Fərruxzad cavab verdi.

- Bəs yanındakılar kimdir? – deyə gözətçi soruşdu.

- Yanımdakılarda qardaşlarım və Söhrab Fərruxzad və Şəhram Fərruxzadddır və mən sizin komandanınız Səəd bin Vəqqasla görüşmək istəyirəm1 – deyə Bəhram cavab verdi. Bunu eşidən gözətçi onu düşərgəyə apardı və düşərgəyə çatan

kimi onun çadırının qapısında durdualar. Bundan sonra Bəhram mühafizəçinin qulağında nə isə dedi və o mühafizəçi içəri girdi və bir azdan çıxıb dedi:

- Buyurun, keçin!

Beləlikə, Bəhram içəri girdi və orada yerdə altı nəfər ərəb əyləşmişdi və ortada da biri əyləşmişdi. Ortada oturan şəxs digərlərinə nisbətən birtərəfli oturub öz sağ ayağını uzatmışdı və ehtimal ki, ayağına nəsə olmuşdu,ya da ağrayırdı. O şəxs Bəhramı görən kimi dedi:

- Sənə kim lazımdır?

- Mənə ərəb ordu komandanı Səəd bin Vəqqas lazımdır! – deyə Bəhram Fərruxzad cavab verdi.

- Buyur, eşidirəm, sən kimsən və nə üçün gəlmisən? – deyə Səəd bin Əbu Vəqqas soruşdu.

- Mən İran ordu komandanı Rüstəmin xüsusi elçisi Bəhram Fərruxzadam və komandanın sözlərini sizə çatdırmaqla mükəlləfəm! – deyə Bəhram Fərruxzad cavab verdi.

- O nə xahişdir belə, buyur, de görüm? – deyə Səəd bin Əbu Vəqqas soruşdu.

- Bugünkü döyüşdə sizin olduğu kimi bizim də şəhidlərimiz var və İran ordusunun ən gözəl və təcrübəli sərkərdələri bugünkü döyüşdə şəhid olmuşlar. Onların nəşləri elə döyüş meydanında da qalmışdır və ölənlər arasında sərkərdə Bəhmən Caduyənin də nəşi var! – deyə Bəhram Fərruxzad cavab verdi.

Bunu eşidən kimi Səəd bin Əbu Vəqqas tez ayağa durub çadırdakılara dedi:

- Bir sərkərdə, sərkərdə kimi dəfn olunmalıdır və durun gedək onları tapaq! - deyə çadırdan çıxdı. Onun ardınca digər sərkərdələr də çadırdan çıxdılar. Sonra Səəd bin Əbu Vəqqas üzünü Bəhrama tutub dedi:

- Əgər sən onları üzdən tanıyırsansa, bizə göstər! Bu sözdən sonra Bəhram onların önünə düşdü və döyüş meydanındakı

həlak olanlara tərəf getdilər və hamının əllərində məşəl var idi. Bir az getmişdilər ki, Bəhram - Bəhmənin, onun ardınca isə Qriqorinin nəşini gördü və ağlamaqdan özünü saxlaya bilmədi. Bunu görən Səəd bin Vəqqas təəcüblə soruşdu:

- Hönkürlə ağlamağının səbəbi nədir?

- Ağlamağımın səbəbi onların şəhid olmaları deyil, beləcə qayğısız və lazımsız halda yerdə yatmalarıdır, Belə tanınmış sərkərdələrin sonu bu şəkildə olmamalı idi! – deyə Bəhram Fərruxzad cavab verdi və sonra isə Səəd üzünü Bəhrama tutub dedi:

- Get Rüstəmə de ki, gəlsin öz ölülərini aparsın! Bundan sonra Şəhram Söhrab və Bəhram geri qayıdıb bu xəbəri Rüstəmə çatdırdılar. Ardınca Rüstəm göstəriş verdi və onlar döyüş meydanına getdilər və bütün tanınmış fars əsilzadələrinin meyitlərini İran ordu düşərgəsinə gətirdilər.

Ölüləri gətirən kimi hamı yığışdı və olanlardan dəhşətə gəlmişdilər, çünki bütün danışıqlar boyu islamı ağız dolusu ilə tərifləyən elçilər onun ədalətindən və insanlara olan zərif rəftarından danışırdılar. Lakin həlak olmuş sərkərdələrin bədənlərinin hər birində 100-dən çox yara var idi və bu da ərəblərin əslində dini öz məqsədlərinə çatmaq üçün bir vasitə kimi istifadə etdiklərinə bir başa canlı sübut idi. Bu mənzərəni görən Rüstəm şoka düşmüşdü və onu Bəhram və Cavanşir güclə sakitləşdirdi. Rüstəm isə hönkürtü ilə ağlayır və əllərini başına çırpırdı. Az sonra Rüstəm ayağa qalxıb ağlaya-ağlaya cənazələrə yaxın gəlib uzun-uzun baxdı və sonra əyilib bir-bir onların alnından öpdü və sonra ayağa qalxıb dedi:

- Qardaşlar! Biz bu gün İranın tarixində ən faciəli günü yaşayırıq! Belə ki, bugünkü gündə iranlıların qüruru və ən tanınmış Ari sərkərdələrimizi itirdik və düşünürəm ki,artıq belimiz qırılmışdır. Sonra isə ölülərə baxıb dedi:

- Rahat yatın qardaşlar! Əmin olun ki, biz də sizin kimi son damla qanımıza qədər vuruşarıq və sizin qanınızı o İsmail övladlarından alarıq.

Beləliklə, ölüləri dəfn etmək üçün Mədainə göndərdilər və sonra da Rüstəm bir qasidi çağırıb dedi:

- Get şahənşah III Yəzdigerdə çatdır ki,sərkərdə Rüstəm deyir ki, artıq çox dayana bilmərik və geri çəkilməyə məcburuq. O murdar ərəblər Zaqros dağlarının o tayına keçməyə hazırlaşsınlar. Çox ehtimal ki, sabahkı döyüşdə də onlar qalib gələcəklər və Mədaini tutacaqlar. Siz də gedib sabahkı döyüşə hazırlaşın! - deyə sərkərdələrə zəif səslə dedi.

***Döyüşün üçüncü günü***. Döyüşün üçüncü günü on min İran ordusu ilə 2500 nəfərlik ərəb ordusu qarşı-qarşıya dayanmışdı(110). Ərəblər döyüş meydanından yaralıları və ölüləri çıxarmaq üçün xüsusi dəstə yaratmışdılar və öz ölü və yaralılarını oradan çıxarırdılar. Onlar yaralıları öz qadınlarına göndərirdilər ki,onlara yardım etsinlər. Ölüləri isə arvadlar və uşaqlar tərəfindən əvvəlcədən qazıb hazırlanmış məzarlarda dəfn edirdilər. Lakin iranlılar isə ölülərə vaxt sərf etmir,yalnız yaralıları çıxarırdılar döyüş meydanında(111). İran əsgərlərinin qəhramanlıqla vuruşduqlarını görən ərəblər bu dəfə hiyləyə əl atdılar(112). Belə ki Suriyaya Dəməşq şəhərini tutmaq üçün göndərilmiş altı min nəfərlik ordunun Qaqa bin Əmrin komandanlığı altında olan 1000 nəfərlik ordu gecə ilə düşərgəni

110..Bax:. Bax:Təbəri I,s.2317.İran ordusunun əsas məğlubiyyətinin səbəbi onların ümumilikdə səhrada vuruşa bilməməsi idi,amma ərəblər elə səhrada doğulub,orada da ölürdülər.Firdovsi özünün kitabında İran suvarilərinin atlarının qumluq çöldə tez-tez büdrədiyini bildirir."Şahnamə".T.9.329,bb.225-227.O, iranlıların geri çəkilməsini ürək ağrısı ilə qeyd edir.

111.Bax: Təbəri I,s.2319,stk.3:"Onlar öz ölülərinə toxunmurdular.

112.Yenə orda,s.2318-2319.

tərk etdi və səhərə yaxın şeypurların səsi ilə yenidən düşərgələrinə qayıtdılar. Bununla da onlar iranlıları aldadırdılar ki, guya Suriyadan yeni ordu hissələri köməyə gəlir. Bu o qədər gərçək idi ki, iranlılarla birlikdə ərəblərin özləri belə buna inandılar. Onlar həqiqətən də, Suriyadan yeni ordu birliklərinin onlara köməyə gəldiyinə şübhə etmədilər. Qaqa bin Əmr gəlib qalaya çatan kimi qala qapısına dayandı və yuxarıdan onu salamlayan Səəd bin Vəqqasa təzim etdi. Onun gəldiyini görən vuruşan ərəb əsgərləri sevinclə yenidən döyüşə atıldılar və Qaqa bin Əmr üzünü Səəd bin Vəqqasa tutub dedi:

- Ya əmr! İzin ver gedim döyüşə farsları qırım!

- Belə tez və istirahət etmədən? – deyə Səəd bin Əbu Vəqqas soruşdu.

-: Elədir ki, var ya əmir! Farslara o qədər nifrət edirəm ki, onları bir qaşıq suda boğaram! – deyə Qaqa bin Əmr cavab verdi.

- Onda di get, meydan sənindir! – deyə Səəd bin Əbu Vəqqas təlimat verdi.

Döyüş təkbətək və adi qaydada başladı və bu sözdən sonra Qaqa bin Əmr döyüşən ərəb əsgərlərinin yanına gəldi və onları salamladı. O, mücahidləri cihada təşviq etdikdən sonra meydana at sürüb İran ordusundan özünə vuruşmaq üçün pəhləvan istədi. Bu zaman Rüstəm İranın ən tanınmış pəhlivanlarına əli ilə işarə edib Qaqa bin Əmrlə təkbətək döyüşə çıxmasını əmr etdi. Lakin Qaqa bin Əmr təkbətək döyüşdə İran pəhləvanını məğlub edə bilmədiyindən hiyləyə əl atdı və öz qarnını tutub əyildi. Bu zaman iranlı pəhlivanın onun yaralandığını düşünüb qılıncını aşağı saldıqda Qaqa bin Əmr yerdən bir ovuc qum götürüb onun gözlərinə səpdi. İranlı pəhlivan öz gözlərini ovuşduranda Qaqa bunu fürsətə çevirib ona hücum edərək qılıncı onun açıq qalmış sinəsinə soxdu və

iranlı pəhlivan öldü. Qaqa bin Əmr bu minvalla bir neçə İran əsgərini öldürdü ki,bu da iranlıların ümidsizliyə qapılmasına səbəb oldu. Bu mənzərəni uzaqdan izləyən Rüstəmin sərkərdələrindən olan Calinus hirsli halda Rüstəmə dedi:

- Əlahəzrət! Onlara Suriya cəbhəsindən yeni kömək gəldi.

Rüstəm döyüş meydanına yeni fillər göndərdi və bu filləri onların üstündə əyləşən oxçular qoruyurdular və bunun səbəbi isə müsəlmanlara filləri öldürməyə imkan verməmək idi(113).

- Hə! Doğrudur! Onlara hər gün yeni-yeni əlavə qüvvələr köməyə gəlir,amma III Yəzdigerd isə əsas qüvvələri Mədaində saxlamaqdadır! – deyə Rüstəm Fərruxzad əlavə etdi.

- Paytaxtdakı ehtiyat ordulara ehtiyacımız yoxdur, biz hal-hazırda onlardan on dəfə çoxuq! – deyə calinus də müdaxilə etdi.

Bu sözdən gülümsəyən Rüstəm əli ilə döyüş meydanını işarə edərək dedi:

- Onda bəs hanı bunun nəticəsi! Əgər şahənşah paytaxtda özü üçün saxladığı ordu birliklərini mənə köməyə göndərsəydi, onda mən bir saat ərzində müsəlmanların işini həmişəlik bitirərdim.

- Yox əlahəzrət! O ordu birlikləri Mədaində şahənşahımızı qorumaq üçün lazımdır, çünki o, İranlıların simvoludur və biz elə belə də onların işini bitirərik! – deyə calinus cavab verdi. Calinus Rüstəmin sol tərəfində duran xidmətçi Rufaylın qulağına nə isə pıçıldadı və o xidmətçi ata minib gizlicə ərəblərin düşərgəsinə tərəf çapmağa başladı.

Budur, Calinusun göndərdiyi gizli xəfiyyə arxa ərəblərin arxa cəbhəsinə getdi və oradakı bir çadıra arxadan girdi. Bu Suriyadan yenicə gəlmiş Qaqa Bin Əmrin çadırı idi və

113.Bax: Təbəri I,s.2320,stk.6-8;İbn əl-Əsir 2,s.371;S.M.Yusif.The Battle of al-Qadisiyya,s.21.

arvadı Delşad fars qızı olduğundan farslara uzun müddət idi ki,casusluq edirdi. Lakin son zamanlar ərəblərin üstünlüyünü görüb artıq bu işindən vaz keçmək qərarına gəlmişdi.

Casus qadın çölə çıxan kimi Rufayli gördü və uca səslə dedi:

- Nə istəyirsən məndən! Get burdan! Bax indi Əmri çağıraram! - deyə uca səslə “Əmri” çağırmağa başladı. Lakin Əsəd onu sakitləşdirib dedi:

- Qişqırmağa ehtiyac yoxdur! Sakit ol!

- Nə istəyirsiz məndən? – deyə Delşad soruşdu.

Əsəd isə qurşağından bir üzük çıxarıb Əmrin arvadına uzadıb dedi:

Al bunu!

- Bu nədir belə?

- İlk öncə götür və sonra soruş,bəlkə bununla sənin həyatın dəyişəcək! – deyə Əsəd cavab verdi və bunu görən Əmrin arvadı onun əlini əks tərəfə itələyib dedi*:*

- Axı mən sizə son dəfə demişdim ki, mən artıq casusluq etmək istəmirəm! - deyə Əsəd cavab verdi.

- Qulaq as görüm! Bu üzüyün qaşının altında zəhər var və əgər sən bu zəhəri Səəd bin Əbu Vəqqasın yeməyinə tökməsən, səni ələ verəcəyik və bir də ki, sən nədən qoprxursan axı?

İkincisi də bu sənin borcundur və yaddan çıxarma ki,sən bir fars qızısan! Səəd bin Əbu Vəqqasın yeməyinə zəhər töküb onu zəhərləməklə sən öz xalqını qurtarmış olacaqsan.

- Nə verirsən ver! və Tez elə! - deyə Delşad cavab verdi və bu sözdən sonra Əsəd öz qurşağından çıxardığı zəhər olan üzüyü o qıza verdi və dedi:

- Sən bu zəhəri Səəd bin Əbu Vəqqasın yeməyinə tök, Hörmüzan məndən cavab gözləyir və mən ona nə cavab verim?

- Məndən ona salam de! – deyə Delşad cavab verdi. Bu zaman çadırın qapısından keçən Səədin arvadı Səlma çadırın dalından bu danışığı eşidirdi və iranlı Əsəd çölə çıxanda o qadın öz xəncəri ilə onu öldürdü, sonra içəri girib dedi:

- Sən satqın və xainsən!

- Yox! Yox! Nə danışırsan! Mən sadəcə onu da digərləri kimi aldadıb öldürmək istəyirdim! – deyə Delşad cavab verdi.

- Delşad! Sən ərəblərə gəlin gələndən biz səni sevmişdik və bağrımıza basıb inanmışdıq. Amma mən səni qınamıram, çünki sən fars qızısan və öz xalqın üçün doğru hərəkət edirsən. Lakin mən bunu Səəd bin Vəqqasa çadırmalıyam! – deyə Səlma çadırdan çıxdı. Delşad isə bir müddət susdu və sonra öz-özünə dedi:

- Mən bilirdim ki, mənim sonum tezliklə gələcək, lakin mənim üçün artıq burada qalmağın heç bir mənası yoxdur və mən tez bir zamanda farsların düşərgəsinə getməliyəm.

Budur, döyüş qızışırdı və ərəblər həqiqətən də, onlara köməyin gəlməsinə inanmışdılar və bu üzdən də müsəlmanlar yenə üç kərə təkfir gətirib döyüşə atıldılar. İlk öncə təkbətək döyüş oldu, lakin sonra hər şey biri-birinə girdi. İranlılar üçüncü gün döyüş fillərindən istifadə edə bildilər, lakin bu dəfə bu döyüş fillərinə ərəblər xətər yetirə bilməsinlər deyə onları piyada İran əsgərləri qoruyurdu.

Təbəri qeyd edir ki, fillərə yaxın gələ bilməyən ərəblər uzaqdan fillərin gözlərinə oxla vurdular və ağrıdan bağıran fillər geri qaçaraq İran ordusunda yenə qarmaşa yaratdılar. Eyni sözü ərəblər üçün də demək olar. Belə ki,onlar da öz döyüş dəvələrindən istifadə edə bilmədilər, çünki onların çoxu İran əsgərləri tərəfindən öldürülmüşdü.

Qızğın döyüş gedirdi və günortaya yaxın paytaxt Mədaindən İran ordusuna kömək gəldi. Ərəblərə isə Suriya cəbhəsindən Haşimin komandanlığı altında 700 nəfərlik ordu

birliyi gəldi. Haşimin əsgərləri xüsusi taktika ilə 70 nəfər çıxırdılar döyüş meydanına. Bununla onlar İranlılara göstərmək istəyirdilər ki,guya onlara hər dəqiqə kömək gəlir və bu xəbər tezliklə Mədainə, şahənşaha çatdırıldı. Bu vaxt III Yəzdigerd öz taxtında öz kiçik bibisi Boranla əyləşmişdi və bu xəbəri eşidən kimi şahzadə Boran üzünü III Yəzdigerdə tutub dedi:

- Əlahəzrət! Müsəlmanlara hər dəqiqə kömək gəlir, biz də kömək göndərək!

- Mənim əlavə qüvvəm yoxdur! - deyə III Yəzdigerd cavab verdi.

- Mədaində küllü miqdarda ordu birliklərimiz var! Deyə şahzadə Boran əlavə etdi.

- Sən demək istəyirsən ki, əlimdə olan ordu birliklərini də yollayım və tamamilə qoruyucusuz qalım? – deyə III Yəzdigerd soruşdu.

- Əgər biz Kadisiya döyüşünü uduzsaq,onda hər şeyimizi əldən vermiş olarıq və xahiş edirəm Rüstəmin köməyinə əlavə qüvvə yollayasınız! – deyə şahzadə Boran cavab verdi. Bibisinin bu sözlərinə azca fikrə gedən III Yəzdigerd əli ilə işarə edərək dedi:

- Tez olun! Rüstəmə kömək üçün əlavə birliklər göndərin, lakin sonra sözünü geri götürdü və dedi:

- Yox! Yox! Mən əlavə qüvvə göndərə bilmərəm, əgər göndərsəm, onda özüm burada müdafiəsiz qalaram.

Bu vaxt şahzadə Boran tez ayağa qalxdı və üzünü III Yəzdigerdə tutub dedi:

- Əlahəzrət! Siz öz taxtını qorumağı düşünərkən bizim hamımızın həyatını təhlükəyə atırsınız. Yadınızdan çıxarmayın ki, yalnız bir şəxs sizi və bütün farsları qoruya bilər və bu şəxs Rüstəmdir. O üzdən də nə qədər lazımdırsa,o qədər də əsgər göndərin.

- Yox! Yox! Siz nə danışırsınız! Bunu edə bilmərəm! - deyə III Yəzdigerd cavab verdi.

- Əlahəzrət! Mən sizin xüsusi qvardiya əsgərlərindən biri ilə söhbət etdim və o mənə dedi ki, əgər lazım gələrsə, sizin üçün öz həyatından da keçməyə hazırdır! – deyə şahzadə Boran əlavə etdi. Bunu eşidən III Yəzdigerd üzün şahzadə Borana tutub dedi:

- Doğru deyirsən?

- Bəli! Əlahəzrət! Doğrudur və o üzdən gecikməyiniz və tez bir zamanda Rüstəmə əlavə qüvvə göndərin! – deyə şahzadə Boran cavab verdi. Bunu deyən kimi şahzadə Boran III Yəzdigerdin razılığını almadan üzünü keşikçilərə tutub dedi:

- Tez olun! Əlahəzrətin əmri ilə Rüstəmə əlavə qüvvə göndərin və tezliklə Rüstəmə Mədaindən kömək gəldi(114)

Bütün gün qızğın döyüş getdi və hər iki tərəf ağır itkilər verdi,günün sonunda isə təkbətək əlbəyaxa döyüş oldu(115). Axşama yaxın İran ordu komandanı Rüstəm döyüş taktikasını dəyişdi və ardı-ardınca o, canlı qüvvəni üç düz xətt boyunca düzdü və flanqaları gücləndirdi. Təbəri(116) yenə qeyd edir ki, Ərəb ordu komandanı Səəd bin Əbu Vəqqas da eyni formada üç xətt boyunca düzdü. Birinci xətdə suvarilər,ikinci xətdə əli qılınclı piyadalar, üçncü xətdə isə oxatanlar düzülmüşdü. Ərəblər cəldliklə tərpənir və heç nəyi gözləmədən hücuma geçirdilər(117).

Döyüş hərbi qaydada gecə də davam edirdi və vəziyyət o qədər qarışmışdı ki, artıq vəziyyət pisə doğru gedirdi. Hər iki ordu komandanı,yəni Rüstəm və Səəd bin Əbu Vəqqas artıq öz əsgərləri üzərində nəzarəti itirmişdilər və birliklərin sərkərdə-

114.Bax: Təbəri I,s.2324-2326;ort.İbn əl-Əsir 2,s.371-372.
115.Bax:Təbəri I,səh.2321,stk.12-14;s.2326,stk.13-15.
116.Yenə orda,səh.2329,stk.14-16;s.2330,stk.9-12.
117. Yenə orda,səh.2332,stk.2-4..

ləri ilə əlaqələri kəsilmişdi(118). Gecə vaxtı Səəd bin Vəqqas Tüleyha ilə Əmrə islam qərərgahının alt tərəfindəki keçidi tutmalarını,beləcə hər hansı bir təhlükənin qarşısını almalarını əmr etdi. Onlar da iranlıların arasından keçib “yapaq“! - deyə məşvərət etdilər. Tüleyha əsgərlərini alıb arxa tərəfdən dolaşdı, təkfir gətirərək hücum işarəsini verdi. Qaqa bin Əmr də keçiddən hücum edincə, iki qüvvə arasında qalan iranlılar çaşqınlığa uğradılar.

Gecə yarısı “Allahu əkbər” nidalarını eşidən Qaqa bin Əmr və əsgərləri, bəni - Əsəd, bəni - Bəcilə və bəni - Kində qəbiləsninin əsgərləri dayanmayıb onlar da hücum etdilər(119). Beləlikə, gecənin bir yarısında döyüş hər iki tərəfin razılığı ilə dayandırıldı.

***Dördüncü gün* - *Rüstəmin şəhadəti.*** Döyüşün dördüncü günü səhər vaxtları ərəblər İran odusunun mərkəzini atəşə tutdular və qızğın döyüş başladı. Hər iki tərəf özlərinin son qüvvələrini döyüş meydanına atdı. Bu döyüşdə kimin qalib gələcəyi məlum deyildi, lakin elə ki,günəş yuxarı qalxdı və bu zaman güclü qərb küləyi əsməyə başladı. Güclü külək nəticəsində göyə qalxan qumlar İran əsgərlərinin gözlərinə hopdu və bu da ərəblər üçün böyük fürsət yaratdı.

---

118.Yenə orda, s. 2333,stk.2-5;[H.Zotenberg].Chronique...T.3,394.

119.Bax: [H.Zotenberg]. Chronique...T.3,s .396. Səyf ibn Ömərin (Məhəmməd,Təlhə, Zeyd) yaxın məlumatçılarınının yazılarında ilk olaraq Hörmüzan və Firuzanın ordu birləşmələri geri çəkilməyə başladı,daha sonra isə mərkəzdəki ordu birləşmələri. (Təbəri I,s.2336,stk.3-5).Lakin burada məlumatlar biri-birinə ilişir və təkzib edir.Məhəmməd və Təlhə məlumat verirlər ki,Perozan döyüşün ikinci günü Qəqə bin Əmrlə təkbətək döyüşdə həlak oldu.Bu məlumatı Seyfin digər məlumatçısı olan, onlardan asılı olmayan və müstəqil şəkildə Qasım ibn Süleym də verir.(yenə orda,s.2309,stk.5-7).Hörmüzan İran ordusunun məşhur üç sərkərdəsindən biri idi ki,döyüş meydanını sonuncu olaraq tərk etdi.

Bu hadisəni ərəblər Allahın onlara İranlılara qalib gəlmək üçün verdiyi bir fürsət hesab edib həvəslə iranlıların üstünə cumdular. Öz çadırından iranlıların məğlubiyyətini izləyən Rüstəm üzünü yanındakı xidmətçi Şəhriyara tutub dedi:

- Bu bizim axırımızdır Şəhriyar! Yəni farsların hakimiyyyətinin sonu! Elə bu səbəbdən də mən tarix boyu müzakirə subyekti olcağam.Amma əgər tarix mənimlə Səəd bin Əbu Vəqqasın yerini dəyişsəydi, onda mən dünyanın ən bəxtiyar komandanı olacaqdım. Sonra isə əlindəki üzüyü çıxarıb Şəhriyara verib dedi:

- Bu üzüyü şahzadə Borana verərsən!

- Əlahəzrət! Sizi tək saxlayıb gedə bilmərəm və qalıb sizi qoruyacağam! – deyə Şəhriyar dedi.

- Şəhriyar! Üç gün bundan əvvəl əlimdə 80 min ordu var idi və onlar mənim üçün heç nə edə bilmədilər və sən təkbaşına nə edə bilərsən ki? – deyə Rüstəm Fərruxzad cavab verdi və sonra başındakı dəbilqəni çıxarıb Şəhriyara verib dedi:

- Bunu da III Yezdəgerdə verərsən və deyərsən ki,bu bizim sonumuzdur, lakin xalqımızın sonu deyil, sonra isə fikrini dəyişib dedi:

- Yox! Lazım deyil! Heç nə demə,onsuz da o heç nə başa düşməyəcək və tarix özü onu başa salacaq.

Rütəmin sözlərindən gözləri yaşaran xidmətçi Şəheriyar gözlərinin yaşını silərək dedi:

- Mən həmişə sizi uca tutmuşam və sizinlə fəxr etmişəm və buna görə təəssüflənmirəm! - deyib çadırı tərk etdi.

Bu zaman güclü külək İran ordu komandanı Rüstəmin çadırını onun başına yıxdı və çadırın yuxarı hissəsində olan 10 kilo ağırlığında olan dəmir Rüstəmin başına düşdü. Dəmirin ağrısından o da huşunu itirib yaxınlıqdakı Atik su kanalına düşdü. Bu vaxt o həndəvərdə olan Qaqa bin Əmr Rüstəmin

xaraba qalmış və devrilmiş çadırına girib Rüstəmi axtardı amma tapa bilmədi.

Belə ki, başının ağrısından Atik kanalına düşən Rüstəm suda özünə gəlmiş və sürünə-sürünə kanaldan çıxıb yaxınlığındakı xurma ağacının kölgəsində özünü ağacın dibinə söykəyib başını əli ilə tutmuşdu. Ağır dəmir parçasının onun başına düşməsindən sonra Rüstəmin başından güclü qan axırdı. Rüstəm çoxlu qan itirdiyindən ağlı başından çıxmışdı və ətrafda baş verənləri artıq sezə bilmirdi.Bu vaxt onu görən ərəb əsgəri Hila bin Əlkəmə ağac dibində özünü ağaca söykəyən Rüstəmi tapdı. O Rüsstəmin bu halsızlığından , hüşunu itirməsindən istifadə edib onun üzərinə atıldı və öz xəncəriylə onun başını kəsdi.

Digər mənbələrə görə, Rüstəm havaya qalxan qum tozanağından istifadə edib ərəb ordusunun içinə sıza bilir. Bu o ərəb komandanına yaxınlaşıb ona zərbə endirmək istəyirmiş.Rüstəmin ani olaraq burnuna girmiş qum dənəciyindən asqırması dəvəni hürküdür və dəvə üzərində olan ağır dəmirlər Rüstəmin üzərinə tökülüb belini əzib onu iflic edir və bundan istifadə edən ərəb komandanı onun başını kəsir.

Firdovsi öz “Şahnamə”sində isə yazır ki,Rüstəm ərəb komandanı Səəd bin Əbu Vəqqasla təkbətək döyüşdə onu məğlub edərək atdan salır və özü də atdan düşüb onun başını kəsmək istəyəndə güclü külək qum tozunu onun gözlərinə hopur. Bundan istifadə edən Səəd bin Əbu Vəqqas Rüstəmə bir neçə ağır zərbə endirib onu həlak edir.Rüstəmin başını kəsəndən sonra onun taxtının üstünə çıxan Əlkəmə ucadan qışqıraraq dedi:

- Ey müsəlmanlar! Eşidin! Mən Rüstəmi öldürdüm və başını kəsdim. Bu vaxt yaxınlıqda olan digər müsəlman döyüşçülər onun başına yığışıb üç dəfə “təkbir” gətirdilər. Öz

komandanlarının ölümünü eşidən İran əsgərləri vəlvələyə düşdülər və bunu görən Calinus tez komandanlığı ələ alıır. O, İran əsgərlərinə tez körpü ilə çayın o biri sahilinə keçmələrini əmr etdi. Lakin zəncirlənmiş İran əsgərləri çayı keçərkən biri-birini itələdiyindən onların çoxu çaya düşüb boğuldu və bundan istifadə edən ərəblər İran ordusunun mərkəzi hissəsini dağıtmağa müyəssər oldular. İranlıların piyada hissələri hələ də öz nizamını qoruyub saxlayırdılar.

Digər məlumata görə isə Rüstəmin öz huşunu itirməsindən istifadə edən ərəblər tez onun çadırına yaxınlaşdılar və 70 nəfərlik ərəb birliyi Rüstəm daxil olmaqla altı nəfərlik mühafizəçini öldürdülər. Sonra isə ərəblər İranın dövlət bayrağı olan “Dərəfş-i Kəyani(Kəyani qüruru)ni ələ keçirib onun üzərindəki bahalı daş-qaşları vəhşicəsinə və acgözlüklə taladılar və deyilənlərə görə, onun dəyəri bir milyon 200 dirhəm idi.

İran ordusu öz komandanlarının ölümü ilə çox pis oldular və geri çəkilməyə başladılar. Bu zaman sərkərdə Calinus və Buxeyşin oğlu Zad komandanlığı ələ alıb İran ordusuna Atik çayının o biri sahilinə keçməyi əmr etdi və onlara qarşı on minlik müsəlman ordusu dayanmışdı. Hər iki sərkərdə İranın bu cür məğlubiyyətini və dağılmasını görməkdənsə, ölümü seçdiklərini və 30 nəfərlə ölənə qədər çayın bu üzündə dayanıb vuruşacaqlarına and içdilər. On minlik ərəb ordusunu saatlarla yubatmağa müyəssər olan bu otuz nəfərin çoxu şəhid oldu və qalanı da çayın o biri sahilinə keçməyə məcbur oldular(120).

Bəluzari (səh.259) məlumat verirlər ki, o, otuz nəfəri 10 minlik ərəb ordusu mühasirəyə aldı və onların yarısını qırdılar və yarısı isə geri çəkilməyə məcbur oldu.Calinos öz dəstəsi ilə Nəcəf şəhəri istiqamətindəki yolda mühasirəyə salınıb

---

120. Bax:TəbəriI,s.2345-2346; [H.Zotenberg]. Chronique... T.3,s.398; ort.Bəluzari, mətn,s.259;ingl.tərcümə,t.1,s.415) Təbəri (I,səh.2345-2346.

öldürüldü(121). Səəd Gəqə bin Əmrə və Şurahbilə Atik kanalına qədər olan yolu İran ordusunun qalıqlarından təmizləməyi tapşırdı. Onlar xüsusi dəstə yaradarq döyüş meydanından ölü və yaralıları çıxardılar. Döyüşdə iştirak etməyən müsəlmanların arvad və uşaqları döyüş meydanından çıxarılıb onlara gətirilən yaralılara yardım edirdilər. Onlar daha sonra isə döyüş meydanında olan sağ qalmış yaralı İran əsgərlərini qılıncdan keçirib başlarını kəsirdilər və bu misli görünməmiş bir qətliam idi. Elə həmən gün döyüşdən sonra 6000 ərəb və 10000 iranlı həlak oldu. Buraya Atik kanalında boğulanlar daxil deyil(122). Ağır döyüşlərdən yorulmuş İran ordusunun digər generalları olan Cavanşir, Bəhram, İsfəndiyar, Qriqori və Sebos da öz ordularının qalıqları ilə Mədainə doğru geri çəkildilər. Bələzuri "Futuh əl-Büldan" adlı əsərində bu müharibəni belə təsvir edir: "Bu şiddətli müharibədə müsəlmanlar farslarla qarşı-qarşıya gəldilər. Onlara dayanmadan ox atır, nizə ilə parçalayır, qılıncla doğrayırdılar və indiyə qədər müsəlmanlar heç belə müharibə etməmişdilər. Daha sonra müsəlmanlar farsları öz mövqelərindən qaçmağa məcbur etdilər. Onlar qaçan farsları təqib edir və onları ələ keçirib məhv edirdilər. Yalnız hava qaralan kimi müsəlmanlar yerlərinə qayıdırdılar*(6, s.255).*Beləliklə, dəhşətli Kadisiyyə döyüşü başa çatdı.

### *1.Ktesifonun süqutu*

***Veh-Ərdəşirin işğalı. Aclıq qətliamı*** *(637-mart(16 Səfər).* Döyüşdən sonra Səəd bin Vəqqas iki ay Kadisiyada qaldı və Xəlifə Ömərə çaparlar göndərib onu məlumatlandırırdı. Xəlifə

121.Bax:Təbəri I,s.2338-2339,2341,stk.11-13.
122.Bax: Təbəri: səh.2347-2339.

isə Vəqqasa dayanmamağı və İranın paytaxtı Mədainə tərəf hərəkət edib onu işğal etməyi əmr edirdi. Səəd bin Əbu Vəqqas ərəb döyüşçülərinin ailələrini Kadisiyada – Atrikdə saxladı və özü isə Mədainə doğru hərəkət etməyə başladı(123).

Müsəlmanların yeni hücumu Hirəyə tərəf tələsən Zöhrənin həmləsi ilə başladı və o, Hirədə yerləşən Naqverqanın komandanlığı altında olan İran ordusu ilə döyüşmək istəyirdi.O,müsəlmanların gəlmə xəbərini eşidən kimi Kadusiyadakı İran ordusunun məğlubiyyət xəbərini də aldı və döyüşə risk etməyib şəhəri döyüşsüz tərk etdi.

Zöhrənin ardınca Səədin bin Əbu Vəqqas başçılığı ilə müxtəlif hərbi avanqard birləşəmələri də Hirəyə doğru hərəkət etməyə başladılar və bu Şəvval ayının axırlarında baş verdi. Müsəlman ordularının tərkibi əsasən atlı suvarilərdən ibarət idi ki, bunun da səbəbi məğlub edilmiş İran əsgərlərindən qənimət kimi ələ keçirilmiş atlar idi(124).

Abdullah və Şöhrəbil öz ordu birləşmələri ilə Hirəyə gəldilər və oradan da Bursa doğru hərəkət etməyə başladılıar. Bursda İran hərbi dəstələri var idi və onlara sərkərdə Vaspuhrak başçılıq edirdi. O,ərəblərin təslim tələbinə qarşılıq ölməyi seçdi və qanlı döyüş başlandı. Qanlı döyüşdə sonuna qədər dayanan Vaspuhrak qəhrəmancasına şəhid oldu(125)

Müsəlman ərəblərin növbəti hədəfi Babil idi və bu şəhər Kadisiya ilə Ktesifon arasındakı məsafənin yarısı qədər məsafədə Dəclə çayının sol sahilində yerləşirdi. Məhz burada Kadusiya və başqa döyüşdə məğlub olub qaçmış İran ordusunun qalıqları cəmləşmişdi. Burada İran sərkərdələrindən

---

123.Bax: TəbəriI,s.2419,stk.5-9..

124.Yenə orda,s.2420,stk.8-10

125.Bax: Məlumdurki,Bursu qədim Baripplə və ya İraqın arxeoloji xəritəsində qeyd olunan daha qədim olan Birs-Nimrudla eyniləşdirmək olar.İran hərbi komandirinin adı və titulu ərəbləşmiş forması olan – بُصْبُهْرَى verilmişdir

Nahverqan, Hörmüzan, Reydən olan Mehran və başqaları var idi(126). Burada da Seyfin adını çəkdiyi İran ordusunun hərbi komandiri olan Perozanın adı qeyd olunur. Ola bilər ki,eyni adlı eyni simalardan söhbət gedir)İran ordu qalıqlarının oraya cəmləşmə xəbəri Bursda olan dehqanların dindirilməsi nəticəsində müsəlmanlara agah oldu və Zöhrə bu xəbəri Səədə çatdırmağa tələsdi və Səəd də ona Hirədən əlavə qüvvə yolladı. Ərəblər kömək gələn kimi Dehqan Bistam tərəfindən onlar üçün tikilmiş körpüdən keçərək İran ordu düşərgəsinə doğru hərəkət etdilər. Qanlı döyüş başladı və elə döyüşün əvvəlində vəziyyət ərəblərin xeyrinə dəyişməyə başladı və İran ordusu qaçmağa başladı. Hörmüzan Xuzistana çəkildi və orada hakimiyyəti ələ aldı, Nahraverqan və Mehran isə Mədainə çəkildilər. Onlar Veh-Ərdəşirdən Fəratın sol sahilinə keçib paytaxın digər yarısı arasında olan körpünü dağıtdılar(127).

Ərəblər iran ordu qalıqlarını təqib edib Sura ilə Dəyr məntəqələri arasında yaxaladılar və döyüş başladı. Tərəflər arasında baş vermiş qanlı döyüşdə iki İran sərkərdəsi olan Fərruxan və Fəyyuman da qəhrəmancasına şəhid oldular(128). Kus məntəqəsində Naxverqan Mehranla ordunun bir hissəsini müdafiə üçün saxladılar və orduya komandanlığı dehqanlardan biri olan Şəhriyarı təyin etdilər. Bu zaman Şəhriyar gələn ərəb ordusu ilə təkbətək döyüşdə şəhid olan kimi onun dəstəsi də qaçmağa başladı. Zöhrənin hərbi dəstələri şəhərə daxil oldular və Səəd bin Əbu Vəqqas gələnə qədər girəcəkdə gözlədilər. Ərəblərlə paytaxt Mədain arasında növbəti maneə Səbat məntəqəsi idi, lakin ərəblər bu məntəqəni çox asanlıqla ələ

---

126. Bax:Təbəri I,s.2420,stk.13-16127.
127. Bax:Təbəri I,s..2421,stk.10-17.Perozan(Firuzan),Seyfin məlumatçılarına görə Nəhavəndə gedir,sonra orada Xosrovun əsasını və möhrünü ələ keçirib hakimiyyəti ələ alır və Midiyanın hakimi olur.
128. Bax:Təbəri I,s.2357,stk.6-9;stk.6-8.

keçirdilər. Bu şəhərin əhalisi ərəblərlə müqavilə bağladılar və cizyə verməyi qəbul etilər.

Beləliklə, ərəblər Veh-Ərdəşirlə ərəblər arasında olan sonuncu maneəni də aradan qaldırdılar. Müsəlmanlar Veh-Ərdəşirə 637-ci ildə yaxınlaşdılar və onu iki ay muhasirədə saxladılar(129). Veh-Ərdəşirdəki İran ordusu ərəblərə güclü muqavimət göstərdi və buradakı İran dəstələrində katapulta,mancanaq və digər döyüş maşınları da var idi. Onlar ərəbləri daşlarla, oxlarla vurudular(130). Dehqan Sabat da ərəblər üçün 20 ədəd belə divardələn maşın düzəltmişdi və ərəblər bu maşınlarla Veh-Ərdəşirin divarlarını dəlməyə başladılar. Vəziyyətin pis olduğunu görən III Yezdəgerd müsəlmanların yanına öz elçisini göndərərək sülh təklif etdi. Şahənşah bu günə qədər ərəblər tərəfindən Fəratın qərbində işğal edilmiş torpaqları onlar verdiyini bildird(131). Ərəblər sülhü rədd etdilər və axşama yaxın ehtiyatın tükəndiyindən İran ordu hissələri şəhəri tərk edib Dəclə çayının o biri sahilinə keşçməyə başladılar. Gecə vaxtı müsəlmanlar Veh-Ərdəşirə daxil oldular və İran ordusu şəhəri tərk etmişdi. Onların şəhəri tərk etməsinin əsas səbəi ac olmaları və aclıqdan itləri və pişikıəri belə yeyib qurtarmaları idi. Bu islam qanunların zidd idi, lakin ərəblər bu cür alçaqlığa qədər enib minlərlə insanı ac saxlamışdılar(132). Beləliklə vəhşi bədəvilər bütün şəhəri ölümə tərk edərək 637-ci ilin mart ayında,gecə vaxtı möhtəşəm Veh-Ərdəşir şəhərini işğal edib əhalisini qılıncdan keçirdilər.Müsəlmanlar onsuzda aclıqdan hərəkətdən düşüb huşuni itirmiş şəhər xalqına zülm edib,qadınlara təcavüz edir

129.Bax: Təbəri I, s.2422, stk.12;s.2425, stk.12;s.2427,stk. 9-11.Burada Seyfin xronologiyası digər müəlliflərin məlumatlarını təkzib etmir.

130.Yenə orda,s.2427,stk.12-13:s.2428,stk.3-6.

131.Yenə orda ,s.2429,stk.8-11.

132.Yenə orda,s.2431,stk.14-15:İbn əl-Əsir 2,s.397.

və onları qarət edirdilər.Artıq var-dövlətdən və qənimətdən gözü dönmüş vəhşi bədəvilər islamın təməl qaydalarını çoxdan unutmuş və yalnız qənimət haqda düşünürdülər*(Aşağı şəhər(Köhnə şəhər) – Veh-Ərdəşirin digər adları)*.

Vəziyyət o yerə çatmışdı ki,onlar Səədi belə dinləməkdən boyun qaçır və hətta xəlifənin məktublarına da məhəl qoymurdular.Səəd bu üzdən ordunu ələ almaq üçün Veh-Ərdəşirdə iki ay qalmalı oldu.Müsəlman ordusunu Mədaindən yalnız Dəclənin sol axarları ayrırdı və orada olan körpülər dağıdılmışdı.Bu üzdən də müsəlmanların orada qaydaya düşəs on doqquz ay vaxt apardı(133)

***Mədainin işğalı. Azərdoxt – Borandoxt.*** Onlar Mədainə çatan kimi Rüstəmin də ölüm xəbərini şahənşaha çatdırdılar. Bunu eşidən kimişahzadə Boran ayağa qalxdl və hönkür-hönkür ağlamağa başlad və III Yəzdigerd də nə deyəcəyini bilmirdi və uzun müddət susmuşdu. Bu zaman Şahənşah III Yəzdigerdin böyük bibisi Azərdxod əlində əsa saraya daxil olaraq deyinə-deyinə hökmdara tərəf gəlirdi və o deyirdi:



- Rüstəm üçün ağlamaq lazım deyil, o bir satqın idi və atası da satqın olmuşdur,atasını mən öldürdüm və özü isə ərəblər tərəfindən öldürüldü.Bu lazımsız şəxs ölümdən başqa heç nəyə

133. Bax:Bəluzari,mətn,s.262;ingl.tərcümə,t.1.,s.417.

layiq deyildi. Şahzadə Boran hələ də hönkür-hönkür ağlamağa davam edirdi.

Budur ərəb ordu düşərgəsi, ərəb ordu komandanı Səəd bin Əbu Vəqqas iranlılar üərində böyük qələbədən sonra sərkərdələri başına yığıb deyirdi:

- “Mən bu gün səhər Mədinə şəhərinə əmirəlmömünin Ömər bin Xəttaba bir namə yazıb göndərdim və xahiş etdim ki,bizə İranın paytaxtı Mədain şəhərinin üzərinə hücuma keçmək üçün icazə versin. Bu vaxt əsir İran əsgərlərini zəncirləmiş halda gətirdilər. Onları görən Səəd bin Əbu Vəqqas onların yanına gəlib soruşdu siz kimsiniz və nə istəyirsiniz?

- Biz iranlılarıq, III Yəzdigerdin əsgərlərik və islam dinini qəbul etmək istəyirik! – deyə İran əsgərləri cavab verdilər.

- Siz Farssız? – deyə Səəd bin Əbu Vəqqas sual verdi.

- Xeyir əmir! Biz Deylmilərik və istəyirik ki,əmir bizi öz təbələri sırasına qəbul etsin! – deyə əsgərlər cavab verdilər. Bu zaman ərəblərin içərisindən təkfir səsi gəldi və Səəd bin Əbu Vəqqasın göstərişi ilə bir müsəlman əsgəri öz qılıncı ilə əsir iranlıların əllərindəki zəncirləri kəsməyə başladı.

638-ci il, Kadisiyyə məğlubiyyətindən artıq iki il keçmişdi, lakin bu məğlubiyyət iranlıları dərindən sarsmış və onların ürəyində dərin yara açmışdı.

Budur Sasanilərin paytaxtı Mədaində sasanilərin ağ sarayında şahənşah III Yəzdigerd öz taxtında çox narahat əyləşmişdi.Aşağıda isə yenə həmən cadugər əlindəki müxtəlif daşlarla fal açırdı. Sarayın ortası ilə şahənşah III Yəzdigerd dərin düşüncələrə dalmış halda o tərəfə-bu tərəfə gedirdi.

Bu vaxt daşları üfləyib yerə atan falçı üzünü III Yəzdigerdə tutub dedi:

- Ulduzlar bizə xəbər verir ki, biz yenə də ərəbləri bu torpaqlardan qovacıyıq və ağacımız yenidən çiçəklənəcək.

Şahzadə Boran da bir kənarda oturub olanları izləyirdi. Sonra isə şahənşah III Yəzdigerd falçının bu sözlərindən qəzəblənib dedi:

- Sən bayaqdan nə sarsaqlayırsan! Açıq danış görüm! İşarəli danışıqlardan zəhləm gedir. Şahənşahın qəzəbləndiyini görən falçı qorxusundan sözlərini dəyişib dedi:

- Şahim! Rüstəmin ölümünə baxmayaraq qələbə farsların olacaq və o vaxt bütün sərkərdələr də paytaxtda idilər və hələ bunu nə ilə bitəcəyindən tam əmin deyildilər. Sarayın digər otaqlarında sərkərdələr yerləşmişdilər. Günortaya yaxın İsfəndiyar, Bəhram, Cavanşir, Şəhriyar və Sebos hava almaq üçün mədaindəki meyxanaların birinə getdilər. Onları bir neçə əsgər də müşaiət edirdi və onları meyxanada xüsusi bir otaqda əyləşib şərab içməyə başladılar və bu vaxt Bəharm üzünü hamıya tutub dedi:

- Görünüşə baxılırsa bu İsmail övladları dayanmayacaqlar və onun sözünə dəstək verən İsfəndiyar da dedi:

- Hə qardaş! Deyəsən elə sən deyən olacaq və onlar şəhərə hücum edəcəklər. Bu vaxt əlini birtərəfli dirsəkləyib şərab içən Cavanşir birdən şərab içməyi dayandırdı və təəccüblə soruşdu:

- Anlamadım! Hansı şəhri nəzərdə tutursunuz?

Hansı şəhər olar,Mədaini deyirlər də! - deyə Şəhriyar da söhbətə qoşuldu.

-Yəni bu da bizim sonumuz dedməkdir, əgər daxil ola bilsələr! – deyə Cavanşir söhbətə qoşuldu.

- Artıq bu onlar üçün çətin deyil,birdəki,öz ölməyimə inanardım amma Rüstəmin yox! – deyə Bəhram Fərruxzad cavab verdi.

- Hə!,Doğru deyirsiniz! Mənim də inanmağım gəlmir,yəni belə bir igid qəhramanı öldürdükdən sonra görən bizə nə edərlər1 – deyə cavanşir Mehran onun dediklərini təsdiqlədi.

- Hələ nəzərə alsaq ki İran ordusunun ən güclü sərkərdələri olan Hörmüzan,Bəhmən və digərləri də artıq həyatda deyillər və bundan sonra işimiz çətin olacaq! – deyə Şəhriyar dilləndi.

- Qardaşlar! Nəyin bahasına olursa-olsun paytaxtımızı o murdar əəblərə təslim etməməliyik və bunun üçün şəhərdə olan digər hərbi birlikləri yeni döyüş üçün hazırlamalıyıq! – deyə Bəhram Fərruxzad cavab verdi. Beləcə onlar meyxanadan çıxıb saraya doğru gəldilər. Axşam saatları və sasanilərin ağ sarayı və şahənşah III Yəzdigerd atravanın müşaiəti ilə baş atəşgaha getdi və orada baş kahin oda dua edib dedyirdi:

- “Ey müqəddəs Azər! Sən bizi hifz et! Sən şahənşah III Yəzdigerdi hifz et!

Bu ritual bir saat davam etdəndən sonra III Yəzdigerd baş məbəddəki məsləhət otağına keçdi və şahzadə Boran da orada idi və o dedi:

- Biz nəyin bahasına olursa-olsun gərək var qüvvəmizlə çalışaq ki, mədəniyyətdən kənar ərəbləri paytaxt mədainə buraxmayaq.

- Biz gərək zahirən islamı qəbul etmiş bir atəşpərəsti göndərək Ömə bin Xəttabın yanına və o da onun qılığına girib onu öldqürsün! – deyə Atravan cavab verdi.

- Düşünürsüz ki,bu bizim başımıza gələn bu müsibəti dayandıra bilər? – deyə şahzadə Boran soruşdu.

- Niyə də yox! Burada bizim başımıza gələnlər bir başa onun adı ilə bağlıdır və onun ölümü müsəlmanları dərindən sarsıdar və biz az da olsa vaxt qazanarıq! – deyə Atravan cavab verdi.

- Hə!Hə! Bu lap yerinə düşər! – deyə III Yəzdigerd də söhbətə qoşuldu.

- Bunun üçün bizə çox zaman lazımdır ama bizim vaxtımız azdır və tezliklə müsəlmanların Mədainə daxil olmalarının qarşısını almalıyıq! – deyə şahzadə Boran sözünə davam etdi.

- Hə! Hə! Doğru deyirsiz! – deyə III Yəzdigerd onun dediklərini təsdiqlədi.

Şahzadə Boranın sözlərini III Yəzdigerd alma yediyi üçün yalnız başı ilə təsdiqləyirdi və bu vaxt qapıçı içəri girib təzim etdi və dedi:

- Əlahəzrət! Bavəndi Fərruxzad hüzurunuza çıxmaq üçün rüsxət istəyir.

- Hə! Tez olsun buyursun gəlsin! – deyə II Yəzdigerd əli ilə işarə etdi və bu zaman qapı açıldı və Bavəndi Fərruxzad içəri girib təzim etdi və ayağa qalxaraq dedi:

- Əlahəzrət! Müsəlman ordu birlikləri çayı keçməyə başlayıblar və tezliklə Mədainə hücum edəcəklər.

- Onlar Fəratın biz tərəfinə heç cür üzüb keçə bilməzlər, çünki, onların heç bir qayığı və ya su nəqliyyatı yoxdur! – deyə III Yəzdigerd əlavə etdi.

- Mən də belə hesab edirdim,lakin onların hamısı çayın o biri sahilinə yığışıblar- deyə Bavəndi Fərruxzad cavab verdi. Bu vaxt III Yəzdigerd bir müddət susaraq cavab vermədi və bunu görən Bavəndi Fərruxzad sözünə davam edərək dedi:

- Əlahəzrət! Deyirəm bəlkə onlara pul verək ki bizi rahat buraxsınlar.

Bavəndi Fərruxzadın bu sözlərindən qəzəblənən şahzadə Boran yerindən qalxıb dedi:

- Onlara xərac ödəmək,elə məğlubiyyət kimi bir şeydir. İkincisidə ki, sən qardaşın Rüstəm öldükdən sonra İran ordusunun ali baş komandanısan və şahənşahı dilə tutmaq əvəzinə kişi olub onu müdafiə et. Bibisinin sözünə dəstək verən III Yəzdigerd də ordu komandanına üzünü tutub dedi:

- Hə, Boran doğru deyir,gedin məni kişi kimi müdafiə edin., birdəki əgər siz bunu edə bilməsəniz, onda mən sizi öz əllərimlə öldürəcəm.İndi get və bütün sərkərdələri mənim yanıma göndər. Bu sözdən sonra Bavəndi Fərruxzad çıxdı və az sonra Cavanşir, İsfəndiyar, Şəhriyar, Rüstəmin qardaşı Hürrzad içəri girdilər.

Onları görən kimi şahzadə Boran üzünü onlara tutub dedi:

- İgidlər, Hacər oğulları vəhşicəsinə şəhərlərimiz viran edir və mədəniyyətimizi aradan götürməyə çalışırlar və ərəblərlə apardığımız bir neçə döyüşdə adlı-sanlı sərklərdəılərimizi itirmişik. Odur ki sizi çağırdım ki, siz nəyin bahasına olursa-olsun onların qarşısını almalısınız və onları şəhərə buraxmamalısınız.

Qeyd etmək istəyirəm ki, şəhərimiz dör şəhərin birləşməsindən əmələ gəlmişdir və ərəblər ilk öncə onun qərb hissəsi olan Ktesifona girməyə çalışacaqlar,ona görə də tədbiri əldən verməyin.

Sonra isə III Yəzdigerd əli ilə işarə edən kimi xidmətçilər əllərində hədiyyələrlə içəri girdilər. Ölkəniz üçün göstərdiyiniz xüsusi qəhrəmanlıqlara görə İran xalqı sizin kimi övladlarını heç bir zaman unutmayacaqdır və sonra isə ilk olaraq ali baş komandan Bavəndi Fərruxzada “qızıl kəmər” bağışladı və o kəməri alaraq öpdü və alnına vuraraq təşəkkür edib geri çəkildi.

Sonra Rüstəmin ikinci qardaşı Hürzada da “qızıl kəmər” bağışlayıb dedi :

- “Kaş İran ordusu sizin müqəddəs nəslinizin igid kişiləri ilə dolu olaydı və onda mən nəinki İsmail övladlarını,bütün dünyanı tutardım,

Üçüncü olaraq isə İsfəndiyara tutub dedi:

- Ey əmim oğlu,dar günümdür,yetiş qardaşını bu vəhşilərin əlindən qurtar və sonra isə ona isə ”qızıl dəbilqə”

bağışladı,dördüncü isə Şəhriyara “ Sən də ey əmim Behzadın oğlu”,eşit məni,bu dar gündə xalqımızın və mənim sənin köməyində gözümüz var və bizi peşiman etmə” deyərək ona “qızıl kaman” bağışladı,o da digərləri kimi təşəkkür edib geri çəkildi və snövbə Bəhrama gəldi və şah ona hədiyyə vermək istəyəndə bu zaman bayaqdan Bəhramı süzən şahzadə Boran tez tez ayağa qalxıb III Yəzdigerdin biləyindən tutub dedi:

- Əlahəzrət,rüsxət versəz Bəhramı mən öz əllərimlə təltif etmək istəyirəm.



*II Yəzdigerd:* Hə bibi buyurun.Sonra Boran asta-asta irəli gəldi və xidmətçidən “qızıl tacı” götürüb Bəhrama tərəf gəldi və dedi:

- Ey əmim Fərruxun oğlu, sənin haqqında çox eşitmişdim, amma görmək bu günə nəsib imiş. Biləsən ki, əgər siz bu gün düşmənə qalib gələ bilməsəniz və həlak olsanız onda qarı düşmən xalqımızın qadınlarını,mən də daxil olmaqla qul edib öz kölələrinə çevirərlər və odur ki,vuruşan zaman bunu heç yadından çıxarma”. Sonra da “qızıl tacı “ onun başına qoydu və geri çəkildi.

Sonuncu adam Cavanşir qalmışdı və III Yezdigerd onu görən kimi dedi:

- Yaxın gəl ey əmim oğlu,ey müqəddəs Mehranın soyundan gələn,sənə xüsusi hədiyyəm var,zira sən həm öz xalqının,həm də öz hökmdarının yolunda kifayət qədər vuruşdun. Bütün bu

xidmətlərinə görə də bir yox bir neçə hədiyyəyə layiqsən deyib xidmətçiyə tərəf döndü və ilk olaraq Cavanşirə dəstənin önündə aparmaq üçün xüsusi daş-qaşla bəzədilmiş İran bayrağı,zil səsli qızıl şeypurlar,iki qızıl mizraq və qızıl suyuna çəkilmiş qalxanlar,qiymətli daş-qaşlarla bəzədilmiş qızıl kəmər,qızıl dəstəkli qılınc,qızıl qolbaq və qızıl tac verdi .

Sonra isə sözünə davam edib dedi:

- Bu müqəddəs oda and olsun ki, mən səni bütün sərkərdələrimdən öndə görürəm deyəndə birdən gözü Cavanşirin yarasına sataşdı. Bu qılınc yarası idi və Cavanşirin qolundan qan damcılanırdı. Bunu görən şahənşah tez qışqırdı:

- Tez olun, həkim çağırın, yox-yox mənim şəxsi həkimimi çağırın. Bu vaxt şahənşahın xüsusi həkimi gəlib Cavanşirin qolunu sarıdı və qanaxmanı dayandırdı. Şahənşah III Yəzdigerd bütün sərkərdələri təltif edəndən sonra üzünü onlara tutub dedi: - İgidlərim, indi isə gedin və o Hacər oğullarını durdurun, son həmləni edin, sonra sərkərdələr bir-bir çıxdılar. Bu zaman şahənşahın böyük bibisi Azərdoxd öz əsasını daşa-divara vura-vura içəri girib dedi:

-Bəla, bəla,bəla gəlir,indi biz bu bəladan necə qurtulacağıq, əgər bu vəhşi ərəblər Mədainə daxil olsalar, onda hamımızı qula çevirərlər, ya da öldürərlər. - Yox, bibi, ərəblər gələndə biz artıq burada olmayacağıq! – deyə III Yəzdigerd cavab verdi.

Şahənşahın bu sözlərindən təəccüblənən şahzadə Boran soruşdu:

- Əlahəzrət! Siz bununla nə demək istəyirsiniz?

- Hər ehtimala qarşı xəzinəmi də götürüb Zaqros dağlarındakı hovlana çəkiləcəyəm1 – deyə III Yəzdigerd cavab verdi.

- Siz qaçırsınız? – deyə şahzadə Boran soruşdu.

-: Heç də yox,mən sadəcə Hovlana gedib Rüstəmin qardaşı Hürzada yenidən qoşun yığmağı tapşıracağam ki,o da gəlib bu murdar ərəbləri məğlub edib çayın o biri sahilinə atsın! – deyə III Yəzdigerd cavab verdi. Bu zaman saray mühafizəbaşısı içəri girib dedi:

- Şahzadəm, narahat olmağa dəyməz, mən hökümdarı xüsusi olaraq mühafizə edəcəyəm. Birdən İsfəndiyar çayın o biri sahilində toplanmış ərəb ordusunu görüb dedi:

- Onlar çayı keçə bilməzlər.

- *Əgər* keçməsələr, onda biz o taya keçərik! - deyə Cavanşir Mehran cavab verdi.

Müsəlmanlar çayı uzun-uzadı gəzir və keçmək üçün dayaz yer axtrırdılar və taleh onların üzünə güldü. Yerli xristian ərəblərdən biri Səəd bin Əbu Vəqqasa çayın dayaz yerini göstəridi və oradan atlı süvarilərin keçə biləcəklərini dedi(134). Lakin Səəd həmən yerdə suyun daşması səbəbi ilə keçməyi qəbul etmədi(135). Həm də ki, ona məlumat verirdilər ki, tezliklə III Yezdəgerd paytaxta qayıdacaq və bu üzdən də Səəd ordunu çayın o biri tərəfinə keçirməyə başladı(136). Beləliklə, Asimin başçılığı ilə ərəb ordusunun 600 nəfər atlıdan ibarət ilk könüllüləri çayın o biri sahilindəki Firad məntəqəsinə tərəf keçməyə başladılar. Bunu görən Səəd təkfir gətirib qılıncını çıxardı və orduya o biri sahilə keçməyi əmr etdi və bütün ərəb atlı ordusu çaya girib o biri sahilə üzməyə başladı. Keçid uğurlu oldu və müsəlman ordusu çayı o biri üzunə üzüb keçdi və bunu görən İran əsgərləri qışqırmağa başladılar:

- “Baxın,ərəblər çayı keçdilər”. Əsgərlər təlatümə düşdülər və hamı silaha sarıldı. Çayın İran tərəfinə keçən kimi ərəb

134.Bax:Təbəri,mətn,s.262;ingl.tərcümə,t.1,s.417.

135.Yenə orda,s.2432,stk.5.

136.Yenə orda,s.2435,stk.2-5;İbn əl-Əsir 2,s.398.

sərkərdəsi bütün orduya dayanma işarəsi verdi və hamı dayandı. Bu zaman İran atlı süvariləri onların üzərinə hücuma keçdilər və bu zaman ərəblər onları ox atəşinə tutdular.

Ərəb əsgərlərinin atdığı oxlardan İran əsgərlərinin sarsıldığını görən ərəb atlı dəstələri onların üzərinə hücuma keçdilər və qızğın döyüş baş verdi. Ərəb ordu komandanı Səəd bin Vəqqas isə çayı hələ keçməmişdi və o taydan döyüşün gedişini izləyirdi. O, iranlıların qaçdığını görən kimi çayın o tərəfindəki digər ərəb atlı süvarilərinə də İran tərəfə üzüb keçmə işarəsini verdi və hamı çaya girib o taya keçdilər.

Çavanşir Mehran və digər İran sərkərdələri cəsarətlə vuruşurdular və Cavanşir özü altı yerdən yaralanmışdı. Ərəblər Cavanşiri, Bəhramı, Şəhriyarı, Söhrabı, Şahramı, Fərruxanı və İsfəndiyarı çayın sahilinə sıxışdırdılar. Bu zaman çayın sahilinə sıxışan bu sərkərdələr 1000 dən çox müsəlmanı qılıncdan keçirdilər, lakin döyüşün mənasız olduğunu görüb Dəclə çayına atılıb o biri sahilə keçdilər. Ktesifonda müsəlman ordusunun çayı keçmə xəbəri eşidilən kimi şəhərdə böyük panika düşdü və dinc sakinlərlə bərabər ordu birləşmələri də şəhəri tələsik tərk etməyə başladı.

Dəhşətli mənzərə idi,küçələrdə insanlar o tərəfə-bu tərəfə qaçır, uşaqlar ağlayır və qocalar ah-nalə edirdilər və bu iranlılar üçün dünyanın sonu kimi bir şey idi.Qaçanlar yalnız özlərinin bahalı əşyalarını götürə bilirdi. Bununla bərabər Farid məntəqəsində İran ordusunun bəzi birləşmələri hələ də qəhramanlıqla vuruşur və müqavimət göstərirdilər, lakin onlar da Mədainin boşaldığını eşidən kimi öz mövqelərini tərk etməyə başladılar(137).

---

137.Bax: Təbəri I,s.2434,stk.9-10;s.2348,stk.11-12;s.2439,stk.11-12;s.2442 stk.1-5.

***Mədainin alınması.*** Ərəblərin çayı keçdiyini eşidən III Yəzdigerd tələsik bütün xəzinəsini yığıb qaçmağa başladı.Bu vaxt III Yəzdigedrin qaçmaq istədiyini görən şahzadə Boran onu saxladı və dedi:

- Əlahəzrət,qaçmaq bizim üçün bir rüsvayçılıqdır.

Bu vaxt həyətdə şahın xüsusi qarnizonu müqavimət göstərirdi və sağ qalan sərkərdələrdən Bəhram da sarayın həyətində hökmdarı qorumaqla məşğul idi. Birdən yaşlı bir adam sarayın həyətinə daxil oldu və döyüşçülər ona tərəf gedəndə o farsca danışmağa başladı:

-Dayanın! Atmayın! Mən sizdənəm! Döyüşçülər onun farsca danışdığını görüb təəccüblə soruşdular: Əgər sən iranlısansa, bəs niyə müsəlmanlar kimi geyinmisən və adın nədir?

- Adım Mabaxdır, müsəlmanlar mənə Salman Farsi deyirlər və buraya sizi islah etməyə gəlmişəm! - deyə yaşlı adam cavab verdi.

- Nə, sən bizi islah etməyə gəlmisən, yoxsa satmağa, biz anlamadıq, sən farssan yoxsa ərəb? – deyə İran əsgərləri soruşdular.

Bu zaman saray mühafizə başçısı qocanı tanıyıb dedi:

- Bu sənsən, Buzəxşanın oğlu Mabax?

- Çox təəssüf ki, bu mənəm və mən islamı qəbul etmişəm və ərəblər mənə Salman Farsi deyirlər! – deyə yaşlı adam cavab verdi.

- Ey satqın! Sənin kimi iranlının dünyaya gəlməməsi lazım idi, utansın səni doğan ana, sən iranlılara ləkəsən. Əvvəl Azəri idin, sonra nəsraniliyi qəbul edib qaçıb getdin Suriyaya, ondan sonra da əsir düşdün və müsəlmanların peyğəmbəri səni alıb müsəlman etdi,indi sən nə üzlə gəlibsən bura? – deyə muhafizəbaşı soruşdu.

- İstəyirsiniz məni öldürün, mən müsəlman olsam da qəlbimdə bir Ariyəm və ürəyim İran həsrəti ilə çırpınır. Sizə yalvarıram, sadəcə deyin ki, Allah təkdir və Məhəmməd(s) onun rəsuludur və qılıncı qoyun yerə! – deyə Salman Farsi onlara yalvarmağa başladı.

- Sonra da tazilər gəlib bizi qılıncdan keçirsinlər, eləmi? – deyə İran sərbazları soruşdular.

- Yox-yox, siz nə danışırsız, bu əsla baş verməyəcək! – deyə Salman Farsi cavab verdi.

- Bəs nə olacaq? – deyə İran əsgərləri soruşdular.

- İnanın ki, müsəlmanların xəlifəsi sizi əfv edər! – deyə Salman Farsi cavab verdi. Bu zaman əsgərlər onun üzərinə hücum etmək istədilər, lakin at üstündə Bəhram şah tez atını qabağa sürüb ona mane oldu və üzünü qocaya tutub dedi:

- Tez ol get burdan,çünki bir gün bizim bu faciəmizi qələmə alan şəxs əminəm ki, mənə və sənə fərqli qiymət verəcək və bütün bu ölənlərin günahı sənin də boynundadır. Sonra isə Bəhram yenə sözünə davam edib dedi: Odur ki nə qədər ki, səni öldürməyiblər çıx get. Bu sözdən sonra o adam çıxıb getdi.

Sarayda çaxnaşma düşmüşdü və III Yezdəgerd onu tutub saxlayan bibisi Borana dedi:

- Hal-hazırda sən Sasanilər arasında burada durub gözləmək istəyən bir kişi də tapa bilməzsən, odur ki, çəkil önümdən! - deyə şahzadə Boranı itələdi və elə bu vaxt qapıçı içəri girib dedi:

- Əlahəzrət! Müsəlmanlar artıq sarayın ön qapılarındadırlar və bunu eşidən III Yəzdigerd sarayın arxa gizli youndan çıxdı. Bu vaxtlarda səsli-küylü Mədain əhalisi müsəlman ordusunun gəldiyini eşidib qaçmışdılar və ərəblər Ağ sarayın qapısına çatıb dayandılar.

Səəd ibn Əbu Vəqqas özü tək atı il sarayın həyatinə girdi, sonra o, pilləkənlərlə yuxarı qalxıb qılıncı ilə darvazanı itələyib içəri daxil oldu. Bu vaxt arxa qapıdan çıxmağa çalışan III Yəzdigerdi onun böyük bibisi Azərdoxd saxladı və dedi:

- Heç yerə qaçma və çıx müsəlmanların qarşısına mətanətlə son damla qanına qədər vuruş,sənin əcdadların ərəblərin qarşısından heç bir zaman qaçmayıb və əyilməyib. Bu vaxt ərəb atlısı sarayın mərmər həyəti ilə hökmdarın foyesinə tərəf gəlirdi və bunu eşidən kimi III Yəzdigerd qaçdı və sarayda tək qalan Azərdoxd uca səslə qışqırırdı:

-“Vay başımıza gələnlər, sasaniləri müsəlmanlar yox, məmur özbaşınalığı və rüşvətxorluq məhv etdi”. III Yəzdigerd qaçan zaman onunla ailə üzvlərndən oğlu II Firuz, Bəhram və qızları Cahanşah(Şəhrəbanu) və Mardanavar(Mərzbanu), Adrak də var idi.

•

***Ağ sarayın talanması:*** Həyətə girən ərəb atlısı yuxarıdan uca səslə Səəd bin Vəqqasa dedi:

- Əmir,hamı qaçıb gedib,içəri gələ bilərsiniz. Bunu eşidən bütün ərəb atlıları atdan düşüb vəhşi kimi sasanilərin dəbdəbəli sarayına tərəf qaçdılar. Sarayada iranlıların yalnız kiçik bir dəstəsi qalmışdı və onlar sonuna qədər vuruşmaq andı içmişdilər. III Yezdəgerd bir az əvvəl təhliyə əmr vermişdi və ilk öncə şahın ailəsi, sonra isə özü onların ardınca Huvlana tərəf hərəkət etmişdi. Lakin şahın bibiləri olan Azərdoxt və Borandoxt sarayı tərk etməkdən imtina edib sonuna qədər öz ata-babalarının saraylarında qalacaqlarını bildirdilər.

III Yezdəgerd Mehran və Nahverqana tapşırıq verdi ki, onlar İran hökuməti Hovlana köçənə qədər ərəbləri yubatsınlar,amma sərkərdələr bu tapşırığın öhdəsindən tam gələ bilmədilər.

Şahzadə Boran isə vəhşi ərəblərin saraya daxil olmalarına rəğmən öz otağında sakitcə oturururdu. Onun əlində Rüstəmin ölməmişdən əvvəl ona Şəhriyar vasitəsi ilə göndərdiyi üzük var idi və Boran o üzüyə baxıb Rüstəmi xatırlayır və göz yaşı tökürdü, sonra isə onun qaşını qaldırdı və oradakı zəhəri içərək öldü. Belə ki tək qalmış Azərdoxd yeriyərkən xidmətçiləri səsləyirdi ki, ona kömək edib saraydan çıxarsınlar.Bu zaman onun qolundan biri yapışıb dedi: Xanım, islam bizə qadınları və uşaqları öldürməyi qadağan edir və əsasən də korları. Bunu eşidən Azərdoxd qışqırarq dedi:

-“Vay başıma, kül başıma, murdar tazilər Sasani sarayında! deyib yıxılıb öldü.

Beləcə ərəblər Sasani şahənşah sarayına doluşub oradakı bütün atəşləri söndürdülər və hökmdarın bütün qızıllarını taladılar. Sonda isə Səəd bin Vəqqas sasanilərin dəbdəbəli sarayına girdi və heyrətdən donub qaldı və dedi:

- Sasanilər qaçıblar amma ardında nə qədər gözəl bağları və fəvvarələri qoyub gediblər və sonra o, dua oxuyub özü də III Yəzdigerdin sarayına girdi və bütün saraya göz gəzdirdi. Səəd ibn Əbu Vəqqas III Yəzdigerdin qızıldan olan tacını yerdən götürüb Sürəkə adlı ərəbə verdi və göstəriş verib dedi:

- “İndi isə azan vermək vaxtıdır və beləliklə, sasanilərin tərk edilmiş sarayında ilk azan verildi və azandan sonra Səəd bin Vəqas şəhərdə olan bütün var-dövləti talamağı əmr etdi. O, ağ saraydakı toplanmış bütün qızılların 5-1-ni Mədinə şəhərinə Xəlifə üçün göndərdi və yerdə qalan qəniməti öz döyüşçüləri arasında böldü. Belə ki, Səəd bin Əbu Vəqqasın komandanlığı altındakı 60 minlik ərəb əsgərinin hər biri 12 min gümüş dirhəm aldı və ağ sarayın divarlarında yerləşdirilmiş daş-qaşlar müsəlmanların ağlını başından almağa yetirdi. Onlar Hindistandan gətirilmiş bahalı daş-qaşlara baxıb heyrətindən donub qalırdılar. Ərəblərin Sasani sarayında tapdıqları ən

qiymətli şeylərdən biri də xalça idi. Belə ki,bu xalçanın uzunluğu 300 metr,eni isə 50 metr idi və onun üzərində bağ əks olunmuşdu və bu bağdakı bitkilər,ağaclar və meyvələr qızılla xüsusi olaraq nəqş olunmuşdu.Xalçanın ətrafı yaşıl rənglə hörülmüşdü. Səəd bin Vəqqas bu xalçanı Mədinə şəhərinə xəlifə Ömərə göndərdi, amma Ömər bu xalçanı nə edəcəyini bilməyib onu parçalara ayırdı və bu parçalardan birini də peyğəmbərin(s) kürəkəni Əli ibn Əbu Talıba(ə) verdi. Əliyə çatan xalça tikəsinin qiyməti 10 000 qızıl dirhəm idi.

Bundan əlavə ərəblər ağ sarayın zalında çoxlu silah tapıb ələ keçirdilər və bu silahların dəstəkləri bahalı daş-qaşlarla bəzədilmişdi. Ayrıca olaraq şahənşahın qızıldan olmaqla kənarları brilliantlarla bəzədilmiş digər tacını və qızıldan dəvə heykəlini ələ keçirdilər.

Sasanilər sarayı işıqlandırmaq üçün divarlardan kamfar asmışdılar, ərəblər bu kamfarı duz hesab edib yeyirdilər və sonra da zəhərlənirdilər. Müsəlman ordusunun əsgərləri əsasən səhrada yaşayan bədəvilərdən təşkil olunmuşdu. Belə ki,bu bədəvilər ömründə dəvə südündən və yuxadan başqa heç nə görməmişdilər. Onlar bu gün Mədainin hökmdar sarayında təqribən 3 milyard qızıl dirhəm(12000 ton gümüş) ələ keçirmişdilər. III Yəzdigerd və digər saray məmurları qaçan zaman özləri ilə öz bütün xəzinələrini və bahalı daş-qaşlarını aparmalarına baxmayaraq yenə də sarayda külli-miqdarda bahalı-daş-qaş və xalı var idi.

### *1.Yadelli zülmünə qarşı xalq dirənişi. Mühacirət hökuməti.*

***Calula*** *(Yalula)* ***döyüşü*** *(637-ci il.aprel).* Ərəblər Ktesifonu qarət etməklə məşğul olduqları vaxt İran hökuməti Caluladа böyük müdafiə səddi yaratmışdılar və Calula Fars və

Midiyaya giriş qapısı idi. Calulada İran ordusuna Rüstəm Fərruxzadın kiçik qardaşı, sasanilər dövründə Adərbayqan və Xorasan sipahbədi olan Bavəndi Fərruxzad başçılıq edirdi. Lakin digər birliklərə isə Rüstəmin digər qardaşı oğlu Hürzad(Şirzad) Fərruxzad başçılıq edirdi(138). İranlılar öz ailələrini İranın içərilərinə doğru yola saldılar, çünki Caluladakı İran ordusunun ayrı-ayrı hissələrinə üç sərkərdə rəhbərlik edirdi. Belə ki,sağ qanada Hürzad, sol qanadına Xosrovun oğlu Peroz, mərkəz hissəyə isə Ənuşirəvanın oğlu Hörmüzan,əsas komandan isə Bavəndi Fərruxzad və oğlanları idi(139). Döyüşə başlamamışdan əvvəl bütün İran hərbi rəisləri atəşgaha gedib müqəddəs oda and içərək son damla qanına qədər vuruşacağını niyyət etdilər(140). Caluladakı İran ordusuna qarşı ərəblər 12 000 ordu göndərmişdilər və bu orduya Səədin silahdaşı Haşim ibn Ütbə başçılıq edirdi. Cəlulaya hərəkət edərkən ərəblər yolboyu bütün məntəqələri ələ keçirib onların əhalisi ilə sülh bağladılar(141). Ərəblər Calulanı ala bilmirdilər və mənbələrin verdiyi məlumata görə ərəblər buraya 80 dəfə hücum etdilər,lakin heç bir nəticə ala bilmədilər. Calulanın əla müdafiəsi iki ilə yaxın çəkdi, lakin Mədaindən ərəblərə gələn yeni-yeni köməklər Calulanın müqavimətini zəiflətməyə başlamışdı. Yerdə qalan 5000 nəfərlik ərəb ordusu Tiqrit şəhərini iranlılardan təmizləməklə məşğul idi, çünki bu şəhəri yerli xristian ərəblərin köməyi ilə bizanslılar tutmuşdular və Tiqrit şəhər çox alınmaz qala kimi idi. Döyüş 40 gün çəkdi və xristian ərəblərin müsəlmanlara tərəf keçməsi müsəlmanların

138.Bax:Bəluzari,mətn,s.264;ingl. tərcümə, t.1,s.420; Təbəri I,s.2461,stk.12;s.2456, stk.11-12;s.2457,stk.3-5;s.2458, stk.13; İbn əl-Əsir 2,s.404-405.

139.Bax: Təbəri I,s.2457,stk.13-14;s.2458,stk.10-11;s.2459,stk.6-7;

140.Bax: Təbəri I,s.2461,stk;ort.Bəluzari,mətn,s.264.

141. Bax2458:Təbəri I,s.,stk.4-7.

qalib gəlməsinə səbəb oldu və bu hadisə 21-28 iyul 637-ci ildə baş verdi. Tiqriti tutandan sonra müsəlman ordusu Kürdüstana girdi. Noyabırın əvvəlində iranlıların bütün oxları tükəndi və əlbəyaxa döyüş başladı. Qəqə bin Əmr Mehranın düşərgəsinə girişi bağlayandan sonra döyüşün taleyi bəlli oldu. Ərəblər iranlıları yenə məğlub etdilər və orada da Mədaindəkindən çox böyük xəzinə əldə etdilər. Belə ki ərəblər burada 30 mln dirhəm qızıl pul əldə etdilər və hər suvari 9000 dirhəm aldı və məğlub edilmiş İran ordusu Xanəkinə çəkildi. Qaqa bin Əmr İranlıları təqib edib yolda Mehranı öldürdü və Hovlanda III Yezdəgirdin düşərgəsinə yol açıldı.

Nəhayət 637-ci ilin sonunda Calula,onunla birlikdə ona bitişik olan digər ərazilər də ərəblər tərəfindən ələ keçirildi və işğal edilib əhalisi qılıncdan keçirildilər. Buraya Mahrud, Daskart, Bandanacayn, Xaniki və sair daxil idi(142). Onun ardınca 637-ci ildə Babil də müsəlmanlar tərəfindən işğal edildi və 638-ci ildə Səəd Hira yaxınlığında, Akola məntəqəsi yanında yeni şəhər olan Kufənin əsasını qoydu. Cəlulə döyüşündə Sasani ordusuna başçılıq etmiş Bavəndi Fərruxzad və oğlanları Bəhram, İsfəndiyar, Şahram, Söhrab və Fərruxan məğlub oldu(143).

***Hovlan döyüşü(637-ci il.)*** Budur III Yəzdigerd saraydan gizli yolla Xulvana qaçdı.Bu ərazi İranın şimal-qərbində idi, lakin onun ordusunun qalıqları hələ də rəşadətlə vuruşurdu. İranlılar Həmadanın cənubunda Cəlulə və Nəhavənd döyüşlərində də ərəblərə məğlub oldular. Onlar orada şəhid

---

142.Bax: Bəluzari, mətn, s .265; Təbəri I,s.2470,

143. *Bax:Pourshariati, Parvaneh (2008). Decline and Fall of the Sasanian Empire: The Sasanian-Parthian Confederacy and the Arab Conquest of Iran. London and New York: I.B. Tauris.* *ISBN 978-1-84511-645-3*.

olsalar da, amma rəşadətlə vuruşub özlərinin əsilzadə Ari adını qoruyub saxladılar. Ərəblər Holvan və Həmədanı da tutdular və şahənşah III Yəzdigerd İranın şərqinə qaçdı və gəlib Reyə çatdı. Sonra Səədin əmri ilə ərəblər İranın Haştan(Suziana) vilayətinə hücum etdilər. Oranın satrapı Hörmüzan rəşadətlə vuruşub əsir düşdü.Hörmüzanı Mədinə şəhərinə apardılar.Mədinə şəhərində onu sadə geyimdə olan müsəlmanların xəlifəsi Ömər bin Xəttab qarşıladı.

Hörmüzanın əynidə o qədər bahalı daş-qaşla bəzədilmiş paltar var idi ki, bu, Mədinə şəhərini ələ almağa yetirdi, lakin Hörmüzan islamı qəbul edib müsəlman oldu. Hovlan şəhəri Midiya ilə Babilin stıkında yerləşirdi və bu şəhər böyük strateji əhəmiyyətə mailk idi,onun əhalisi əsasən irandillilərdən ibarət idi.

Calulanın işğalından sonra ərəb ordu komandiri Həşim ibn Ütbə şəhərdə xristian ərəblərdən ibarət qarnizon saxladı. Qarnizonu gücləndirmək üçün Səəd üç min nnəfərdən ibarət hərbi dəstə göndərdi və Calulanın canişini Cərir ibn Abdullaha tapşırdı ki, Hovlanın üzərinə getsin.Ərəb ordusu Hovlana yaxınlaşanda şahənşah III Yezdəgerd İsfahana qaçdı və Hovlan da işğal edildi. Ərəblərin növbəti hədəfi Dinəvər məntəqəsi idi. Ərəblər dəfələrlə cəhd etsələr də, uğursuzluğa düçar oldular, lakin onlar Germanı da Xuvlan kimi işğal etdilər. Cərir ibn Abdullah Xovlanda öz canişinini qoydu və 640-cı ildə xəlifənin əmri ilə öz ordusu ilə bərabər Əbu Musa Əşərinin köməyinə getdi(144).

***Azdərbayqan cəbhəsi.*** Budur...şahənşah III Yezdigerdi Rey şəhərinə qədər ötürəndən sonra Bavəndi Fərruxzad öz oğlanları olan Bəhram, İsfəndiyar, Şahram, Söhrab və Fərrux

144. Bax:El.Vol.2.Leyden-Paris,1927,s.354.

və digər sərkərdlər olan Cavanşir, Şəhriyar sağ qalmış əsgərləri ilə öz ölkələrinə qayıdırlar. Cavanşir,Şəhriyar və Bəhram qabaqda, İsfəndiyar isə arxada gedirdi və o, Hovlandan ayrılandan belə çox fikirli idi və bunu görən Şəhriyar Bəhrama işarə edib dedi:

- Bəhram! Bir get soruş gör niyə bikefdir!

Bəhram isə Şəhriyarın sözünə gülümsəyərək cavab verdi:

- Bu günə qədər baş verənlər nəinki bikef olmağa,hələ bir ölməyə də yetir. Sonra isə o, atını arxaya çəkib İsfəndiyarın yanına gəldi və bir müddət onunla bərabər at sürsə də, sonra dözməyib soruşdu:

- Qardaş! De görüm ürəyini nə sıxır belə?

- Gördünmü? Hökmdarın bütün ailə üzvləri, qızları və qadınları vəhşi İsmail övladları tərəfindən təcavüzə uğradı. Deyirdilər ki, onların çoxu qula çevrildi, yəni demək istəyirəm ki, tezliklə bu bizim də başımıza gələcək! – deyə İsfəndiyar dilləndi. Bayaqdan oğlanlarını izləyən Bavəndi onları sakitləşdirib dedi:

- Oğlanlarım! İgidlərim! Görünüşə görə artıq sasanilərin sonu gəlmişdir və indi biz sasaniləri yox öz vilayətlərimizi,öz torpaqlıarımızı qorumalıyıq!

- Təklifin nədir ata? – deyə İsfəndiyar Fərruxzad soruşdu.

- İsfəndiyar! Sən öz dəstənlə Adərbayqana get və orada əhalini ərəblərə qarşı qaldır! – deyə Bavəndi Fərruxzad cavab verdi.

- Baş üstə ata! – deyə İsfəndiyar Fərruxzad atının başını çəkdi,sonra isə Bavəndi sözünə davam edib dedi:

- Sən Bəhram!

- Bəli ata! – deyə Bəhram cavab verdi.

- Hakimin olduğun Taleşan və Mukana get və oranın əhalisini ərəblərə qarşı qaldır! - deyə Bavəndi Fərruxzad cavab verdi.

- Baş üstə ata! – deyə Bəhram Fərruxzad atının başını çəkdi, sonra Bav yenə də sözünə davam edib dedi:

- Sən Şəhram!

- Bəli ata! – deyə Şəhram Fərruxzad cavab verdi.

- Sən də get Xorasana və taxtıma yiyələn və əgər mən gəlməsəm, sülaləni sən idarə et! – deyə Bavəndi Fərruxzad dedi.

- Baş üstə! – deyə Şəhram Fərruxzad atının başını çəkdi və sonra isə üzünü Cavanşir və Şəhriyara tutub dedi:

- Siz də, ey əmim oğlanları! Gedərsiniz öz mahallarınıza və əhalini ərəblərə qarşı qaldırın. Onlar da “baş üstə”! - deyib çəkildilər və bütün bunları süzən Söhrab acıqla dedi:

- Bəs mən əlahəzrət?

Bunu eşidən Bavəndi cavab verdi:

- Sən isə Ekbatanda qalacaqsan və Nəhavənddən qaçıb gələn ordu qalıqlarıyla birləşib ərəblərin qarısını alacaqsan.

- Onda qoy səninlə gəlim? – deyə Söhrab Fərruxzad soruşdu.

- Yox! Mən Təbəristana gedirəm və Fərruxanı da özümlə aparıram və orada hakimiyyəti ələ almalıyam1 – deyə Bavəndi Fərruxzad cavab verdi.

- Niyə ki? Orada nə baş verib ki? – deyə Söhrab Fərruxzad cavab verdi.

- Bizim orada olmadığımızdan istifadə edən Bəhram Çubinin nəvəsi Siyavuş Mehrani oranı ələ keçirib və üzərimə düşən vəzifə də onu oradan qovub çıxarmaqdır! – deyə Bavəndi Fərruxzad əlavə etdi.

- Onda qoy mən də səninlə Təbəristana gəlim və heç olmasa səndən sonra oranın taxtında əyləşərəm! – deyə Söhrab Fərruxzad dedi.

- Yox! Oraya da Fərruxan əyləşəcək! – deyə Bavəndi Fərruxzad cavab verdi.

- Axı niyə mənimlə beə rəftar edirsiniz? Məgər mən sizin oğlunuz deyiləm? – deyə Söhrab Fərruxzad soruşdu.

- Dedim axı sən hələ buna hazır deyilsən! – deyə bavəndi Fərruxzad cavab verdi.

Mübahisəni görən Bəhram Söhraba yanaşıb dedi:

- Qardaşım! atamız səni indi məsləhət bilmir,lakin sənin də günün gələcək.

- Yox! Siz mənimlə bir ögey kimi rəftar edirsiniz, mən gec-tez Təbəristan taxtına əyləşəcəyəm! - deyib Söhrab Fərruxzad atını kənara sürdü.

- Burdan saraya çatan kimi bütün qadınları bir qalaya yığaq və hər kəsi səfərbər edək, görək başımıza nə gəlir! – deyə Bavəndi Fərruxzad təlimat verdi.

- Hə qardaş! Doğru deyirsən! Hələ bir çataq! – deyə İsfəndiyar Fərruxzad cavab verdi.

Beləliklə, onlar bir neçə günə gəlib Ərdəbilə çatdılar. Ərdəbildə xalq hamısı matəm içində idi və baş verənləri heç cür anlaya bilmirdi. İsfəndiyar Bəhramı,Şəhriyarı və Cavanşiri üç gün qonaq etdi.

Bəhram Ərdəbildə olarkən vaxtı ilə onun sarayına dağlardan gələn mahir dəmirçini axtardı, amma tapa bilmədi, lakin onu qapıçıdan soruşdu və qapıçı isə cavab verdi:

- Əlahəzrət! Siz gedən kimi o da getdi öz məntəqəsinə. Sonra isə yenə İsfəndiyarın sərkərdələr üçün düzəltdiyi məclisə gələndə bir naməlum əsgərin saraya daxil olduğunu gördü. Yaxın gələndə gözlərinə inanmadı, bu mədainli qasid idi və mədainli qasid onu görən kimi sevinclə:

- Əlahəzrət! Çox şükür ki, sağ-salamatsız?

- Sən hardan belə? – deyə Bəhram Fərruxzad soruşdu.

- Əlahəzrət! Şəhərlə birlikdə ailəm də əsir düşdü və indi mən qalmışam tək, rüsxət versəz sisinlə qalanıza gələrm! – deyə mədainli qasid dedi..

- Mənimlə Talesana gəlmək istəyirsən? – deyə Bəhram Fərruxzad soruşdu.
- Bəli əlahəzrət! Keçən dəfə sevdim oraları, artıq vətənsizəm, qoy ora olsun vətənim! – deyə mədainli qasid cavab verdi.
- Di gəl! – deyə Bəhram Fərruxzad cavab verdi və onlar birlikdə sərkədələrin məclisinə keçdilər.

İsfəndiyar öz taxtında əyləşmiş və digərləri də öz yerlərində oturub yeyib-içirdilər.Bu vaxt İsfəndiyar ayağa qalxıb dedi:

- Həzarat! Dinləyin məni! Məlumunuz olsun ki, Hacər oğulları ilə qanlı döyüşdə məğlubiyyətə düçar olduq və çoxlu igid pəhləvanlarımız şəhid oldular. Orada və öz canlarını verdilər vətən yolunda. Bu Hacər oğulları səhralarda yaşayan və he bir insani xüsusiyyətlərə malik olmayan vicdansızlar sürüsüdür. Onlar paytaxt Mədaini ələ keçirib onu vəhşicəsinə dağıtdılar,qız-gəlinlərimizi isə özlərinə zorla arvad və ya kəniz edirlər və razı olmayanları qula çevirirlər. Belə ki onlar şahənşahın bütün ailə qadınlarını ələ keçirib təcavüz etdilər. İnanın ki, onlar tezliklə burada olacaqlar, odur ki, bu gündən gec olmayaraq onların gəlişinə hazır olmalıyıq. Əli silah tutan hər kəs dağlarda, dərələrdə səngər qursun və əmrimi gözləsin.

Ayrıca biz tək deyilik və bu işdə bizə Taleşanın hakimi – qardaşım Bəhram, Şirvan hakimi-əmim oğlu Şəhriyar və Girdiman hakimi-əmim oğlu Cavanşir də kömək edəcəkdir. Xüsusi alınmaz qala istehkamları düzəltməliyik ki,qadın və uşaqları oraya yerləşdirək. Sonra isə əlindəki şərabla dolu qədəhi qaldırıb uca səslə dedi:

- Bu yolda ya ölərik, ya da qalarıq və o soysuzlar bizim qadınlarımıza yalnız bizim cəsədlərimizin üstündən keçərək sahib ola bilərlər!

- Deyib qədəhi başına çəkdi.Axşam gec saatlarına qədər davam edən məsclis dağıldı və hamı öz yerlərinə qayıtdı.Bəhram isə Mədainli qasid və əsgərlərinin qalıqları ilə Taleşanın Babər qalasına yola düşdü. Sonra Bavəndi Fərruxzad öz kiçik oğlu Fərruxan Fərruxzadla Təbəristana, Şahram Xorasana, Cavanşir və Şəhriyar da öz ölkələrinə yola düşdülər.

***Bəhram şah.*** İki gün sonra,639 ci il,səhr saatları, ön planda Taleşan və onun mərkəzi qala şəhəri olan Babər qalası.Yenə həmişəki kimi yay təravəti özünü dağlarda, meşələrdə və sərin bulaqlarda göstərir. Budur ətraf məntəqələr olan Kusər və digər obalardan olan qız-gəlinlər çiyinlərində səhəng bulaqlara su üçün gedirlər.

Çayın o tayında isə yenə kəndlilər öz mal-qara və qoyun-quzusunu otlağa aparırdı.Bəhram və əsgərləri dağların ətəyi ilə olan daş yol ilə gəlib Küsər məntəqəsinə çatdılar və bu məntəqə qalaya ən yaxın məntəqə idi və çayın o tayında isə qala şəhəri yerləşirdi. Onlar gəlib Vazarud çayının dayaz yerindən keçib qala yoluna çıxdılar.Bu vaxt Bəhram atından düşdü və əl-üzünü çayın şırıltı ilə axan suyundan yudu və sonra da atı suvardı, üzünü mədainli qasidə tutub dedi:

- Vətən! Bax bu qədər əzizdir! Çayı da dərin! Suyu da dərin! Amma yenə əzizdir və onu qorumaq gərək! - deyib sudan çıxdı. O, çay qırağındakı bir ağaca yaxınlaşdı və elə bu zaman vıyıltı ilə bir ox Bəhramın başı üstə ağaca sancıldı.Oxu görən əsgərlər tez əyildilər, lakin Bəhram oxu tez tanıyıb gülümsədi və dedi:

- Dəli bacım! Çıx görüm! Bu mənəm Bəhram!

Bunu eşidən kimi uzaqdakı ağacların arasında atın üstündə üzübağlı bir qız çıxdı və Bəhramı görən kimi uca səslə qışqırdı:

- Qardaş! Bu sənsən? Sonra isə atı çapıb Bəhramın yanına gəldi, atdan düşən kimi "qardaş! - deyə onun qucağına atıldı.



- Əziz bacım! Necəsən? – deyə Bəhram şah soruşdu.

- Qardaş! Ulu Hörmüzdə şükr olsun ki, sağ-salamatsan, danış görüm, nələr oldu, o murdar ərəblərin cavabını layiqincə verə bildinizmi? – deyə Şəbnəm cavab verdi.

- Bacım! Mən çox yorulmuşam,hələ bir qalaya keçək,onda orada hər şeyi anladaram! - deyə Bəhram şah sonra qalaya doğru yuxarı qalxmağa başladılar.

Budur atlılardan biri tez qabaqda qalaya çapıb Bəhramın gəldiyini xəbər verdi və az kemədi ki,qaladan şeypur səsləri gəlməyə başladı. Bəhram və onun əsgərləri qalaya daxil oldular və atlardan düşüb saraya keçdilər. Bu vaxt qapıda onu saray mühafizəbaşısı və qala mühafizə dəstəsi qarşıladı.

Şeypur səslərindən sonra qala mühafizəbaşısı bölükdən ayrılıb Bəhrama məruzə etmək istəyəndə Bəhram əli ilə ona işarə edib dayanmasını istədi. Bu vaxt onun yorğun siması və əllərindəki kəsik izləri Kadusiya dəhşətini qismən də olsa, açıqlayırdı və o üzünü xidmətçiyə tutub dedi:

- Məni kimsə narahat etməsin! İstirahət edəcəyəm,sualara isə sabah cavab verərəm! - deyib otağına qapandı. Qardaşını bu halda görən Şəbnəm qalanın küləngisində o tərəfə-bu tərəf gedib öz-özünə düşünürdü:

- Görəsən qardaşım niyə belə süst olub? Nələr baş verir? Görəsən qardaşım İsfəndiyar sağdımı?

Lakin nə qədər düşünsə də, amma suallarına cavab tapa bilmirdi və sabaha qədər gözləmək isə bir ömür kimi idi.

Beləliklə, axşam oldu, hərə öz işi ilə məşğul idi. Qaladan aşağıda yerləşən şəhərciyin əhalisinin əsilzadələri sarayın foyesində Bəhramın durmağını səbirsizliklə gözləyirdilər və arabir biri-birinə nələr baş verdiyi barədə pıçıldaşırdılar. Bütün bunlara baxmayaraq hamı uzaq paytaxtda baş verənlərdən bixəbər idi. Birdən xidmətçilər o tərəfə-bu tərəf qaçışmağa başladılar və bunu görən əsilzadələrdən biri xidmətçilərdən soruşdu:

- Nə olub orda?

*Xidmətçi:* Əlahəzrət! Bəhram oyanıb taxt otağına keçir, hamınız bir azdan ora keçməlisiniz.



Beləcə bütün məmurlar və varlı əsilzadələr də divan otağına keçdilər və orada Bəhramı gözlədilər. Az keçmədi ki, Bəhram iri addımlarla içəri daxil oldu və hamını salamladı, sonra isə taxtına oturdu və əli ilə onların da oturmasını əmr etdi,hamı əyləşdi.

Bəhram üzünü saray əhlinə tutub dedi:

- Ey mənim

xalqım! Eşidin və agah olun! İndi məndən eşitdikləriniz heç də ürəyinizcə olmaz.

Belə ki,əsrlər boyu adam yerinə qoymadığımız İsmail övladları Kadusiyada 100000 –lik İran ordusunu darmadağın etdilər və Kadusiya çölündə xalqımız özünün ən güclü qəhrəmanlarını itirdi. Biz Kadusiyada, Cəlulda və Mədaində öz qəhrəmanlarımızı - Rüstəmi, Hörmüzanı, Firuzanı, Calinusu, Bəhməni, Mehranı dəfn edib gəlmişik.

Adlarını sadaladığım qəhrəmanların heç biri sağ deyil və artıq bu həyatda yoxdurlar,xalqımız onları heç bir zaman unutmayacaqdır.

Kadusiyada azğınlaşmış Hacər oğullarının başımıza gətirdikləri insanlıq cinayətidir. Paytaxtımız Mədain düşmənin əlinə keçmişdir, şah III Yəzdigerd ölkənin şərqinə çəkilmiş və onun bütün ailə üzvlərindən olan kişilər qılıncdan keçirilmişdir. Ərəblər qadınlar,qızları isə təcavüzə uğramış və zorla kölə edilmişdir. Lakin unutmayın ki, tezliklə onlar burada da olacaqlar. Odur ki biz buna yaxşı hazırlaşmalı və vətənimizin hər qarış torpağı uğrunda mübarizə aparmalıyıq. Tez bir vaxtda Talesana daxil olan Bucək, Cadə, Şahlakon, Ver, Xanbala, Arand, Mistan,Voqo, Siyakax, Simakana, Korabad, Miki, Xolovan, Pancsar, Arcavan, Otay, Hovar, Qosmalan, Hivar, Havla, Tolo, Horan, Horavar, Gilar, Potavar, Artavana, Xananapat, Qurud, Xudan, Quvdi, Papuşta, Arqavana, Rudasar qalasına xəbər yollayın müdafiə xətti təşkil etsinlər və qalaya da əsgər göndərsinlər. Sonra isə başqa məsələlərlə bağlı məşvərət etməyə başladı və üzünü baş mühafizəçi Rudəkə tutub dedi:

- Tez ol Mistan obasına xəbər yolla, qoy dəmirçi Peroz yubanmadan gəlsin qalaya, zira ona ehtiyacım var.

- Baş üstə əlahəzrət! - deyə Rudək çıxdı, sonra isə o, saray divanxana rəisi olan Tavtakı çağırıb dedi:

- Tavtak! Sən çayın o tayında,dağın yamacında bir qala inşa etdir, bütün qadınlar oraya sığınacaq və oradan həm müdafiə olunacaqlar,həm də mühafizə.

- Baş üstə əlahəzrət! - deyə Tavtak çıxdı.

Sonra üzünü Şəbnəmə tutub dedi:

- Bacım! Əziz bacım! Sənə çox güvənirəm! Bu gün sənin qılıncının zərbəsinə də ehtiyacım var və gərək sən bu döyüşdən mərd çıxasan.Əgər vəziyyət çətin olsa, Mistan obasına gedərsən, səni dəmirçi ora aparıb gizlədəcək.

- Qardaş! Ölsəm də səninlə öləcəm burda! – deyə Şəbnəm cavab verdi.

- Yox! Mən qalıb qardaşım İsfəndiyarla mübarizə aparacağıq,ayrıcam həm Şəhriyar və həm də Cavanşir bizimlədir. Lakin əgər onlar səni ələ keçirsələr,onda biz məcburi təslim olaq gərək. Bu üzdən də vəziyyətin dəyişdiyini görən kimi tez dediyim yerə getməlisən və gedəcəyin barədə mənə söz verməlisən! – deyə Bəhram şah israr etdi.

- Yox qardaş! Mən sənə belə bir söz verə bilmərəm və bunu məndən istəmə! – deyə Şəbnəm cavab verdi

- Onda səni əmim oğlunun yanına - Şirvana göndərməyə məcburam! – deyə Bəhram dedi.

- Yaxşı qardaş! Qoy sən deyən olsun! - deyə Şəbnəmrazılaşdı.

Bundan sonra hamı öz yerinə gedib hazırlığa başladı və saray boşaldı. Sonra Bəhram üzünü xidmətçiyə tutub dedi:

- Ailə üzvlərimi yanıma gətir! Bu zaman xidmətçi getdi və bir azdan içəri girib təzim etdi və dedi:

- Əlahəzrət! Oğlunuz Nəvid, xanımınız Ruhangiz və qızınız Xonak hüzurunuza çıxmaq üçün rüsxət istəyirlər.

- Buyursunlar gəlsinlər! – deyə Bəhram şah əli ilə işarə etdi.

Xidmətçi çıxdı, və az sonra onlar içəri daxil olub təzim etdilər və üzünü Bəhrama tutub dedilər:

- Xoş gördük, əlahəzrət!

Bəhram onları görən kimi gözləri yaşardı və qollarını açıb dedi:

- Yaxın gəlin! Szin üçün çox darıxmışam və bir də sizi görə bilməyəcəyimə görə çox narahat idim!

- Deyib onları qucaqladı və sonra Nəvid üzünü atasına tutub dedi:

- Atayi mehriban! Deyin görüm nələr baş verir nələr olur?

- Oğlum! Artıq vəziyyət dəyişib! Bədəvilər babalarımızın əsrlərlə qurduğu dəbdəbəli mədəniyyəti çeynəyib bir anda viran etdilər. Şahənşah ölkənin qərbinə çəkilib ki, ordu yığsın,amma inanmıram ki,nəsə alınsın. Birdəki indi bizim hamımızın canı təhlükədədir və vəziyyət dəyişsə sizi əmim oğlu və Şirvan hakimi Şəhriyarın yanına qaçıraram! – deyə Bəhram şah dedi. Bu sözləri eşidən kimi Bəhramın xanımı Ruhangizin gözləri yaşardı və dedi:

- Əlahəzrət! Biz illərdir ki sizdən ayrı qalırıq, üzünüzü bir ildə on kərə görürük desəm əbəs olar. İndidə taleh bizi sizdən yenə uzaqlara atır, lakin nə olursa-olsun biz sizinlə burada ölmək istəyirik.

-Yox! Sizi burada saxlaya bilmərəm! Sözümü dedim, indi isə gedin hazırlaşın və onlarda getdilər(140)! – deyə Bəhram şah cavab verdi.

***Son dirəniş - Nəhavənd döyüşü****.(640-cı il.10 dekabr).*Hovlvan və Xuzistanın işğalından sonra ərəb ordusu Nəhavəndə soxuldu. Nəhavənddə III Yezdəgerdin çağırışına

145. Bax: Pourshariati, Parvaneh (2008). Decline and Fall of the Sasanian Empire: The Sasanian-Parthian Confederacy and the Arab Conquest of Iran. London and New York: I.B. Tauris. ISBN 978-1-84511-645-3

əsasən güclü ordu yığılmışdı. Buraya şahın atlı suvari dəstələrindən başqa,midiyalılar, isfahanlılar və digərləri də daxil idilər. Nəhavəndə Sistan, Pars, Xorasan, German və Bəlucistandan da ordular axışıb gəlmişdilər(146) və bütün bu ordular vahid Kəyani bayrağı altında birləşmişdilər.

İranlılar bu döyüşə ciddi hazırlaşmışdılar və Səəd ibn Əbu Vəqqad Mədinəyə geri çağrılmışdı.Xəlifə bütün ərəb qəbilələrinə muraciət edib onları iranlılarla döyüşə çağırırdı(147) və birləşmiş müsəlman ordularına komandanı xəlifə peyğəmbərin(s) səhabələrindən biri təyin olunmuşdu.

O, Kufə canişinliyinə daxil olan Qaşqar şəhirinin hakimi Numan ibn Mukərrin idi. Numan həlak olacağı təqdirdə ardı-ardınca onu yerinə keçənlərin adları çəkildi və müsəlman orduları İraqın Huvlan əyalətindən Midiyaya daxil olub Nəhavəndin 120 km.nə gəlib çatdılar(148). Onlar burada xristian-ərəblərinin hərbi birləşmələrinin gəlmələrini gözlədilər, çünki bu xristian ərəbləri Nəhavənddə cəmləşən əsas İran ordusu ilə Fars və İsfahandan və ölkənin digər əyalətlərindən gələcək köməyin qarşsını almalı idilər(149). Belə ki, onsuz da yol boyu ərəb işğalı nəticəsində öz yerlərini,şəhərlərini və kəndlərini atıb qaçmış qaçqınlarla dolu idi və bu səbədən də Numan ibn Mukərrin onlara qədər heç bir ins-cinslə rastlaşmadı. O, gəlib Nəhavəndin 3 fərsəngliyində yerləşən İsbizaxan kəndi axınlığında düşərgə qurdu.

---

146.Bax: Təbəri I,s.2601,stk.1-2;s.2608,stk.5-11;Dinəvəri,s.141;Kufi 2(Heydərəbad nəşr),s.31.

147.Bax: Təbəri I,s.s.2016,stk.7-11.

148.Təbəri Seyf ibn Ömərə əsaslanaraq müsəlmanların dayandıqları üç məntəqənin adını çəkir: Mərc əl-Kələ,Təzər və Huda Şəcər.O məntəqələrdən ikincisi haqda deyirlə ki,o Nəhavənddən iyirmi neçə fərsəx aralıda yerləşir.(Təbəri I,s.1617,stk.15)Birincisi haqda İstəhri və İbn Hukal məlumat verirlər ki,(İstəhri.s.196) Mərc əl-Kələ Mermasin və Xulvan arasında yerləşir,yəni 10 fərsəx Xulvandan,17 fərsəx isə Karmasindən aralıda yerləşir).

149.Bax: Təbəri I,s.2671,stk.1-3.

Sasanilərin əsas qüvvələri isə Nəhavəndin Vayxurd məntəqəsi yaxınlığında cəmləşmişdi. Onlar şəhər girən yerlərdə dəmir şiplər yerləşdirmişdilər və bu da ərəb atlılarının şəhər hücumunun qarşısını ala bilərdi. İranlılar hətta ərəblərlə danışığa girməyə və onları Nəhavəndə hücum etməkdən çəkindirməyə də cəhdlər müzakirə edilirdi. Beləliklə qanlı döyüş başladı və iranlılar düşməni onlara yaxınlaşmağa qədər izlədilər, lakin ərəblər hiyləyə əl atıb geri çəkilmə şəklini alanda iranlılar səngərdən çıxıb ərəblərtlə açıq döyüşə girdilər. Qanlı döyüş bir neçə gün davam etdi və bu islamın təməl ideyalarına əsla düz gəlmirdi. Döyüşün gedişində hər iki tərəf böyük itki verdi(150). Sonuncu döyüşdə hansı ki Numan ibn Mukərrim özü də iştirak edirdi, ərəblər üstünlüyü ələ aldılar və İran ordusu məğlub oldu. Ordunun qalıqları Nəhavənddən iki fərsəx aralıda yerləşən bir kənddə gizləndi(151). Müsəlmanlarla açıq döyüşə girən İran əsgərlərinin hamısı şəhid oldu, lakin Nəhavəndin İran mərzbanı Dinar ərəblərlə sülh bağlayaraq həm şəhər əhalisini, həm də özünü xilas etmiş oldu.Xosrov Pərvizin soyundan gələn Nehverqan isə atəşgahda gizləndi. Nəhavənd döyüşünü Kadusiya ilə müqayisə etmək olardı. Nəhavənd məğlubiyyətyi İran milli fəlsəfəsində çaşqınlıq yaradaraq onun özünüdərketmə milli dəyərlərinə böyük zərbə vurdu.Məğlub olmuş İran ordusunun komandanları öz aralarında razılaşa bilmədiklərinə görə ərəblərə qarşı birgə mübarizə apara bilmədilər(152). Digər ordu qalıqları isə Nəhavənddən 14 fərsəx aralıda yerləşən,

150.Bax: Təbəri I,s.2597-2598;Dinəvəri,s.143.

151. Dinəvəridə دز بيزيد. adının yaşayış məntəqəsi adı olduğunu dəqiq demək olmur.Lakin bu sözün ərəbcə olan formasının əvvəlindəki دز -önlüyü ərəbcə “məntəqə” mənasını verir.

152. Bax:Təbəri I,s.2615,stk.9-11.

Həmədana çəkildilər(153). Bununla da həm Adərbayqanın həm də Taleşanın işğalına yol açıldı. İran ordu komandanı ərəblərə əsir düşdü, lakin digər məntəqələrin əhalisi ərəblərlə sülh bağlayıb öz canlarını xilas etdilər. Ərəblər tezliklə Dinavər əyalətini, Həmədandan Cərmidana qədər olan ərazini də ələ keçirdilər(154).

153.Bax: İstəhri,s.197155.
154.Yenə orda,s.2650;Həmədani,s.217-218

# IV BÖLMƏ. ŞİMALA DOĞRU

## *1.İstilalar- Adərbayqan*

***Azərbayqanın istilası.*** Əbu Bəkr (r.a.) h.13-cü ilin cəmadi-əl-axir ayının 22-də (27 iyul 634) çərşənbə axşamı günü vəfat etmişdi və həmin gün Ömər ibn Xəttab Allah Rəsulunun (s) II xəlifəsi vəzifəsinə möminlərin yekdil qərarı ilə seçilmişdi. Onun xəlifəlik müddəti İslam tarixinin qızıl dövrü kimi qiymətləndirilə bilər. Belə ki, İran, İraq, Suriya, İordaniya, Misir, Kürdüstan, Gürcüstan, Adərbayqan və Şimali Afrika kimi məmləkətlər onun dövründə fəth edilərək islam dövlətinin ərazisinə daxil edilmişdi(155). H.18/m.639-cu ildə Ömər ibn Xəttab Sasani əsgərlərinin harada olursa olsun təqib olunması haqqında cəbhədəki müsəlman komandirlərə fərmanlar göndərmişdi. Bu əmrlərə əsasən Kufə və ətrafında yerləşən hərbi birləşmələr Azərbaycan, İsfahan və Rey istiqamətində hücuma keçmişdilər(156). Bu hərbi əməliyyatlar kəşfiyyat xarakteri daşımaqla yanaşı, ərəblərin Azərbaycan torpaqlarına ilk gəlişləri idi. Mənbələr bu təqib əməliyyatlarında iştirak edən ordular və komandirlər haqqında ətraflı məlumat vermir. Amma Azərbaycana təşkil olunmuş ilk səfər haqqında orta əsrlərdə yaşamış müsəlman tarixçi Əbu Abdullah Muhəmməd ibn Ömər əl-Vaqidi öz əsərində məlumat vermişdir. Daha əvvəl də qeyd etdiyimiz kimi İyaz ibn Ğanəm, Əbu Musa əl-Əşəri, Səd ibn Əbu Vəqqasın əmri altındakı mücahidlər əl-Cəzirəni fəth etmişdilər(157). Ömər ibn Xəttabın əmri ilə əl-

---

155.Bax: Təbəri, Tarix-i Təbəri, c. V, s.1960.
156.Bax: İbn Kəsir, əl-Bidayə, c. VII, s. 126. İbn Kəsir, bu orduların Urfa, Hərran, Ərməniyyəni fəth etdiyini və cizyə vermələri şərtiylə yerli əhali ilə əhd bağlandığını qeyd edir.
157. Bax:Vaqidi, Fütuh-uş-Şam, s. 175-181.

Cəzirə qəsəbəsi əyalət mərkəzi və İyaz ibn Ğanəm də bu əyalətə vali (canişin) təyin edilmişdi və Malatya şəhərindən Şimali Afrikaya qədər olan məmləkətlər bu əyalətə daxil edilmişdi. İyaz ibn Ğanəm Yərmuk müharibəsi qəhrəmanlarından idi və o, valiliyə başlayandan sonra müxtəlif istiqamətlərdə fəth hərəkatını davam etdirmiş, Diyarbəkir, Urfa, Hərran kimi şimali Mesopatamiyanın (Kürdüstan) bir sıra şəhərlərini fəth etmişdi. İyaz ibn Ğanəmin əmri ilə müsəlman əsgərlər Bidlisin dağ keçidlərindən keçərək Van gölünün şimalından Azərbaycan torpaqlarına girmişdilər(158). İyaz ibn Ğanəm Van gölünün şimalında yerləşən Əxlat qalasından hərbi baza kimi istifadə etmiş və Ərməniyyə vilayətindəki bir çox qala və şəhərləri fəth etmişdi.

Bu hərbi əməliyyatlar vaxtı onun əmri altındakı əsgərlər Azərbaycanın cənub-qərbindəki üç böyük şəhəri: Xoy, Səlmas, Urmiya və ətraf əraziləri zəbt etmişdilər və bu üç şəhərin xalqı, çox azı istisna olmaqla, İslam dinini qəbul etmişdilər. İyaz ibn Ğanəm oraya insanlara Quranı və İslam dinini öyrətmək üçün müəllimlər təyin etmiş, özü isə əsgərləri ilə birlikdə əl-Cəzirəyə qayıtmışdı.

Ərəblər Azərbaycana təşkil etdikləri hərbi səfərlərdə bir daha bu yoldan istifadə etməmişdilər. Belə ehtimal etmək mümkündür ki, yüksək dağ silsilələri arasından keçən bu yollar səhra milləti olan ərəblər və onların əsas nəqliyyat vasitələri olan dəvələrin hərəkəti üçün əlverişli deyildi. Belə ki Həmədan, Rey, Zəncan kimi şəhərlər fəth edildikdən sonra Adərbayqana aparan cənub yolu açılmış və yuxarıda haqqında danışdığımız güzərgah öz əhəmiyyətini itirmişdi. Xoy, Səlmas

158.Bax: Vaqidi, Fütuh-uş-Şam,s.175-181;Əhməd ibn Əbu Yəqub əl-Yəqubi,Tarix-i-Yəqubi,Beyrut-1960,c.II,s.150.: Bəlazuri,Fütuh-ul-Büldan,c.II,s.150-151.

və Urmiya əhalisinin İslam dininə meyilli olduğuna baxmayaraq, bu fəth hərəkatı müvəqqəti olmuş və bir neçə il sonra Utbə ibn Fərqəd həmin şəhərləri ikinci dəfə fəth etmişdi.

***İyaz ibn Ğanəm və Utbə ibn Fərqədin Urmiya, Səlmas və Xoyu fəthi.*** Utbə ibn Fərqəd əs-Suləmi h.20/m. 639-cu ildə xəlifə Ömər ibn Xəttabın əmri ilə kufəli əsgərlərin başında Fərat çayı boyunca şimal istiqamətində hərəkətə keçərək çayın qərb və şərq sahillərini və Mosul şəhərini fəth etmişdi. Mosuldan şimal-şərqə istiqamət alan Utbə ibn Fərqəd Adərbayqan torpaqlarına daxil olmuş və Urmiya şəhərini zəbt etmişdi. Urmiya gölünün qərb sahili ilə şimala irəliləyən İslam ordusu Səlmas və Xoy şəhərlərini də fəth etmişdi. Utbə ibn Fərqədin əsgərləri burada məğlubiyyətə uğratdıqları Sasani ordusundan külli miqdarda qənimət almışdılar(159).

***Huzeyfə İbn-ul-Yəmanın Ərdəbili fəthi.*** Nəhavənd döyüşündən (642) bir müddət əvvəl Səəd ibn Əbu Vəqqasın yerinə Kufə valiliyinə təyin olunmuş Muğirə ibn Şubə vəzifəyə başladıqdan sonra xəlifənin məktubunu Huzeyfə ibn-ul-Yəmana çatdırmışdı. Bu vaxt artıq Nəhavənd döyüşü bitmiş və Huzeyfə ibn-ul-Yəman öz əsgərləri ilə birlikdə Nəhavənd yaxınlığındakı hərbi düşərgədə idi. Ömər ibn Xəttab məktubda Huzeyfə ibn-ul-Yəmana Azərbaycana hərbi səfərə çıxmağı əmr edir və onu Azərbaycan valiliyinə təyin etdiyini yazırdı.

Nəhavənddən hərbi yürüşə başlayan Huzeyfə ibn-ul-Yəman Adərbayqanın cənub-şərqində yerləşən Ərdəbil şəhəri ətrafına çatmışdı. O dövrdə Ərdəbil Adərbayqanın paytaxtı sayılırdı, belə ki, Sasani canişini bu şəhərdə yaşayırdı. Canişin

159.Bax: Bəlazuri,Fütuh-ul-Büldan,c.II,s.150-151.

Bacərvan, Şiz, Miyanəc və s. şəhərlərdən topladığı ordu ilə Huzeyfə ibn-ul-Yəmanın ordusunu qarşıladı. Ərdəbil yaxınlığında baş vermiş müharibə müsəlmanların zəfəri ilə bitmişdi.

Döyüşdən sonra Huzeyfə ibn-ul-Yəman ərdəbillilərlə əhd bağlamıdı. Əhdə görə şəhər əhalisindən heç kim öldürülməyəcək, əsir alınmayacaq və məbədlər dağıdılmayacaqdı. Bunun əvəzində əhali illik 800 min dirhəm cizyə ödəməyi qəbul etmişdi. Huzeyfə ibn-ul-Yəman öz əsgərləri ilə Ərdəbildən Xəzər dənizi sahili boyunca şimala doğru hərəkət edərək Muğana gəlmiş, burada müqavimət göstərənlər məğlubiyyətə uğradılmış və yerli əhali ilə əhd bağlanmışdı(160).

***Bukeyr ibn Abdullah əl-Leysinin səfəri və Gərmizan və Vazərüd(*Vazərü*) döyüşü. 639.*** H.21/642-ci ildə Həmədanı ikinci dəfə fəth edən Nueym ibn Muqərrin əl-Muzni buradan Reyə getmişdi. Reyə getməmişdən əvvəl o, Vac-i Ruz(Vazərüd) döyüşündə iştirak etmiş mücahidlərin komandirlərindən biri olan Bukeyr ibn Abdullah əl-Leysini öz dəstəsi ilə Hulvanda qalmağı əmr etmişdi. Bir müddət sonra xəlifə Ömər (r.a) Bukeyr ibn Abdullah və Utbə ibn Fərqəd Azərbaycana gedərək buradakı Sasani ordusunun qalıqlarını təmizləmək əmrini verdi. Əmrnaməyə görə Bukeyr ibn Abdullah Hulvandan şimal istiqamətinə hərəkət edəcəkdi və öz ordusu ilə Mosulda olan Utbə ibn Fərqəd isə şəmal-şərqə doğru gedəcəkdi. Bax beləcə iki ordu Azərbaycanın mərkəzinə doğru irəliləyərkən yolda birləşəcəkdilər. Sasanilərin

160.Bax: Bəlazuri, Fütuh-ul-Büldan, c. II, s. 139-140. (Ərdəbil Nəhavənd zəfərindən sonra fəth edilmişdi. H.22.m.643-cü ildə isə Utbə ibn Fərqəd Huzeyfənin yerinə Azərbaycan valiliyinə təyin edilmişdi. Buna görə də ehtimal ki, Ərdəbil h.21/m.642-ci ilin sonu, h.22/m.643-cü ilin əvvəlində fəth edilmişdir.

sərkərdələrindən biri olan İsfəndiyar Fərruxzad Azərbaycanın müxtəlif şəhərlərindən əsgər toplamağa başlamış və ərəblərlə vuruşmaq üçün müharibə hazırlıqlarına başlamışdı. Kəşfiyyatın bu xəbəri gətirməsindən sonra Bukeyr yürüşü dayandıraraq Mədinəyə, Ömər ibn Xəttaba ətraflı məlumat vermiş və əlavə qüvvə istəmişdi. Ömər ibn Xəttab Nueym ibn Muqərrinə məktub yazaraq Simak ibn Xərəşə əl-Ənsarini öz əsgərləri ilə Bukeyrə köməyə göndərməsini əmr etmişdi və bu vaxt Reyin mühasirəsi ilə məşğul olan Nueym öz qüvvələrini parçalamamaq üçün xəlifənin əmrini dərhal yerinə yetirə bilməmişdi(161).

Bu səbəbdən də Bukeyr ibn Abdullah İsfəndiyarın ordusuna qarşı öz ordusu ilə vuruşmağa məcbur olmuşdu və Gərmizan(Cərmidan) dağ silsiləsi yaxınlığında baş vermiş şiddətli döyüş ərəblərin qələbəsi ilə nəticələnmişdi. İsfəndiyar Fərruxzad əsir alınaraq Bukeyr ibn Abdullahın yanına gətirilmişdi(162).

Bukeyr İsfəndiyarla söhbət edərkən İsfəndiyar ondan soruşmuşdu:

- Sən müharibəni çox sevirsən, yoxsa sülhü?

Bukeyr bin Abdullah: Sülhü daha çox sevirəm! - deyə cavab vermişdir və bundan sonra sonra İsfəndiyar ona demiş:

- Elə isə məni öldürtmə! Əgər sən məni öldürtsən onda Adərpayeqan əhalisi səninlə əhd bağlamayacaqlar,dağlara qalxıb müqaviməti davam etdirəcəklərr! Bu sözdən sonra Bukeyr ibn Abdullah onun bu təklifini qəbul etmişdi(163).

---

161.Bax: Təbəri, Tarix-i Təbəri,c.V s.1979; Bələmi,Tarix-i Qozide-yi Bələmi, Məşhəd 1373,s.110

162.Bax: İbn əl-Əsir, əl-Kamil fit-Tarix, c.III, s.27; Təbəri, Tarix-i Təbəri, c.V,s.1979; Bələmi, Tarix-i Qozide-yi Bələmi, s.110; İbn Kəsir, əl-Bidayə, c.VII, s.202-203

163.Bax: Təbəri,Tarix-i Təbəri,c.V,s.1979;İbn Kəsir,əl-Bidayə,c.VII,s.203.

Döyüş bitəndən bir neçə gün sonra Simak ibn Xərəşə öz əsgərləri ilə birlikdə Bukeyrin olduğu yerə gəlib çatmışdı. Utbə ibn Fərqədin də gəlib çatmasından sonra bu üç

sərkərdənin əmrindəki mücahidlər bir neçə qala istisna olmaqla, Adərbayqanı tamamən ələ keçirmişdilər.

Adərpayeqanın fəth edilməsindən sonra Bukeyr ibn Abdullah xəlifə Ömərə məktub yazaraq bütün baş vermiş hadisələri təfərrüatı ilə ona bildirmişdi.

ibn Xəttab Bukeyrə yazdığı cavabda fəth olunmuş ərazilərin idarə olunması işini Utbə ibn Fərqədə tapşırmasını və Simak ibn Xərəşənin də öz əsgərləri ilə Utbənin əmrinə tabe olmasını, Bukeyr ibn Abdullahın isə öz ordusu ilə Bab-ul-Əbvaba (Dərbənd) doğru irəliləməsini əmr etmişdi.

Xəlifənin cavab məktubunu alan Bukeyr İsfəndiyarı Utbənin yanında qoyaraq şimala doğru yürüşə başlamışdı(164).

***Utbə ibn Fərqədin Adərpayeqan valiliyinə təyin edilməsi***. İsfəndiyar Fərruxzadla bağlanan əhd və Adərpayeqan əhalisinə verilən əmannamə 643-cü ilin əvvəllərində xəlifə Ömər (r.a) Ərdəbil və Muğan fatehi Huzeyfə ibn-ul-Yəmanın yerinə Utbə ibn Fərhadı Adərbayqan ümum valiliyi vəzifəsinə təyin etmişdi. Həmin il Şəhrəzurdan Ərdəbilə gələn Utbə ibn Fərqəd yerli əhalinin Huzeyfə ilə bağladıqları əhdin şərtlərinə əməl etmədiklərini, şəhər ətrafı ərazilərdə yaşayanların isə üsyan edərək məmurları qovduqlarını gördü. Bu səbəbdən də Utbə

164.Bax: İbn əl-Əsir, əl-Kamil fit-Tarix, c. III,s.28; Təbəri, Tarix-i Təbəri,c.V,s. 1980; İbn Kəsir, əl-Bidayə,c.VII,s.203. İbn Kəsir,bu hadisələri nəql edərkən Vaqidi və Əbu Maşərin Azərbaycanın h.22/m.643-cü ildə fəth edildiyi fikri üzərində ittifaq etdiklərini,İbn Cərir ət-Təbəri və digər klassik dövr müsəlman tarixçilərin də bu fikri doğru olaraq qəbul etdiklərini yazır.

ibn Fərqəd Əmr ibn Utbənin əmri altındakı əsgərlərlə həmin ərazilərə yürüşə çıxdı. Üsyan yatırılandan sonra ərdəbillilərlə bağlanmış əhd təzələndi və əvvəlki şərtlərlə yerli əhali cizyə ödəməyi qəbul etdilər(165).

Ordusu Gərmizanda məğlubiyyətə uğrayıb, özü də əsir olaraq ərəblərin əlinə keçən İsfəndiyar, Gərmizan döyüşündə iştirak edib sağ qalan qardaşı Bəhram Fərruxzada ümid bəsləyirdi. Bəhram döyüşdən sağ qurtulandan sonra parçalanıb ətrafa dağılışmış əsgərlərini toplamağa başlamışdı və o, eyni zamanda yerli əhaliyə müraciət edərək könüllülər toplayırdı. Yeni ordusunu hazırlayıb başa çatdıran Bəhram dərhal Utbə ibn Fərqədin ordusu ilə qarşılaşmaq üçün yürüşə çıxmışdı və Adərpayeqanın mərkəzi vilayətlərindən birində baş verən döyüşdə ərəblər qalib gəlmişdilər.

Bəhramın ordu topladığı xəbərini eşidəndən sonra Bukeyr ibn Abdullah Dərbəndə yürüşünü təxirə salıb Muğanda gözləməyə başlamışdı və müsəlmanların döyüşü zəfərlə bitirdikləri xəbərini alandan sonra o, Dərbənd istiqamətində hərəkətə keçmişdi.

Qardaşının məğlub olduğunu eşidəndən sonra İsfəndiyar əsirlikdən xilas olmaq ümidini itirərək Utbə ibn Fərqədə müqavilə bağlamağı təklif etmişdi və Utbə onun bu istəyini Mədinəyə,xəlifə Ömər ibn Xəttaba məktub yazaraq bildirmişdi.Xəlifənin bu təklifi məmnuniyyətlə qarşılamasından sonra Adərpayeqan hakimi İsfəndiyar Fərruxzad ilə Mədinə İslam dövlətinin Adərpayeqandakı ümum valisi Utbə ibn Fərqəd arasında müqavilə imzalanmışdı(166). Çox keçmədən ərəblər İsfəndiyarın qardaşı Bəhramın komandanlığı altında olan Adərpayeqan

165.Bax: Bəlazuri,Fütuh-ul-Büldan,c.II,s.140-141

166.Bax: Təbəri, Tarix-i Təbəri ,c.V,s.1979; İbn Kəsir,əl-Bidayə vən-Nəhayə,c.VII, s.203; İbnul-Əsir,əl-Kamil fit-Tarix,c.III,s.27-28

qoşunlarının günlərlə davam edən hücumlarına tab gətirməli oldular. Ərəblər yenidən qələbə çaldılar; odur ki, əsirikdə olan İsfəndiyar ərəblərlə aşağıdakı məzmunda sülh müqaviləsi bağlamağa məcbur oldu(167).

***Ərdəbil:*** 639-ci il səhər saatlarıdır.Ərdəbil şəhər qala bürcündə keşikçilər öz növbələrini dəyişməyə hazırlaşırlar və bu zaman uzaqdan bir atlı göründü. Həmin atlı yaxınlaşan kimi ucadan qışqırdı:

- Tez olun! Qapıları açın! Gəlirlər.

Bunu eşitcək keşikçilər növbə dəyişikliyini dayandırıb tez qapıları açdılar və çapar içəri girərək tez atdan düşüb İsfəndiyarın sarayına doğru qaçmağa başladı.

Səhər saatları olsa da, İsfəndiyar oyaq idi və bu cür vəziyyət artıq bir həftə idi ki, davam edirdi. İsfəndiyar hələ də Kadusiya cinayətinin dəhşətlərini unutmamışdı. Çaparın qaçaraq mərzbanın yanına getməsi bütün sarayı ayağa qaldırdı və ayrıca olaraq artıq Ərdəbil şəhərinin sakinləri yuxudan oyanmışdı. Öz taxtında oturub dərin-dərin düşünən mərzban İsfəndiyar Fərruxzad ani olaraq qapıçının səsinə oyandı və qapıçı çoxdan içəri girmiş və hətta təzim edib mərzbanı çağırırdı:

- Əlahəzrət! Əlahəzrət!

- Hə! Nə deyirsən de? Eşidirəm? – deyə İsfəndiyar Fərruxzad soruşdu.

- Reydən qasid gəlib və hüzurunuza çıxmaq üçün rüsxət istəyir! – deyə qasid cavab verdi.

- Tez buyursun gəlsin! – deyə İsfəndiyar Fərruxzad təlimat verdi və sonra qapıçı çıxdı və qasid içəri girdi, təzim edərək həyəcanla dedi:

---

167. Bax:Ət-Təbəri,l,960-962;əd-Dinəvəri,səh.72-73.

- Əlahəzrət! Bəla qapımızda! Məhv olduq!

- Nə baş verib? Tez ol de? – deyə İsfəndiyar Fərruxzad soruşdu.

- Şahənşah III Yəzdigerd Mərv şəhərində bir dəmirçi tərəfindən öldürülüb. Ərəblər dünən Rey şəhərini ələ keçiriblər və aldığım məlumata görə artıq Deyləm kustakına daxil olublar və tezliklə burada olacaqlar! – deyə qasid cavab verdi.

- Qorxduğumuz başımıza gəldi! Belimiz qırıldı! Vay halımıza! – deyə İsfəndiyar Fərruxzad əllərini başına vurdu və sonra soruşdu:

- Ən tez nə zaman burada olacaqlar?

- Sabah axşam artıq burda olacaqlar! – deyə qasid cavab verdi.

- Neçə ordu gəlir? – deyə İsfəndiyar Fərruxzad soruşdu.

- İki ordu əlahəzrət! – deyə qasid cavab verdi.

Belə ki, birinci ordu Reydən Taleşan dağları boyunca dərya kənarı ilə bizə tərəf gəlirlər və digər bir ordu isə Şizdən Tavrejə və ordan da Urmiya yolu ilə Aran və Girdimana tərəf gedirlər.

- Bəs başlarında sərkərdələri kimdir? – İsfəndiyar Fərruxzad soruşdu.

- Bukeyr ibn Abdullah! – deyə qasid cavab verdi.

- Gəlsin görək! Bu murdarların məzarlarını qazmaq vaxtıdır! – deyə İsfəndiyar Fərruxzad soruşdu. tez sağ əli Şirzadı çağırıb dedi:

- Tez olun hazırlıq görün! Sabah ərəblər axşama burada olacaqlar və tez olun qardaşım Bəhrama xəbər göndərin tez əsgərləri ilə gəlsin buraya. Ərəbləri şəhərdən cənubda onları qarşılayarıq.

- Baş üstə əlahəzrət! – deyə Şirzad çıxdı, sonra isə İsfəndiyar səhərə qədər öz sərkədələri ilə məşvərət etdi və döyüş üçün plan qurdular. Səhərə yaxın Bəhram da öz dəstəsi ilə gəlib çıxdı və

İsfəndiyar üzünü Bəhrama tutub dedi:

- Onları sən Pilərud istiqamətində qarşılayarsan, Şirzad Kelkaran yolu ilə onların arxasına keçəcək,mən isə şəhərdən düz istəqamətdə onların üzərinə gedəcəyəm və çalışaq onları dağlara tərəf çəkək.

- Niyə əlahəzrət? – deyə Şirzad soruşdu.

- Çünki bu bədbəxtlər bədəvidirlər və yalnız səhrada vuruşa bilirlər və burada onların işi çətin olacaq! – deyə İsfəndiyar Fərruxzad cavab verdui.

Sonra isə onlar plan üzrə şəhərdən çıxıb cənuba hərəkət etdilər və İsfəndiyar qardaşı Bəhramla qoşun toplayıb ərəb komandanı Bukeyir ibn Abdullah ilə vuruşdular.

Ərdəbildən bir qədər aralı, Cərmidan dağı yaxınlığında İsfəndiyarın hələ yaxşı möhkəmlənə bilməmiş dəstələri ərəbləri qarşıladı.Mənbələrin məlumatına görə bu Bukeyir ibn Abdullanın Adərpayeqan əhalisi ilə ilk toqquşması idi və İsfəndiyara Adarpayeqanın Bacirəvan, Meymənd, Nariz, Miyanəc və digər yerlərindən də kömək gəlmişdi. İsfəndiyar və qoşunları gəlib təyin olunmuş yerdə düşərgə saldı və hər kəs öz yerini tutdu,lakin ərəb ordusu hələ də yox idi. Ərəblər ertəsi gün səhər gəlib İsfəndiyarın düşərgəsinin 2 kilometrliyinə çatdılar. Bu zaman göndərilən kəşfiyyatçı gəlib İsfəndiyara ərəblərin yaxınlaşma xəbərini verdi və Adarpayeqan ordusunda canlanma baş verdi.

Beləliklə, ərəblər gəlib 300 metrəyə qədər yaxınlaşdılar. Bu vaxt İsfəndiyar, Bəhram, Şirzad və Tavtak atları ilə ortaya qədər gəldilər və bunu görən ərəb sərkədəsi də öz köməkçiləri

ilə birgə onlara yaxınlaşdı. Ortaya gəlib çatanda İsfəndiyar uca səslə soruşdu:

Kimsiniz və nə istəyirsiniz?

- Biz müsəlmanlarıq və sizi yeni bir dinə və tək bir Allaha inanmağa və islamiyyətə dəvət etməyə gəlmişik. Bir də ki, bizdən qorxmanıza gərək yoxdur,çünki buraya dostanə gəlmişik və məqsədimiz qan tökmək deyil! - deyə Bukeyir bin Abdulla cavab verdi.

İsfəndiyar gülümsəyərək cavab verdi:

- Dostcasına gəlməyinizə heç şübhəm yoxdur, zatən silahlarınız buna sübutdur.Yaxşı niyyətinizə də şübhəm yoxdur,çünki bu yaxşı niyyətinizi Kadusiyada gördük və odur ki bu nağıllarınızı öz dəvələrinizə saxlayın. Bir də ki, əgər bizi, həqiqətən də, islamiyyətə dəvət etməyə gəlmisiniz və düşünürəm ki, buna görə bu qədər əsgəri zəhmət çəkib isti qumlardan buraya gətirməyə heç bir lüzum yox idi və inanın ki,bir elçi göndərməyiniz kifayət edərdi.

- Bizim dinimiz dinlərin ən alisidir və dinlərin ən mükəmməlidir, inanın ki, islam dini ona görə yaranmayıb ki,səhralarda qalsın və sizin də mütləq onu qəbul etməniz lazımdır! – deyə Bukeyir bin Abdulla cavab verdi.

- Bukeyir ibn Abdulla! Əgər Kadusiya dəhşətini öz gözlərimlə görməsəydim, sənə inanardım və odur ki dayan daha bir kəlmə də etmə! – deyə Bəhram şah dedi.

- Biz Allahın və quranın hökmü ilə hərəkət edirik! – deyə Bukeyir bin Abdlla cavab verdi

- Biz də öz qılınclarımızla hərəkət edirik və əmin olun ki,bu günə qədər qanını tökdüyünüz bütün iranlıların qisasını sizdən alacağıq1 – deyə Bəhram şah dedi.

- Son dəfə bu sözü Kadusiyada sizin hökmdarınız III Yəzdigerddən və onun qüdrətli komandanı Rüstəmdən

eşitmişdik, çox ehtimal ki, o, cəhənnəmə vasil olub! – deyə Bukeyir bin Abdulla dedi.

- Abdullah! İlk insan tək bircə almanı yediyi üçün cənnətdən qovulub və siz ərəblər din pərdəsi altında bu günə qədər tökdüyünüz günahsız insanların qanından sonra cənnətə gedəcəyinizə necə inanırsınız1 – deyə Bəhram şah cavab verdi.

Sonra isə tərəflər geri çəkildilər və təbil çalındı, hər iki ordu biri-birinə hücum etdi və qızğın döyüş başladı.

Adarpayeqan süvariləri sol və sağ cinahlarda gözləmədə dururdu,ilk olaraq isə piyadalar orta qanadda hücum etdilər. İsfəndiyar öz qoşunlarını elə də yaxşı düzməmişdi,amma irəli gedən piyadanın arxasında bir ayağı bükük vəziyyətdə diz üstə oturmuş oxçular dururdu.

Əlində nizə olan və təqribən sayları üç yüzə çatan əsgərlər ilk olaraq irəli keçib əllərindəki nizələri Bukeyirin ordusuna tərəf atdılar və atılan nizələrin bir qismi hədəfə ulaşdı. Bu atəşdən ərəblərin cərgələri pozulmağa başladı və yerdə qalan yaralıları geri aparmaq üçün xüsusi köməkçi əsgərlər döyüş yerinə daxil oldu.Lakin bu zaman nizəçilərin yerini oxçular aldı və saylar 200 nəfərə çatan bu oxçular nizəçilərin ardınca ərəblərə atəş açdılar. Bu atəş nəticəsində döyüş meydanına yaralıları çıxarmaq üçün girən digər köməkçi ərəb əsgərləri də şəhid oldular.

Bunu görən ərəb ordu komandanı Bukeyir ibn Abdulla döyüş meydanına yeni seçmələr göndərdi, lakin bu səfər Bəhramın başçılığı ilə əllərində qılınc olan Taleşan və Mukan hərbi birlikləri öndən ərəblərə saldırdılar.

Əsgərlər ərəbləri çaxnaşmaya uğratdı və bunu görən Bukeyir ibn Abdulla Suriyadan gətirdiyi və sayları 1500 nəfər olan suvari-atlı əsgərləri döyüş meydanına buraxdı.Buna cavab

olaraq həm Adərpayeqanın və həm də Taleşanın hərbi suvari birlikləri də döyüşə girdilər.

Döyüşün birinci günü İsfəndiyar və Bəhramın birlikləri qalib gəldilər və İsfəndiyar şəxsən ərəb sərkərdəsi İbni Bəisi atdan salıb öldürdü və döyüş İsfəndiyarın xeyrinə qurtardı.

Döyüşün ikinci günü Taleşan hakimi Bəhram ərəb sərkədəsi İbn Məğmunla təkbətək döyüşə girdi və Bəhram da İbn Məğmunu öldürdü və sonra 30-a qədər ərəb əsgərini məğlub etdi. Sonra isə pərakəndə döyüş başlandı və yenə İsfəndiyarın qələbəsi ilə bitdi. Lakin axşama yaxın həm İsfəndiyarın və həm də Bəhramın ordusu tükənmək üzrə idi və sabahkı döyüşün aqibəti artıq məlum idi. Ayrıca olaraq Cavanşirin köməyə gəlməməsi vəziyyəti ərəblərin xeyrinə dəyişdirdi. Həm də ki, ərəblərin sayca İsfəndiyarın ordusundan çox olması nə isə deməyə əsas verirdi. Beləliklə, axşam oldu və hər iki tərəf öz düşərgələrinə çəkildi.

***Hekayət:*** Budur...axşam vaxtıdır,İsfəndiyarın düşərgəsi və orta çadırda İsfəndiyar, Bəhram, Şirzad və Tavtak oturub məşvərət edirdilər və bu zaman İsfəndiyar üzünü sərkərdələrinə tutub dedi:

- Vəziyyət nə yerdədi?
- Qardaş! Mənim fikrimi bilmək istəyirsənsə, geri çəkilək, siz şəhərdə, mən də qalada müdafiə yaradaram1 – deyə Bəhram Fərruxzad cavab verdi.
- Nəyə görə? – deyə İsfəndiyar Fərruxzad soruşdu.
- Çünki bizə kömək gəlmir,amma onlara kömək gəlir! – deyə Bəhram Fərruxzad cavab verdi və sonra İsfəndiyar üzünü Tavtaka tutub soruşdu:
- Sən nə deyirsən Tavtak?
- Əlahəzrət! Sabah da dayansaq, heç bir mənası yoxdur, çünki Cavanşir bizə ya köməyə gəlmədi,ya da gələ bilmədi1 –

deyə Tavtak cavab verdi və Şirzad da Tavtakın sözünə dəstək verib dedi:

- Əlahəzrət! Ən yaxşısı Savalana tərəf çəkilək və əgər yenə onların üstünlüyü müşahidə olunsa, onda onları Taleşan dağlarına tərəf çəkmək lazımdr. Bəhram onun sözlərinə qoşularaq dedi:

- Qardaş! Şirzad doğru deyir! Ərəblər səhra xalqıdır və yalnız çöllükdə vuruşa bilirlər. Siz əmin ol ki,onlar səhrada bir ilə tutduqları məntəqəni dağlarda yüz ilə də tuta bilməzlər.Onların hamısını dinləyəndən sonra İsfəndiyar dedi:

- Hə! Elə siz deyən qaydada da edərik,çünki başqa əlacımız yoxdur, sonra üzünü Bəhrama tutub dedi:

- Sən özünün ən etibarlı sərkərdəni hazırla!

- Nə üçün qardaş? – deyə Bəhram Fərruxzad soruşdu.

- Biz ərəbləri Taleşan dağlarına doğru çəkərik, onda da əgər məğlub olsaq, o halda sən o adamı tez qalaya göndər. Bundan sonra və bacımızı və digər qadınlarımızı sənin mənə bəhs etdiyin qalada yerləşdir! Qoy onları ölənə qədər qorusun! – deyə İsgfəndiyar Fərruxzad cavab verdi.

- Elə bir adamı çoxdan hazırlamışam! narahat olma! - deyib Bəhram şah səhərki döyüşə hazırlaşmağa başladılar. Onlara nisbətən ərəb ordu düşərgəsində də əhval-rühiyyə döyüşdə bildirilməsə də, yaxşı deyildi. Belə ki,ordu komandanı Bukeyir ibn Abdulla öz sərkədələri olan Simak ibn Xaraşi əl-Ənsari və Muğirə ibn Şubə ilə sabahkı döyüş haqda məşvərət edirdilər.Bu zaman Muğirə ibn Şübə dedi:

- Bu iranlılar sabahkı döyüşdə də eyni mətanəti davam etdirsələr, onda gərək Şamdan köməyə yeni ordu gətirək,ya da ki,onları qorxudaq. Muğirənin sözünə Bukeyr bin Abdulla gülümsəyərək cavab verdi:

- Qorxutmaqmı? Sən bu adarbayqanlıları və taleşanlıları o Ərəbistanın qorxaq bədəviləri ilə səhv salmısan!

- Niyə belə deyirsiniz? – deyə Muğirə bin Şübə soruşdu.

-: Sən Kadusiyada onların qəhrəmanlıqla son nəfəslərinə qədər vuruşub öz torpaqları uğrunda necə şəhid olduqlarını görmədinmi? Bir də ki, əgər külək əsməsəydi və əgər xeymə dəmiri Rüstəmin başına düşməsəydi biz bu insanlara əsla qalib gələ bilməzdik. Bundan əlavə mən öz gözlərimlə şahid oldum ki, sasanilər nəslindən olan Mehranın övladlarından olan Baraz oğlu Cavanşir necə igidliklə vuruşub 200-dən çox bədəvini öldürdü! – deyə Bukeyir bin Abdulla cavab verdi.

Bukeyr bin Abdullanın sözlərindən susub qalmış Muğirə bin Şübə nə deyəcəyini bilmirdi, sonra isə sözünə davam edən Bukeyir ibn Abdulla dedi:

- Belə qəhrəman insanları şəhid etmək yox, öz tərəfimizə çəkməliyik, çünki onların qanı təmizdir və nanəciblik yoxdur. Biz belə insanlar islamı qəbul edərkən müsəlmanların qüdrəti birə-yüz artır. Necə ki, Xalid bin Valid bütpərəst olduğu vaxtlar çoxlu müsəlman qırmışdı, lakin o islamı qəbul edəndən sonra islamın düşmənləri sarsıldı. Xalid həmən qılıncı sonralar o kafirlərə qarşı çevirdi və ya Ömər bin Xəttabın islamı qəbul etməsi müsəlmanların sayını artırdı.

- Bəli əmir! Baş üstə! Sonra isə onlar da öz sabahkı döyüşlərinə hazırlaşdılar! – deyə Muğirə bin Şübə cavab verdi.

Budur... səhər saatları və hər iki ordu üz-üzə gəldi və bu dəfə təkbətək döyüş başlamadı,əksinə səyyari qaydada hər iki tərəf biri-birinə hücum etdi. Qızğın döyüş gedirdi və artıq hər iki tərəf öz əsgərləri üzərində nəzarəti itirmişdi. Adərbayqan və Taleşanın əsgərləri qəhrəmanlıqla vuruşur və gəlmə işğalçılara müqavimət göstərirdilər.

Səhər saatlarında üstünlük İsfəndiyarın və Bəhramın qoşunlarında olsalar da, axşama yaxın artıq ərəblər üstün olan

tərəfə keçmişdilər. Bu zaman İsfəndiyar vəziyyətin çətinliyini görüb qışqırdı:

- Bəhram! Qardaşım! Biz artıq uduzmaq üzərəyik! Tez ol qalaya get və ailəmizi qoru.

Bu vaxt artıq Xəlifə Simakın başçılığı ilə Bukeyir ibn Abdullaha kömək göndərmişdi və bu qoşun döyüşün sonunda gəlib çatdı və vəziyyəti dəyişdi.

- Yox! Əlahəzrət! Mən sizi burada atıb gedə bilmərəm! – deyə Bəhram şah cavab verdi.

- Bu bir əmrdir! – deyə İsfəndiyar Fərruxzad dedi.

- Qoy sən deyən olsun, qardaş – deyibBəhram Fərruxzad atının başını çəkib Tavtakla birlikdə dağlara tərəf çapmağa başladı, amma gözlərindən yaş gəlirdi.

642-ci ildə Nəhavənd və Həmədanın fəthindən sonra torpaqlarını müsəlmanlara vermək istəməyən Adərpayeqan, Deyləm və Rey və Taleşan əhalisi Dətəmə yaxınlarında olan Vacrud adlı yerdə toplandılar. Bunların orduları nizamsız idi və burada edilən müharibədə hər iki tərəfin də böyük itkisi oldu və itki cəhətindən bu müharibə Nəhavənd müharibəsinə bərabər idi. Müsəlmanları qələbəsi ilə sona çatan bu müharibədə adərpayeqanlıların mərzbanı İsfəndiyar Fərruxzad azalmış ordusunu Adərpayeqanın Bacarvan, Miməz, Bəzz, Şərab, Şiz, Mavanic şəhərlərindən aldığı güclərlə yenidən gücləndirmişdi.

Nəhavənd müharibəsindən tam bir il sonra Reyin fəthi, daha sonra Ərmədan, Ömərin əmri ilə Bukeyr bin Abdullah və Utbə bin Fərqadın əmrindəki müsəlmanlar Adərpayeqan sərhədlərini keçdilər. Bu arada Hüzeyfə bin Yəmam da öz vəzifəsindən azad edilmişdir(168). Beləliklə, artıq İsfəndiyarın əsgərləri tükəndi və o mühasirəyə alınıb ələ keçirildi.

168.Bax: Təbəri,5,s.21

İsfəndiyarla birlikdə onun köməkçisi Şirzad və Güdərz də əsir olanlar arasında idilər.

Əsir alınan İsfəndiyar Bukeyrə:

- Sən sülhü, sevirsən yoxsa müharibəni daha çox sevirsən?” deyərək xitab etdi...

Bukeyr ona cavab verdi: Muharibə məndən uzaqdır!

Bundan sonra İsfəndiyar Bukeyrə yenə dedi:

- O halda məni yanında saxla, mən səninlə sülh andlaşması edim və onlara çatana qədər Adərpayeqan xalqı heç vaxt sənə itaət etməz.Onlar bölgə ətrafında olan dağlara çəkilmiş və oralarda öz yerlərini tutmuşlar.

Həqiqətən, Bukeyr onu yanında saxlamış,ondan sonra da bir qala xaric bütün bölgə onun hakimiyyəti altına keçmişdir.

Bu arada Simak bin Haraşə əl-Ənsari yardıma gələn qüvvətlərin başında Bukeyrin yanına çatmışdı.Bukeyr bin Abdullah Hz.Ömərə məktub yazıb vəziyyəti bildirmiş və buradan daha irəli bir nöqtəyə getmək mövzusunda ondan icazə istəmişdir. Ömər Bukeyrə “əl-Bab” tərəfinə doğru getməyə icazə vermiş və fəth etdiyi yerlərə öz yerinə vəkillər və işçilər təyin etməsini əmr etmişdir və bunun üzərinə Bukeyr fəth etdiyi yerlərə Utbə bin Fərhadı təyin etdi.

İsfəndiyarı və Şirzadı qolu bağlı halda Bukeyir ibn Abdullanın yanına gətirdilər və bunu görən kimi Bukeyir ibn Abdulla əsgərə dedi:

- Açın onun qollarını! Məgər sizə onun qollarını zəncirləyin əmrini vermişəm! Bir insanı heyvan kimi bağlamazlar və o bizim əsirimiz olsa da, öz xalqının sərdarıdır və onunla belə davranmağa dinimiz yol vermir!

Xidmətçi tez hər ikisinin əl-qolunu açdı, sonra isə Bukeyir ibn Abdulla üzünü İsfəndiyara tutub dedi:

- Əcəm oğlu! Baxıram ağıllı adama oxşayırsan, odur ki səninlə dinimzin buyurduğu kimi davranacağam

- Məgər dininiz Kadusiya və Mədain üçün ayrı buyuruq verib, Cərmidan üçün ayrı buyuruq? – deyə İsfəndiyar Fərruxzad sruşdu.

- Bununla nə demək istəyirsən, açıq danış qorxma! – deyə Bukeyir bin Abdulla cavab verdi.

- Mən yox,sən qorxmalısan,çünki sən mənim torpağıma soxulmusan,mən yox. Bir də ki, sizin dininizin sizə başqalarının torpağını qəsb edib qız-gəlinlərini zorla arvad və ya kəniz etməyimi əmr edir? – deyə İsfəndiyar Fərruxzad soruşdu.

- Bunların hamısı siyasətdir, mən isə xırda adamam və bu mənim işim deyil. Sənə təklif edirəm islamı qəbul edəsən, əgər qəbul etsən, onda səni azad edərəm və burada hakim təyin edib yoluma davam edərəm! – deyə bukeyir bin Abdulla cavab verdi.

- Əvəzində nə istəyirsiniz? – deyə İsfəndiyar Fərruxzad soruşdu.

- Səninlə müqavilə bağlayarıq,sənədlə və orada hər şey yazılıb açıq-aydın! – deyə Bukeyir bin Abdulla cavab verdi.

- Qoy köməkçim ilə məşvərət edim! – deyə isfəndiyar Fərruxzad əlavə etdi.

- Buyur, get məsləhətləş! – deyə Bukeyir bin Abdulla dedi və bundan sonra İsfəndiyar ayağa qalxıb Şirzada işarə edib kənara çəkildilər və ərəb əsgəri də onları gözləyirdi. Bu zaman İsfəndiyar Şirzaddan soruşdu:

Hə,nə deyirsən,razılaşım yoxsa necə?

- Əlahəzrət,məncə razılaşsaz yaxşı olar, çünki başqa çarəmiz yoxdur, əgər siz razılaşsaz, onlar bizi buraxar və siz də əvvəlki kimi yenə Adarpayeqanın hökmdarı olarsınız. Bir müddət vaxt qazanıb sonra üsyan edərik və ehtimal ki,qardaşınız Bəhram şah artrıq qalaya çatmış və ordu toplamaqla məşğuldur! – deyə Şirzad cavab verdi.

İsfəndiyar bir az fikirləşəndən sonra başı ilə işarə etdi və onlar Bukeyir bin Abdullanın yanına qayıtdılar, onlar yaxınlaşan kimi Bukeyir soruşdu:

- Hə! İsfəndiyar! Nə deyirsən? Qəbul edirsənmi?

- Edirəm,lakin bir şərtlə! – deyə İsfəndiyar Fərruxzad cavab verdi.

- Bu nə şərtdir belə? – deyə Bukeyir bin Abdulla soruşdu.

- möhlət ver! – deyə İsfəndiyar Fərruxzad cavab verdi.

- Yaxşı, qoysənin dediyin kimi olsun! – deyə Bukeyir bin Abdulla cavab verdi və sonra İsfəndiyar üzünü Bukeyir ibn Abdullaya tutub dedi:

- İndi bizi nə edəcəksiniz,buraxacaqsınız,yoxsa dininizə uyğun olaraq yenə zindana atacaqsınız? Bunu eşidən kimi Bukeyir ibn Abdulla tez xidmətçini çağırdı və dedi :

- Onları bir xeyməyə yerləşdirin və nə istəyirlər verin,amma qapıda gözləyin və xidmətçilər baş üstə deyib İsfəndiyarı və Şirzadı apardılar.

İsfəndiyarın əmri ilə döyüşdən Tavatk ilə çıxıb Ərdəbilə tərəf çapan Bəhram şəhərə çatdı və sürətlə içəri girdi.O,atdan düşən kimi tez saraya daxil oldu və bütün əyanlar onun başına yığışdı. Bəhram içəri keçib İsfəndiyarın yerində əyləşdi və göstəriş verdi ki,hamı yığışsın, tezliklə hamı yığışdı.

Əmrə əsasən hamı yığışdı və İsfəndiyarın anası Ruyan xanım da gəlib çıxdı. O,içəri girən kimi İsfəndiyarı görməyib uca səslə:

- Bəhram! De görüm oğlum-İsfəndiyarım haradadır və ona nə oldu?

Bəhram susmağa başladı və Ruyan xanım bunu görüb özündən keçdi və tez onun üçün su gətirdilər. Bu zaman Bəhram şah da onun başını dizi üstə qoyub dedi:

- Ruyan xanım! Ruyan xanım! Ayılın! Çox keçmədi ki, Ruyan xanım ayıldı və üzünü Bəhrama tutub yenə göz yaşı içində dedi:

- Sən qardaşını döyüş meydanında tərk etməyə necə cürət etdin,tez ol cavab ver?

- Ruyan xanım! Siz İsfəndiyarın anası olmaqla bərabər mənim də anam sayılırsınız, bizim İsfəndiyarla analarımız ayrı olsalar da, atalarımız eynidir və bu da o deməkdir ki,biz qardaşıq. Bir də ki mən onu əsla tərk etmək istəmirdim və buraya da hökmdarın öz əmri ilə gəlmişəm ki, qoşun toplayam. Odur ki, ürəyinizi buz kimi saxlayın,çünki mən tezliklə ordu toplayıb qardaşımı o kafirlərədn geri alacağam1 – deyə Bəhram şah cavab verdi və sonra isə xidmətçini çağırıb dedi:

- Tez gedib Fərhadı və dəmirçi Perozu çağırın yanıma, digərləri də yaxın məntəqələrə xəbər salsın ki, ordu toplayırıq,tezliklə burada olsunlar.

Axşama sərkərdələr yığışdılar və Mistanlı dəmirçi də gəlib çıxdı,onu görən kimi Bəhram ayağa durub onu qucaqlayıb dedi:

- Bu gün sizin hamınızın qılıncına ehtiyacımız var! Ərəblər İsfəndiyarı əsir götürüblər, qoşun yığıb onlara zərbə endirməli və İsfəndiyarı azad etməliyik.

- Canımız İsfəndiyar yolunda fəda! - deyib hamı bir səslə cavab verdilər və səhər hazırlaşmağa başladılar. Bu zaman Ərdəbilin keçələrində dəmirçilər qılınc, nizə və digər döyüş sursatları hazırlayır, insanlar isə cəngə qoşulmaq üçün saraya tərəf qaçırdılar.

Tezliklə Bəhramın komandanlığı altında yeni ordu ərəblərin düşərgəsinə yaxınlaşdı və bu xəbər Bukeyir bin Abdullaya çatdırılanda o, bərk qəzəbləndi və İsfəndiyar

Fərruxzadı öldürmək istədi.Bu zaman İsfəndiyar Bukeyir ibn Abdullaya dedi:

- Əgər siz məni öldürsəniz,onda bütün Adarpayeqan sizdən qisas alacaq və bu sözdən sonra Bukeyir bin Abdullah öz sözündən vaz keçdi. Bu vaxt Bəhram öz ordusu ilə ərəb sərkərdəsi Bukeyir bin Abdullanın üzərinə hücum etdi və Bəhramın ordusu çox yaxşı təşkil edilmişdi.

Döyüşün ilk saatlarında Bəhram qalib gəlsə də, axşama ərəblər İsfəndiyarı əli-qolu bağlı önə çıxaran kimi Bəhram təslim olmağı qəbul etdi və Bəhram özünü çox çətin qurtardı. İsfəndiyar Bəhramın məğlub olduğunu eşidincə dedi:

- İndi barış tamamlandı, döyüşün atəşi söndü! – deyə sonra Utbə ilə sülh etdi(169).

Bütün xalq onun tərəfindən edilmiş olan bu barışı qəbul etdi və beləcə bütün Adərpayeqanda sükunət oldu. Bukeyr ilə Utbə bunu Ömərə bildirdilər və alınan qənimətlərin 5/1-ni ona göndərdilər və bu zəfəri müjdələmək üçün elçilər də göndərdilər. Bukeyr öz ətrafındakı torpaqları Utbə tərəfindən zəbti qərarlaşdırılan torpaqların fəthindən əvvəl də ələ keçirmişdi və Utbənin Bəhrama qələbəsindən sonra barış tamamlandı(170).

Beləcə Adərpayeqanın fəthində müsəlmanların qaşılaşa biləcəyi iki böyük əngəl ortadan qaldırıldı. Bu müqavilənin böyük əhəmiyyət daşıdığı və Adərpayeqanın fəthi tarixində mühüm bir yeri vardır. Bütün güclərinin artıq bitdiyini və bundan sonrakı müqavimətlərinin insan itirməkdən başqa heç bir şey ifadə etməyəcəyini görən və əsirlikdə olan İsfəndiyar Fərruxzad Utbə bin Fərhadla H/18,M/639-cu ildə bu müqviləni imzalayır:

---

169.Bax :Təbəri,7,c.III,s.33
170.Bax: Təbəri,3, c.IV, s.154

Bu zaman Hüzeyfə ibn əl-Yəməni Bəhramı da əsir aldı və canını bağışlamaq əvəzinə İsfəndiyar Fərruxzada müqavilə imzaltdırdı və müqavilənin şərti belə idi:

*"Bismillahir rəhmanir-rəhim (Mərhəmətli və rəhmdil Allahın adı ilə). Bu sənəd o barədədir ki, Utbə ibn Farkad, Əmir əl-Möminin Ömər ibn əl-Xəttabın canişini (amili), Azərbaycan əhalisinə, onun dərələrdə və dağlarda, ucqarlarda və sərhədlərdə olan bütün xalqına əmin-amanlıq (aman) bəxş edir [əta əhli Azərbaycan].Həm onların özlərinə, həm də onların əmlakına, din və ayinlərinə aman verir bu şərtlə ki,onlar öz varına görə cizyə versinlər.Uşaqlar, qadınlar, daim xəstə olanlar, habelə heç bir vəsaiti olmayan (şəxslər) və heç bir gəliri olmayan zahidlər isə can vergisindən azad olunurlar.Bu əminamanlıq onlara, həm də onlarla birlikdə yaşayanlara verilir.Onlar da borcludurlar ki,müsəlman qoşunundan olan müslimi bir gün, bir gecə saxlayıb yedirsinlər və ona yol göstərsinlər.Orduya götürülən adamdan həmin ilin vergisi alınmır, kim [ölkədə]qalırsa, ölkəni tərk etməyən adamlara verilən hüquqlar eynilə ona da verilir.Ölkəni tərk etmək istəyənlər özlərinə təhlükəsiz bir sığınacaq tapıncayadək onlara aman bəxş edilir. Bunu Cunadib yazmışdır, şahidlər isə Bukeyr ibn Abdullah əl-Leysi və Simak ibn Xaraşi əl-Ənsari olmuşlar."*

Lakin Vaqidi (Əbu Abdullah Məhəmməd ibn Ömər əl-Vaqidi (747-823) - Ərəb tarixçisi, ərəblərin yürüşünə aid bir neçə əsərin müəllifi. Ət-Təbəri, əl-Bəlazuri,ibn əl-Fəqih, əl-Yə`qubi və başqa müəlliflər onun verdiyi məlumatlara dəfələrlə istinad etmişlər) məlum şəxslərə istinadla bildirir ki, Muğirə ibn Şubə(hicri) 22-ci ildə Azərbaycana yürüş etdi. O, ölkəyə girib [hərbi] güclə onu tutdu və onun üzərində torpaq vergisi [xərac] qoydu.

Bəlazuri isə yazır ki, hicri 18-ci ildə Xuzeyfə ibn əl-Yəmən Azərbaycanı dinc yol ilə istila edib, Azərbaycan əhalisi adından hərəkət edən Azərbaycan mərzbanı ilə müqavilə bağlamışdır. Bu müqaviləyə görə mərzban "800 min dirhəm verməyi öhdəsinə götürdü", ərəblər isə öz tərəfindən öhdələrinə almışdılar ki, heç kəsi öldürməsinlər, əsir almasınlar, atəşgədələri dağıtmasınlar və Balasacan, Savalan və Satrudan kürdlərini təqib etməsinlər. Şiz əhalisinin öz bayramlarında rəqs etməsinə və (keçmişdə) icra etdikləri hər işi açıq görmələrinə mane olmasınlar"(171).

Bundan sonra xəlifə Ömər Xuzeyfə ibn əl-Yəməni vəzifəsindən götürdü və Utbə ibn Farkadı Azərbaycana canişin təyin etdi. Sonra o, Muğana və Cilana (Gilana) yürüş etdi, onların əhalisini ağır məğlubiyyətə uğratdı və vergi verməyi öhdələrinə qoymaqla onlarla müqavilə bağladı(172). Lakin Azərbaycan mərzbanı İsfəndiyarın qardaşı Bəhram qaçdı və qoşun toplayaraq müqavimət göstərdi. Bu vaxt Bukeyir ibn Abdullah Bəhramın üzərinə yeridi və onu məğlub edərək taleşilərlə - mukanlılarla müqavilə bağladı.

Ət-Təbəri öz kitabında yazır: 639-cu ildə ərəb qoşunlarının bir hissəsi Azərbaycandan şimal-qərb tərəfə keçdi və bir neçə vuruşmadan sonra Taleşanı və Mukanı işğal etdi və əhalisini cizyə verməyə məcbur etdi(173). Bu dəstənin komandanı Bukeyr ibn Abdullah mukanlılarla müqavilə bağladı və onlara aşağıdakı məzmunda fərman verdi: Muqavilənin şərti belədir:

---

171. Bax:Əl-Bəlazuri, görünür burada odpərəstlərin Zərdüşt qanunları ilə qardaşın bacıya evlənməsi,habelə ildə bir dəfə qarışıq nikah keçirilməsi kimi ayinləri nəzərdə tutub.

172.Bax. Ət-təbəri I,2661.

173: Bax.Ət-Təbəri.yenə orda 326

*"Bismillahirrəhmanirrəhim. Bu fərman Bukeyr ibn Abdullah*

*tərəfindən Mukan əhalisinə, onların şəxsiyyəti, əmlakı, dini və qanunlarını mühafizə etmək haqqında verilən mühafizə fərmanıdır ki, həddi-büluğa çatmış hər bir şəxs bir dinar, yaxud onun dəyərini versin, müsəlmana səmimi yanaşsın,ona yol göstərsin və bir gün, bir gecə onu saxlayıb yedirsin. Nə qədər ki, onlar öz üzərində (ərəb) hakimiyyətini qəbul edib ərəblərə xeyirxahlıqla yanaşırlar, onlara əmin-amanlıq təmin olunur və biz öz təəhhüdlərimizi yerinə yetirərik. Əgər onlar öz təəhhüdlərini pozub səmimi olmadıqlarını göstərsələr, xainləri ələ verməyincə, onlara aman yoxdur! Əks halda!*

*Onlar xainlərin həmfikri hesab olunacaqlar. Şahidlər əş-Şəmmax ibn*

*Dirar, ər-Rusaris ibn Cunadib və Xəmələ ibn Cuveyyə olmuşlar.*

*H/21ci ildə yazılmışdır (3, c.IV, s.157)*(174).

Bəhram bu müqavilə ilə ərəblərin Babər qalasını işğalının qarşısını aldı və bu Bəhram tərəfindən atılmış ən düşünülmüş bir addım idi.

***Savalan döyüşü-642-ci il,iyun.*** İbn əl-Kəlbi Mehnəfin dilindən söyləyir ki, Muğirə Azərbaycana 20-cil ildə girdi və onun əhalisi islamdan döndü. Bu,əl-Əş`as ibn Qeysi(174) ora yenidən güclə girməyə məcbur etdi. O, Bacarvən qalasını tutdu və onun əhalisi ilə müqavilə qurtaran kimi Hüzeyfə-Yəmən İsfəndiyar, Bəhram və Şirzadı azad etdi.İsfəndiyarı Adərpayeqanın, Bəhramı isə Taleşanın hakimi kimi tanıdı. Sonra isə Xuzeyfə ibn əl-Yəmən Şirvana doğru yeridi.

174.Bax: Fuad İzzət oğlu Nurullayev.Azərbaycana islamiyyətin gəlişi.səh.7.10.

Əsirlikdən qurtaran kimi İsfəndiyar və qardaşı Bəhram təntənə ilə Ərdəbilə qayıtdı və İsfəndiyarın qayıtdığını eşidən kimi Ceyd, Nir, Kelxoran və digər məntəqələrin əhalisi də Ərdəbilə axışmağa başladı.Ayrıca olaraq Ərdəbilə yaxınlaşdıqca saray ərkanı hamı İsfəndiyarı qarşılamağa çıxmışdı. İsfəndiyar saraya daxil oldu və ilk öncə anası Ruyan xanım onu qucaqlayıb göz yaşını saxlaya bilmirdi. da növbə ilə öz hökmdarlarını salamlayırdılar. Bu zaman saray baş atravanı əlində od olan kasa ilə içəri girib dedi:

- Ey ali-Fərruxzad nəslindən olan ulu hökmdar İsfəndiyar Fərruxzad, saraya xoş gəlmisən və qoy bu ulu Azər sənə kömək olsun. İsfəndiyar taxtına əyləşən İsfəndiyar üzünü saraydaklara tutub dedi:

- Mənim əziz xalqım! Eşidin və agah olun! Mən və qardaşım Bəhram əlimizdəki igid əsgərlərmizlə çox mübarizə apardıq və inanın ki, düşmən çox fürsətçi,inadkar və qəddardır. Amma buna baxmayaraq biz onları başımızdan bir yol ilə dəf etdik, lakin onlar buradan müvəqqəti getdilər və mənə verilən məlumata görə onlar sel kimi Şirvana-əmim oğlu Şəhriyarın üstünə axıb gedirlər. Oradakılar da bizim bacı-qardaşlarımızdır və Şəhriyara bir məktub yazacam və qoy o, orada ərəblərə hücum etsin və biz də burada qoşun yığıb arxadan onlara zərbə vuracağıq. Bütün saray əyanları və Adərpayeqan xalqı İsfəndiyarın dediklərini dəstəklədi və İsfəndiyar müəyyən bir vaxt içərsində bu ordunu toplaya bildi.

Beləliklə, ərəb qoşunları Azərbaycandan gedəndən sonra ölkənin əhalisi hicri 24 (644-645)-cü ildə üsyan qaldırıb, "müsəlmanların onlarla bağladıqları sülh şərtlərinə əməl etməkdən boyun qaçırdılar". Bukeyr ibn Abdullah Mukandan Xəzər dənizinin sahili ilə şimala doğru hücum etdi və həmin il Bab-ül-Əbvaba (Dərbəndə) çatdı.Lakin ərəb qoşunları

Azərbaycandan gedəndən sonra ölkənin əhalisi hicri 24 (644-645)-cü ildə üsyan qaldırıb, "müsəlmanların onlarla bağladıqları sülh şərtlərinə əməl etməkdən boyun qaçırdılar". Bunu eşidən kimi xəlifə bu dəfə 646-cı ildə ərəb ordusu Valid ibn Uqbənin komandanlığı ilə yenidən Azərbaycana hücum etdi və ordunun qabaq dəstəsində Salman ibn ər-Rəbiə əl-Bəxili gedirdi. 646-cı ildə ərəb ordusu Valid ibn Uqbənin komandanlığı ilə yenidən Azərbaycan ikinci dəfə istila edildi, bu şərtlə ki, (hər il) onlar (əhali) səkkiz yüz min dirhəm versinlər. Bu, Xuzeyfə ibn əl-Yəməninin 22 ( 644)-ci ildə, yəni Nəhavənd vuruşmasından bir il sonra onlarla bağladığı sülhün şərtləri idi(175).

Bukeyir ibn Abdullahın ordusu yenidən Ərdəbilə tərəf hərəkət etdi və bu dəfə İsfəndiyar Fərruxzad ərəbləri əvvəlcədən planlaşdırdıqları kimi məğlub olacaqları təqdirdə Savalan tərəf və oradan da Taleşan dağlarına çəkmək istəyirdi. İsfəndiyar öz ordusu isə Savalan yaxınlığında dağın ətəyində qərar tutmuşdu ki, oradan ərəbləri aydın seçə bilsinlər. İsfəndiyarın ordusunun sağ qanadında Şirzadın başçılıq etdiyi birliklər,solunda isə oğlu Kəyumərsin komandanlığı ilə olan hərbi birliklər dururdu. Cinahlarda isə Ərdəbil xüsusi birliklərin rəisi Fərhad pusquda durmuşdu.

İkinci ordu isə əsasən Taleşan-Mukan hərbi birliklərindən ibarət idi və ona Bəhram komandanlıq edirdi. Taleşan ordusunun sağ qanadına dəmirçi Peroz,sol qanadına isə Bəhramın oğlu Nəvid başçılıq edirdi və Peroz yalnız Bəhramı qoruyurdu. Bəhramın ordu birliklərinin arxasında isə bacısı Şəbnəm və dağlardan gəlmiş qadın oxçu birliklərinə isə dəmirçi Perozun bacısı Gülşən başçılıq edirdi. Bu zaman Bəhram əlindəki qılıncla ərəb ordularının qabaq cərgəsində

175.Bax: Əl-Bəluzari.səh.325-326

duran Bükeyir bin Abdullanı göstərərək dedi:

- Bax! O qarşıda gördüyün şəxs ərəblərin ordu başçısıdır və o, qardaşın İsfəndiyarı əsir edib zəncirləyən şəxsdir, gözünü ondan ayırma. Ön cərgədəki boylu-buxunlu və cüssəli ərəb sərkərdəsini uzun-uzadı izləyən Şəbnəm onu başdan ayağa süzdü və sonra Bəhrama dedi:

- Narahat olma qardaş! Əgər onların üstünlüyünü müşahidə etsəm, onda oxlarımızı yağdırıb onları yubandırarıq və ordumuza vaxt qazandırmağa çalışarıq. Bundan əlavə də əgər imkan tapa bilsəm, onu öldürəcəyəm!

- Yox! Sən nə danışırsans, zira sənə çox irəli getməyə icazə vermirəm! – deyə Bəhram şah dedi.

- Narahat olma qardaş! Bu qılıncımla çoxlu sayda murdar ərəbin ömrünə son qoyacağam1- deyə Şəbnəm onu sakitləşdirdi və sonra isə Bəhram üzünü mistanlı dəmirçiyə tutub dedi:

- Daima Şəbnəmin yanında ol  və gözünü ondandə ayırma! Bir də ki,o mədainli qasid Behnamı da yanında tut.O, mahir döyüşçüdür,qoy o da İsfəndiyarı qorusun.

- Baş üstə! - deyib dəmirçi Peroz atının başını çəkib aralandı.

Budur, ərəb ordu başçısı Bukeyir ibn Abdulla yanındakı sərkərdələrlə orta xəttə gəldi və əli ilə işarə edərək İsfəndiyarın da gəlməsini istədi.İsfəndiyar da bu təklifi qəbul edib yanındakı sərkədələrlə orta xəttə gəldi. Beləliklə, hər iki tərəfin sərkədələri üz-üzə dayandılar və Muğirə ibn Şubə İsfəndiyarı uzun-uzadı süzüb dedi:

- İsfəndiyar! Sasanilər dövləti artıq süqut edib və ondan geriyə heç nə qalmayıb, son hökmdarınız olan III Yezdəgird də artıq həyatda deyil və mən başa düşə bilmirəm ki, sən nə uğrunda mübarizə aparırsan.Bir də ki, axı mən səni şərt ilə

azad etmişdim və sən niyə öz şərtinə əməl etmədin,andını pozdun?

- Sən mənim evimdə boynuma zəncir salıb əsir etmək cürətini haradan almısansa,mən də bu cürəti oradan alıram. Bil və agah ol ki,heç bir vətən oğlu siz murdar köpəklərə baş əyməyəcək və əgər siz bizi tamamilə məhv etsəniz belə,torpaqlarımıza sahib olsanız belə,heç bir şeyə sahib ola bilməyəcəksiniz! – deyə isfəndiyar Fərruxzad cavab verdi.

- O nədir belə? – deyə Muğirə bin Şübə soruşdu.

- Onu gözlə görmək görmək olmur,o bizim mənəviyyatımızdır və milli dəyərlərimizdir. Odur ki,bütün əli silah tutan vətənimizin oğul və qızları sizə qarşı dağlara çəkilib daima mübarizə aparacaqlar. Necə ki Rüstəm, Firuzan, Hörmüzan, Calinus, Hürzad və Bəhmən şəhid olandan sonra bizlər doğduq, eləcə də bizləri öldürüb meyitlərimizn üstündən keçəndən sonra yeni-yeni İsfəndiyarlar, Bəhramlar, Şirzadlar doğulub sizə qarşı daima mübarizə aparacaqlar! – deyə İsfəndiyar Fərruxzad cavab verdi.

- İsfəndiyar! Son sözün bumu? – deyə Muğirə bin Şübə soruşdu.

- Yox! Mən hələ son sözü deməmişəm,son sözü mənim qılıncım deyər! - deyib İsfəndiyar fərruxzad atının başını çəkdi və geri çəkildi.

Döyüşün ilk mərhələsi təkbətək döyüş olduğundan ərəblər tərəfdən döyüşmək üçün tanınmış Yəmənli pəhləvan Əlkəmə Əl-Bərrak çıxdı və özünə tay pəhləvan istədi. Bu zaman İsfəndiyarın ordusundan Şirzad çıxdı. Əlbəyaxa döyüşdə Şirzad ard-ardınca 20 ərəbi öldürdü və geri qayıtdı. Sonra isə ərəb ordusundan Hürr bin Müntəsir adlı tanınmış döyüşçü çıxdı və o da özünə tay istədi. Bu zaman İsfəndiyar üzünü Bəhrama tutdu, Bəhram da dönüb dəmirçiyə baxdı və dəmirçi irəli çıxdı. Döyüş başladı və mistanlı dəmirçi 88-a qədər ərəbi

cəhənnəmə vasil etdi və bu vaxt döyüşü izləyən Salman Rəbiyyə əl-Bəlxi özü çıxdı dəmirçi ilə təkbətək döyüşə və döyüş başladı.

Salman çox təcrübəli sərkərdə idi, lakin o, dəmirçi Peroza qalib gələ bilmirdi. Peroz ona çox yüksək zərblə öz baltasını endirdi və Salman atdan yerə düşdü. Peroz onu öldürmək istəyəndə Salman bin Rəbiyyə əli ilə ordusuna işarə etdi və oxlar atıldı. Bu oxlar dəmirçi Perozun çiyinlərinə batdı və bu vaxt ərəb ordusundan eyni vaxtda 20-dən çox atlı Perozu mühasirəyə aldı. Onlardan biri Peroza zərbə endirmək istəyəndə ani olaraq kiminsə zərbəsi ilə yerə sərildi və hamı çönüb baxanda yerlərində donub qaldılar.Bu, İsfəndiyarın əsgərlərindən biri idi və üzübağlı idi. İsfəndiyar onu tanıdı.Bəhram ona:

- Qardaş! Narahat olma və irəli getmə, qoy onlar onun qız olduğunu bilməsinlər! - deyə sakitləşdirdi.

Zərbədən sonra yerdə qalan ərəb atlıları qılınclarını çəkib o üzübağlı atlıya hücum etdilər. Qanlı döyüş başladı və həmən o üzübağlı əsgər ərəb əsgərlərini bir-bir yerə sərdi. Bayaqdan bu səhnəni izləyən Muğirə ibn Şubə baş verənlərə heyran qalmışdı, lakin qılıncını çəkib onun üzərinə yeridi.

Baş verən təkbətək döyüşdə o üzübağlı atlı ardı-ardınca zərbə vuraraq həm ərəb süvarilərini ,həm də Muğirə ibn Şubəni geri püskürtdü və son zərbədə Muğirə ibn Şubə büdrəyib yerə yıxıldı.

Muğirənin yerə yıxıldığını görən bu üzübağlı atlı ona zərbə endirmək istəyəndə ərəb əsgərləri oxları atdılar. Bunu görən üzübağlı atlı tez qalxanını qaldırıb oxları önlədi və sonra dəmirçi Perozu ayağa qaldırıb geri çəkildilər.Geri çəkilən kimi yenə öz sırasını aldı və üzünü açdı.Bunu görən ərəb əsgərləri heyrətdən donub qalmışdılar, çünki bu üzübağlı əsgər kişi yox, qadın idi. Bu vaxt İsfəndiyar sevincindən uca səslə dedi:

- Əhsən sənə! Əziz bacım! Sən lap kişi qeyrətli imişsən!

Döyüş yenə davam etdi və iki ordu biri-birinə qarışdı və öyüşdə Bəhram, İsfəndiyar və Peroz xüsusi rəşadətlə vuruşurdular, xüsusən də, Şəbnəm ərəblərə qan uddururdu. Onun üzünün açıldığını görən Salman bin Rəbiyyə əsgərlərinə Şəbnəmi diri tutmağı əmr etdi və əvəzində bəxşiş vəd etdi. Ona görə də çoxlu ərəb əsgəri Şəbnəmin üzərinə atıldı,lakin elə ilk zərbədə qanına qəltan olurdu. Ərəbləri sağa-sola doğrayan Peroz da uzaqdan ərəb əsgərlərinin Şəbnəmi mühasirəyə aldığını görüb ona köməyə gəldi,lakin onun sol çiyni aldığı yaradan ağrayırdı. Ərəblərlə başı döyüşə qarışan Şəbnəm onların içərisinə atılır və ərəb ordusunun mərkəzini seyrəldirdi.İsfəndiyar isə o qədər ərəb qırmışdı ki, üst-başı qan içində idi,lakin qüvvələr bərabər deyildi. Vəziyyətin dəyişdiyini görən İsfəndiyar geri çəkilmə işarəsi verdi. Bəhram, Tavtək, Nəvid, Peroz, İsfəndiyar, Şirzad və Şəbnəm öz əsgərləri ilə geriyə - Ərdəbilə tərəf çəkilmək istədilər,lakin ön cərgədə gedən Şirzad və İsfəndiyar 200 nəfərlik əsgərlə pusquya düşdü və bunu görən Şirzad qışqırdı:

- Əlahəzrət! Qaçın,dayanmayın,mən sizi qoruyaram.İsfəndiyar 50-yə yaxın atlı ilə başqa yoldan qaçdı, lakin Şirzad və 150-yə qədər olan əsgərlər qəhrəmancasına həlak oldular. Bəhram isə öz ətrafı ilə Taleşana tərəf çapmağa başladı. Beləliklə, Savalan döyüşü ərəblərin qələbəsi ilə qurtardı və bu üsyan 646-cı ildə yatırıldı. Ərəblər Ərdəbil şəhərini ələ keçirdilər və Adarpayeqan əhalisi ildə 800 min dirhəm ödəməyə məcbur edildi. Bundan əlavə İsfəndiyar əsir edildi və mərzbanlıqdan uzaqlaşdırıldı. Onun yerinə ərəb valisi Ərdəbildə onun taxtına əyləşdi.Ərdəbilin müdafiəsini qıran ərəblər sarayı ələ keçirdilər və bütün saray və şəhər əhli qılıncdan keçirildi.İsfəndiyarın və bütün məmurların qadınları zorla kəniz və qul edildi və bir qismi də zorla arvad edildi.

Sonra isə ərəb ordusu Bəhramı təqib edərək Taleşan və Mukana doğru hərəkət etməyə başladı və hədəf Taleşanın mərkəzi Babər qala şəhəri idi.

## *2. Taleşan - Mukan*

***Taleşan və Mukanın fəthi. Babər döyüşü-642-ci il-27 iyun-5 iyul.*** Dərbəndin alınması ilə şimal tərəfdən təhlükəsizliyi müvəqqəti də olsa təmin etmiş Suraka ibn Əmr yeni torpaqlar ələ keçirmək məqsədilə xəlifə ilə razılaşmadan Bukeyri Muğan, Həbib ibn Məsləməni Tiflis, Huzayfanı Alan ölkəsi, Salman ibn Rəbiəni isə ərəblərin Arran adlandırdıqları Albaniya üzərinə göndərir.

Surakanın bu özbaşına hərəkəti xəlifə Öməri narazı saldı, çünki onun fikrincə, Suraka işğal etmək istədiyi yerlərin nə geniş ərazisini,nə də saysız qoşununu nəzərə almışdı. Doğrudan da,göndərilən sərkərdələrdən yalnız Bukeyr tapşırığı yerinə yetirdi və Mukan fəth olundu. Qalan yerlərdə isə güclü müqavimətlə rastlaşan ərəblər yalnız əldə edə bildikləri qənimətlə kifayətlənməli olurlar(176)

Bəluzari öz kitabında yazır(177) “Abdullah ibn Qasımın dilindən, Fərvi ibn Ləkitin dilindən əl-Mədaini mənə söylədi ki,Osman ibn Əffan *(Osman ibn Əfşan- üçüncü ―haqq‖ xəlifə (644-656),* Allah ondan razı olsun,xəlifə olanda o, Ütbə ibn Fərhadı (Ütbə ibn Fərhad əs-Sulami- xəllifə Ömərin canişini. Ərəblərin Azərbaycana ilk yürüşünün *(h. 18-639) iştirakçısı. Azərbaycanla birinci müqavilə onun adı ilə bağlanmışdır)*

---

176..Bax: Azərbaycan tarixi.(XIII əsrin I rübü).Yeddi cilddə.II.cild. səh.135.III.Bakı, “E lm”,2 0 0 7.

177.Bax: h. 18-639) iştirakçısı. Azərbaycanla birinci müqavilə onun adı ilə bağlanmışdır.

Azərbaycandan geri çağırdı və Valid əbu Mü`eyti [ora hakim] təyin etdi; onun vaxtında Azərbaycan əhalisi sülh müqaviləsini pozdu. Bu, Validi hicri 25-cu ildə onlara qarşı öz dəstəsinin başında Abdullah ibn Şibl olmaqla yürüş etməyə məcbur etdi. Valid əbu Mü`eyt Muğan, Babər, Təyləsan əhalisinə hücum etdi, qənimət aldı, çoxlarını əsir etdi və Azərbaycan vilayətinin əhalisinin xahişi ilə Hüzeyfə sülh bağladı. Sonra qeyd edirlər ki,bu səfər zamanı Səid Əl-Asla bərabər Əş-Şamax ibn Dərar Salab və Bukeyir ibn Şəddad ibn Əmir, Ətlələ qəhrəmanı hansı ki Şamax deyir: - Məndən uzaq edin belə səriştəsiz döyüşçüləri, hansı ki, Şuddahın nəslindən olan Bukeyrə Mukan döyüşündə vermişdilər(178)

---

من المسجد وجعل يماشيه ساعة ثم تنفس وزفر زفرة ، فقال له ابن عباس : يا أمير المؤمنين ! إن ما أخرج هذا النفس والزفير إلا الحزن ، فقال : ويحك يابن عباس ! إن نفسي لتحدثني باقتراب أجلي ولست أحذر الموت لأنه سبيل لا بد منه ، ولكني مغموم لهذا الأمر الذي أنا فيه ، لا أدري أقوم فيه أم أقعد ؛ فقال له ابن عباس : يا أمير المؤمنين ! فأين أنت عن صاحبنا علي بن أبي طالب في هجرته وقرابته وقدمه وسابقته وفضيلته وشجاعته ؟ فقال عمر : والله يابن عباس وإنه لكما تقول ! ولو أنه ولي هذا الأمر من بعدي لحملكم والله على طريقة من الحق تعرفونها ولكنه رجل به دعابة وهو حريص على هذا الأمر ، ولا يصلح هذا الأمر لمن حرص عليه ؛ فقال ابن عباس : يا أمير المؤمنين ! فعثمان بن عفان ؟ فقال عمر : هو أهل لذلك لشرفه وفضله ولكني أتقي عليه أن يحمل آل معيط على رقاب الناس فيقتل ، ولو وليته لفعل ولو فعل لفعلوا ؛ قال : فقلت : يا أمير المؤمنين ! فطلحة بن عبيد الله ؟ فقال : هيهات يابن عباس ! ما كان الله تبارك وتعالى ليوليه شيئاً من أمر هذه الأمة مع ما يعلم من تيهه وزهوه . عجبه بنفسه ، قال : فقلت : يا أمير المؤمنين ! فالزبير بن العوام ؟ قال : فارس بطل ومعه ضيق وجشع يظل يومه بالبقيع يصال على الصاع والمد يخاصم في قفيز من حنطة أو من شعير ولا يصلح هذا الأمر إلا للسخي من غير تبذير ، الممسك من غير إقتار ؛ قال : فقلت : يا أمير المؤمنين ! فسعد بن أبي وقاص ؟ فقال : سعد صاحب مِقْنب يقاتل عليه وأما والي أمر فلا ؛ قال : فقلت : يا أمير المؤمنين ! فعبد الرحمن بن عوف ؟ فقال : نعم الرجل ذكرت يابن عباس ! رجل مسلم غير أنه ضعيف وأمره في يد امرأته ، ولا يصلح هذا الأمر إلا لقوي في غير عنف ، واللين في غير ضعف ، الممسك في غير بخل ، الجواد في غير سرف ؛ ثم قال : يابن عباس ! لو كان معاذ بن جبل حياً لما تخالفتني فيه الأمور لأني سمعت رسول الله ﷺ يقول : إن معاذاً لأمة يجيء يوم القيامة وبينه وبين العلماء نبذة ليس بينه وبين الله عزَّ وجلَّ إلا النبيون والمرسلون ؛ ولو أن سالماً مولى أبي حذيفة كان حياً لما شككت فيه لأني سمعت رسول الله ﷺ يقول [ إن ] سالماً رجل أحب الله عزَّ وجلَّ حباً وخافه خوفاً لم يحب معه سواه ؛ ولو أن أبا عبيدة بن الجراح حياً لكان أهلاً لهذا الأمر فإني سمعت رسول الله ﷺ يقول : لكل أمة أمين وأمين هذه الأمة أبو عبيدة بن الجراح .

قال : ثم دخل عمر إلى منزله وأرسل إلى وجوه أصحاب رسول الله ( صلّى الله عليه وسلّم وآله ) فأحضرهم ، ثم أرسل إلى جاثليق النصارى فدعاه ؛ فلما دخل عليه

٣٢٥

178..Bax: Аль-Балузари.Книга завоевания стран.Баку-1927.(Rus dilində)стр.25-26.Əl-Bəluzari.Kitab Əl-Fütuh.səh.325-326

.

*Şəkil.Əl-Bəluzarinin “Kitab Əl-Fütuh əsərinin orijinalında*


أمره بالجلوس فجلس ، ثم قال : يا جاثليق! اصدقني عما أسألك عنه ، قال : سل يا أمير المؤمنين ! قال : تجدون نعت نبينا في الإنجيل ؟ قال : نعم ، إني لأجده فارقليط ، قال عمر : وما معنى ذلك ؟ قال الجاثليق : معناه أنه يفرق بين الحق والباطل ، فقال عمر ومن حضر : الحمد لله الذي جعلنا من أمته ، ولكن كيف تجدنا في كتابكم ؟ فقال الجاثليق : أجد بعد محمد رجلاً عظيم الذكر مبارك الأمر ، فقال عمر : يرحم الله أبا بكر ! قال : ثم ماذا ويحك يا جاثليق ؟ فقال : من بعده قرن من حديد قوي شديد ، قال عمر : ثم ماذا ؟ قال : ثم من بعده خليفة يؤثر أقاربه على من سواهم ، قال : فنظر إلى عثمان بن عفان ، قال : ثم ماذا ويحك يا جاثليق ؟ قال : ثم سيف مسلول ودم مهراق ؛ قال : فضرب عمر بإحدى يديه على الأخرى ثم التفت إلى عثمان فقال : أبا عمرو ! اتق الله عزّ وجلّ ! وإن وليت هذا الأمر من بعدي فلا تحملن آل معيط على رقاب المسلمين ، وأنت يا أبا الحسن فاتق الله ! وإن وليت هذا الأمر من بعدي فلا تحملن آل أبي لهب على رقاب الناس . قال : ثم انصرف الناس من عنده وذلك في يوم الجمعة .

وانطلق أبو لؤلؤة فاتخذ خنجراً طويلاً له رأسان وبينهما مقبض(١) ، ثم أقبل حتى دخل المسجد متنكراً ، وذلك يوم الأربعاء في وقت الفجر ، قال : فأذن عمر رضي الله عنه وأقام الصلاة وتقدم حتى وقف في محرابه فجعل يسوي الصفوف عن يمينه وشماله وأبو لؤلؤة في الصف الأول ملفع الرأس ، فلما كبر عمر وكبر الناس معه بدر أبو لؤلؤة من الصف والخنجر في يده فجرحه ثلاث جراحات(٢) : جراحتين في سرته وجراحة فوق سرته ، ثم شق الصفوف وخرج هارباً . قال : وعلم عمر أنه مقتول فأمر عبد الرحمن بن عوف أن يصلي بالناس فصلى في الركعة الأولى بأم الكتاب ﴿ وقل يأيها الكفرون ﴾(٣) وفي الركعة الثانية بأم الكتاب و ﴿ قل هو الله أحد ﴾(٤) ؛

(١) في الطبري ١٢/٥ وابن الأثير ٢٠٩/٢ ونصابه في وسطه .
(٢) في الطبري وابن الأثير : ست ضربات إحداهن تحت سرته وهي التي قتلته . وعند ابن سعد : ثلاث طعنات .
وفي البداية والنهاية ١٥٤/٧ ضربه ثلاث ضربات وقيل ست ضربات ، إحداهن تحت سرته قطعت السفاق فخر من قامته .
(٣) سورة الكافرون .
(٤) سورة الصمد .

٣٢٦

*ərəblərin Taleşan və Mukana hücumu və Taleşan hakimi Bəhram Fərruxzadla döyüşü təsvir olan mənbənin səhifələri.*

***Ət –Təbəri yazır:*** Abdullah ibn Qasımın dilindən, Fərvi ibn Ləkitin dilindən əl-Mədaini mənə söylədi ki,Osman ibn Əffan (Osman ibn Əfşan- üçüncü ―haqq‖ xəlifə (644-656), Allah

ondan rası olsun,xəlifə olanda o,Ütbə (ibn Fərhadı) (Ütbə ibn Fərhad əs-Sulami- xəllifə Ömərin caniĢini. Ərəblərin Azərbaycana ilk yürüşünün (h. 18-639) iştirakçısı. Azərbaycanla birinci müqavilə onun adı ilə bağlanmışdır) Azərbaycandan geri çağırdı və Valid əbu Mü`eyti [ora hakim] təyin etdi; onun vaxtında Azərbaycan əhalisi sülh müqaviləsini pozdu.

Bu,Validi 25-cu ildə onlara qarşı öz dəstəsinin başında Abdullah ibn Şibl olmaqla yürüş etməyə məcbur etdi. Valid əbu Mü`eyt Muğan, Babər,Təyləsan əhalisinə hücum etdi, qənimət aldı,çoxlarını əsir etdi və Azərbaycan vilayətinin əhalisinin xahişi ilə Hüzeyfə sülh bağladı.(179)

***İstəhri yazır:*** Abdullah ibn Qasımın dilindən, Fərvi ibn Ləkitin dilindən əl-Mədaini mənə söylədi ki,Osman ibn Əffan (Osman ibn Əfşan- üçüncü ―haqq‖ xəlifə (644-656), Allah ondan rası olsun,xəlifə olanda o,Ütbə (ibn Fərhadı) (Ütbə ibn Fərhad əs-Sulami- xəllifə Ömərin canişini. Ərəblərin Azərbaycana ilk yürüşünün (h. 18-639) iştirakçısı. Azərbaycanla birinci müqavilə onun adı ilə bağlanmışdır) Azərbaycandan geri çağırdı və Valid əbu Mü`eyti [ora hakim] təyin etdi; onun vaxtında Azərbaycan əhalisi sülh müqaviləsini pozdu.

Bu,Validi 25-cu ildə onlara qarşı öz dəstəsinin başında Abdullah ibn Şibl olmaqla yürüş etməyə məcbur etdi. Valid əbu Mü`eyt Muğan, Babər,Təyləsan əhalisinə hücum etdi, qənimət aldı, çoxlarını əsir etdi və Azərbaycan vilayətinin əhalisinin xahişi ilə Hüzeyfə sülh bağladı(180).

179 Bax: Bax:Ат-Табари.История пророков и полководцов.стр7-8).Ət-Təbəri.Peyqəmbərlərin və Sərkərdələrin tarixi.I .səh.2661
180.Bax: Yaqut.173.

***Abdullah ibn Qasımın dilindən***, Fərvi ibn Ləkitin dilindən əl-Mədaini mənə söylədi ki,Osman ibn Əffan (Osman ibn Əfşan- üçüncü ―haqq‖ xəlifə (644-656), allah ondan rası olsun,xəlifə olanda o,Ütbə (ibn Fərhadı) (Ütbə ibn Fərhad əs-Sulami- xəllifə Ömərin canişini. Ərəblərin Azərbaycana ilk yürüşünün (h. 18-639) iştirakçısı. Azərbaycanla birinci müqavilə onun adı ilə bağlanmışdır) Azərbaycandan geri çağırdı və Valid əbu Mü`eyti [ora hakim] təyin etdi; onun vaxtında Azərbaycan əhalisi sülh müqaviləsini pozdu. Bu,Validi 25-cu ildə onlara qarşı öz dəstəsinin başında Abdullah ibn Şibl olmaqla yürüş etməyə məcbur etdi. Valid əbu Mü`eyt Muğan, Babər,Təyləsan əhalisinə hücum etdi, qənimət aldı,çoxlarını əsir etdi və Azərbaycan vilayətinin əhalisinin xahişi ilə Hüzeyfə sülh bağladı”.

Beləliklə, Bəhramı təqib edən Valid əbu Mü`eyt öz sərkərdəsi Abdullah ibn Şibl ilə 4000 qoşunla Mukana, Bədrə və Taleşana göndərdi. O, oranı ələ keçirib əsirlərlə Validin yanına qayıtmaq istəyirdi. Çünki Əl-Validin 12 minlik ordusuna başçılıq edən Abdullah ibn Şibl işdə xüsusi qəddarlıq göstərən Əşası Valid Azərbaycana hakim təyin etmək istəyirdi.

Bəluzari yazır ki,hicri 198-cii ildə Hüzeyfə ibni əl-Yəmənə Adarpayeqan və Taleşan əhalisinin öldürüldüyünü eşidən xəlifə Hüzeyfəyə bu əraziləri dinc yolla istila etməyi və müqavilə bağlamağı tapşırırdı. Bu müqaviləyə görə heç kəsi öldürməsinlər,əsir almasınlar, atəşgahları dağıtmasınlar və Balasakan(Balasakəran), Savalan və Satrudan Kürdlərini, yəni Taleşiləri təqib etməsinlər. Onların mərkəzi olan Babər qala şəhərində Taleşilərə öz bayramlarında rəqs etməsinə,(keçmişdə) icra etdikləri hər işi açıq görmələrinə mane olmasınlar. Bundan sonra xəlifə Ömər Hüzeyfə ibn əl-Yəməni vəzifədən götürdü və Ütbə bin Farkadı Adarpayeqana

canişin təyin etdi. Sonra isə Bukeyir bin Abdullah Taleşana doğru hərəkət etdi.

***Qalaya doğru.*** Budur,axşam saatları. Bəhram öz əsgərlərinin qalıqları ilə gəlib qalaya çatdı.Bəhram qalaya atan kimi atdan düşdü və qapıçıya təlimat verdi ki,hamı hüzuruma gəlsin, özü isə taxtında əyləşib dodaqlarını çeynəyirdi.Bu zaman onun oğlu Nəvid,bacısı Şəbnəm,dəmirçi Peroz və onun bacısı Gülşən, Tavtək və Fərhad da içəri daxil oldular. Peroz üzünü Bəhrama tutub dedi:

- Bu Hacər oğullarına qarşı əlverişli müdafiə xətti təşkil etməliyik və onları burada əzmə şansımız var.

- Nəyi nəzərdə tutursan? – deyə Bəhram şah soruşdu.

- Əlahəzrət! Bizə bir yandan keçilməz dağlarımız və digər yandan da Vazarud çayımız kömək edər. Bir də ki, təklif edirəm ki,qaladakı qadınları çayın o tərəfindəki “Kinan” qalasına(qızlar qalasına) göndərək, qapını hörək, qoy onlar oradan oxla ərəblərdən müdafiə olunsunlar.Amma biz də burada vuruşub onların fikrini yayındırarıq! – deyə dəmirçi Peroz cavab verdi.

- Qəbul edə bilmirəm,çünki qardaşım onlara ailəsi ilə birlikdə əsir düşdü və sən tez kəşfiyyatçı göndər gör ərəblər haradadırlar..! – deyə Bəhram şah soruşdu.

- Hökmdarım! Mən gedərəm! – deyə Tavtək cavab verdi.

- Onlar ehtimal ki, sabah axşam buralarda olacaqlar və yüksək ehtimalla döyüş ertəsi gün olacaq! – deyə Bəhram şah cavavb verdi və sonra üzünü dəmirçi Peroza tutub dedi:

- Peroz! Əgər mənə bir şey olsa,bacım sənə əmanətdir.

- Belə söyləməyin əlahəzrət, mən sizi əsla tək buraxmaram! – deyə dəmirçi Peroz cavab verdi.

-Yox! Sən sözlərimə qulaq as! Biz müqavimət göstərəcəyik, lakin vəziyyətin dəyişdiyini gördükdə onlara

güzəştə getməyə çalışacağam. Mən vaxt qazanım və onda sən Şəbnəmi köhnə çodar qılığında apar öz obana, Mistana, heç olmasa soyumuz qurumasın! – deyə Bəhram israr etdi və Bəhramın sözlərindən kövrələn dəmirçi Peroz bir an susub dedi:

- Əlahəzrət! Yəni onu öz xanımım etməyimi istəyirsiniz?

- Hə! Elədir! Amma əgər bir zamanlar ərəblər buradan gedəcəklərsə, onda övladınızı bizim soyumuzun davamı kimi taxta əyləşdirəcəksiniz! – deyə Bəhram cavab verdi.

- Bəs insanları necə inandırarıq ki,bu uşaq sizin hökmdar soyunuzdandır! – deyə dəmirçi Peroz cavab verdi və onun sözünə gülümsəyən Bəhram dedi:

- Biz, ulu Zərdüştün nəslindənik və bizə möbidlik ilahidəndir. Bizim bütün kişilərimizn belinin aşağı hissəsində xal var və bu xal bizim hökmdar nəslimizi bildirir, onu göstərsən, hamı inanar. Sonra isə sözünə davam edən Bəhram “indi get istirahət et”!- deyə dəmirçi Peroza əli ilə işarə etdi və özü isə taxtında fikirli-fikirli əyləşməyə davam etdi.

***Babər qalasının süqutu. 643-ci il-27 iyun-5 iyul.*** 639-cı ildə ərəb orduları Bukeyir bin Abdullah və əş-Şəmmax ibn Dirar, ər-Rusaris ibn Cunadib və Xəmələ ibn Cuveyyənin ordusu Taleşan və Mukana doğru hərəkət etdi.Ərəblər Taleşana Həştadsər dağlarının arxa hissəsindən daxil olub Peştəsər silsiləsinin aşağı ətəkləri ilə Vazarud çayı boyu olan daş yolla Babər qalasına doğru hərəkət etməyə başladılar. Belə ki yol boyu Bukeyir bin Abdullahın ordusu Taleşanın bir çox məntəqəsini viran edib yandırdılar və kişiləri öldürüb,qadınları əsir alırdılar.

Axşama doğru Bukeyir bin Abdullah özünün dörd minlik birlikləri ilə Bibhan məntəqəsinə gəlib çatdılar və oradan da gəlib Tanqavan və Tanqara məntəqələrinə yetişdilər.Bukeyir

bin Abdulla qalaya elçi göndərib onun dərhal təslim olmasını tələb etdi, lakin rədd cavabı alınca qala üzərinə yeridi. Qanlı döyüş başladı və ərəblər qalanın dağlararası arxa yolundan onun lap 1 km-nə qədər gəlib çatdılar.

Ərəbləri Bəhram,Tavtak,Bəhramın oğlu Nəvid, dəmirçi Peroz və Fərhad qarşıladı və döyüş ərəblər üçün,ümumiyyətlə, çox pis nəticə verməkdə idi. Belə ki ömür boyu səhralarda yaşayan bədəvilər buranı görən kimi heyrətlərindən donub qalmışdılar və bura əsl cənnətə bənzəyirdi.

Bundan əlavə qalaya gedən yolda böyük palıd və dəmirağaclarının olması ərəblərin işini çox çətinləşdirmişdi.Bəhram öz dəstəsi ilə ön tərəfdən ərəblərə hücum edib zərbə vurur və ərəblər cavab vermək istəyəndə Şəbnəm və digər oxçu qızlar meşədəki ağacların arasından ərəbləri ox atəşinə tuturdular.

Bu səbədən də ərəb qoşun əmirinin birinci gün qalaya olan yeddi həmləsi boşa çıxdı və ərəblər xeyli itki verib geri çəkildilər.Axşama yaxın ərəblər hücumu dayandırdılar və hər iki tərəf öz düşərgələrinə qayıtdı.Bu zaman Bəhram öz əsgərləri ilə qalaya qayıtdı.Qalaya gələn Bəhram yenə öz əyanlarını yığıb məşvərət etməyə başladı və üzünü çapara tutub dedi:

- Tez olun Buyək, Şahlakon, Utey məntəqələrinə adam göndərin, qoy ərəblərə zərbə endirsinlər.Əyanlardan biri Bəhrama dedi:
- Əlahəzrət! Deyirəm ki, bəlkə onları qorxudaq?
- Necə qorxudaq? – deyə Bəhram şah soruşdu.
- Obalara xəbər yollayaq, qoy əli silah tutan hər kəs,yəni uşaqdan qocaya qoy hərə bir məşəl düzəldib hazır qalsın1 – deyə saray əyanı cavab verdi.
- Bəs sonra? – deyə Bəhram şah soruşdu.

- Axşam olan kimi hər kəs öz məşəlini yandırsın və ərəb düşərgəsini uzaqdan dövrəyə alsın,onda ərəblər elə bilərlər ki, bizim sayımız onlardan çoxdur və bəlkə bu onların döyüş ruhunu aşağı salsın! – deyə qoca əyan cavab verdi.

- Yaxşı fikirdir,di tez olun ətraf obalara xəbər yollayın, qoy belə də etsinlər! – deyə Bəhram şah dedi.

Budur, gecə yarısıdır və Bukeyir bin Abdullahın düşərgəsi. Bukeyir bin Abdullah ilə əş-Şəmmax ibn Dirar, ər-Rusaris ibn Cunadib və Xəmələ ibn Cuveyyə. qalaya sabahkı hücumun planını hazırlayırlar və Əş -Şəmax ibn Dirar Bukeyirə dedi:

- Ya Əmir! Onlar bir- iki gündən çox dayana bilməzlər, ayrıca buraya ən yaxın şəhər Ərdəbil idi ki, o da bizim əlimizdədir və təklif edirəm ki oraya Vaər-Rüsaris ibn Cunadibi göndərək.

- Qoy onda ər-Rüsaris ibn Cunadib qalanın aşağısında dövrə vurub obaları yandırsın və Bəhram və qardaşını çölə çəkməyə çalışsın! – deyə Əş -Şəmax ibn Dirar dedi.

- Hə! Ola bilər! Baxarıq,amma gərək o zaman hər iki qardaşı öldürərdik, indi bu qədər vaxt itirməzdik! – deyə Bukeyir bin Abdulla cavab verdi.

- Qala təslim olarsa, Bəhrama nə edəcəksiniz? – deyə Əş-Şəmax bin Dirar soruşdu.

- Qala təslim olarsa, Bəhramı mütləq öldürərəm və bu Taleşan hakiminin soyundan olan bütün kişiləri qılıncdan keçirib, qadınlarını isə zorla qula çevirəcəyəm! – deyə Bukeyir bin Abdulla cavab verdi.

- Bəs onun bacısı nə olacaq? - Əş-Şəmax bin Dirar soruşdu.

-O haqda xəlifəyə məktub yollamışdım, hələ Cərmidan və Savalan döyüşündən sonra! – deyə Bukeyir bin Abdulla cavab verdi.

-Bəs xəlifə nə cavab yazıb? - Əş-Şəmax bin Dirar soruşdu.

- Xəlifə o cür qadını öz hərəmində görmək istəyir, belə ki digər Sasani qadınları kimi o da ya qul olacaq,ya da kəniz! Bukeyir bin Abdulla cavab verdi. Beləcə onlar ayrıldılar və hərə öz çadırına çəkilmək istərkən bu zaman keşikçi qışqırdı: Əmir, əmir!

-: Nədir? Nə olub? – deyə Əş-Şəmax bin Dirar soruşdu.

- Özünüz şəxsən baxsaz yaxşı olar! - deyə kleşikçi cavab verdi və odur ki Əş-Şəmax ibn Dirar tez çadırdan çıxdı və heyrətindən yerində donub qaldı. Uzaqda dağların və meşələrin arasında hərəkət edən məşəllər görünürdü və unu görən Əş-Şəmax ibn Dirar tez qışqırdı:

- Əmir! Əmir!! Tez olun ordunu ayağa qaldırın!

Əş-Şəmax ibn Dirar sözündən elə bil yuxudan oyanmış kimi Bukeyir bin Abdullah tez əmr verdi ki, əsgərlər döyüş vəziyyətinə çatdırılsın, odur ki dərhal şeypur çalındı və ərəb əsgərləri hamı yerini aldı. Bukeyir bin Abdullah və qoşunu səhərə qədər gözlədi, amma heç gələn olmadı. Artıq gün çıxırdı və əsgərlərin çoxu ayaq üstə qalmaqdan yorulmuşdular. Bu zaman Bukeyir bin Abdullah üzünü Əş-Şəmax ibn Dirar əmr verib dedi:

- Artıq kimsə yoxdur, ordu da yorulub, istirahət əmri verin Əş-Şəmax bin Dirar da istirahət əmrini verdi və ərəb əsgərləri elə yenicə silahları yerə qoyub yuxuya getmişdilər ki, birdən keşikçi qışqırmağa başladı:

- Əmir! Əmir tez olun ayılın! Gəlirlər! Mueyt tez qılıncını götürüb çadırdan çıxanda gördü ki, qala tərəfdən dairəvi formada atəşli çarxlar düşərgəyə gəlir. O, tez hücum əmrini verdi və ərəblər qalaya hücum etmək istəyəndə yenə ağaclardan ox yağmuruna tutuldular. Bu atəşdən ərəblərdə nizam pozuldu və onun ardınca Bəhram öz süvariləri ilə ərəblərin öndəki birliklərinə hücum etdi. Qanlı döyüş başladı və Bəhram ərəblərin ön birliklərinin hamısını qılıncdan

keçirdi. Bu zaman Bukeyir bin Abdulllah Əş-Şəmax ibn Dirar qalanın aşağı hissəsindəki şəhərciyə basqın etdi. Əş-Şəmax ibn Dirar qalanı dolanıb onun aşağı hissəsinə daxil oldu və qanlı döyüş başladı. Şəhər əhalisi yaxşı müdafiə olunurdular, lakin axşama şəhərcik ələ keçirildi. Şəhərciyin əhalisi çayı o tərəfə keçmək istəyəndə çoxu orada boğulub həlak oldu. Şəhərcikdəki bütün kişilər öldürüldü, qadın və uşaqlar isə əsir alındı.Bu zaman Tavtak tez Bəhramın yanına çaparaq dedi:

- Əlahəzrət! Ərəblər artıq qalaaltı şəhərciyi ələ keçirib,əhalini qılıncdan keçirdilər və biz indi üzük qaşı kimi mühasirədəyik, sonra Bəhram bir az fikrə gedib dedi:

- Axşama qədər dayansaq, sabahı onda fikirləşərik, sonra isə axşama yaxın Bəhram geri çəkilmək əmri verdi.

Budur.... Babər qalası və Bəhramın sarayı. Bəhram saray əyanları ilə məşvərət edir və o, üzünü əyanlara tutub dedi:

- Rüdəsər qalasına gedən yolu yoxlamaq lazımdır,əgər açıqdırsa, onda çay boyu dəniz sahilindəki bataqlıqlara qadınları aparıb gizlətmək lazımdr.

Əyanlardan biri dedi:

- Əlahəzrət Gərək qala başçısı Siruza xəbər göndərək ki,sabah bizə köməyə gəlsin,çünki ərəblər özlərinin böyük həmləsini edəcəklər. Bəhram Rudəsər qalasına adam göndərdi ki, xəbər bilsin və sonra üzünü Tavtaka tutub dedi:

- Sən də artıq qadınları apar Kinan qalasına və orada möhkəm sədd tik ki, girə bilməsinlər. Sonra hamı dağıldı və səhərki döyüşə hazırlıq başladı.

***Üçincü gün:*** Səhər saatları. Bukeyir bin Abdullahın başçılığı ilə ərəb ordusu Babər qalasını hər tərəfdən mühasirəyə aldı, arxa hissədən isə Əş-Şəmax ibn Dirar hücuma keçdi. Hücuma keçməzdən əvvəl ərəblər qala divarlarını dağıtmaq üçün iki ədəd mancanaq gətirdilər və

sonra isə onlarla qalaya atəş yağdırmağa başladılar. Ərəblərin atəşi nəticəsində qalanın zəif yerləri dağılmağa başlayır, bəziləri isə insanların üzərinə aşır və onları əzirdi.Bunu görən kimi Bəhram ölənlərin sayını minimuma endirmək üçün son həmlə edərək qaladan çıxdı və qalanı mühasiərəyə alan ərəblərlə vuruşmağa başladı. Bu vaxt Kinan qalasından bir əsgər gəlib Bəhrama xəbər verdi ki, ərəblər artıq Vazarud çayını keçib Kinan qalasını mühasirəyə alıblar,Tavtak və digər müdafiəçilər isə qəhrəmancasına həlak olmuşlar. Bu xəbər Bəhramı qismən sarsıtdı,amma döyüşü dayandırmadı, lakin ikinci bir atlı gəlib xəbər verdi ki, ərəblər artıq Rüdəsər qalasını ələ keçiriblər və qalabaşı Sirus da qəhrəmancasına həlak olub. Bəhram qala yolundakı ərəb qoşunlarının müdafiəsini yarıb Kinan qalasına tərəf çapmağa başladı və digər atlı süvarilər də onun ardınca hərəkət etməyə başladılar. Bəhram çətinliklə də olsa,Vazarud çayını keçib Kusər obasına yetişdi və oradan da Kinan qalasına tərəf hərəkət etdi. Qalaya çatanda artıq ərəblər onu mühasirəyə almış və qala divarlarına quru ağac qırıntıları dayayıb qalaya od vurmuşdular. Bunu görən kimi Bəhramın gözləri yaşardı və qışqırdı:

- Şəbnəm,bacım! Bu zaman qalanın yuxarısından səs gəldi:

- Qardaşım! Mən sağam! Gəl məni qurtar!

. Bəhrama anidən elə bil güc gəldi və o, Kinan qalasının müdafiəsini yarıb qalaya yaxınlaşdı. Bu vaxt arxadan gələn dəmirçi Peroz qışqırdı:

- Əlahəzrət! Oraya getməyin! Lakin Bəhram düz ərəb piyadalarının üstünə şığıdı və onları qanlarına qəltan etdi, sonra dəmirçi Peroz tez qalaya girişi dağıtdı və qadınları xilas etdi. Bəhram Şəbnəmi qucaqlayıb gözləri yaşardı və üzünü Peroza tutub dedi:

- Sənə nə əmr etmişəmsə onu da et!

*Şəbnəm:* Qardaş! Sən məni özündən uzaqlaşdırma,artıq səndən başqa heç kimim qalmayıb.

*Bəhram:* Biz artıq məğlub olmaq üzrəyik,əgər əsir düşsən, onda ərəblər səni zorla qula çevirərlər, odur ki sən Perozla dağlara qaçıb Mistanda gizlənərsən. Əgər mən sağ qalsam, gəlib səni taparam. Sonra da Şəbnəmlə vidalaşıb onları dağlara yola saldı.Bu zaman bir ərəb elçisi gəlib çıxdı və uzaqdan Bəhrama səslənib dedi:

- Bəhram! Oğlun Nəvid bizdədir! Əmir Bukeyir bin Abdullah tələb edir ki, itaət edib təslim olasan.Bunu eşidən kimi Bəhram üzünü yanındakı əsgərlərə tutub dedi:

- Artıq yetər! Atın qılıncları! Təslim oluruq,zira oğlum onların əlindədir!

Beləliklə, Bəhram və onun əsgərləri təslim oldu və ailə üzvləri ilə birgə ərəb əsgərlərinin müşayiəti ilə Bukeyir bin Abdullahın qala qarşısındakı düşərgəsinə gəldi və üzünü Bukeyir bin Abdullaha tutub dedi:

- Mən sənin əlindəyəm və indi sən mənimlə nə istəsən edə bilərsən.Lakin səndən bir xahişim var, məni öldür, amma ailə üzvlərimə dəymə.Bukeyir Bəhramın bu sözlərindən sonra gülümsəyib dedi:

- Səni,ailə üzvlərini və digər əsgərlərini bağışlayaram, yalnız bir şərtlə.

- O hansı şərtdir belə? – deyə Bəhram şah soruşdu.

- Bizim dinimiz aman istəyənləri bağışlamağı buyurur və sən də aman istədin, mən onu sənə sözsüz olaraq verirəm,lakin mənimlə müqavilə bağla! – deyə Bukeyir bin Abdulla cavab verdi.

- Razıyam! – deyə Bəhram şah cavab verdi.

Beləliklə, hicri 21-ci ildə,yəni miladi 642-ci ildə Bukeyir bin Abdullah ilə Bəhram Fərruxzad arasında müqavilə

bağlandı. Sonra isə Bukeyir bin Abdullah Taleşanın hakimi Bəhramla müqavilə bağladı və bu müqavilənin şərtləri belədir:

*"Bismillahir rəhmanir rəhim. Bu fərman Bukeyr ibn Abdullah*
*tərəfindən Mukan əhalisinə, onların şəxsiyyəti, əmlakı, dini və*
*qanunlarını mühafizə etmək haqqında verilən mühafizə fərmanıdır*
*ki, həddi-büluğa çatmış hər bir şəxs bir dinar, yaxud onun dəyərini*
*versin, müsəlmana səmimi yanaşsın, ona yol göstərsin və bir gün bir*
*gecə onu saxlayıb yedirsin. Nə qədər ki, onlar öz üzərində (ərəb)*
*hakimiyyətini qəbul edib ərəblərə xeyirxahlıqla yanaşırlar, onlara*
*əmin-amanlıq təmin olunur və biz öz təəhhüdlərimizi yerinə*
*yetirərik. Əgər onlar öz təəhhüdlərini pozub səmimi olmadıqlarını*
*göstərsələr, xainləri ələ verməyincə, onlara aman yoxdur! Əks halda!*
*Onlar xainlərin həmfikri hesab olunacaqlar. Şahidlər əş-Şəmmax ibn*
*Dirar, ər-Rusaris ibn Cunadib və Xəmələ ibn Cuveyyə olmuşlar.*
*Hicri 21-ci ildə (b.e. 642-ci ildə) yazılmışdır."*

Müqavilə bağlandıqdan sonra Bukeyir bin Abdullah artıq Bəhram və onun ailəsini azad etdi və onun bütün ailə üzvlərini də buraxdı. Sonra Bəhramın sədaqətini qorumaq üçün oğlu

Nəvid girov kimi Xəlifənin yanına göndərildi və Bəhram təslim olsa da, İsfəndiyarın aqibəti məlum deyildi. Bəhram hər nə qədər təslim olsa da, hamı bunun əsl təslimiyyət olmadığını yaxşı bilirdi və bu, sadəcə onun oğlu Nəvidlə bağlı idi. Bəhramdan sonra onun bir neçə yaxın sərkərdələri də onunla birgə təslim oldu,lakin qala aşağısında,çayın o tayında yerləşən Kusər obasında və Taleşanın digər yaxın obaları olan Cadə, Şahlakon, Xanbal və digər məntəqələrdə əhali müqaviməti davam etdirirdi.Ərəblər tezliklə o məntəqələri də ələ keçirib çoxlu sayda insanları qılıncdan keçirdilər.

Bütün bu xəbərlər Bəhrama çatanda o, ürək ağrısı keçirirdi, lakin bunu ərəblərə bildirmirdi. Bükeyir ibn Abdullah müqaviləyə əsasən artıq Bəhramı əsir tutmuşdu və onu buraxmışdı.Bəhram sağ qalsa da, o, əslində bir əsir idi, çünki oğlu Nəvid ərəblərin əlində idi və bu üzdən də öz səsini çıxarmırdı. O öz yaxın tərəfdarları ilə islamı qəbul etməyərək müqavilədə göstərildiyi kimi ölkəni sakitcə tərk edib gedə bilərdi. Bu səbəbdən də Bəhram ona sadiq adamlarla birlikdə Mistana doğru hərəkət etməyə başladı. İbn əl-Kəlbi deyir ki, [xəlifə] Əli ibn Əbu Talib, Allah ondan razı olsun, Sə`id ibn Sariyəni, ondan sonra isə əl-Əş`as ibn Qeysi Azərbaycanın hakimi təyin etdi. Abdullah ibn Mü`əz öz atasının dilindən, Əs`əd ibn əl-Hakim ibn Ütbənin dilindən, Zeyd ibn Vahabın dilindən mənə bildirmiş ki, Allah Nəhavənd yaxınlığında çoxallahlıları qaçmağa məcbur edəndən sonra*(Əli ibn Əbu Talib – dördüncü —haqq‖ xəlifə (656-661 ).* Hicazın sakinləri Hicaza, Bəsrənin sakinləri isə Bəsrəyə qayıtdılar, ancaq kufəlilər Hüfeyzə ilə Nihavənddə qaldılar və o onlarla [birlikdə] Adərbayqana yürüş etdi, əhalisini [ ildə] səkkiz yüz dirhəm vermək ittihamı ilə sülh bağlmağa məcbur etdi.Hüseyn ibn Əmru və Əhməd ibn Muslih Adərpayeqanın qocalarının dilindən mənə dedilər ki,Valid ibn Ükbə əl-Əş`as ibn Qeyslə

birlikdə Adərpayeqana gəldi, ölkəni tərk etməli olduqda, onu öz yerinə hakim qoydu. [Valid] getdikdən sonra əhali üsyan etdi və əl-Əş`as kömək üçün Validə müraciət etdi; (Valid) ona Kufə əhalisindən böyük ordu göndərdi.Onun (ordunun) köməyi ilə, o, bir bağdan o biri bağa köçərək (azərbaycanlıların dilində―hən‖ – bağ‖ deməkdir) bütün ölkəni yenidən tabe etdi. Onlarla Hüfeyzə və Ütb ibn Fərhadın [qabaqlar]təklif etdiyi şərtlərlə sülh bağladı. O,sonra bu ölkəyə dövlət təqaüdü və maaş alan rəbləri köçürdü: onlara əmr etdi ki,adamları (Azərbayucan əhalisini) islama döndərsinlər.Əl-Əş`asdan sonra Sə`id ibn əl-Ası hakim təyin olundu; o, Azərbaycan əhalisnə qarşı yürüş etdi və Muğan və Clian (Gilan) əhalisini böyük məğlubiyyətə uğratd(181)

181.Bax .Təbəri).

## *2.Bəhram Fərruxzad*



***1.Bəhramın üsyanı – 643-ci il iyul.*** 643-cü il,iyulun 10-u idi,Taleşanın dağ yolları ilə Mistana doğru hərəkət etməkdə olan Bəhram Anca keçidini keçəndən sonra tezliklə gəlib Asnaqaran atəşgahına çatdı.

Ərəblər buraya hələ gəlib çıxmamışdılar və bu üzdən də atəşgahın həyəti qırmızı paltarlı atəşpərəstlərlə dolu idi.

Hamı təlatümdə idi və Bəhram atı ilə atəşgaha girən zaman Fərhad ucadan dedi:

- Ey azərilər! Rüsxət verin! Şahzadə Bəhram Fərruxzad daxil olur! Bunu eşitcək atəşgahın həyətindəki ağacların aralarından çoxlu sayda əli qılıncı insanlar Bəhrama yol verib onun başına yığışdılar.

Bu zaman Bəhram kiçik dəstəsi ilə atəşgaha daxil oldu və atdan düşərək kahinlərin yanına gəldi. Qapıda onu atəşgahın atravanı qarşıladı və uca səslə dedi:

- Ey Ali Fərruxzad! atəşgaha xoş gəlmisən və bizi şərəfləndirmisən.Bu zaman atəşgahın həyətində olanların hamısı bu sözləri təkrar etdi.Sonra isə Bəhram əli ilə insanlara işarə edərək onları salamladı və içəri girib ziyarət etməyə başladı. Bəhram içəridə ziyarətini edib qurtarana kimi çöldəki insanlar onu səbirsizliklə gözləyirdilər.Bir saatdan sonra Bəhram ziyarətini bitirdi və atravanlarla birgə çölə çıxdı. Bu vaxt xidmətçilərə əli ilə işarə etdi, onlar da yerdə bir neçə xalça sərdilər və hamı yerdə əyləşdi. Hamı sükut içində idi və öz gözlərini Bəhrama zilləmişdi və bir müddət sükut içində duran Bəhram,nəhayət ki, öz sükutunu pozdu və dedi:

- Qardaşlar! İgidlər! Bildiyiniz kimi başımızda İsmayıl övladları bəlası var və bu bəladan heç cür öz yaxamızı qurtara bilmirik. Ən pisi də odur ki,artıq sasanilər imperatorluğu



çökmüşdür və şahənşah III Yəzdigerd Xorasana qaçmışdır və orada qoşun toplayıb İsmail övladlarını geri püskürtmək fikrindədir. Lakin bilmənizi istəyirəm ki, Babər qalası artıq ərəblər tərəfindən alınmış, təslim olmayanlar qılıncdan keçirilmişdir və bu gün Adarbayqan, Taleşan və Şirvan qan ağlayır.

Xalqımız yadellilərə qarşı bu gün də muqavimət göstərməkdədir və bu yolda canlarından belə keçmişlər.

Neçə-neçə igid oğul və qızlarımız qəhrəmancasına vuruşaraq döyüş meydanında şəhid olmuşlar.Ana-bacılarımız isə düşmən tərəfindən əsir alınaraq zorla qula çevrilməkdə və arvad edilməkdədirlər. Buna dözmək çətindir, lakin bildiyiniz kimi ata-babalarımız olan Fərrruxzad sülaləsi həmişə Taleşan və Təbəristanda hökmranlıq etmiş və bundan sonra da edəcəklər. Bu zaman atəşgahda olan bütün insanlar uca səslə:

- Yaşasın Ulu Zərdüşt! Ulu Azər! - deyə qışqırırdılar. Sonra isə Bəhram sözünə davam edərək dedi: -Mən insanların daha çox qətlə yetirilməsinin qarşısını almaq üçün

zahirən ərəblərə təslim oldum. Lakin indi sizə çağırış edirəm ki,bütün obalara xəbər salın, qoy əli silah tutan və ərəblərə nifrət hissi bəsləyən bütün şəxslər bizə qatılsın. Bu vaxt atravan da Bəhramın sözünə dəstək verərək döyüşçülərə xeyir-dua verdi.

İnsanların bu cür Bəhrama dəstək verdiklərindən ruha gələn Fərhad əli ilə yanındakı döyüşçüyə işarə etdi və o döyüşçü də atəşgahdan qırmızı bayrağı gətirdi. Bayrağı görən kimi hamı uca səslə bağırırdı, sonra isə Bəhram üzünü insan izdihamına tutub dedi:

- Mən Mistana doğu hərəkət edirəm və bizə qoşulanlar isə oradakı keçidə gəlsinlər, çünki düşərgəmiz orada olacaq. Beləliklə, 643-cü il, iyulun 11-də Bəhram öz dəstəsi ilə sərkərdəsi Cobir Nasarın obasına gəlib çatdı və orada düşərgə qurdu. Gecəni orada qalan Bəhram axşam Fərhadı çağırıb dedi:

- Səhər Mistan obasına bir çapar göndər,qoy gedib dəmirçi Perozla əlaqə saxlasın və mənim gəlişimlə bağlı onu məlumatlandırsın.Sonra isə Bəhram qurşağından iki namə çıxarıb sözünə davam etdi:

- Bu naməni də dəmirçi Peroza verərsən,digərini isə bacım Şadoxt Şəbnəmə verərsən.

- Baş üstə əlahəzrət! – deyib Fərhad çıxıb getdi. Sonra isə Bəhram ona qoşulanlarla söhbət apardı və obalardakı başçılarla əlaqə saxlamağı istədi və üzünü yanındakı əsgərə tutub dedi:

- Sən isə Huzu obasına get və tez sərkərdə Xalasa çatdır ki, yubanmasın, öz dəstəsi ilə gəlib Takavand yaxınlığında pusqu qursun və işarəmi gözləsin.

- Be çeşm əlahəzrət! – deyə əsgər çıxıb getdi və sonra Bəhram uzun-uzadı düşündü və sonra yenə bir əsgəri çağırıb dedi:

- Tez ol! Sən də get! Aranda və Akkaş Əsədə çatdır ki, təpələrdə pusqu qursun və dərə ilə gələn ərəb ordusunu bir az yubatsın. Əsgər be çeşm deyib,təzim edib atlandı və Aranda tərəf çapmağa başladı.

Əsgər təzə getmişdi ki,bir çapar gəlib Bəhramın düşərgəsinə yaxınlaşdı və atdan düşən kimi həyəcanla təzim edib dedi:

- Şahim! Ərəblərin ordusu yaxınlaşır!
- Sayları nə qədərdir və başlarında kimdir? – deyə Bəhram şah soruşdu! – deyə çapar cavab verdi.
- Başlarında Əl-Əş`adan sonra Sə`id ibn əl-Ası hakim təyin olunub və üstümüzə də elə o gəlir.
- Hazırlaşın, sabah çətin gün olacaq! - deyə Bəhram şah xeyməsinə çəkildi.

Çadıra girən Bəhram şah orada özünü təkyə edib uzun-uzadı düşünürdü və öz-özünə deyirdi:

- Budur! Artıq dövləti sasaniyyə yoxdur, Rüstəm, Calinus, Codayə, Hürzad və digərləri artıq həyatda deyillər,İsfəndiyarın isə taleyi məlum deyil.Bəs nə olacaq.” Bu fikirlərlə başı az qala şişən Bəhram şah şamı söndürüb yatdı.

***Kəlacəng****(Kəla döyüşü - .Akkəş Əsədin ərəbləri məğlub etməsi)****.(643-ci il.18 iyul).*** Budur Səid İbn Əl-As öz ordusu ilə Ceyd yolu ilə deyil, Asnaqaran yolu ilə hərəkət edərək çayın o biri üzü ilə Bəhramın düşərgəsinə tərəf hərəkət edirdi. Ərəblər dağlarla hərəkət etməkdən yorulmuşdular, lakin digər yandan da onlar Taleşanın təbiətinə vurğun idilər. Səəd ibn Əl-As da atının tərkində ağzı açıq qala-qala o tərəfə-bu tətəfə baxırdı.Bu zaman Səid Əl-Asın sağ əli olan Muğirə bin Səvad bu gözəlliyə baxa-baxa dedi:

- Ya əmir,deyirəm bəlkə bu kafirləri qırıb tamamilə məhv edək və öz əqrabalarımızı Bəsrə və Kufədən bu gözəl cənnətə

köçürək. Elə peyğəmbərimizin(s) bizə vəd etdiyi cənnət buradır. Səəd Əl-As Muğirə bin Səvadı yuxarıdan aşağı süzərək dedi:

- Buranın peyğəmbərin(s) bizə vəd etdiyi cənnət olması doğrudur, lakin bu cənnətin də sahibi var.

- Sahibi var, kimdir ki, buranın sahibi? – deyə Muğirə bin Səvad soruşdu.

- Kim olar,taleşilər, Bəhram şah! - Səəd Əl-As cavab verdi.

Muğirə bin Səvad: Bəharmı da digərləri kimi cəhənnəmə vasil edərik, bununla da iş bitər! – deyə Muğirə bin Səvad dilləndi və elə bu vaxt Səəd Əl-Asın göndəriyi kəşfiyyatçı çaparaq gəlib əmirə çatıb təzim etdi və dedi:

- Ya əmir,Bəhram şahın sərkərdəsi Akkaş Əsəd kiçik bir dəstə ilə Kəla adlı yerdə düşərgə qurub.

- Sayları nə qədər olar? – deyə Səəd Əl-As cavab verdi.

- Hardasa 50 nəfərə yaxındır! – deyə kəşfiyyatçı cavab verdi.

- Muğirə? – deyə Səəd Əl-As Muğirəni çağırdı.

- Bəli, əmir! – deyə Muğirə bin Səvad cavab verdi.

- Min nəfərlik bir dəstə götür ayrıl məndən və get Akkaş Əsədin üzərinə,onu məğlub et və gəlib mənə Bəhram şahın düşərgəsində qoşul! – deyə Səəd Əl-As göstəriş verdi.

- Baş üstə əmir,onu qısa zamanda məğlub edib başını sizə gətirərəm,- deyə Müğirə bin Səvad 1000 nəfərlik bir dəstə ilə Kəlaya doğru hərəkət etdi. Səəd Əl-Asdan ayrılan Muğirə bin Səvad tezliklə gəlib Arand adlı obanın Kəla adlı yerinə çatdı, ətraf səssizlik idi və bu da Muğirəni çaşdırdı. Dərəyə girən Muğirə ani olaraq pusquya düşdü və Bəhramın sərkərdəsi olan Akkaş Əsəd gözlənilmədən ərəblərə hücum etdi. Qızğın döyüş başladı, hər iki tərəfdən ölənlər var idi, amma ən çox itki verən Muğirə bin Səvadın qoşunu idi. Qüvvələrin qeyri-bərabər olmasına baxmayaraq, Akkaş Əsədin dəstəsi çox mərdliklə

vuruşurdular və Akkaş Əsəd Muğirə bin Səvadla təkbətək çıxaraq onu güclü zərbə ilə öldürdü.Üç saatdan artıq davam edən döyüşdə Akkaş Əsədin 500 nəfərlik ordusundan 183 nəfər,ərəblərdən isə 920 nəfər öldü,qalan 80 nəfər isə təslim oldu. Akkəş Əsəd əsirlərə üzünü tutub dedi:

- “Ay murdarlar,siz bizim torpaqlara zorla soxulub dövlətimizi yıxdız,məmləkətimizi xaraba qoyub qız-gəlinimizi qula çevirdiz və bu da sizin sonunuz”,- deyib onların əl-qolunu bağlatdırıb Səid Əl-Asın arxasınca Bəhramın düşərgəinə tərəf hərəkət etdi.



***Cəng-e Əmiran*** ***(****Əmirlərin döyüşü)* ***döyüşü****-(Cəngəmiyan-Cəngin ortası****)*** ***Bəhramın sərkərdələri olan Akkaş Əsədin, Xalasın və Cobir Nasarın şəhadəti****(643-cü il 19 iyul).* Ərəb qoşunu sərkərdəsi Səid Əl-As axşama gəlib Bəhramın düşərgəsi ilə üz-üzə dayandı. Ordu yorulduğundan döyüşü sabaha saxladı və sonra da Bəhramın yanına elçi göndərərək təkbətək görüş istədi.Elçini qəbul edən Bəhram ona Səid Əl-Asla görüşəcəyini bildirdi və bir saatdan sonra onu orta nöqtədə gözləyəcəyini bildirdi və bir saatdan sonra hər iki sərkərdə təyin olunmuş yerdə görüşdülər.Səəd Əl-As üzünü Bəhrama tutub dedi: Salam olsun sənə, ey Ali İspəhbudan Bəhram Fərruxzad. *(Şəkil.Bəhram şah.Cəngəmiran döyüşü. 643-cü il 19 iyul)*

- Səni də xoş gördük, ey əmir-e tazi, de görüm səni bizim torpaqlara gətirən nədir? – deyə Bəhram şah soruşdu.

- Qonaq gəlmişəm, həm də səninlə görüşüb söhbət etmək üçün! – deyə Səəd Əl-As cavab verdi.

- Siz İsmail övladları gah qurban kəsəndə övladlarınızı kəsirsiz, gahi də başqasının evinə qonaq gedəndə silahla və qoşunla gedirsiniz,sizi anlamaqda çətinlik çəkirəm1 – deyə Bəhram şah gülümsəyərək.

- Hə, biz tək olan Allahın hökmü olan Quranla hərəkət edirik! – deyə Səəd Əl-As cavab verdi.

- Sizin Allahınız sizə günahsız insanları öldürməyimi tövsiyə edir? – deyə Bəhram şah soruşdu.

- Yox, əsla! İlk öncə peyğəmbərimizin(s) bizə qoyduğu qaydaya görə biz heç kəsi heç nəyə zorlamamalıyıq! – deyə Səəd Əl-As cavab verdi.

- Bəs nə oldu,niyə aman isəyənə aman vermədiniz? – deyə Bəhram şah soruşdu.

- Kimi nəzərdə tutursan? – deyə Səəd Əl-As cavab verdi.

- Hər kəsi,insanlarımızı, Kadusiyada aman istəyən o qədər insan var idi ki, qardaşım İsfəndiyar,atam Bavəndi və Hürzad da bura daxildir. Bir də ki, Mədaində III Yəzdegerdin bütün qadınlarını zorla qul etmisiniz, Ərdəbilə od vurubsunuz və bunumu sizə tövsiyə edir sizin dininiz? Bildiyim qədər sizin peyğəmbəriniz yaxşı insan olub və sizə ağacları kəsməməyi, qadınlara,uşaqlara və qocalara toxunmamağı,aman istəyənə aman verməyi tövsiyə edirdi, amma siz onun yoxluğundan istifadə edib onun qoyduğu qaydaları pozub onun əleyhinə gedirsiniz! – deyə Bəhram şah dedi.

- Haqlısan, bəzi məsələlərdə! – deyə Səəd Əl-As kikrəməyə başladı.

*Bəhram şah:* Bəzi məsələlərdə? Sən nə danışırsan,öncəYəzdegerdin sarayına gəlib dediniz ki, Beynəl-

nəhreyn bizimdir, çıxın buradan,sonra da onu bizdən aldınız,bəs niyə dayanmadınız? Əminəm ki,fürsətdən istifadə edib başsız qalan dövləti ələ keçirdiniz və sizinlə danışıqların heç bir mənası yoxdur.

- Bəhram şah! Bu müharibədir, ya təslim ol,ya da sabah sən də döyüşçülərinlə birgə döyüş meydanında həlak olacaqsan! - deyə Səəd Əl-As cavab verdi.

- Mənim torpağımda nə zaman öləcəyimi mənə söyləmə,get artıq və sabah üz-üzə gələrik! – deyə Bəhram şah cavab verdi. Beləkilə, onlar ayrıldılar və hər iki sərkərdə öz düşərgəsinə qayıtdı. Budur səhər açıldı, 643-cü ilin iyul ayının 19-u idi və hər iki düşərgədə canlanma vardı və hər iki tərəf öz yerini tutmaqla məşğul idi. Bəhram şah öz ordusunu düzməyə başlamışdı və çz keçmədi ki, Cobir Nasar öz 500 nəfərlik dəstəsi ilə,dəmirçi Peroz özünün 700 nəfərlik dəstəsi ilə Mistan mahalından, Xalas da öz 300 nəfərlik dəstəsi ilə gəlib Bəhrama qoşuldular. Bəhram öz ordusunu 7 hissəyə bölmüşdü və hər hissəyə onun bir sərkərdəsi başçılıq edirdi. Belə ki, sol tərəfdə Cobir Nasar öz 500 nəfərlik dəstəsi ilə,ondan sonra Bəhramın oğlu Nəvid 350 nəfərlik dəstə ilə,sağ tərəfdə Fərhad 500 nəfərlik dəstə ilə və ondan sonra da Xalas özünün 300 nəfərlik dəstəsi ilə dayanmışdılar. Bəhram özü isə 500 nəfərlik dəstə ilə mərkəzdə dayanmışdı.Ayrıca olaraq dəmirçi Peroz isə özünün 700 nəfərlik dəstəsi ilə sağ və sol cinahlara bölünüb köməkçi funksiyasını oynayaraq gözləmədə durmuşdu.

Ayrıca olaraq Akkaş Əsəd isə arxada özünün 300 nəfərlik dəstəsi ilə yer almışdı,belə ki o, boşluq hiss edən kimi ərəblərə hücum edib Bəhramın köməyinə gəlməli idi.Bələliklə, bu döyüşdə Bəhramın qoşununun ümumi sayı döyüş meydanında 2850 nəfər, üstə gəl 150 nəfər oxçu və üstə gəl 300 nəfərlik Akkaş Əsədin dəstəsi tamı ilə üç min 300 nəfər təşkil edirdi. Ərəblərin düşərgəsində isə vəziyyət Bəhramda olduğu kimi idi

və ərəb ordusu sayca Bəhramın ordusundan çox olsa da, yenə də əmir Səəd Əl-As ehtiyatı əldən vermək istəmirdi. Belə ki Əşas bin Rəməli çağırıb soruşdu:

- Muğirə bin Səvaddan nə xəbər, axı o bizə qoşulmalı idi?

- Ya əmir,çapar yaxşı xəbər gətirməyib! – deyə Əşas bin Rəməl cavab verdi.

- Necə yəni yaxşı xəbər gətirməyib,di tez ol,danış görüm nə baş verib? – deyə Səəd əl-As soruşdu.

- Ya əmir, dünən Bəhramın sərkərdələrindən biri Akkaş Əsəd Müğirə bin Səvada hücum edib və o başda olmaqla hamını qılıncdan keçirib,ayrıca axşam Muğirənin başını bizə yollayıb! deyə Əşas bin Rəməl cavab verdi.

Bunu eşidən kimi Səid Əl-As ucadan bağırdı:

- Kafirlər, qırın onları, qanları, canları və namusları halaldır.Ayrıca olaraq Cobir Nasarı mən öz əllərimlə parçalayacağam və sonra isə üzünü Yəhya bin Tüfeylə tutub dedi:

- Tez olun qoşunu düzün. Beləliklə, ərəb ordusunun sağ cinahında Əşas bin Rəməl öz dəstəsi ilə,Yəhya bin Tüfeyl öz dəstəsi ilə, sol cinahda isə Yəhya bin Həzim və Übeydullah ən-Numeyri öz dəstəsi ilə düzülmüşdü.

Ərəb ordusunun ümumi sayı 6 min idi və bu Bəhramın ordusundan çox idi.Səid Əl-As mərkəzdə dayanmışdı və sağ–sol cinahlarda isə 400 nəfər süvari və 350 nəfərlik oxçu birliyi var idi.Hamı yerini tutan kimi şeypurlar çalındı və döyüşün ilk bölməsi təkbətək döyüş oldu. Cobir Nasar 30-a qədər ərəb döyüşçüsünü öldürdü, sonra isə onun ardınca Xalas meydana çıxıb o da çoxlu ərəb pəhləvanını məğlub etdi. Dəmirçi Peroz meydana atıldı və 20-ə qədər ərəb döyüşçüsünü məğlub etdi və bu çox dəhşətli görününrdü, onun ardınca isə Fərhad meydana çıxaraq 20-ə qədər düşməni məğlub etdi. Sonra isə Bəhramın oğlu Nəvid və baçısı Şəbnəm də üzübağlı meydana atıldılar və

ikili döyüşən qəhrəmanlar neçə-neçə bədəvini məğlub etdilər. Meydan bədəvi meyitləri ilə dolu idi və bütün bunları kənardan hirslə izləyən Səid Əl-As özünü saxlaya bilməyib bağırdı:

- Biri bunları durdursun,artıq izləyə bilmirəm, bu kafirlərdə bu qədər güc haradandır? Bunu eşidən kimi birdəfəlik yenə 20 bədəvi döyüşə atıldı,lakin vəziyyətin dəyişməyəcəyini görən Səid Əl-As Yəhya bin Tüfeylə dedi:

- Belə getsə bunlar bizim kökümüzü kəsəcək,odur ki hücuma keçin! - deyib qılıncıyla Bəhramın ordusuna tərəf işarə edib bağırdı: İrəliii... qırın kafirləri və bu sözlə də qanlı döyüş başladı.

Beləliklə, 6 minlik ərəb ordusu Bəhramın qoşununa tərəf hərəkət etdi. Bəhram və onun əsgərləri çox rəşadətlə vuruşur və xüsusi şücaət göstərirdilər. Ərəblərin sayca çox olmasına baxmayaraq döyüşün ilk gedişində ərəblər üçün çox pis bir vəziyyət yaranmışdı. Belə ki Taleşanın və Mukanın dağ kəndlərindən də yerli əhali və sadə xalq yava və balta ilə silahlanaraq ərəblərə arxadan zərbə vurmağa başlamışdılar.

Bu bir xalq azadlıq mübarizəsi idi, lakin günortaya doğru qüvvələrin qeyri-bərabər olması döyüşü ərəblərin xeyrinə dəyişməyə başladı.Bəhram döyüş meydanının ortasında sağa-sola vuruşur və neçə-neçə düşməni yerə sərirdi. Nəvid də mərdliyinə görə atasından geri qalmırdı və dəmirçi Peroz isə öz dəstəsi ilə cinahlarda durub gözləmədə idi. Bu zaman Səid Əl-As Yəhya bin Tüfeylə işarə edərək Bəhramı mühasirəyə almasını istədi və Yəhya bin Tüfeyl də 1000 nəfərlik dəstə ilə Bəhramı və ərafındakıları mühasirəyə saldı. Bu hücumda Bəhramın çoxlu tərəfdaşı qəhrəmancasına həlak oldu. Bunu görən Cobir Nasar nərə çəkib mühasirəni yardı və neçə-neçə düşməni yerə sərdi. Bəhrama arxadan zərbə endirmək istəyən Yəhya bin Tüfeylin bir zərbə ilə başını bədənindən ayırdı və

başsız qalan Yəhya bin Tüfeyl atdan yerə yıxıldı.Sonra isə Cobir ucadan qışqıraraq Bəhrama:

- Şahim! Tez olun qaçın! Mən onları saxlayaram! Bundan istifadə edən Bəhram mühasirədən çıxdı, lakin geri baxanda onun yerinə Cobirin mühasirəyə düşdüyünü gördü,geri qayıtmaq istəyəndə isə Ubeydullah əl-Numeyri kiçik bir dəstə ilə araya girdi. Bunu görən ərəblər dəhşətə gəlib dağılmağa başlayanda Səid Əl-As əli ilə oxçulara işarə etdi və onlarda eyni anda Cobirin dəstəsinə atəş açdılar. Atılan oxlardan Cobirin dəstəsindən xeyli adam şəhid oldu və səkkiz ox Cobirin bədəninin müxtəlif yerlərinə sancıldı. Bu vaxt Bəhram ərəbləri qıra-qıra mühasirəni yarmaq istədi, lakin bu hələlik mümkün deyildi və üzünü Cobirə tutub uca səslə:

- Cobir..!,bir az döz! Gəlirəm! Lakin ox zərbələrindən hərəkətdən düşmüş Cobir artıq at üstündə dayana bilmirdi və atdan yıxılmaq üzrə idi. Bundan istifadə edən ərəb əsgərləri Cobirin üzərinə yürüdülər ki, tez onun başını kəsib əmirə aparıb mükafat alsınlar, lakin Cobir hələ ölməmişdi və onun üzərinə yürüyən vəhşi bədəviləri öz zərbələri ilə uzaqlaşdırdı. Onlar yenə hücum etmək istəyəndə dəmirçi Peroz öz dəstəsi ilə hücuma keçdi və bədəviləri yerə sərdi. Bəhram özü də Cobirə yaxınlaşdı və onu tutdu,lakin bu zaman uzaqdan atılan ox Cobirin qəlbinə saplandı və Cobir Bəhrama baxa-baxa atdan yerə düşdü.Bunu görən Bəhram bağıraraq:

- Yox, yox!- deyib özü də atdan tez düşüb onun başını dizinə qoydu və dedi:

- Qardaşım ölmə,məni tək qoyub getmə,sən hələ mənə lazımsan,öz xalqına da lazımsan,lakin gec idi, Cobir öz gözlərini əbədi olaraq dünyaya bağladı və sonra Bəhram iki əsgəri çağırıb dedi:

- Tez olun, Cobirin nəşini aradan çıxarıb onu aralıqda dəfn edin və onlar da baş üstə,-deyib Cobirin nəşini götürüb döyüş

meydanından çıxardılar. Bu zaman Əşas bin Rəməl 200 nəfərlik dəstə ilə Xalası mühasirəyə aldı və Xalas qəhrəmanlıqla vuruşsa da, ona arxadan bir neçə nizə zərbəsi vurdular və axırıncı nizə onun kürəyindən girib qəlbindən çıxdı. Bu an zərbədən hüşünü itirən Xalas qısa olaraq Taleşanın dağlarına baxa-baxa atdan düşüb şəhid oldu və Əşasın əsgərlərindən biri tez düşüb Xalasın başını bədənindən ayırdı və onu tez Əşasa verib öz mükafatını aldı. Əşas da bu başı Səmir Səəd Əl-Asın düşərgəsinə apardı və onun ayaqları altına atdı və əmir soruşdu:

- Bu kimin başıdır?

- Ya əmir! Bu Bəhramın sərkərdələrindən olan Xalasın başısdır! – deyə Əşasbin Rəməl cavab verdi və bunu eşidən əmir bağırdı:

- Xalasın başı? Bəs hanı Cobir Nasarın başı,tez olun onu mənə gətirin!

- Baş üstə, əmir - deyə Əşas bin Rəməl təzim edib getdi.

Bu zaman Xalasın şəhid olduğunu görən Bəhram ərəb əsgərlərinin ön cəbhəsini yarıb düz əmir Səəd Əl-Asın düşərgəsinə tərəf çapdı və bu zaman dəmirçi Peroz da onu izləyirdi. Bəhram bədəviləri öz zərbələri ilə yerə sərə-sərə gəlib əmirin xeyməsinin 30 metrliyinə çatdı və uca səslə bağırdı:

- Səəd Əl-As! Çıx bayıra! Zira bura ər meydanıdır! Üzərimə əsgərlərini göndərmə, özün gəl, əgər mərdliyin çatırsa. Sən əmirsən, mən də öz xalqımın əmiriyəm, gəl üz-üzə və təkbətək vuruşaq, iki əmir kimi,iki ordunun əmiri kimi, məğlub olan tərk etsin buranı və təslim olsun. Bəhramın bağırmasından qorxuya düşən əmir Səid Əl-As qışqırdı: nə durmusuz,tez olun, öldürün onu. Bu zaman bədəvilər sel kimi Bəhramın üzərinə atılıb onu və dəmirçi Perozu sıxışdırmağa başladı. Bu vaxt dörd-beş əsgərin mühasirəsində olan Şəbnəm

artıq yorulmuşdu və uca səslə: Qardaş,kömək et. Bəhram az qala başını itirmişdi və tez Peroza dedi:

- Tez ol, bacımı götür Mistana yolla və biz də gəlirik ardınızca.

- Baş üstə şahım –deyə Peroz Şəbnəmi mühasirədən çıxardı və Mistana doğru çapmağa başladı. Artıq Bəhram ərəblərin üstünlüyünü hiss edirdi və buna görə də sağ qalanlara onun yanına yaxınlaşmağı əmr etdi. Fərhad, Nəvid və Akkaş Əsəd öz sağ qalmış dəstələri ilə Bəhrama tərəf hərəkət etdilər. Bunu görən ərəb əsgərləri nəsə yeni bir hücum üçün yığılma zənn edib azca geri çəkildilər. Bundan istifadə edən Bəhram əsgərlərinə geri çəkilmə əmrini verdi və onlar Mistana tərəf çapmağa başladılar. Bu vaxt Bəhram Akkaş Əsədə ərəbləri nəyin bahasına olursa-olsun müəyyən qədər dayandırmağı tapşırdı və dedi:

- Akkaş Əsəd?

- Bəli, şahim! – deyə Akkaş Əsəd cavab verdi.

- Biz Mistana tərəf çapırıq və orada Peroz öncə gedib dəstə toplayar və biz ordan ehtimal ki, əmim oğlu və Şirvan hakimi Şəhriyarın yanına gedərik,sənsə nəyin bahasına olursa-olsun, bu bədəvilərin qarşısını al! – deyə Bəhram şah cavab verdi.

- Bir canım var və bu da xalqıma fəda olsun!- deyə Akkaş Əsəd cavab verdi və onun bu sözlərindən gözləri dolan Bəhram onu bağrına basıb qucaqladı və sonra da atını Mistana tərəf çapmağa başladı.

Akkaş Əsəd nə qədər söz versə də, qüvvələrin qeyri-bərabərliyi bunun əksini söyləyirdi və Akkaş Əsəd onu nə gözlədiyini artıq bilirdi və buna görə də yanındakı əsgərinə dedi:

- Son damla qanımıza qədər vuruşub onları dayandırmağa çalışacağam,əgər şəhid olsam, mənim nəşimi bu itlərə

buraxma, döyüş meydanından çıxarıb Aranda apar və orada dəfn edərsən.

- Əməl edərəm! – deyə əsgər başını aşağı saldı, sonra isə Akkaş Əsəd qılıncını sıyırıb ərəblərin üzərinə hücuma keçdi və qanlı döyüş yenə başladı. Çoxsaylı ərəb ordusu Əsədin dəstəsini üzük qaşı kimi mühasirəyə aldı və bir-bir onun əsgərlərini şəhid etməyə başladılar. Bütün bunlara baxmayaraq Əsəd Bəhrama verdiyi sözü tutmuşdu və artıq geriyə yol yox idi, var gücü ilə bədəvilərə zərbələr endirib onların çoxlu əsgərlərini cəhənnəmə vasil etmişdi. Lakin atılan oxlar Akkaş Əsədin də sonunu gətirdi və o aldığı ox zərbələrindən dayana bilməyib əvvəl qılıncını buraxdı və daha sonra isə ağzından qan axaraq atdan yer düşdü. Onun son sözləri belə oldu: ”Vay olsun Hörmüzdün övladlarına, qara günlər başladı”,- deyib gözlərini əbədi olaraq bu dünyaya yumdu. Artıq axşam idi və bununla da qanlı “əmirlərin döyüşü” faciəvi şəkildə bitdi. Ərəblər bu döyüşdə 4000 itki verdilər, amma Bəhramın ordusu demək olar ki, tamamilə məhv edildi və geriyə sadəcə 400 nəfər qaldı. Bu döyüşdə Bəhramın iki qəhrəman sərkərdəsi olan Xalas və Cobir Nasar və bir də Akkaş Əsəd qəhrəmanlıqla həlak olaraq öz gözlərini əbədi olaraq bu dünyaya bağladılar. Lakin Bəhramın göstərişi ilə Cobir Nasarın nəşi döyüş meydanından çıxarılaraq həmən yerdən 1 fərsəx aralıda bir yerdə dəfn edildi və zaman-zaman sonra onun məzarı ziyarətgaha çevrildi. Xalasın nəşi də döyüş meydanından çox-çox aralıda (12 km) bir təpədə dəfn edildi və onun məzarı da sonralar ziyarətgaha çevrildi. Döyüş bitdikdən sonra ərəb ordu komandanı Səəd Əl-As bir neçə kəşfiyyatçını Bəhramın ardınca göndərdi və sonra isə Əşas bin Rəmələ yaralı düşmən əsgərlərini edam etməyi və qəniməti ələ keçirib bölməyi tapşırdı.

***Meydan döyüşü*** **(***643-ci il 20 iyul ).* Budur artıq axşam düşmüşdür və dəmirçi Peroz Şəbnəmlə və yanlarındakı dəstə ilə gəlib Mistana çatdılar və ora çatan kimi evə doğru hərəkət etdi və gəlib çatan kimi qapını döydü:

- Gülşən, bacım, aç qapını, mənəm qardaşın Peroz.

-Gəlirəm qardaş! – deyə içəridən bir qız səsi gəldi və qapı açıldı Gülşən qardaşı ilə bərabər üzübağlı bir qadını görüb heyrətlə soruşdu:

- Qardaş, bu kimdir?

- Sual vermə, tez get yemək gətir, dəli kimi acam! – deyə dəmirçi Peroz cavab verdi və bu sözdən sonra Gülşən çəkildi və onlar içəri daxil oldular. Səs-küyə bütün ev sakinləri oyandı və dəmirçi Perozun anası Afzorda xanım da oyandı və o,oğlu ilə bərabər qərib insanları görüb soruşdu:

- Oğlum, bunlar kimdir?

- Ana,vəziyyət çox pisdir,böyük bir dəhşət yaşadıq,hamısı şəhid oldu və bir azdan Bəhram şah da burada olacaq! – deyə dəmirçi Peroz cavab verdi.

- Bəhram şah, hökmdarımız burada olacaq, axı nəyə görə? – deyə abası yenə soruşdu.

- Soruşma anam, o, Ceyd yolu ilə Şirvana, əmisi oğlu Şəhriyarın yanına gedəcək,bu qız da onun bacısı olan dillər əzbəri Şahzadə Şəbnəmdir! – deyə dəmirçi Peroz cavab verdi.

- Bəs sən? – deyə ana soruşdu.

- Mən də onlarla gedəcəyəm, anam! Deyə dəmirçi Peroz cavab verdi.

- Oğlum! Atan öləndən sonra bu günə qədər mən səndən nəyi nə üçün etdiyini heç soruşmadım, zira sənin həmişə doğru qərar qəbul edəcəyinə inanmışam və bu gün də inanıram. Odur ki get, yolun açıq olsun! – deyə ana dedi.

- Sağol, anam, haqqını halal et! – deyə dəmirçi Peroz cavab verdi.

-olsun, oğlum! – deyə ana cavab verdi.

- Sağol anam, indi isə siz rahatınıza baxın, mən isə əsgərlərlə Atravanın yanına gedim hazırlaşım! - deyərək Peroz cavab verdi və çıxdı. Sonra isə Peroz kəndin aşağı hissəsindəki atəşgaha gəldi və atravanla görüşüb dedi:

- Xoş gördük.

- Hörmüzdün ruhu sizinlə olsun! – deyə Atravan vavab verdi.

- Biz məğlub olduq, İsmayıl övladları sel kimi ardı-arası kəsilmədən üstümüzə gəlirlər və bütün pəhləvanlarımız döyüş meydanında qəhrəmancasına şəhid oldular! – deyə dəmirçi Peroz dilləndi.

- Bəs şahimiz Bəhram, o, haradadır? – deyə Atravan soruşdu.

- O indi gələcək və biz onu buradan Ceyd yolu ilə Şirvana yola salmalıyıq! – deyə dəmirçi peroz cavab verdi.

- Baxaq görək nə edə bilərik, Ceyddə adamlarımız var, onlar köməklik edərlər! – deyə Atravan da sözünə əlavə etdi və elə bu an əsgərlərdən biri uca səslə:

- Bəhram şah təşrif buyurdu və bunu eşidən kimi hamı tez çölə çıxdı.

Budur Bəhram yanındakı bir neçə əsgəri ilə atəşgaha gəldi və atdan düşdü, xidmətçilər tez onun atını alıb axura götürdülər, sonra isə o yorğun halda gəlib Peroza sarıldı.

- Şahim,nə oldu? – deyə dəmirçi peroz soruşdu.

- Bütün sərkərdələrim orada, döyüş meydanında şəhid oldular və indi mən Şirvana getməliyəm! – deyə Bəhram şah cavab verdi.

- Şahm,gəlin keçək içəri, atravan da oradadır,-deyib onlar atəşgahın içərisinə girdilər! – deyə dəmirçi Peroz dedi və Bəhram şahı görən kimi Atravan təzim edib dedi:

- Salam olsun Bavın oğluna,xoş gəlmisiniz!

- Çox sağ ol. İndi qısa deyəcəyəm,vəziyyət çətindir və mən səhər saatlarında buradan ayrılmalıyam və siz mənə bələdçi verin! – deyə Bəhram şah cavab verdi.

- Şahim sizə məsləhətim budur ki,Ceyd yolu ilə getməyəsiniz, birincisi, həm təhlükəlidir və bəkə də ərəblər bu yola çoxdan pusqu qurmuşlar,həm də çox aralıdır. Təklifim budur ki, ərəblər dağlara qalxmaqda çətinlik çəkirlər və odur ki dağ üstü ilə Gərmaba(182)qaynar bulaqlara tərəf hərəkət edin və oraya çatanda müqəddəs qaynar sularda yuyunub ziyarət edin ki, ulu Hörmüzdün ruhu sizinlə olsun! – deyə Atravan sözə başladı.

- Qaynar bulaqlar Babərə yaxındır və elə məsləhətiniz üzrə oraya gedəcəyəm və bir gün qaldıqdan sonra Ver(183) məntəqəsi ilə aşağı düzənə düşüb Şirvana yol alacağam! – deyə Bəhram şah dedi və

sonra isə o, üzünü dəmirçi Peroza tutub dedi:

- Bəs sən nə fikirdəsən?

- Mənim bir deyəcəyim yoxdur, elə sizin sözlərinizə qatılıram! – deyə dəmirçi Peroz da müdaxilə etdi.

- Elə isə onda hazırlaşaq və mənimlə oğlum Nəvid, qızım Xonak,bacım Şəbnəm,xanımım Ruhəngiz Şirvana gedəcək və yanıma bir az da əsgər alacağam! – deyə Bəhram şah dedi.

- Şahim rüsxət versəniz,mən də gələcəyəm! – deyə dəmirçi Peroz cavab verdi.

- Qəlbinlə hərəkət et, əgər qəlbin sənə doğru yol göstərirsə, elə o yolla da hərəkət et.bİndi isə gedək yataq, səhər tezdən yola çıxarıq.! – deyə Bəhram şah təlimat verdi və bu sözdən sonra hamı yatmağa getdi, amma hər ehtimala qarşı dəmirçi

---

182. Bax: Gərmab –fars.qaynar su,Qamov-tal.qaynar su)

183.Bax:Ver.Bu məntəqə ehtimal ki,indiki Lənkəran rayonunun Veravul məntəqəsidir)

Peroz obanın müxtəlif yerlərində bir neçə keşikçi qoydu. Budur səhər açılmaq üzrədir və dan yeri təzəcə sökülməyə başlamışdır. Ətraf heç olmadığı qədər sakit idi və bu da sanki nəyinsə baş verəcəyinə işarə idi. Keşikçilər öz növbələrini dəyişmək üzrə idilər. Peroz da erkən durmuşdu, hər ehtimala qarşı hazırlıqlarını etmişdi.Bu zaman keşikçilərdən biri uca səslə qışqırdı:

- Gəlirlər! Gəlirlər!! Gəlirlər!!! Bunu eşidən Peroz tez keşikçilərə tərəf yüyürərək soruşdu:

- Nə olub, kim gəlir?

- Uzaqdan qoşun gəlir və ehtimal ki, İsmayıl oğullarıdır! – deyə keşikçilərdən biri cavab verdi.

Bu zaman Peroz tez uca səslə qışqırmağa başladı:

- Hamıya xəbər edin ərəblər gəlir, tez Bəhramı oyadın və bu səslərdən oyanan Bəhram tez ayağa qalxdı və eşiyə çıxaraq uca səslə:

- Peroz, Peroz?

- Bəli, şahim? – deyə dəmirçi Peroz cavab verdi.

- Nə baş verir? – deyə Bəhram şah soruşdu.

- Ərəblər basqın ediblər, tez qaçın, lakin ərəblər artıq çatmışdılar! – deyə dəmirçi Peroz cavab verdi. Artıq gec idi, obaya daxil olan ərəblər qarşılarına çıxanı qılıncdan keçirməyə başladılar və nsanlar təşviş içərisində o tərəf-bu tərəfə qaçırdılar. Peroz bir dəstə əsgərlə onların qarşısını kəsdi və ərəbləri “meydan” adlanan yerə yönəltdi ki, Bəhram aradan çıxa bilsin. Qızğın döyüş baş verdi və ərəblər Perozun dəstəsinin əsgərlərini bir-bir aradan çıxarmağa başladılar və bu vaxt Peroz üzünü Bəhrama tutub uca səslə:

- Şahim! Qaçın! Mən onları yubadaram!

Bəhram özü ilə heç nə və heç kimi götürə bilmədi,atına minib bir neçə əsgəri ilə Şindana tərəf yola düşdü.

Səəd Əl-As əsgərlərinə Bəhramı diri ələ keçirməyi və qalanlarını isə sağ buraxmamağı əmr etdi. Əmri alan Əşas bin Rəməl Perozun dəstəsini sıxışdırmağa başladı. Ərəblər qüvvə etibarı ilə çox olsalar da, Perozun silahdaşları onlara aman vermir və onları ləngidirdilər. Meydanda baş verən döyüşü Bəhramın son dirənişi hesab etmək olardı. Dəmirçi Perozu məğlub etməyin çətin olduğunu görən Səəd Əl-As oxçulara atəş əmri verid. Bu zaman minlərlə ox yağış kimi Perozun və əsgərlərinin üstünə yağdı və atılan oxlardan əsgərlərin çoxu qəhrəmancasına şəhid oldu, Perozun özü isə yaralanıb ərəblərə əsir düşdü.

***Bəhramın şəhadəti - Şahi Şəhid****(Şahi şəhidan)(643-21-26 iyul).* Budur artıq qaranlıq düşmüş, göz-gözü görmürdü. Bəhram şah 60 nəfərlik kiçik dəstəsi ilə Mistan dağının arxası ilə Vov məntəqəsinə,oradan da sol tərəfə hərəkət edərək Asnaqarana doğru irəliləməyə başladı. Onun məqsədi Asnaqaranda əgər ərəblər dağıntı törətməyiblərsə, sağ qalanlardan və yaxınlıqdakı obalardan kömək almaq idi. Mistandan tələsik çıxdığına görə yanında ailə üzüvlərindən oğlu Nəvid,qızı Xonak və xanımı Ruhəngiz var idi. Lakin Bəhramın bacısı şahzadə Şəbnəm Mistanda qaldı və onun aqibəti haqda heç bir məlumat yox idi. Qaranlıqda hərəkət etmək, əsasən də dağlarda çox çətin idi və atlar tez-tez çuxurlara düşüb büdrəyirdi. Hamı baş verənlərdən sonra hələ də özlərinə gələ bilməmişdi, bu zaman Nəvid Bəhrama yaxınlaşıb dedi: Atacan?

- Bəli, oğlum! – deyə Bəhram cavb verdi.
- Yolumuz haradır? – deyə Nəvid soruşdu.
- Şirvana,əmim oğlu Şəhriyarın yanına,orada bir müddət sığınarıq görək başımıza nə gəlir! – deyə Bəhram şah cavab verdi.

- Bəs hansı yolla gedərik, ilk dayanacağımız hara olacaq, axı hamı yorulub, əsgərlərə də dinlənmək lazımdır! – deyə Nəvid soruşdu.

- Səhər açılana qədər Asnaqarana çatsaq, orada bir müddət dincələrik! – deyə Bəhram şah cavab verdi.

- Atacan, ilk öncə qabaqda kəşfiyyatçını göndərək, qoy bizə məlumat versin! – deyə Nəvid dedi.

- Narahat olma oğlum,-deyib Bəhram şah əsgərlərdən birini çağırdı.! Əsgərlərdənvə dərhal atını arxaya çevirib Bəhrama tərəf sürdü və dedi:

- Buyurun,əlahəzrət! Əmr edin!

- Sən öndə get Asnaqaranda ərəblərin olub-olmaması barədə bizə xəbər gətir, amma sakit davran ki,qoy o kafirlər səni görməsinlər! – deyə Bəhram şah göstəriş verdi.

- Bə çeşm(baş üstə),-deyə əsgər dəstədən ayrıldı və sonra Nəvid yenə soruşdu:

- Əlahəzrət! Bibim Şəbnəm necə olsun,qayıdıb onu götürməliyik, yoxsa o vəhşi bədəvilər onun başına nə oyun desən gətirərlər. Bəhram gülümsəyərək cavab verdi:

- Şahzadəm! Mən geridə Şəbnəmi yox, bir qoşun qoydum.

- Necə ki? – deyə Nəvid təəccüblə soruşdu.

- Şəbnəm bir qoşuna bərabər Taleşan şəhzadəsi və cəngavər bir əsgərdir. Zira onu məğlub etmək və ya ələ keçirmək bədəvilərin işi deyil, ona görə də ondan narahat deyiləm,çünki o Taleşan qadınının əsl rəmzi sayılır və ulu Hörmüzd onu daima qoruyur! - deyə Bəhram şah cavab verdi.

-: Əlahəzrət, bəs o harada gizlənər və kim onu qoruyar? – deyə Nəvid soruşdu.

- Əsla narahat deyiləm, çünki Perozun bacısı Gülşən onu əlbət gizlədəcəkdir.

- Əlahəzrət! Bəlkə məşəl düzəldib onun işığında hərəkət edək? – deyə Nəvid soruşdu

-: Yox, oğlum, ola bilsin ətrafda ərəblər olsun və bizi dərhal müşahidə edərlər,odur ki səhər açılana qədər məşəlsiz hərəkət edəcəyik! – deyə Bəhram şah cavab verdi. Sonra hər ikisi susqun vəziyyətdə yollarına davam etdilər. Bütün gecə boyu hərəkət edəndən sonra onlar Dazdakana və Anqalavand silsiləsi ilə gəlib Vazarud çayına çatdılar. Bu çay Asnaqaranın yanından keçib dənizə tərəf hərəkət edirid. Hamı bərk yorulmuşdu. Bəhram və ailə üzüvləri ortada,əsgərlər isə arxa və öndə gedirdilər. Bu zaman öndə bir atlı göründü, bu, Bəhramın elçisi idi və o yaxınlaşan kimi dedi:

- Şahım, Asnaqarana ərəblər girmiş, orada müqavimət göstərənləri qılıncdan keçirmişlər, lakin Atravana və atəşgaha toxunmayıb cizyə verməklə müqavilə bağlamışlar.

- Yəni orada ərəb əsgəri yoxdur? – deyə Bəhram şah soruşdu.

- Yox, əlahəzrət, orada bir nəfər də ərəb əsgəri yoxdur və Atravan dedi ki, gəlsinlər və onları istədikləri yerə getməyə kömək edəcək.! Deyə əsgər cavab verdi. Bunu eşidən Bəhram bir an düşündü və əli ilə saqqalını azca qaşıdı və sonra dönüb xanımına baxdı və dedi:

- Sən nə deyirsən, ey gözümün nuru?

- Əlahəzrət! Sizin sözününz ömrüm boyu mənim üçün qanun olub və ölənə qədər də bu belə olacaq! - deyə Ruhəngiz xanım cavab verdi və bunu eşidən Bəhram əli ilə əsgərlərə işarə edib dedi:

- Asnaqarana gedirik.

Beləliklə, gün çıxmamış onlar gəlib Asnaqarana çatdılar və yol boyu Taleşanın sıx yaşıl meşələri göz oxşayırdı. Hər tərəfdə qoca Balel(Palıd) ağacları və Asanqa-Ambara(Asanqa-dəmir,Ambara-dəmir) ağacları bu ölkəyə xüsusi gözəllik verirdi, lakin indi bu cənnət artıq vəhşi bədəvilərin tapdağı altındadır. Bu fikir Bəhramı içdən-içə yeyirdi və onlar

günortaya gəlib Asnaqarana çatdılar. Atəşgahın qapısında onları atravan və atəşgahın xidmətçiləri qarşıladı və Atravan əllərini açıb Bəhrama dedi:

- Şahim, xoş gəlmisən,qədəmlərin mübarək.

- Sağol, ulu Hörmüzd səninlə olsun! – deyə Bəhram şah cavab verdi və sonra Bəhram və əsgərləri atdan düşüb bir az dincəldilər, atları da yeydirdib-içirdilər.

-Şahim, nələr baş verdi,nələr oldu? – deyə Atravan soruşdu.

- Atravan,orada dağlarda bədəvilərlə bir neçə cəng oldu və ən yaxşı sərkərdələrim olan Cobir, Akkaş, Xalas döyüş meydanında qəhrəmancasına şəhid oldular. Mən əmr etdim ki,ərəblər onların başını kəsməsin və onları tez döyüş meydanından çıxarıb layiqincə dəfn etsinlər. Sən də gedib onları taparsan və qəbirlərinə nişanə qoyarsan, çünki nə olacağı bəlli deyil, qoy xalq onları unutmasın və zaman-zaman ziyarətinə gedib onları yad etsinlər! - deyə Bəhram şah cavab verdi

Atravan şəhid olanların adını eşidən kimi gözləri yaşardı və özünü saxlaya bilməyib hönkür-hönkür ağlaya-ağlaya dedi:

- Ulu Hörmüzd,bu nə bəladır başımıza gəlir,bu nə cəzadır bizə verirsən! –

- Bəs Kadusiyyə üçün necəsən, orada məmləkətimizin ən qüdrətli pəhləvanları olan əmim Rüstəm, Bəhmən, Calinos, Perozan, Hörmüzan, Şirzad və bir çoxları bu vətən üşün canlarını fəda etdilər. Odur ki sədən xahişim budur Mistan elinə gizlicə gedərsən və orada Taleşan şahzadəsi bacım Şəbnəmi taparsan və onu mümkün olsa, Təbəristana göndərərsən! – deyə Bəhram şah onu sakitləşdirdi.

- Narahat olmayın, şahim dediklərinizi edəcəyəm! – deyə Atravan cavab verdi və sonra isə Bəhram sözünə davam edib dedi:

- İndi bizə rüsxət ver, biz tez tərpənək,çünki mütləq aramızda xainlər vardır və onlar ərəblərə artıq məlumat vermişlər.Sən mənə ərəblərin də, onların casuslarının da bilmədiyi yolu göstər ki, mən Şirvana gedə bilim.

- Şahim, Babər qalası artıq dağıdılmışdır, o yolla getmək yaramaz! – deyə Atravan cavab verdi.

-: Bəs nə təklif edirsən? – deyə Bəhram şah soruşdu.

- Təklifim budur ki,buradan dağların başı ilə Gərmaba tərəf gedəsiniz və oradan Cadə və Şhlakondan aşağı düşüb Ver çayı boyunca dənizə yaxınlaşa bilərsiniz! – deyə Atravan cavab verdi.

- Niyə aşağı düşürüəm ki,məgər təhlükəli deyilmi? – deyə Bəhram şah soruşdu.

- Şahim oralar bataqlıqdır, müəyyən dövrlərdə su altında qalmışdır,yəqin ki,ərəblər bataqlıqdan qorxub oralara getməyəcəklər. Həm də ki,orada ola bilsin qayıq tapıb Şirvana dəniz yolu ilə tam təhlükəsiz gedəsiz! – deyə Atravan cavab verdi.

- Hə, doğru deyirsən,dəniz təhlükəsizdir və dediyin kimi də edərik! – deyə Bəhram şah cavab verdi və onlar Asnaqaranda xeyli azuqə götürüb kəsə dağ yolu ilə Şahlakon və Cadəyə tərəf hərəkət etməyə başladılar. Onlar Babər yolu ilə qalaya tərəf hərəkət edərək onun bir fərsəxliyinə gəlib çatdılar, sonra isə sol tərəfə dağüstü ilə Gərmaba(qaynar sulara) doğru getməyə başladılar. Nəhayət ki,onlar axşamüstü Gərmaba(Qaynarsular) gəlib çatdılar və meşənin içəriləri ilə dərəyə endilər.

Bəhram Gərmaba hələ uşaq vaxtlarından bələd idi, çünki Gərmabın yerləşdiyi Surxmaq meşəsi Babər qalasına yaxın idi və oradan Babər qalası açıq-aydın öz əzəmətilə görününrdü.Ən hündür təpəyə çıxandan sonra Bəhram uzun-uzadı Babərə baxdı, sonra ailə üzvləri və digər əsgərlər də ona

qoşuldular. Çox sakitçilik idi, elə bil ahəng pozulmuşdu və bu, Bəhramın Babərə son baxışı idi və əbədi olaraq onun yaddaşına həkk olundu. Sonra isə onlar gəlib qaynar bulaqlara çatdılar və bura çox gözəl idi və hər tərəfdə olan yaşlı və böyük Amir(Dəmir)və Valel(Palıd) ağacları meşəyə xüsusi gözəllik verirdi. Ümumiyyətlə, İranın digər vilayətlərindən yalnız Gülüstan Taleşana bu gözəllikdə bərabər ola bilərdi. Nəhayət, yorğun vəziyyətdə hamı atdan düşüb tez düşərgə saldılar və dərədə ocaq qaladılar və tezliklə yemək bişirildi və hamı ümumi süfrəyə oturdu.

Hamının süfrəyə yığışdığını görən Bəhram ilk olaraq süfrə duası oxudu və sonra dedi:

- Əzizlərim, məlumunuz olsun ki,min illər boyu qurduğumuz səltənət vəhşi İsmail övladları tərəfindən dağıdıldı. İndi bizim dövlətimiz yoxdur,lakin sarsılmaq lazım deyil, çünki bizim vətənimiz və ayağımız altında torpağımız var. Nə qədər ki ayağımız yerdən ayrılmayıb və qollarımız güclüdür, düşmən nə qədər güclü olursa olsun, bizi məğlub edə bilməz. Sabah səhər biz Cadə və Şahlaon yolu ilə aşağı ovaya enəcəyik və oradan qismət olsa, qayıqla, olmasa da o bataqlıq Zərindar yolu ilə Şirvana gedəcəyik. Odur ki taleyimiz sabahkı gedişdən asılıdır və ona görə də bu axşam bu süfrədə doyunca yeyin, sabah ola bilsin ki,bizi çətin bir imtahan və uzun bir yol gözləsin. Sonra isə əli ilə işarə etdi və hamı yeməyə başladı.

Beləliklə, səhər açıldı və Bəhram və orada olanların hamısı qaynar bulaqlarda yuyunub dincəldilər və öz yorğunluqlarını çıxardılar.

Bəli, bu su şəfalı idi və Bəhram hələ atasının zamanından bu suya insanların şəfa tapmaq üçün İranın dörd bir tərəfindən gəldiyinin canlı şahidi olmuşdu, indi isə bu şəfalı və müqəddəs su ərəblərin əlinə keçəcəkdi. Nə isə beləcə onlar yır-yığış edib

dağın kənarı ilə Şahlakon-Cadə istiqamətində hərəkət etdilər və günortaya doğru gəlib Şahlakon və Cadə yaxınlarına çatdılar. Bu zaman əsgərbaşı Bəhrama yaxınlaşıb dedi:

- Şahım, deyəsən, sakitlikdir, təklif edirəm ki, elə Şahlakona girmədən sağa-dənizə tərəf enək.

- Hələ bir düşünüm,sonra qərar verəcəyəm! – deyə Bəhram şah cavab verdi və sonra isə Nəvid üzünü atasına tutub dedi:

- Əlahəzrət, çox sakitlikdir və bu mənim heç xoşuma gəlmir .

- Nə təklif edirsən? – deyə Bəhram şah soruşdu.

- Təklifim budur ki,heç olmasa qadınları və uşaqları Cadəyə göndərək, orada qoy bizim şahlıq nişanəmizi qoysunlar! – deyə Nəvid cavab verdi və Bəhram bir az düşünüb dedi:

- Ola bilər sən haqlısan və təklifin çox dəyərli və maraqlıdır, lakin bir az düşünəndən sonra Bəhram Ver çayının sahili ilə dənizə doğru hərəkət etməyi əmr etdi. Beləcə onlar dağdan üzüaşağı Ver çayının sahili ilə dənizə doğru hərəkət etməyə başladılar. Nəhayət, onlar gəlib oraya çatdılar və günəş artıq ortadan kemişdi və onun az hissəsi qalmışdı. Bəhram yolun çoxunu qət elədiyini görüb dayanıb düşərgə salmağı qərara aldı, hamı atdan düşüb çadırları qurmaqla məşğul oldu. Bu zaman Bəhramın xanımı Ruhəngiz atdan düşüb Bəhramın yanına gəldi,üzünü ona tutub dedi:

- Əlahəzrət!

- Eşidirəm gözümün nuru! – deyə Bəhram şah cavab verdi.

- Deyirəm indi buradan hansı istiqamətlə hərəkət edəcəyik? – deyə Ruhəngiz xanım soruşdu.

- Sən bu məsələ ilə bağlı heç öz o gözəl üzünü tuşutma,atravanın adamları gələcək və bizə ya quru ilə,ya da dənizlə hərəkət etməyimizi bildirəcək! – deyə Bəhram şah

cavab verdi və bunu eşidən Ruhəngiz dərindən nəfəs alaraq dedi:

- Ulu Hörmüzd özü bizə kömək olsun və sonra birdən Xonakın səsi gəldi:

- Ata,atacan..

- Bəli,qızım1 – deyə Bəhram şah cavab verdi.

- Ata, mən səni çox sevirəm, səndən heç ayrılmaq istəmirəm! – deyə Xonak dilləndi və bu sözdən gözləri yaşaran Bəhram cavab verdi:

- Əlbəttə ki, qızım, mən də səndən ayrılmaq istəmirəm, lakin birdən ayrılmağımıza acı zərurət yaranarsa onda sənə dəsturumdur, sən heç ağlama.

- Ata, söz ver ki,bizdən heç ayrılmayacaqsan! – deyə Xonak dedi.

- Qızım,əlim qılınc tutunca mən səndən heç ayrılmaram və onlar biri-birinə sarıldılar! – deyə Bəhram şah cavab verdi. Mənzərə çox faciəli idi və Bəhram sanki nəyinsə baş verəcəyini hiss etmişdi. Bu zaman irəlidə bir neçə atlı göründü, onlar Bəhramın çadırına yaxınlaşdılar, atdan düşən kimi təzim edib dedilər:

- Əlahəzrət! Biz atravanın adamlarıyıq, sizi ən təhlükəsiz yolla Şirvana qədər müşayiət edib sizə bələdçilik edərik. Bunları eşidəndə Bəhram xarici gökəmindən nə qədər rahat olsa da, daxildən bir o qədər narahat idi.

-: Hansı yolla gedərik? – deyə Nəvid soruşdu.

- Bir müddətr qamışlıqla dəniz boyunca hərəkət edərik,orada yarımadaya keçərik.Bir müddət sonra sakitlik çökənə qədər orada qalmalıyıq! – deyə Atravanın adamları cavab verdilər.

- Niyə? – deyə Bəhram şah soruşdu.

- Çünki Bukeyir bin Abdulla öz qoşunu ilə Şirvan üzərinə gedir, qarşılaşmamız an məsələsi! – deyə Atravanın adamları

avab verdilıər və .Bunu eşidəndə Bəhramın qanı qaraldı, əlini hirslə qılıncına atdı və dedi:

- Bukeyir,səni hiyləgər tazi, imkan düşsə, səni əllərimlə boğardım və sonra isə üzünü əsgərlərinə tutub dedi:

- Tez olun yığışın və dərhal yola düşək.

Elə hamı yığışmağa başlayanda birdən əsgərlərdən biri kənardan atılan oxa tuş gəldi və dərhal atdan yerə sərildi. Bunu görən əsəgərlərdən biri qışqırdı:Qaçın,ərəblərdir,onlar bizi mühasirəyə aldılar.

Oxun ardından qamışlıqdan və meşəlik ərazidən oxlar sel kimi Bəhramın düşərgəsinə yağmağa başladı, ardından da piyada ərəb əsgərləri düşərgəni üzük qaşı kimi mühasirəyə aldılar. Bəhramın düşərgəsində hərə bir tərəfə çəkilib müdafiə olunmağa başladı, lakin birdən ox yağşı dayandı və altı atlı düşərgənin yaxınlığına qədər gəldi. Həmən atlılardan biri irəli çıxaraq uca səslə dedi:

- Bəhram! Bəhram!! Bəhram!!! Çıx çölə, qənşərimə gəl və sənə deyəcəklərim var və bunu eşidən kimi Bəhram atına minib irəli çıxdı və ərəb atlılarına lazımi məsafəyə qədər gəldi. Bəhram bir qədər onları süzəndən sonra dedi:

- Başqasının torpağında qışqırmaq cürətini hardan alırsan və bu həyasızlığına nə ad verirsən və bir də ki, bir ovuc insanın üstünə ordu ilə mi gəlmisən?

- Bu sözləri demək üçün artıq gecikmisən,təslim olsan, amanda olarsan və xəlifə səni əfv edər! - deyə Bükeyir ibn Abdulla cavab verdi.

- Əgər təslim olmasam, onda necə? – deyə Bəhram şah soruşdu.

- Hamınız buradaca öləcəksiniz, lakin qəbul etsən, bizimlə bir olacaqsan və islamın yaşıl bayrağı altında ümumi düşmənimiz olan Bizansa qarşı vuruşacaqsan. Bundan əlavə ailən və nəslin daima amanda və əmniyyətdə olacaq. Xəlifə

səni nəinki Taleşanda, bütün Adərbayqanda, bəlkə də bütün İran məmləkətinə hakim qoyar. Sən də sənə inananları da islama dəvət edəcəksən və bütün xalqın bəladan xilas olacaq! – deyə Bükeyir ibn Abdulla cavab verdi və bunları eşidən kimi Bəhram dedi:

- Bukeyir! Bir azdan sənə fikrimi deyərəm və atının başını çəkib düşərgəyə döndü və hamı onun başına yığışıb dedilər:

- Əlahəzrət,bu əclaflar bizim axırımıza çıxmasalar, əl çəkməzlər.

- Təklifləri var bizə! – deyə Bəhram şah dedi.

- Ata, nə təklif edirlər ki? – deyə Nəvid soruşdu.

- Əgər onların tərəfinə keçsək və təslim olsaq,xəlifə məni və bütün ailəmi əfv edəcək və Taleşanın və cümlə Adərpayeqana-İranın hakimi edəcək! – deyə Bəhram şah cavab verdi və əsgərlərdən biri:

- Əlahəzrət! Nə düşünürsüz onlar dediklərini edəcəklərimi?

- Ola bilsin etsinlər, buna şübhə yox, lakin şəxsiyyətimiz qalacaqmı ona inanmıram, zatən əmilərim və qardaşlarım hamısı şəhid olub,qalam,ölkəm tar-mar edilib və bundan sonra qul kimi yaşayış olacaq. O üzdən də hazır olun, müdafiəni yarana qədər döyüşərik, qismət olsa, onları dəf edərik, olmasa haqqınız və haqqım halal olsun! – deyə Bəhram cavab verdi. Beləcə hamı biri-biri ilə halallaşdı, sonra Bəhram yenə atını onlara tərəf sürüb ded:

- Bukeyir!..,Byukeyir!! Çıx önə və dinlə məni.

- Nə istəyirsən? – deyə Bukeyir xeymədən çıxıb soruşdu.

- Dedin ki, əgər islamı qəbul etsəm və ya təslim olsam, xəlifə məni və ailəmi əfv edər və mənə Taleşanı, Adərbayqanı-İranı verəcək və məni oranın hakimi edəcək, əgər qəbul etməsəm, burada döyüş meydanında öləcəyəm! – deyə Bəhram dedi.

- Hərfən doğrudur! – deyə Bukeyir bin Abdulla cavab verdi və sonra isə Bəhram gülümsəyərək dedi:

- Bil və agah ol və get o xəlifənə de ki, vətənimi məndən alıb və mənə yenə şərtlərlə vermək istəyən bir zaman gələcək onu yenə bir hiylə ilə alacaq,əks halda bütün bu qətliamlar baş verməzdi. Ölməyə gəlincə isə xəlifə mənim ölkəmə hücum edəndə, paytaxtım Mədaini xaraba edəndə, hökmdarımı və onun ailəsini qətl edəndə,elimin ən güclü sərkərdələrini vəhşicəsinə qətl edəndə,əmim Rüstəmi, Hürzadı məndən alanda, bacım Şəbnəmi məndən alanda və nəhayət, ölkəm Taleşanı işğal edib onun ürəyi olan Babər qalasını dağıdanda məni öldürdü.O üzdən də mən artıq çoxdan ölmüşəm, ha onda, ha indi, fərqi yoxdur.

Bunu eşidən Bukeyir uca səslə dedi:

- Bəhram, sən ağıllı və uzaqgörən sərkərdəsən,bu sənə heç nə qazandırmaz və sən bizə sağ lazımsan, ölməyin bir işimə yaramaz.

- Bir ölüdən çox şey istəyirsən,son sözü qılınclarımız deyəcək! - deyib Bəhram şah atının başını çəkib düşərgəyə doğru çapdı. Bu zaman Bukeyir əli ilə Bəhramın düşərgəsinə işarə edərək əsgərlərinə hücum əmrini verdi. Əmri eşidən ərəb əsgərləri sel kimi Bəhramın düşərgəsinə hücuma keçdilər və qanlı döyüş baş verdi.Bəhramın əsgərləri mərdlikıə vuruşurdular,lakin qüvvələrin bərabərsiliyi özünü göstərirdi. Nəvid və digər Taleşan əsgərləri qəhrəmanlıqla vuruşur və ərəb əsgərlərini ardı-ardınca öz qılınc zərbələri ilə yerə sərirdilər, qadınlar isə çadırlarda bir neşə əsgər tərəfindən qorunurdu. Bəhramın döyüşçülərinin rəşadətlə vuruşmalarına baxmayaraq oxçu ərəb əsgərlərinin atdıqları oxlar Bəhramın əsgərlərinin sıralarını seyrəldirdi. Ərəblərin döyüşü qısa müddət ərzində bitirmək arzuları ürəklərində qaldı, döyüş axşama qədər davam etdi. Nəvid rəşadətlə vuruşur, düşmən

əsgərlərini ard-ardınca yerə sərirdi. Lakin növbəti əsgəri yerə sərəndən sonra anasının çadırına tərəf boylanmaq istəyəndə atılan oxlar onun ürəyinə sancıldı və Nəvid atdan yerə sərildi və bunu görən Bəhram ucadan qışqırdı:

- Oğlum! Oğlum! Nəvid!.., lakin artıq gec idi və Nəvid çoxdan gözlərini yummuşdu.

Bütün bunların onun gözü qarşısında baş verdiyini həzm edə bilməyən Bəhram nərə çəkib şir kimi ərəb ordusunun mərkəzinə atıldı və qısa bir müddət ərzində onların cərgəsini pozdu. Gözü dönmüş Bəhram düşmən əsgərlərini bir-bir yerə sərərək Bukeyirin çadırına tərəf hərəkət etdi. Bu vaxt Bukeyir bin Abdulla qorxuya düşdü və qışqıraraq əsgərləri özünə tərəf səsləyib onu qorumağı əmr etdi. Bəhramın ardınca onun bir neçə əsgəri də Bukeyirin düşşərgəsinə tərəf çapmağa başladı. Ərəblərin onların qarşısına ala bilmədiyini görən Bukeyir oxçulara atəş açmaq əmrini verdi, bu zaman Bukeyirin önündə dayanan 230 oxçu eyni anda atəç açdı və Bəhram və onun əsgələri oxlara tuş gəldi. Ağır ox zərbələrindən halı pisləşən Bəhram atdan yerə düşdü,bədəni al-qana qərq olmuşdu. Bu vaxt Bəhramın atdan düşdüyünü görən arvadı Ruhəngiz və qızı Xonak tez döyüş meydanına girib onun yanına gəldilər. Ərəb əsgərləri onlara mane olmaq istəyəndə Bukeyir əli ilə işarə edib mane olmamalarını əmr etdi.Ruhəngiz gözləri yaşla dolmuş halda Bəhramın başını dizinə qoydu və sığallamağa başladı. Bəhramın sinəsində çoxlu sayda oxun olmasına baxmayarq o, hələ ölməmişdi, lakin oxların biri onun qəlbinə saplandığından o, çoxlu qan itirərək xırıldayır və zorla nəfəs alırdı.O, gözlərini Ruhəngizə tuşlayıb dedi:

- Bukeyirdən aman istə və Təbəristana get, oğlumuzu isə Babər qalasından aralı, çayın o tayında, Kinan qalası yaxınlığında dəfn edərsən. Bu zaman Bukeyir Bəhrama yaxınlaşdı və onun bu halını görüb soruşdu:

- Bəhram,dəydimi buna və bu dünyadan nə anladın?

Bəhram isə gülümsəyərək dedi:

-”Vətən eşqi hər eşqdən şirindir”,nə desəm də, sən anlamazsan.

Beləcə Bəhram 643-cü il, iyulun 26-da gözlərini əbədi olaraq bu dünyaya yumdu. Bukeyirin əmri ilə Bəhramın ailəsinə aman verildi və onların Təbəristana getmələrinə icazə verildi. Bəhramın oğlu Nəvid Bəhramın vəsiyyətinə əsasən Babər qalasından aralı Vazarud çayının o tayında yerləşən Kinan qalasının yaxınlığında dəfn edildi. Bəhram özü isə şah kimi müamilə gördü və qəhrəmancasına şəhid olan şah kimi o, öldüyü yerdə şəninə uyğun dəfn edildi. Beləcə Bəhramın şəhid olduğu yer zaman-zaman xalq tərəfindən “Şahi şəhid” və ya “Şahi şəhidan” adlandırılmağa başladı. Deyilənlərə görə, Bəhramın məzarının harada dəfn edildiyi məlum deyil. Beləcə Bəhramın *644-cü il 26 iyul onun şəhadəti ilə* üsyanı sona çatdı və tarix onu heç bir zaman unutmayacaqdır.

***Hekayət:*** Bəhramı məğlub edəndən sonra bütün ailə üzvləri əsir edilib qula çevrildi və xəlifə Ömərə göndərildi.Yolda xəbər gəldi ki,ərəblər Bəhramın bacısı Şəbnəmi də, dəmirçi Perozun bacısı Gülşəni də ələ keçirib xəlifə Ömərə göndərirlər.Əsirlərin hamısını Ərdəbildəki ərəb əmirinin iqamətgahına gətirdilər. Əsirlərin içində adlı-sanlı İran əsilzadələrinin qadınları və yüksək rütbəyə malik İran sərkərdələrinin zövcələri və hətta kiçik yaşlı qızları da var idi. Onlrın hamısını gətirib düzdülər və əlində qamçı oan bir tazi qadınların önündə o tərəfə-bu tərəfə gedib gözaltı qadınlara baxıb onları vəhşi gözləri ilə süzürdü.

Bəhramın zövcəsi Ruhəngiz və qızı Xonak da o əsirlərin arasında idi və üst-başları cırıq idi və bu vaxt ikinci dəstə əsir qadınları gətirdilər və birdən Xonak qışqırdı : Ana,anacan?

-Nə olub qızım? – deyə Ruhəngiz soruşdu.

- Ora bax,bibim Şəbnəm! – deyə Xonak cavab verdi və bunu eşidən kimi Ruhəngiz tez o tərəfə baxdı və Şəbnəmi gördü və ilk baxışdan onu tanımadı. Çünki hiss olunurdu ki, ərəblər ona çox əzab vermişdilər,amma onun gözləri unudulmaz idi və Ruhəngiz bir anda ucadan:

- Vəhşilər,sizi görüm lənətə gələsiz!

Bu vaxt ortada gəzən ərəb mühafizəçi Ruhəngizi qırmaclamağa başladı və bunu görən Şəbnəm tez kəndiri qırdı və ərəb mühafizəçinin qırmancını tutub onun boynuna sarıdı. Səsə digər ərəb mühafizəçiləri də gəldilər, lakin Şəbnəm ərəbin belindəki qılıncı çıxarıb dedi:

-Sizi ey murdarlar! Bit basan iyrənclər, geri çəkilin və başçınızı çağırın. Bunu görən ərəb mühafizəçilərdən biri o birinə ərəbcə ادخل بسرعة وات صل برئ يسك(tez ol get başçını çağır) və o da dərhal getdi və bir yüksək vəzifəli şəxslə qayıtdı və o şəxs Şəbnəmə yaxınlaşıb dedi:

- Sakit ol, nə istəyirsən de və bunu eşidən kimi Şəbnəm ucadan dedi:

- Ey sizi murdarlar!Mən Şəbnəm Şadoxt,Taleşan və Mukanın hakimi Bəhramın bacısı, Adarbayqan mərzbanı İsfəndiyar Fərruxzadın bacısı və İran ordusunun ali komandanı Rüstəm Fərruxzadın qardaşı Bavəndi Fərruxzadın qızıyam və bura atalarımın və qardaşımın sarayıdır.

- Tələbin nədir? – deyə məmur ərəb soruşdu.

Tələb edirəm ki,bizimlə burada belə təhqiredici formada davranmayasız və əsir də olsaq, heç olmasa bizə bir insan kimi müamilə göstərin və onu dinləyəndən sonra başçı ona dedi:

- Siz kafirsiniz və dinimizə görə kafirin qanı da,malı da, namusu da halaldır! - deyə ərəb məmuru cavab verdi.

- Sarsaq ərəb! Sən nə danışırsan, heç başqasının da malı halal olar, bəs sizin dinə və siz kafirlərin qaydalarına görə necədir? – deyə Şəbnəm cavab verdi.

- Bu bizim dinə görə belədir! – deyə ərəb məmur cavab verdi.

Bunu eşidən Şəbnəm ərəbin bu sözlərinə görərə gülümsəyərək cavab verdi:

- Ay bədbəxtlər, siz uzun müddət səhralarda yaşamısınız, qumdan və dəvədən başqa heç nə görməmisiniz, elə bu səbədən də qonşuluq və dahi insanlıq nədir hardan biləsiz. Belə ki heç bir dində insana, yaralıya və əsirə bu cür müamilə göstərmirlər, çünki bu dünyada əqidəyə malik hər bir insan yaralı heyvana belə mərhəmət edib onu buraxır. Deməyim budur ki, sizin bu qaydalardan bixəbər olmanız və bu cür insani keyfiyyətlərə malik olmamanız normaldır.

-*:* Sən ey kafir, sus, bizi və dinimizi təhqir etmə! – deyə ərəb məmur bağırdı.

- Sizin dininiz? – deyə Şəbnəm soruşdu.

- Bəli, bizim dinimiz! – deyə vəzifəli ərəb cavab verdi.

Bildiyim qədər sizi adam edib insan yerinə qoyan peyğəmbərinizdir və onun belə bir deyimi var: “Mən ərəbəm, zira ərəblər məndən deyil”, doğrumu? – deyə Şəbnəm soruşdu.

Bunu eşidən vəzifəli ərəb qəzəblənərək Şəbnəmə bir neçə qamçı vurdu, Şəbnəm yerə yıxıldı və dedi:

- Siz vəhşisiniz.

- Bir vəhşidən çox şey istəyirsən və sənin Bəhramın bacısı və Bavəndi Fərruxzadın qızı olduğunu bilirəm! – deyə ərəb məmur cavab dedi.

- Bununla nə demək istəyirsiniz?

- Məlumun olsun ki,biz səndən təbəqəcə yuxarı olan və cümlə İranın şahənşahı olan III Yezdəgerdin qızlarını belə bu şəkildə əsir edib saçlarından sürüyə-sürüyə Mədinəyə xəlifə

Ömərin hərəminə yollamışıq,lakin əmin ol ki,səni ondan yaxşı aparmarıq,odur kisakit dur yerində! – deyə məmur ərəb cavab verdi.

- Heç olmasa o balaca qız uşaqlarını azad edin,axı onlar sizin nəyinizə lazımdır! – deyə Şəbnəm dedi və ərəb başçı gülümsəyərək dedi:

- Biz onları apararıq xəlifəmizə və o öz əlini hansı birinin başına sürtsə,deməkk, onunla izdivac edər. Bunu eşitcək Şəbnəm qışqıraraq hücum edib ərəb mühafizəçinin boğazını kəsdi. Ani olaraq bir neçə ərəbi cəhənnəmə göndərən Şəbnəm ərəb başçıya hücum etmək istəyəndə onu oxla yaraladılar və ələ keçirdilər.Bunu görən əsir qadınlar və uşaqlar çığır-bağır saldılar. Beləliklə, onları axşam Mədinəyə yola saldılar və karvan ilk olaraq Ekbatanda,sonra isə Mədaində dayandı. Mədain adını eşidən kimi əsirlərin ürəyi açıldı,lakin şəhərin dağıdıldığını görüb çox pərişan oldular, çünki Mədain hər bir iranlının xəyalı və qüruru idi. Yolda Gülşən tez-tez Şəbnəmin yarasına baxır və ona təsəlli verirdi, amma Ruhəngiz heç cür sakit ola bilmirdi. O heç cür inana bilmirdi ki, vaxtı ilə ailəsi ilə birlikdə firavan həyat sürən İran əsilzadələri və sərkərdələri şəhid olub,onların ailə üzvləri, qız-gəlinləri bir ovuc oğruya və vəhşiyə əsir düşüb. Onlar Ktesifona çatanda 15-ci gün idi, sonra isə Ləhmiyyə-Hirə yolu ilə səhraya çıxdılar və orada da 15 gün yol getdilər,nəhayət, bir aydan sonra gəlib ərəb xilafətinin paytaxtı Mədinə şəhərinə çatdılar. Hər tərəf bədəvi ilə dolu idi, irandan gətirilmiş bütün əsir qadınları Mədinə şəhərində yerləşən Əl-Nəbəvi məscidinə gətirdilər. Şəhərin bütün ərəb qadınları da oraya yığışdılar. Hamı heyrətlə onları süzürdü və bunu görən Xonak tez anasına sarılaraq dedi:

- Anam! Anam!! Əziz anam!!! Nə pis taleyimiz varmış, atam, əmilərim və bütün dadaşlarımız şəhid oldular, indi biz

bu bədəvilərə əsir olmuşuq,vay olsun Hörmüzdün qızlarının halına.

Qızının sözlərindən gözləri yaşaran Ruhəngiz həzin səslə ded:

- İnana bilmirəm, Yezdəgerd, Rüstəm, İsfəndiyar, Bəhram və Şirzad, hamısı şəhid oldular və bizim qara günlərimiz başladı. Onların sözlərindən pisləşən Gülşən dedi:

- Görəsən bizimlə nə edəcəklər, başımıza nə gələr və görəsən,Kadusiyada vuruşan qardaşım Perozun(Firuzun)başına nə iş gəlmişdir. Əgər bizi Nəhavənddən buraya gətirsə idilər,bəlkə orada qohumlarımızdan kimisə görərdim. Şəbnəm üzünü Gülşənə tutub dedi:

- Axı siz Taleşanın Mistan obasındansınız, Nəhavəndlə nə əlaqəniz var?

Gülşən Şəbnəmin sözlərinə gülümsəyərək cavab verdi:

- Hə, doğru deyirsən, biz elə nəhavəndliyik və ata-babalarımız da nəhavəndlidir, yalnız bizim anamız Taleşanın Mistan obasındandır. Peroz özü nəhavənddə doğulub, mən isə mistanda, o səbəbdən də mən Mistanda yaşıyıram anamın yanında, Peroz isə Nəhavənddə. Amma o artıq bir neçə ildir ki, bizimlə yaşayırdı və birdən də bu qara günlər başladı. Elə bu zaman çöldən ərəbcə “Əyyuhəl müslimin” sözləri eşidilməyə başlandı və bir bədəvi müsəlmanları məscidə çağırırdı. Bu zaman məscidə hündürboy və zəhmli bir şəxs daxil oldu və hamı ona yol verdi. Bu vaxt mühafizəçi əsir qadınlara yaxınlaşıb dedi

- Bu bizim xəlifımiz Ömər Xəttab Siddiqdir, əgər sizə işarə etsə, dərhal hüzuruna gedin. Bir müddət sakitlikdən sonra xəlifə Ömər əli ilə işarə edib qadınların onun yanına gətirilməyini istədi və əmri dərhal yerinə yetirildi. Əsirləri

Ömərin hüzuruna gətirdilər və o ərəbcə onlara nə isə dedi, tərcüməçi farscaya çevirdi və dedi:

- Xəlifə deyir ki, əgər siz onun hərəminə girməsəniz, sizi qul edib bazarda satacaq və bunu eşidən Şəbnəm irəli çıxıb dedi:

- Bu bədəvilərin başçısı sənsən?

- Hə mənən və mənə Ömər bin Xəttab deyə xitab edirlər və sən nə cürətlə mənə sən deyirsən? – deyə o hündürboylu şişarınlı xəlifə cavab verdi.

- Atamın nökəri belə səndən təmiz və bərli-bəzəkli libas geyərdi! – deyə Şəbnəm kinayə ilə cavab verdi və Şəbnəmin bu sözlərindən qəzəblənən Ömər ayağa qalxıb ona 40 şallaq vurulmasını əmr etdi. Əsgərlər dərhal onun əmri ilə Şəbnəmə elə oradaca,camaatın,qadınların və uşaqların gözü önündə şallaq vurmağa başladılar. Ağır şallaqların altında inildəyən Şəbnəmin harayına Perozun bacısı Gülşən çatdı və o gizlətdiyi yerdən xəncər çıxarıb şallaq vuranlara hücum etdi. Onları yaralayandan sonra isə var gücü ilə Ömərə tərəf yürüdü ki, onu öldürsün. Xəlifəyə beş addım yaxınlaşmışdı ki, arxadan və xəlifənin yanındakı əsgərlərin nizələri Gülşənin ürəyinə sancıldı. Bədəvilərin ağır zərbələrindən ölümcül yaralanan Gülşən üzünü Ömərə tutub:

- “Sən ey murdar! Eşit və agah ol! Əgər qardaşım Peroz Kadusiyyədə şəhid olmayıbsa,onda o səni mütləq tapıb öldürər”! – deyə oradaca həyata vida etdi.

Xəlifə ömər Gülşənin öldüyünü görüb mühafizəçini çağırdı və əli ilə işarə edərək cəsədi aparmağı əmr etdi. Əmri alan mühafizəçi əli ilə işarə etdi və iki əsgər Gülşənin ayaqlarından tutub onu sürüməyə başlayanda elə bu an sanki qeybdən bir səs gəldi :

- “Durun!”..

Bunu eşidən əsgərlər dərhal durdular və səs gələn tərəfə dönüb baxdılar. Bayaqdan peyğəmbər(s) məscidində hay-küy edən insanlar hamı bir nəfər kimi susdu və çönüb həmən şəxsə baxdılar. Bədənindəki ağrılardan inildəyən Şəbnəm də məsciddəki insanların niyə belə ani olaraq susduqlarını anlamadı,lakin o da hamı kimi çönüb qapıya baxanda qapıdan günəşin şüalarını gördü. Əlini gözlərinin üzərinə qoydu və öz-özünə dedi:

- Buraların da günəşi yaman qızmar olur, lakin üzünü ayrı bir tərəf çevirəndə o tərəfdə də bir günəşin olduğunu gördü və təəccüblə yanındakı ərəb qadından soruşdu:

- Sizin ölkədə iki günəşmi var?

- Hə,elədir ki var, Allah bütün xalqlara bir,amma biz ərəblərə isə iki günış göndəribdir! – deyə Ərəb qadın cavab verdi.

- Axı bu necə ola bilər? – deyə Şəbnəm təəcccüblə soruşdu.

- Bu Allahın bizə olan lütfüdür və özün dönüb bax! – deyə ərəb qadın cavab verdi.

- Axı nəyə baxım? – deyə Şəbnəm təəccüblə.

- Bizim yerdəki günəşimizə! - deyə ərəb qadın cavab verdi.

- Hanı,o haradadır? – deyə Şəbnəm soruşdu.

- Qapıya bax, gələn işıq odur! – deyə deyə ərəb qadın cavab verdi.

Ərəb qadının sözündən heyrətlənənn Şəbnəm dönüb məscidin qapısına baxanda heyrətindən donub qaldı,çünki bayaqdan qapıda parlayan günəş indi məscidə daxil olurdu. Şəbnəm gözlərini ovuşdurub yenə baxanda onun bir insan olduğunu gördü, lakin o şəxs o qədər nur saçırdı ki,onun üzünü görmək mümkün deyildi. O şəxs məscidə daxil olanda hamı ona təzim etdi və hətta xəlifə Ömər də ona oturduğu yerdən təzim etdi. Bu zaman Şəbnəm yenə o qadından soruşdu:

- Axı bu şəxs kimdir, mələkmidir, yoxsa insan? – deyə Şəbnəm soruşdu.

-: Bu şəxs bütün ərəb qadınlarının xəyalı, ərəb kişisinin qüruru və peyğəmbərimiz Məhəmmədin(s) gözəl nəvəsi Hüseyn ibn Əlidir! – deyə deyə ərəb qadın cavab verdi.

- Axı o, niyə nur saçır? – deyə Şəbnəm soruşdu.

- Çünki onda peyğəmbərimizin surəti və nuru var, bu üzdən peyğəmbərimiz onu çox sevərdi! – deyə

ərəb qadın cavab verdi. Bu sözlərdən sonra məscidin ortasına yaxınlaşan o şəxsi Şəbnəm diqqətlə süzməyə başladı və gözləri qamaşmağa başladı, çünki Hüseyn ibn Əli, həqiqətən də, çox yaraşıqlı, ucaboy və gözəl üzlü idi. O şəxsin içəri girdiyini görən Ömər dedi:

- Ya Hüseyn ibn Əli, niyə gəlmisən və nə istəyirsən?

Ömərin sözlərini eşidəndə Hüseyn ibn Əli(ə) üzünü Ömərə tutub dedi:

- Babam peyğəmbər(s) heç bir zaman özündən böyükdən və ümumən insanlardan yuxarıda əyləşməzdi və heç zaman onlara zülm etməzdi. Hüseynin sözlərindən pərt olan Ömər özünü sındırmayaraq soruşdu: Bəs bunun nəticəsi nə olar?

- Çünki kibir və zülm insanı bütün insanların gözündən salıb onu insanlıqdan çıxarar və bir vəhşiyə döndərər! – deyə Hüseyn ibn Əli(ə) cavab veri.

- Bəs bu dediklərin mənə aiddirmi, ya Hüseyn? – deyə Ömər bin Xəttab soruşdu.

- Bir müsəlman, digər bir müsəlmana fitva verə bilməz, zira ən böyük fitvaçı Allahdırz, lakin sən bu insanlara zülm edib onlara işgəncə edirsən, axı dinimiz buna qarşıdır! – deyə Hüseyn ibn Əli(ə) cavab verdi.

- Hüseyn ibn Əli, sənin xətrini çox stəyirəm, lakin bu bir siyasətdir və siyasət də dinin təməlidir, bir də ki, bu insanlar kafirdirlər! – deyə Ömər bin Xəttab dedi.

Hüseyn ibn Əli gülümsəyərək cavab verdi:

- Bu dünyada kimsə, kimsəyə kafir və ya mömin deyə bilməz, çünki bütün insanların qəlbində Allah sevgisi vardır, çətin olan isə onu üzə çıxarmaqdır. Sonra isə o dönüb əsirlərə baxdı və yaxın gəlib onları süzməyə başladı, sonra üzünü Ömərə tutub dedi:

- Sən xəlifə belə olsan, bu insanlara bu cür zülm etməyə haqqın yoxdur, Allah zülm edənləri sevməz, bu insanları yubanmadan azad et. Sonra isə gözü Şəbnəmgilə sataşdı və yaxın gəlib soruşdu, sizi kim bu hala salıb?

- Yolda gətirilərkən yıxılmışam! – deyə Şəbnəm cavab verdi.

- Bu qadınları dərhal azad et! – deyə Hüseyn bin Əli Üzünü Ömərə tutub dedi.

- Yaxşı, azad edərəm! – deyə Ömər bin Xəttab cavab verdi və Hüseyn ibn Əli gəldiyi kimi də getdi və bundan sonra Şəbnəmin işgəncəsini dayandırdılar.

### *4. İntiqam - Ömərin öldürülməsi - Peroz – Əbu lullah*

***1. Ömərin öldürülməsi. Peroz – Əbu Lolo.*** Kadisiyyə döyüşündən sonra İranın bir çox adlı-sanlı sərkərdələri və pəhləvanları faciəvi şəkildə şəhid oldular, qalanları da əsir düşdü. Əsir düşənlərin içərisində Taleşan dəmirçisi Peroz(Firuz) da var idi. Belə ki o,bir çox digər İran sərkərdələri kimi əsir düşdü və İraqın Bəsrə şəhərinin valisinə qul kimi satıldı. Sərkərdələr Hörmüzanla birgə əsir düşmüşdülər. Hörmüzanı Mədinəyə xəlifənin yanına göndərdilər, amma Peroz isə İraq sərhədində əsirlər üçün ayrılmış qalada saxlanılırdı. Əsir düşən Peroz çoxlu işgəncələrə məruz qaldı və nəhayət ki, Kadusiya döyüşündən sonra islamı qəbul edən ilk iranlı əsgərlərə qoşuldu. O,orada




islamın gözəl təməl ideyaları ilə tanış oldu və bir müddət orada qaldı.

İslamı qəbul edəndən sonra “Əbu Lulluah” ləqəbini aldı.Peroz islamı qəbul etdiyi üçün əsirlikdən azad edildi və bu arada o, fürsət tapıb Ərdəbil şəhərinə gəlib çıxdı.Yolboyu yurdunun şəhər və kəndlərinin vəhşi bədəvilər tərəfindən dağıdılıb xaraba qoyulduğunun şahidi olurdu.

Belə ki ərəblər hələ də İranın və Adərpayeqanın şəhərlərində vəhşiliklər törədir və əhalini qılıncdan keçirirdilər. Ərdəbilə gələn Peroz axşam bazarına getdi və orada əvvəllər tanıdığı biri ilə rastlaşdı.Onunla bir az söhbət etməyə başladı.

- Xoş gördük, Behruz! – deyə dəmirçi Peroz cavab verdi.

- Xoş gördük dəmirçi Peroz,sən sağsan,bu çox yaxşı oldu! – deyə Bəhruz soruşdu.

- Hə,sağ qaldım! – deyə dəmirçi Peroz cavab verdi.

- Danış görüm nələr oldu? – deyə Bəhruz soruşdu və vunu eşidən Perozun gözləri yaşardı və dedi: Nə danışım, qardaş, hamı gözümün qarşısında şəhid oldu, bu əsl qətliam idi.

- Hə qardaş,elə buralarda da bədəvilər az qətliam törətmədilər! – deyə Bəhruz da əlavə etdi.

- Bəs şahənşah Yezdəgerd? – deyə dəmirçi Peroz soruşdu.

- O da deyilənə görə Mərvə tərəf çəkilib və bütün məmləkətimiz tari-mar oldu! – deyə Bəhruz cavab verdi.

- Bəs Bəhram və İsfəndiyar?! – deyə dəmirçi Peroz soruşdu.

- İsfəndiyar əsir düşdü, Bəhram isə üsyan qaldırıb dörd il Taleşanın dağlarında müqavimət göstərdi, lakin o da keçən ay şəhid oldu! – deyə Bəhruz cavab verdi və Bunu eşidən kimi Perozun gözləri yaşardı,bəs onun ailə üzvləri, oğlu, qızı və bacısı şahzadə Şəbnəm, onlara nə oldu?

- Demək istəmirəm,amma bilmək haqqındır, beləki Bəhramın oğlu Nəvid, sərkərdə Cobir, Akkaş Əsəd və Xalas şəhid oldular,şahzadə Şəbnəm isə əsir götürülüb Mədinəyə- bədəvilərin xəlifəsinin hərəminə aparıldı! – deyə Bəhruz cavab verdi.

Bütün bunları dinlədikdən sonra Perozun rəngi qaçdı və əlləri ilə başını tutub hönkür-hönkür ağladı. Behruz onu sakitləşdirməyə çalışırdı, amma nafilə, çünki Perozu sakitləşdirmək qeyri-mümkün idi. Sonra Peroz başını qaldırıb göz yaşlarını silib dedi:

- And olsun Hörmüzdə ki,mən gedib bir yolla o kafir tazi quldurbaşısı olan Öməri tapıb sarayına soxulacağam və fürsət tapıb onu öldürəcəyəm.

- Bilirəm ki,hirsindən belə deyirsən,sən ki onu öldürən deyilsən! – deyə Bəhruz cavab verdi.

- Öldürəcəyəm baxarsan! – deyib dəmirçi Peroz çıxıb getdi.

Uzun zaman sonra Peroz Nəhavəndə gəldi və şəhərin bazarında Rudranı tapdı və ondan xəlifə Ömərin sarayına girmək üçün kömək istədi, lakin bu mümkün olmadı. Xəlifə Ömərin iranlıların müqəddəs ərəb şəhərlərinə və saraya buraxılmasına qoyulmuş qadağasına baxmayaraq Peroz ora daxil olmaq üçün yollar axtarmağa başladı. Çünki o, yaxşı döyüşçü olmaqla bərabər Taleşanın Mistan obasında hələ uşaqlıqdan öyrəndiyi bir neçə sənət sahəsi ilə də məşhur idi. Belə ki o, mahir rəssam,musiqiçi, heykəltəraş,rəngsaz,ağac

üzərində müxtəlif oymalar düzəldən idi və elə bu işin dalınca da ərəblərin məşhur şəhərlərinə yollandı. Bir müddət sonra o peyğəmbər(s) şəhəri olan Mədinəyə gəlib çatdı və orada bir nalbəndin evində qulluqçu işləməyə başladı. Mədinə şəhərində bazarda dəvə satan bir şəxsdən xəlifənin qəbuluna necə düşəcəyi barədə soruşanda ona cavab verdilər ki, ”sən əgər bir mübahisəli mövzu barəsində xəlifə Ömərin məhkəməsinə çıxmaq üçün müraciət etsən, onda onun qəbuluna düşə bilərsən”. Bunu eşidən Peroz qaldığı ağasının evinə qayıtdı və onunla pul üstündə mübahisə etməyə başladı. İranlının onunla mübahisə etdiyini görən ərəb hücum edib onu yaraladı. Bundan istifadə edən Peroz xəlifə Ömərə bir məktub yazdı və ondan ağası ilə onun arasında baş verən mübahisəni həll etməyi xahiş etdi.

Bundan əlavə Əbu Lulu əsir edilib qula çevrilmiş əcəm uşaqlarına və qadınlarına rast gəldi. O, onların ərəblər tərəfindən vəhşicəsinə döyülüb heyvan kimi satıldığını gördü və gözləri yaşardı. Bütün bunlar Perozun xəlifə Öməri öldürməyini tezləşdirdi və onun qəlbində tazi köpəklərinə qarşı nifrəti daha da alovlandırdı. O, üzünü uşaqlara tutub ürək ağrısı ilə dedi: “siz əsirliyə çox zərif yaşda düşübsüz,b u də mənim qəlbimi dibindən çıxarır.Mən də buna görə Ömərin qəlbini xəncərimlə dibindən çıxararam”.

Bəzi mənbələrə görə isə Peroz(Əbu lolo) özü öz ağasından xahiş etmişdi ki, onu Ərəbistana işləməyə aparsın. O elə əvvəldən xəlifə Öməri öldürməyi planlaşdırırdı və bunu öz vətəni naminə və İranın ərəblər tərəfindən dağıdılmasının qisası kimi almaq istəyirdi. Lakin digər sünni - ərəb mənbələri xəlifə Öməri öldürən Perozu İranın patriotu kimi qələmə vermək istəmirdilər.



*(Şəkil. Xəlifə Öməri 6 bıçaq zərbəsi ilə öldürən Peroz(Əbu Lolo).644-cü il 6 noyabr.Mədinə şəhəri, peyğəmbər məscidi(Məscid ül-nəbavi), səhər namazı vaxtı.)*

Deyilənlərə görə, Peroz(Əbu Lolo) Ömərə 6 zərbə vurub onu ölümcül yaralayandan sonra onun ətrafında olan 11 keşikçi ərəbi də öldürdü. Digər versiyalara görə isə Peroz Əbu Lolo xəlifə Öməri ölümcül yaralayandan sonra daha 11 ərəbi öldürüb Mədinədən qaçaraq Taleşanın Mistan obasına gəlir və 7 il orada gizlənir. Lakin yeddi ildən sonra yenidən üzə çıxır və Nəhavəndə gedərkən yolda Kaşan şəhərində tutulub edam olunur. Onun ələ keçirildiyi yer Kaşan şəhərindən Fins şəhərinə gedən yolun Finsə yaxın olan hissəsindədir. Hesab olunur ki, Ömərin qətlində islamı məcburi qəbul etmiş bir neçə iranlı da iştirak etmiş və Perozun işinin asanlaşdırılması üçün əlindən gələni etmişlər. Onların içərisində bundan 4 il əvvəl Kadisiyyə döyüşünün birinci günündə əsir götürülmüş və sonradan islamı qəbul etmiş tanınmış Sasani mərzbanı Hörmüzan da var idi.

Hörmüzan ölüm təhdidi ilə islamı qəbul etmiş və sonradan Ömərin məsləhətçisi olmuşdu, lakin Ömərin Peroz tərəfindən öldürülməsindən bir müddət sonra Ömərin oğlu tərəfindən Ömərin qətlinin həmiştirakçısı kimi edam etdirildi. Bundan əlavə Perozun mühakiməsində islamı məcburi və zorla qəbul etmiş xristian ərəbləri və yəhudilər də iştirak edirdilər. Peroz

üzdə İslamı qəbul etsə də, əslində atəşpərəst idi, lakin onun xristian olduğunu söyləyənlər də var.

Peroz 644-cü ildə xəlifə Öməri öldürən zaman Sasanilər dövləti hələ yaşayırdı və zəif də olsa,müqavimət göstərirdi. Zaman-zaman İranın vilayətləri ard-ardınca ərəblər tərəfindən işğal olunur və əhali qılıncdan keçirilirdi. Bundan əlavə sonuncu Sasani şahı III Yezdəgerd hələ sağ idi. O, Assuriya mənşəli xristian çariçası Siranın(173) nəvəsi idi və bu hadisədən yeddi il sonra o da qətl edildi. Bu hadisədən sonra Peroz bütün İranın Milli Qəhrəmanı oldu və İran islam dinini qəbul edəndən sonra da ərəb işğalçılarına qarşı vuruşmuş bir xalq qəhrəmanı kimi qalmaqda davam etdi. Belə ki İranın Kaşan şəhərində XIV əsrdə inşa edilmiş məqbərəsi və məzarı yerləşir, lakin digər mənbələrə görə isə Perozun məzarı Kaşanda yox, indiki Talışın Lerik rayonunun Mistan kəndi yaxınlığındadır və elə o kənddə də onun ziyarətgahı yerləşir.

Ümumiyyətlə, Talış bölgəsində Perozu Perza və ya Pirza adlandırmışlar və onun adı ilə bağlı Astara, Lerik rayonları ərazisində müxtəlif ziyarətgahlar mövcuddur ki, talışlar hər zaman oranı ziyarət edib yad edirlər. Belə ziyarətgahlara misal olaraq “Perzə ocəğ”(Lerik – Mistan),Perzarə ocağı(Lerik – Mistan sovetliyi,Perzarə kəndi),Perzəkujə (Lerik) və sair.

Bütün bu müqəddəs yerlər xəlifə Öməri öldürən Mistanlı Perozun adı ilə bağlıdır.Bundan əlavə İranda Səfəvilər sülaləsi hakimiyyətə (1501-1746) gələndən sonra Peroz Əbu Loloya “Baba Soc əd-Din”(dinin igidlərinin atası) titulunu verdilər.Belə ki şiə Səfəvilər Perozun bu şücaətini şiə imamı və Məhəmməd peyğəmbərin(s) əmisi oğlu Əlinin(ə) qisasını alan kimi təqdim edirdilər. Onlar hesab edirdilər ki, Peroz hakimiyyətin Əliyə verilməməsi ilə razı olmayaraq xəlifə Öməri öldürməyi qərara almış və onu öldürmüşdür.

Şiələr deyirdilər: “Xəlifə Ömərin öldürüldüyü gün böyük bayram günüdür, qürur günüdür, qələbə və öyünmə günüdür,böyük qurtuluş və sevinc günüdür”. Lakin müasir İranda Peroz İranın ərəblər tərəfindən işğalından psixoloji zərbə almış bir şəxs kimi təqdim edirlər. Hal-hazırda Perozun İrandakı məzarı ziyarətçilərin üzünə bağlıdır və İranın bir neçə dini müctəhidi Perozun məqbərəsinin dağıdılmasını tələb etmişdir. Ruhanilərin bu tələbinə İranın o zamankı prezidenti Əhməd Nejad razı olsa da, yerli əhali buna öz etirazını bildirmiş və bu iş başlamadan dayandırılmışdır. Bundan əlavə onun dağıdılmasını qonşu sünni islam ölkələri rəsmiləri də istəmişlər. 2007-ci ildə Kaşanda yerləşən Perozun məqbərəsinin dağıdılacağı barədə xəbər yayılan zaman bütün Kaşan əhalisi kütləvi olaraq nümayişə çıxıb öz etirazlarını bildirdilər və 27 iyun 2007-ci ildə məqbərənin dağıdılması dayandırıldı. Kaşandakı kütləvi nümayiş zamanı nümayişçilərdən biri jurnalistlərə demişdir: ”Perozun hərəkəti İranı vəhşicəsinə işğal edib dağıdan, qız-gəlinlərimizi zorlayıb qula çevirən tazi ərəblərə cavab olmuşdur. İranlılar Perozu heç bir zaman unutmayacaq və ərəblərin İrandakı bu vəhşiliyini heç bir zaman bağışlamayacaqlar”.

***Xorasanın işğalı.*** Ərəblər İranın dörd ostanından biri olan Xorasana doğru hərəkət etməyə başladılar. Əslində Nəhavənd vuruşmasında İran ordusunun məğlubiyyəti Sasanilər sülaləsinin sonuncu dirənişi idi. Lakin buna baxmayaraq sasanilərin sonuncu şahənşahı III Yezdəgerd öz ailəsi ilə birlikdə ölkənin şərqinə çəkilib qoşun toplamaqla məşğul idi və o, hələ də hakimiyyətini geri qaytarmaq ümidi ilə yaşayırdı.Onunla bərabər ailə üzvlərindən oğlu III Peroz və V Bəhram da var idi. Xorasanın işğalı haqda mənbələrdə 3-cür məlumat var: Ömər ibn Səyfin “İran” versiyası, Bəluzarinin

versiyası və Əli ibn Məhəmmədin versiyası. Qeyd etmək lazımdır ki,bu hər üç versiyada yazılanlar eyni hadislələr üzərində qurulmaqla yanaşı eyni kökdəndir və bu hər üç versiya Təbəridə öz əksini tapmışdır. Bu versiyaların məzmunu belədir:

*1.Versiya–Ömər ibn Səyfin “İran” versiyası.* İran ordusunun Calula yaxınlığındakı məğlubiyyətindən sonra III Yezdəgerd öz tərəfdarları ilə Reyə çəkilir və Reydə o, Nəhavənd döyüşünün sonuna qədər gözləyir.

Lakin Nəhavənd yaxınlığında öz ordusunun yeni məğlubiyyət xəbərini eşidən kimi şahənşah Reyi tərk edib ölkənin içərilərinə doğru hərəkət etməyə başlayır. İlk olaraq İsfahana, daha sonra isə Germana gedir. III Yezdəgerdin hər şəhərə getməsi mənbələrdə geniş qeyd olunmasa da, onun Germandan çıxıb ölkənin şimal-şərqində yerləşən Xorasan əyalətinin Nişapur şəhərinə gəldiyi və oradan da Mərv şəhərinə getdiyi qeyd olunur. Mərv şəhərindən III Yezdəgerd İranın işğal edilməmiş əyalətlərinin mərzbanlarına elçilər göndərir və onların sədaqətini bir daha təsdiqləyir. Onun məqsədi ərəblər tərəfindən işğal edilmiş əyalətlərdə yerli xalqı işğalçı ərəblərə qarşı qaldırmaq idi. Bundan sonra Pars və Midiyada ərəblərə qarşı geniş üsyan baş verir.

Mərvdə özünü təhlükəsiz hesab edən III Yezdəgerd oranı özünün yeni paytaxtı elan edərək məhz oradan ölkənin qalan vilayətlərini idarə etmək qərarına gəlir. O,Mərv şəhərindən 2 fərsəx aralıda zərdüştliyin simvolu olan qədim atəşgah kompleksi və onun ətrafında isə hökmdara layiq bağ-bağça,fəvvarələr və gözəl cənnət tikdirməyi əmr edir. Lakin xəlifə Pars və Midiyanı ələ keçirən kimi III Yezdəgerdin Mərvdəki kiçik hakimiyyətinə son qoymaq üçün ərəb ordusuna Xorasan üzərinə yürüməyi əmr etdi. Beləliklə, ərəblər Əhnaf ibn Qeysin komandanlığı altında Xorasana daxil

oldular. Xorasana gələn ərəb ordusunun tərkibi Bəsrə və Kufə əhalisindən ibarət idi.Ərəb ordusu Mehraqan-qadaq və İsfahan marşurutu ilə hərəkət edərək Tabasayn tərəfdən Xorasana daxil oldu(174). Ərəblər oradan Herata daxil olub silah gücünə bu şəhəri tabe etdikdən sonra orada öz canişinlərini qoydular. Əhnaf Nişapur və Saraxs şəhərini tabe etmək üçün iki dəstə göndərdi,lakin bu iki şəhər döyüşsüz təslim oldular. Ərəb ordusunun əsas hissəsi Əhnafın komandanlığı altında Mərvə daxil oldu. Ərəblər Mərvə daxil olanda III Yezdəgerd öz iqamətgahını tərk edib Mərvruda çəkildi. Oradan o, köçəri türklərin xaqanına,Soqd hökmdarına və Çin imperatoruna kömək üçün müraciət etdi. Şahənşah müraciət etdiyi ölkələrdən kömək gözləyən zaman Mərvdə olan Əhvana xəlifə tərəfindən Kufədən göndərilmiş köməyə əlavə qüvvə gəldi. Bundan sonra Əhvan ibn Qeys Mərvdə kiçik bir dəstə qoyub öz qüvvələri ilə Mərvruda doğru hərəkət etməyə başladı. Bunu eşidən III Yezdəgerd Mərvruddan Bəlxə doğru hərəkət etdi. İranlıların izi ilə kufəlilərdən ibarət dəstə göndərildi və onlar Bəlxi ələ keçirdilər. Bəlxdə olan III Yezdəgerd isə öz dəstəsi ilə Amudəryanın o biri sahilinə keçdi və ərəb komandanı Əhnaf ibn Qeys öz iqamətgahını Bəlxə köçürdü.

Xorasandan Nişapura və oradan da Toxaristana qədər olan ərazilər Əhvanla sülh muqaviləsi bağlayaraq ərəb hakimiyyətini qəbul etdilər və Xorasanın işğal edilməsi ərəb administrasiyasının planlarında yox idi.Ərəb ordusunun şərqdə-Xorasandakı ardı-ardınca qələbələri xəlifəni qıcıqlandırır və həvəsləndirirdi,çünki Xorasan vilayəti xəlifə ilə köçərilər arasında neyteral zona hesab ediliridi. Xorasanın işğalı ərəbləri hay-küylü türklərlə qonşu etdi, lakin şahənşah III Yezdəgerd Amudəryanın o tayında Soqdiyalılardan və türklərdən böyük ordu köməyi alıb çayı keçdi və Bəlxə doğru hərəkət etdi. Bunu eşidən ərəb canişini Mərvruddakı ərəb

komandanı olan Əhvanın yanına çəkildi. Çox keçmədi ki,şahənşahın və türk xaqanının Toxarıstan və Bəlxlilərdən ibarət çoxsaylı orduları Mərvrud üzərinə yürüdü.Mərvrudda olan ərəb ordusunun sayı 20 000 nəfərə çatırdı(10 000 kufəli və 10 000 bəsrəli).

Tarixçi Bəəl şahənşah ordu birləşməsinin sayının 50 000 olduğunu göstərir. Ərəblər şəhər divarlarının arxasına çəkildilər və günlərlə davam edən qanlı döyüş tərəflərin heç birinə üstünlük qazandırmadı. Lakin ərəblər hiyləyə əl ataraq gecə ilə Türk xaqanının üzərinə hücum etdilər və qanlı döyüşdə xaqanın bir neçə yaxın adamı da həlak oldu.

Bu hadisədən sonra Türk ordusu güri çəkilərək İran şahını taleyin əllərinə buraxdılar. III Yezdəgerd isə Mərvə doğru geri çəkilərək oradakı ərəb canişinini və onun qarnizonunu təhdid altında qoydu. Şah qoşunlarının şəhərə daxil olduğunu görən ərəb canişini qaçıb gizləndi və şəhərə daxil olan şahənşah sadəcə olaraq xəzinəni ələ keçirib Türk xaqanını və Çin imperatorunun yanına tələsdi. Lakin III Yezdəgerdin yorulmuş ordusu şahdan Çin və Türklərdənsə ərəblərə yaxınlaşmağı tələb edirdilər. III Yezdəgerdin bu tələbi qəbul etmədikdən sonra onun ordusu şahdan xəzinəni aldı və III Yezdəgerdi təqib etməyə başladılar. Başsız qalmış şah ordusu xəzinəni ərəb komandanı Əhvan ibn Qeysə təslim etdilər və ərəb ağalığını qəbul etdilər. III Yezdəgerdin ölümü haqda müxtəlif versiyalar mövcuddur(184

*İkinci rəvayət*: - mənbələrə görə şahənşahın qərargahında ona qarşı üsyan baş verir və o qaçıb dəmirçixanada gizlənir. Üsyan edənlər onu tapıb öldürürlər, nəşini isə Arıq çayına atdılar.

184.Bax: Balami.

*Üçüncü rəvayət:* Belə ki üçünçü rəvayətə görə Şəhriyarın oğlu III Yezdəgerd Mərv və Bəlxə qaçır və orada da Amudəryanın o biri sahilinə köçür. O, Soqdda Çin imperatorunun yanından cavabla qayıdan öz elçisi ilə rastlaşır. Cavabda Çin imperatoru öz qonşusu olan İran imperatoruna kömək etməyi özünə borc bildiyini söyləyir. Lakin hal-hazırki vəziyyətdə quduz ərəblərlə vuruşmağın heç bir mənası yoxdur və şahdan onlarla danışığa girməyi tövsiyə edir.Bundan sonra III Yezdəgerd bir neçə il Fərqanə vadisində ərəblərdən gizli-qaçaq halda yaşayır.

*İran versiyası:*- Xorasanın işğalının və III Yezdəgerdin ölüm səhnələri İran versiyasında daha həssas şəkildə yer almışdır. Belə ki burada ən tanınmış tarixçilər olan Xuzəli, Xordabeh ər-Rəzi və Hişam ibn Məhəmməd(iranlıdıdr) də öz məlumatlarını vermişlər. Bu üç müəllifdən əlavə Təbəri ən azı on dəfə bu hadisəyə işarə edir. Bu məsələlər “İranın irsi” kitabında və daha sonralar yazılmış “Şahnamə” və Xvadaynamə” də öz əksini geniş tapmışdır.

Firdovsi İran ordusunun ardı-ardınca məğlubiyyətinin səbəblərini onların Kadusiya döyüşündə məğlubiyyəti ilə bağlayır və III Yezdigerd Xorasana köçməyi məhz bu döyüşdən sonra qərara aldığını bildirir. O, Babilin əsas hissəsinin işğalından sonra Xorasana gedib özünə gəlmək və türklərdən, tinlilərdən ibarət yeni ordu yaratmaq istəyirdi. O bu işdə Mərvin mərzbanı Mahuyəyə ümid bəsləyirdi(185). Belə ki o, ilk olaraq Bağdad bazarına tərəf yollanıb oradan dehqanlardan ibarət ordu toplayaraq özü ərəblərlə vuruşmaq istəyirdi. Lakin o oradan İsfahana gəlir və İsfahan mərzbanı.

185. Bax:Təbəri,Tarix-i Təbəri,c.V,s.1979;İbn Kəsir,əl-Bidayə vən-Nəhayə,c.VII,s.203;İbnul-Əsir,əl-Kamil fit-Tarix,c.III,s.27-28.

Matyardan kömək istəyir. O vaxt İsfahan mərzbanı olan Matyar şahənşahla görüşmür,səbəbi isə budur ki, Matyar şahənşahın iqamətgahına dəstursuz girdiyinə görə keçikçilər tərəfindən saxlanılır və o isə şahın keçikçisini döyür.

Bu hadisədən sonra şah tələsik İsfahanı tərk edir, sonra isə Rey şəhərinə gəlir. Orada artıq şaha inanmırdılar. Təbəristanın hakimi ona ilk öncə öz vilayətini təklif edir, lakin şahənşah imtina edir, daha sonra isə o, şahənşahdan xahiş edir ki,ona mərzban titulu versin. III Yezdəgerd ona öz möhürünü verir ki,o da özü özünü şahın adından mərzban təyin etsin. Sonra isə şahənşah Fars və Germana gedir və 3 il orada qalır. Germandan sonra şahənşah Qorqana gəlir və oradan Mərv və digər ərazilərin hakimlərinə elçi göndərərək ona hərbi və maddi yardım göstərmələrini tələb edir, lakin o qızıl tələb etmirdi. Məhz Sakastanda şahənşah Xorasana getməyi və orada ordu toplamağı qərara alır. Şahənşahla bir neçə min nəfər adam var idi və buraya gözətçilər, qulluqçular, mirzələr, hərəm və şahın ailə üzvləri də daxil idi. Burada İran ordu sərkərdələrinin və dehqanların uşaqları və arvadları da var idi ki, şahənşah onları sədaqət əvəzi olaraq girov saxlamışdı. Şahənşahı Mərvə qədər Fərruxzadın dəstəsi müşayiət edirdi.

Təbəri yazır ki,Mərvdə Fərruxzad (Təbəridə Hürzad Mehr) III Yezdəgerdi mərzban Mahuyəyə təhvil verib özü İraqa döndü ki,ərəblərlə vuruşsun. Mahuyə Amudəryaya qədər olan əraziyə nəzarət edirdi. Həmin çaydan sonrakı ərazilərə isə Türk xaqanı nəzarət edirdi ,lakin şahla onun mərzbanı arasında konflikt baş verdi və mənbələrə görə Mahuyə gizlicə türk xaqanı ilə III Yezdəgerdə qarşı səazişə girdi. Bunun səbəbi isə mənbələrdə müxtəlif cür izah olunur,belə ki mənbələr məlumat verir ki, şahənşah Mahuyəni yeni mərzbanla əvəz etmək istədiyinə görə bu konflikt baş verir. Elə bu səbəblə də şahənşah şəhərə buraxılmadı və o, şəhəri zorla ələ keçirib

onun yerinə Fərruxzadı qoymaq istəyəndə bunun nəticəsi pis oldu. Bu hadisədən sonrada mərzban şahı öldürməyi qərara aldı və burada şah özü günahkar idi(186). Firdovsiyə görə türk xaqanı Mahuyənin təklifini qəbul edir və öz ordusunu şahın üzərinə göndərir, amma özü orada iştirak etmir.

175. Bax yenə orda, s.334, bb, 276-286.
176. Bax: Təbəri I,s.2881-2882

Balamiyə görə şahənşah təhlükəni hiss edən kimi Murqab çayının kənarındakı dəmirçixanaya qaçıb və orada bir neçə gün gizlənir.Şahənşahın ölümü bir neçə cür yozulur,biri də budur ki, o, dəmirçi tərəfindən öldürülür, lakin III Yezdəgerdi kimsə dəfn etmir və onun dəfni yalnız xristianlar tətəfindən həyata keçirirlir. Belə ki Firdosiyə görə Əxvaz nəslindən olan Mərv metropoliti İlya xristianlara müraciət edərək qətl edilmiş şahənşahı dəfn etməyi xahiş edir.Bunun səbəbini İlyadan digər xristianlar soruşduqda o cavab vermişdir:

Çünki III Yezdəgerd Şəhriyarın oğludur,Şəhriyar Xosrov Pərvizin və xristian qadın olan Siranın(Şirinin) oğludur,Sira da bizim nənəmizdir. Bu da o deməkdir ki,öldürülmüş şahənşah III Yezdəgerd da xristian mənşəlidir(187). Metropolitin göstərişi ilə III Yezdəgerd də xristian şahzadə Şirin kimi dəfn edilir və onun dəfn edildiyi yerdə gözəl bir bağça salınır, burada şahənşahın məqbərəsi var. Şahənşahın xristianlar tərəfinfən dəfn edilməsi Mərvin mərzbanı Mahuyaya xristianları təqib etmək bəhanəsini verir. Mənbələrə görə, Mahuyə özü şahın ölümündən sonra çox qorxurdu, çünki şahın onun əmri ilə öldürülməsi onun üçün heç də yaxşı olmadı. Bundan əlavə şahənşahın tacı və əsası Mahuyədə idi. Bunu

186.Bax: Ət-Təbəri,1,2661.
187.Bax: Ət-Təbəri,l,960-962;əd-Dinəvəri,səh.72-73.

eşidən iranlılar üsyan qaldırıb Mahuyanı əsir etdilər və əvvəl onun bir qolunu,sonra isə o biri qolunu da kəsdilər. Onların bununla ürəkləri soyumadı və Mahuyənin qulaqlarını və burnunu da kəsib üç oğlu ilə birlikdə yandırdılar.Bu hadisədən sonra Mahuyənin sağ qalan bütün tayfası lənətləndi və onu qəbul etməyən Mərv şəhəri isə "şahənşahın düşməni" adını aldı.

Tarixçi Xuzəli III Yezdəgerdin uşaqları və nəvələri haqda məlumat verir və o yazır ki,III Yezdəgerd Mərv şəhərində olarkən onun Mərvli cariyədən ölümündən sonra bir oğlu dünyaya gəlir. III Yezdəgerin oğlu Xorasanda yaşayır, lakin ərəb ordusu Kuteybənin başçılığı ilə Orta Asiyaya daxil olanda onun yanına iki qız uşağı gətirirlər. Bu uşaqlar III Yezdəgerin Mərvli qızdan olan oğlu Muxdadcın qızları idi. Kuteybə o uşaqlardan birini xilafətin şərq əyalətlərinin əmirlərindən biri olan Xəccac ibn Yusifə göndərir, o isə Valid ibn Əbdülmalikə göndərir. Xəlifə Əbdülmalik III Yezdəgerdin nəvəsi ilə nigah bağlayır və və ondan Yəzid İbn Valid(III Yəzid) dünyaya gəlir.Bu Yəzid ibn Valid bir müddət III Yəzid adı ilə 774-cü ildə Əməvi xəlifəsi olmuşdur(188).

*Üçüncü versiya: Bəluzari Əli ibn Məhəmməd.325.*Üçüncü versiyada da Ərəblərin Xorasanı tutması və III Yezdəgerdin faciəli şəkildə ölməsi öz əksini tapmışdır. Bu variantda da qeyd olunur ki,ərəblər əvvəlcə Abarşəhrin bir hissəsini tutdular və şəhərin digər hissəsi isə mərzbanın əlində idi. Lakin sonunda mərzban ərəblərlə-Abdullah ibn Əmirlə sülh müqaviləsi bağladı və sədaqət olaraq öz qardaşı oğlu və öz oğlunu girov qoydu. O, Abdullaha III Yezdəgerdin iki qız nəvəsini bağışladı.

188.Bax: Təbəri,5.,s.21

***Yəzdigerdin ölümü****(652-11 iyun).* Ərəblərin ard-ardınca az qüvvə ilə iki əzəmətli (İran-Bizans) imperiyaları eyni vaxtda məğlub etmələri insanlarda belə bir düşüncə yaradırdı ki,ərəbləri hansısa bir böyük qüvvə himayə edir. İlk öncə ərəblər Səbat şəhərini tutdular və Səbatın hakimi Səbatı nəinki döyüşsüz verdi,hətta ərəblərə kömək belə göstərdi. Belə ki o, ərəblər üçün daşdan hündür bir qala tikdi və ərəblər 2 ay Dəclənin sağ sahilindəki Mədain şəhərinin Veh-Ərdəşir(qədim Selevkiya) hissəsini oradan atəşə tutdular.

Mədaində artıq ərzaq ehtiyatı tükəndiyindən Hürzad gecə ilə ordunu çayın sol sahilinə göndərmişdi, lakin Calula döyüşündə Hürzad məğlub olub öldü və III Yəzdigerd ölkənin içərilərinə çəkildi.

Bu zaman ərəblər Xuzistana daxil oldular və Xuzistanda İran ordusunu Hörmüzan idarə edirdi. Ancaq ciddi döyüşlərdən sonra Hörmüzan da məğlub edildi və ərəblər Xuzistanı ələ keçirdilər. Hörmüzan 639-cu ildə təslim oldu və xəlifədən aman istədi. Hörmüzanı xəlifə Ömərin yanına apardılar və o, xəlifədən içmək üçün su istədi və su gətirəndə o, üzünü xəlifəyə tutub dedi:

- ”Qorxuram ki, mən suyu içəndən sonra məni öldürərsən”. Bunu eşidən Ömər bin Xəttab dedi:

- ”Bu suyu içənə qədər heç nədən qorxma”.Bu zaman Hörmüzan su ilə dolu fincanı yerə atdı və dedi:

- “Mən bu suyu içməməklə səndən aman aldım” və Ömər Hörmüzanın dediklərini qəbul etdi və ona aman verdiyini dedi:

- Hörmüzanı məğlub edəndən sonra ərəblər üçün Parsa yol açıldı.

Bu zaman III Yəzdigerd çox çətinliklə ordu toplaya bildi,lakin İranın qərbinin işğalını dayandıra bilmədi.640-cı ildə Pars vilayətinin mərzbanı döyüş yerində məğlub edildi,

lakin ərəblər qüvvə çatışmazlığı ucubatından İstəhri tuta bilmədilər.

640-cı ildə ərəblər Dvin şəhərini ələ keçirdilər və III Yəzdigerdin zəiflədiyini görən İranın bir sıra əyalət hakimləri ondan üz döndərib uzaqlaşdılar. Şahənşahın nüfuzu o qədər düşdü ki,Rey şəhərinin hakimi şahın Rey şəhərindəki möhürünü götürüb dövlət xəzinəsinə aid olan bir çox şeyləri öz adına sənədləşdirdi. Lakin Təbəristan hakimi ona sığınacaq verdi və sığınacaq o qədər pis idi ki,III Yəzdigerd Təbəristan hakiminə minnətdarlıq bildirərək bu təklifdən imtina etdi və ona Sebahbed titulu verdi. III Yezdigerd İsfahanın Ceyd məntəqəsində düşərgə saldı, ancaq ərəblərlə danışıqlar yenə də nəticə vermədi və 3 günlük döyüşdə İran ordusu yenə məğlub oldu, lakin ərəb sərkədəsi an-Numan ibn Mukkarrin həlak oldu.İranlıların itkisi əsasən suvari birliklərdə baş verdi. Çünki şah burada qaçmasınlar deyə hər on-on beş nəfəri bir-birinə zəncirlə bağlatmışdı. Nəhavəndin hakimi şəhəri təslim etdi və İran ordusunun qalıqları Həmədana qaçdı.Şimali İran ordusuna Bəhramın qardaşı İsfəndiyar başçılıq edirdi. Ərəblər ard-ardınca İranın şəhərlərini ələ keçirir və III Yəzdigedi təqib edirdilər. Bu zaman ərəblərin yaxınlaşdığını görən III Yəzdigerd İranın Çinlə olan sərhədinə qaçaraq Çin imperatorundan kömək istədi.

Ərəblər çox keçmədi İsfahan, Herat, Bəlxi və Qəndahəri ələ keçirdilər və bu zaman III Yəzdigerd öz ordusunun qalıqlarını toplayıb Mərv şəhərinə gəldi və Türk xaqanından da kömək alaraq ərəbləri geri püskürtmək qərarına gəldi. Buraya gələrkən III Yəzdigerd öz kitabxanasını, xəzinəsini, rəqqasələri də gətirmişdi. İranın Mərv şəhərindəki mərzbanı Mahuyə şahı çox gözəl qəbul edib yerləşdirdi, bu vaxt 651-ci il idi. Mərzban Mahuyə onun üçün kömək göztərəcək əyalət hakimlərini yığdı və onların arasında Türk xaqanı Bicn Tarxan

da var idi. O da şaha öz alpları ilə köməklik etmək istəyirdi. III Yəzdigerd onu çox yüksək səviyyədə qəbul etdi, lakin o, III Yəzdigerddən onun qızlarından birini özünə arvad istəyəndə şah əsəbləşib dedi:

- ”Sən mənim qullarımdan birisən, sən mənim kimi bir Ari şahənşahının qızına elçi düşməyə necə cürət edirsən?”

Bunu eşidən Mahuyə şahın naməsini gətirən elçiyə belə cavab verdi

- ”Bunu bir ovuc bədəviyə məğlub olub buraya qaçıb gələn şahmı deyir”. Sonra isə Mahuyə və Türk xaqanı Bican Tarxan biri-biri ilə şahı öldürmək üçün gizli sövdələşdilər. Bu zaman Türklər şahın kiçik dəstəsinə hücum edib onları qovladılar.III Yəzdigerd Mərvin içərilərinə sığınmaq istədi, lakin Mərvin mərzbanı Mahuyə şəhərin qapılarını III Yəzdigerdin üzünə bağlamağı əmr etdi.

Bütün bunlardan yorulmuş və hal-hərəkətdən düşmüş İranın sonuncu şahənşahı III Yəzdigerd şəhərin ətrafındakı kiçik bir xarabalıqlarda gecələmək üçün orada yaşayan kəndlilərə xərclik verdi. Həmən kəndli dəmirçi olduğundan onu öz dəmirçixanasında gizlətdi və şah ondan dəmirçixananı bağlamağı istədi. Dəmirçi şahdan dəmirçixananı bir müddətə bağlamaq üçün bir gecəsinə 4 dirhəm istədi, şah da ona qiymətli almaz verdi və dəmirçixanaya girdi, ancaq gecə vaxtı dəmirçi şahın yatdığı yerə gəldi və onu şahın əynindəki bahalı daş-qaşla bəzədilmiş libası cəlb etdiyindən şah yuxuda ikən İran millətinə xas olmayan “qonağı öldürmə” taktikası ilə xəncəri onun ürəyinə soxdu və şah şəhid oldu. Beləcə Ali Sasani sülaləsinin son hökmdarının tarixi sona çatdı.

III Yəzdigerdi İranın xristian yepiskopu olan İlya dəfn etdi və Mərv şəhəri yaxınlığında ona öz hesabına movzoley inşa etdi və ona bunu sorduqda o da cavabında:

- "III Yəzdigerdin nənəsi Siran(Şirin) zira bir xristian qızı idi və bu səbəbdən də onun mənə qan qohumluğu vardır. Şahın öldürülməsində iştirakçı olduğuna görə iranlılar mərzban Mahuyənin əllərini - ayaqlarını kəsdilər və onun özünü isə üç oğlu ilə birgə tonqalda yandırdılar.

Təbərinin verdiyi məlumata görə III Yəzdigerdi onu ordusunun islamı qəbul etmiş hissəsi öldürmüşdür. Lakin bəzi mənbələrdə isə III Yəzdigerdin əsla öldürülmədiyi,əksinə sağ-salamat Məkkəyə əsir aparıldığı söylənilməkdədir. Bu səbəblə də atəşpərəstlər III Yəzdigerdin ölüm günündən 652-ci il 11 iyun tarixindən öz eralarının başlanğıcını götürürlər. Şah öləndən sonra onun bir neçə övladı Xorasan çöllərində başsız qaldı. Lakin 656-cı ildə III Yəzdigedrin oğlu Peroz Tan imperiyasının köməyi ilə üsyan qaldırıb Toxaristana hücum etdi. Lakin artıq gec idi, dördüncü xəlifə Əli onun üzərinə qüvvətli bir ordu göndərdi və Abarşəhri tutdu.

### *5. Şəhrəbanu(Cahanşah)*

***1.Şəhrəbanu – III Yezdəgerdin qızlarının əsir düşməsi.*** Abarşəhri tutan zaman ərəblər III Yəzdigerdin orada olan bir neçə qızını da əsir aldılar, lakin onlar o qızlara heç bir xətər yetirmədilər. Onun digər qızları isə ərəblər tərəfindən əsir götürüldülər, yarısı zorla arvad edildi, yarısı da əsgərlər arasında xidmətçi kimi bölüşdürüldü. Bəziləri də islam peyğəmbərinin(s) övladları tərəfindən arvad edildi. Belə ki Xorasanda III Yəzdigerdin ölüm xəbərini eşidən kimi ərəb sərkərdəsi Abdullah ibni Əmir oraya hərəkət etdi və başsız qalmış III Yəzdigerdin sığınacağına çatdı. Abdullah ibni Əmir ora çatanda artıq III Yəzdigerdin oğlu II Firuz qaçmışdı və yalnız onun qızları olan Adrak, Mardavand(Mərzbanu), Cahanşah(Şəhrəbanu) qalmışdılar. Yəzdigerdin qızlarını əsir

alan Abdullah ibni Əmir onları görən kimi atın üstündən uzun-uzadı onlara baxıb dedi:

- Ali Sasanın son mirvariləri də ələ keçdi: - deyə atını onlara yaxın sürmək istəyəndə III Yəzdigerdin qızı Cahanşah(Şəhrəbanu) bunu görən kimi irəli çıxıb əlini Abdullaya tərəf uzadıb dedi:

- Qəti,qəti bir addım da irəli gəlmə, ey murdar ərəb, dur!

Bunu eşidən Abdullah ibn Əmir hiddətlə:

- Sən mənə deyirsən?

- Hə,sənə deyirəm və sənin ulu babaların ulu babalarımın,babaların babalarımın,atan-atamın və sən də mənim nökərim olmusan! – deyə Cahanşah cavab verdi və bundan qəzəblənən Abdullah ibni Əmir hiddətlə Cahanşaha dedi:

- Kəs səsini,yoxsa and olsun Allaha ki...

- Sən, həqiqətən də, vəhşi və murdar bədəvisən və sənin nəslin mənim ali nəslimə minilliklərlə yaxın belə dura bilməyib, bizim çirkablarımızda qarın doyuzdurublar və indi sən görünmədiyin qədər də aciz, zəif və yazıqsan! – deyə Cahanşah dedi.

- Sus,ey kafir, sən kimsən ki müsəlmanları təhqir edirsən? Bil ki ölümə məhkumsan! – deyə Abdulla bin Əmr cavab verdi.

- Siz ey bədbəxtlər, siz hələ öz allahınızın nə olduğunu belə bilmirsiniz, bəlkə də onu insan qismində təsvir edirsiniz. Sizin öz allahınız haqda olan təsəvvürünüzlə onun buyuruqları düz gəlmir. Ürəyində Allah sevgisi olan bir bəndə digər Allah bəndəsi üzərinə pis niyyətlə,qılıncla və üstəlik qoşunla gəlməz. Bir də ki,sənin dinin və Allahın,həqiqətən də, yaxşı və alidirsə, mən özüm onu seçim edəcəyəm! – deyə Cahanşah dedi.

- Bizim din islamı qəbul etməyənlərin qanını,canını və malını bizə halal edib! – deyə Abdulla bin Əmr cavab verdi.

- Dünyada heç bir dində yazılmayıb ki, bu günə qədər insanı nəyisə qəbul etmədiyinə görə ölümə məhkum etsin və ya malı,canı və qanını halal etsin. Bu sübut edir ki,siz islamı özünüz daxilən yox, zahirən şəxsi mənafeyiniz üçün qəbul edərək öz peyğəmbərinizi(s) ələ salmısınız və bu həmişə belə olacaq. Yüz islam dini olsa belə siz vəhşi və murdar bədəviləri, qadın hərislərini və qaniçən məxluqları adam edə bilməz. Cahanşahın bu sözlərindən özünü itirən Abdullah bin Əmr ona nə deyəcəyini bilmir və onun qarşısında aciz qalmışdı! – deyə Cahanşah dedi və sonra isə üzünü ona tutub dedi:

- Ey qadın, axı sən nə istəyirsən?

- İskəndərin İrana yürüşü əhvalatını bilirsənmi? – deyə Cahanşah Abdullaha dedi.

- Yox,bilmirəm! – deyə Abdulla bin Əmr cavab verdi.

- Hardan biləsən ki,əcdadların yalnız dəvədən başqa heç nə bilməyib və görməyib. Rəvayət olunur ki, İsgəndər İranı tutanda İran şahı III Daranın qızı Roksananı əsir alır, lakin Roksana onlara deyir ki, siz vəhşisiz və köləsiz, mənsə şah qızıyam və sizin şahla yalnız öz şəxsi seçimim qarşısında evlənə bilərəm. O zaman bu xəbər İsgəndərə çatanda o da Roksananın yanına gəlir və Roksana özü şah qızı olduğu üçün yalnız yunanların şahı ilə evlənməyə razılıq istədiyini bildirir. Onda İsgəndər bunu qəbul edib onunla evlənir.”İndi də həmən tarix təkrar olunur,mən şah qızıyam və yalnız sizin şahınızla və ya o təbəqədən biri ilə evlənmək istərəm, əgər dininiz yaxşı olsa, onda baxaram! – deyə Cahanşah cavab verdi. Cahanşahın dediklərini qəbul edən Abdullah bin Əmr onları Mədinə şəhərinə, xəlifə Ömər bin Xəttaba göndərdi. III Yezdəgerdin oğlu Firuz isə Çinə qaçdı və oradaca ömrünü başa vurdu. III Yəzdigerdin hər iki qızı Mədinə şəhərindəki məscidə gətirildilər.

***Mədinə.*** Xəlifə Ömər Mədinə şəhərində peyğəmbər məscidi sayılan “Məscid-i Nəvvab”da idi və elə bu zaman yenə bir əsgər içəri girib təzim etdi və dedi:

- Ya əmir əl-mömünin, rüsxət verin ərz edim..

- De görüm! – deyə Ömər bin Xəttab dedi.

- Ya əmirəlmöminin, İran şahı III Yezdəgerdin qızları əsir edilib hüzurunuza gətirilmişdir! – deyə əsgər cavab verdi.

Bunu eşidən Ömər bin Xəttab ayağa durub dedi:

-Nə gözləyirsiniz, tez olun gətirin onları. Bu zaman əsgər əli ilə çöldəkilərə işarə etdi və bu zaman məscidə çoxlu əsir qadın daxil oldu. Onları görən Ömər soruşdu:

- Bu qadınlar kimdir?

- Ya əmirəlmöminin, bu qadınlar İran şahı III Yezdəgerdin qızları və döyüşlərdə həlak olmuş adlı-sanlı İran sərkərdələrinin qadınları və qızlarıdır! – deyə əsgər cavab verdi.

Mədinənin bütün ərəb qızları onlara tamaşa etməyə gəldilər və bu vaxt Ömər ayağa durub qadınlara yaxınlaşdı və onları süzməyə başladı. Qadınlar ərəb qadınlarına nisbətən daha ağbəniz, biri-birindən çox gözəl və yaraşıqlı idilər, lakin onların hamısı öz niqabları ilə üzlərini örtmüşdülər. Ömər əsgərdən soruşdu:

Bu qadınlardan hansıları Yezdəgerdin qızlarıdır?

- Ya əmirəlmöminin, arxadakı üç üzübağlı qız İran şahının qızlarıdır,- deyib əli ilə onları göstərdi! – deyə əsgər cavab verdi və bu sözdən sonra Ömər bin Xəttab həmin üzübağlı qızlara yaxınlaşdı və soruşdu: Bunlardan ən gözəli hansıdır?

*Əsgər:* Ya əmirəlmöminin bu qızlar üçü də gözəldir, lakin ən gözəli qarşınızdakı qızdır! - deyə əli ilə göstərdi.Ömər onun üzün açmaq istəyəndə o qızlardan biri onun əlini itələdi və dedi: -

“Çək əlini, sən naməhrəmsən, vay Hörmüzdün qızlarının halına ki, qara günlərimiz başladı”. Lakin qızın farsca sözlərini başa düşməyən Ömər onu təhqir etdiyini hesab edib əlini qaldırıb zərblə ona vurmaq istəyəndə güclü bir qol onu tutub saxladı, ucaboy Ömərin qolu boşaldı. Qolunun tutulmasından və boşalmasından təəccüblənən Ömər bin Xəttab dönüb baxanda Əli ibn Əbu Talibi(ə) gördü və dedi: Ya Əli, sənmisən və niyə əlimi tutdun?

- Dur və əlini saxla! Sən nə cürətlə dünyanın ən zərif məxluqu sayılan və islamın belə üstün tutduğu qadın tayfasına əl qaldırırsan,-deyib Əli bin Əbu Talib ucadan dedi və onun əlini itələdi.

- Ya Əli, bu qadınlar kafirlərin qadınlarıdır və tərəfimizdən əsir götürülmüşdür. Dinimizə görə onların qanı, malı və namusları halaldır və mən də onları öz hərəmimə qatmaq istəyirəm! – deyə Ömər bin Xəttab cavab verdi.

- Zorlamı? Bir də ki, onlar əsir də olsalar, heyvan deyillər və bizim kimi bir Allah bəndələridir, qoy öz bildikləri kimi yaşayıb ailə qursunlar! – deyə Əli bin Əbu Talib(ə) cavab verdi və sonra isə o, Yezdəgerdin qızlarına yaxınlaşıb onlardan ən qabaqda olandan soruşdu:

- Qızım, adın nədir?

- Adım Cahanşahdır, o ikisi də bacılarım Adrak və Mardanavad –Niketdir və biz üçümüz də Yezdəgerdin qızlarıyıq! – deyə cahanşah və bacıları cavab verdilər.

- Siz əsla qorxmayın və bu dəqiqədən mənim himayəmdəsiniz, məndən də nə istəyirsiniz diləyə bilərsiniz! – deyə Əli bin Əbu Talib(ə) dedi.

- Doğrumu deyirsiniz? – deyə Cahanşah soruşdu.

- Allah şahidimdir ki, doğru deyirəm! - deyə Əli bin Əbu Talib(ə) cavab verdi və bu mənzərədən rahatsız olan Ömər üzünü Əliyə(ə) tutub dedi:

- Bu qızlar mənim qənimət payımdadırlar, sənin yox.
- Onda sən də mənim qənimət payımı götür, Ömər də razı oldu! – deyə Əli bin Əbu Talib(ə) dedi.
- Sən ərəblərin peyğəmbərisən? – deyə Cahanşah soruşdu.
- Yox! - deyə Əli bin Əbu Talib(ə) cavab verdi.
- Ya da onların seyyidisən! – deyə Cahanşah soruşdu.
- Yox, mən islam peyğəmbərinin həm əmisi oğlu, həm də kürəkəniyəm! – deyə Əli bin Əbu Talib(ə) cavab verdi. Bunu eşitcək Yezdəgerdin qızları üzlərini açdılar və qarşılarında günəş kimi nur saçan bir şəxsi gördülər, sevincək halda dedilər: Sən ey nurani insan, bizim atamız Yezdəgird həlak olmuşdur,bu gündən biz başsızıq. Xahişimiz budur ki, bizi sən himayə edəsən və bu sözləri eşidən Əli üzünü onlara tutub dedi:
- Onda izn verin sizi könlünüzə uyğun evləndirim və inanın ki, könlünüzdə kimi tutsanız, o şəxslərlə də sizi evləndirərəm.
- Söz sizindir ey “Seyyid”! – deyə Yəzdigerdin qızları cavab verdilər və sonra Əli(ə) üzünü Cahanşaha tutub dedi:
- Niqabını aç və bu məscidin içində kimə könül versən, onunla da evlənəcəksən. Bunu eşidən Yezdəgerdin qızları üzlərini açdılar və məsciddə olan kişilərə göz gəzdirməyə başladılar,bir müddətdən sonra onlar seçim etdiklərini bildirdilər.
- Qzım, seçiminizi etdinizmi? – deyə deyə Əli bin Əbu Talib(ə) soruşdu.
- Bəli, ya seyyid, etdik! – deyə Yəzdigerdin qızları cavab verdillər.
- Onda seçdiklərinizi əlinizi işarə rəmzi olaraq o şəxslərin başına qoyun! – deyə Əli bin Əbu Talib(ə) dedi.

Yezdəgerdin qızlarından Cahanşah öz əlini Hüseyn ibn Əlinin, Adral isə xəlifə Ömərin oğlu Mərvanın başına, Nikət də bir adlı-sanlı Ətəbin başına qoydu. Cahanşah üzünü Hüseyn

ibn Əliyə tutanda heyrətindən donub qaldı, o günəş kimi parlayan bir bir işıq gördü və dedi:

- Bu ki günəşdir..

- Bəli, doğru görürsən, o elə peyğəmbərimizin günəşidir! – deyə Əli bin Əbu Talib(ə) dedi. Cahanşah ona baxmaqdan hər şeyi ani olaraq unutmuşdu və ona nəticəni soruşan Əli ibn Əbu Talıbı və digərlərini eşitmirdi. Çünki qarşısında heç bir zaman görmədiyi gözəl, yaraşıqlı, boylu-buxunlu bir gənc dururdu. Cahanşah artıq öz seçimini etdi və peyğəmbərin(s) nəvəsi imam Hüseynə tərəf gəldi və Fars ənənəsinə əsasən öz əlini onun başına qoydu. Bunu razılıq əlaməti kimi qəbul edən Əli ibn ƏbuTalıb(ə) də üzünü oğlu Hüseynə tutub soruşdu:

- Ey Əba Abdullah,bu qadını özünə həyat yoldaşı etməyə razısanmı?

- Atayi mehriban,məsləhət sizindir! – deyə Hüseyn ibni Əli cavab verdi.

- Əgər seçimi mənə buraxırsansa, onda məsləhətimdir ki, bu qadını al və özünə həyat yoldaşı et,çünki o da sənin kimi Allahın sevdiyi bir ali nəsildən gəlir və qanı da səninki kimi ali və təmiz qandır. Onu həyat yoldaşı kimi qəbul etməklə əsla peşiman olmayacaqsan və bil ki, o sənə dünyada ən yaxşı insanı doğar! - deyə Əli bin Əbu Talib(ə) dedi. Bunu deməklə sanki Əli ibn ƏbuTalıb(ə) bu qadının Hüseynə Əli ibn Hüseyni(Səccadı) dünyaya gətirəcəyini və Hüseynin də onu “Üm-Vələd” adlandıracağını qabaqcadan bilirdi. Bundan sonra Ömər bin Xəttab III Yəzdigerdin qızlarından Mardavandı(Mərzbanunu) Məhəmməd peyğəmbərin nəvəsi və Hz.Əlinin böyük oğlu imam Həsənə bağışladı. Hər iki imam III Yəzdigerdin qızları ilə evləndilər və III Yəzdigerdin qızı olan Cahanşah imam Hüseynlə evləndi və onu Şəhrəbanu adlandırdılar. İmam Hüseyndən oğlu imam Səccad dünyaya

gəldi və o da onu imam Hüseyn öləndən sonra öz nökərlərindən birinə verdi.

Şəhrəbanu 680-cı ildə İmam Hüseynlə birlikdə əzablı ölümü seçib Kərbəla çölündə qəhrəmancasına şəhid oldu.O, İslam peyğəmbərinin nəvəsi olan İmam Hüseynin həyat yoldaşı, namusu, peyğəmbərin əmisi oğlu Əlinin gəlini və peyğəmbərin(s) nəticəsi Əli ibn Hüseynin (Səcadın) anası idi.

III Yəzdigerdin digər qızları olan Adrak isə digər peyğəmbər övladları ilə evləndirildilər.Lakin İran şahı III Yəzdigerdin oğlu Firuzun oğlu Narse Çin ordusunun köməyi ilə atasının intiqamını almaq üçün xilafətə hücum edib Bəlxi tutdu və bir müddət əlində saxladı. Lakin ərəblər yenə də Bəlxə hücum edib onu geri aldılar. Narse isə həmişəlik Çinə gedib izini itirdi. Sasanilərin son nümayəndələri isə uzun müddət Təbəristanda və Taleşan dağlarında gizləndilər.Ərəblər heç bir zaman onları özlərinə tabe edə bilmədilər.



***Şəhrəbanunun ölümü:*** Şəhrəbanunun ölümü haqqında olan ikinci rəvayətə görə imam Hüseyn Kərbəla döyüşündən əvvəl Şəhrəbanunu öz atı üstündə gizlicə İrana göndərir. Şəhrəbanu Rey şəhərinə çatanda düşmənlər onu tanıyıb tələyə saldılar və o geri çəkilərkən qayadan atla düşüb həlak olmuşdur. Əl-Məsudi III Yezdəgerdin iki oğlu və üç qızı haqda məlumat verir. Oğlanlar Bəhram və Firuz, qızlar isə Adraq,Şəhrəbanu və Mardanavand idi.

Belə ki bu bacılardan biri Hind hökmdarı olan Çandraquptanın arvadı olmuşdur. Şiə ənənəsinə görə Cahanşah(Şəhrəbanu) Mədinəyə əsir edilmiş dağlı qadınlarla bərabər gətirildi. Qadınların çoxu azad edildi, lakin onlardan ən gözəli saxlanıldı və o gözəl dağlı qızın adı Şirin idi və o, imam Zeynalabidinin dünyaya gəlməsindən az sonra azad edilmişdir. Şiə mənbələrdində qeyd olunur ki, imam Hüseyn Şəhrəbanu ilə evləndikdən sonra təsadüfən Şirini görür və üzünü Şəhrəbanuya tutub deyir:

- “Sizin bu dağlı qız çox gözəldir” və bunu eşidən Şəhrəbanu elə bilir ki, Hüseynin o dağlı qul qızdan xoşu gəlir. O səbəbdən də Hüseyndən o qızı niyə azad etmədiyini soruşduqda o da cavab verir ki, o “bizim övladımızın dayəsi olacaq”.Şəhrəbanunun mənbələrdə bir neçə adı olmuşdur ki, onlar da aşağıdakılardır: Şaharbānavayh, Şahzanān, Salama, Salāfa, Gazala, Sadira. III Yezdəgerdin 1-ci qızı xəlifə Ömərin böyük oğlu Abdulla ilə evləndi. (*Şəkil.Şəhrəbanunun Tehrandakı movzaleyi.)*

***4.Şəhrəbanunun şəcərəsi:*** Salam- oğlu Arfaksad, onun oğlu Sapquş,onun oğlu Kəyumərs, onun oğlu Suyamək,onun oğlu Hüşəng,onun oğlu Təhmurasp, onun oğlu Cəmşid.X əsr müsəlman tarixçisi Əl-Məsudi özünün “The Meadows” adlı tarixi əsərində yazır ki,Kəyumərs Ludun oğlu, Lud da Saamın oğlu idi. Başqa bir müsəlman tarixçisi olan Əl-Təbəri yazır ki, Lud Saamın oğlu,Caam da Farsın oğlu idi və Cəmşid İbrahim peyğəmbərin(s) həmdövrüdür. Bu da Cəmişidi Arfaksadın digər oğlu olan Salehin xətti ilə İbrahimin dördüncü əmisi oğlu edir. İran şahı Şapur Ərdəşirin oğludur və Saamın 22-ci nəslidir və III Yezdəgerd də Ərdəşirin 4 –cü nəslidir. Onun da 6-cı nəsli III Yezdəgerd olmuşdur və Şəhrəbanu da III

Yezdəgerdin qızı olmaqla Cəmşidin 33-cü və Samın 44-cü nəslindəndir.

***İslamı ilk könüllü qəbul edənlər.***Salman farsi,Tasuk və Fəlluca və Nəhreynin dehqanı – Camil Vaspuxrakzad, Bistam Narsezad – Tsuk, Fəllucə və Xutarniyənin dehqanı, Rufayl – Tasukun dehqanı, Firuz Yezdəgerdin oğlu – Nəhr Malik və Kusun dehqanı180). O,Kadusiya zamanı Rüstəmlə ərəb komandanı Zöhrə arasında danışıqlarda iştirak etmişdir.


Hörmüzd Fərrux
Rüstəm Fərruxzad
Bavəndi Fərruxzad
Hürzad(Şirzad) Fərruxzad
İsfəndiyar Fərruxzad
Bəhram Fərruxzad
Şahram Fərruxzad
Söhrab Fərruxzad
Nəvid Fərruxzad
Quzak Şadoxt

# V HİSSƏ. İŞĞALDAN SONRA. SÜLALƏLƏR

## 1.Bəhram şahın şəcərəsi

***Fərrux Hörmüzd,V Hörmüzd(هرمزد. خر.).***Fərrux Hörmüzd,sülalənin banisi və Sasanilər dövlətinin hökmdarlığına iddiaçı, onun hakimiyyət illəri 630-631-ci illəri əhatə edir. Fərrux Hörmüzd ? –ci ildə sasanilər dövlətinin Adərpayeqan mərzbanlığının Taleşan hakimliyində(bəzi mənbələrdə isə Təbəristanda) dünyaya gəlmişdir və Taleşan hakimi dəmirçi Vinduyənin(Vindəy) adlı oğludur. Onun həyat yoldaşı haqqında məlumat olmasa da, övladları haqda dəqiq məlumat mənbələrdə saxlanılmamışdır. Fərrux Hörmüzd İspəhbudan sülaləsinin nümayəndəsidir - onun iki oğlu və üç qızı olmuşdur və onlar aşağıdakılardır:

*Rüstəm Fərruxzad,Bavəndi Fərruxzad, qızları - Astin Fərruxdoxt,Asterin Fərruxdoxt və Barzana Fərruxdoxt.*Fərrux Hörmüzd 631-ci ildə Sasanilər imperiyasının Adərpayeqan mərzbanlığında vəfat etmiş və məzar yeri bilinmir.

Fərrux Hörmüz — Atropatena knyazı, İspahbudan sülaləsinin nümayəndəsi, sipəhsalar və Vistəhmin ölümündən sonra onun torpaqlarına hakimlik edirdi. 628-ci ildə II Xosrovu devirərək yerinə II Qubadı gətirmişdi və II Qubadın I İrakli ilə bağladığı sülhə əsasən Fərrux Hörmüz müstəqil Adərpayeqan hökmdarı olmuşdu. II Qubad 628-ci ildə yoluxucu xəstəlikdən vəfat etmiş, yerinə III Ərdəşir keçmişdi. Bunu fürsət bilən Fərruxan Şəhrvəraz bir il sonra Ktesifonu ələ keçirmiş və özünü şahənşah elan etmişdi.



Şəhrvərazı özünə təhlükə görən Fərrux 40 gün sonra, tacqoyma mərasimində atdığı nizə ilə şahı öldürmüş, yerinə II Xosrovun qızı Borandoxtu gətir mişdi.Lakin Fərrux öz torpaqlarına qayıdan kimi Borandoxt Şəhrvərazın oğlu, özünü V Şapur adı ilə şah elan etmiş Şapur Şəhrvəraz tərəfindən devrilmişdi. O da öz növbəsində vəzir Firuz Xosrov tərəfindən devrilmiş, yerinə *Borandoxtun* bacısı *Azarmedoxt* gətirilmişdi.

***Ölümü:*** Fərrux bundan sonra özü şahlıq iddiasına düşdü və özünü "İranın sütunu" elan etdi və V Hörmüz adı ilə pul zərb elətdirdi. 1 il sonra Azaredoxtun tapşırığı ilə Bəhram Çubinin nəvəsi Siyavuş Mehrani tərəfindən öldürüldü və yerinə oğlu Rüstəm Fərruxzad gəldi.(189)



### ***2.Rüstəm Fərruxzad (رستمفرّخزاد)***

— İspəhbudan sülaləsinin nümayəndəsi, Sasani dövlət xadimidir və 634-cü ildən İran ordularının ali baş komandanı. O, ?-ci ildə Sasanilər imperiyasıın Adərpayeqan mərzbanlığında dünyaya gəlmiş və 636-cı ildə ərəblərlə

189.Bax: Təbəri,3, c.I, s.250.

İran arasında baş vermiş Kadusiyə döyüşündə müəmmalı şəkildə şəhid olmuşdur.

Fərrux Hörmüzün 631-ci ildə öldürülməsindən sonra Atropatena və Xorasan sipəhsaları olmuşdu. Atasının intiqamını almaq üçün Ktesifonu ələ keçirmiş, Azardoxdu öldürərək yerinə Borandoxtu gətirmişdi. Borandoxtun ölümü, III Yezdəgirdin taxta çıxması ilə yenidən hakimiyyətə tabe olmuşdu. Ərəblərin İranı işğalı dövründə Ktesifonun idarəsi ona tapşırılmış, 634-cü ildə “Körpü” döyüşündə Sasani ordusu qələbə çalsa da, Ktesifonda üsyanı yatırmağa məcbur olmuşdu. 636-cı ildə Yezdəgirdin əmrilə ərəblərə hücum etməyə məcbur olan Rüstəm, strateji olaraq uyğun görmədiyi bu döyüşdə iştirak üçün İraqa getdi. Qardaşı Bavəndi Fərruxzada yazdığı məktubda Adərpayeqana getməsini əmr edir, Yezdəgirdi qorumasını tapşırırdı. Əl-Qadisiyyə yaxınlığında Ömər ibn Xəttabın ordusu ilə qarşılaşan Rüstəm havanın qumlu və toz fırtınalı olmasından istifadə edib ordunun içlərinə qədər səssizcə daxil oldu. Lakin Hilal ibn Ülafəyə arxadan yaxınlaşarkən Hilalın dəvəsi qorxdu və üstündəki ağır silahları yerə atdı. Rüstəm silahların altında qalaraq iflic oldu və Hilal sevincək onun başını kəsdi. Sasani ordusu bundan qorxaraq pərən-pərən düşdü(190)

***3.Bavəndi Fərruxzad.*** Bavəndi Fərruxzad(فرخزاد), *Sasanilər*dövründə Adərpayeqan və Xorasan sipahbədi idi. Bavəndi Fərruxzad Sasani dövlət xadimi,sərkərdə, Fərrux Hörmüzdün ikinci oğlu və Təbəristanda qurulmuş İspəhbudan sülaləsinin banisi və I şahıdır. O, Kadusiya döyüşünün

---------------

190 Bax: 7,c.III,s.33.

iştirakçısı və Calulə döpyüşündə İran ordu komandanı olmuşdur. Bavəndi Fərruxzad İran ordu komandanı Rüstəm Fərruxzadın kiçik qardaşıdır. O, ?-ci ildə Sasani imperiyasının Təbəristan əyalətində dünyaya gəlmiş və Kadusiya və Calulə döyüşündən sonra öz oğlanları olan İsfəndiyar Fərruxzad, Bəhram Fərruxzad, Şahram Fərruxzad, Söhrab Fərruxzad və Fərruxan Fərruxzadla geriyə- vətənə qayıtmışdır. Sonra isə Bavəndi 650-ci ildə vətəni Təbəristana qayıtmış, orada Bavəndilər sülaləsini qurmuş və onun I şahı olmuşdur. Cəlula döyüşündə Sasani ordusuna başçılıq etmiş və məğlub olmuşdu. Daha sonra Bəhram Çubinin nəvəsi Siyavuş Mehranini məğlub edərək Təbəristanı ələ keçirmiş və öz şahlığını elan etmişdir. 665-ci ildə Valaxş Karen tərəfindən öldürülmüşdür və Valaxş Karen onun yerinə keçib Təbəristanın II şahı olmuşdur.

***Ailəsi:****Bavəndi Fərruxzadın 5 oğlu və bir qızı olmuşdur.*

*1.ŞahramFərruxzad*

*2.I Söhrab Fərruxzad - Təbəristan şahı*

*3.İsfəndiyarFərruxzad - Azərbaycan mərzbanı*

*4.BəhramFərruxzad – Taleşanın və Mukanın hakimi 644-cü ilə qədər*

*5.FərruxanFərruxzad və Şəbnəm Şadoxt*

*İstinadlar:* (191).

***3/1.Şəhram Fərruxzad.***Şahram Fərruxzad,Sasani dövlət xadimi,sərkərdəsi və bavəndi Fərruxzadın böyük oğludur və mənbələrdə, ümumiyyətlə, Şahram haqqında az məlumat var. Şahram 636-cı ildə atası və qardaşları ilə birlikdə Kadisiya döyüşündə Sasani ordusu tərkibində vuruşmuş, lakin 638-ci ildə İranın paytaxtı Mədain şəhərinin ərəblər tərəfindən

---

191.Bax: Təbəri,3, c.IV, s.154.

tutulmasından sonra müqavimətin mənasız olduğunu görüb atası tərəfindən Xorasan göndərilmişdir. Şahramın ölüm tarixi və ölüm yeri məlum deyil, amma ehtimal ki, o, ərəblərdən qaçan sonuncu Sasani hökmüdarı III Yezdəgerdə qoşulmuşdur.

***3/2.I Söhrab Fərruxzad.I Söhrab(سرخاب اول ),***Sasani dövlət xadimi, İspəhbudan sülaləsinin nümayəndəsi - ordu sərkərdəsidir və Bavəndi Fərruxzadın ikinci oğludur.

I Söhrab 636-cı ildə atası və qardaşları ilə bərabər Kadisiya döyüşündə iştirak etmişdir, sonra isə 638-ci ildə Mədain şəhərinin müdafiəsində iştirak etmiş,lakin müdafiənin mənasız olduğunu görüb atası və qardaşları ilə vətənə qayıtmışdır. Yolda ikən, Həmədan yaxınlığında atası Bavəndi ona Həmədanda qalmağı və ərəblərə müqavimət göstərməyi tapşırmışdır, onun yerinə isə ondan kiçik oğlu Fərruxan Fərruxzadı Təbəristan taxtına əyləşdirmişdir. I Söhrab bir müddət Həmədanda qalıb ərəblərə müqavimət göstərsə də, atasının Valax - Karen tərəfindən öldürülüb taxtını ələ keçirməsinə dözməyib öz dəstəsi ilə Təbəristana qayıtmış və 672-ci ildə onu öldürmüşdür.Belə ki Söhrab 673-cü ildən 717-ci ilə qədər Təbəristanın III şahı olaraq I Söhrab adı ilə hökmdarlıq etmişdir, lakin o,717-ci ildə vəfat etmiş və yerinə Valaxş(Balaş) Karen gəlmişdir. I Söhrabın də doğum tarixi haqda mənbələrdə məlumat olmasa da, o, 717 –ci ildə Təbəristanın Fərim adlı məntəqəsində vəfat etmişdir.I Söhrabın Mehr Mərdan adlı oğlu olmuşdur və ondan sonra Mehr Mərdan onun yerinə keçmiş və Fərimdə saray ucaltdırmışdı.(193).

192.Bax: Əl-Bəlazuri, görünür burada odpərəstlərin Zərdüşt qanunları ilə qardaşın bacıya evlənməsi,habelə ildə bir dəfə qarışıq nikah keçirilməsi kimi ayinları nəzərdə tutub.

***3/3.İsfəndiyar Fərruxzad.*** İsfəndiyar Fərruxzad Bavəndi Fərruxzadın 3-cü oğlu, Sasani dövlət xadimi - ordu sərkərdəsi və 639-cu ilə qədər sasanilərin Adərbayqan əyalətinin mərzbanı olmuşdur. Nəhavənd döyüşündən sonra isə ərəblər baş şəhər Ərdəbil üzərinə gələrək, ölkəni tabe etməyə girişdilər. Ərdəbildən bir qədər aralı, Cərmidan dağı yanında İsfəndiyarın hələ yaxşı möhkəmlənə bilməmiş dəstələri onları qarşıladı. Mənbələrin məlumatına görə, bu, Bukeyrin Adərbayqan ərazisində azərbaycanlılarla ilk toqquşması idi. Bir neçə gün davam edən qanlı döyüş ərəblərin qələbəsilə başa çatır və İsfəndiyar özü isə əsir düşür. Mənbələrə görə, mərzban İsfəndiyar qardaşı Bəhramla birlikdə güclü müqavimət göstərdi. Dirənmə uzun çəkdi, Bukeyr və Utba adlı ərəb sərkərdələrinin qoşunları da buraya yeridildi. Mərzban basılıb barışığa gəldi. İsfəndiyar sərkərdə Bukeyrə "əgər məni öldürsəniz, bütün Azərbaycan mənim intiqamımı alacaq" demişdi. Adərbayqan əhalisi tabe olub torpaq və can vergisi ödəməyi, "hər kişi" bir ərəb əsgərini evində saxlamağı üzərinə götürdü. Ərəb qoşunu buradan Muğana yollandı, ancaq Adərbayqan əhalisi üsyana qalxıb bağlaşmanı yerinə yetirməkdən boyun qaçırdı. Ərəblərə qarşı onun müqaviməti haqqında mənbələrdə qeydlər var və qaynaqlarda yazılır ki, Adərbayqan qoşunlarına mərzban İsfəndiyar ibn Fərruxzad komandanlıq edirdi. O, Bacrəvan, Meymənd, Nariz, Şiz, Məyanic və digər yerlərin əhalisindən Ərdəbildə böyük qoşun toplayıb ərəblərlə vuruşmağa girişdi.Vuruşma bir neçə gün davam etdi və ərəblərin qələbəsi ilə sona çatdı(193). 646-cı ildə əl-Valid ibn Ukbanın başçılığı ilə buraya müqaviləyə görə əhali ərəblərə ildə 800 dirhəm vergi ödənilməli idi. Lakin, ərəblər İsfəndiyarı vəzifəsindən uzaqlaşdırdılar, yerinə isə ərəb

193.Bax: Ət-təbəri I,2661

valisi təyin olundu. Bəlazuri isə yazır ki, "hicri 18-ci ildə Xuzeyfə ibn əl-Yəmən Azərbaycanı dinc yol ilə istila edib, Azərbaycan əhalisi adından hərəkət edən Azərbaycan mərzbanı ilə müqavilə bağlamışdır. Şiz əhalisinin öz bayramlarında rəqs etməsinə və (keçmişdə) icra etdikləri hər işi açıq görmələrinə mane olmasınlar. Bundan sonra xəlifə Ömər, Xuzeyfə ibn əl-Yəməni vəzifəsindən götürdü və Utbə ibn Farkadı Adərbayqana canişin təyin etdi. Lakin ərəb qoşunları Adərpayeqandan gedəndən sonra ölkənin əhalisi hicri 24 (644-645)-cü ildə üsyan qaldırıb,müsəlmanların onlarla bağladıqları sülh şərtlərinə əməl etməkdən boyun qaçırdılar(194).

***3/4.Bəhram Fərruxzad.*** Bəhram Fərruxzad, Sasani dövlət xadimi,ordu komandanı və sasanilərin Adərpayeqan mərzbanlığına daxil olan Mukan və Taleşan kustakının hakimi.

Bəhram Fərruxzad ? –ci ildə Sasani imperiyasının Adərbayqan mərzbanlığının Taleşan hakimliyində dünyaya gəlmişdir. Bəhram Fərruxzad - Bəhram Bavəndi Fərruxzadın 4-cü oğludur və İspəhbudan sülaləsindəndir.

636-cı ildə Bəhram digər qardaşı İsfəndiyarla Mədainə gedib öz əmiləri olan Rüstəm Fərruxzadla Sasanilər tərəfdən vuruşmuşlar. Lakin sasanilərin məğlubiyyətindən sonra o öz dəstəsi və qardaşı ilə birgə vətənə qayıdaraq məhz Kinan qalasını tikdirməyi əmr etmişdir.O bu qalanı tikməyi Fərhada tapşırmışdır və qısa müdətə bu qalanı Babər qalasından 1 km cənubda,Vazarü(Lənkərançay) çayının cənub tərəfində,Talış dağlarının ətəyində tikir.Qalanın tikintisində qalaya yaxın olan Kusər obasının əhalisi və ustaları iştirak etmişlər. Qala

194. Bax: Ət-Təbəri.yenə orda 326.

tikiləndən sonra Bəhram oraya öz bacısı Şəbnəm Şadoxtu,qızı Xodak Şadoxtu, həyat yoldaşı Ruhəngiz Şahzanı, Rudəsər qalasının sərkərdəsi Siruzun Vindadın həyat yoldaşı Astin və qızı Mardana, İsfəndiyar Fərruxzadın anası Ruyan Şadoxtu məhz bu qalada yerləşdirmişdir. Qalanın müdafiəsinə isə dəmirçi Peroz, Bəhramın oğlu Nəvid və onun kiçik dəstəsi başçılıq etmişdir. Lakin Ərəblər sərkərdə Bukeyir ibn Abdullah və Salman ibn Rəbiyyənin başçılığı ilə 642-ci il,27 iyun- tarixində Babər qalasına hücuma keçmiş və mühasirə 5 iyul tarixinə qədər davam etmişdir.

Qalanı ilk hücumda ala bilməyən Bukeyir ibn Abdullah casuslar vasitəsi ilə öyrənir ki, Bəhramın və digər əsilzadələrin ailələri məhz Kinan qalasında yerləşir və elə bu səbəbdən də oraya hücuma keçir. Lakin qalanı kiçik bir dəstə ilə müdafiə edən dəmirçi Peroz tez Fərhadı Babər qalasına- Bəhramın yanına kömək üçün göndərir. Xəbəri eşidən kimi Bəhram çayı keçib qalaya yaxınlaşır və qızğın döyüşlərdə Bəharamın bir neçə yaxın sərkərdələri şəhid olurlar. Lakin ərəblər qalanı tutmamışdan əvvəl Bəhram oradan yalnız öz bacısı Şəbnəm Şadoxtu xilas edə bilir və onu dəmirçi Perozla Mistana yola salır.

Ərəblər qala ilə bərabər bütün qadınları və Bəhramın özü də daxil olmaqla bütün ailəsini ələ keçirirlər,yalnız Bəhram ərəblərlə müqavilə imzaladıqdan sonra onları azad edirlər.Qalanın giriş hissəsini isə ərəblər mancanaq vasitəsi ilə dağıdırlar.Lakin zaman-zaman sonra bu dağıntılar genişlənmişdir(195). Bəhram Fərruxzad 643-cü il-26 iyul tarixində sasanilər imperiyasının Taleşan hakimliyindən Şirvana gedərkən Xəzərin cənub-qərb sahili, Ver çayının sol tərəfində, Şah-i Şəhid adlı yerdə ərəb sərkərdəsi Bukeyir bin

195.Bax: Fuad İzzət oğlu Nurullayev.Azərbaycana islamiyyətin gəlişi.səh.7.10.

Abdullanın pusqusuna düşmüş və şəhid olmuşdur.Bəhram Fərruxzadın 2 övladı olmuşdur (1 oğlan,1 qız).Oğlunun adı Nəvid,qızı Xonak, həyat yoldaşının adı isə Ruhəngiz olmuşdur. Bəhram şəhid olandan sonra onun bütün ailə üzvləri ərəblər tərəfindən qula çevrilib Mədinə şəhərinə göndərilmişdilər. Bəhramın qəbri Azərbaycan Respublikasının Lənkəran rayonunun Veravil-Cil kəndləri arasında yerləşən “Şah-i Şəhid” adlı yerdədir. Uzun illər keçsə də, talışlar onun qəbrini müqəddəs aylarda yad və ziyarət edirlər.

***4. Ali Mehran ailəsi.*** 1.Ali mehran ailəsi İrnanda mövcud olmuş Sasanilər sülaləsinə daxil olan qüdrətli ailələrdən biri omuşdur.Lakin Mehran ailəsinin bir qolu Arşakilərdən gəlir. Belə ki Mehrannilər sülaləsi Qafqaz Albaniyasında Girdiman dövlətində və Karti çarlığında Xosrovula adı ilə hökmdarlıq etmişdir. Mehranilər sülaləsinin adı ilk dəfə bizim eranın 3 –cü əsrində İran şahı I Şapurun “Kəbəyi Zərdüşt” qayasında rast gəlinir (190). Belə ki Mehranilər ilk vaxtlar Rey şəhərini idarə etmişlər. Lakin Mehranilər ailəsinin bir neçə üzvü Roma-İran müharibəsində general vəzifələrində vuruşaraq xüsusi rəşadət göstərmişlər. Bu səbəbdən də Roma –Yunan mənbələrində Mehran və ya “Mirravnik, Şmirranes” kimi qeyd olunur, lakin Prokopi özünün “Müharibələrin tarixi” kitabında isə Mehranı general kimi təqdim edir(196)

***5. Ali Bavəndi sülaləsi. 1.Bavəndilər sülaləsi.***Bavəndilər sülaləsi VII əsrin əvvəllərində İranın Xəzər sahillərində olmuş sülalə. Sülalə öz adını Bavın(Bavəndi Fərruxzadın) adından götürmüşdür və Bavəndi Fərruxzad Bəhram Fərruxzadın atasıdır. Belə ki sülalənin əsasını 643-cü il 26 iyulda Bəhramın

196.Bax: Ət-Təbəri, I, 2666; əl-Bəlazuri, 326; İbn əl-Əsir, III, 22.

Şahi-şəhiddə qətl olunandan sonra onun vəsiyyətinə əsasən Təbəristana getmiş arvadı Ruhəngiz və qızı Xonak qoymuşdur. Onlar orada daima ərəblərə qarşı mübarizəni davam etdirmişlər. Bav-Sasani şahı I Cavadın böyük oğlu Kavusun oğludur. Əfsanəyə görə Kavus birbaşa taxta varis oduğuna baxmayaraq Məzdək üsyanı ilə əlaqəsi üzə çıxarılmış və və varislik hüququndan məhrum edilmişdir. Lakin o, Sasanilərin şimal mərzbanlığına daxil olan Adərbayqan, Kumns, Gilan,Taleşan və Təbəristan əyalətinə daxil olan Padişxarvarqar əyalətinin qubernatoru olmuşdur. Sasanilərin dağılmasından sonra İranda ərəb ağalığı dövründə də bavın övladları Xəzər dənizi sahilndə yerləşən əyalətlərə hakimlik etmişlər. Bavın övladları ilk öncə atəşpərəstliyə,sonra isə islama sitayiş etmişlər. Belə ki Bavın övladları Zeydizmi-şiəliyi müdafiə etmişlər və Bavəndilər sülaləsinin nümayəndələri ələvilərin, Iəl-utruş sülaləsini müdafiə etmişlər. Onlar şiələrə xilafətə qarşı vuruşmaqda dəstək vermişlər. Lakin mənbələrin bəzi məlumatıarına görə bavəndilər şiələrdən yalnız öz planları üçün istifadə etmişlər. Bavəndilərin xəzər sahili Deyləm,Təbəristan və Talışdakı hakimiyyətləri monqol işğalına qədər mövcud olmuşdur, lakin 1350-ci ildə onlar dağıdılmıışlar. Belə ki Calavi sülaləsindən olan Əfrasiyab Bavəndi Fəxrroxzad Həsəni öldürdü. Sülalənin hökmranlığı tarixi 565-1349-cu illər arası olmuşdur və bu üç dövrə bölünür:

***1/1.İspabid dövrü(565-1028).*** Bu dövr müstəqillik dövrü olmuşdur.Lakin sonuncu ispahbud 1028-də ölmüş və bu dövr dayanmışdır.

***1/2.Dağlar krallığı(1062-1210)***. Belə ki 1062-ci ildə şahzadə Bavandi sülaləsini diriltdi və “Dağlar kralı” adlanır. Bu dövrdə hakimlik düzənlikdən Taleşan dağlarına daşınmışdır. Bunların ən uca xaqanı Şah qazi Rüstəm olmuşdur. Bu sülalə 1210-cu

ilə qədər davam etmişdir və onları İsmaillilər sülaləsi yıxmışdır.

***1/3.Paduşani dövrü(1242-1349).*** Bu dövr monqolların yürüşü zamanı sülalənin ayrı qolu 1240-cı ildən 1349-cu ilə qədər davam etmiş.Sonra isə bu sülalə sasanilər nəslinin qalıqları olan Paduşani adlı tayfa ilə qarışmış və bu sülalə Alamdə -Kocurda –Ruyanda hökm etmiş, belə ki üçüncü dövrdə sasani Bavandilər Paduşan ərazisini tutmuşlar(197).

## *2.Sülalənin hökmdarları*

Rüstəmin ölümündən sonra ərəblər bütün İranı və onun əyalətlərini tutdular. Lakin Rüstəmin qardaşı Bavəndi Fərruxzad və onun oğlanları olan İsfəndiyar və Bəhram isə mübarizəni davam etdirirdilər. Belə ki 639-cu ildə İsfəndiyarın ərəblər tərəfindən əsir alınmasından sonra ərəb sərkərdəsi Bukeyir bin Abdulla onunla müqavilə bağladı. Lakin Bavəndi Fərruxzadın digər oğlu olan Bəhram Fərruxzad isə bununla barışmayaraq dağlara çəkildi və 639-cu ildən 643-cüilədək üsyan qaldırdı. Bu üsyan 643-cü ilə qədər davam etdi. Belə ki Taleşan dağlarında ərəblərə dörd il müqavimət göstərən Bəhram Fərruxzad 643-cü il iyun ayının 27-də Talışın Şah-i Şəhid adlı yerində pusquya düşürülüb şəhid edildi. Bəhramın şəhid olmasından sonra onun ailəsi əsir edildi və qula çevrilərək Mədinə şəhərinə aparılıb qul bazarında satıldı,üsyana dəstək verən yerli məmurların qadınları isə

---

197. Bax: Əl-Bəluzari.səh.325-326.

qılıncdan keçirilib “kafir “ adı ilə Astara rayonu ərazisində

kütləvi məzarlıqda heyvan kimi dəfn edildilər. Belə ki bu yer xalq arasında indi də “həmə jen” qəbiristanlığı adlanır ki,bunun da tərcüməsi “hamısı qadın” deməkdir.Bəhramın ölümündən sonra Fərruxzad sülaləsinin davamçıları onun atası Bavəndi Frruxzad oldu. O, Təbəristana gəlib hakimiyyəti ələ aldı və oranın ilk hökmdarı oldu. Lakin Valaxş Karin onu öldürüb taxtı ələ keçirdi.Bunu eşidən Bəhramın qardaşı Söhrab Fərruxzad Təbəristana hücum edib Karini taxtdan endirdi və orada Fərruxzad ailəsinin hakimiyyətini bərpa etdi. Fərruxzad sülaləsi Təbəristanda öz hakimiyyətini qorumaq üçün zahirən islamı qəbul etdilər və 651-ci ildən 1349-cu ilə qədər hakimiyyətdə oldular.Fərruxzad ailəsinin Təbəristandakı hakimiyyəti 3 tarixi sülalə dövrünə bölünür. Bunlar Kayusiyyə, İspbəhpədiyyə və Kinəxavəriyyə adlanır və bu sülalənin nümayəndələri aşağıdakılardır:

***1.Bavəndilər sülaləsi(651-1349)***

***1/1.Kayusiyyə sülaləsi(651-1074) – 22 hökmdar.***

*1.Fərruxzad (651–665)*
*2.Valaş (usurpator, 665–688)*
*3.Surxab I (688–717)*
*4.Mehr Mərdan (717–755)*
*5.Surxab II (755–772)*
*6.Şirvin I (772–817)*
*7.Şəhriyar I (817–825)*
*8.Şapur (825)*

*9.Rule by the Karenid Məzyar (825-839)*
*10.Qarin I (839–867)*
*11.Rüstəm I (867–895)*
*12.Şirvin II (896–930)*
*13.Şəhriyar II (930–964)*
*14.Rüstəm II (964–979)*
*15.Əl-Mərziban (979–986)*
*16.Şirvin III (986)*
*17.Sahriyar III (986-987)*
*18.Əl-Mərziban (987–998)*
*19.Sahriyar III (998)*
*20.Əl-Mərziban (998-1006)*
*21.Əbu Cəfər Məhəmməd (???-1027)*
*22.Qarin II (1057-1074)*

***1/2.İspəhbədhiyyə sülaləsi(1074-1141)- 8 hökmdar.***

*1.Şəhriyar IV (1074–1114)*
*2.Qarin III (1114–1117)*
*3.Rüstəm III (1117–1118)*
*4.Əli I (1118–1142)*
*5.Şah Qazi Rüstəm IV (1142–1165)*
*6.I Həsən (1165–1173)*
*7.I Ərdəşir (1173–1205)*
*8.V Rüstəm (1205–1210)*

***1/3.Kinxavəriyyə sülaləsi(1238-1249) - 8 hökmdar.***

*1.II Ərdəşir (1238–1249)*
*2.Məhəmməd (1249–1271)*
*3.II Əli (1271)*
*4.Yəzdəgird (1271–1300)*

*5.V Şəhriyar (1300–1310)*
*6.Key Xosrov ibn Yəzdəgird (1310–1328)*
*7.Şərəfülmülk (1328-1334)*
*8.II Həsən (1334–1349)*

Ümumilikdə Bəhram Fərruxzadın nəslinin nümayəndələri Təbəristanda islamı qəbul edib 651-ci ildən1349-cu ilə qədər hakimiyyətdə olmuş və 3 sülalədən 38 hökmdarı olmuşdur.Aşağıda isə bu hər üç sülalənin hökmdarları haqda məlumatı veririk.

### *1/1.Kayusiyyə sülaləsi (651-1074)*

***Bu sülalənin 22 hökmdaarı olmuşdur,656-1074-cü illəri əhatə edir.***

***1.Fərruxzad Bavəndi*** (651-665) — Sasani generalı, Bavəndilər sülaləsinin banisi, Fərrux Hörmüzün ikinci oğlu.

- ***İlkinhəyatı.***Sasanilər dövründə Atropatena və Xorasan sipahbədi idi. Cəlulə döyüşündə Sasani ordusuna başçılıq etmiş və məğlub olmuşdu. Daha sonra Bəhram Çubinin nəvəsi SiyavuşMehranini məğlub edərək Təbəristanı ələ keçirmiş və öz şahlığını elan etmişdir. 665-ci ildə Valaxş Karen tərəfindən öldürülmüşdür.

***Ailəsi.-*** *5 oğlu olmuşdur:*
*Şahrəm Fərruxzad – Xorasan hakimi.*
*I Söhrab Fərruxzad - Təbəristan şahı*
*İsfəndiyar Fərruxzad - Azərbaycan mərzbanı*
*Bəhram Fərruxzad – Taleşan və Mukan hakimi.*
*Fərruxan Fərruxzad – Təbəristan ordu komandanı.*

***2.Valaxş Karen(ولا شـ كارز وز ـد )*** — Sasani generalı, Karen sülaləsinin nümayəndəsi.

***İlkin həyatı.***Məşhur Karen sülaləsindən olub Azər Valaxşın nəvəsi idi. ***665***-ci ildə Təbəristanı işğal edərək Fərruxzad Bavəndini öldürmüşdü. Fərruxzadın oğlu Söhrab Mazandarana qaçaraq 673-cü ildə Təbəristana qayıtmış və atasının intiqamını almışdı(198)

***3.I Söhrab Fərruxzad. I Söhrab(سرخابِ اول)***,Sasani dövlət xadimi və ordu sərkərdəsi.Söhrab Fərruxzad - Bavəndi Fərruxadın ikinci oğludur və 636-cı ildə atası və qardaşları ilə bərabər Kadisiya döyüşündə iştirak etmişdir.Sonra isə o, 638-ci ildə Mədain şəhərinin müdafiəsində iştirak etmiş,lakin müdafiənin mənasız olduğunu görüb atası və qardaşları ilə vətənə qayıtmışdır.Lakin Həmədan yaxınlığında atası Bavəndinin göstərişilə Həmədanda qalmış və ərəblərə müqavimət göstərmişdir. Onun yerinə isə ondan kiçik oğlu Fərruxan Fərruxzadı Təbəristan taxtına əyləşdirmişdir ki,bu da Söhrabla atası arasında düşmənçilik yaratmışdır. O, bir müddət Həmədanda qalıb ərəblərə müqavimət göstərsə də, atasının Valax Karen tərəfindən öldürülüb taxtını ələ keçirməsinə dözməyib öz dəstəsi ilə Təbəristana qayıtmış və 672-ci ildə onu öldürmüşdür. Belə ki Söhrab 673-cü ildən 717-ci ilə qədər Təbəristanın III şahı olaraq I Söhrab adı ilə hökmdarlıq etmişdir. Lakin o,717-ci ildə vəfat etmiş və yerinə Valaxş(Balaş) Karin gəlmişdir. I Söhrabın də doğum tarixi haqda mənbələrdə məlumat olmasa da, o, 717 –ci ildə Təbərfistanın Fərim adlı məntəqəsində vəfat etmişdir. I Söhrab

198.Bax: Əl-Bəluzari.səh.325-326..

da əcdadları kimi İspəhbudan sülaləsinin nümayəndəsi idi və öz şəxsi çıxarları üçün islamı qəbul etmişdi.I Söhrabın Mehr Mərdan adlı oğlu olmuşdur və ondan sonra Mehr Mərdan onun yerinə keçmiş və Fərimdə saray ucaltdırmışdı(199)(200).

***4.Mehr Mərdan(مهرمردان )(717-755).***Mehr Mərdan Təbəristanın Kayusiyyə sülaləsinin IV şahı.

*Sələfi: I Söhrab*
*Xələfi: II Söhrab*
*Doğum tarixi: Bilinmir*
*Doğum yeri: ?*
*Vəfat tarixi: 755*
*Vəfat yeri: Fərim, Təbəristan*
*Sülalə: Bavəndilər sülaləsi*
*Atası: I Söhrab*
*Uşağı: II Söhrab(203)*

O, 717-ci ildən 750 –ci ilə qədər hakimiyyətdə olmuşdur. Mehr Mərdanın doğum tarixi bilinmir və o 755-ci ildə Təbəristanın Fərim adlı yerində vəfat etmişdir və onun xələfi I Söhrab,sələfi isə II Söhrab olmuşdur.

---

201. Bax: Pourshariati, Parvaneh (2008). Decline and Fall of the Sasanian Empire: The Sasanian-Parthian Confederacy and the Arab Conquest of Iran. London and New York: I.B. Tauris. ISBN 978-1-84511-645-3.)
202. Bax: Pourshariati, Parvaneh (2008). Decline and Fall of the Sasanian Empire: The Sasanian-Parthian.Confederacy and the Arab Conquest of Iran. London and New York: I.B. Tauris. ISBN 978-1-84511-645-)(Bax: Madelung, W. (1984)."ĀL-E BĀVAND (BAVANDIDS)".Encyclopaedia Iranica, Cild. I, Fasc. 7. Londonu.a.: Routledge & Kegan Paul. səh. 747–753. ISBN 90-04-08114-3..
203 Bax: Gərmab –fars.qaynar su,Qamov-tal.qaynar su.

***5.II Söhrab(سهراب)(755-772).***Təbəristanın Kayusiyyə sülaləsinin V şahı.O,755-ci ildən 773 –ci illərə qədər hakimiyyətdə olmuşdur. II Söhrabın doğum tarixi bilinmir və o, 755-ci ildə Təbəristanın Fərim adlı yerində vəfat etmişdir.Söhrab Təbəristanı Dabuyilərin vassalı olaraq idarə edirdi və Xurşid Dabuyinin ölümündən sonra Söhrab da müstəqil olmuşdu. Söhrab bundan sonra Abbasilərə tabe olmuşdur.

*Sələfi: Mehr Mərdan*
*Xələfi: I Şərvin*
*Doğum tarixi: Bilinmir*
*Doğum yeri: ?*
*Vəfat tarixi: 772*
*Vəfat yeri: Fərim, Təbəristan*
*Sülalə: Bavəndilər sülaləsi*
*Atası: Mehr Mərdan*
*Uşağı: I Sərvin*(204)
.

***6.Şərvin Bavəndi(شروین ) — Təbəristanın Kəyusiyyə sülaləsindən VI şahı. şahı.***

***Hakimiyyəti:*** II Söhrabın 772-ci ildə ölümündən sonra yerinə oğlu Şərvin keçmişdi. Elə həmən il Şərvin Təbəristan valisi Xalid ibn Bərməkin getməsindən istifadə edən Vəndad Hörmüzdlə birlikdə Abbasilərə qarşı üsyana başladı. Onların orduları müsəlman şəhərlərini yandırır, əhalini sürgün edirdi. 10 il sonra artıq Təbəristanda heç müsəlman qalmamışdı. Şərvin bundan sonra Padəşvərgərşah Dağların şahı) titulunu qəbul etmişdi.

205.Bax: Bəluzari, mətn,s.264;ingl.tərcümə,t.1,s.420;

titulunu qəbul etmişdi. 785-ci ildə yenidən Abbasilərə tabe olmuşdu. 805-ci ildə Harun əl-Rəşidin Rey şəhərini ziyarətindən sonra Şərvinin nəvəsi I Şəhriyar Bağdada girov kimi getmişdi və Şərvin 817-ci ildə vəfat etdi.

*Sələfi: II Söhrab*
*Xələfi: I Şəhriyar*
*Doğum tarixi: Bilinmir*
*Doğum yeri: ?*
*Vəfat tarixi: 817*
*Vəfat yeri: Fərim, Təbəristan*
*Sülalə: Bavəndilər sülaləsi*
*Atası: II Söhrab*
*Uşağı: Qarin*(205).

***7.Şəhriyar I (817–825).***IŞəhriyar,Təbəristanın Kayyusiyyə sülaləsindən olan VII hökmdarı.O,817-825-ci illərdə hakimiyyətdə olmuşdur.Onun doğum yeri,doğum tarixi,vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***8.Şapur (825).***Şapur(Şavir), Təbəristanın Kayyusiyyə sülaləsindən olan VIII hökmdarı və o, 825-ci ildə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi,vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***9.Əbülhəsən Məhəmməd Məzyar ibn Karin*** *(d. ? - ö.839)* — Təbəristanda hökm sürən Karinilər sülaləsi hökmdarı (817-839).

*Sələfi: I Şapur*
*Xələfi: I Şəhriyar*

*Doğum tarixi: IX əsr*
*Doğum yeri: Təbəristan,İran*
*Vəfat tarixi: 839*
*Vəfat yeri: Səmərra, Səlahəddin, İraq*
*Sülalə: Karnilər sülaləsi*




***Həyatı:*** Atası Karinin ölümündən (ehtimalən 816/817) sonra hökmdar oldu. Taxta çıxdığında Karinilər xanədanının sahib olduğu torpaqlar Bavəndilərin hücumları üzündən olduqca kiçilmişdi. Nəhayət, Məzyar, Bavəndi hökmdarı Şəhriyar ibn Şirvin ilə apardığı savaşda məğlub olunca ölkəsini bütövlükdə itirdi. Əmisinin oğlu Vəndad Ümmidə sığınan Məzyar, Bavəndi hökmdarına təslim edilərək həbs olundu. İbn İsfəndiyara görə Məzyar bir bəhanə ilə İraqa gəldi və Bağdadda Xəlifə Məmunun hüzuruna çıxmağı bacardı . Təbəri isə 816/817-ci ildə Deyləmdə və Təbəristanın dağlıq bölgələrində zəfərlər qazanan, Bavəndi hökmdarı Şəhriyarı dağlıq bölgədən endirən Təbəristan valisi Abdullah ibn Xordadbehin Məzyarı Məmuna yolladığını qeyd edir. Bu bilgi doğru isə Məzyar Bağdada deyil, Mərvə göndərilmiş olmalıdır. Xəlifə Məmunun 819-cu ilə qədər Bağdada gəlmədiyi bilinməkdədir. Məzyar Məmunun hüzurunda müsəlman olaraq Məhəmməd adını aldı və xəlifə ona “mövla əmiril-möminin” ləqəbi ilə Əbülhəsən künyəsini verdi . Bu arada Şəhriyarın ölməsi və yerinə keçən Şapurun idarəsindən xalqın xəlifəyə şikayətdə olması Məzyarın

Təbəristana dönməsi üçün önəmli bir fürsət təşkil etdi (822-ci il.). Təbəristana döndükdən sonra Məzyar və Abbasi komandanı Məhəmməd ibn Hafs bin Ömər, Şirvin dağlarını fəth etdilər. Məzyar güclü rəqibi Şapuru əsir aldı, bir müddət sonra da öldürdü. Buna görə Məmun 822-ci ildə Məhəmməd ibn Hafs ilə Məzyarı müştərəkən Təbəristan, Royan və Dəmavənd valiliyinə təyin etdi və Məzyara ayrıca xəlifə tərəfindən "ispəhbəd" ünvanı verildi.
Məzyarın hakimiyyət meydanını genişlətməyə qalxması Məcusi torpaq sahiblərinin, Bavəndilərin, şəhərlərdəki müsəlman xalqın düşmənliyinə səbəb oldu və xəlifəyə şikayət edildi. Məzyar xəlifə tərəfindən Bağdada çağırılsa da, getmədi. Xəlifənin təkidi ilə baş verənlər haqqında ətraflı məlumat əldə etmək üçün Amul və Ruyan qazılarını Bağdada göndərdi. Amul qazısı Məzyarı irtidad etməklə suçladı. Məmun, Bizans səfərinə çıxma təlaşı içinde olduğundan sorunun çözümünü ertələməyi uyğun gördü . Xəlifənin Bizans səfərinə çıxmasını fürsət bilən Məzyar Amulu mühasirə etdi. Səkkiz ay sonra Amul təslim oldu və şəhərin qazısı öldürüldü. Məmun hər halda məşğul olduğu problemlər üzündən bölgə ilə daha artıq məşğul olmaq istəmədiyi üçün Təbəristan valiliyini Məzyara verdi . Hətta Məzyarın Məmuna göndərdiyi məktublarda özü üçün "müvali əmiril-möminin" (xəlifənin müttəfiqi) ünvanını işlənməsi belə Məmunun qərarına təsir etmədi . Mötəsim-Billah xəlifə olunca Məzyarın valiliyinə razılıq verdi (833). Məzyar da xəlifə yanında hörmətini yüksəltmək üçün Amul və Sariyə qalalarını təmir etdirdi, Tahirilərə ödəməsi lazım gələn xəracı doğrudan

206. Bax: Madelung, W. (1975). "The Minor Dynasties of Northern Iran". In Frye, R.N. The Cambridge History of Iran, Volume 4: From the Arab Invasion to the Saljuqs. Cambridge: Cambridge University Press. pp. 198–249. ISBN 978-0-521-20093-6.

Abbasi xəlifəsine göndərməyə başladı. Məzyarın Tahirilərə qarşı müxalifəti Abbasilərin məşhur komandanı Afşin tərəfindən də təşviq edilirdi. Məzyara ünvanlanan töhmətlər arasında onun Babək əl-Xürrəmi ilə məktublaşması və Babəkə yardım vədi də vardır . Abdullah ibn Tahir, Mötəsim-Billaha göndərdiyi məktublarda Məzyarın zülmündən bəhs etməkdə və onun irtidad etdiyini irləri sürməkdəydi. İbn İsfəndiyar isə Məzyarı Babək və Məzdək tərəfdarları ilə Məcusilərə imtiyazlar vermək və məscidləri xarab etdirərək İslamiyətin izlərini silməyə qalxmaqla günahlandırırdı . Təbəriyə görə Mötəsim-Billah, Babək məsələsini 838-ci ildə həll etdikdən sonra xəlifənin Karmisinə hərəkət edəcəyi və Afşini də Məzyar ilə savaşmaq üçün Reyə göndərəcəyi xəbəri yayıldı .Bu hərəkət gerçəkləşməsə də, durumu öyrənən Məzyar bəzi tədbirlər aldı. İdarəsindəki torpaqların yenidən ölçümünü etdirərək xəracın toplanmasını əmr etdi . Məzyar, nəhayət 839-cu ildə üsyan edib xalqı özünə məcburən biət etdirdi. Əkinçiləri torpaq sahiblərinə qarşı qızışdırdı. [11] Amul xalqının müdaxilə çağərısı üzərinə Mötəsim-Billah hərəkətə keçməyə qərar verdi Təbəristan, Tahiri Emiri Abdullah b. Tahir ve xəlifənin göndərdiyi ordular tərəfından mühasirə etdi. Təşkil etdiyi müdafiə strategiyasına güvənərək özünü təhlükəsizlikdə hissedən Məzyar qardaşı Kuhyara Karin dağlarının, bacısı oğlu Karin b. Şəhriyara da Şərvin dağları ve Cürcana qədər uzanan dağ silsiləsinin mudafiəsi tapşırığını verdi(206). Kumandanlarından Sərhastan ve Dürri, Cürcan ve Rey cəbhəsində düşmən ordularının Təbəristana girişini egellemeliydilər(207). Ancaq Abbasi orduları qısa zamanda

207.Bax:Təbəri I,s.2671,stk.1-3.

büyük uğurlarəldə etdi. Məzyara ən büyük zərbə ise qardeşi Kuhyardan gəldi. Kuhyar, Məzyarın yerinəkeçmə vəədi qarşılığında onu təslim etmək üçün Abdullah b. Tahirin komandanlarından Həsən b. Hüseyin ilə anlaştı(208).

Sonunda ətrafının sarıldığını görən Məzyar, Kuhyarın özü üçün aman aldığını söyləməsi ilə onunla birlikdə Şaban və ya Ramazan 225-də (Iyun və ya Iyul 840) Həsən b. Hüseyinə təslim oldu Abdullah b. Tahirin emriyle Məhəmməd b. İbrahime verilen Məzyar(209) Şəvval 225-də (Avqust 840) Samarraya aparıldı Təbəri, Afşinin muhakiməsi ilə bağlı olaraq Məzyara suallar verdi. Buna görə Mutasım-Billah, 5 Zilkadə 225-də (6İyul 840) bir yığıncaq çağırıb Afşinin Məzyar ileəüzləşdirilməsini əmretdi. Şahid olaraq dinləndiyi iclasda Məzyarın Afşin ilə məktublaşması məsələsi sorğulandı. Onun bu məsələdəki ifadəsi olduqça tutarsız görünürdü. Təbərinin yer verdiyi rəvayətlərdə Məzyar, bəzən Afşinin məktub yazaraqonu üsyana təşviq etdiyini qəbul l etməkdə(210) bəzən bunu rəddedir (211) bəzən də məktublaşanların öz qardaşı Kuhyar ilə Afşinin qardeşı olduğunu söyləyirdi(212). Yaqubiyə göre Afşin ilə etdiyisöhbətdə Məzyar məktublaşma iddiasını rədd edirdi(213). Müahhər qaynaqlarda Məzyara açıqça yönəldilən İslamdan zamanında itdihamı Təbəridə yer verilməməsi və ya Afşin örnəyində olduğu kimi onun bu itham dolayısıyla sorğulandığına dair bir bilginin olmaması diqqat çəkicidir.

---

208. (a.g.e., IX, 93)
290. (a.g.e., IX, 96)
210. (a.g.e., IX, 103-104),
211. (a.g.e., IX, 109),
212. a.g.e., IX, 100).
213. (Tariħ, II, 477)

Erkən dönəm qaynaqlarından Bəlazuri ve İbnül-Fakīh

Məzyarın üsyanına onun kafir olubxəyanət ettdyindən bəhsedərlər. Əbdülqahir əl-Bağdadi, İslam firqələrindən başqa saydığı İbahi məzhebləri arasında Babəkiyyə ilə birlikdə Məzyariyyə diyə bir firqədən də söz etməkdədir.

Bu bilgi, Təbərinin Məzyarın Babək əl-Xürrəmi ilə mektublaşdığı şəklindəki qeydi ile birlikdə düşünüldüyündə önəm ərzetməkdədir. Fəqət bu fırqə ilə Məzyar arasındaki ilişkiyi ortaya qoyan somut bilgiler yoxdur.

Xəlifə Mötəsım-Billahın əmriyle dəyənək cəzasına çatdırılan Məzyar həlak oldu. Cəsədi Babəkin cəsədi yanında təşhir edildi. Qardaşınaxəyanətiylə onun sonunu hazırlayan Kuhyar da Məzyarın hakimiyyəti altındkı Deyləmli əsgərlər və onlara komandandanlıq edən əmisi oğlu Şəhriyar b. Məsmugan ərəfindən qatledildi.

Bu şekildə Təbərisdandakı Karinilər xanədanı sonaçatdı ve bölgə Tahirilərin hakimiyyəti altına keçdi. “Məlikül-cibəl” və “Gil-Gilan ispəhbed-i Xorasan padişahvərgarşah” ünvan ve tutul u daşıyan Məzyarın siyasi hədəfləri üçün qantökməkdən, xalqa həddən artıq basqı və şiddət etməkdən çəkinmədiyi bilinsə də da hakkında irəli sürülən irtidad, Məcusilik, Babək-Mazdək tərəftarlığı kimi iddiaların təsbit edilməsi qaynaklar çərçivesində olduqça çətin görünür(213)

***10. Qarin I (839–867).***Qarin(*Karen-e əvvəl),*Təbəristanın Kayyusiyyə sülaləsindən olan X hökmdarıdır və o, 839-867-ci illlərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri,doğum tarixi,vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

---

213.Bax: HORMOZĀN, A. Shapur Shahbazi, Encyclopaedia Iranica

***11.Rüstəm I (867–895).*** Rüstəm *(Rostəm-e əvvəl),* Təbəristanın Kayyusiyyə sülaləsindən olan XI hökmdarıdır və o , 867-895-ci illlərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri,doğum tarixi,vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur**.**

***12.Şirvin II (896–930).*** Şirvin *(Şirbin-e dovvom),* Təbəristanın Kayyusiyyə sülaləsindən olan XII hökmdarıdır və o, 896-930-cu illlərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri,doğum tarixi,vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***13.Şəhriyar II (930–964).***Şəhriyar*(Şahreyar-e dovvom),*Təbəristanın Kayyusiyyə sülaləsindən olan XIII hökmdarıdır və o, 930-964-cü illlərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri,doğum tarixi,vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***14.Rüstəm II (964–979).***Rütəm(*Rostəm-e sevvom),*Təbəristanın Kayyusiyyə sülaləsindən olan XIV hökmdarı və o, 964-979-cu illlərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri,doğum tarixi,vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***15.Əl-Mərziban (979–986).***Əl-Mərzban,Təbəristanın Kayyusiyyə sülaləsindən olan XV hökmdarıdır və o,979-986-cı illlərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi,vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***16.Şirvin III (986).Şirvin III(Şerbin-e sevvom)*** Təbəristanın Kayyusiyyə sülaləsindən olan XVI hökmdarıdır

və o,986-cı ildə hakimiyyətdə olmuşdur. Onun doğum yeri,doğum tarixi,vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***17.Şəhriyar III (986-987).*** Şəhriyar(*Şahreyar-e sevvom),*Təbəristanın Kayyusiyyə sülaləsindən olan 17-ci hökmdarıdır və o,986-987-cı illlərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi,vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***18.Əl-Mərziban (987–998).***Əl-Mərzban,Təbəristanın Kayyusiyyə sülaləsindən olan 18-ci hökmdarıdır və o,987-998-cı illlərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri,doğum tarixi,vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***19.Shahriyar III (998).***Şəhriyar III*(Şəhreyar-e sevvom),* Təbəristanın Kayyusiyyə sülaləsindən olan 19-cu hökmdarıdır və o,998-cı ildə hakimiyyətdə olmuşdur. Onun doğum yeri,doğum tarixi,vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***20.Əl-Mərziban (998-1006).***Əl-Mərzban,Təbəristanın Kayyusiyyə sülaləsindən olan 20-ci hökmdarıdır və o,998-1066-cı illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri,doğum tarixi,vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***21.Əbu Cəfər Məhəmməd (???-1027).***Əbu Cəfər Məhəmməd,Təbəristanın Kayyusiyyə sülaləsindən olan 21-ci hökmdarıdır və o,???-1027-cı illərdə hakimiyyətdə olmuşdur.

Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***22.QarinII (1057-1074).***Qarin(Karen-i dovvom), Təbəristanın Kayyusiyyə sülaləsindən olan XXII hökmdarıdır və o,1057-1074-cü illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

## *2.İspəhbədhiyyə sülaləsi (1074-1210)*

***Bu sülalənin 8 hökmdaarı olmuşdur,1074-1210-cu illəri əhatə edir.Nümayəndələri:***

***1.Şəhriyar IV (1074–1114).*** Şəhriyar(Ş*ahreyar-e çaharom),* Təbəristanın İspəhbədhiyyə sülaləsindən olan 1-ci hökmdarıdır və o, 1074-1114-cü illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***2.Qarin III (1114–1117)****.* Şəhriyar*(Şahreyar-e sevvom),*Təbəristanın İspəhbədhiyyə sülaləsindən olan 2-ci hökmdarıdır və o, 1114-1117-ci illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***3.Rüstəm III (1117–1118).***Rüstəm III*(Rüstəm-e sevvom),*Təbəristanın İspəhbədhiyyə sülaləsindən olan 3-cü

hökmdarıdır və o,1117-1118-ci illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***4.Əli I (1118–1142).***I Əli*(Əliy-e əvvəl),*Təbəristanın İspəhbədhiyyə sülaləsindən olan 4-cü hökmdarıdır və o,1118-1142-ci illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***5.Şah Qazi Rüstəm IV (1142–1165).*** Şah Qazi Rüstəm,Təbəristanın İspəhbədhiyyə sülaləsindən olan 5-ci hökmdarıdır və o,1142-1165-ci illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***6.IHəsən (1165–1173).***I Həsən*(Həsən-e əvvəl),*Təbəristanın İspəhbədhiyyə sülaləsindən olan 6-ci hökmdarıdır və o,1165-1173-cü illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***7.IƏrdəşir (1173–1205).***IƏrdəşir*(Ərdəşir-e əvvəl),*

Təbəristanın İspəhbədhiyyə sülaləsindən olan 7-ci hökmdarıdır və o,1173-1205-ci illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***8.VRüstəm (1205–1210).***VRüstəm*(Rostəm-e pancom)* Təbəristanın İspəhbədhiyyə sülaləsindən olan 8-ci hökmdarıdır və o, 1205-11210-cu illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

### *3. Kinxavəriyyə sülaləsi (1238-1349)*

*Bu sülalənin 8 hökmdaarı olmuşdur,1238-1349-cu illəri əhatə edir.Bu sülalə öz əsasını Bəhram Fərruxzadın bacısı və Bavəndi Fərruxzadın qızı olan Şəbnəm Şadoxtun nəslindən olan nümayəndələri daşıdığına görə ona “Kinə xavəriyyə” sülaləsi deyilir. Belə ki “kinə” sözü talış dilində “qız”,xavər” sözü isə farsca “bacı” deməkdir.Bu sülalə Şəbnəmi öz bacısı hesab etmişlər.*

***Nümayəndələri:***

***1.II Ərdəşir (1238–1249).***II Ərdəşir*(Ardaşir-e dovvom),* Təbəristanın Kinəxavəriyyə sülaləsindən olan 1-ci hökmdarıdır və o,1238-1249-cu illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***2.Məhəmməd (1249–1271).*** Məhəmməd,Təbəristanın Kinəxavəriyyə sülaləsindən olan 2-ci hökmdarıdır və o,1249-1271-cu illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***3.II Əli (1271).***II Əli(*Əliy-e dovvom),*Təbəristanın Kinəxavəriyyə sülaləsindən olan 3-cü hökmdarıdır və o,1271-ci illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***4.Yəzdəgird (1271–1300).***Yəzdəgird, Təbəristanın Kinəxavəriyyə sülaləsindən olan 4-cü hökmdarıdır və o,1271-1300-cü illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***5.V Şəhriyar (1300–1310).***V Şəhriyar*(Şahreyar-e pancom),* Təbəristanın Kinəxavəriyyə sülaləsindən olan 5-ci hökmdarıdır və o,1300-1310-cu illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***6.Key Xosrov ibn Yəzdəgird (1310–1328).***Key Xosrov ibn Yazdəgird,Təbəristanın Kinəxavəriyyə sülaləsindən olan 6-cı hökmdarıdır və o,1310-1328-ci illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***7.Şərəf əl-Mülk (1328-1334).***Şərəf əl-Mülk, Təbəristanın Kinəxavəriyyə sülaləsindən olan 7-cı hökmdarıdır və o,1328-1334-cü illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur.

***8.II Həsən (1334–1349).***II Həsən(Həsən-e dovvom), Şərəf əl-Mülk, Təbəristanın Kinəxavəriyyə sülaləsindən olan 8-cı hökmdarıdır və o,1334-1349-cu illərdə hakimiyyətdə olmuşdur. Onun doğum yeri, doğum tarixi, vəfat yeri və vəfat tarixi bilinmir və mənbələrdə bu haqda heç bir məlumat yoxdur(214)(215)(216)(217)(218)

214. Bax: Edward Walford, translator, The Ecclesiastical History of Evagrius: A History of the Church from AD 431 to AD 594, 1846. Reprinted 2008. Evolution Publishing, ISBN 978-1-889758-88-6. [2] — a primary source containing detailed information about the early reign of Khosrau II and his relationship with the Romans..

215.Bax: (1992) The Prosopography of the Later Roman Empire, Volume III: A.D. 527–641. Cambridge: Cambridge University Press. ISBN 978-0-521-20160-5.

216.Bax: Pourshariati, Parvaneh (2008). Decline and Fall of the Sasanian Empire: The Sasanian-Parthian Confederacy and the Arab Conquest of Iran. London and New York: I.B. Tauris. ISBN 978-1-84511-645-3.

217.Bax: Daryaee,Touraj. Sasanian Iran: the Portrait of a Late Antique Empire,Costa Mesa: Mazda Publishers, 2008.

218.Bax: Дашков.С.Б.Цари царей – Сасаниды.-194).История Ирана III-VII вв.в легендах,исторических хрониках и современных исследованиях.-М.СМИ-АЗИЯ.2008.-352с.-4000 экз.-İSBN 978-5-91660-001-8.

# *İstifadə olunmuş ədəbiyyat:*

*1.Bax:A.Müller.Der İslam im Morgen und Abendland.Bd 1,2.B.,1885,1887*

*2.Bax:W.Muir.TheChaliphat,itsRise,Declin and Fall.Ox.,1891,1892,1899;Edinburg,1915,1924).*

*3.Bax: J.Wellhausen.Mohammed and the First Four Caliphs.-“The Ebcyclopaedia Britanica”IX ed.Vol.16.Edinburg,1883,c.545-606;J.Wellhausen.Skizzen und Vorarbeiten.H.6(Prolegomen zur altesten Geschichte des İslamic).B.,1899.*

*4.Bax:Th.Nöldeke.Zur tendenziösen Gestaltung der Urgeschichate des İslamic.-“Zeitschrift der Deutschen Morgenlandischen Gesallschaft”.Lpz.,Wiesbaden(далее – ZDMG).Bd 52,1898,c.16-36.*

*5.Bax: L.Caetani.Annali dell`İslam.Vol.1-10.Milano,1905-1926.*

*6.Bax:Н.А.Медников.Палестина от завоевания ее арабами до крестовых походов по арабским источникам.СПБ.,II,1987;I,1902; A.Butler.The Arab Conquest of Egypt and the Last Thirty Years of the Roman Dominion.Ox.,1902.*

*7.Bax:J.P.Brown.El-Tabari`s Conquest of Persia by the Arabs,transl.from the Turkish,-“Journal of the American Oriental Society“.New-YorkNew Haven(дале – JAOS).1851,vol.1,c.435-505;v*

*ol.2,,c.207-234.*

*8.Bax:Б.Н.Заходер.История восточного средневековья (Халифата и Блиний Восток).*

*M.,1944.*

*9.Bax:M.Hartmann.Die Unterredung al—Mughiras mit dem Persergeneral Rustam im J.16/637 und der Thronbankzwischenfall.-“Der Islam”.Bd 8,Srassburg,1918,c.303-304;S.M.Yusif.The Battle of al-Qadisiyya.-“İslamic Culture”.Vol.19,Hyderbad,1945,c.1-28.*

*10.Bax: Cl.Huart.Historie des Arabes.T.1,2.P.,1912-1913; Ph.K.Hitti.History of the Arabs.L.,1937;C.Brockelman.Geschichte der Islamischen Völker und Staaten.München-Berlin,1939.*

*11.Bax:Maxvan Berchem.La propriete territoriale et I`impot foncier sous les premiers caliphes.Geneve,1986.*

*12.Bax: [Pschwarz].Iran im Mittelalter nach den arabischen Georgraphen von P.Schwarz.I-IX Leipziq – Stuttqard,1896-1936.*

*13.Bax: J.Wellhausen.Das Arabische Reic und sein Struz.B.,1902;C.Becker.Beirtage zur geschichte Agypthens unter dem Islam.Vol.1-2,1902-1903;L.Caetani.Annali del`Islam.Vol.1-14.Milano,1905-1926.*

*16.Bax;D.C.Dennett.Conversion and the Poll-tax in Early Islam,c.20*

*17.Bax: M.Kh.Fateh.Taxation in Persia.A Synopsis from the Early Times to the Monqols.-“ Bulletin of the School of Oriental Studies,London Instiution (Universsity of London)”(sonra – BSOS).Vol.4,p.4,1928,s.723-743*

*18.Bax:A.K.S.Lambton.Landlord and Peasant in Persia.L.,1953*

*19.Bax:A.K.S.Lambton.Islamic Socety in Persia.L.,1954*

*20.Bax: Их основные работы в етом направлении:В.В.Бартольд.Иран.Исторический обзор.Ташкент.,1926; он же .К вопросу о феодализме в Иране.-“ Ночной Восток” 1930,№ 28; Б.Н.Хаходер.История восточного средневековья(Халифат и Ближний Восток); Н.В.Пигулевская,А.Ю.Якубовский,И.П.петрушевски и др.История Ирана с древнейших времен до конца XVIII в..Л.,1966; он же.К истории рабства в Хвлифате в VII-XV веках.-“Народы Азии и Африки».1971,№3; Е.А.Беляев.Арабы, ислам и Арабский халифат и раннее средневековье.М.,1965; Л.И.Надирадзе.Община на территории Восточного халифата в VII- VIII вв.-Арабские страны.История.Економика.М.,1966: онже.Вопросы общественно-економического строя госсударства арабов VII-VIII вв.в советской истриографии.-Историография стран Востока(Историографические очерки).М.,1969; онже.Хрестоматия по истории халифата.М.,1968; Ф.М.Ацамба,Л.И.Надирадзе.Развитие феодализма в Арабском халифате.-Историография стран Востока(проблемы феодализма).М.,1977*

*21.Bax:Bunlara V.B.Hirhasın “Xristianların şərqdəki müsəlman qanunlarına əsasən hüquqları” СПБ.,1865*

*22.Bax:Hamzae Ispahanensis Annalium Libri X.Ed.J.M.E.Gottwald.T.1.Textus arabicus.*

*petropoli,1844(sonra-Həmzə Isfahani,mətn*

*23.Bax:El.New Edition.Vol.3.fac.51-52.Leiden-London,1968,c.744.*

*24.Bax:C.Brockelman.Das Verhaltnis von Ibn-el-Atirs Kamil fitta`rih zu Tabaris Ahbar errusul wal muluk.Strassburg,1890.*

*25.Bax:Ибн ал-Асир 1,c.4.*

*26.Bax:El.New Edition.Vol.3.c.724.*

*27.Bax:Əsas nəşriyyatlar və tərcümələr:Liber expuqnationis regionum,auctore İmamo Ahmed ibn Jahja ibn Jabir al-Beladsori...Ed.M.J.de Geoje.Luqduni Batavorum,1866(sonra Bəluzari,mətn);The Oriqins of the İslamic State Being a Translation from the Arabic Accompanied with Annotations,Geographic and Historic Notes of the Kitab Futuh al-Buldan of al-Imam Abu-l Abbas Ahmad ibn Jabir al-Baladhuri.Vol.1.By Ph.Kh.Hitti.N.Y.,1916;vol.2.By.F.C.Murgotten.N.Y.,1924(sonra Bəluzari,ing.tərcümə,t.1;ing.tər-cümə,t.2); Fütuh əl-Buldan,Bəxş-e mərbud be İran,az Əhməd ibn Yəhya əl-Bəluzari.Tərcomey-i doktor Azərtaş-e Azərnuş.Tehran,1346(sonra – Bəluzari,fars.tərcümə.*

*28.Bax:The Orqins of the Islamic State...Vol.1,c,V-VI,8;El.New-Edition.Vol.1.Leidien-London,*

*1960,c,971.*

*29.Bax:The Orqins of the Islamic State...Vol.1,c,V-VI,8;El.New-Edition.Vol.1.Leidien-London,1960,c,971.*

*30.Bax:Taxtion in Islam.Vol.1,c.14-16*

*31.Bax:Kitab al-Maslak wa`l-Mamlik auctore Abu`l Kasim Obaidallah ibn Abdallah ibn Khordabeh et excerpta e Kitab al-Kharadj auctore Kodama ibn Djafar...Ed.M.J.de Goeje.Luqduni Batavorum.Bibliotheca geographorum arabicorum.Edidit M.J.de Geoje,P.C.184-266.*

*32.Bax:J.Walker.A.Cataloque of the Arab-Sassanian Coins.L.,1941.*

*33.Bax:Firdovsi.Şahnamə.T.9,c.318-320,bb.88-120.*

*34.Bax:H.Gabue.Arabosasanidische Numisimatik.Braunschweig,1973;I.Tösen.Arabsasani paraları.-“Numusimatik Yayınları”.İstanbul,1975,№7.*

*35.Bax:H.Zotenberg.Chronique...Tabari,traduite sur la version persan d`About-Ali Mohammed Bel`ami d`apres les manuscritys de Paris,de Gotha,de Londers,et de Canterbury par H.Zotenberq.T.3.P.,1871.*

*36.Bax:О.Ф.Акимушкин,В.В.Кушев,Н.Д.Миклухо-Маклай,А.М.Мугинов,А.М.салахетдинова,*

*Персидские и таджикские рукописи Института народов Азии АН СССР(краткий алфавитный каталог).Ч.1и2.М.,1964;Н.Д.Миклухо-Маклай.Описание персидских и таджикских рукописей Института востоковедения.Вып.3.М.,1975.Номера по шифрам:B4485,C432,D82,D83,D182,D223.Herjgbcm C 431 включает только часть,посвяшенную доисламскому периоду.Еще одна рукопись(под№850)имеется в отделе рукописей Восточного отдела библиотеки ЛГУ.*

*37.Bax:The Tajarib al-Umam or History of ibn Miskawayh...Reproducted in Facsimile...With a Preface and Summary by L.Caetani.Vol.1-“E.J.W.Gibb Memotial”Series(sonra– GMS),VII,1.*

*Liden-London,1909(sonra – Ibn Miskaveyh.*

*38.Bax:C.Brockelmann.Das Verhaltnis...,c.25-58).Belə ax:C.Brockelmann.Das Verhaltnis...,*

*c.25-58.*

*39.Bax:R.Gobl.Sasanian Numisimatics.Braunschweig,1971,c.54-55*

*40.Bax: H.Gabue.Arabosasanidische Numisimatik.Braunschweig,1973;I.Tösen.Arabsasani paraları.-“Numusimatik Yayınları”.İstanbul,1975,№7)Saqatiyadan bir fərsəng aralıda yerləşən Barsumanın bir kəndi yaxınlığında dayanıb düşərgə qurdu.*

*41.Bax:Р.Н.Фрай иФ.Жинью:А.Я.Борисов,В.Г.Луконини.Саснидскиегеммы.Л.,1963;*

*42.Bax: R.N.Frye,Sasanian Seals in the Collection of Mohsen Foroughi.-Corpus Inscriptionum Iranicarum(дале-CII),p.III.” Pahlavi Inscriptions”.Vol.VI.Plates,portf.2.L.,1971;Yenə orda/Sasanian Remains from Qasr-iAbu Nasr(Seals,Sealings and Coins).-“ Harvard Iranian Series ”.Vol.1,Cambridge,1973;Ph.Giqnoux.Problemes d`interpretation des bulles sassanides.-“ Studia Iranica”.T.2,farsc.2.Liden,1975,c.171-175;E.Aprovasi.Seals with Pahlavi inscriptations from the Nayeri Collection.I.-“East and West ”.New*

*series.Vol.25.Rome,1975,c.427-433;S.Shaked.Jewish and Ceristian Seals of the Sasanian Period.-Studies in Memory of Gastom Wiet,Jerusalem,1977,c.17-31.*

*43.Bax:А.Я.Борисов.В.Г.Луконин.Сасанидские геммы,с.12-22.*

*44.Bax:Е.А.Похомов.Пехлевийские надписи Дербенда.-“ Известия Общества обследования и изучения Азербайджана”.Вып.V,№8.Баку,1929,с.3-25;Г.С.Нюберг.Материал по истолковани. Пехлевийских надписей Дербенда(тамже.с.26-32.*

*45.Bax:Təbəri I,s.2020,stok.14-242;c.2022,stk.1-4;İbn əl-Əsir 2,s.294*

*46.Bax:Bəluzari,mətn,s.241-242,fars.təcümə,s.36;ing.tərcümə,t.1,s.288*

*47.Bax:İbn əl-Əsir 2,s.295.*

*48.Bax:Bəluzari,mətn,s.341.*

*49.Bax:J.B.Glubb.The Great Arab Conquests,s.126.*

*50.Bax:Təbəri I,a.2026-1029;İbn əl-Əsir 2,s.295296;Bəluzari,mətn,s.242;ingl.tərcümə,t.1,s.389;*

*fars.tərcümə,sas.37;A.Caussin de Perceval.Essai...T.3,s.403-404;G.Weil.Geschichtr der Chaliofen...Bd 1,s.32.Qlabbda bu döyüş haqqında hekayə buraxılmışdır.*

*51.Bax:Təbəri I,s.1869,stk.19-24)*

*52.Bax:Bəluzari,mətn,s.242;ingl.tərcümə,t.1,389;fars.tərcümə,s.37.Təbəri və İbn əl-Əsir onlar haqda məlumat vermirlər və darhal Valac hadisələrinmə keçirlər*

*53.Bax:* الأَنْدَرْزَغَرُ *Bu dəqiq forma ilə yanaşı digər siyahılarda müxtəlif formada rast gəlinir.Bu sözün müxtəlif izahı və adı haqda bax;Th.Nöldeke.Geschichte der Perser und Araber zur Zeit der Sasaniden.Leyden,1879,s.462.*

*54.Bax:Təbəri I,s.2029-2031;İbn əl-Əsir 2,s.296.*

*55.Bax:Təbəri I,s.2030,stk.4-5)*

*56.Bax:H.Zotenberg.Chroinque...T.3,s.328.*

*57.Bax:Qlabbın fikrinə görə, Olleys Dəclə çayının qərb sahilində,indiki Samava şəhərinin yaxınlığında yerləşirdi.(J.B.Glubb.The Great Arab Conquests,s.128.*

*58.Bax:Təbəri I,s.2033,stk.9-10;”Elə ki Xalid onlara çatdı.O dayanmağı və yükləri boşaltmağı əmr etdi”; İbn əl-Əsir2,s.297.*

*59.Bax:H.Zotenberg.Chronique...T.3,s.329.Yenə də hansısa ərəb qəbilələri farsların tərəfində vuruşurdular.:Təbəri(I,s.2023,stk.1-45) və İbn əl-Əsir(2,s.297) Xalidin Malik ibn Qeyslə olan təkbətək döyüşü barədə xəbər verir.*

*60.Bax:Bəluzari,mətn,s.242;ingl.tərcümə,t.1.389-190;Təbəri I,s.2018-2019.*

*62.Bax:Təbəri I,s.2037,stk.1-9;İbn əl-Əsir 2,s.298.*

*63.Bax:Təbəri I,s.2019,2037-2047;[H.Zotenberg].Chronique...T.3,c.321-322,330-335;İbn əl-Əsir 2,s.294,298-300;Bəluzari,mətn,c.242-244;ingl.tərcümə,t.1,s.390-392.Digər tədqiqat ədəbiyyatında buna uyğun olaraq yazılmışdır A.P.Caussin de Perceval.Essai...T.3,c.405-409;An-Numan Abdal-Mutaal al-Kada.Şir al-Fütuh...,s.55-56.*

*64.Bax:Təbəri I,c.2039,stk.2-7;İbn əl-Əsir 2,s.298.Dinəvəri(s.117) xəbər verir ki,Hirənin sakinləri üç məntəqədə gizləndilər,lakin onların adlarını vermir.Bəluzaridə(mətn,s.244;ingl.tərcümə,t.1,s.391) adı çəkilmiş Qəsr əl-Ubeyd,Qəsr İbn Bukəylə və Qəsr əl-Ədəsiyin)60.Bax:Təbəri I,s.2041,stk.6;”təmizqanlı ərəblər və digər ərəbləşənlər”.*

*65.Bax:H.Zotenberg.Chronique...T.3,c.333.*

*66.Bax:H.Zotenberg.Chronique...T.3,c.333)39.).Belə ki,Hiranın 1-ci işğalı rabi ayının 1-12-də baş verdi.(633-cü lin may-iyun).(Bax:Təbəri I,s.2045,stk.4-5;İbn əl-Əsir 2,s.300;A.P.Causin de Perceval.Essai...T.3,s.409.*

*67.Bax:Bu hökmdarların kiçik xüsusiyyətlərlə olan dəqiq siyahısı müsəlman xronikasının Sasanilərin hakimiyyətinin sonu və islama keçidin başlanması hissəsində mövcuddur.İranın Ərəblər tərəfindən işğalına həsr olunmuş əsas hissədə III Yəzdegirdə qədər (Təbəri və İbn əl-Əsirdə) Fərruxzadın yerinə Şiruyə və Ərdəşirin hakimiyyətdə olduğu qeyd edilir.*

*68.Bax:Farsnamə,s.111,stk.3-4.Bax yenə orda,stk.5-11.*

*69.Bax:Təbəri I,c.2052,stk,8-13;,İbn əl-Əsir 2,s.300.*

*70.Bax:Təbəri I,s.2058,stk.2-6.*

*71.Bax:J.B.Glubb.The Great Arab Conquests,c.130;R.N.Frye.The sasanian System of Walls for Defense.-Studies in memory of Gaston Wiet.Jerusalem,1977,s.10-11.*

*72.Bax: Bəluzari,mətn,c.246;ingl.tərcümə,t.1,c.394-395.Şəhərin adının mənası İbn əl-Əsirdə var(2,c.301)*

*73.Bax: Təbəri I,s.2059,stk.13.A.P.Kossen de Perseval(Essai...T.3,c.412)onun mərzbanı adlandırırlar,lakin bu haqda mənbələrdə heç bir məlumat verilmir)*

*74.Deyilənlərə görə onlara qismət oldu Anbarın 1000(bəzi mənbələrə görə 2000) müdafiəıçisini kor etmək nəsib oldu)*

*75.Bax:J.B.Glabb.The Great Conquests,127.Map XII.Mənbələrdə hicri tarixi göstərilməyib.Hadisənin tarixi əsaslandırılmışdır.Qeyd edilmişdir ki, Xalid Hirədə 2 ay qalıb. Və vergləri toplayıb.Bu şəhərin işğal tarixi isə tədqiqatçılara məlumdur.)*

*76.Yenə orda,s.130;El.New Edition.Vol.1,Leiden-London,1960,s.788.F.P.Kossen de Prsval(Essai...T,s.413) səhv olaraq Ayn ət-Təmri Anbar məntəqəsindən üç günlük məsafədə və onun şimal-qərbində yerləşdirmişdir.O.Q.Bolşakov hesab edir ki,həqiqətən indiki də Ayn ət-Təmrmövcud deyil) 52.*

*77.Bax:TəbəriI,s.2062,stk.12-14;İbnəl-Əsir2,s.302;[H.Zotenberq].Chronique...T.3,s.338;G.Weil.*

*Geschichate der Chalifen...Bd1,c.36;A.P.Caussinder Perceval.Essai...T.3,s.413)*

*78.Bax:Bəluzari(s.246-247) heç yerdə iranlıların qaladan çəkilmələri barədə qeyd etmir)*

*79.Bax:Təbəri I,s.2063,stk.15-16;[H.Zotenberg] Chronique...T.3,s.338)*

*80.Bax:Təbəri I,s.2115-2116)*

*81.Yenə orda,s.2116)*

*82.Yenə orda,s.2117,stk.2 -* الخو كبذ، *variant -* الخر كيبد. *)*

*83.Yenə orda,s.2117,stk.2 -* الخو كبذ، *variant -* الخر كيبد. *)75.),digəri isə Kaukbad.*

*84.(Yenə orda -* الكوكبد، *variant -* الكر كنفد *və* الكر كيبل. *)76.)*

*85.(Yenə orda,s.2117,stk.2-4; İbn əl-Əsir 2,s.318)77*

*86.Bax:Öz atasının qisasını almaq üçün Rüstəm (başqa versiyalara görə kor etdi) şahzadə Azərmidoxtu həbs etdi və onun yerinə taxta onun kiçik bacısı-III Yəzdegirdin kiçik bibisi olan Boranı gətirdi)(Təbəri I,s.2163;İbn əl-Əsir 2,s.334;Baləmi: əlyazma Lo İvan D 182,l.333b və B-4485,l.482).*

*85.Bax:Təbəri I,s.2165;İbn əl-Əsir 2,s.334: " hər rustaka" ; Balami:əlyazma.D-182,l.333b:"hər kəndə və hər şəhərə adam göndərdi";əlyazma.-B-4485,l.482a:"hər qalaya və hər şəhərə adam göndərdi")*

*86.Bax:El.New Edition.Vol.1,s.1210-1211.İbn əl-Əsir(2,s.334) Aşağı-Bex Gavad ostanının hakimlərindən birini Furat Badaq adlandırırlar)*

*87.Bax:Təbəri ,s.2166,stk.2-3:"Fəratın aşağı axarlarından yuxarı axarlarına qədər olan kustakların əhalisi üsyan etdi")*

*88.Bax:Balami:əlyazma D-182,l.333b;B-4485,l.482;[H.Zotenberg].Chronique...T.3,369)*

*89.Bax:Balami Namriki böyük şəhər hesab edir,çətin ki,doğru olsun,ya dakı hər bir böyük şəhərin izləri tarixi-coğrafiyada qalır.Namrik bu hadisədən başqa heç yerdə qeyd olunmur.)*

*90.Bax:Təbəri I,s.2166.2169)*

*91.Bax:Balaminin əlyazmaları:D-182,l.334a:D-223,l.269;B4485,l.482b;[H.Zotenberq].*

*Chronique...T.3,s.372)*

*92.Bax:Bu ad ərəb mənbələrində səslənir.Oun İran forması məlum deyil(ola bilər,Halen? Onda qəbul etməliyik ki,şahənşah ordusuna qeyri-iranlı başçılıq edib)*

*93.Bax:Məntəqənin adını biz ötürürük,belə ki,onun əsl yerləşdiyi yer məlum deyil.*

*94.Bax:Təbəri I,s.2176;İbn əl-Əsir 2,s.338;Dinəvəri,s.119,stk.11-12;Bəluzari,mətns.252;*

*ingl.tərcümə,t.1,s.404:J.B.Glubb.The Great Arab Conquests,s.162,164.*

*95.Bax:Təbəri I,s.2176;İbn əl-Əsir 2,s.338.Yəqubi(2,s.162) üsyanın tarixini hicri 14-cü ilə aid edir.)*

*96.Bax:Təbəri I,s.2182;İbn əl-Əsir 2,s.339.Hər iki müəllif burada Mardanşahı Cabanın silahdaşı hesab edir.Lakin Mardanşah elə həmən mənbələrin məlumatına göprə Namrik uğrunda gedən döyüşlərdə əsir düşərək öldürülür və Caban isə sağ qalır)*

*97.Bax:Təbəri I,s.2186,stk.3-4:"Sizə hansı tərəf daha çox xoşunuza gəlir?"Dedilər:"Suriya.Axı bizim babalarımız oradadır";bax yenə orda s.2187,stk.15-17)*

*98.Bax:Bəluzari,mətn,s.253;ingl.tərcümə,t.1,c.405)*

*99.Bax:Balaminin əlyazmaları:D-182,l.335b:D-223,l.270a;B-4485,l.485a;[H.Zotenberq].*

*Chronique...T.3,c.382)*

*100.Bax:Məsələn gah onu Mehrbundad Həmədaninin oğlu Bəluzari)olan Mehranın oğlu,bəzən də Məhruyə Həmədaninin (Dinəvəri) oğlu olan Mehranın oğlu hesab edirlər. Təbəri isə onu Bazanın oğlu Mehranın oğlu hesab edir.Təbəri I,s.2201,stk.12.*

*101.Bax:Təbəri I,s.2201,stk.12)*

*102.Bax:Balaminin əlyazmaları d-182,l.335b)*

*103.Bax:Təbəri I,s.2199;İbn əl-Əsir 2,s.342;Bəluzari,mətn,s.254;ingl.tərcümə,t.1,s.407-408;*

*Dinəvəri,s.121)*

*104.Bax:Təbəri I,c.2202;İbn əl-Əsir 2,s.342.*

*105.Bax:Sybnodicon orientale ou recuril de synodes nestoriens puble,traduit et annote par J.B.Chabot.P.,1902,s.679,684)*

*106.Bax:Bəluzari,mətn,s.341-342;Dinəvəri,s.123-124.*

*107.Bax:Bəluzari,mətn,s.346;ingl.t.rcümə,t.2,c.60.*

*108.Bax:Təbəri I,s.2210,stk.11-12;or.İbn əl-Əsir(2,s.345) və Yaqubi(2,s.162).*

*109.Bax:Təbəri I,s.2210;İbn əl-Əsir 2,s.344-345;Dinəvəri,s.125)*

*110.Bax:Bu fakta birbaşa işarəyə biz Bəluzaridə rast gəlirik(mətn,s.253;ingl.tərcümə,t.1,s.406),*

*hansı ki qeyd edir ki, III Yəzdegirdin yerinə onun bibisi Boran dövləti idarə etmişdir)*

*111.Bax:Təbəri I,s.2216,stk.10;s.2217-2218,2219,stk.7-8)134*

*112.Bax:Təbəri I,s.2221,stk.5-7;İbn əl-Əsir 2,s.348.Bəluzari(mətn,s.255;ingl.tərcümə,t.1,s.409) mənbəyə istinad etmədən Səəd bin Əbu Vəqqasın İraqa yaxın olan Sələbidəki vəziyyətinə işarə edir.*

*113.Bax:Təbəri I,s.2221.stk,.9-12.*

*114.Bax:S.M.Yusif.The Battle of al-Qadisiyya,s.8.Qlabb (The Great Arab Conquests,c.190)*

*Zərdruddəki dayanacğın tarixini 636\637-ci ilin qışına aid edir.,bu çətin ki,doğru olsun,belə ki,bu hicri 15-ci ildə baş verib.(Bəluzari ,mətn,s.255)Səəd həmən vaxtı artıq İraqda,Uzeybə şəhərində idi.*

*115.Bax:Kufi 1(Heydərəbad nəşriyyatı),s.201;Təbəri I,s.2250,stk.12-16;s.2251,stk.1-3;s.2351,stk.8-9.*

*116.Yenə orda,s.2256,stk.17-19;s.2258,stk.2-3.*

*117.Yenə orda,s.2256-2257)159.*

*118.Ye(Yenə orda,s.2223-2225;İbn əl-Əsir 2,s.348)nə orda,s.2264,stk.11-13;s.2265-2266)*

*119.Bax:Firdovsi.Şahnamə.T.9,s.315,bb.48-51.*

*120.Bax:Təbəri I,s.2285-2286.*

*121.Yenə orda,s.2287,stk.1-5;ort.s.2266,stk.18-19;s.2267,stk.2-3.Burada 30 filin olduğu qeyd edilir)*

*122.Bax:Təbəri I,s.2258,stk.6-8;s.2294,stk.13.*

*123.Yenə orda,c.2287,stk.6-13;ort.İbn əl-Əsir 2,s.363.*

*124.Bax:S.M.Yusif.The Battle of al-Qadisiyya,s.28.*

*125.Bax:Təbəri I,s.2291-2294;İbn əl-Əsir 2,s.364.S.M.Yusif.The Battle of al-Qadisiyya,s.18)*

*126.Bax:Təbəri I,s.2296,stk.6-7)123.Bax:Burada Təmim tayfasından başqa ayrı bir tayfanın adı çəkilmir.Çünki,Səyf ibn Ömər mənşəcə təmim tayfasından idi və indi növbə Təmim tayfasına gəlmişdi.*

*127.Bax:Mənbələr məlumat verir ki,hər filin üstündə 2-dən çox döyüşçü var idi.*

*128.Bax:Təbəri I,s.2304,stk.10-14;İbn əl-Əsir 2,s.367.*

*129.Bax:Təbəri I,s.2304,stk.10-14;İbn əl-Əsir 2,s.367.*

*130.Bax:Təbəri I,s.2317.İran ordusunun əsas məğlubiyyətinin səbəbi onların ümumilikdə səhrada vuruşa bilməməsi idi,amma ərəblər elə səhrada doğulub,orada da ölürdülər.Firdovsi özünün kitabında iran suvarilərinin atlarının qumluq çöldə tez-tez büdrədiyini bildirir. (“Şahnamə”.T.9.329,bb.225-227.O,İranlıların geri çəkilməsini ürək ağrısı ilə qeyd edir.*

*131.Bax:Təbəri I,s.2306,2309,2311)*

*132.Bax:Təbəri I,s.2305,stk.5-6;Yaqubi 2,s.164;S.M.Yusif.The Battle al-Qadisiyya,s.19-20.*

*133.Bax: Təbəri I,s.2319,stk.3:”Onlar öz ölülərinə toxunmurdular”.*

*134.Yenə orda,s.2318-2319.*

*135.Bax:Təbəri I,s.2320,stk.6-8;İbn əl-Əsir 2,s.371;S.M.Yusif.The Battle of al-Qadisiyya,s.21.*

*136.Bax:Təbəri I,s.2324-2326;ort.İbn əl-Əsir 2,s.371-372.*

*137.Bax:Təbəri I,səh.2321,stk.12-14;s.2326,stk.13-15.*

*138.Yenə orda,səh.2329,stk.14-16;s.2330,stk.9-12.*

*139.Yenə orda,səh.2332,stk.2-4.*

*140.Yenə ord,s.2333,stk.2-5;[H.Zotenberg].Chronique...T.3,394.*

*141.Bax:[H.Zotenberg].Chronique...T.3,s.396.Səyf ibn Ömərin(Məhəmməd,Təlhə,Zeyd) yaxın məlumatçılarınının yazılarında ilk olaraq Hörmüzan və Firuzanın ordu birləşmələri geri çəkilməyə başladı,daha sonra isə mərkəzdəki ordu birləşmələri.(Təbəri I,s.2336,stk.3-5).Lakin burada məlumatlar biri-birinə qarışır və təkzib edir.Məhəmməd və Təlhə məlumat verirlər ki,Perozan döyüşün ikinci günü Qəqə bin Əmrlə təkbətək döyüşdə həlak oldu.Bu məlumatı Seyfin digər məlumatçısı olan, onlardan asılı olmayan və müstəqil şəkildə Qasım ibn Süleym də verir.(yenə orda,s.2309,stk.5-7).Hörmüzan İran ordusunun məşhur üç sərkərdəsindən biri idi ki,döyüş meydanını sonuncu olaraq tərk etdi.*

*142.Bax:Təbəri I,s.23452346;[H.Zotenberg].Chronique...T.3,s.398;ort.Bəluzari,mətn,s.259; ingl.tərcümə,t.1,s.415)186.*

*143.Bax:Təbəri I,s.2338-2339,2341,stk.11-13.*

*144.Yenə orda,s.2337-2338.*

*145.Bax:Təbəri I,s.2419,stk.5-10.*

*146.Yenə orda,s.2420,stk.8-10.*

*147.Bax:Məlumdur ki, Busu qədim Bariplə və ya İraqın arxeoloji xəritəsində qeyd olunan daha qədim olan Birs-Nimrudla eyniləşdirmək olar.İran hərbi komandirinin adı və titulu ərəbləşmiş forması olan – بُصْبُهْرَى verilmişdir.*

*148.Bax:Təbəri I,s.2420,stk.13-16.Burada da Seyfin adını çəkdiyi İran ordusunun hərbi komandiri olan Perozanın adı qeyd olunur.Ola bilər ki,eyni adlı eyni simalardan söhbət gedir)*

*146.Bax:Təbəri I,s..2421,stk.10-17.Perozan(Firuzan),Seyfin məlıumatçılarına görə Nəhavəndə gedir,sonra orada Xosrovun əsasını və möhrünü ələ keçirib hakimiyyəti ələ alır və Midiyanın hakimi olur)*

*149.Bax:Təbəri I,s.2357,stk.6-9;stk.6-8)*

*150.Təbəri onu Kadusiya və Haffan arasında lokalizə edir:Təbəri I,s.2184,stk.7-8.Dinəvəri*

*(s.119.stk.9) bununla bağlı Sələbiyyəni adlandırır.Lakin onun İraqdakı mövqeyi haqda dəqiq məlumat vermək hələlik mümkün deyil.*

*151.Bax:Təbəri I,s.2422,stk.12;s.2425,stk.12;s.2427,stk.9-11.Burada Seyfin xronologiyası digər müəlliflərin məlumatlarını təkzib etmir)*

*152.Yenə orda,s.2427,stk.12-13:s.2428,stk.3-6.*

*153.Yenə orda ,s.2429,stk.8-11)200.*

*154.Yenə orda,s.2431,stk.14-15:İbn əl-Əsir 2,s.397.*

*155.Aşağı şəhər(Köhnə şəhər) – Veh-Ərdəşirin digər adları.*

*156.Bax:Bəluzari,mətn,s.262;ingl.tərcümə,t.1.,s.417.*

*157.Bax:Təbəri,mətn,s.262;ingl.tərcümə,t.1,s.417.*

*158.Yenə orda,s.2432,stk.5)*

*159.Yenə orda,s.2435,stk.2-5;İbn əl-Əsir 2,s.398.*

*160.Bax:Təbəri I,s.2457,stk.13-14;s.2458,stk.10-11;s.2459,stk.6-7;İbn əl-Əsir 2,s.405;Kufi Heydərabad nəşr.),s.272.*

*161.Bax:Təbəri I,s.2461,stk;ort.Bəluzari,mətn,s.264.*

*162.Bax:Təbəri I,s.2458,stk.4-7.*

*163.Bax:Bəluzari,mətn,s.265;Təbəri I,s.2470,stk.8-9;İbnəl-Əsir 2,s..406;[H.Zotenberq].*

*Chronique...T.3,s.418)*

*164.Bax:El.Vol.2.Leyden-Paris,1927,s.354.*

*165.Bax:Təbəri I,s.2601,stk.1-2;s.2608,stk.5-11;Dinəvəri,s.141;Kufi 2(Heydərəbad nəşr),s.31.*

*166.Bax:Təbəri I,s.s.2016,stk.7-11.*

*167.Təbəri Seyf ibn Ömərə əsaslanaraq müsəlmanların dayandıqları üç məntəqənin adını çəkir: Mərc əl-Kələ,Təzər və Huda Şəcər.O məntəqələrdən ikincisi haqda deyirlər ki, o, Nəhavənddən iyirmi neçə fərsəx aralıda yerləşir.(Təbəri I,s.1617,stk.15)Birincisi haqda İstəhri və İbn Hukal məlumat*

*verirlər ki,(İstəhri.s.196) Mərc əl-Kələ Mermasin və Xulvan arasında yerləşir,yəni 10 fərsəx Xulvandan,17 fərsəx isə Karmasindən aralıda yerləşir.*

*168.Bax:Təbəri I,s.2597-2598;Dinəvəri,s.143.*

*169.Dinəvəridə دز بيزيد. adının yaşayış məntəqəsi adı olduğunu dəqiq demək olmur.Lakin bu sözün ərəbcə olan formasının əvvəlindəki دز -önlüyü ərəabcə “məntəqə” mənasını verir.*

*170.Bax:Təbəri I,s.2615,stk.9-11.*

*171.Bax:İstəhri,s.197.*

*172.Yenə orda,s.2650;Həmədani,s.217-218.*

*173.Bax:Təbəri, Tarix-i Təbəri, c. V, s.1960.*

*174.Bax:İbn Kəsir, əl-Bidayə, c. VII, s. 126. İbn Kəsir, bu orduların Urfa, Hərran, Ərməniyyəni fəth etdiyini və cizyə vermələri şərtiylə yerli əhali ilə əhd bağlandığını qeyd edir.*

*175.Bax:Vaqidi, Fütuh-uş-Şam, s. 175-181.*

*176.Bax:Vaqidi, Fütuh-uş-Şam, s. 175-181; Əhməd ibn Əbu Yəqub əl-Yəqubi, Tarix-i Yəqubi, Beyrut 1960, c. II, s. 150.*

*177.Bax:Bəlazuri, Fütuh-ul-Büldan, c. II, s. 150-151.*

*178.Bax:Bəlazuri, Fütuh-ul-Büldan, c. II, s. 139-140. (Ərdəbil Nəhavənd zəfərindən sonra fəth edilmişdi. H.22.m.643-cü ildə isə Utbə ibn Fərqəd Hüzeyfənin yerinə Azərbaycan valiliyinə təyin edilmişdi. Buna görə də ehtimal ki, Ərdəbil h.21/m.642-ci ilin sonu, h.22/m.643-cü ilin əvvəlində fəth edilmişdi.*

*189.Bax:Təbəri,Tarix-i Təbəri,c. V,s.1961.*

*180.Bax:Təbəri, Tarix-i Təbəri,c.V s.1979;Bələmi,Tarix-i Qozide-yi Bələmi,Məşhəd 1373,s.110.*

*181.Bax:İbn əl-Əsir, əl-Kamil fit-Tarix,c.III,s.27;Təbəri,Tarix-i Təbəri,c.V,s.1979;Bələmi,Tarix-i Qozide-yi Bələmi,s. 110;İbn Kəsir,əl-Bidayə,c.VII,s.202-203).*

*182.Bax:Təbəri,Tarix-i Təbəri,c.V,s.1979;İbn Kəsir,əl-Bidayə,c.VII,s.203.*

*183.Bax:İbn əl-Əsir,əl-Kamil fit-Tarix,c.III,s.28;Təbəri,Tarix-i Təbəri,c.V,s.1980;İbn Kəsir,əl-Bidayə,c.VII,s.203.İbn Kəsir,bu hadisələri nəql edərkən Vaqidi və Əbu Maşərin Azərbaycanın h.22/m.643-cü ildə fəth edildiyi fikri üzərində ittifaq etdiklərini,İbn Cərir ət-Təbəri və digər klassik dövr müsəlman tarixçilərin də bu fikri doğru olaraq qəbul etdiklərini yazır.*

*184.Bax:Bəlazuri,Fütuh-ul-Büldan,c.II,s.140-141.*

*185.Bax:Təbəri,Tarix-i Təbəri,c.V,s.1979;İbn Kəsir,əl-Bidayə vən-Nəhayə,c.VII,s.203;İbnul-Əsir,əl-Kamil fit-Tarix,c.III,s.27-28.*

*186.Bax:Ət-Təbəri,1,2661.*

*187.Bax:Ət-Təbəri,l,960-962;əd-Dinəvəri,səh.72-73.*

*188.Bax:Təbəri,5,s.21.*

*189.Bax:Təbəri,3, c.I, s.250.*

*190.Bax:7,c.III,s.33.*

*191.Bax:Təbəri,3, c.IV, s.154.*

*192.Bax:Əl-Bəlazuri, görünür burada odpərəstlərin Zərdüşt qanunları ilə qardaşın bacıya evlənməsi,habelə ildə bir dəfə qarışıq nikah keçirilməsi kimi ayinları nəzərdə tutub.*

*193.Bax: Ət-təbəri I,2661.*

*194.Bax: Ət-Təbəri.yenə orda 326.*

*195.Bax:Fuad İzzət oğlu Nurullayev.Azərbaycana islamiyyətin gəlişi.səh.7.10.*

*196.Bax: Ət-Təbəri, I, 2666; əl-Bəlazuri, 326; İbn əl-Əsir, III, 22.*

*197.Bax:Əl-Bəluzari.səh.325-326.*

*198.Bax:Əl-Bəluzari.səh.325-326..*

*199.Bax:Əl-Əş`as ibn Qeys-Azərbaycanın ilk ərəb hakimlərindən biri.*

*200.Bax:Azərbaycan tarixi.(XIII əsrin I rübü).Yeddi cilddə.II.cild.səh.135III.Bakı,“E lm”,200 7.*

*201.Вах:Аль-Балузари.Книга завоевания стран.Баку-1927.(Rus dilində)стр.25-26),(Əl-Bəluzari.Kitab Əl-Fütuh.səh.325-326.*

*202.Bax:Ver.Bu məntəqə ehtimal ki,indiki Lənkəran rayonunun Veravul məntəqəsidir.*

*203.Bax:Gərmab –fars.qaynar su,Qamov-tal.qaynar su.*

*204.Bax:Təbəri I,s.2434,stk.9-10;s.2348,stk.11-12;s.2439,stk.11-12;s.2442 stk.1-5.*

*205.Bax:Bəluzari,mətn,s.264;ingl.tərcümə,t.1,s.420;*

*206.Bax: Təbəri I,s.2461,stk.12;s.2456,stk.11-12;s.2457,stk.3-5;s.2458,stk.13;İbn əl-Əsir 2,s.404-405.*

*207.Bax:Təbəri I,s.2671,stk.1-3.*

*208.Bax: James Howard-Johnston, "K̲OSROW II", Encyclopaedia Iranica, (March 15, 2010).*

*209.Bax: Təbəri, Peyğəmbərlərin və hökmdarların tarixi, vol. 2*

*210.Bax: Shapur Shahbazi (1989), BESṬĀM O BENDŌY*

*211.Bax: Pourshariati (2008), pp. 127–128, 131–132*

*212.Bax: Dinəvəri, Akhbâr al-tiwâl, pp. 91-92;*

*213.Bax: HORMOZĀN, A. Shapur Shahbazi, Encyclopaedia Iranica*

*214.Bax: Gumilev L.N. Bahram Chubin, pp. 229 - 230*

*215.Bax: Pourshariati (2008), pp. 131–132*

*216.Bax: Pourshariati (2008), pp. 132, 134*

*217.Bax: Pourshariati (2008), pp. 132–133, 135*

*218.Bax: Pourshariati (2008), pp. 133–134*

## *Mündəricat*

Ön söz........................................................................................1
Proloq.........................................................................................2

## I BÖLMƏ. İŞĞALDAN ÖNCƏ

**1.II Xosrov Pərviz zamanı**.. ..............................................6
2.Taxt üstündə mubariz, III Yezdəgerd..............................6
3.İraqın işğalı... ................ ................ .............................16
4.İran üzərinə yürüş..... ................ ...................................24
5.Adərpayeqan və Taleşan. ..............................................30

## II BÖLMƏ. AĞ SARAY(SEPİDKAH)

1.Rüstəm və Boran............................................................53
2.Basqınların mahiyyəti....................................................56
3.Qəhrəman Rüstəm Fərruxzad.........................................61

## III BÖLMƏ. IŞĞAL

1.Kadisiya faciəsi – Rüstəmin şəhadəti.............................69
2.Ktesifon(Mədain)...........................................................76
3.Yadelli zülmü.................................................................83

## IV BÖLMƏ. İSTİLALAR

1.Adərpayeqanın istilası....................................................90
2.Taleşan və Mukanın istilası...........................................102
3.Bəhramın üsyanı və şəhadəti........................................110
4.İntiqam.Ömərin öldürülməsi - Dəmirçi Pöeroz
(Əbu lullah).................................................................125

5.Cahanşah – Şəhrəbanu(İmam Səccadın anası).............126

**V BÖLMƏ. İŞĞALDAN SONRA.SÜLALƏLƏR**

1.Ali Fərruxzad..............................................................135
2.Bavəndi sülaləsi..........................................................142
3.Kayusiyyə sülaləsi........................................................144
4.İspəhbudiyyə sülaləsi...................................................148
5.Kinəxavəriyyə sülaləsi..................................................149

***Əliyev Aqşin Böyükağa oğlu***

# Bəhramnamə

***I Hissə(Babər qalası)***

***e-mail: akshin_aliyev19@mail.ru \ akshin_aliev19@mail.ru***

***facebook: Akshin Əliyev***

***İnstaqram: AKSHİNALİ16***

***Tel: +994504491568***

Kağız formattı 60x84,Sifariş №340

Tiraj 300